İSİ MƏLİKZADƏ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**İsi Məlikzadə.** Günəşli payız" (Bakı, Yazıçı, 1982) və*
***İsi Məlikzadə.** "Dədə palıd" (Bakı, Yazıçı, 1984) nəşrləri*
*əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **İntiqam Qasımzadə**

Ön sözün müəllifi: **Vaqif Yusifli**

**894.3613 - dc 21**
**AZE**
**İsi Məlikzadə. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, 336 səh.

Ədəbiyyatımıza yeni qəhrəman tipi gətirmiş "60-cılar" ədəbi nəslinin nümayəndəsi olan İsi Məlikzadə müasir Azərbaycan povestinin yaradıcılarından biri, gözəl hekayələr müəllifi kimi tanınır. Onun əsərlərindəki özünəməxsus bədii dünya gerçəkləri – XX əsr Azərbaycan insanını, onun mənəvi aləmini, əxlaqını və yaşayış tərzini aydın və düzgün əks etdirir. Yazıçı həm mövzu, həm mövzunun açılışı, həm də dil vasitələrinin bu mövzu və açılışa qovuşuq şəkildə işlədilməsi baxımından məxsusi keyfiyyətləri ilə seçilir.

Bu kitabda ustad nasirin, doğruları sənət diliylə ifadə edən seçmə povest və hekayələri toplanmışdır.

**ISBN 9952-418-31-8**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# SÖZÜN ÖMRÜ QƏDƏR

İsi Məlikzadə...

Azərbaycan bədii nəsrinin XX əsrdə yetirdiyi söz ustalarından biri... Ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi deyim tərzi, yolu və üslubu olan bir sənətkar... Gözəl hekayələr müəllifi... Müasir Azərbaycan povestinin yaradıcılarından biri... Bədii nəsrində ən doğru həqiqətləri sənət dililə ifadə edən, XX əsr Azərbaycan ziyalısının, kəndlisinin obrazlarını yaradan ustad nasir... Neçə bədii filmin ssenari müəllifi...

Və nəhayət, heç vaxt xatirələrdən silinməyən, yaddaşlarda yaşayan əziz dost, gözəl insan. 35 illik bir yaradıcılıq yolu keçdi İsi. Onu şəxsən tanımayanlar, maddi və mənəvi qayğılarından xəbərsiz olanlar üçün xoşbəxt sənətkar idi. Bu təsəvvürü İsi Məlikzadə öz zəngin yaradıcılığı, sözünün qədir-qiymətiylə qazanmışdı. Ancaq bu xoşbəxt sənətkar İsi Məlikzadə 35 ildə heç də rahat və firavan, mənəvi itkilərsiz yaşamayıb. Tay-tuşları, hətta ondan cavanlar fəxri adlar, təltiflər içində üzüblər, o isə başını aşağı salıb yazıçı-əkinçi ömrünü yaşayıb. Əslində həyatın, yaşayışın mənası, yazıçı ömrünün mahiyyəti kimsədən pay ummamaq, zəmanə adlanan qara divlə üz-üzə gəlmək, bu amansız mübarizədə "mən bir həqiqətəm, heç deyiləm" məramını təsdiq etmək deyilmi? İsi Məlikzadə bu mübarizədən qalib çıxdı...

Təsadüf elə gətirib ki, mən İsi Məlikzadənin yaradıcılığı ilə bağlı bir neçə məqalə yazmışam, onunla müsahibə aparmışam, eyni redaksiyada – "Azərbaycan" jurnalında işləmişəm. Yalnız hekayə və povestlərindən tanıdığım və sevdiyim İsi Məlikzadə ilə ünsiyyətim məndə belə bir fikir yaradıb ki, İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında necə də bir doğmalıq var. Sanki o, öz ömrünün ayrı-ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi bütün əsərlərində özünü yaradıb. Ancaq eyni zamanda o qəhrəmanların hər biri də öz ömrünü yaşayıb. "İki günün qonağı"ndakı mühəndis İslam sanki İsinin özüdür, "Quyu"da, "Yaşıl gecə"də, "Günəşli payız"da, "Dədə palıd"da, "Gümüşgöl əfsanəsi"ndə də təsvir olunan qəhrəmanlar İsinin mənəvi dünyasından güc almışlar. Əgər biz keçən əsrin 50-90-cı illər Azərbaycan mənəvi mühitini, Azərbaycan ziyalısının və kəndlisinin həyat və məişətini, duyğular aləmini daha yaxından izləmək istəsək, heç şübhəsiz, İsi Məlikzadənin bədii nəsri və bu nəsrin qəhrəmanları



əlimizdən tutacaq, ən yaxın bələdçimiz olacaq. Mənim İsi ilə ünsiyyətim, birgə işlədiyimiz illərdə onunla bu və ya digər dərəcədə təması onu həm də bir insan kimi tanımağa, duymağa kömək elədi. Və mən baxıb gördüm ki, İsi özü bir insan kimi hər hansı bir əsərin baş qəhrəmanı ola bilər.

Bu BAŞ QƏHRƏMAN Ağcabədidə dünyaya göz açmışdı. Atası Abbas kişi çox baməzə adam imiş. İsidəki o lətifə damarı, baməzəlik, adamı qəşş edincəyə qədər güldürmək məharəti İsiyə qandan keçmişdi. O, ixtisasına görə neft-qaz mühəndisi idi, mədəndə operator, yerüstü avadanlıq ustası, mühəndis işləmişdi. Ancaq özü də hiss eləmişdi ki, onu başqa bir aləm cəlb edir və 1966-cı ildən taleyini ədəbiyyata bağlamışdı. Heç bir filoloji təhsili olmayan İsinin ilk hekayəsi çap olunanda (1960) 26 yaşı vardı. Ədəbiyyat aləmində kimsə onu tanımırdı. "Baxmadı getdi" adlı ilk hekayəsində o, bir oğlanla bir qızın görüşünü təsvir etmişdi. Elə hekayənin adından onun süjeti də məlum olur. O hekayəni İsi "Azərbaycan gəncləri" qəzetinə vermişdi və ona demişdilər ki, hekayən sabah qəzetdə çıxacaq, qəzet köşkünə gedib ala bilərsən. İsi sevinirdi və uçmağa qanadı yox idi. Səhərə qədər yata bilməyən İsi səhər sevinc içində, ayaqları titrəyə-titrəyə köşkə getmişdi... Amma hekayəsini qəzetdə görə bilməmişdi. Bu minvalla düz altı ay gözləmişdi... Hekayə çap olundu, amma İsi Məlikzadə yox, İsi Məmmədzadə imzası ilə...

Ədəbi mühitdə onun ilk tanıdığı şəxslər Fərman Kərimzadə, Əlibala Hacızadə və Vasif Nəsiboğlu olub. O zaman redaksiyalara getməyə utanırdı, fikirləşirdi ki, adlarını eşitdiyi və pərəstiş etdiyi Mehdi Hüseyni, Mirzə İbrahimovu, Əbülhəsəni görsə harada qaçıb gizlənəcək. O illərdə ədəbi mühitdə "qocalarla" "cavanlar" arasında əsl hədd-hüdud var idi, ağsaqqalın qədir-qiyməti uca tutulurdu. İndiki kimi deyildi. Bir dəfə İsi düz iki saat bulvarda Süleyman Rəhimovu seyr etmişdi, onun dənizə necə baxmasına, aralı durub gəzişməsinə heyran-heyran tamaşa etmişdi.

El arasında belə bir söz var: "Yetimə yiyə duran çox olar". İsinin ilk yazılarının çapında Sabir Əhmədlinin, Salam Qədirzadənin, Əliağa Kürçaylının böyük köməyi olmuşdu. Amma o vaxtlar yazıya ciddi yanaşırdılar, hər cızma-qaraçını çap eləmirdilər və görünür, bu ağcabədili balasında istedadı hiss eləmişdilər ki, ona qahmar durdular.

İsinin mənsub olduğu ədəbi nəsil o dövrün (60-cı illərin) gənc yazıçıları hesab edilirdi. Yazmaq, çap olunmaq heç də asan, maneəsiz deyildi. Axı canlı klassiklər yaşayırdı – Azərbaycanın sovet dövrü nəs-

rinin təməlini yaradan Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı. Digər tərəfdən, artıq yaradıcılığının bəhrəli çağlarını yaşayan İsmayıl Şıxlı, İsa Hüseynov, Sabir Əhmədli, Bayram Bayramov kimi tanınmış yazıçılar vardı. Bu iki ədəbi nəslin əhatəsində sadəcə olaraq başqa bir yol yox idi, ya gərək onları təqlid edəydin, ya da öz yolunu müəyyənləşdirəydin.

Və İsinin mənsub olduğu ədəbi nəsil ikinci yolu tutdu.

***

Ədəbiyyatda "altmışıncılar" ədəbi nəsli barədə, onların ədəbi-tarixi missiyası haqqında söz-söhbətlər, mübahisələr indi də səngimək bilmir. Kimsə onların rolunu həddindən artıq şişirdir, kimsə onları inkar edir. Lakin nə həddindən artıq şişirtməyə, nə də inkar etməyə lüzum yox. Fakt və həqiqət budur ki, əllinci illərin sonlarından başlayaraq Azərbaycan ədəbiyyatında, xüsusilə bədii nəsrində yeni bir abhava duyulurdu, bunu mərhələ də adlandırmaq olar və əslində, belədir. Hələ 60-cı illərin əvvəllərində Mehdi Hüseyn yazırdı: "Mən cəsarətlə deyə bilərəm ki, bədii nəsrimizdə də, şerimizdə də biz yeni bir mərhələyə qədəm qoymuşuq. Bu mərhələnin artıq qəti bir mövqe tutduğunu iddia etmək üçün tələsməyə ehtiyac yoxdur. Ən mühüm cəhət budur ki, həmin mərhələyə keçməyin tarixi labüdlüyünü bütün ədəbi ictimaiyyətimiz hiss etməkdədir. Həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında nə isə daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyl göstərməyin özü heç də az əhəmiyyətli deyildir".

Əlbəttə, Mehdi Hüseyn kimi "klassik" üslubda yazan bir sənətkarın belə düşünməyi səbəbsiz deyildi. Mehdi Hüseyn təbiətən yeniliyi duyan yazıçı idi. 60-70-cı illər Azərbaycan bədii fikrindəki bu tərəqqi rus, gürcü, eston, qırğız və s. xalqların nəsrində də bariz nəzərə çarpırdı. Dünya ədəbi prosesində baş verən yeniləşmələr də bu prosesi sürətləndirirdi. Çox sonralar – XX əsr Azərbaycan tənqidinin sonuncu mogikanı Yaşar Qarayev də həmin fikri təsdiqləyəcəkdi: "Qətiyyətlə demək olar ki, 60-70-ci illər, bütünlükdə cəmiyyətimizin ideoloji həyatında olduğu kimi, ədəbiyyat sahəsində də əvvəlki dövrlərdən fərqlənən öz yeni, məxsusi "mərhələ xüsusiyyətlərini" yarada bilmişdir".

Ədəbiyyatda, xüsusilə bədii nəsrdə yaranan bu yeni meyllər və tendensiyaları təkcə bir ədəbi nəslin yaradıcılığına müncər etmək



doğru olmazdı. Bütünlükdə ədəbiyyatın özü yeniləşməyə başlayırdı və bu mərhələni bütün ədəbi nəsillər yaradırdı. Diqqət yetirsək, görəcəyik ki, Mirzə İbrahimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev kimi "baniyikar"ların yaradıcılığı da əvvəlki yazdıqlarından fərqlənirdi, ilk povestləri 50-ci illərdə çap edilən və ədəbi aləmdə elə bir reaksiya doğurmayan İsa Hüseynov tamam başqa bir yazıçı olmuşdu, İsmayıl Şıxlı, Sabir Əhmədli yeniliyi vaxtında duymuşdurlar. Anar, Elçin, Maqsud İbrahimbəyov, İsi Məlikzadə, Əkrəm Əylisli, Fərman Kərimzadə kimi gənc nasirlər isə birbaşa fərqli, özünəməxsus ədəbi düşüncə nümayiş etdirirdilər.

Bədii nəsrdə əvvəlki illərdən fərqli olaraq insanın mənəvi-əxlaqi dünyasının təsvirinə meyl və maraq artmışdı, şəxsiyyət başlanğıcı, ədəbi qəhrəmanın hərtərəfli (həm müsbət, həm də mənfi) təsvirinə meyl, onu bütün mürəkkəbliyi ilə canlandırmaq səyi getdikcə aparıcı xəttə çevrilirdi. Bir janr kimi roman – vüsətli, epik roman xətti tədricən öz yerini yığcam povest janrına verirdi. 60-70-ci illər Azərbaycan nəsri üçün bu mənada povestin çiçəklənməsi mərhələsi oldu. Lakin ən başlıcası bu idi ki, ədəbiyyatda reallıq, həyat həqiqətinin təsviri üstünlük təşkil edirdi. "Müasir həyat haqqında artıq köhnəlmiş təsəvvür və ifadə vasitələri ilə yazmağın mümkün olmaması qənaətinin doğurduğu qüvvətli, səmərəli axtarış ruhu, yeni vəzifələrə uyğun gələn fərqli orijinal estetik boyalar tapmaq cəhdi bədii fikrin inkişafının mahiyyət və istiqamətini müəyyən etdi və xoşbəxtlikdən həmin təmayül gənc nəslin də yaradıcılığında başlıca xüsusiyyətə çevrildi" (Akif Hüseynov).

İsi Məlikzadə yaradıcılığına öncə məhz bu kontekstdən yanaşmaq lazımdır. Lakin ədəbi əsərləri qiymətləndirərkən təkcə onların yarandığı, araya-ərsəyə gəldiyi dövrü əsas götürmək və həmin dövrdən çıxış etmək məhdudluğa aparıb çıxarardı. Yazıçını yaşadan əlbəttə, ilk növbədə, onun əsərlərindəki bədii dünyanın özünəməxsus yaranışıdı. Bu bədii dünya real dünyanın sözdə təcəssümüdür. İsi Məlikzadənin yaratdığı dünya XX əsr Azərbaycan gerçəkliyidir və bəlkə ən doğrusudur. Azərbaycanşünaslar üçün XX əsr insanını, onun mənəvi dünyasını, əxlaq və yaşayış tərzini, ictimai mövqeyini açıqlamaq, bu xüsusda söz demək üçün ən gərəkli mənbələrdən biri də İsi Məlikzadənin əsərləri olacaq.

İ.Bexer məqalələrinin birində yazırdı: "Yeni incəsənət heç vaxt yeni formalardan başlamır, həmişə yeni insanla doğulur".

İsi Məlikzadə və onun mənsub olduğu "altmışıncılar" ədəbi nəsli ədəbiyyata məhz yeni qəhrəman tipini gətirdilər.

***

"Evin kişisi" povestində İsi Məlikzadə adi bir insanın – sıravi milis işçisi Qaçayın həyatını təsvir edir. Qaçay öz hərəkətləri və davranışı ilə sovet ədəbiyyatının "müsbət qəhrəmanı" tipi ilə heç cür uyuşa bilməz. Çünki o, mənfiliklərə qarşı mübarizə apara biləcək qəhrəman səviyyəsində deyil. Hətta Qaçay "müsbət qəhrəman"a xas olmayan avam və sadəlövh düşüncə tərzilə gülüş də doğurur.

Rəisi Qaçayı ironiya ilə "Koroğlu" adlandırır, lakin Qaçay nəinki Koroğlu, heç onun dəlilərindən də deyil. Amma Qaçay daxilən saf və təmiz insandır. O, kiminsə qarşısında əyilir, sınır, amma bu təmizlik onu tərk etmir. Məsələ burasındadır ki, Qaçay tipli insanlar ədəbiyyatın qəhrəmanı olmamışdılar. Onların adi həyat tərzi, gün-güzəran ağırlığı, maddi və mənəvi qayğıları ədəbiyyatın predmetinə çevrilməmişdi. Təsadüfi deyil ki, "Evin kişisi" çap olunandan sonra bəzi tənqidçilər "Bu necə qəhrəmandır? Bu qəhrəman niyə passivdir?" deyə haray qopardılar. Lakin unudulurdu ki, ədəbi qəhrəmanın tipləri müxtəlif ola bilər və Qaçay kimi insanlar isə həyatda, reallıqda mövcuddurlar. İsi Məlikzadə isə süni şəkildə Qaçaya "müsbət qəhrəman" pasportu, "mübarizlik" vəsiqəsi bəxş etməmişdi.

Lakin əlbəttə, İsi Məlikzadənin yaratdığı ədəbi qəhrəmanların heç də hamısı Qaçaya oxşamır. Qaçay sadəcə olaraq təmiz və mənəviyyatlı insanların bir nümunəsidir. Bu qəhrəmanların hamısının qarşısında istisnasız və tərəddüd eləmədən "işıqlı" sözünü bədii təyin kimi işlətmək mümkündür. Lakin İsi Məlikzadənin təsvir etdiyi bu işıqlı insanların hər birinin öz fərdi dünyası, mənəvi aləmi var. Və İsi Məlikzadə hər bir qəhrəmanı təsvir edəndə özünəməxsus bədii boyalar, təravətli ifadə vasitələri tapa bilmişdir.

"İki günün qonağı" povestindəki İslam 60-70-ci illərdəki mühüm əxlaqi-mənəvi bir problemin – kəndlə şəhər münasibətlərinin mənzərəsini canlandırır. Lakin əlbəttə, bu povestdə İsini elmi-texniki tərəqqi ilə şərtlənən zahiri cəhətlər deyil, məsələnin mənəvi aspekti cəlb etmişdi. İnsan öz doğma ocağından – doğulduğu kənddən, təbiətin qoynundan ayrılır, şəhərə üz tutur və bir də... geri qayıda bilmir. Qayıdanda isə "iki günün qonağı" olur.

***

İsi Məlikzadənin təsvir etdiyi KƏND keçən əsrin 60-90-cı illərindəki Azərbaycan kəndidir. İsi bu kəndi yaxşı tanıyırdı və yaxşı tanıdığı üçün də özündən heç nə uydurmurdu. O, kəndi idealllaşdırmırdı, özündən əvvəlki yazıçılardan fərqli olaraq bu kəndin ordenli-medallı, şöhrətli qəhrəmanlarından söz açmırdı (onsuz da bu mövzuda onlarla əsərlər yazılmışdı). İsi bu kəndin ağrı-acılarından, mənəvi baxımdan ekoloji tənəzzülündən, kənddə yaşayan insanların müxtəlif qayğılarından danışırdı. Bu baxımdan onun üç povestini xatırlatmaq kifayətdir: "Quyu", "Yaşıl gecə" və "Dədə palıd".



Elçin Əfəndiyev "Quyu" müəllifinə məktub göndərmişdi və həmin məktubda yazırdı ki: "Bu məktubun əsas səbəbi Sizin "qazdığınız" "Quyu"dur və lap əvvəldən deyim ki, yaxşı "quyu" qazmısınız, suyunun "nət kimi şipşirin, göz yaşı kimi dumduru" olması barədə bir söz deyə bilmərəm, amma bu quyu bədii psixoloji mənada gələcəyin daha dərin "Quyu"larından xəbər verir, Sizin yaradıcılığınızdakı inkişafı, bədii-estetik kamilliyə doğru keyfiyyət dəyişikliyini əyani şəkildə göstərir". Elçin həmin məqaləsində İsi Məlikzadənin "bədii cəhətdən dürüst və aktual" yaratdığı ayrı-ayrı obrazlardan söz açır, bu povesti İsi Məlikzadə yaradıcılığında irəliyə doğru böyük addım hesab edir və sonda yazırdı: "Sizin povestiniz bir daha sübut edir ki, məxsusi bədii estetik boyalarla – yeni keyfiyyətli təhkiyə, orijinal təsvir vasitələri ilə dövrün mürəkkəb ictimai – əxlaqi problemlərini qaldıran və həll edən "altmışıncı illər nəsli" doğrudan da elə bir yetkinlik dövrünə gəlib çatmışdır ki, ən uca tribunalardan belə özünü ifadə və təsdiq edə biləcək bədii qüdrətə malikdir".

"Quyu"da İsi Məlikzadə yetmişinci illər Azərbaycan kəndinin mənəvi-əxlaqi mənzərəsini əks etdirirdi. Əlbəttə, demək olmaz ki, bu mənzərə tam və bütöv idi, amma tam və bütöv olmasa da, real idi, inandırıcı idi, yalan deyildi. İsinin təsvir etdiyi insanlar – Umud, Məcid kişi, kolxoz sədri Xalıq, onun arvadı Əsli, qızı Solmaz, qoca anası və bu ailəyə məhrəm olan Piri bir obraz kimi son dərəcə təbii idilər – bütün müsbət insani keyfiyyətləri və qüsurları ilə birgə. Quyu sözünün özü də simvolik, rəmzi bir məna daşıyırdı və oxucu əsil quyu qazanlarla QUYU QAZANLARI seçib fərqləndirə bilirdi.

Povestin qəhrəmanı Umud səviyyəcə, anlaq tərzi etibarilə mübariz deyil və bunu heç ondan tələb eləmək də doğru deyil. Lakin onun içindəki saflıq, mənəvi təmizlik son anda qəti qərar qəbul etməsinə gətirib çıxarır:

"İçini sızıldadan o qəribə qorxunun səbəbini Umud anlamağa çalışırdı: Solmazı itirmişdi, Solmaza olan məhəbbətini itirmişdi: birdənbirə, qəflətən. Daha onu qarşıda böyük, xoş əzablar gözləmirdi.

Umud özünü bir boşluqda, bir heçlikdə sandı. Qəhərlənə-qəhərlənə fikirləşdi ki, Solmaz doğrudan da onun arvadı ola bilər. Əsli öz qızını yola gətirib onun evinə köçürə bilər, ancaq belə asan, hazır məhəbbət Umudun nəyinə gərəkdir?".

Beləliklə, Umud – İsi Məlikzadənin gənc və kövrək qəhrəmanı ona qazılacaq QUYUdan xilas olur, hazır səadətdən, xoşbəxt güzərandan imtina edir.

İsi Məlikzadənin "Yaşıl gecə" povestindəki Qərib də eyni yolu seçir. Fərq burasındadır ki, Umud üçün yol açıqdır – o, artıq özünü dərk edib, bundan sonra həyatda özünü bir şəxsiyyət kimi təsdiq etməyə çalışacaq. Qərib isə o dünyalıqdır, mənən saf və təmiz olan bu insanın fiziki qüvvəsi tükəndi. "Dədə palıd"dakı Nurcabbar isə təbiət aşiqidir. Lakin təbiətə bu vurğunluğu təkcə heyranlıqla bağlamaq doğru olmazdı, burada həm də rəmzi bir çalar var. Nurcabbar təbiətlə insan harmoniyasının pozulduğunu, insanın təbiətə qəsd etdiyini böyük ürək ağrısı ilə dastana, nağıla çevirir: "Quruyacaq Dədə palıd, ayaq üstə can verəcək..." İsinin bu povestində bir haray var – təsadüfi deyil ki, Dədə palıd mişarlananda Nurcabbar da meşəni, təbiəti tərk edir.

* * *

Doxsanıncı illərdə İsi Məlikzadə "Qırmızı şeytan" povestini yazdı. Bu povestdə o, illərdən bəri içində püskürən qəzəb və etirazını, yaşadığı cəmiyyətdən narazılığını bədii sözlə ifadə etdi.

...İsi Məlikzadənin – görkəmli Azərbaycan yazıçısının yaratdığı SÖZ DÜNYASI yaşayır. Onun əsl ömrü həmin SÖZ DÜNYASInın ömrü qədərdir...

*Vaqif Yusifli*



# POVESTLƏR

## EVİN KİŞİSİ

Çəkmənin mıxı laxlayıb dikəlmişdi, Qaçayın dabanın deşirdi. Qaçay sağ ayağının pəncəsini tez qoyub, tez də götürürdü. Bədəninin bütün ağırlığı bir qılçının üstünə düşmüşdü. Ona elə gəlirdi ki, göynəyən, zoqquldayan dabanından qan axır. Mıx ətinə batdıqca sanki onun xırçıltısını da eşidirdi. Oğlanın ixtiyarı çatsaydı, elə burada – yolun kənarında oturub, ayağına bir nömrə böyük olan zil qara çəkmələrini çıxardar, gücü gəldikcə qolazlayıb atardı. Qaçay inanırdı ki, mayor Sahibov onu bu vəziyyətdə görsə acıqlanar: "Milisioner gərək qıvraq olsun! Ombasını çəkən adamdan nə milisioner?". Qaçay qəddini düzəldib, yan-yörəsinə baxdı: ətrafda kimsə görünmürdü. Çəpərlərdə gizlənən cırcıramaların yeknəsəq, bezikdirici səsindən başqa səs eşidilmirdi. Yerdən burula-burula qalxan qızmar ilğım pərdəsindən savayı heç nə tərpənmirdi. Oğlan dabanının ağrısını bir anlığa unutdu. Boynunun, çiyninin istidən yandığını indicə hiss etdi. Yadına cürdək suyu düşdü. Bu dəqiqə artırmada dayanıb onun yolunu gözləyən bacısını xatırladı. Bilirdi ki, Ağca uzun lüləkli iri aftafaya su töküb, tiftikli təmiz məhrəbanı sütundakı mıxdan asıb. Qaçay darvazadan girən kimi qız aftafanı götürüb hazır dayanacaq. Qaçay yuyunub qurulananda bacısı deyəcək: "Kəkotulu çay da dəmləmişəm, quyuya cürdək də sallamışam. Hansından verim?". Qaçay səhərdən axşamacan həyət-bacada əlləşən, bekar dayananda darıxan bacısının azacıq kobudlaşmış, qaralmış əllərinə, solğun bənizinə, dərinliyində güclə seziləcək bir kədər gizlənən iri qonur gözlərinə baxacaq və belə anlarda fikirləşdiyi sözləri yenə ürəyində təkrarlayacaq: "Allah Ağcanın baxtını açsın... Ağcadan bir dənədi".

Qaçay addımlarını yeyinlətdi. Daha dabanı ağrımırdı, deyəsən, keyimişdi. Ancaq nəfəs ala bilmirdi, ağzını açan kimi isti hava dilini-dilçəyini yandırırdı. O, əsgərlikdə keçirdiyi günləri xatırladı. Uzaq diyarda dizəcən qara batdığı vaxtlarda bu qızmar günəşi nə qədər arzulamışdı? Sazaqdan donmuş barmaqlarını ağzına tutub hovxuranda aran günəşinin bircə saatlıq istisi üçün burnunun ucu göynəmişdi...

Lap yaxınlığında maşın siqnal verdi. Qaçay bu gur, qəfil səsdən diksinib başını qaldırdı. Yaşıl "Volqa" düz üstünə gəlirdi. O, maşını da

tanıdı, sükandan təkəlli yapışmış qara eynəkli, qıvrımsaç oğlanı da. Tez dala çəkildi. Oğlanın şüşə arxasında sürətlə yaxınlaşan yumru sifəti bircə anlığa nəzərinə çarpdı və onun azacıq aralı, qalın dodaqlarında istehzalı təbəssüm gördü. "Volqa" Qaçayın yanından yel kimi ötdü. Aləmi qatı toz dumanı bürüdü. Qaçay, yolun sinəsindən qabarıq dalğalanan bu ağ-sarımtıl örtüyün içində itdi. Nəfəsini udub, gözlərini bərk-bərk yumdu. Eynəkli oğlanın aralı, ətli dodaqları sanki Qaçayın bəbəklərinə həkk olunmuşdu; zülmət qaranlıqda da onu görürdü...

Maşın çoxdan getmişdi, toz da çəkilmişdi, ancaq Qaçay yerindən tərpənmirdi. Ağzında palçıq tamı vardı. Tüpürdü: "Rastlaşarıq, Pənah, eybi yoxdur". Üst-başını çırpa-çırpa yoluna düzəldi. Tərəddüd içində yeriyirdi. İstəyirdi geri qayıdıb Pənahı tapsın, yaxasından yapışıb onunla haqq-hesab çəksin: "Di get. Bir də mənim yanımda lovğalanma! Nə olsun ki, sən Baxışın oğlusan?! Nə olsun ki, atan raykoopittifaqın sədridir? Mən də milisionerəm". Qaçay fikirləşdi ki, bütün bunları Pənahın üzünə deyəndən sonra onun iri gözlüklü qara eynəyini də alıb sındırsın. Eynəyi olmasa Pənah belə qudurmaz, lovğalanmaz...O, təəssüflə ah çəkdi. Anladı ki, Pənahın yaxasından yapışa bilməyəcək. Onun eynəyini sındıra bilməyəcək. Buna haqqı çatmaz. Axı, necə sübut etsin ki, Pənah onu toza verib?! Bunun üçün adamı cəzalandırmırlar. Birdən Pənah da onun boğazından yapışdı: "Bura bax, yol tozludur, mənə nə? Təyyarə sürmürəm ki, göylə uçam?". Onda hamı Qaçayı qınayacaq. Hətta Sahibov da: "Bala, işə girən günü sənə nə dedim? Demədim ki, milisioner gərək dözümlü, səbirli olsun? Demədim ki, milisioner gərək qanun-qaydanın keşiyində dursun? Zəhmətkeşlərin əmin-amanlığını qorusun? Ən başlıcası: milisioner öz müdirinin hörmətini, şərəfini yüksək tutmalıdır. Demədim bu sözləri qulaqlarında sırğa elə?". Əlbəttə, demişdi. Sədrəddin Sahibov rayon daxili işlər şöbəsinin rəisidir, bu vəzifədə saç-saqqalını ağardıb. Qaçay onun tövsiyəsini sırğa eyləyib qulaqlarından asmışdı və bu sırğaları çıxarıb atmaq, itirmək istəmirdi.

O, dar aralığa girdi. İndi Əntiqəgilin evinin yanından keçib, tini burulacaq və öz həyətlərinə girəcək. Hər dəfə burdan ötəndə kərpic barının arxasında it hürürdü. Elə bil Qaçayı ayaqlarının səsindən tanıyırdı. Əntiqə, zəncirlə mıxa bağlanmış itə acıqlanar, sonra da barıdan boylanardı. Bir anlığa Qaçayla göz-gözə gülər, gülümsəyib çəkilərdi. Qaçay, bu bir anlıq təbəssümün hərarətini bütün günü ürəyində gəzdirərdi. Əntiqəni tez-tez yuxuda görərdi. Yuxusu da itin hürməyilə başlayardı.



O, nəzərlərini hasarın üstünə dikdi və nədənsə Pənahın aralı, ətli dodaqları yenə gözlərinin qarşısında dayandı. Özü üçün qaranlıq, müəmmalı qalan sirrin düyününü tapıbmış kimi, təəccüblə qaşlarını çatdı. Elə bil Qaçayın uzaqdan baxdığı bu qaranlıq aləmdə birdən günəş doğdu və hər şey zülmət pərdəsindən çıxdı, hər şey açıq-aydın göründü. Pənahın onu toza basmağının səbəbini indicə anladı: "Əntiqəyə görə!".

Qaçay kərpic barıya çatdı. Qorxdu ki, birdən it onun gəldiyini duymaz. Çəkmələrinin tozunu çırpırmış təkin ayaqlarını yerə bərk-bərk vurdu. Sağ dabanından sızıltı qopdu. "Andır mıx" – deyib ufuldadı. Barının arxasında əvvəlcə zəncir cingildədi. Sonra it yava-yava hürdü. Qaçay addımlarını yavaşıtdı: "İtdə həvəsə bax, bu istidə gör necə hürür". O, arzuladığı həsrətini çəkdiyi səsi eşitdi: "Ay it! Sənə partlama dəysin!". Barının bir neçə kərpic düşmüş yerində iki ağ əl göründü. Nazik barmaqlar üstdəki kərpici qamarladı, gərildi. Qaçay daxilində xoş bir əsməcə, zəiflik duydu. Bu süstlük onun sinəsindən qopub bütün bədəninə yayıldı... Yenə göz-gözə gəldilər. Yenə bircə anlıq təbəssüm! Və hər şey yuxu kimi qəflətən dağıldı, yox oldu. Təkcə bu təbəssümün hərarəti qaldı onun ürəyində...

Qaçay doqqazdan girib, quyuya tərəf getdi. Dizinin birini yerə qoyub, hamar, nazik ipdən yapışdı. Dartdı. Elə bildi ki, cürdək əlinə çatanacan aylar, illər keçəcək və onun gücü, səbri tükənəcək. O, yanlarından su damcılayan saxsı qabı qucağına qoydu. İslanmış əsgi tıxacı çıxartdı. Cürdəyi əllərinin arasında tutub, onun dəyirmi ağzını qurumuş, qaysaqlanmış dodaqlarına dirədi. Nəfəsi tıncıxana qədər içdi. Çənəsinə, boğazına tökülmüş suyu əlinin dalı ilə sildi. Qanrılıb artırmaya baxdı. Ağca gözlərinə dəymədi. Ancaq uzun lüləkli aftafa da yerində idi, tiftikli məhrəba da.

Qaçay tut ağacının kölgəsindəki taxta çarpayıdan mütəkkəyə dirsəklənmiş atasının yanına getdi. Onun ayaq tərəfində oturub furajkasını dizinin üstünə qoydu. Kişi tərpəndi, boz-bulanıq gözlərini göyə dikdi.

– Gəldin? – deyə soruşdu.

Neçə illərdən bəri dünya işığına həsrət qalmış Mikayıl, oğlunu sanki nəfəsindən tanıyırdı. Bəzən Qaçaya elə gəlirdi ki, atası azacıq da olsa görür. Həyətdəki şeyləri elə bil öz əli ilə qoymuşdu, nəyi götürmək istəsəydi, düz üstünə gedirdi.

Oğlan ağacın kölgəsinə yığılmış qarğı qomuna, təzəcə hörülmüş səbətə baxdı. Atasındakı səbrə, həvəsə heyrət etdi. Onun hədərə gedən zəhmətinə heyfsiləndi. Axı, qarğı səbət kimin nəyinə lazımdır? Kişi bütün günü bardaşqurma oturub səbət hörürdü. Həyət də, ev də, damın üstü də səbətlə dolu idi. Ağacların budaqlarından da asmışdılar, qonşulara da paylamışdılar, yenə də artırdı, yığıb-yığışdıra bilmirdilər.

Kişi tütün qutusunu açıb asta-asta papiros eşdi. Oğlan onu harayasa boşluğa zillənən, ağı qarasına qarışmış gözlərinə nəzər saldı. Bəbəklərini görmədi... Kişi papirosu damağına qoydu. Kibrit dənəsi götürdü. Şəhadət barmağını papirosun ucuna vurub tuşladı. Sonra yandırdı. Tüstü onun saralmış bığını yalaya-yalaya sifətinə yayıldı. Qaçay atasının tüklü üzündə, qaramtıl dodaqlarında qəribə təbəssüm sezdi. Sanki kişinin pərdəli, bulanıq gözləri də nurlanmışdı. Hər dəfə papirosu sümürdükcə dodaqları titrəyirdi. Qaçay başa düşdü ki, atası nəyəsə sevinir, onun qəlbinin illərlə qaranlıq qalan guşəsində nəsə bir işıq doğub. Yoxsa Mikayılın həmişə hərəkətsiz kimi görünən göz qapaqları belə tez-tez çırpılmazdı, dodaqları belə titrəməzdi. Kişi təzədən mütəkkəyə dirsəkləndi. Başını tutub gülümsədi. Qaçay atasının qaralmış, xırda seyrək dişlərinə baxdı və onun tüklü sifətində, donuq gözlərində dolanan təbəssümün səbəbini anlamadı. Furajkasını çarpayının üstündə qoyub qalxdı. Gəlib artırmanın xambalasında oturdu. Çəkmələrini çıxartdı. Ağrıyan dabanına baxdı. Qanamamışdı, ancaq azacıq didilib qaralmışdı.

– Yuyun, a bala.

Qaçay anasının nə vaxt yaxınlaşdığını hiss etməmişdi. Arvad aftafanı qaldırdı. Qaçay ovcunu su ilə doldurub üzünə çırpdı. Boynunu, boğazını yudu. Mıxdan asılmış təmiz məhrəbanı götürdü.

– Ağca gözümə dəymir.

Arvad azacıq duruxdu. Dönüb örtülü qapıya baxdı. Oğlanın narahatlığı, şübhəsi artdı. Məhrəbanı çiyninə saldı:

– Hanı Ağca? Xəstələnib, nədi?

Cavahir oğlunun dözümünü yoxlayırmış kimi susurdu. Qaçayın nigarançılıq dolu nəzərlərlə onu süzdüyünü görüb gülümsədi. Anasının bu təbəssümü oğlanın olan-qalan səbrini tükəndirdi. Nəhayət, Cavahir başı ilə örtülü qapıya işarə elədi:

– Evdədi.

– Neyniyir?

– Dədən sənə bir söz demədi?



– Yox.

– Ağcaya elçi gəlib.

Qaçay anasının sözlərini tezliklə qavraya bilmədi. Məhrəbanı mıxdan asdı:

– Nə elçi? Kimdən gəlib?

– Cahiddən.

Oğlan qaşlarını çatıb fikirləşdi. Deyəsən, bu adda, Ağcaya elçi göndərə biləcək bir adam yadına düşmədi. Başını buladı. Cavahir sanki qızının eşidəcəyindən ehtiyat edərək səsini alçaltdı:

– Xanəndə Cahidi tanımırsan? Qonşuluğumuzda, Bikəgildə olur. İki-üç aydı gəlib bizim rayona. Əsli-nəsli burdan deyil.

Qaçayın qəlbini narahatlıq qarışıq bir sevinc bürüdü. Həmişə Əntiqəgilin evinə yaxınlaşarkən sinəsindən qopub bütün bədənini çulğayan süstlük yenidən baş qaldırdı. Bilmədi özünü necə aparsın, anasının qəfil xəbəri müqabilində nə desin. Kürəyini sütuna söykədi. Taxta çarpayıda mütəkkəyə dirsəklənmiş atasına baxdı. Bayaq kişinin qaramtıl dodaqlarında, bulanıq gözlərində dolanan titrək təbəssümün səbəbini anladı. "Demək, Ağca bu evdən köçəcək". Daha günortalar artırmada dayanıb qardaşının yolunu gözləməyəcək. Daha uzun lüləkli mis aftafanı su ilə doldurmayacaq, quyuya cürdək sallamayacaq. Əbəs yerə deməyiblər ki, qız köçəri quşdur... Qoy getsin Ağca. Yəqin ki, kobudlaşıb qaralmış əllərinin dərisi ağaracaq, bənizindəki solğunluq çəkiləcək, gözlərinin dərinliyində gəzdirdiyi kədər əriyib itəcək.

Oğlunun sütuna söykənib fikrə daldığını görən Cavahir daha heç nə demədi, heç nə soruşmadı. Artırmada qoyulmuş dördkünc stolun üstünə süfrə saldı. Yemək gətirdi. Qaçay kətili altına çəkib oturdu. Qaşığı əlinə alıb boşqabdakı dovğanı könülsüz, həvəssiz içməyə başladı. O, ürəyini qəflətən bürümüş qarma-qarışıq, narahat hisslərdən baş aça bilmirdi. Axı, özündən altı yaş böyük olan bacısının bəxtinə birdənbirə gün doğmuşdu? Ər evi görməkdən ümidini, əlini çoxdan üzmüş Ağcaya bu gün elçi gəlmişdi? Qaçay niyə sevinmirdi? İnanırdı ki, indi bacısı divarın arxasında, onun bir neçə addımlığında oturub qardaşından gizlənir. Yəqin qorxur ki, Qaçayın qarşısında sevincini büruzə verə bilər. "Bəlkə heç Ağca sevinmir? Bəlkə Cahidə getməyə razı deyil?". Qaçayın ürəyindən keçdi ki, qızın özünü danışdırsın. Lakin hiss etdi ki, bu dəqiqə o, Ağcanı görmək istəmir, onunla göz-gözə gəlmək istəmir. Nədənsə indi bacısından utanırdı.

Qaçay qalxdı. Çəkic götürüb artırmanın qabağına tulladığı çəkmənin içində dikələn mıxı döydü.

Dolaşıq, narahat fikirlər milis idarəsinə qədər ondan əl çəkmədi. Ata-anası bu məsələyə necə baxır? Ağcanın öz qərarı nədir? Niyə Qaçay bunları soruşmadı, öyrənmədi?.. Həm də o, Cahidi yaxşı tanımırdı. Təkcə onu bilirdi ki, oğlan hardansa bu rayona təzə gəlib. Qonşuluqda, Bikəgildə olur. Bikənin oğlu kamança çalan Süleymanla dostdur və birlikdə toylara gedirlər. Özü də, deyəsən, Ağcadan çox yaşlıdır. Bir də onu bilirdi ki, Cahid də Süleyman kimi heç yanda işləmir. Deyirdilər, yaxşı səsi var, amma Qaçay onun oxumağını eşitməmişdi.

O, hündür daş hasara çatanda üst-başına diqqət yetirdi. Furajkasını düzəltdi. Qamətini şax tutub, qırmızı rəngli taxta qapını açdı... İdarənin qabağındakı uzun skamyada Sahibov əyləşmişdi. Canəli ondan azacıq aralıda oturub nəsə danışırdı. Qaçay yaxınlaşıb əsgəri salam verdi. Sahibov xırda, qara muncuqlu təsbehini sağ əlindən sol əlinə keçirtdi. Qaçayın tozlu çəkmələrinə baxdı:

– Gəldin, Koroğlu? – Yenə üzünü Canəliyə tutdu. – Hə, sonra nə oldu?

– Sonra, nəçənnik, İsrayıl atəş açıb, Misir də cavab verib.

– Misir yox, ərəblər.

– Elədi, nəçənnik, ərəblər. Hər iki tərəfdən ölən də var, yaralanan da.

Sahibov nəzərlərini barmaqlarının arasında tək-tək saydığı qara muncuqlara tikdi.

– Daha nə oxumusan, Canəli?

– Vyetnamlılar genə samalyot vurublar. Kişi adamdılar, nəçənnik, o boyda Amerikaynan dör-dör döyüşürlər.

Qaçay çəkilib kənarda dayandı. Bilirdi ki, bu sual-cavabın sonu necə qurtaracaq. Bilirdi ki, Canəli qəzetlərdən oxuduğu vacib xəbərləri sadalayandan sonra lap axırda deyəcək: "Ölkənin daxilində də vəziyyət yaxşıdır, nəçənnik. Təsərrüfat planları artıqlaması ilə yerinə yetirilir". Sahibov təsbehinə baxa-baxa xeyli susacaq. Nəhayət, qayğılı görkəm alıb gümüşü başını yırğalayacaq:

– Qəzet oxumağa vaxt da tapmıram. İşim o qədər gərgindir ki...

Canəli də milisioner idi. Sahibov bu rayona rəis gələndən bəri onun bir qayğısı da artmışdı. Hər gün qəzetləri diqqətlə oxuyub, məzmununu Sahibova danışırdı. Canəli bu xidmətindən zövq alırdı və yəqin ki, onu qınayan olmasaydı, qəzet oxumağın özünün əsas vəzifəsi hesab eləyərdi.



Qaçay, indi rəisin yanında oturub sivri çənəsini əsdirə-əsdirə danışan bu kişiyə baxdı. Yadına qarışqa düşdü. Canəli də zirəklikdə, işgüzarlıqda qarışqaya bənzəyirdi. Bütün günü əlləşirdi, bütün günü tələsirdi və həmişə də vaxtın azlığından şikayətlənirdi. O, gah milis idarəsinin həyətindəki ağaclara qulluq edir, gah sınmış pəncərələrə şüşə salır, gah da barının sökülmüş yerini hörürdü. Canəli əvvəllər milis şöbəsinin arabaçısı idi. Atları həmişə tumarlı, qotazlı olardı. Onun arabasını uzaqdan tanıyırdılar: "Gepezenin arabası gəlir!" "Gepeze" sözünün mənasını Qaçay onda bilmirdi, indi də bilmir. İllər keçdi, bu söz aradan çıxdı. Canəlinin atları da, arabası da küçələrdə görünmədi. Canəli qiyafəsini dəyişdi, belinə tapança bağladı. Qaçay gözlərini açıb onu bu boyda, bu biçimdə görmüşdü. Canəli qocalmırdı, artıb-əskilmirdi. Həmin cüssəsiz, balaca, arıq adam idi. Dərisi işıldayan sümüklü üzündə əvvəllər də təkəm-seyrək tüklər bitirdi, indi də elə bitir. Uşaqlıqda da keçəl idi, indi də keçəldi. Əvvəllər də furajkasını boynuna qədər basardı, indi də basır. Bircə şey dəyişmişdi; Canəli daha araba sürmürdü. Milis idarəsindəki yanı beşikli motosikletin birini ona vermişdilər...

Sahibov təşbehini şalvarının cibinə qoyub qalxdı. Üzünü Qaçaya tutub gülümsədi:

– Koroğlu, işlərin necədir?

Qaçay əllərini yanına salıb, dabanlarını cütləşdirdi:

– İşlərim yaxşıdır, yoldaş mayor!

– Sayad bacın zəng eləmişdi. Bir bizə baş çək, gör nə deyir.

Qaçay sevindi ki, Sahibov onu özünə yaxın, doğma sanır. İdarədə adam çox idi. Budur, milisionerlərin biri girib, biri çıxır, ancaq mayor, deyəsən, Qaçaya ürək qızdırır. Bu fikirdən oğlanın ürəyi dağa döndü.

O, qapıdan çıxanda milis idarəsini "QAZ-69"u yolda dayandı. Rəisin müavini Nuru Nəsirli maşından düşdü. Nüfuzedici, parlaq gözlərini oğlanın üzünə dikdi. Qaçay özünü yığışdırdı. O, az danışan, həmişə fikirli görünən bu cavan müavindən çəkinirdi. Nəsirli nəsə demək istədi, ancaq özünü saxladı. Onun ağ bənizində təəssüfə bənzər bir ifadə gəzdi. Başını aşağı salıb getdi.

Qaçay tələsirdi. İri çəkmələri asfalt səkidə taqqıltı qoparırdı. Elə bil Nuru Nəsirlinin narazı baxışları onu arxadan itələyirdi. O, hiss edirdi ki, rəislə müavinin münasibətlərində nəsə bir soyuqluq var. Bu soyuqluq bəzən Nuru Nəsirlinin bircə hərəkətində, bir kəlmə sözündə

özünü büruzə verirdi. Qaçay müavini anlaya bilmirdi. Niyə hamının sevdiyi, hörmət etdiyi Sahibovdan onun xoşu gəlmir?

Qaçay fikirləşirdi ki, Sahibov onu hətta ölümə də göndərsə, o yenə bax beləcə, tələsə-tələsə gedər. Axı, rəis yumşaqürəkli, mülayim, qayğıkeş adamdır. Kədərli bir əhvalat eşidəndə gözləri yaşarır. Canəli nahaq yerə demir ki, Sahibov peyğəmbərdir, bizim nəçənniyimiz yox, atamızdır. Düz deyir Canəli. Əgər elə olmasaydı, rəis Qaçaya "oğlum" deməzdi, onu zarafatla "Koroğlu" adlandırmazdı...

Qaçay rəisgilin həyətinə girdi. İkimərtəbəli evin qabağında – kölgədə bir qalaq kötük yığılmışdı. Oğlan nə üçün çağırıldığını başa düşdü. Keçən şənbə də burada odun yarmışdı...

O, furajkasını çıxartdı. Yaşıl köynəyini soyunub ağacın budağından asdı. Ovcuna tüpürüb baltanı götürdü. Kötüyün birini ayağı ilə dikəltdi. Baltanı başının üstünə qaldırıb var gücü ilə endirdi: Taqq!!

Eyvanda səs eşidib əl saxladı:

– Gəlmisən? Yuxarı qalxıb çay içəydin, sonra...

– Sağ olun, Sayad bacı, çay içmişəm. – Qaçay, dolu bədənli, hündür qadına baxıb utana-utana gülümsədi. Sayadın saçlarına çoxdan dən düşmüşdü. Qaçay ona "xala" da deyə bilərdi, "ana" da. Ancaq Sahibovun sözləri yadında idi: "Sayad bacın zəng eləmişdi". Deməli, "bacı!" Sayad onu daha da yaşlı göstərən enli saya xalatının ətəyini yellədə-yelləd̶ə otağa keçdi.

Qaçay baltanı təzədən qaldırıb endirdi. Balaca, yastı kötük ortadan bölündü.

Otaqdan piano səsi gəldi. Çalan Sahibovun qızı idi, Gülxar. Keçən dəfə Qaçay odun doğrayanda Gülxar piano çalırdı. Qız Bakıda oxuyurdu. Xarici diLlər İnstitutunda. İndi yay tətilinə gəlmişdi.

Oğlan baltanı çiyninə qoyub, otaqdan dalğa-dalğa axıb gələn səsi dinlədi və indi qəflətən kövrəlmiş, yumşalmış ürəyində bir arzu doğdu: "Kaş Əntiqə də belə piano çala biləydi".

Qaçay anladı ki, dayanıb musiqiyə qulaq assa, axşama qədər heç iki kötük yara bilməyəcək. Balta təzədən işə düşdü.Yarmaçalardan qopan taqqıltı pianonun xoş sədasına qarışıb yad səs kimi eşidildi. Tər oğlanın boynundan, boğazından süzülüb sinəsinə, kürəyinə axırdı. Kötüklər bir-birinin ardınca parçalanırdı. Keçən şənbə Sahibov həyətə girəndə Qaçayın doğradığı odun qalağına baxıb təəccüblənmişdi. Əlini onun çiyninə qoymuşdu: "Sən lap Koroğlusan ki!" Elə o vaxtdan



rəis onu Koroğlu çağırırdı. Qaçay ilk dəfə bu sözü eşidəndə diksinmişdi. Elə bilmişdi ki, "kor Mikayılın" oğlu olduğu üçün Sahibov ona "Koroğlu" deyir. İncimişdi. Ancaq rəisin qarabuğdayı sifətinə, xırda sakit gözlərinə yayılan təbəssümü görüb arxayınlaşmışdı. İnanmışdı ki, Sahibov onu ələ salmaq, onun qəlbinə dəymək fikrindən çox-çox uzaqdır... Koroğlu! Yaxşı addır! Qoy hamı onu elə çağırsın. Ancaq bir şey Qaçaya aydın deyildi: o vaxtlar Koroğlu da odun doğrayıb, ya yox? Koroğlunun dövründə belə balta, belə yastı kötüklər olub, ya yox?

İndi Koroğlu yadına düşəndə Qaçay əsgərlikdəki türkmən dostu Nurmurad Çarıyevi xatırladı. Onun yanında Koroğludan bir-iki ağız oxumuşdu. Nurmuradın gözləri kəlləsinə çıxmışdı. "Koroğlu?! Sən onu hardan tanıyırsan? Koroğlu bizim igiddir!" Qaçay gülmüşdü: "Bəlkə onun sevgilisi Nigar sizinkidir?" Nurmurad yumruğunu sinəsinə vurub səsini qaldırmışdı: "Ay-vay-ey, Qaçay jan, men yılanmı neme?" Nurmurad badamı xırda gözlərini qıyıb, əl-qolunu ölçə-ölçə danışmışdı. Dediyindən dönməmişdi. Koroğlu bizimkidir, vəssalam! Koroğlu türkməndir. Hətta Türkmənistanda qəbri də var. Nurmurad özü də o qəbri ziyarət eləyib. Nurmurad demişdi ki, hər il payız girəndə Koroğlu günbatan tərəfdə bir dəfə görünüb yenə yox olur. Qılıncını fırlada-fırlada buludların arasında at çapır. Həmin gün adamlar pis əməllərdən əl çəkirlər. Hamı Koroğlunun qəzəbindən qorxur... Qaçay çaş-baş qalmışdı. Necə yəni Koroğlu türkməndir? Axı, ona demişdilər ki, Koroğlu azərbaycanlıdır. Onun oxuduğu kitabda da belə yazılmışdı. Aşıq Məhəmməd toylarda "Koroğlu" dastanını neçə dəfə nağıl eləmişdi. Aşıq Məhəmməd Nurmuraddan az bilir? Yox, Koroğlu azərbaycanlıdır, məskəni də Türkmənistan yox, Çənlibel olub. Əgər Qaçaya desəydilər ki, sənin atan Mikayıl ingilisdir, yapondur, yaxud həbəşdir, bəlkə də inanardı. Amma Koroğlunun türkmən olduğuna heç cür inana bilmirdi.

Qaçay elə buradaca odun yara-yara düşündü ki, o da Sahibovun nəzərində Koroğludur. Oğlan baltanı kötüyə sancıb gülümsədi: "Onda Canəli də keçəl Həmzədir. Görəydim Sahibov Canəliyə baxanda keçəl Həmzə yadına düşürmü?".

O, xörəyini yeyib qurtarınca anası yanında oturdu. Qaçay bir-iki dəfə qərəzləndi, ağzını doldurdu ki, Cavahirlə Ağca barədə danışsın. Ancaq ürəyi gəlmədi. Bu qorxaqlığına, cəsarətsizliyinə özü də təəccüb etdi. Gözlədi ki, söhbətə anası başlasın. Cavahir də dinmirdi. Süf-

rənin saçaqlarını didişdirə-didişdirə oğluna baxırdı. Qaçay anlayırdı ki, anası narahatdır, gec-tez dillənməlidir. Deyəsən, məqam gözləyirdi. Bu məqamı, bu imkanı Qaçay yaratmalı idi.

O, süfrədən çəkildi. Artırmada qoyulmuş açılıb-yumulan çarpayıya uzandı. Əllərini başının altında çarpazlayıb fikrə getdi... Bu gecə Ağcanın tək-tənha oturduğu otaqda elektrik lampası yandırılmamışdı. Bu gecə dəmir şəbəkəli qoşa pəncərədən işıq süzülmürdü: artırma da, həyət də qaranlıq idi. Ancaq bu qaranlığın, tut ağacının altındakı taxta çarpayıda yatan Mikayıl kişiyə heç bir dəxli yox idi. Bəlkə də yatmamışdı,vaxtı keçmiş qızının taleyini, sabahını fikrində götür-qoy edirdi.

Cavahir stolun üstünü yığışdırandan sonra gəlib oğlunun yanında dayandı. Cırıltılı köhnə kətili altına çəkib oturdu. Qaçay tez dikəldi. Arvad balaca, soyuq əlini onun sinəsinə ehmalca qoydu:

– Dincəl, bala, dincəl. Yorğunsan...

– Bağışla, ana. – Qaçay yenidən uzandı.

Cavahir yarıyacan ağ pərdə çəkilmiş qaranlıq pəncərəyə baxıb köks ötürdü:

– Günorta bir söz demədin, a bala. Məsləhətin nədi?

– Nə deyim, ana? Ağcanın böyükləri sizsiniz.

– Evin kişisi sənsən.

Qaçay diksindi. Bu dəqiqəyə qədər o özünü uşaq sanmışdı. İyirmi iki yaş nədir ki? Üzünə ağıllı-başlı tük də gəlməmişdi. Hələ gözləyirdi ki, heç vaxt ülgüc vurdurmadığı seyrək, yumşaq bığı sıxlaşacaq, codlaşacaq və o, kişiyə oxşayacaq. Qaçayın ürəyini qəribə bir sevinc bürüdü. Qaranlıq tavana zillədiyi gözlərini yumub-açdı. Nə tez böyüdü Qaçay? Cəmi bir ay bundan qabaq o, işsiz gəzəndə evin kişisi Mikayıl idi. İndi kişilik yükü Qaçayın çiyninə düşüb. Oğlan birdən xoflandı. Üç adamın taleyi üçün daşıdığı məsuliyyətin ağırlığından qorxdu.

– Fikriniz nədir? – deyə soruşdu və səsindəki titrəyişi boğa bilməməyinə təəccübləndi. – Siz razısınız?

– Razıyıq.

Anasının tələm-tələsik qərara gəlməyi oğlanı acıqlandırdı. "Ağcanı başlarından eləmək istəyirlər. Kim olur-olsun, təki ər olsun, təki Ağca bu evdən getsin. Heç bilmirlər ki, Cahid kimdir, hansı yuvanın quşudur? Ağcaya layiqdirmi?".

Cavahir oğlunun fikrini duyubmuş kimi dilləndi:



– Bikə çox tərifləyir oğlanı. Deyir ki, qanacaqlıdı, başıaşağıdı. Heç kimi yoxdu. İndi əl-ayağını bir yerə yığıb evli-eşikli olmaq istəyir. Fağır bir dəfə evlənib, baxtı qara gəlib. Arvadı ölüb.

– Demək, dul kişiyə verək Ağcanı?

– Bəs neynəyək?

Qaçay anasını bu acizanə, bir qədər də əsəbi sualının əsil mənasını başa düşdü. Bu böyüklükdə rayonda Ağcaya meyl salan, yaxın duran adam tapılmayıb. Görəsən, oğlanların gözləri hara baxırmış?

Cavahir əllərini dizlərinin üstünə qoyub astadan danışırdı:

– Cahid məsələni yubandırmaq istəmir. Fikri var ki, payız girən kimi toy eləsin. Payıza nə qalıb? Bir ay! Bikə də deyir ki, gərək Ağcanı dəm-dəsgahnan köçürəsiniz. Deyir, bu saat oğlanın əlində-ovcunda bir şey yoxdu. Gərək Ağcanın cehizi tutarlı olsun ki, babat güzəran qura bilsinlər... Bikə otağın birini hələlik verib Cahidə. Sonra Cahid özü ev tikdirəcək... Gərək Bikə deyən kimi eləyək. Mebel alaq, özü də importnı.

– Özümüzünkü olsa, keçməz?

– Bikə dedi ki, mebel importnı olsa yaxşıdı... İndi dəbdi. Bir də ki, a bala, kimdən əksiyik? Gözümüzün ağı-qarası vur-tut bir qızdı. Abırlı-ismətli köçürsək, Allaha da xoş gedər. Ağcanın ürəyi sınıqdı. Onun taylarının dörd-beş uşağı var... Sandığım doludu, qızın heç nədən kəsiri yoxdu. Təkcə importnı mebeli çatmır... Çarəmiz nədi, a bala? Cehiz vermək dədə-baba adətimizdi. Cehizsiz köçən qızın dili gödək, gözü kölgəli olar.

Arvad çox gözlədi, oğlundan səs çıxmadı. Nəhayət, əsl mətləbini dedi:

– Gör neyləyirsən, oğul... Mebeli deyirəm...

Qaçay yuxudaymış kimi fikirləşmədən cavab verdi:

– Yaxşı, ana, qoy səhər açılsın.

Bu sözləri elə dedi ki, guya mebeli harasa öz əliylə qoymuşdu, sabah gedib götürəcəkdi.

***

Qaçay işdə qərar tuta bilmirdi. Mebel tapacağını boynuna götürdüyü üçün özünü dönə-dönə danlayırdı. Necə alacaq, hansı pulla alacaq? Axı, qulluğa girdiyi cəmi bir aydır, hələ əlində, ovcunda heç

nə yoxdur. Məgər anası Qaçayın vəziyyətindən bixəbərdir? Niyə bu ağırlığı onun üstünə atdı? Mebel qoz-fındıq deyil ki, gedib bazardan ucuz alasan?...

Qaçay özünə toxtaqlıq verməyə çalışırdı. Nəyəsə arxayın idi. Sanki göydən ovcuna pul düşəcəkdi. Axırda bu qərara gəldi ki, bəd ayaqda kimdənsə borc götürmək olar. Sonra qaytarmaq asandır. Məvacibini də yığar, atasının əlillik pensiyasını da. Üst-üstə qoyub borcunu verər. O, Ağcanın xatirinə hər çətinliyə, hər əzaba dözər.

Qaçay günortaya yaxın Sahibovdan icazə alıb idarədən çıxdı. Raykoopittifaqın anbardarı Tapdığın yanına gəldi. Eşitmişdi ki, Tapdıq xoşxasiyyətdir, xeyrə-şərə yarayandır.

– Bir diləyə gəlmişəm, Tapdıq dayı.

Kişi dəmir həlqəyə keçirtdiyi topa açarları ovcunda bərk-bərk sıxıb, dəyirmi iri gözlərini oğlanın ağzına zillədi:

– Mən qulluğunda hazır.

– Sizdə importnı mebel var? – Qaçay, anbardarın enli sinəsinə baxıb, fikirləşdi ki, Tapdıq bu boyda, bu ağırlıqda bədənini qısa ayaqlarının üstündə necə gəzdirir.

Kişi əllərini arxasında qoşalaşdırıb açarları cınqıldatdı:

– Kəsdiyimiz çörək haqqı, importnı mebellərin adı çıxıb. Özümüzünkülərin nəyi pisdi? Mağaza doludu, bilmirəm niyə almırlar.

– Mənə importnı mebel lazımdır, Tapdıq dayı. Vacibdir.

Kişi köks ötürdü. Tərləyib qarnına yapışmış, koftaya oxşayan ağ köynəyinin yaxasını iki barmağı ilə tutub dartdı, yeriyəndə titrəyən ətli ovurdlarını hava ilə doldurub sinəsinə üfürdü.

– Anbarda yoxdu. Kəsdiyimiz çörək haqqı! Neçə aydı almırıq. Bolqarski mebel gəlməlidi. Gözləyirik.

– Birini mənə verərsinizmi?

– Sədri gör, bala. İmportnı mebelləri Baxış özü paylayır. O, razılıq versə, mən nə karayam? Get yanına, müzayiqə eləməz. Mənə tapşırsa, gələndə bir komplekt saxlayaram.

* * *

Qaçay içəri girəndə Baxışın yanında beş-altı adam vardı. Hamısı da ayaqüstə dayanmışdı. Sədr oğlana başı ilə stul göstərdi. Qaçay əyləşdi. Baxış qarşısındakı kağızlara dördrəngli qələmlə tələm-tələsik qol çəkirdi. İmzası yaman uzun idi, vərəqin yarısını tuturdu.



Oğlan, ömründə birinci dəfə girdiyi bu geniş, işıqlı otağa nəzər saldı. Sədrin sağ tərəfində hündür, dəmir seyf qoyulmuşdu. Dolabçanın üstündə həsir şlyapa vardı. Baxışın geyim-keçimdə səliqəli olduğunu Qaçay bilirdi. Ütüsüz şalvar geyinməzdi. Cürbəcür qalstuklar bağlayardı. Baxışın sifətində azacıq çopur vardı. Sümüklü uzun burnunun ucundakı xırda göyümtül xalı elə bil tuşla döymüşdülər. Qaçay sədrin qaramtıl sallaq dodaqlarına baxdı və bədənindən üşütmə keçdi. Pənahın dodaqları! Qaçaya elə gəldi ki, indi burda oturub sinəsini parıltılı uzun stola söykəyən Pənah özüdür. Ancaq qara eynəyini taxmayıb. Oğlanın qulaqlarında yaşıl "Volqa"nın siqnalı guruldadı. Gözlərinin qabağında toz dumanı qalxdı. Bu dumanın içində hər şey itdi; müşəmbəli qalın qapı da, hündür dəmir seyf də, dolabça da. Ayaqüstə duran adamlar da ağ örtüyə büründülər. Bu sonsuz ağlığın fonunda təkcə Baxışın qələmi möhkəm tutan uzun qara barmaqları donub qaldı.

Qaçay alnını ovxalayıb, sədrin burnunun ucundakı göyümtül xala baxdı. Otaqda ikisindən başqa heç kim yox idi. Oğlan bura gəlməyinə peşman olmuşdu və qəlbində qəflətən baş qaldırmış bu hissi boğmağa çalışırdı. Boğdu bu hissi. Ürəyindən çıxarıb, bayaq gözlərinə görünən ağ pərdənin arxasına atdı... Baxışın çay qumu rəngində olan sifətinə yayılmış təbəssüm Qaçayı cəsarətləndirdi. Dili topuq çala-çala mətləbini dedi. Sədr, ona axıracan danışmağa macal vermədi:

– Mütləq. Mütləq tapşıraram Tapdığa. Demək, evlənirsən? Mübarək!.. Mübarək!

– Hələ evlənmirəm. Hazırlıq görürəm.

– Əlinin içindən gəlir. Lazımdı... Lazımdı... Atan necədi? Çoxdandır kişidən xəbər tuta bilmirəm. Mən ona borcluyam... Ömrüm boyu... Kişiyə de ki, onun yaxşılıqlarını unutmamışam. – Sədr barmaqları ilə stolu döyəclədi və Qaçay başa düşdü ki, söhbət artıq qurtarıb...

O, Baxışın kabinetindən sevincək çıxdı. Sanki bütün müşkül işləri bu müşəmbəli qapının arxasında yerli-dibli həll olunmuşdu. Pul haqqında, borc haqqında heç fikirləşmək də istəmirdi. İndi göy onun gözlərinə başqa rəngdə görünürdü. Beyni də, ürəyi də işıqla dolmuşdu: "Dünyada nə qədər yaxşı adam varmış... Sahibov... Baxış... Tapdıq... Lap elə Canəli də. Nə olsun ki, keçəldir".

Qaçay ayaqlarının altını görmürdü. Fikri Ağcanın yanında idi. Düşünürdü ki, günorta yeməyinə gedəndə atasını da, anasını da sevindi-

rəcək. Otaqda gizlənən bacısı bu xoş xəbəri eşidib şadlanacaq. Ancaq utandığından qardaşını bağrına basa bilməyəcək. Qaçay bir evin kişisi olduğuna yavaş-yavaş inanmağa başladı. Bəs necə? Əgər elə deyilsə, niyə Baxış onun təvəqqesini yerə salmadı, niyə Tapdıq sözünü ağzında yarımçıq qoyub geri qaytarmadı? İkisi də ədəb-ərkanla onu dinlədi, onun üzünə gülümsədi. Bəlkə əynindəki mundirinə görə onunla xoş danışdılar? Qoy olsun! Mundir də kişiliyin bir nişanəsidir!

Sədrin son sözləri onunçün qaranlıq qalmışdı. Baxış dedi ki, ömrüm boyu atana borcluyam. Dedi ki, onun yaxşılıqlarını unutmamışam. Nə borc? Nə yaxşılıq? Rayonun bütün ticarət işləri əlində olan bir adama, o boyda idarənin böyüyünə kor Mikayılın hansı yaxşılığı keçə bilər? Bəlkə Baxış səhv edir? Bəlkə Qaçayı kiminləsə dəyişik salıb? Hə, bir də dedi ki, çoxdandır kişidən xəbər tuta bilmirəm. Axı, Baxış nə vaxt Mikayılın qapısını açıb? Yadına gəlmirdi Qaçayın. Qətiyyən yadına gəlmirdi. Bəlkə Mikayıl, doğrudan da nə vaxtsa Baxışın dadına yetib. Axı, Mikayıl əvvəllər kor deyildi. Çörəkxanada işləyirdi. Yəqin o, adamlara yaxşılıq eləyəndə Qaçay bu dünyada yoxmuş.

O, bazar başına çatdı. Bir cərgədə düzülmüş xırda dükanların qabağında yaşıl "Volqa" gördü. Arxa şüşəsinə ipək pərdə çəkilmişdi. Nömrəsinə baxmadı, onsuz da tanıyırdı.

Pənah dərzixanadan gülə-gülə çıxdı. Qoltuğunda qəzet bükülüsü vardı. Qara eynəyi gözlərində idi. Balacaboy, çil-çil dərzi onu maşına qədər ötürdü. Pənah "Volqa"ya əyləşdi. Maşın asta-asta uzaqlaşdı.

Qaçayın əhvalı pozuldu. Bayaqkı sevinci elə bil ürəyindən çıxıb çınqıl daşlarla dolu yola səpələndi, üstündən Pənahın yaşıl "Volqa"sı keçdi. "Mebeli nəynən alacağam?" Maşını görməsəydi, bu zəhlətökən sual bəlkə də beynində dolanmayacaqdı. Günah Pənahdadır, onun yaşıl "Volqa"sındadır, qara eynəyindədir. Niyə o, tez-tez Qaçayla rastlaşır? Sanki Pənah bir neçə nüsxə idi, rayonun hər künc-bucağında bir Pənah dayanmışdı. Niyə çəkilib ev-eşiyində oturmur, küçələrdə nə iti azıb? Bakıda instituta girmişdi. Deyilənə görə müəllimlə dalaşıb, üçüncü kursdan qovublar. Qaçaydan iki yaş böyükdür, hələ əsgərliyə getməyib. Heç harda işləmir, amma "Volqa"sı var. "Eh, nə döyərdim Pənahı" – deyə Qaçay fikirləşdi, guya bununla bütün işləri düzələcəkmiş. O hiss edirdi ki, ürəyində bir acıq baş qaldırıb. Bu qəfil acığın səbəbi özünə də məlum deyildi. Təkcə onu bilirdi ki, hirslənmək üçün Pənah bir bəhanədir.



Yanı beşikli motosiklet tırıltı qopararaq körpüdən keçib ona doğru gəlirdi. Aləmi başına götürmüş gurultudan Qaçayın əsəbləri lap tarım çəkildi. Əlini qaldırdı:

– Saxla!

Motosiklet düz onun qarşısında dayandı. Gicgahlarına dən düşmüş orta yaşlı kişi motosikletin səsini azaltdı. Günəşdən qamaşan gözlərini qıyıb gülümsədi:

– Xoş gördük.

– Nə səs-küy qaldırmısan? Bu arabanı sürməsən olmaz?

– Buna da min şükür. Ayaqlarımı yerdən götürür.

Kişi çox arıq idi, onu görə də adını "Pazaq Vəli" deyirdilər. Lap cavanlığından poçt şöbəsində işləyirdi. Bu motosikletlə gəzmədiyi yer qalmamışdı. Sorağı gah Şəkidən, gah Bakıdan gəlirdi. Hər şənbə günü Şuşaya qalxıb, İsa bulağının suyundan içirdi. Vəli həm də yaxşı ovçu idi. Tez-tez quş vurmağa, balıq tutmağa gedirdi.

Qaçay beşiyə tərəf adladı. Tarım çəkilmiş brezent örtüyün ucundan tutub qaldırdı. Beşikdə dolu meşin çanta vardı.

– Bu nədir?

– Balıq.

– Hardan tutmusan?

– Ağ göldən. Meylin çəkirsə bir-ikisini götürə bilərsən. Peşkəşdir.

– Satmağa aparırsan?

– Yox, canım, balalarıma aparıram.

– Bilmirsən ki, balıq tutmaq qadağandır?

Vəli hələ də gülümsəyirdi:

– Nə qadağa, canım? Balıqdır də. Dən vermirlər, ot-ələf yedizdirmirlər, öz-özünə törəyib artır.

Deyəsən, bu sözlərdən Qaçayın xoşu gəlmədi. Qaş-qabağını salladı. Yadına düşdü ki, milis idarəsində işləyən müddətdə hələ bir adam da tutmayıb.

– Milisə gedəcəyik, Vəli!

Kişi bilmədi onun dediklərinə inansın, ya yox.

– Boşla, canım, nə milisbazlıqdır?

– Gedəcəyik! Ağ göldən balıq tutmaq qadağan olub!

Vəli, oğlanın qınmından anladı ki, o, əl çəkməyəcək. Daha gülümsəmədi:

– Mən neyləmişəm, axı? Balığa nə qadağa? Buna qadağa qoyanın kəlləsi xarab olub. – Şəhadət barmağını gümüşü gicgahına dirədi.

Qaçay əsəbiləşdi. Görəsən, bu adamlar günahlarını niyə başa düşmürlər? Buna bir bax! Dövlətin malın dağıdır, hələ özünü təmizə də çıxarmaq istəyir. Qanun hamı üçün qanundur!

Qaçay Vəlinin tərkində oturdu:

– Sür milisə!

Kişi başını çiyni üstdən döndərib tərs-tərs ona baxdı:

– Ə, məni milisnən qorxuzursan?! Xəlvətdə lum-lum udanları gözünüz görmür?! Onlara gücünüz çatmır, eləmi?!

– Sür, sənə deyirəm!

Vəli hirslə tüpürüb sükandan yapışdı. Motosiklet yerindən necə sıçradısa, Qaçay az qaldı arxası üstə yıxılsın. Əl atıb Vəlinin çiyninden bərk-bərk tutdu...

Milis idarəsinin həyətinə çatan kimi Qaçay beşikdəki meşin çantanı götürdü. Pazaq Vəli skamyada oturan milisionerləri görüb səsini qaldırdı:

– Buna bax! Tutmağa adam tapıb!

Pilləkəndə dayanan Canəli onu sakitləşdirməyə çalışdı:

– Bircə səbir elə. Hay-küy lazım döyül. Gəl içəri görək, nə əngəl qaynatmısan.

Vəlini boş otaqlardan birinə apardılar. Vəli Qaçayın küncə tulladığı meşin çantaya bir təpik ilişdirdi:

– Əşi, bundan ötrü adam tutarlar, hayy?!

– Qışqırma, ə, bura bazar döyül. – Canəli ona stul göstərdi. – Otur! Cavab ver görüm...

Vəli onun sözünü ağzında yarımçıq qoydu:

– Nə cavab verim, ey! Caniyəm mən?!

Canəli onun çənəsinin altında dayanıb ciddi görkəm aldı:

– Mən indi səni danışdıraram. – Gözlərini Vəlinin üzünə zilləyib köynəyinin sağ qolunu yavaş-yavaş çırmalamağa başladı. Pazaq Vəli təəccübdən yerində donub qaldı. Boğazının nazik dərisini az qala deşib çıxan hülqumu tez-tez enib qalxdı. Qaçaya baxdı və rəngi qaçdı. Qorxdu ki, Canəli birdən onu vurar. Vəli hirsindən titrəyən əlini çənəsinə çəkdi. Boğuq səslə, qırıq-qırıq dedi:

– Ağlını başına yığ, ə. – Gülümsəməyə çalışdı, ancaq bunun əvəzində yanaqları səyridi. Baxışlarında açıq-aydın qorxu, xəcalət oxunan Vəlinin nəzərləri, ayaqlarını aralı qoyub, qolunu çırmalayan Canəlinin işıldayan üzündə gəzdi.



Qaçayın ürəyini narahat bir hiss bürüdü: "Birdən vurar?" Canəlinin xırda gözlərinin kənarlarında bic bir təbəssüm sezdi. Onun biləyindən ehmalca yapışıb, əlini aşağı saldı.

Qapı açıldı. Sahibovu kandarda görəndə elə bil Qaçayın üstündən dağ götürüldü. Rəis sakitcə soruşdu:

– Nə olub? Nə məsələdi?

Canəli cəld cavab verdi:

– Tutmuşuq, nəçənnik.

Sahibov üzünü Vəliyə çevirdi:

– Gəl yanıma.

Vəlini rəisin otağına ötürdülər. Sahibov Qaçayın məlumatını dinlədikdən sonra başı ilə ona işarə elədi: "Gedə bilərsən".

Qaçay uzun dəhlizdə Canəli ilə rastlaşdı. Onun qolundan yapışdı.

– Pazaq Vəlini doğrudan vurmaq istəyirdin?

Yenə həmin bic təbəssüm Canəlinin xırda oynaq gözlərində dolandı:

– Mən ömrümdə adam vurmamışam. Qorxuzurdum onu. Nəçənnik gəlməsəydi, Pazağı lap betər qorxuzardım. – Gülüb geri döndü. Qaçay onun boynunun ardına baxdı. Yanıq yerinə oxşayırdı.

Vəli bir neçə dəqiqədən sonra Sahibovun kabinetindən çıxdı. Rəngi hələ də ağappaq idi. Qaçayın ulduzsuz, işarəsiz bomboz poqonlarına baxıb, tez də üzünü nifrətlə döndərdi...

Qaçayı rəisin yanına çağırdılar.

Sahibov ona stul göstərdi. Sonra qarşısındakı qovluqları üst-üstə yığıb kənara qoydu. Əlini cibinə salıb təsbehini çıxartdı. Qara muncuqları saya-saya fikrə getdi. Gözləri yol çəkə-çəkə dilləndi:

– Sayıq olmaq yaxşı şeydir...Ancaq kiçik bir məsələni şişirtmək, ittiham dərəcəsinə gətirib çıxarmaq yaramaz. Pazaq Vəlinin günahından keçmək də olar, keçməmək də. Madam ki, keçmək olar, onda niyə keçməyək?

Mayor susdu. Qaçay onun gözlərindən heç nə anlamadığı üçün cavab vermədi. Fikirləşdi ki, Sahibov bu idarənin rəisidir, məsələni necə istəsə elecə də həll eləyə bilər. Qaçayla məsləhətləşməyə borclu deyil. Ancaq o, adi bir milisionerlə hesablaşır, qərarını ona aydınlaşdırır. Canəli doğru deyib: "Sahibov peyğəmbərdi, bizim nəçənniyimiz yox, atamızdır".

Rəis təsbehini stolun üstünə qoydu. Çeçələ barmağının ucu ilə ətli çənəsini ehmalca qaşıdı, sanki dərisinin cızılacağından ehtiyat edirdi.

– Biz Pazaq Vəlini tuta da bilərdik. Amma bundan cəmiyyətə nə fayda? Borcumuz elələrini tərbiyə eləməkdi. Biz onu cərimə elədik, danladıq. Günahını dedik, o da başa düşdü... Yadında saxla: bizim vəzifəmiz adamları tutub dama salmaqdan ibarət deyil. Biz tərbiyəçiyik. Bildin?

– Bildim, yoldaş mayor!

– Bir də ki, insaniyyətlik var, axı. Biz gərək bir-birimizə həyan olaq. Bir-birimizin səhvini deyək. Yolundan azanı düz yola çağıraq. Qorxuzmaq, ağır cəza vermək yaxşı tərbiyə üsulu deyil. Anladın?

– Anladım, yoldaş mayor! – Qaçay yanını azacıq qaldırıb, təzədən oturdu. Fikirləşdi ki, rəisin dedikləri şübhəsiz, doğrudur. Ancaq o, Pazaq Vəlini nahaq buraxdı. Gərək onu möhkəm cəzalandıraydı. Cərimə eləməkdən nə çıxar? Əvvəllər bu Mil düzündə nə qədər ceyran vardı. Hanı o ceyran sürüləri? Qırdılar, tələf elədilər. İndi də balığa dadanıblar. Gün gələr, Ağ göldən balıq qurtarar, çöllərdə turacın, qırqovulun səsi kəsilər. Onda haray hara çatacaq?

Sahibov şəhadət barmağını silkələdi:

– Unutma, o yerdə ki böyük cinayət işi var, dövlətimizin mənafeyi var, gərək orda qətiyyətli olaq.

Mayor yaşıl nazik köynəyinin bir-iki düyməsini açdı. Qaçay qalxıb əllərini yanına saldı:

– Gedə bilərəmmi, yoldaş rəis?

– Gedə bilərsən.

Qaçay həyətə çıxdı. Həyətdə üç-dörd milisioner vardı. Nuru Nəsirli də burada idi. Pasport stolunun rəisi ilə söhbətləşirdi. Müavin Qaçaya baxıb pasport stolunun rəisini dümsüklədi. Qaçay özünü görməməzliyə vurdu. Ancaq Nəsirlinin nüfuzedici nəzərlərindən elə bil yerişini itirdi. Dəmir qapıya doğru nə üçün getdiyini özü də bilmədi. İdarədən həyət qapısına qədər olan məsafə ona çox uzun göründü.

...Qaçay taxta çarpayıda atası ilə qarşı-qarşıya oturub çay içirdi. Ay işığı tut ağacının budaqları arasından süzülüb balaca süfrədəki qənddanın, çaydanın üstünə düşürdü.

Mikayıl kişi barmağını yaşlayıb papirosun odlu başına basdı. Eşmənin gözü cızıldayıb söndü:

– Deyirsən, Baxış söz verdi də.

– Möhkəm söz verdi. Özü də dedi ki, atan mənə çox yaxşılıq eləyib. Nə yaxşılıq eləmisən ona?



Kişi mütəkkəyə dirsəklənib üzünü göyə tutdu:

– Yadıma gəlmir... Elə bir yaxşılığım keçməyib Baxışa. Müharibə vaxtı bir-iki dəfə çörək vermişəm. Yəqin yadından çıxmayıb... Sağ olsun... Dava vaxtı mən çörəkxanada işləyirdim. Onda Baxış yekə oğlan idi. Özündən kiçik qardaşı da vardı. Anası çoxdan ölmüşdü. Atası da müharibəyə gedəndən bir il sonra qara kağızı gəldi... Bir gün Baxış məni yanladı. Utana-utana çörək istədi. Dedi, qardaşım acdır. Baxdım, yazığım gəldi. Dizəcən qarda nazik çust geyinmişdi, əyin-başı tökülüb gedirdi. Çörək verdim. Dedim, tez-tez gəl. İki-üç dəfə gəldi. Küt gedən, yanan çörəklərdən artıq-urtuq qalırdı bizə, onlardan Baxışa da verirdim. Sonra, deyəsən, utandı, daha görünmədi. Yazığın qardaşı o qışdan çıxmadı. – Mikayıl köks ötürüb tüklü üzünü qaşıdı. Qaçaya elə gəldi ki, atası gülümsəyir. O, kişinin səmaya zillənən donuq gözlərində heç bir ifadə görmədi. Kimdənsə eşitmişdi ki, göz ürəyin aynasıdır. Qaçayın baxdığı bu ayna isə çoxdan çilik-çilik olmuşdu. O, atasının ürəyindən keçənləri gözlərindən oxuya bilmirdi. Onunla danışanda, üzbəüz oturanda çətinlik çəkirdi.

Qaçay artırmadakı çarpayıda uzandı...

Bikəgilin evindən kamança səsi gəldi. Süleyman çalırdı. Heyf o oğlandan! Tez-tez içib keflənir. Yazıq Bikə onu evə güclə, darta-darta gətirir... Gör necə çalır, lap ağladır kamançanı. Nahaq yerə adına "Kamança Süleyman" demirlər ki? Yəqin indi Cahid də onun yanındadır. Oturub qulaq asır.

Qaçay həyətdə qab-qacaq səsi eşidib, başını azca qaldırdı; Ağca quyunun yanında qabları suya çəkirdi. Arxası Bikəgilin çəpərlərinə tərəf idi. Ləng tərpənməyindən hiss olunurdu ki, bütün fikri-zikri musiqinin yanındadır. Ay işığı hər tərəfi süd rənginə boyasa da Qaçay bacısının sifətini yaxşı görə bilmirdi. Ancaq görmək istəyirdi. Bu anda, bu dəqiqədə Ağcanın qonur gözlərinə baxmaq istəyirdi. Oğlan birdən kövrəldi. Ona elə gəldi ki, bacısını əbədi itirir. O gedəcək və bu komadakı ocağın işığı, hərarəti azalacaq, qocaların beli büküləcək. Qaçay qəflətən qəlbinə yol tapmış kövrəkliyi tez də boğdu. Düşündü ki, Ağca öz böyük səadətini bu evdən kənarda tapmalıdır. Onun da əbədi yuvası, ocağı olmalıdır.

Qaçay üzünü divara çevirdi və hər gecə yatanda olduğu kimi yenə Əntiqəni xatırladı. Həmişə də xatirələri eyni yerdən, eyni nöqtədən başlayırdı; körpünün yanındakı dərədən...

Qaçay əsgərliyə getməmişdən bir gün qabaq qızın qarşısını orada kəsmişdi. Dünəndən yazıb hazırladığı məktubu çıxarıb ovcunda tutmuşdu:

– Sabah əsgərliyə gedirəm, Əntiqə.

Qız gözlərini məktəb çantasına dikib susmuşdu. Oğlan, səsi titrəyə–titrəyə soruşmuşdu:

– Məni gözləyəcəksənmi?

Əntiqə razılıqla başını tərpətmişdi. Qaçay ovcunda sıxdığı məktubu ona uzatmışdı:

– Al, oxu.

– Dedim ki, gözləyəcəyəm. Daha məktubu neynirəm?..

Məktub Qaçayın cibində getdi. Neçə-neçə şəhərlər gəzdi. Axırda qat kəsdi, didilib töküldü.

Bir gün Ağca qardaşına bəd xəbər yazdı: "Əntiqə onuncu sinfi qurtaran kimi Baxışın oğlu Pənah onu zorla qaçırıb...". Elə bil Qaçayın qolları sınıb yanına düşdü. Həftələrlə eyni açılmadı. Ancaq bu uzaq diyarda Əntiqənin dərdini özü ilə gəzdirmək istəmədi. Onu unutmağa çalışdı. Üç ay keçməmiş Ağca yazdı ki, Pənah Əntiqəni göndərdi atası evinə. Qaçay nə sevindi, nə kədərləndi.

Qaçay əsgərlikdən qayıdandan sonra bir dəfə evlərində Əntiqədən söhbət düşdü. Məlum oldu ki, Pənah qızla heç kəbin də kəsdirməyib. Ata-anası Əntiqəni almağa razı deyilmiş. Cavahir yana-yana dedi ki, bütün günahlar qızın anasındadır. Bufetdə işləyir. Əntiqə evdə təktənha, baxımsız qalır. Sahibsiz qızı qaçırdarlar da, qaytararlar da.

Qaçay Əntiqəni görəndə qəlbində oyanan hisslərdən özü də baş aça bilmirdi. O, Pənahın ətli, aralı dodaqlarını xatırladı: "Yəqin əvvəllər Əntiqəni istədiyimdən xəbərdardır. Bəs indi niyə ondan əl çəkmir?.. Eh, cəhənnəm olsun Pənah da, onun yaşıl "Volqa"sı da, qara eynəyi də".

Qaçay o biri yanı üstə çevrildi. Ağca quyunun yanında yox idi. Barının dibində yığılmış səbət qalağı ot tayası təkin ağarırdı.

Süleymanın kamançası indi zilə çıxmışdı.

***

Mikayıl tut ağacının altında oturub səbət hörürdü. Oğlunun darvazaya tərəf yollandığını hiss edib tələsik qalxdı.



– Apar məni Baxışın yanına.

Qaçay atasının dizlərinə qədər sallanan, yaxası açıq nimdaş köynəyinə, çat-çat olmuş qısa, yoğun barmaqlarına baxdı:

– Getməsən yaxşıdı, dədə. Baxışnan özüm danışmışam.

– Mən də təvəqqe eləyərdim. Qoy gedim...

Qaçay başını buladı:

– Lazım deyil.

– Onda Baxışa bir-iki səbət apar. – Kişi yalın ayaqlarını yerlə ustufca sürüyə-sürüyə barıya tərəf getdi. Səbət tayasının həndəvərində dolandı. Əllərini sürtə-sürtə iki böyük səbət seçdi:

– Ver Baxışa. Gərəyi olar. İçinə meyvədən, soğandan-zaddan yığarlar. Mənnən də salam-dua söylə.

Qaçay dodaqlarını gəmirə-gəmirə atasına nəzər saldı: "Səbət Baxışın nəyinə lazımdır?" Lakin səsini çıxartmadı. Mikayılın qəlbinə dəymək istəmədi. O, hər səbətin qulpunu bir qoluna keçirtdi. Çiynini tut ağacının kələ-kötür gövdəsinə söykəyib gülümsəyən atasına baxa-baxa həyətdən çıxdı...

Utanırdı. Baxışın yanına necə getsin? Səbətdən də peşkəş olar?.. Cahidlə Süleymana rast gələndə özünü lap itirdi. İstədi yana burulsun, ancaq Ağcanın gələcək ərini yaxından görmək arzusunu boğa bilmədi. Səbətlərin qulpunu qoltuğuna bərk-bərk sıxıb, altdan-altdan Cahidə baxdı. Hiss etdi ki, o da oğrun-oğrun baxır. Cahid dodaqlarının arasında balaca, əyri qəlyan tutmuşdu. Bu, Qaçayın xoşuna gəlmədi: "Xanəndələr də qəribə məxluqdurlar. Guya qəlyan çəkməsələr, canları çıxar".

Cahid ucaboylu idi. Gicgahlarına dən düşmüşdü. Qəlyanı ağzından götürüb Süleymana nəsə dedi və gülümsədi. Qabaq cərgədəki alt-üst qızıl dişləri parıldadı, Qaçaya elə gəldi ki, Cahid Süleymana heç nə demədi, yalnız qızıl dişlərini göstərmək üçün gülümsədi.

Qaçay qonşusunun salamına başı ilə cavab verib ötdü. Bir neçə addım gedəndən sonra istədi qanrılıb geri baxsın. Ürək eləmədi: "Bəlkə onlar da baxırlar?"

O, rayonun ortasından keçən ensiz bulanıq çayın üstündəki körpüyə çatdı. Yan-yöresinə boylandı. Ətrafda heç kim yox idi. Səbətləri çaya atıb, məhəccərə söykəndi. Lilli suyun üzündə enib-qalxan, bir-birinin ardınca fırlana-fırlana üzən "gəmi-səbətlər" gözdən itənəcən baxdı. Elə bil üstündən ağır yük götürülmüşdü...

Qaçay rayonun mərkəzindəki balaca bağa yaxınlaşdı. Bağın lap kənarında çayxana vardı. Camaat akasiya ağacının kölgəsində stullar qoyub səhər açılandan gecəyarısına qədər açıq havada çay içirdi. Ürəyi çay istəməyən də bura söhbətə, gününü keçirməyə gəlirdi. Çayxana indi də adamla dolu idi. Nədənsə hamı qanrılıb Qaçaya baxırdı. Oğlan əl-qolunu ölçə-ölçə danışan Pazaq Vəlini onların arasında görəndə məsələni başa düşdü: "Dalımca gileylənir... Qanunu pozmayaydı, mən də tutmayaydım". Qaçaya çayxanadakıların məzəmmətli baxışlarına dözə bilməyib, üzünü yana döndərdi.

O, çöl divarları təzəcə ağardılmış balaca binaya yetişdi. Burada əmanət kassası yerləşirdi. Göy rəngli qapının sağ tərəfində iri plakat asılmışdı. Üstündə adda-budda əhəng ləkələri vardı. Ancaq aşağısında böyük, qırmızı hərflərlə yazılmış sözlər açıqca oxunurdu: "Otuz qəpiyə udmaq olar..." Qaçay bu plakatı, oradakı maşın, piano, motosiklet şəkillərini əvvəllər də görmüşdü. Maraqlanmamışdı. İndi ürəyində qəribə bir həvəs oyandı, beynində qəribə bir fikir dolandı: "Bəxtimi sınayım. Bəlkə uddum". İçəri keçdi. Yarı taxta, yarı şüşə olan arakəsmənin arxasında oturmuş yaşlı, arıq kişidən lotereya bileti istədi. Kişi bir dəstə şax-şax, təzə lotereya biletini onun qarşısında tutdu:

– Özün çək.

Qaçay üç bilet götürdü; birini altdan, birini ortadan, birini də üstdən. Gözlərinin qarasınacan sarılıq çökmüş kişinin civiltili səsi eşidildi:

– Pazaq Vəlini nahaq milisə aparmısan.

Qaçay ona təklik uzatdı:

– Günahı vardı.

– Mərdimazarlıq yaxşı iş deyil.

Qaçay pulunun qalığını almadı. Kişiyə acıq verirmiş kimi, çəkmələrinin dabanı ilə taxta döşəməni taqqıldada-taqqıldada çıxdı: "Mərdimazar niyə oluram? Mən vəzifəmi yerinə yetirmişəm. Kim qanunun ziddinə getsə, özündən küssün". O, biletlərin üstündəki yazını oxudu. Təəssüflə başını yırğaladı: "Nəyimə lazım? Bu ki, dekabrda oynayır. Amma Ağcanın toyu sentyabrdadır". Sonra fikirləşdi ki, dekabrda da bir şey udsa, pis olmaz. Borcunu qaytarar. Ancaq udmamışdan qabaq kimdən və nə qədər borc alacağını hələ kəsdirə bilmədi...



***

Sahibov dəhlizdə o baş-bu başa gəzişirdi. Elə bil Qaçayın yolunu gözləyirdi, oğlanı görən kimi barmağını örtülü qapıya tuşladı:

– Dur burda! Bu spekulyantın yanına heç kəsi buraxma. Özüm gəlib danışdıracağam.

Rəis maşına oturub harasa getdi.

Qapı içəridən bərk-bərk döyülürdü. Qaçay açmaq istəmədi. Dəhlizdə var-gəl elədi. Qapı fasiləsiz döyülürdü. Oğlan əsəbiləşdi. Sanki yumruqlar onun təpəsinə dəyirdi. Axırı ki, qapını azacıq araladı. Üzünün bir tərəfində yanıq yeri olan kök kişi Qaçayın başı üstündən dəhlizə boylandı:

– Mayor getdi? – deyə pıçıltı ilə soruşdu.

– Getdi.

– Məndə tutulan mallar necə oldu?

– Mən mal-zad görməmişəm. – Qaçay qapını örtmək istədi. Kök kişi içəridəki dəstəkdən yapışdı.

– Bura bax, mənə iş verəcəklər?.. Axı, mən neynəmişəm ey? Bu da yaxşılığımın əvəzidir? Mağazada olmayan şeyləri min bəlayi-müsibətlə tapıb satıram camaata. Kontrabanda satmıram ki?.. Qardaş, Canəlini çağır bura, sən Allah. – Kişi əlini ağzına qoyub bərkdən qışqırdı. – Canəli! Ay Canəli! – Səsi dəhlizə yayıldı.

Canəli kandarda göründü:

– Ayə, bu Müslümnən öhd eləmək olmur də. Genə ilişdi bədbəxtin balası. Qoy görüm nə deyir ə?

Qaçay qapını çəkib örtdü:

– Olmaz!

Canəli əlini qapının dəstəyinə uzatdı:

– Bəlkə bir dərdi var? Yazıqdır...

– Yazıq döyül, alverçidi. – Oğlan Canəlinin barmaqlarını dəstəkdən qopartdı.

Kişinin xırda gözləri qıyıldı:

– Mənə də olmaz?

Qaçay ayaqlarını aralı qoyub qapının qabağını kəsdi:

– Heç kimi buraxmaram! Mayor tapşırıb!

Canəlinin dərisi işıldayan sifətinə qızartı çökdü. Qaçayı ilk dəfə görürmüş təkin onu təpədən-dırnağa süzdü. Nəzərlərini onun enli, qabarıq sinəsində saxladı.

Oğlan başını aşağı saldı. Yadına qarışqa düşdü. Özündən böyük bir şeyi çapalaya-çapalaya yuvasına dartan zirək qarışqalara çox tamaşa eləmişdi. Bilirdi ki, onların ən irisinə "atlıqarışqa" deyirlər. Düşündü ki, Canəli anadan qarışqa kimi doğulub. Böyüyüb, böyüyüb olub "atlıqarışqa". Sonra da böyüyüb düşüb adam cildinə, olub Canəli. Adam – qarışqa!..

Canəli yan-yörədən onlara tamaşa eləyən milisionerlərə baxdı, pərtliyini gizlətmək üçün zorla gülümsədi.

– Səni əsgərlikdə necə öyrədiblər, ə?

Oğlan çiynini qapının küncünə söykədi:

– Rütbəcə özündən böyüklərin əmrini qeydsiz-şərtsiz yerinə yetirmək!

Canəli mat-məəttəl baxırdı. Başa düşmüşdü ki, Qaçay onunla zarafat eləmir.

* * *

Bikə hər axşam gəlirdi. Hər axşam Cavahirlə pıçıldaşırdı. Gedəndə son sözünü elə deyirdi ki, həyətdə hamı eşidirdi: "Payız qapını kəsib. Vaxt daralıb, haa! Əlli-ayaqlı olun!".

Qaçayın qulaqlarında bircə səs, bircə səda vardı: "Vaxt daralıb... Vaxt daralıb... Vaxt daralıb". Qaçay yuxusunda payızı görürdü. Payız onun yanına adam şəklində gəlirdi. Sarı, pərişan saçlı, solğun bənizli, tələsən, əsəbiləşən bir kişi! "Nə oldu, qardaş? Hələ hazır deyilsən?!".

Qaçay bəzən qərəzlənirdi ki, gedib Cahidlə açıq danışsın. Soruşsun ki, sənə Ağcanın cehizi lazımdır, yoxsa özü? Əlbəttə, deyəcək özü? Ancaq Cavahir könlüqırıq qızını mebelsiz köçürərdimi? Elin, obanın adəti var. Adama gülərlər. Ağca yetim deyil ki? Qaçay kimi nərin bacısıdır. Oğlan hərdən hirslənirdi: "Niyə Ağca vaxtında ərə getməyib? Niyə Ağcaya əvvəllər elçi gəlməyib. Yoxsa mənim kişi olmağımı gözləyiblər?".

Qaçay milisioner yoldaşlarının içində təkcə Canəliyə ürək qızdırırdı. Mehrini ona salmışdı. Çox götür-qoydan sonra qərara aldı ki, Canəlidən borc istəsin. Güman yeri odur. Düzdür, onu alverçi Müslümün yanına buraxmamışdı. Ancaq Müslümə üç il iş verdilər. Canəli Qaçayla barışdı. Onun günahından keçdi. Canəli kinli deyil. "Gedəcəm Atlıqarışqanın yanına. Deyəcəyəm, Qarışqa dayı, mənə borc ver...



Bəlkə dedi, yoxumdur?.. Onda deyərəm əgər ehtiyat yığmamısansa, daha sənin nəyin qarışqadır? Get kəpənək ol, milçək ol, ağcaqanad ol..."

Qaçay evdə ləngiməyə qorxurdu. Birdən Cavahir onu sorğu-suala tutar: "Mebeli nə vaxt alacaqsan?" Oğlanın bəhanəsi vardı; hələ mebel gəlməmişdi. Dünən Tapdıqla təsadüfən rastlaşanda kişi özü demişdi: "Gözləyirik. Bu yaxınlarda almalıyıq. Arxayın ol, bir komplekt sənə saxlayacağam, kəsdiyimiz çörək haqqı. Baxış tapşırıb...". Qaçay sevinirdi ki, mebel hardasa ləngiyir. Kimsə onu yola salmağı unudub. Yaxşı olardı ki, heç gəlib çıxmayaydı. Bir mebelə görə Cahid toyu gecikdirməz.

O, tələm-tələsik bir stəkan şirin çay içib həyətə çıxdı. Atası barının dibində altına köhnə döşəkcə salıb dizləri üstə oturmuşdu. Əynində sırıqlı vardı. Kişi qarğı qomlarının içində itib batmışdı. O, yatağından erkən qalxar, çörək yeməmiş işə başlardı. Guya beşcə dəqiqə geciksəydi, dünya alt-üst olacaqdı. Hər gün gözləyirdi ki, kimsə qapını açıb ondan səbət istəyəcək. Sonra da deyəcək: "Əllərin var olsun, Mikayıl dayı, sən olmasaydın, mən kimin yanına diləyə gedərdim?". Ancaq heç kim səbət üçün onun qapısın açmırdı, heç kim onun üstünə diləyə gəlmirdi... Havalar soyuyanda Mikayıl döşəkcəsini artırmaya çəkəcəkdi. Qarğı qomlarını da oraya sürüyəcəkdi. Yerə qar düşəndə onun köhnə döşəkcəsi qapının ağzında – dəmir soba ilə üzbəüz salınacaqdı. Xırda səbətlər hörəcəkdi ki, evdə əl-ayağa dolaşmasın. Bəzən arvadı deyinirdi. Onda Mikayıl başını bulayıb gülümsəyirdi: "Saxla samanı, gələr zamanı". O, Baxışa səbət göndərəndə bu sözləri Cavahirin yadına salmışdı: "Gördün ki, zaman gəldi, Cavahir". Oğlu qayıdan kimi onu sorğu-suala tutmuşdu:

"Verdin, bala?"

"Verdim".

"Nə dedi?"

"Dedi, zəhmət çəkmisən. Sonra da dedi ki, çox yaxşı səbətlərdi, mən ömrümdə belə səbət görməmişəm".

"Düz deyir. O iki səbəti keçən ilki qarğıdan hörmüşəm. Lap qutu kimi çıxıb, istəyirsən içinə su tök".

Oğlan həyətdə dayanıb barı boyu qalaqlanmış səbət tayasına nəzər saldı və fikirləşdi ki, bu səbətlərə üç xırmanın taxılını yığmaq olar. Sonra da düşündü ki, atasının işlətdiyi qarğıları uc-uca calasaydılar, ərzin o biri başına çatardı.

Qaçay doqqazdan çıxdı. Qulağı səsdə idi; bu dəqiqə anası arxadan çağıracaq, nəsə deyəcək... O, Cavahirdən çox Bikədən qorxurdu. Qorxurdu ki, vaxtın daraldığını hər axşam ona eşitdirən arvadın bir gün səbri də daralsın və zarafata salıb Qaçayı utandırsın: "Adını kişi qoymusan, amma deyəsən, bir zənəncə fərasətin yoxdur". Bikə eynilə belə deməsə də, yəqin buna bənzər sözlər deyəcək. Kamança Süleymanın anası bundan betərini deyər, hələ üstəlik kişi kimi söyüş də söyə bilər.

Əntiqəgilin evinin yanında Qaçay addımlarını yavaşıtdı. Nədənsə zəncir cingiltisi eşidilmədi, it hürmədi. Oğlan yan-yörəsinə baxıb, ayaqlarını yerə bərk vurdu. Yenə barının üstündə iki əl göründü. Yenə nazik barmaqlar kərpici qamarladı, gərildi. Sonra hasarın arxasından Əntiqə boylandı. Oğlana elə gəldi ki, bu, qızın özü deyil, onun yarımheykəlidir. Sanki kimsə həmişə barının yanında dayanıb Qaçayın yolunu gözləyir və o, buradan keçəndə Əntiqənin heykəlini yuxarı qaldırır.

Yarımheykəl bu gün gülümsəmədi. Sinəsini bayıra söykəyib sınayıcı nəzərlərlə oğlanı süzdü. Qızın baxışlarındakı cəsarət, qətiyyət Qaçayı qorxuzdu. Yox, deyəsən, Əntiqə qaçıb getmək fikrində deyildi. Oğlan özü də hiss etmədən dayandı. Diqqətlə baxdı və sanki qarşısında yad bir adam gördü. Bu, iki-üç il qabaq nazik hörükləri kürəyində atılıb-düşən, Qaçayın əsgərliyə getməmişdən bir gün əvvəl dərədə qarşıladığı arıq, sarıbəniz Əntiqə deyildi. Bu, gözlərini məktəb çantasına zilləyib utana-utana: "Dedim ki, gözləyəcəyəm. Daha məktubu neynirəm" deyən qıza oxşamırdı. Əntiqə böyümüşdü. Çənəsinin altında xırdaca buxaq sallanırdı. Sifətinin dərisi ağarmışdı, şəffaflaşmışdı. Çənəsi də qabarıb iriləşmişdi. Ancaq qonur gözlərində yorğunluq, inciklik hiss olunurdu.

Qaçay gülümsədi. Qız buna bənd imiş kimi ovcunda tutduğu bükülü kağızı onun qarşısına atdı. Yarımheykəl birdən yoxa çıxdı. Oğlan cəld əyilib kağızı götürdü. Burada oxumağa ürək eləmədi. Fikirləşdi ki, körpünün yanında oxuyar. Addımlarını yeyinlətdi. Səbri çatmadı. Tini burulan kimi yumrulanıb əzilmiş kağızı tələsik açdı. Bir-birinə söykənən xırda hərflərlə yazılmış sözləri oxudu: "Mərdimazarın evi yıxılsın... Mən səni həmişə gözləmişəm, yenə də gözləyirəm... Gündüzlər evdə tək oluram. Məni nə vaxt aparmaq istəsən, hazıram. Səninlə dünyanın o başına gedərəm. Əgər məni aparmaq niyyətin varsa,



cavab yaz". Bu boyda kağızda cəmi bir neçə söz. Salam-kəlam da yoxdur. Dönüklüyü barədə heç nə yazmayıb. Üzr də istəmir. Pənah onu zorla qaçırıb. Axmaq söhbətdir. Adam qoyun deyil ki, muşqurub dalınca aparasan. Bu zəmanədə nə qaçırtmaq?! Qanun var, hökumət var, cəza var. "Yox, Əntiqə, özünün də könlün olub. Yəqin özün qaçmaq istəmisən". Qaçay iki il əvvəl dərədə Əntiqəyə verə bilmədiyi məktubu xatırladı. Onu didik-didik olana qədər sarımtıl əsgər köynəyinin cibində gəzdirdiyi yadına düşdü. Hər gün baxardı, hər gün oxuyardı. Ancaq bir dəfə oxuya bilmədi. Hərflər soluxmuşdu, itmişdi. Onda xırda-xırda doğradı kağızı. Oxunmamış ürək sözlərini soyuq küləyə verdi. Sonra da arzusunu, məhəbbətini itirdi; Ağcanın məktubundan sonra... Qaçay dağ siqlətli o ağır dəqiqələri xatırladı və əsəbiləşdi. Hələ köhnəlməmiş, hələ yarası köz bağlamamış xatirələr günlərin, ayların arxasından baş qaldırdı. Oğlan indi incidi, indi küsdü Əntiqədən. Onda belə küsməmişdi, belə gileyli deyildi. Ürəyi belə dolmamışdı. Onda haradansa qəzəb axtarırdı, nifrət axtarırdı. Sonra bu qəzəbindən də keçdi. "Əntiqə məni sevsəydi, dərədə məktubumu alıb oxuyardı. Sevməyib məni..." Qaçay bununla özünü sakitləşdirməyə çalışmışdı. Sakitləşmişdi. Ancaq ürəyində ağrılı-acılı bir düyün qalmışdı, bir həsrət qalmışdı. Hərdən dirçəlib onu incidirdi... İndi Əntiqə nə üzlə məktub yazır? Qaçayla dünyanın o başına getməyə hazırdır. Yox, Qaçay onunla heç bir addım da atmaz!.. Oğlan hiss etdi ki, bu fikir ancaq onun beynində dolandı, ürəyinə çatmamış haradasa əridi, pərənpərən düşdü. Anladı ki, bayaq qəlbində baş qaldıran qəzəb, nifrət deyilmiş. Bu, olsa-olsa, yaxın, əziz adamdan nəsə uman, küsən uşağın ərkyana şıltaqlığıdır. Əgər Qaçay Əntiqəni sevmirsə niyə onu görmək arzusu ilə alışıb-yanır? Niyə evlərinin yanından keçəndə iti duyuq salmaq üçün ayaqlarını yerə bərk-bərk vurur? Və nəhayət, niyə onunla göz-gözə gələndə sinəsindən bir süstlük qopub bütün bədəninə yayılır? Qaçay bu qarma-qarışıq fikirlərin torunda çapalayarkən uzun-uzadı siqnal səsi eşitdi. Döyükübyan-yörəsinə baxdı. Ancaq yaşıl "Volqa" gözlərinə dəymədi. Yenə Pənahı xatırladı və onsuz da qəlbini, beynini gücə salan fikirlər yığınının siqləti daha da artdı. Əgər o, Əntiqəni evinə gətirsə, Pənahın ətli, aralı dodaqlarında dolanan istehzalı təbəssüm qəhqəhəyə dönəcək. Onun qara eynəyin arxasından süzülən alçaldıcı, tox nəzərləri Qaçayı bütün ömrü boyu izləyəcək. Pənahın təkəbbürlü duruşunda, ədalı baxışlarında Qaçay min tənə

oxuyacaq: "Mənim artığıma qalmısan... Atdığım qabın dibini yalayırsan...". Onda Qaçay dözməyəcək. Pənahı dizlərinin altına yıxıb, nəfəsi kəsilincə boğacaq. O, Pənahla bacarar. Bəs Cavahirlə necə? Anası, deyəsən, Əntiqəni xoşlamır. Onun adı gələndə ağzını əyir. Cavahir bu məsələni eşidəndə daş atıb başını tutacaq: "Necə? Əntiqəni alırsan? O ləçərin ayağı mənim evimin kandarına dəysə, ürəyim çatlayar. Bir qızın ki, anası bufetdə işləyə, səhərdən axşamacan araq-çaxır içən kişilərin arasında dolana, o qızdan mənə gəlin olmaz. Yox, yox, iti görüm, qurdu görüm, Əntiqəni görməyim".

Qaçay əvvəli-axırı görünməyən düşüncələrin lap dərinliyində itib-batdı. Bu fikirlərin ucundan tutub axıracan getmək, beynini yormaq istəmədi. İndi bunun vaxtı deyil. Qabaqda Ağca var. Bir neçə gündən sonra Ağca köçməlidir. Qaçay onunçün mebel tapmalıdır. Bacısı gedəndən sonra Qaçayın yükü yüngülləşəcək və o, öz qayğısına qalacaqdır.

Oğlan Əntiqənin əzik məktubunu qatlayıb kitelinin döş cibinə, şax-şax lotereya biletlərinin yanına qoydu. Körpünün üstündən keçəndə lilli, bulanıq suyu çoxaldığından süreti artmış çaya baxdı. Atasının bir cüt səbətini xatırladı. Yəqin ki, səbətlər hardasa kol-kosa ilişib qalıb. Bəlkə kimsə tutub onları? Bəlkə bu çayın qovuşduğu Kürdə ördək kimi yan-yana üzürlər? Görəsən Mikayılın qarğı səbətləri Xəzərə qədər gedib çıxa bilərmi?

Qaçay, divarları yağışdan ləkə-ləkə olan yay klubunun qarşısından ötdü. Bağın kənarındakı çayxanada yenə adam vardı. Hava sərin olsa da akasiya ağacının altında stol qoyub oturmuşdular. Ürəyindən keçdi ki, onların yanına dönsün, əyləşib çay içsin. Dünyanın hər yerindən xəbər verən adamların söhbətlərinə qulaq assın. Qaçaya elə gəldi ki, orada oturanlar hələ də ondan danışırlar. Onun Pazaq Vəlini tutmasını götür-qoy edirlər. O, çayxanaya getmək həvəsindən əl çəkdi...

Müştərilərin ancaq axşamlar yığışdığı yeməkxananın qabağında yaşıl "Volqa" dayanmışdı. Pənah arxasını maşının qapısına söykəyib bir nəfərlə söhbətləşirdi. Zolaq-zolaq təzə köynəyini yoldan ötənlərə göstərirmiş kimi yun kurtkasının bütün düymələrini açmışdı. İri şüşəli qara eynəyi yenə gözlərində idi. Qaçay fikirləşdi ki, belə tutqun havada eynək taxmaq ən azı axmaqlıqdır... Pənah ona ötəri baxıb yanındakı oğlana nəsə dedi. Ətli dodaqları tərpəndi, aralandı. Qaçay başa düşdü ki, söhbət ondan gedir. Pənahın yanından keçməyə ehtiyat elədi. Geri qayıtmağı da şəninə sığışdırmadı. Başını aşağı salıb irəlilədi. Ürəyində



allaha yalvardı ki, Pənah indi ona söz atmasın, sataşmasın. Yoxsa Qaçay hirsini, acığını boğa bilməz, Baxışın bu ərköyün oğlunu xirtdəkləyər. Onda əlvida, mebel!

Oğlan gözlərini çəkmələrinin burnuna zilləmişdi, guya Pənahı görmürdü, guya onun lap yaxında dayandığından xəbərsiz idi. Pənahgil bərkdən güldülər. Qaçayın ürəyi əsdi. "Kaş ağzını təmiz saxlayaydı... Kaş susaydı". "Bir neçə addım da atdı. Və bayaqdan asta-asta danışan Pənahın istehzasını eşitdi. "Sən də adamsan!.." Qaçayın ayaqları daha getmədi. Zil qara çəkmələri tozun üstündə dairə cızdı. O, kurtkasının yaxasından tutub gülümsəyən Pənaha qəzəblə baxdı. Qaçayın gözlərinin qabağında Baxışın bərli-bəzəkli kabineti gəlib durdu; müşəmbəli qapı, parıldayan uzun stol, sağda dəmir seyf, solda dolabça, ayaqüstə beş-altı adam. Sonra o, vərəqin bu başından o başına imza atan qara, möhkəm barmaqları gördü. O barmaqların arasından Əntiqənin yarımheykəli çıxdı. Kirpik çalmadan Baxışın imzasına baxdı. Ağ kağızın üstündəki bu uzun imzaya Qaçay da nəzər saldı. Bir-birilə calaqlı hərflərdən yaranan bu imzanı höccələyə-höccələyə oxudu: "Mərdimazarın evi yıxılsın". Kabinet fırlandı, bütün əşyalar başı üstə çevrildi.

Qaçay iki addım atıb hələ də gülümsəyən Pənahın yun kurtkasının yaxasını qamarladı:

– Mənə lağ eləyirsən?

Qaçay onu var gücü ilə silkələdi. Pənahın eynəyi burnundan sürüşüb yerə düşdü və bu an Qaçaya elə gəldi ki, onun yaxasından yapışdığı Baxış özüdür, ancaq burnunun üstündəki göyümtül xalı yoxdur. Pənah dişlərini qıcıyıb əlini qaldırdı. Yumruğu Qaçayın çiynini tutdu. Qaçay onun biləklərindən yapışdı. Elə bil Bikə arvad yanında durub qulağına pıçıldadı: "Vaxt daralır, haa!" Oğlan ürəyində ona cavab verdi: "Cəhənnəmə daralsın, gora daralsın!" İri, möhkəm əllərindəki biləkləri sındıracaqmış kimi bərk-bərk sıxdı. Pənahın təəccüblə baxan gözləri hədəqəsindən çıxdı, yumru sifətinə qızartı çökdü. Yaşca özündən kiçik olan orta boylu, dolu bədənli oğlanın bəndi-bərəni uçurmuş çay kimi kükrədiyini görəndə sifətindəki qızartı çəkildi. Üzü kağız təkin ağardı, ağrıdan dil-dodağını çeynədi. Qaçayın enli sinəsinə, damarları azacıq qabarmış əzələli, qüvvətli boynuna ani nəzər saldı və hirsindən boğula-boğula dişlərinin arasında pıçıldadı:

– Qolumu burax! Qolumu burax deyirəm sənə!

Qaçay onun qollarını qanırıb arxasına qoydu. Əyilmiş kürəyinə bir diz vurmaq istədi. Ancaq özünü saxladı. Sahibovun tövsiyəsi qulaqlarından sırğa kimi asıldı: "Milisionerin əsas vəzifəsi ondan ibarətdir ki..." Qaçay hirsini, qəzəbini zorla cilovladı:

– Mənimlə milisə gedəcəksən, orda cavab verərsən!

– Burax qolumu!

– Aparacağam!

Pənah onun qonur gözlərindəki qətiyyətdən qorxdu. Anladı ki, xoşluqla getməsə, Qaçay onu sürüyə-sürüyə aparacaq.

– Qolumu burax, özüm gedərəm.

Qaçay indicə baxıb gördü ki, adamlar topa-topa dayanıb onlara tamaşa eləyirlər. Dəlləkxanada, çayxanada olanların hamısı bura yığışmışdı. Hələ də gələn vardı.

Qaçay Pənahın qollarını buraxdı:

– Gedək!

Pənah ona tərs-tərs baxdı. Biləyini ovxalaya-ovxalaya Qaçayın yanına düşüb getdi. Toza batıb bulanmış eynəyini götürməyi də unutdu.

Adamlar sahibsiz qalmış yaşıl "Volqa"nı dövrəyə aldılar...

Qaçay əhvalatı Sahibova danışanda hirsindən çaşırdı, dili topuq vururdu. Mayor onu sakitcə dinlədi. Təsbehini cibində gizlədib xeyli susdu. Sonra qapının yanında dayanıb bu məsələnin nə ilə bitəcəyini səbirsizliklə gözləyən Canəliyə baxdı. Qaçay düşündü ki, Canəli mayorun bir işarəsinə bənddir, Sahibov ona göz-qaş eləsə, Canəli ayaqlarını aralı qoyub, qollarını çırmalayacaq, bir vaxtlar Pazaq Vəlini qorxuzan kimi Pənahı da qorxuzacaq.

Mayor qəflətən yumruğunu stola vurub qışqırdı:

– Ədəbsiz! Nə haqla milisioneri təhqir edirsən?!

Bu səsdən Qaçay özü diksindi. Hətta üzü üzlər görmüş Canəli də qurcuxub gözlərini qırpdı. Kabinetin ortasında dayanıb əllərini yanına salan Pənah mayorun üzünə mat-mat baxırdı. Onun ətli dodaqları daha aralanmırdı.

Rəis, Pənahın ağarmış çöhrəsinə acıqlı nəzər salıb ayağa qalxdı:

– Sənə bir toy tutaram ki, adın yadından çıxar. Kimə güvənib başından böyük sözlər danışırsan?! Baxışın oğlusan deyə fironluq edəcəksən? Kimdir axı, Baxış? Yoxsa atanı Allah bilirsən?!

Pənah nəsə demək istədi, lakin qanı qaçmış dodaqları titrəyib tez də yumuldu.



Mayor üzünü Qaçaya tutub həmişəki mülayim səslə, asta-asta danışdı:

– Bəbirov, gərək akt yazıb şahidlərə qol çəkdirəydin. – Əlini yellədi.

– Eybi yoxdur. Mənə dəlil-sübut lazım deyil. – Şəhadət barmağını Pənaha tuşladı. – Bu avarını basaram qoduqluğa, ağlı başına gələr.

Elə bil Pənahın dili açıldı, hardasa itib-batmış cəsarəti özünə qayıtdı.

– Niyə axı? Günahım nədir? O, çoxdan mənnən ləjdir... Özü məni davaya çəkdi. Şahidim var.

Baxış tövşüyə-tövşüyə içəri girdi. Əl verib Sahibovla görüşdü. Sonra oğlunu tərs-tərs süzdü:

– Əgər bura mayorun kabineti olmasaydı, səni salardım təpiyimin altına. Yaramaz! Danışaram sənnən!

Pənah gözlərini qəhvəyi ayaqqabılarının burnuna dikib dayanmışdı. Baxış stul çəkib oturdu. Rəisə baxıb gülümsədi. Üzünün dərisi dartıldı və bu an burnunun üstündəki göyümtül xal tərpəndi:

– Necəsiniz, yoldaş Sahibov? Elə cinnənmişəm ki, halınızı soruşmağı da unutmuşam... Vallah, ata olmaq müsibətdir. Deyirəm, oğlandırsa qız yaxşıdır, qaxılıb oturar evdə, ata-ananı əngələ salmaz. – İndicə yadına düşdü ki, panamanı çıxartmaq lazımdır. İki barmağının ucu ilə velür panamanın kənarından tutub, başından götürdü. Ehmalca qoydu qucağına.

Rəis ayaq üstə duranlara qapını göstərdi:

– Üçünüz də bayıra... Bəbirov, səni də, Pənahı da çağıracağam. Gözləyin.

Pənah dəhlizə çıxan kimi süzgəcli siqaret yandırıb dalbadal qullabladı. Deyəsən, rəngi-rufu üstünə gəlmişdi.

Qaçay arxasını divara söykəyib açıq qapıdan həyətə baxırdı. Canəli ağzını onun qulağına dirədi:

– İşin-gücün qurtarıb, vallah. Bekara haqq-hesabdan ötrü düşmən qazanma. – Canəli bapbalaca yumruğunu Qaçayın enli kürəyinə usdubca vurub ötdü. Qaçay onun "dərisi soyulmuş" boynuna nəzər salıb fikirləşdi ki, bu gün Canəlidən borc istəməliydi. Deyəsən, daha lazım olmayacaq. Bu vurhavurdan sonra Baxış ona mebel verməz.

Pənahı çağırdılar. O, süzgəcli siqareti taxta döşəməyə atıb ayaqqabısının burnu ilə əzdi. Üzünə ciddi, bir az da incik ifadə verib Sahibovun kabinetinə girdi. Qaçay dəhlizdə tək qaldı. Düşündü: "Pənah cə-

zadan yaxasını qurtara bilməyəcək. Camaat məni qınayacaq, qoy qınasın. Bu adamlar başa düşmək istəmirlər ki, qanunun ziddinə getmək olmaz... Onsuz da Pənah çoxdan tutulmalı idi. Lap Əntiqəni evlərinə kəbinsiz aparan günü..."

Qaçayı da çağırdılar. Kitelinin ətəyini dartışdırıb kabinetə keçdi... Baxış gözlərini ona zilləyib gülümsəyirdi.

– Barışın, – deyə mayor dilləndi.

Qaçay eşitdiyinə inanmaq istəmədi. Sual, çaşqınlıq dolu nəzərləri Sahibovun sifətində dolanıb, çatma qalın qaşlarının ortasında dayandı.

Mayor Qaçayın tutulduğunu görüb ərkyana tərzdə dedi:

– Bəbirov, ikiniz də cavanlığınıza salmısınız. Barışın, məsələ xitam olsun. Niyə didişirsiniz? Mehriban olun.

Baxış oğluna çəmkirdi:

– Əl ver, ə! Əl ver!

Pənah Qaçayın üzünə baxmadan onun sağ əlindən yapışdı. Bir saat bundan əvvəl biləyini məngənə kimi sıxıb göynədən iri, ağır əli könülsüz-könülsüz silkələdi.

Qaçay özünü itirmişdi. Karıxıb Baxışla da görüşdü. Baxış razılıqla gülümsəyib, astadan pıçıldadı:

– O amanatı Tapdığa tapşırmışam. Gələn təki sənə xəbər verəcək. Kişi necədir? Məndən kişiyə salam de.

Baxış oğlunun qolundan tutub kabinetdən çıxdı.

Qapı örtülməmiş Sahibov Qaçayı məzəmmətlədi:

– Mən onların yanında deməsdim, amma günah səndədir, Koroğlu. Aranızda qız əhvalatı varmış.

– Nə əhvalat, yoldaş mayor?

– Onun götürüb qaçdığı qız sənin nəyindir?

– Heç nəyim. Mən əvvəllər onu...

– Şəxsi işləri bu idarəyə gətirib çıxartmaq yaxşı deyil. Adam vəzifəsindən sui-istifadə eləməz. Bu dəfəlik səni bağışlayıram. Gedə bilərsən, Bəbirov!

...Qıvrıla-qıvrıla sürünən qara buludlar hərdən ayın qabağını kəsirdi. Həyətdə dimdik dayanan Qaçayın yerdəki kölgəsi gah uzanır, gah qısalır, gah da tamam itirdi. Havada nəmişlik vardı, sanki indicə yağış yağacaqdı. Yarpaqları yavaş-yavaş tökülən tut ağacının altındakı taxta çarpayı bomboş idi... Bu sərin, sakit gecədə oyaq qalan, deyəsən, təkcə Qaçay idi, bir də, "Kamança Süleyman". Kəsik-kəsik kamança səsi eşidilir. Hərdən kimsə pəsdən zümzümə eləyirdi. Yəqin Cahid idi.



Qaçay Sahibovun sözlərini unuda bilmirdi. Niyə mayor ona inanmırdı? Niyə başa düşmədi ki, Pənah müqəssirdir? Əgər Qaçayı yerindən oynadan yalnız qız məsələsi olsaydı, o, əsgərlikdən qayıdan kimi Pənahla haqq-hesab çəkərdi...

Oğlan çiyninə saldığı Kitelin yaxasını dartıb başını buladı. Bugünkü əhvalatı unutmaq üçün Ağca barədə düşündü. Bacısı ondan əvvəlki tək gizlənməsə də yenə çəkinirdi. Ağca ciddiləşmişdi. Son vaxtlar özünə, üst-başına diqqət yetirirdi. Saçlarını tez-tez yerli-yersiz sığallayırdı. Nə qədər çalışsa da qonur gözlərindəki sevinci gizlədə bilmirdi...

Qaçay çarpayıda əyləşdi. "Əntiqəyə nə cavab yazım? İstəyir ki, onu qaçırdım. Qaçırtmaq niyə?".

– Yuxun gəlmir, a bala?

Qaçay anasının səsini eşidib fikirdən ayrıldı. Hiss etdi ki, Cavahir də yata bilmir. Ona baxa-baxa düşündü ki, Əntiqə barədə şirin xəyallara dalmağa dəyməz. Cavab yazıb onu arxayınlaşdırmaq, gözlərini yolda qoymaq mənasızdır. Cavahir heç vaxt razı olmaz ki, Əntiqə bu evdə gəlinlik eləsin.

Arvad oğlunun yanında oturdu. Xeyli sükutdan sonra özündən böyüklə danışırmış kimi çəkinə-çəkinə soruşdu:

– Ağcanın dediyi gerçəkdirmi? Əntiqə məsələsi...

Qaçay diksinib təəccüblə anasına baxdı. Tut ağacının bu ay işığında saldığı kölgəyə ürəyində lənət yağdırdı. Cavahir üzündəki ifadəni kölgədə yaxşı görə bilmədi. Susdu.

– Hələ sən əsgərliyə getməmişdən xəbərdardın... Deyəsən, indi də meylin var... Ağca dedi... Eh, a bala, mərdimazarın evi yıxılsın.

Əntiqə də eynilə belə yazmışdı: "Mərdimazarın evi yıxılsın..."

– Yoxsa ona görə yuxun ərşə çəkilib, a Qaçay? Əvvəl Ağcanı köçürək, bala, sonra Allah kərimdi. Sən bacının qolundan yapış, onun əyər-əysiyini düzəlt. Səndən başqa kimi var?

– Baxışgil bu yaxınlarda mebel alacaqlar. Pul taparam, ana. Bir adamdan borc götürərəm.

– Nə olar, Allahın köməkliyinən qaytararıq. Qaldı sənin məsələn, ona da biz bir söz demirik. İxtiyar özünündür. Əntiqə pis qız döyül, amma anasından zəndilən zəhləm gedir. Neynək, a bala, könül sevən göyçək olar. Könlün tutubsa, Allah xeyir versin.

Cavahir başını sağ çiyni üstə azacıq əyib, Süleymanın kamançasından kəsik-kəsik qopub gələn musiqiyə qulaq asdı...

Qaçay kövrəlmişdi. İstəyirdi qalxıb anasını qucaqlasın, onun cüssəsiz, arıq bədənini sinəsinə bərk-bərk sıxıb, ağarmış saçlarından öpsün. Utandı. Tut ağacının ay işığında saldığı kölgəyə ürəyində minnətdarlıq elədi. Kölgə olmasaydı Cavahir onun üzündəki ifadəni görə bilərdi.

* * *

Qaçay gözləyirdi ki, Canəli rəisin kabinetindən çıxan kimi onunla borc barəsində danışsın. Daha uzatmaq olmazdı. Bəlkə sabah Tapdıq xəbər göndərdi ki, mebel hazırdır, gəl apar. Həm də Bikə evdəkilərə rahatlıq vermirdi. Gündə üç-dörd dəfə Cavahirə baş çəkirdi: "Vaxt yaman daralıb ha-aa!". Bu "yaman" kəlməsini axır zamanlar artırmışdı.

Canəli kabinetindən çıxmaq bilmirdi. Qaçay darıxdı. Asta-asta rəisin otağına yaxınlaşdı. Gendə dayanıb açıq qapıdan içəri baxdı. Mayorun mülayim, sakit səsini eşitdi:

– Hə, Canəli, danış görək planetimizdə nə var, nə yox?..

Qaçay dönüb dəhlizdən çıxdı.

Canəlinin "dəmir atı" binanın qabağında dayanmışdı. Qaçay son vaxtlar motosiklet sürməyi öyrənirdi. Sahibov ona motosiklet verəcəyini vəd eləmişdi. Canəli bunu eşidən kimi Qaçayı tərkinə alıb, çala-çökəyi olmayan bir düzənliyə apardı. "Dəmir ata" minməyin yol-yolağasını ona başa saldı. Sonra özü oturdu beşikdə.

– Hə, di tərpət, – dedi.

Yarım saatdan sonra əlini Qaçayın kürəyinə vurdu:

– Ay maşallah, sən lap od parçasısan ki. Mən bu andırın dilini bir aya güclə öyrəndim...

İndi Qaçay motosikleti görəndə həvəsə düşdü. İstədi Canəli rəisin yanından çıxanacan motosikletə minib həyətdə bir-iki dövrə vursun. Yadına düşdü ki, açar Canəlinin cibindədir. Qapının girəcəyində qoyulmuş uzun skamyada oturdu.

Bir azdan Canəli imtahan vermiş tələbə kimi sevinə-sevinə içəridən çıxdı. Oğlanın yanında əyləşib qıçını qıçı üstə aşırdı. Elə bil Qaçayı görmürdü, onun burda olmağından xəbərsiz idi. Xəyalı harasa uçmuşdu. Yanlarında nazik qırışlar olan xırda parlaq gözlərini səmaya zilləmişdi. Qaçay da yuxarı baxdı. Səma göyümtül, nəhayətsiz və tərtəmiz idi... Canəlinin sifətindəki təbəssüm birdən-birə çəkildi. Batıq ovurdları səyridi. Ancaq yanları gərilib daha da xırdalaşan gözləri yalnız



özünün gördüyü bir nöqtəyə dikilib qalmışdı. Canəlinin dodaqları büzüldü. Başı yavaş-yavaş aşağı endi. Deyəsən, fikirləri də göydən qopub yerə, torpağa qayıtdı. Qaçay bu vaxta qədər onun gözlərində belə yorğunluq, belə kədər görməmişdi. Heç ağlına gəlməmişdi ki, bu adam – qarışqa haçansa düşüncələrin ağırlığından bax beləcə sustala bilər, qəmlənə bilər. Sanki Canəlinin bütün qüvvəsi tükənmişdi və o, bir daha ayağa qalxmayacaqdı. Qaçay uzun skamyada büzüşüb balacalanmış kişiyə diqqətlə baxırdı: "Görəsən, atlı qarışqalar da qayğı çəkirlərmi?... Bir-birilərindən küsürlərmi? Qeybət qırırlarmı?.. Yorğun-arğın düşüb dinclərini alırlarmı?" Canəli kirpiklərini tez-tez çırpdı və Qaçaya elə gəldi ki, onun gözləri nəmlidir.

– Niyə bikefsən? – deyə onu diksindirəcəyindən qorxurmuş təkin astadan soruşdu.

Kişi qımıldanmadı. Oğlan onun dirsəyindən yapışıb ehmalca silkələdi:

– Canəli dayı, ay Canəli dayı, sənə nə oldu, qanın niyə qaraldı?

Canəlinin donuq nəzərləri Qaçayın üzündə ilişib qaldı. Köks ötürdü və bu an onun çiyinləri qulaqlarına qədər qalxdı. Nazik boğazı itib-batdı, görünməz oldu.

– Bic vələdürzinalar yenə qan-qan deyirlər, Koroğlu. Dünyadan müharibə iyi gəlir. Qəzetləri oxumursan?.. Qoymurlar rahat dolanaq. Aləm qarışıb bir-birinə. Davanın da naxoşları, azarkeşləri var. Bu saat qazan qarışdırırlar. Balaca dövlət görən kimi qapazlamaq istəyirlər. Bunlara deyən gərək, a köpəkuşağı, camaatdan nə istəyirsiniz? Balaca xalqın adamları adam döyül? Onlar da yaşamaq istəyirlər axı. Onların da dərd-sərləri var, iş-gücləri var, qoyun dolansınlar də.

– Yəni deyirsən, müharibə olacaq?

– Bizdən qorxurlar. Sən ölәsən, yoxsa günü sabah kürreyi-ərzi külə döndərərlər.

– Əşi, fikir çəkmə, əl-qol atsalar, cavablarını verərik.

– Yox, yox! Allah eləməsin. Sən müharibə görməmisən. Dədəndən soruşsan, danışar. Müharibə müsibətdir. Razıyam, ac olum, susuz olum, amma müharibə olmasın. – Canəli qıçını qıçının üstündən götürüb, qolunu skamyanın söykənəcəyinə qoydu. – Kiçik qızım Bakıda institutda oxuyur. Qurtarsın, çıxacam pensiyaya. Əl-ayağımı uzadıb dincələcəm. Davanın ağrısı hələ canımdan çıxmayıb... Yox, yox, müharibə olmasın. Gecələr rahat yatmaq istəyirəm... Adam gərək öləndə də rahat ölsün.

Qaçay söhbətin səmtini dəyişdirməyə çalışdı. Yoxsa Canəlinin ovqatı təlx vaxtında ondan borc istəmək yerinə düşməzdi. Ancaq nə desin? Birdən-birə bulud kimi tutulmuş kişinin könlünü necə açsın?

Canəli köks ötürdü. Furajkasının günlüyündən tutub bir balaca tərpətdi. Bu vaxta qədər hamıdan gizlətdiyi qırmızı ləkəli, tüksüz başının qabağı göründü. Qaçayın yadına Qıratı qaçırdan fəndgir Həmzə düşdü. Və indi, allah bilir, Türkmənistanın hansı guşəsində olan Nurmurad Çarıyevi xatırladı.

Canəlinin fikrini dağıtmaq üçün Qaçay hardansa ağlına gələn ilk sualı verdi:

– Canəli dayı, sən toylarda ağır havaya oynayırsan, yoxsa yüngül havaya?

Canəli əcaib bir şeyə baxırmış kimi ağzını açıb təəccüblə oğlanı süzdü. Deyəsən, Qaçayın sözlərini tamam-kamal başa düşməmişdi. Kişinin, dərisi işıldayan üzündəki, xırda, oynaq gözlərindəki çaşqın ifadədən oğlan anladı ki, Canəlinin ona yazığı gəlir və güman ki, bu dəqiqə belə fikirləşir: "İlahi, görəydim bu yer üzündə bu Qaçaydan səfeh adam varmı?"

– Nə dedin, ə?

Yersiz sual verdiyini Qaçay söz ağzından qurtarmamış anlamışdı, ancaq gec idi.

– Deyirəm, ağır havanı xoşlayırsan, yoxsa...

– Niyə soruşursan?

– Maşallah, çox qıvraqsan, deyirəm, yəqin oynamağın da qıvraq olar.

– Yaman bəzzadsan, ha! – Canəli dodaqlarını marçıldadıb gülümsədi. – Havanın ağırı da sümüyümə düşür, yüngülü də. Amma toylarda oynadığım yadıma gəlmir. Utanıram. Atalar demişkən, utanmasan, oynamağa nə var?.. Radioda hərdən oyun havaları çalırlar ha, bax, onda xəlvətə düşəndə bir-iki dəfə fərasətimi yoxlamışam. Görürəm ki, bacarmıram. Əllərimi oynadıram, ayaqlarım yadımdan çıxır, ayaqlarımı oynadıram, əllərim yadımdan çıxır.

Canəlinin kefi durulmuşdu, gözləri gülürdü. Qaçay fikirləşdi ki, borc istəmək üçün məqam çatıb. Ancaq bilmirdi söhbətə nədən başlasın, mətləbini necə desin.

Canəli onu dümsüklədi:

– Motosikletin beşiyində qarpız var. Dur gətir, kəsək.



Canəli hər gün işə qarpız gətirərdi. Ürəyi su istəyəndə qarpız yeyərdi.

Qaçay alaköynək iri qarpızı qucağına alıb geri qayıdınca Canəli skamyadan durub akasiya ağacının altında oturmuşdu. Uzun qəməli, qatlama bıçağı əlində hazır idi. Oğlan onunla üzbəüz çöməldi: "Canəli qarpız yeyəndə məsələni açaram".

Kişi əvvəlcə qarpızı çırtmaladı, sonra qulağına yaxınlaşdırıb iki əlinin arasında sıxdı.

– İçi qan kimidir, – dedi. Bıçağı qarpızın baş tərəfinə dirədi. – Qədim təbiblər buyurublar ki, qarpız yeyən adamın böyrəklərində heç vədə daş olmaz. İndiyəcən böyrəyimdə bir damcı ağrı olmayıb, çünki tez-tez qarpız yeyirəm. – Canəli qarpızın baş tərəfini dəyirmicə kəsib, bıçağın ucu ilə dörd yerə böldü. Həmin parçaları ovcuna yığıb, əlini qarpızın üstündə dolandırdı. – Koroğlu, ürəyində bir niyyət tut.

Qaçay ürəyində niyyət tutdu: "Əgər Canəli mənə borc pul verəcəksə, qabıqların ikisi üzü üstə düşsün, ikisi arxası üstə".

Canəli qabıqları yerə atdı. Hamısı üzü üstə düşdü. Qaçayın mısmırığı sallandı. Elə bil taleyi Canəlinin bu falından asılı imiş. Yazıq-yazıq soruşdu:

– Bir də atmaq olar?

– Atalar üçəcən deyib. – Atdı. – Necədir?

Oğlanın gözlərinə işıq gəldi. Əllərini bir-birinə vurdu. Qabıqlar onun istədiyi kimi düşmüşdü.

– Əla!

– Onda ürəyini buz kimi elə, işin düzələcək. – Canəli qarpızı dilimləməyə başladı. O da gülümsəyirdi. Sevinirdi ki, Qaçayın niyyəti düz gəlib. İri dilim kəsib oğlana uzatdı: – Ye.

Qaçay dilimin o biri başından yapışdı və Canəli onun yoğun barmaqlarına nəzər saldı. Əlini tez çəkdi. Öz barmaqlarının balaca, nazik və yöndəmsiz olduğunu elə bil indicə gördü. Qaçayın qalın qara qaşlarına, pərələri enli burnuna, sümüklü, qarabuğdayı sifətinə baxdı.

– Neçə yaşın var?

Oğlan ortası çökək dəyirmi çənəsinə axan qarpız suyunu əlinin dalı ilə sildi:

– İyirmi iki.

– Yaxşı böyümüsən. Maşallah, cantaraqsan... Amma gözlərin müsəlman gözlərinə oxşamır. Göydür.

Qaçay:

– Göy deyil, qonurdu. Bacımın da gözləri belədir, atamın da, – dedi və Mikayılın gözlərində indi boz-bulanıq pərdə olduğu yadına düşdü. İstədi səhvini düzəltsin. Desin: "Əvvəllər atamın da gözləri qonur idi". Ancaq ağzından başqa söz çıxdı. – Bizim gözlərimiz atamın gözlərinə oxşayır.

Canəli əlindəki dilimi qıçaladı. Bıçağın ucunu batırıb qıçanın birini ağzına qoydu.

– Bəh, bəh. Mətdi, mət... Camaat basa-basa bura nahaq yerə gəlmir ki? Oğurluq-doğurluq bir ucdan daşıyırlar. Özü də gecələr aparırlar ki, görən olmasın... Bir həftənin sözüdür, gecə durmuşdum pusquda. Dörd yol ayrıcında, kanalın üstündə stolova var ha, orada dayanıb gözləyirdim. Bir də gördüm budu, maşınlar dalbadal gəlir. Saxlatdım. Beş maşındı. Kürqırağı tərəfdən, Yastıyol bostanlarından qarpız yığmışdılar. Maşınları dodaqbadodaq tığlamışdılar. Sənədləri də yox idi. Dedim, qaytarın! Düşdülər əl-ayağıma. Bir pəzəvəngi vardı, çəkdi məni qırağa. Dedi, maşınbaşı iki yüz manat veririk, bizi burax. Hirs məni boğdu. Dedim, ə, pulunu göstərirsən? Sən öləsən, səni elə vurram, pərpətöyün toxumu kimi dağılarsan. Amma zalım oğlu zor şeydi, əl bulasaydı sümüklərimi xıncım-xıncım eliyərdi. Qırımımdan qorxdu. Yəqin fikirləşdi ki, belə odlu-odlu danışan adamın dilinə görə dilçəyi də var. Əlqərəz, maşınların beşini də saldım motosikletin qabağına. Qarpızları elə gecəynən tökdürdüm koptorqun dükanına.

Canəli susan kimi Qaçay istədi borc məsələsini atsın ortaya. Amma Canəlinin söhbətini fikrindən çıxarıb özünü cəmləşdirə bilmədi. Düşündü ki, kişinin indicə dedikləri şişirtmədir. Bir maşın qarpız üçün heç kim ona iki yüz manat verməz. "Beş maşının hərəsinə o qədər versəydilər, Canəlinin min manatı olardı. Bir mebelin qiyməti..."

– Canəli dayı, indi də qarpız daşıyırlar? Axı, bostanlar sovuşub.

Canəli alt dodağına yapışmış qara tumu dilinin ucu ilə itələyib yerə saldı.

– İndi də daşıyırlar... Qarpız qışacan qalır. Mən də on-on beş dənə seçmə qarpız saxlayıram qışa. Qız tətilə gələndə yeyir. Hərdən Bakıya da göndərirəm ki, uşaq korluq çəkməsin. Pay ayrı şeydi, qardaş, hərçəndi özü də orda tapıb yeyir. Pulu var, təqaüd alır. Hər ay otuz manat da mən yollayıram. Az deyil ki?

– Qaçay bu məbləğin qıza bəs eləyib-eləməyəcəyi barədə fikirləşmədən cavab verdi:



– Yox.

– Neynəyim? Gücüm buna çatır. Çox olsaydı, çox göndərərdim.

Canəli bıçağı qarpızın özəyinə sancdı. Qollarını dikəlmiş dizlərinin gündəsinə qoydu. Yenə xəyalı haralarasa uçdu. Kişi birdən-birə büzüşdü, balacalaşdı, xırda gözləri qıyılıb lap kiçildi, bəbəkləri güclə göründü.

Onun son sözləri Qaçayın əllərini yerdən-göydən üzdü. "Canəlidən borc istəmək ağılsızlıqdır... Yox, yox, ondan atlı qarışqa olmaz. Canəli atlı qarışqanın adını batırmasın. Qoy gedib cırcırama olsun, kəpənək olsun, ağcaqanad olsun".

Kişinin gözləri tamam yumuldu. Yuxuda danışırmış kimi nazik dodaqlarını güclə tərpətdi:

– Matasiklet məni yaman yorur... Yaman... At heyif döyül? Canı var, nəfəsi var... Ot-ələf yeyir, su içir. Təkətəkliyə düşəndə elə bilirdim yanımda yoldaşım var. Amma matasiklet heç nə qanıb-qandırmır. Heç nə qanmır, heç nə... Heç nə...

Qaçay onun dediklərini eşitmirdi. Gözlərinin qarşısında bir dəstə maşın sıralanmışdı. Hamısının da kuzovu qarpızla dolu. İyirmi... Otuz... Qırx... Yox, saymaqla qurtaran deyildi. Maşınların ardı-arası kəsilmirdi.

* * *

Canəlidən bir neçə saatlığa aldığı motosikleti Qaçay yol ayrıcında saxladı. Yəhərdə yanpörtü oturub ayaqlarını sallatdı. Azacıq aralıda qaranlığa qarışıb itən, qırılan yola diqqətlə baxdı.

Kanalın üstündəki yeməkxananın işıqları keçdi. Böyük bina qaranlıqda səyriyən kölgə kimi göründü. Səhər-axşam yeməkxananın qarşısından əl çəkməyən sahibsiz itlərin mırıltısı eşidildi. Oğlan, bu mırıltıya, zingiltiyə qulaq asdıqca Əntiqəgilin hər gün ona hürən itini xatırladı: "O yavadır, toxdur. Harınlıqdan zəncir çeynəyir".

Qaçayın gözləri qarşısında Əntiqənin ağ yarımheykəli dayandı. Yarımheykəl oğlana məhəbbətlə baxdı. Gülümsədi. Sonra qaşqabağını salladı: "Məktubuma niyə cavab yazmırsan?" – deyə məzəmmətlə soruşdu və cavab gözləmədən yox oldu. Bu sakit, kimsəsiz çöldə təkcə səsi qaldı: "Niyə cavab yazmırsan? Niyə?.. Niyə?.."

Qaçay əlini kitelin döş cibinə vurdu. Əntiqənin məktubu orada idi, şax-şax lotereya biletlərinin yanında. "Yazacağam ki, heç ürəyini sıxma, Əntiqə. Mən səni unutmamışam. Unutmaram da. Ancaq səni

qaçırtmayacağam. Qaçırtmaq niyə? Elçi göndərəcəyəm. Qoy Ağcanı köçürək, darıxma. Nurmurada xəbər göndərəcəyəm, toyumuza o da gəlsin. Əsgərlikdə söz vermişik, o da məni toyuna çağıracaq. Türkmənistana səninlə birgə gedərik. Nurmurada deyərik, Koroğlunun qəbrini bizə göstərsin. Görək elə qəbir varmı? Görək o necə qəbirdir".

Qəribə də olsa, Qaçay hiss etdi ki, indi onun ürəyində Pənaha qarşı heç bir qərəz, kin yoxdu. Sanki bir dəfə savaşmaqla bütün acığı sovuşmuşdu. O, həmin gün Pənahın gözlərində qorxu ifadəsi görmüşdü, onun rənginin qaçdığını, ətli və aralı dodaqlarının titrədiyini görmüşdü. Daha Qaçay ondan çəkinmirdi, daha ona nifrət eləmirdi. İndi Pənaha yazığı gəlirdi.

Uzaqda işıq yandı. Qoşa nöqtələr yavaş-yavaş yaxınlaşdı, böyüdü, bir-birinə qarışıb gurlaşdı. Qaçayın ürəyi əsdi. "Bunun qabağını necə kəsim? Nə deyim?.. Əgər qarpız aparan maşındırsa, niyə təkdir?". Oğlan yəhərdən düşmədi. Sol əlini qamaşan gözlərinin üstünə qoydu. Maşın yanından ötdü. Qaçay yenə qaranlığın qucağında qaldı. Uzaqlaşan maşının arxadakı qırmızı işığına baxdı: "Yaxşı ki, "Moskviç" idi. Onda yük aparmazlar...".

Burada olduğu bir saat ona bir il kimi göründü. Darıxdı. İstədi çıxıb getsin. Buraya gəlməyinin səbəbini hələ özü də lazımınca dərk eləmirdi. Adını bilmədiyi, dərinliyinə enmədiyi şirnikdirici, qeyri-müəyyən bir hiss onu burdan uzaqlaşmağa qoymurdu.

Lap uzaqda – göydə gurultu qopdu. Elə bil qara buludların arxasında saysız-hesabsız top atıldı, əks-sədası torpağı lərzəyə gətirdi və bu əks-səda göylə-yerin birləşdiyi qaranlıq, uzaq nöqtədə əriyib söndü. Qaçay belə anlarda atasının təşvişlə dediyi sözləri xatırladı: "Ay uşaq, o səbətlərin üstünə kilimdən-zaddan bir şey çəkin. Bu saat yağış yağacaq, leysanın altında çürüyər səbətlər".

Oğlan nəzərlərini asfalt yola dikdi. Qarşısında bir cüt göz parıldayırdı. Qaçay diksindi: "Canavar!" Sonra başa düşdü ki, parıldayan bu bir cüt göz hələ uzaqdadır. Motor uğultusu eşidəndə qorxusu sovuşdu. Qaçay onun nəriltisindən yük maşını olduğunu anladı. "Bu maşın hara gedir? Nə aparır? Kimindir?". O, motosikletdən aralandı.

Qaçay bir anlığa işıq selinin içində üzdü. Gözlərinə səyriyən nöqtələrdən başqa heç nə görünmədi. Maşının dayanmağı üçün onun əlinin bircə işarəsi kifayət idi. İstədi əlini qaldırsın, birdən yadına Pazaq Vəli düşdü. Elə bildi Pazaq Vəli bu maşının kabinəsində oturub. Elə



bildi Pazaq Vəli onu görən kimi rişxəndlə güləcək: "Hə, sənin belə işlərin də varmış?!" Qaçayın qolları ağırlaşdı. Maşın onun yanından asta-asta keçib getdi...

Qaçay o gecə evlərinə qayıtmadı, növbətçi milisionerin yanında qaldı. Özündən üç-dörd yaş böyük olan iş yoldaşının şirin zarafatları da onun eynini açmadı. Gözləmə otağındakı enli skamyada uzandı. Canında, beynində yorğunluq, ağırlıq hiss etsə də, yuxusu yox idi. Yanlarını əzən taxta skamya ona öz yorğan-döşəyindən rahat gəlirdi. Çünki anasının sual dolu baxışlarını bu gecə görmürdü. Çünki evlərindəki ürəksıxıcı sükutun içində əriyə-əriyə xörək yeməkdən bu gecə canı qurtarmışdı.

... Səhər açılan kimi boş otaqlar səs-küylə doldu. İri, ağır çəkmələr dəhlizdə taqqıltı qopartdı. Qaçay yenə gözləmə otağındakı skamyada kirimişcə oturmuşdu. Beyni ağırlaşıb kütləşmişdi, fikirlərini bir nöqtədə cəmləşdirə bilmirdi. Kirpik çaldıqca gözləri gicişirdi. Yanından keçən, onunla salamlaşan iş yoldaşları Qaçayın əhvalındakı dəyişikliyi duymadılar. Bir gecədə onun arıqladığını, rənginin qaçdığını, qonur gözlərinin şişib qızardığını heç kim hiss etmədi, heç kim. Təkcə Sahibovdan başqa!

Mayor içəri girən kimi Qaçay ayağa qalxıb şax dayandı. Sahibov oğlana baxıb gülümsədi və birdən ciddiləşdi, təbəssümü xırda gözlərinin yanlarındakı qırışlarda donub qaldı.

Rəis boğazını arıtladı:

– Görkəmin xoşuma gəlmir, Koroğlu, – dedi. – Azarlamamısan ki?

– Xeyr, yoldaş mayor!

Sahibov Qaçayın qolundan tutub kabinetinə tərəf çəkdi.

– Niyə bikefsən?

Qaçay dillənmədi.

Kabinetə girdilər. Sahibov öz yerinə keçdi. Əyləşmək üçün Qaçaya da yer göstərdi. Sualını təkrarladı:

– Niyə bikefsən?

Oğlan əməlli-başlı cavab verə bilmədi. Nəsə mızıldandı.

Rəis onun qızarıb şişmiş gözlərinə baxdı.

– De görüm nə olub?

Qaçay fikirləşmədən, sözlərini ölçüb-biçmədən ürəyini açdı:

– Mənə pul lazımdır... – Üzünü pəncərəyə tutub dodaqlarını gəmirdi. Elə bil canındakı yorğunluq bu sözlərlə sovuşub getdi. Qaçay

daxilində də qəribə bir yüngüllük duydu. Neçə vaxtdan bəri qəlbində gəzdirdiyi yükü sanki bir anda rəisin üstünə tulladı. Sahibov çiynini bu ağırlığın altına verəcəkdimi, bu yükü daşımağa şərik çıxacaqdımı? İndi bunun Qaçay üçün əhəmiyyəti yox idi. Əsas məsələ bu idi ki, Qaçay dərdini, diləyini heç olmasa bir nəfərə deyib, azacıq rahatlanmışdı.

Mayorun əsəbləri sığallayan sakit səsi eşidildi:

– Nə qədər lazımdır?

Qaçay dodaqlarını gəmirə-gəmirə hələ də pəncərəyə baxırdı.

O:

– Beş yüz manat, – dedi.

Sahibov qarşısındakı qovluğu açıb hansı kağızasa xeyli baxdı. Sonra köks ötürüb qovluğu kənara qoydu. O, bu qədər pulun nəyə lazım olduğun Qaçaydan soruşmadı. Nəzərlərini oğlanın soluxmuş sifətində gəzdirdi. Balaca, ağ telefonun dəstəyini götürüb nömrələri yığdı:

– Saday?.. Sədrəddindi danışan... Qaçayı göndərirəm yanına, ona beş yüz manat pul verərsən. – Dəstəyi qoydu. – Get Saday bacının yanına... Unutma, Koroğlu, get. Borcunu yavaş-yavaş qaytararsan, səni tələsdirən yoxdur.

Qaçay elə bildi ki, rəis onunla zarafat edir. Elə bildi ki, mayor ağlına gələn nömrələri yığdı və telefonda heç kim ona cavab vermədi. Mayor elə-belə, öz-özünə danışdı. Danışdı ki, oğlan azacıq da olsa təsəlli tapsın. Yox, yox, bu, nağıldır, bu, yuxudur. Çətin iş də belə asan düzələrmi? Bax, Qaçay kabinetdən çıxıb yüyürə-yüyürə Sahibovgilə gedəcək və qapıda iri qara qıfıl görəcək. Ona deyəcəklər ki, Sayad bacı çoxdan köçüb, daha bu evdə yaşamır. Deyəcəklər, Sayad bacı bu rayondan çox-çox uzaqlardadır; atası evindədir, Bakıdakı qızının yanındadır, kurortdadır...

Qaçay təşəkkür eləmədi. Ağzını açıb bir kəlmə də danışmadı. Stolun üstündəki qovluğu araşdıran Sahibovun koppuş əllərinə baxa-baxa dalı-dalı çıxdı.

...Kağıza bükülmüş bir dəstə pul Qaçayın enlibalaq mahud şalvarının sağ cibində idi. Sağ ayağını atdıqca cibində ağırlıq hiss edirdi. O tələsirdi. Fikirləşirdi ki, evə çatan təkin pulu çıxarıb stolun üstünə qoyacaq və anasının gözlərində dolanan sual, intizar həmin dəqiqədən çəkilib gedəcək. Qaçay xörək yeyəndə daha nəzərlərini boşqaba zilləməyəcək, daha tikəsi boğazında ilişməyəcək... Yenə hardansa Pazaq Vəli yadına düşdü. Elə bildi ki, Pazaq Vəli onun borc almağından da,



cibindəki pulun qədərindən də xəbərdardır. Pazaq Vəli hətta, Sahibovun evindəki pulun miqdarını da bilir.

Qaçay yan-yörəsinə baxdı. Əlini üstdən sağ cibinə sürtüb rahat nəfəs aldı. Doqqazlarına çatıb dayandı. Yadına düşdü ki, Əntiqəgilin evinin yanından səssiz-səmirsiz keçib. Ayaqlarını yerə döyməyi unudub...

Qaçay otağa sevincək girdi. Anasının gözlərinə baxıb əlini cibinə saldı. Cavahir kirpiklərini çalıb üzünü döndərdi. Çarpayının örtüyünü dartışdırdı. Özünü məşğul kimi göstərdi. Oğlan hiss etdi ki, anası başını yuxarı qaldırmaq, onunla göz-gözə gəlmək istəmir. Arvad ehmalca yan otağa keçib, ara qapını örtdü.

Qaçay stolun arxasında oturan atasına baxdı. Onun barmaqları arasında tüstülənən papirosa nəzər saldı. Ürəyi əsdi. Qorxa-qorxa soruşdu:

– Hanı Ağca?

Kişi dillənmədi. Qaçay səsini qaldırdı:

– Hanı Ağca? – Ağca? – Mikayıl eşmədən bir qullab aldı. Göyümtül tüstü tüklü üzünə yayıldı. – Ağca getdi... Cahid götürüb qaçırtdı Ağcanı öz yerlərinə.

Qaçay atasının titrəyən dodaqlarının kənarında təbəssüm gördü. Heyfsiləndi ki, onun gözlərinə baxa bilmir, ürəyinin çilik-çilik olmuş aynasında heç nə görmür. Oğlana elə gəldi ki, Mikayıl qızının qoşulub qaçmağına sevinir.

Qaçayı qəhər boğdu. Nəmli gözlərini atasından gizlətmək istədi. Yadına düşdü ki, Mikayıl onun kirpiklərində giləlanən yaşı görmür. Qaçay cibindəki pulları ovcunda xışmalayıb udqundu: "Yaxşı ki, atam heç nə görmür... Yaxşı ki, görmür... Görmür..."

*Bakı, oktyabr, 1970*

# KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM...

Xəlil qapıdan girəndə arvadı təəccübləndi; Xəlilin vacib işi olmasaydı günortalar evə gəlməzdi. Teybə çox vaxt axşam xörəyindən saxlayıb çörəyin arasına qoyar, onu qəzetə yaxşı-yaxşı bükərdi. Xəlil də səhər evdən çıxanda həmin bükülünü qoltuğuna vurardı. Aparmaq üçün fərqli xörək olmayanda Xəlil günorta hamamın yanındakı yeməkxanaya gedərdi. Bir də ki, onun yeməyi nə idi? Uşaq kimi, dörd yarpaq dolması onu xirtdəyəcən doyuzdurardı. Teybə yeddi il idi ki, onunla bir damın altında yaşayırdı və bu yeddi ildə Xəlilin istirahət günlərindən başqa günortalar evdə tikə kəsdiyini görməmişdi.

Teybə ərinə nəzər saldı və qorxdu. Xəlilin arıq, uzunsov sifəti bozarmışdı. Damağındakı "Kazbek"in islanmış kötüyünü çeynədikcə batıq ovurdları tərpənirdi. Qıyılmış xırda gözləri otağın künc-bucağında nəsə axtarırdı. O, papirosun kötüyünü dişləyib tüpürdü.

– Uşaqlar hanı?

Teybə ərinin döşəməyə tüpürdüyü papiros qırıntısına baxdı və təəccübü, qorxusu daha da artdı. Xəlil evdə belə iş tutmazdı, hara gəldi tüpürməzdi. O, çox səliqəli idi, təmizkar idi. Döşəmədə kağız qırıntısı, kibrit çöpü – artıq nə görsəydi əyilib götürərdi. Teybə onun sivri çənəsinə, bir yerdə qərar tuta bilməyən xırda gözlərinə nəzər saldı və nədənsə, düşündü ki, Xəlil bu dəqiqə uşaqlar haqqında heç nə fikirləşmir, nəsə başqa söz demək istəyir, uşaqları isə elə-belə soruşdu. Ona görə də Teybə ərinin sualına cavab vermədi.

– Azarlamamısan ki, Xəlil?.. Niyə oturmursan?

– Gedirəm... İşlərim tökülüb qalıb. – Səsi də titrəyirdi. Elə bil kimsə onu hirsləndirmişdi, kimsə nahaqdan qəlbinə dəymişdi. Evə nə məqsədlə gəldiyi, deyəsən, özünə də aydın deyildi.

Xəlil sönmüş papirosunu sümürə-sümürə qapıya doğru getdi. Birdən ayaq saxladı. Arvadına tərəf yanpörtü dayanıb, onun heyrətini daha da artıran bir sual verdi:

– Bənna Həmidi tanıyırsan?.. Evin üstündən yıxılıb, beli sınıb. Ölümcüldü. Bilirsən?

– Eşitmişəm. – Teybə ərinin sözlərindən heç nə anlaya bilmədi. Səbrini basıb onun nə deyəcəyini gözlədi.



O kişinin üstünə Bakıdan təcili həkim çağırıblar. Həkim bu gün gəlib. Alimdi. Familyası da Cəfərzadədi.

Teybə əllərini yellədi:

– Nə olsun ki?

Xəlil gözlərini yumub köks ötürdü:

– Mənim də familiyam Cəfərzadədi.

Teybə özünü lap itirdi. Elə bildi ərinin başına hava gəlib.

– Bizə nə dəxli, Bakıdan həkim çağırıblar? Elə bununçün əl-ayağın əsir? Bununçün dilin topuq çalır?

– Bakıda mənim əmim oğlu var. Dost-doğma əmim oğlu... Bəhmən Cəfərzadə... Həkimdi, alimdi... Deyirlər, Həmidin üstünə gələn həkimin də adı Bəhməndir. Birdən o olar? Bəlkə odu? Mənim dost-doğma əmim oğlu?..

Xəlil elə məhzun-məhzun baxdı ki, Teybənin ona yazığı gəldi. Anladı ki, əri ondan cavab gözləyir. Ərinin şübhəsini dağıtmaq üçün bu dəqiqə onun bircə kəlmə sözü, bəlkə, kifayət edər. Ancaq Teybə nə desin? O, Xəlilin keçmişi barədə çox az şey bilir. Onun qohumlarını görməyib. Axı, Xəlil özü ona deyib ki, bu dünyada heç kimim yoxdur, təkəm, kimsəsizəm. Hətta onun haralı olduğunu da Teybə doğru-dürüst bilmir. Təkcə onu bilir ki, Xəlil bu rayona haradansa səkkiz il əvvəl gəlib. Bir ildə özünə güzəran qazanıb. Sonra da Teybəni evinə gətirib.

Əgər Xəlil yanında olmasaydı Teybə öz təpəsinə ikiəlli qapaz çəkərdi. "Günün qara gəlsin, Teybə! Yeddi il bir yastığa baş qoyduğun adamın nəslini, zatını tanımırsan. Bunun əmisi oğlu da varmış? Bəs deyirdi kimsəsizəm, yetiməm".

Xəlil arvadını heyrət içində qoyub qapıdan çıxdı...

Rayon mərkəzində uca dirəkdən asılmış iri zəngə oxşayan gümüşü radioda qulaqbatıran, gurultulu, dəbdəbəli musiqi çalınırdı. Gecə saat on ikiyə qədər susmaq bilməyən radionun səsi Xəlili hərdən əsəbiləşdirirdi. Bəzən ürəyindən keçirdi ki, dirəyin lap kəlləsinə dırmaşıb radionu sındırsın. Xəlil indi bu gurultunu eşitmək iqtidarında deyildi. O, ocaqxananın açıq qapısı ağzında dayanıb gözlərini qupquru, çılpaq, əyri-üyrü ağaclara dikmişdi.

Qəribə qış idi bu qış. Nə vaxt idi girmişdi, amma hələ bir dəfə də olsun qar yağmamışdı. Hərdən soyuq külək əsirdi, vəssalam. Torpaq

bərkiyib taxtaya dönmüşdü, ayaq dəydikcə taq-taq taqqıldayırdı. Günəş arabir görünsə də elə bil zərrə qədər istiliyi yox idi. Gündüzlər göyün rəngi boz olurdu və bu bozluq sanki yerə də çökmüşdü. Hər şey boza çalırdı; evlər, ağaclar, hətta adamlar da. Xəlil yerlə göyü birləşdirən bozluğa baxır və deyəsən, seçmirdi bu rəngi. İndi havanın necə olmasının onunçün dəxli yox idi. Bu dəqiqə Xəlil bu soyuqdan da, bozluqdan da, hamamın gurultulu, fışıltılı ocaqxanasından da çox uzaqda idi. Ömrünün əlçatmaz bir gününə qayıtmışdı.

...Bəhmənlə Xəlili Bakıya birgə yola saldılar. Dedilər, bir-birinizə həyan olun, instituta girəndən sonra da ayrılmayın. Yan-yana yatın, dərd-sərinizi də, son tikənizi də yarı bölün, dedilər və dallarınca neçə dolça su atdılar. Bu an heç kim qayıtmaq barədə düşünmürdü; yola salanlar da, yol gedənlər də. Heç kimin ağlına gəlmirdi ki, vur-tut bircə aydan sonra Xəlil bu kəndə tək qayıdacaq...

Gedəndə hayla-küylə getmişdi, gələndə səssiz-səmirsiz gəldi. Köhnə çamadanını artırmaya tullayıb, maddım-maddım ona baxan anasına ağızucu dedi:

– Kimyadan iki aldım.

Gülxar cınqırını da çıxartmadı. Elə bil nitqi batmışdı. Heyrət, təəssüf dolu iri gözlərini oğlunun seyrək tüklü, arıq üzünə dikdi. Kirpik də çalmırdı. Xəlil anladı ki, adamı əzən, əridən bu nəzərlərə tab gətirə bilməyəcək. Artırmaya qalxıb arxasını sütuna söykədi. Anasının hönkürtüsünü, ah-vayını gözlədi. "Kaş ağlayaydı, amma elə baxmayaydı".

Yandakı evdən Bəhmənin anası Xavər çıxdı. Xəlili görüb özünü Gülxara yetirdi.

– Noolub, aaz? Gədə niyə qayıdıb?

Gülxar bir-iki kəlmə nəsə pıçıldadı. Sonra Xavərin get-gedə ucalan qəhərli, titrək səsi eşidildi:

– Barmaqları tökülsün o müəllimin! Əllərinə qarayara çıxsın onun! – Qışqırıq xırp kəsildi və acı hönkürtüyə çevrildi.

Xəlil əmisi arvadına baxmaq üçün başını döndərdi, ancaq nəzərləri anasının səyriyən dodaqlarından uzağa getmədi. Gülxarın iri açılmış gözlərində yenə həmin heyrəti, təəssüfü gördü. Anasının adamı əzən, əridən baxışları onun canına üşütmə gətirdi. Xəlil anladı ki, bu baxışları qəbir evinə qədər unuda bilməyəcək...

Həmin gecə, qapısı və pəncərələri taybatay açıq balaca otaqda dörd nəfər fikir-xəyal dənizində ağırləngər üzürdü. Hava bürkülü olsa



da heç kim çölə çıxmaq istəmirdi. Elə bil yad gözlərdən gizlənirdilər. Xəlil başa düşürdü ki, atası da, anası da, əmisi arvadı da onun ucbatından xəcalət çəkir. Bilirdi ki, bu kənddə fərsiz oğulları lağa qoyub gülürlər. Açıq-aşkar olmasa da dalda-daldada ona rişxənd eləyənlər tapılacaq. Lakin bütün bunlar onu qorxutmurdu. İndi Xəlilin qanını qaraldan yeganə şey evdəkilərin ah çəkib, köks ötürmələri idi...

Gülxarla Xavər cecimin üstündə yanaşı oturmuşdular. Əziz onların qənşərində dizlərini qatlayıb əyləşmişdi. Gözləri yol çəkə-çəkə papiros sümürürdü. Xəlil açıq qapıdan artırmaya düşən işıq zolağına baxıb fikirləşdi: "Bunlar mənim geri qayıtmağıma niyə yas tuturlar? İnstituta girə bilməyəni ölkədən çıxartmırlar ki?" Xəlil anlayırdı ki, bu kənddə təkcə Sayadın gözlərinə bir müddət görünə bilməyəcək. Onların darvazasının qabağından başını şax tutub keçə bilməyəcək. Damına iri tut ağacının qol-budaq uzatdığı kürsülü evin artırmasına boylana-boylana sevimli mahnısını zümzümə eləyə bilməyəcək:

"Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın..."

Bir müddət, yalnız bir müddət belə olacaq. Sonra zaman hər şeyi öz yerinə qoyacaq, hər şey qaydasına düşəcək. Xəlil heç kimdən utanmayacaq, heç kimdən gizlənməyəcək. Çünki Xəlil hələ ölməyib, hələ qocalmayıb, gecə-gündüz yatmayacaq, başını daşa-divara döyüb kimyanı əzbərləyəcək və gələn il tibb institutunun işıqlı otaqlarından birində oturub mühazirəyə qulaq asacaq. Sonra da Sayad haqqında şirin xəyallara dalacaq. Mühazirə oxuyan müəllim də bilməyəcək ki, Xəlilin fikri bu işıqlı otaqdan çox-çox uzaqdadır, bilməyəcək ki, onun ürəyində həzin bir mahnı dolanır:

"Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın..."

Bütün işləri düzəlibmiş kimi Xəlil rahat nəfəs aldı. Atasının papirosundan qalxıb, burula-burula açıq pəncərəyə tərəf baxan göyümtül tüstüyə baxdı. Otaqdakı sakitlikdən ürəyi sıxıldı. Birdən-birə danışmaq, qışqırmaq istədi. Fikirləşdi ki, kaş kimsə qapıdan girəydi, içəridəki sükutu pərən-pərən salaydı. Heç olmasa pəncərənin şüşəsi çilik-

lənəydi, tavanın tiri çarthaçartla sınaydı, ya da elektrik lampası partlayaydı, bu otağa səs-küy düşəydi.

Xavər burnunu çəkib cuna qıyqacının ucu ilə gözlərini sildi. Əziz ona ötəri nəzər salıb tez də üzünü döndərdi. Ortalığa acıqlı-acıqlı dedi:

– Gözünüzün qorasını sıxmayın... Dost var, düşmən var. – Papirosun göyümtül tüstüsü arvadların başı üstündə buruldu, dalğalandı. Əzizin kal səsi alçaldı. – Şükür Allaha, uşağımızın biri instituta girib, bəsimizdir. Ya Bəhmən, ya Xəlil, nə təfavütü var? Xəlil də gələn il girər. Hamınıza deyirəm: bu barədə bir kəlmə söz eşitməyim, yoxsa... – Sözünün ardını gətirmədi. Gülxar da, Xavər də yaxşı bilirdilər ki, Əzizin hədəsi havayı söhbət deyil.

Xəlil azacıq sakitləşdi. Durub asta-asta artırmaya çıxdı. İçərdəkilər elə bil buna bənd idilər, başladılar xısın-xısın danışmağa. Xəlilə də bu lazım idi: "Qoy ürəklərini boşaltsınlar".

O, həyətə düşdü. Aydınlıq idi. Bəhməngilin kürsülü evi də, damına ot yığılmış uzun tövlə də, gövşək vuran inəklər də açıqca görünürdü. Xavər otağın işığını yandırmamışdı. Xəlil düşünürdü ki, əmisi arvadı Bəhmənsiz darıxacaq. "Xavər indi tək qaldı, lap tək... Tək niyə? Bəs atam? Bəs anam?.. Bəs mən?" Xəlil ağlı kəsəndən bəri əmisigillə özləri arasında ayrı-seçkilik görməmişdi. Mal-qaraları da bir tövlədə olurdu, ot tayaları da bir idi. İki evin bir təndiri vardı. Əmisinin sağlığında da belə olmuşdu, indi də belədir. Xəlil davadan təkqıçlı qayıdan əmisi Fərruxu xatırladı. Yaxşı kişiydi. Gözləri həmişə gülərdi, amma üzünü hələm-hələm qırxdırmazdı. Hərdən deyərdi: "Bəhmən öz oğlum olsa da xasiyyətdə mənə çəkməyib. Bax, Xəlil mənə oxşayıb. Diribaşdır, ütükdür... Diribaş olmasaydım, davada çoxdan ölərdim". Onda Xəlil qürrələnirdi. Düşünürdü ki, əgər o da müharibəyə getsə, itib batmaz. Çünki fərasətlidir, əmisinə oxşayıb. Xəlil fikirləşirdi ki, görəsən onun öz atası Əzizi davaya aparsaydılar, kişi o vurhavurdan sağ-salamat çıxa bilərdimi? Əziz qardaşı Fərruxdan iki yaş böyük idi, ancaq əsgərliyə getməmişdi. Çünki anadangəlmə sağ ayağı sol ayağından azacıq gödək idi.

Bir qıçının olmaması Fərruxun vecinə deyildi. O, müharibədən başqa dərd gətirmişdi: yuxusuzluq dərdi. Gecələr səhərə qədər öskürürdü; boğazı qovuşurdu, sinəsi xırıldayırdı. Elə bir gün öskürə-öskürə də öldü. Onda Xəlilin də, Bəhmənin də yeddi yaşı vardı.

Atası öləndən bir həftə sonra Bəhmən kövrələ-kövrələ Xəlilə dedi ki, kaş atam da Əziz əmim kimi şikəst olaydı, onu əsgər aparma-



yaydılar, o da ölməyəydi. Xəlil onda düşünmüşdü ki, Bəhmən düz demir. "Fərrux əmim davada ölməyib ki? Davada diribaş olub, sağ qalıb".

Gülxar Bəhmənin də qayğısını çəkirdi; lap elə Fərruxun sağlığında da. Çünki Xavər kolxozda işləyirdi, gün çıxmamış gedir, gün batandan sonra qayıdırdı. Həyət-bacanın səliqə-sahmanı, iki evin yır-yığışı, bişdüşü Gülxarın öhdəsinə düşürdü.

Xəlil indi çəpərin yanında dayanıb öz kölgəsinə baxa-baxa fikirləşirdi ki, Bəhmənin burda olmamağı heç nəyi dəyişmir. Yenə Əziz alaqaranlıqdan durub mal-qaranı naxıra qatacaq, tövləni kürüyəcək, sonra bağlamasını qoltuğuna vurub çölə gedəcək, cuvarlığını edəcək. Yenə həyəti Gülxar silib-süpürəcək, çörəyi təndirə Gülxar yapacaq, axşam yeməyini o bişirəcək. Bu evin, bu ailənin güzəranında bircə fərq gözə çarpacaq: Gülxarın yuduğu pal-paltarın içində Bəhmənin dəyişəyi olmayacaq. Bir də iri ağ süfrənin qırağında Bəhmənin yeri boş görünəcək.

Xəlil qət etdi ki, sabahdan etibarən o da bekar dayanmasın, bir işin qulpundan yapışsın. Heç olmasa atasının zəhmətini yüngülləşdirə bilər; tövlə təmizləyər, mal-qaraya baxar...

İki ay keçdi. Xəlil bu müddət ərzində Sayadı cəmi-cümlətani üç-dörd dəfə görmüşdü; o da uzaqdan-uzağa. Xəlil əvvəlki təki yenə qızdan utanırdı. Sayada yaxınlaşa bilmirdi. Heç vaxt onunla üz-üzə durub danışmamışdı. Məktubla da olsa ürəyini açmamışdı. Əmin idi ki, qəlbindən keçənlər qıza gün kimi aydındır. Sayad üç ildir ki, Xəlilin mahnısına qulaq asır. Xəlil onların darvazasının qabağından bir dəfə gündüz ötərdi, bir dəfə axşam. Gündüz mahnını zümzümə edərdi və inanardı ki, bu zümzüməni dünyada Sayaddan başqa heç kim eşitmir. Gecələr darvazanın qənşərində ləngiyərdi və əlini qulağının dibinə qoyub yapışıqsız, cır səsi ilə bərkdən oxuyardı:

"Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın..."

Yenə elə bilərdi ki, onun yapışıqsız, cır səsini də dünyada Sayaddan qeyri heç kim eşitmir. Çünki bu mahnının dünyaya və adamlara dəxli yox idi, Xəlil bu mahnını yalnız Sayad üçün oxuyurdu.

Havalar yavaş-yavaş avazıyırdı. Xəlil hazırlaşırdı ki, noyabr bayramında Bakıya getsin, Bəhmənə pay-puş aparsın. Qərara almışdı ki,

daha "həvəsdi-bəsdi", Bakıdan qayıdan kimi Sayadın qarşısını kəsəcək, üç il ürəyində dolanan sözləri onun üzünə deyəcək. Lakin Xəlil nə Bakıya getdi, nə də qəlbini qıza açdı. Daha mahnısını da oxumadı; nə pəsdən, nə zildən.

Bir səhər Əziz yatağından qalxmadı, axşamdan pəncərənin sürahisinə qoyulmuş yemək bağlamasını götürmədi. Günortaya qədər gözlərini iki-üç dəfə açdı. Başına yığılmış adamların sorğu-sualına cavab verə bilmədi. Toran qarışanda şıdırğı yağış başladı və Əziz bundan da xəbər tutmadı... Dünyadan səssiz-səmirsiz köçdü.

Bəhmənə teleqram vurdular. Əmisinin dəfnindən bir gün sonra kəndə gəldi. Alnını sütuna söykəyib hönkür-hönkür ağladı. Onu güclə kiritdilər. Bəhmənin kənddə çox qalmağına razı olmadılar. "Dərslərindən qalma, – dedilər. – Sənin yaxşı oxumağın hər şeydən vacibdir".

Bəhmən Bakıya dönəndən sonra məktublarının sayı çoxaldı. Üç gündən bir təsəlli dolu kağızı gəldi. Sonra özü də gəldi, qış tətilinə. Bəhmən bir az arıqlamışdı, amma ağarmışdı, yaxşılaşmışdı. Elə bil boyu da qalxmışdı. Hərəkəti, danışığı təmkinli idi. Təhər-töhrü də dəyişmişdi: cığa ayırıb saçını yana darayırdı. Qoluna dördkünc saat bağlamışdı. Tüklü, qara paltosu dizindən yuxarı idi. Anası tez-tez qürrə ilə deyirdi ki, Bəhmən heç kəndçiyə oxşamır, elə bil şəhərdə doğulub böyüyüb.

Onun gəlişinə hamıdan çox Xəlil sevinirdi. Çalışırdı ki, evdəkilər atasının ölümünü yada salıb Bəhmənin qanını qaraltmasınlar... Bir gün əmisi oğlunun şərəfinə yaxşı süfrə açdırdı. Gizlicə bir şüşə araq da aldı. Özü kabab çəkdi. Təkcə qonşusu Tağını çağırdı. İstəmirdi başqaları bu məclisdən xəbər tutsunlar, yoxsa onu qınayardılar: "Atasının öldüyü iki ay deyil, eyş-işrətə qurşanıb".

Gülxarla Xavər o biri evə keçdi. Xəlil arağı çıxarıb qoydu stolun üstünə. İçdilər. Tağı qaça-qaça gedib bir şüşə də araq gətirdi. Bu həmin Tağı idi ki, adını "traktor" çağırırdılar. İşləyəndə "yoruldum" deməzdi, yeyəndə "doydum". Bu, həmin Tağı idi ki, altıncı sinifdə iki il qalandan sonra oxumaqdan əl çəkdi və atasının danlağı, şillələri də onu məktəbə qaytara bilmədi. Tağı iyirmi yaşına çatsa da hələ bir sənətin sahibi deyildi. Oturub-durub deyərdi ki, şofer olacağam. Son vaxtlar Xəlilgilin evində Tağının hörməti daha da artmışdı. Əzizin yasında Tağı bir dəqiqə rahat dayanmadı. Gəlib-gedənlərə qulluq elədi.

Enlikürək, bəstəboy bu oğlan indi içdikcə quzuya dönürdü. İri əllərini dizlərinin üstünə qoyub maddım-maddım gah Xəlilə, gah Bəhmənə baxırdı. Tağı axan gözlərini Bəhmənin üzünə zilləyib sevincək dedi:



– Gəlin, gedək ova.

Bəhmən əlini əlinə vurdu:

– Əla.

– Mən gedə bilmərəm. – Xəlil başını buladı. – Görənlər nə deyər?

Bəhmən onu dilə tutdu:

– Sən tüfəng götürməzsən, elə belə gəzərsən ki, eynin açılsın... Biz dayanaq kəndin ayağında, Tağı tüfəngləri gətirsin... Xəlvət... Neçə vaxtdı ova həsrətəm...

Günortadan xeyli keçmişdi. Hava soyuq idi. Amma nə külək vardı, nə yağış-qar. Dümdüz çöldə ara-sıra nəzərə çarpan yovşanlar, bıtraq kökləri quruyub qaralmışdı.

Tağı irəlidə gedirdi. Xəlillə Bəhmən söhbət edə-edə onun ardınca addımlayırdı. Xəlilin tüfəngi yox idi. Əllərini gödəkcəsinin ciblərindən çıxartmırdı. Gəlməyinə peşman olmuşdu. Çünki həm üşüyürdü, həm də bugünkü ovdan ağlı bir şey kəsmirdi; bayaqdan gəzirdilər, hələ ürcahlarına fərli quş çıxmamışdı. Bir dənə də güllə atmamışdılar.

Bəhmən tüfəngi çiyninə qoydu. Atılıb-düşdü ki, qızışsın. Sonra üzünü bomboz göyə tutub yanıqlı səslə bayatı dedi:

"Əziziyəm qalasız,
Şəhər olmaz qalasız.
Mən ki, gedəri oldum,
Sağlığınan qalasız".

Birdən susdu. Yerdə nəsə axtarırmış kimi gözlərini şoran torpağa dikib asta-asta yeridi.

– Qəribsəyəndə yadıma bu bayatı düşür. – Dönüb Xəlilə baxdı. – Əmioğlu, heç musiqiyə qulaq asanda kövrələn vaxtın olub?

Xəlil əllərini ciblərindən çıxarıb gödəkcəsinin boynunu qaldırdı. Bir azda büzüşdü.

– "Yanıq Kərəmi" eşidəndə hülqumum yerində dayanmır.

İstədi desin ki, "Küçələrə su səpmişəm" mahnısı da məni kövrəldir. Ancaq fikirləşdi ki, bu mahnı onu heç vaxt qəmləndirməyib. Bu mahnı onun ürəyini həmişə işıqla doldurub. Bu mahnı Xəlilin qəlbində bir yay günü əbədi yuva salmışdı. Üç il bundan əvvəl Sayadgilin darvazasının qabağından keçəndə görmüşdü ki, qız həyətə su çiləyir. Xəlil ayaq saxlayıb əlini qoymuşdu qulağının dibinə:

"Küçələrə su səpmişəm..."

Sayad heç başını da qaldırmamışdı. Guya Xəlilin səsini eşitmirdi... Xəlil hər gecə Sayadgilin çəpərinin yanına gəlib həmin mahnını oxuyurdu. Bir azdan Bəhmən də onun səsinə səs verdi. Lakin Sayad bu qoşa səsi də vecinə almırdı. Bu səsə bircə dəfə də olsun həyətə çıxmırdı. Xəlil düşünürdü ki, Sayad kolxoz sədrinin qızı olduğu üçün göynən gedir, onları bəyənmir. Lakin inanırdı ki, vaxt gələcək və Sayad onun səsinin həsrətilə qovrulacaq. Çünki Xəlil onda böyük adam olacaq, lap kolxoz sədrindən də böyük.

Bəhmən də, Xəlil də şirin-şirin yuxular gördülər. Bu röyalar onların eşitmədikləri nağıllara bənzəyirdi. Sayad hər gecə ikisinin də yuxusuna girirdi.

Bəhmən Sayadı yuxuda qırmızı donlu, qırmızı yanaqlı, qırmızı saçlı görərdi. Qız onun əlindən tutub darta-darta qırmızı güllərlə dolu düzənliyə gətirərdi. Bəhmənin başını sığallayırdı. Gülümsəyib deyərdi: "İki dünya bir olsa da sənə ərə gedəcəyəm". Bəhmənin ürəyi bərk-bərk döyünərdi. Qızın isti, titrək barmaqlarından tutardı və o dəqiqə yer də, göy də Sayadın donu kimi qıpqırmızı rəngə boyanardı.

Xəlil yuxusunda Sayadı ayaqyalın, başıaçıq görərdi. Qız həmişə ondan aralı dayanıb göz yaşları tökərdi. Deyərdi: "Atam məni sənə vermək istəmir, Xəlil". Onda Xəlil də ağlayardı. Sayad başlayardı onu kiritməyə: "Ağlama, Xəlil, sən ağlasan özümü öldürərəm". Deyərdi, böyüyəndə məni götürüb qaçarsan. Sonra da yalvarardı ki, "Küçələrə su səpmişəm" mahnısını oxu. Xəlil ağzını açıb gücənərdi, amma səsi çıxmazdı. Sayad onu tələsdirərdi: "Oxu, Xəlil, tez ol!" Elə bil Xəlilin boğazına daş tıxanardı. Hıqqanmaqdan nəfəsi tutular, gözlərinə qaranlıq çökərdi. Özünə gələndə görərdi ki, Sayad yaxında yoxdur...

Xəlil qan-tər içində yuxudan oyanardı...

Səhər nağıl yuxularını ikisi də bir-birinə söyləyərdi. Bəhmən əmisi oğluna ürək-dirək verərdi: "Yuxunu tərsinə yozmaq lazımdır, - deyərdi. – Əgər yuxuda ağlamısansa, demək, həqiqətdə güləcəksən. Əgər yuxuda atası Sayadı sənə vermirsə, demək, həqiqətdə verəcək". Bu sözlərdən sonra Xəlil az qalırdı Bəhməni qucaqlayıb öpsün. Gecənin düşməyini gözləyirdi. Yatağına tez girirdi ki, Sayadı yuxuda görsün və bu nağıl yuxunun ömrünü uzatsın. Heç olmasa bir dəfə, tək bircə dəfə Sayadın dediyi mahnını oxuya bilsin.

Xəlil iynə tapdı, bənövşəyi mürəkkəb tapdı, evlərinin dalına çəkilib sol əlinin üstündə iri "S" hərfi döydü, yəni ki, "Sayad". Bəhmən



də özünü qabağa verdi və Xəlil onun da sol əlinin üstündə iri "S" hərfi döydü. Onda Xəlil də, Bəhmən də yeddinci sinfi təzəcə bitirmişdi, Sayad isə yeddinci sinfə təzəcə keçmişdi.

Bəhmən iki aydan sonra Sayadgilin darvazasının qabağında dolanmaqdan əl çəkdi. Mahnı da Xəlilə qaldı, gecənin qaranlığında Sayadı görmək həsrəti də. Ancaq qız yenə həyətə çıxmadı, yenə onun cır səsinə məhəl qoymadı. Xəlil fikirləşdi ki, Sayad hələ çox şeyi anlamır. Sayad böyüyəcək və başa düşəcək ki, bu kənddə bir Xəlil var, onun yanıqlı, kədərli bir mahnısı var. Biləcək ki, Xəlil bu mahnını onun üçün oxuyur, yalnız onun üçün! Bax onda dünya Sayadın gözlərinə başqa rəngdə görünəcək. Daha yuxuda ağlamayacaq Sayad. O da gecənin tez gəlməyini gözləyəcək. İllərdən bəri eşitdiyi, lakin fərqinə varmadığı həzin bir mahnını dönə-dönə dinləmək istəyəcək...

Güllə səsi Xəlili hərarətli, işıqlı aləmdən ayırıb, yovşanlı, şoran düzə qaytardı. O, isti yatağından qəflətən durub borana düşən adam kimi üşüdü. Boynunu qısıb Tağıya baxdı. Tağı tüfəngin lüləsini göyə tuşlamışdı. Acığından boş-boşuna güllə atırdı:

– Quruyub, ə, bu çöl. Allahın çaqqalı, tülküsü də çıxmır qabağımıza.

– Yəqin heyvanlar bizim qırımımızdan qorxub, özlərini soxublar dəlmə-deşiyə. – Bəhmən qoşalülənin qundağından bərk-bərk yapışdı və onun sol əlinin üstündəki "S" hərfinin dartılıb böyüdüyünü Xəlil açıq-aydın gördü.

– Sizdən ovçu olmaz. – Xəlil soyuqdan göyərmiş əllərini bir-birinə sürtdü. Sol əlinin üstündə aypaya oxşayan iri hərf gözlərinə sataşdı və ona elə gəldi ki, bu çölün düzündə Sayad da onunla birgə üşüyür. Sızıldayan barmaqlarını ağzına tutub hovxurdu. – Qayıdaq. Siz donmadınız? – Cavab gözləmədən geri döndü...

Xəlil lap yanında qopan qəfil partıltıdan diksindi. Elə bildi Tağı yenə havaya boş güllə atır. İki-üç addım da getdi. Kimsə bərkdən içini çəkdi. Sonra Tağının boğuq qışqırtısı eşidildi:

– Xəlil!! Xə...

Xəlil çevrilib baxdı; Tağı boğazından ikiəlli yapışıbləngər vururdu. Hədəqəsindən çıxmış gözləri əvvəlcə harasa – boşluğa zilləndi, sonra Xəlilin üzünə tikilib qaldı. Ağzını ayırdı, ancaq soyuq havanı ciyərlərinə çəkə bilmədi. Sinəsimi, boğazımı kəsik-kəsik xırıldadı. Tağı kökündən qopmuş ağac kimi arxası üstə öz tüfənginin yanına düşdü.

Xəlilin nəfəsi tıncıxdı. Əmisi oğluna nəzər saldı; Bəhmənin bənizi ağarmışdı, titrəyən dodaqlarının kənarlarında qəribə bir təbəssüm vardı. Sonra dodaqları kilidləndi. Onu əsməcə tutdu.

Xəlil kəsik-kəsik xırıldayan Tağıya doğru getdi. Bu bir neçə addımı atmaq üçün bütün gücünü toplamalı oldu, sanki ayaqlarından daş asmışdılar.

Tağının hülqumundan azacıq aşağı abbası boyda dəyirmi bir yer gömgöy göyərmişdi. Sonra ordan qan fışqırdı və Tağının xırıltısı tamam kəsildi. Sifəti yavaş-yavaş qaraldı. Xəlil dostunun yanında çöməlib əlləri əsə-əsə onun köynəyinin yaxasını açmağa başladı.

Bəhmən tüfəngi yerə çırpıb ağlaya-ağlaya təpiklədi:

– Barmağım... Barmağım tətiyə toxundu... Əlimdə... açıldı. – Bəhmənin hönkürtüsü soyuq, laqeyd çöldə get-gedə ucaldı.

Xəlili vahimə bürüdü. Elə bil indicə yuxudan ayıldı, indicə başa düşdü ki, Tağı bir daha ayağa qalxmayacaq. Uşaq kimi hıçqırdı.

Bəhmən başına döyə-döyə dövrə vurdu:

– Əlimdə açıldı... Vallah, qəfildən əlimdə açıldı...

Birdən ikisi də sakitləşdi, ikisi də donub qaldı. Elə bil bozumtul çölün soyuq sükutuna qarışıb əridilər.

Bəhmən handan-hana ağlamsına-ağlamsına dilləndi:

– Bəs mən neyləyəcəm?.. İnstituta təzə girmişəm. Axı, oxumaq istəyirəm.

Xəlildən səs çıxmadı. O, Tağının yarıyumulu barmaqlarından bərk-bərk tutmuşdu.

– Xəlil... Xəlil... – Bəhmən yalvardı, ancaq Xəlil bu yalvarışa da başını döndərmədi. – Qoy mən gedim, Xəlil. Bu işdə mənim adım olmasın. Mən hələ... İncimə, Xəlil, qurbanın olum, incimə. Mən burda olmamışam, mən bu xaraba çölə siznən gəlməmişəm... Deyərsən, güllə onun öz əlində açılıb. Eşitdin, Xəlil? Xəlil, ay Xəlil.

Xəlil keyləşmişdi. Əmisi oğlunun sözlərini ağıllı-başlı dərk edə bilmirdi... Sonra arxasında səs eşitmədi, hənirti eşitmədi. Oturduğu yerdə qanrıldı. Bəhmən yovşanların arası ilə kəndə doğru asta-asta addımlayırdı...

Xəlil naxırın yaxınlaşdığını da duymadı. Şoran torpağı yalayan inəklərin kövşək səsini də eşitmədi. Dizlərinə vura-vura tələm-tələsik danışan naxırçı Süleymanın sorğu-sualına da cavab vermədi. Heyvanları başlı-başına buraxıb haraya qaçan naxırçının ardınca küt-küt baxdı...



Camaat tökülüb gələndə hələ axşam düşməmişdi. Şivən qopdu. Səs-küy aləmi bürüdü. Kimsə Xəlilin kürəyinə iki təpik ilişdirdi. Kimsə onun sifətinə sillə çəkdi. Xəlil ağrı hiss eləmədi. Qımıldanmadı. Tağının bumbuz əlini əlindən buraxmadı. Nəzərləri Bəhməni aradı; onu adamların içində görə bilmədi...

– Xəlil?! Əyə, sənnən döyüləm?!

Xəlil diksinib gözlərini döydü. Hamamın müdiri Çərkəz onun qarşısında dayanıb başını bulayırdı.

– Zalım oğlu, bayaqdan səni haraylayıram. Ağlın-huşun özündə döyül. Noolub, ə, sənə? Niyə doluxmusan?

Xəlil boğulan adam kimi tıncıxa-tıncıxa nəfəs alırdı. O, Çərkəzin çopur üzünə baxıb dərindən köks ötürdü. Canına üşütmə gətirən xatirələr beynində pərən-pərən düşdü. Ömrünün bu gününə, bu dəqiqəsinə qayıdıb azacıq sakitləşdi. Gurhagurla yanan ocağın fışıltısını eşidəndə sevindi. Anladı ki, dostunun cəsədi yanında tək-tənha qaldığı o çöldən, o andan çox uzaqdadır. O vaxtdan on üç il keçib. İndi Xəlil qazanxananın qapısı ağzında müdirlə üzbəüz dayanıb. İndi qarsız-çovğunsuz qışdır və bu rayona Bakıdan bir həkim gəlib: Bəhmən Cəfərzadə! Bütün bunlar nə yuxudur, nə xatirə.

Xəlil sinədolusu nəfəs alıb bomboz göyə baxdı.

Çərkəz deyinə-deyinə ocaqxanaya keçdi:

– Bir ağıllı işçimiz vardı, deyəsən, onun da başına hava gəldi. Əyə, nömrələrə isti su getmir, xəbərin var? Camaat tir-tir əsir hamamda.

Xəlil içəri girib isti su xəttinin üstündəki manometrə nəzər saldı. Təzyiq aşağı düşmüşdü. Siyirtməni bir az açdı.

– Çərkəz dayı, mənim bir saatlıq işim var. Burda göz olarsan?

– Hara gedirsən, cəhənnəm ol, çıx get. Lap istəyirsən bir saatlığa yox, bir illiyə get... Allah sizi qırsın! İmanım itin olsun ki, əmrinizi verib hamınızı atacam çölə! Müdir də özüm olacam, kassir də, kaçeqar da, süpürgəçi də. – Kişi söylənə-söylənə qapıdan çıxdı.

Xəlil gülümsəyə-gülümsəyə Çərkəzin arxasınca baxırdı. Kişinin hirsinə, hədəsinə öyrəşmişdi. Bilirdi ki, onun odlanmağı bir anlıqdır. Beş dəqiqə keçəcək və Çərkəzin acığı soyuyacaq, ağzı köpüklənə-köpüklənə dediyi sözləri – unudacaq. Xəlil səkkiz il idi ki, bu hamamda ocaqçı işləyirdi və hər gün müdirdən eyni sözləri eşidirdi: "İmanım itin olsun ki, əmrinizi verib hamınızı çölə atacam". Amma Çərkəz nə

əmr verirdi, nə də əmr vermək üçün onun möhürü vardı. Hədəsinin yalan olduğunu özü də bilirdi, işçilər də...

Xəstəxananın daş hasarına çatanda Xəlil yerişini yavaşıtdı. Dəmir darvazanın qənşərində dayanıb binanın örtülü pəncərələrinə göz gəzdirdi. Tərəddüd içini didib dağıdırdı: "Gedim, getməyim? Bəlkə o deyil?.. Kaş o olmasın". Bəhmənlə üz-üzə gələcəyi dəqiqəni təsəvvürünə gətirəndə qorxdu. Həyatının Bəhmənlə bağlı parçasını ürəyində çoxdan dəfn eləmişdi. O günlərin üstündən qara xətt çəkmişdi və daha o anlara qayıtmaq istəmirdi. İndi birdən-birə ona elə gəldi ki, əsil ömrü yalnız Bəhmənlə bağlı xatirələrdən ibarətdir. Onun başqa ömrü olmayıb. həmin xatirələrdən kənarda yaşamayıb. Xəlil anladı ki, Bakıdan gələn həkimi görməmiş getsə, bütün həyatı boyu nigarançılıq onun ürəyini üzəcək. "Onsuz da uzaqdan baxacam, görüm odur, yoxsa yox?" Dəmir darvazadan həyətə keçdi. Ayaqlarını güclə götürüb qoyurdu... İri qapının dəstəyindən yapışdı. "Kaş o olmayaydı". Ürəyi döyünə-döyünə pilləkənləri qalxdı. Özünü inandırmağa çalışdı ki, Bakıdan gələn həkim eynəkli, qoca kişidir. Özü də mütləq dava-dərman iyi verir.

Əlini uzatmamış dəhlizin qapısı açıldı. Xəlil, çiyninə boynu xəz palto salmış ucaboy bir adamla döş-döşə gəldi. Ürəyinin guppultusunu eşitdi. Sonra qulağına güllə səsi gəldi və Tağının boğuq qışqırtısı yarıqaranlıq, uzun dəhlizə yayıldı: "Xəlil!! Xə..."

Ucaboy oğlanın hülqumu tərpəndi, dodaqları səyridi. Soyuqdan donurmuş kimi xəzli paltosuna bərk-bərk büründü. Çaşqınlıq, heyrət dolu gözləri Xəlilin sarımtıl, arıq üzünə dikilib qaldı. Qapıdan azacıq kənara çəkilib paltosunun yaxasını qamarladı. Xəlil onun sol əlinin üstündə göyərən iri "S" hərfini gördü. Elə bildi dəhlizə zülmət çökdü və bu zülmətin içində xəstəxananın baş həkiminin təntimiş səsini eşitdi:

– Balam, ya keç, ya da yol ver.

Sonra yumşaq barmaqlar Xəlilin xətt yerindən çənəsinə qədər titrəyə-titrəyə gəzdi. Üzünə isti nəfəs dəydi. Pıçıltıyabənzər qəhərli bir səs sim kimi sızıldayıb qırıldı:

– Sənə qurban olum, əmioğlu.

Uzun qollar Xəlilin çəlimsiz bədənini məngənə təkin sıxdı.

Xəlil hələ zülmət içindəydi. Hələ key idi. On üç il bundan əvvəl soyuq çöldə kürəyinə təpik dəyəndə olduğu kimi!

Gurhagurla yanan dəmir sobanın yanları, üstü qızarmışdı. Pəncərələrin şüşələri tərləmişdi. Bu balaca isti otaqda təkcə Bəhmən



üşüyürdü. Elə bil kürəyinə buz parçası bağlamışdılar. Teybənin bayaqdan çay süzüb qoyduğu armudu stəkana toxunmamışdı. Danışmaq üçün fərli söz də tapmırdı. Hərdən iki-üç kəlmə deyirdi, onda da Xəlilin üzünə baxmırdı. Nəzərlərini pəncərənin qarşısında cızıldayan balaca ağ samovara dikirdi. Xəlil də qırıq-qırıq cavab verirdi və bu an o da gözlərini samovara zilləyirdi.

Teybə, ərinin kəsdiyi toyuğu artırmada yolurdu. Tez-tez içəri girib çölə çıxırdı. Xəlil hiss edirdi ki, Bəhmənin gəlişinə arvadı sevinir. Çünki indiyə qədər bu geyimdə, bu görkəmdə, bu rütbədə adam onların evinin kandarına ayaq basmamışdı. İndi adlı-sanlı bir həkim onların dəmir sobasının yanında oturub. Özü də Xəlilin dost-doğma əmisi oğlu! Bəs Xəlil niyə tutqundur? Teybə az qalırdı yaxınlaşıb ərinin qulağına pıçıldasın: "Qaş-qabağını sallama, ay dinsiz, yoxsa qonaq elə bilər onun gəlişinə darılırıq". Teybə hər dəfə otağa girəndə Xəlili him-cimlə başa salmaq istəyirdi. Ancaq Xəlil ikicə addımlıqda dayanan arvadını görmürdü. Nəzərləri samovarın lüləyində donub qalmışdı. Teybənin acığı tutdu. Qab-qacağı qəsdən dınqıldada-dınqıldada fikirləşdi: "Məni çərlədib öldürəcək bu Xəlil. Belə qaradinməz insan olar? Adam əzizini, qohumunu belə qarşılayar?" Teybə başını aşağı dikən ərini hirsli-hirsli süzüb artırmaya çıxdı.

Bəhmən, bir küncdə dayanıb maddım-maddım ona baxan uşaqlara nəzər saldı. İstəyirdi ki, Xəlilin balaları onun dizləri üstündən düşməsinlər. Çiynindən, qolundan sallansınlar. Onu sorğu-suala tutsunlar. İstəyirdi uşaqlar onun doğma olduğunu anlasınlar və ərkləri, davranışları ilə yadlıq sərhədini keçsinlər. Onda Bəhmən bu evdə sıxılmazdı, üşüməzdi.

– Oğlunun neçə yaşı var?

Xəlilin gözləri samovarın lüləyinə zilləndi:

– Gələn il məktəbə gedəcək... Qız beş yaşına keçib.

– Mənim oğlum ikinci sinifdə oxuyur. Vur-tut bircə övladımız var. Özüm də işləyirəm, yoldaşım da. Uşağa ağıllı-başlı baxa bilmirik. Qalıb anamın öhdəsində... Oğlunun adı nədir?

– Atamın adını qoymuşam: Əziz. – Xəlil "Kazbek" qutusundan papiros çıxarıb yandırdı.

Bəhmən onun külqabıya tulladığı, yanıb əyilmiş kibrit çöpünə baxdı. Elə bil sözlərini də çöpə dedi:

– Nə qədər yatdın orda?

– Beş il... Bu rayonda olduğum da səkkiz ildi.

– Heç indiyəcən kəndimizə getməmisən? – Bəhmən ehtiyatla, astadan soruşdu, sanki əmisi oğlunun acıqlanacağından qorxurdu.

Xəlil sözlərin deyilişindən hiss etdi ki, Bəhmən daha samovara baxmır. Hiss etdi ki, Bəhmənin nəzərləri onun üzünə dikilib.

Xəlil ciyərlərinə çəkdiyi tüstünü sobaya tərəf üfürdü:

– Orda kimim var ki? – O da Bəhmənə baxdı və onun bəbəklərinin titrədiyini, nəmləndiyini gördü. Bəhmənin hönkürəcəyindən qorxdu. Düşündü ki, əmisi oğlunun boyuna, cüssəsinə ağlamaq yaraşmır. Teybənin, uşaqların yanında onun alçalmağını istəmirdi.

– Gülxar xalamı da atamla əmimin yanında basdırdıq. Üçünün də qəbrini düzəltdirmişəm. Bakıdan başdaşı yondurub aparmışam.

Xəlil gülümsədi və o dəqiqə hiss etdi ki, indi gülümsəməyin yeri deyil. Deyəsən, Bəhmən onun təbəssümünü minnətdarlıq kimi yozdu. Əmisi oğlunun bütün qabaq dişlərinin metaldan olduğunu sanki indicə gördü. Nədənsə onun dişlərinə baxmaqda utandı. Armudu stəkandakı çaydan bir qurtum aldı:

– Tez-tez anamın yadına düşürsən, dəm basır gözlərinə... Neçə ildir şəhərə isnişə bilmir. Kəndin xiffətini çəkir.

Teybə içəri girdi:

– Bəhmən qardaş, çayınızı dəyişdirimmi?

Bəhmən stəkanı nəlbəkiyə qoydu:

– Sağ ol. Mən çayı soyuq xoşlayıram.

Xəlil "Kazbek"i metal dişlərinin arasında sıxıb ayağa qalxdı. Bəhmənin stəkanını götürüb təzə çay süzdü:

– Özünü yad kimi aparma.

Bəhməni sevincqarışıq qəhər boğdu. Bayaqdan bəri kürəyində zənn etdiyi buz parçası sanki bu adi sözlərin hərarətindən əridi.

Xəlil əmisi oğlunun gözlərində güclə seziləcək şəfəq gördü və Xəlilin ürəyində həzin bir sim sızıldadı: "Küçələrə su səpmişəm...". Uzaq bir həsrət onun qəlbini göynətdi. Nağıl yuxusundakı ayaqyalın, başıaçıq, ağlağan qızın səsi qayalara düşən harayın əks-sədası kimi qulaqlarında dalğalandı:

"Böyüyəndə məni götürüb qaçırdarsan, Xəlil". Bu səs onu uşaqlığın qayğısız, dəli çağına atdı və o, qarşısında ondakı Bəhməni, ondakı sirdaşını gördü.

– İşin-gücün necədi? Necə dolanırsan Bəhmən?



Söz Xəlilin ağzından qurtarmamış Bəhmən sevinə-sevinə dedi:

– Əsəb xəstəlikləri klinikasında işləyirəm. Tibb elmləri namizədiyəm. Arvadım musiqi müəlliməsidir. Sağlığına dolanacağımız pis deyil.

Bəhmən düşünürdü ki, bu sözlərdən sonra mütləq belə demək lazımdır: "Bütün bunlar üçün sənə minnətdaram, əmioğlu". Güman etdi ki, yəqin Xəlil də elə bunu soruşur, bunu gözləyir. Xəlilin külqabıya basıb əzdiyi papirosa baxdı:

– Bəs sənin güzəranın necədir?

Xəlil otağa göz gəzdirib çiyinlərini çəkdi:

– Görürsən də.

Bəhmən əmisi oğlu haqda çox şey bilmək istəyirdi. Elə hey dilinə gəlirdi ki, soruşsun: "Bu illəri harda olmusan, Xəlil? Başına nə işlər gəlib? Niyə səs-səmirin çıxmırdı? Niyə yerini mənə bildirmirdin?" Ancaq bunları xəbər almağa qorxurdu. Qorxurdu ki, Xəlilin köhnə yarasının gözünü qopartsın və Xəlil onun yaxasından yapışıb qışqırsın: "Sənin çəkməli olduqlarını mən çəkmişəm, ay əclaf! Sənin ucbatından vaxtsız-vədəsiz saçlarım ağarıb, üzüm qırışıb, dişlərim tökülüb... Qınımda yanmışam". Xəlil on üç il bundan qabaq nə boyda idisə, o boyda da qalmışdı. Sanki o zamandan bəri onu qəlibə salıb böyüməyə qoymamışdılar. Onda ikisi də bir təndə idi. İndi Xəlil əmisi oğlunun yanında uşağa oxşayırdı.

Bəhmən hələ də küncdə durub boynunu bükən uşaqlara baxdı.

– Gəl yanıma, Əziz. Mən sənin əminəm. Mahnı oxuya bilirsənmi?

Oğlan başını aşağı salıb gülümsədi.

– Mən oxuyummu? – deyə qız qardaşından qabağa düşməyə tələsdi. Razılıq gözləmədən tutuquşu kimi dil-dil ötdü:

"Ala-bola boz keçi.
Ay qoşa buynuz keçi..."

Bəhmən ayağa qalxıb onu qucağına aldı. Üzündən öpdü.

– Adın nədir?

– Sevda.

– Ay bərəkallah, nə yaxşı şer oxuyursan.

Uşaq Bəhmənin naxışlı qara qalstukuna baxdı:

– Mənə şeri atam öyrədib.

Bəhmən əyləşib Sevdanı dizinin üstünə aldı.

Əziz burnunu çəkdi. Ona diqqət verilmədiyini görüb mısmırığını salladı. Qəfildən nəfəsi tutula-tutula şeir dedi:

"Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq..."

Sonra gəlib Bəhmənin dizlərinə sıxıldı. Bəhmən onların ikisini də qucaqlayıb sinəsinə basdı.

Xəlil əmisi oğluna indicə əməlli-başlı baxdı. Bəhmənin gicgahlarına dən düşmüşdü. Amma saçları əvvəlki təkin sıx, dalğavarı idi. Burnu enlənib uzanmışdı. Onu qıza oxşadan ala gözlərinin işığı azalmışdı. Bəhmən ətə-qana dolub kişiləşmişdi, güman ki, bir az da kökəlsə, buxaq sallayacaqdı. Bəhmən on üç il bundan qabaq belə deyildi. Xəlil onu son dəfə necə görmüşdüsə, həmişə də elə xatırlayırdı: caydaq, nərmə-nazik, ala gözləri oynaq, şəfəqli.

– ...Xəlil Cəfərzadə! Gözləmə zalına get!

Bildi ki, onunla görüşmək istəyən əmisi oğludur. Yoxsa Bakıda Bəhməndən başqa kimi var? Xəlil bu çağırışa nə sevindi, nə kədərləndi. Qəlbində qəribə bir soyuqluq duydu. O, indi hamıya, hər şeyə, hətta taleyinə də biganə idi. Düşünürdü ki, bəlkə də belə yaxşıdır. Laqeyd insan həmişə sakitdir, arxayındır. Belə olmasa, Xəlil səkkiz il dəqiqələrini, günlərini saymalıdır. Belə olmasa, Xəlil doğma adamların ayrılığına, həsrətinə dözə bilərmi?

Gözləmə otağına getdi.

Bura səsli-küylü idi. Tavandan gömgöy tüstü pərdəsi asılmışdı. Divar boyu baş-başa düzülmüş taxta skamyalarda oturmağa yer yox idi. Hamı tələsə-tələsə danışırdı. Elə bil qorxurdular ki, ürəklərini boşaltmağa vaxtları çatmasın.

Xəlil döyükə-döyükə baxdı. Əlində tor zənbil olan Bəhmənin adamları yara-yara ona doğru gəldiyini gördü...

Bəhmən, Xəlili sinəsinə sıxdı. Üzünü onun üzünə sürtüb ağladı.

– Bəsdi, qurtar... Qurtar, – deyib Xəlil əmisi oğlunu sakitləşdirdi.

Bir küncə çəkildilər. Bəhmən anlayırdı ki, ilk sözü o deməlidir. Danışmaq, Xəlilin incik könlünü ovundurmaq lazımdır.

– Necəsən, Xəlil? – Bəhmən bu sualı verməyinə peşman oldu. Düşündü ki, adətən xəstə adamın halını belə soruşarlar. Səhvini düzəltməyə çalışdı. – Darıxma, Xəlil. Ürəyimə damıb ki, burdan tez



çıxacaqsan. Görərsən, üzümüzə gələn bayramların birində hökumət amnistiya verəcək. Hər il belə olur.

Xəlil, deyəsən, ona qulaq asmırdı. Gözlərini döşəməyə zilləyib fikirləşirdi.

Bəhmən nə danışacağını bura gələndə dönə-dönə götür-qoy eləmişdi. Əmisi oğluna təsəlli vermək üçün ürəyinin ən isti guşəsindən ılıq sözlər seçmişdi. Hanı bəs, o sözlər? Niyə Bəhmənin dili topuq çalır? Neyləsin indi? Bəlkə təzədən ağlasın, Xəlilə yalvarsın ki, keç günahımdan, məni bağışla. Gözün görə-görə, ağlın kəsə-kəsə səni qurban verdim?

– Bakıya gətirilməyini bu yaxınlarda eşitdim. Gəldim, görüş vermədilər. Dedilər, bazar günü gələrsən.

– Niyə zəhmət çəkirsən? Otur, dərslərini oxu.

Bəhmən anlaya bilmədi ki, Xəlil bu sözləri ürəkdən deyir, yoxsa ona tənə vurur. Əlindəki tor zənbilin qulpunu barmaqlarına doladı:

– Nə danışırsan? İcazə versələr, bura hər gün gələrəm.

Yenə susdular. Xəlil hiss etdi ki, söhbətləri tutmur. Birdən-birə darıxdı, əsəbiləşdi. Bu tüstülü, səsli-küylü otaqdan qaçmaq istədi. Əmisi oğlunun üzünə baxdı və qəlbində dirçələn acıq bir anda sovuşdu. Ona yazığı gəldi. Başa düşdü ki, bu dəqiqə Bəhmən üçün onunla qarşı-qarşıya dayanmaq ən ağır cəzadır. Bəhmən şaxta vurmuş adamlar təkin büzüşmüşdü. Bənizi sapsarı idi. Qurumuş dodaqlarını tez-tez yalayırdı. Xəlil bayaqdan bəri onun gözlərini əməlli-başlı görə bilməmişdi. Bəhmən nəzərlərini gah Xəlilin çiyni üstdən harayasa dikir, gah tavana, gah döşəməyə zilləyirdi. Xəlil anladı ki, dünya insan üçün ən böyük mənəvi əzab kiminsə gözlərinə düz baxa bilməmək əzabıdır. Anladı ki, ona verilən cəza Bəhmənin cəzası ilə müqayisədə heç nədir. O, səkkiz ildən sonra burdan çıxacaq və əmisi oğlunun yanında başını şax tutmaqdan utanmayacaq. Ancaq Bəhmən bütün ömrü boyu şəfəqli ala gözlərini ondan gizlədəcək.

– Niyə sənə bu qədər iş kəsiblər? Səkkiz il çox deyil?

– Səkkiz gün də çoxdur.

– Bəs vəkil kömək eləmədi?

Xəlilin nazik dodaqlarında acı təbəssüm dolandı:

– Vəkil çox çalışdı, heyif ki, öləni diriltməyə gücü çatmadı. Yoxsa cəzam yüngül olacaqdı.

Bəhmənin tor zənbil tutan barmaqları titrədi. Nəzərləri tüstü dumanında əridi.

Xəlil əsəbiliklə dilləndi:
– Anama toxtaqlıq ver.
Bəhmən gözlərini tüstü dumanından çəkə bilmədi.
– Arxayın ol, Xəlil, arxayın ol. – Elə inamla dedi ki, guya onun təsəllisi ilə Gülxanın bütün dərdi-səri sovuşacaqmış. – Özün də qəm eləmə. Özünə yaxşı qulaq as.
Xəlil çiynini divara söykədi, başını bulayıb gülümsədi:
– Bir dəfə rəhmətlik atamı Şuşaya yola salırdıq. Anam elə hey deyirdi ki, Əziz, özünə qulaq as. Özünə fikir ver. Axırda kişi hövsələdən çıxdı. Dedi, ay rəhmətliyin qızı, mən istirahət evinə gedirəm ki, mənə orda qulluq eləsinlər. Əgər öz-özümə qulluq eləsəydim, elə evdə otururdum də... İndi sənin məsləhətin lap yerinə düşdü, Bəhmən. Bura istirahət evi deyil. Öz qayğıma özüm qalacam.
– Mənə nə qədər tənə vursan haqqın var, Xəlil. Bilirəm, məni görməyə gözün yoxdur. Amma mən...
– Yaxşı, qurtar. – Xəlil əlini uzatdı. – Salamat qal.
Bəhmən tor zənbili yuxarı qaldırdı.
– Götür.
Zənbildə bir dağlı çörəyi vardı. Yarım kiloya qədər kolbasa qəzetə bükülmüşdü. Kağız torbaya alma, qovrulmuş şabalıd qoyulmuşdu. Bəhmən təzə qulaqlı papaq da almışdı. Tətilə gələndə özünün geydiyi yun köynək də zənbildə idi.
Xəlil yun köynəklə qulaqlı papağı, bir də kağız torbanı götürdü. Əmisi oğlunun əlini sıxıb qapıya yönəldi. Bir neçə addım atıb dayandı. Nə vaxtdan bəri ürəyində qövr eləyən sözü soruşmamış getmək istəmirdi. "Niyə günahını mənim üstümə yıxdın, Bəhmən? – Bu necə oldu? Mən heç nə başa düşmürəm, heç nə anlamıram". Çevrilib Bəhmənə zəndlə baxdı. Elə bil onun görkəmini yaddaşına həkk eləmək istəyirdi: caydaq, nərmə-nazik, ala gözləri oynaq, şəfəqli...
Bəhmən ona doğru yeridi:
– Darıxma, hər bazar yanına gələcəm.
Xəlil başını buladı:
– Deyəsən, iki gündən sonra bizi burdan aparacaqlar.
– Hara?
– Bilmirəm.
– Harda olsan, tez-tez məktub yaz. Eşitdin, Xəlil?!
Xəlil kağız torbanı, yun köynəklə qulaqlı papağı sinəsinə sıxıb geri döndü. Ürəyini göynədən sözləri əmisi oğlundan soruşa bilmədi. Ürəyi



ağrılı getdi, ürəyi dolu getdi: "Niyə günahını mənim üstümə yıxdın, Bəhmən? Bu necə oldu? Mən heç nə başa düşmürəm, heç nə anlamıram".
Arxadan, yüz səsin içində Bəhmənin səsini eşitdi:
– Aparsalar, məktub yaz! Gözləyəcəyəm, eşitdin?!
Xəlil əmisi oğluna hay vermədi. Gedə-gedə qət etdi ki, o harada olursaolsun, Bəhmənə bir barmaq da kağız yazmayacaq.

– Ay səni xoş gördük, ay səni xoş gəlmisən! – Çərkəz ayağının biri içəridə, biri çöldə Bəhməni köhnə tanış kimi bərkdən salamladı.
Bəhmən uşaqları dizlərinin üstündən düşürüb qalxdı. Tanımadığı kişinin əlini silkələyə-silkələyə sual dolu nəzərlərini Xəlilin üzünə dikdi.
Xəlil Çərkəzi əmisi oğluna təqdim elədi:
– Çərkəz dayı mənim müdirimdi.
Kişi paltosunu soyunub qapının yanından asdı, özünü stula saldı:
– Müdir deyəndə ki, nə müdir? Biz Xəlilnən birevli kimiyik. Mən onu oğlumdan ayırmıram. Elə döyül, Xəlil bala?
– Həm də müdirimsən də, Çərkəz dayı. Rəhbərimsən.
– İmanım itin olsun, özümü rəhbər hesab eləyirəmsə. – Kişi əllərini ovuşdura-ovuşdura üzünü pəncərəyə tutub, artırmada dümələnən Teybəni səslədi. – Ay qızım, dayına bir çay süz. Bəlkə qırışığım açıla.
Xəlil ayağa durub stəkan-nəlbəki gətirdi:
– Mən ölməmişəm ki, müdir. Qoy özüm sənə qulluq eləyim. Bir də ki, çay nə vaxtdan qırışıq açan olub? Ağbaş gətirim, donun ərisin.
Çərkəz üz-gözünü turşutdu:
– O yana rədd elə, ə. İmanım itin olsun ki, düşəndə, ayda-ildə bir dəfə içirəm, o da vur-tut yüz qram. Bircə damcı artıq içsəm, ödüm ağzıma gələr. – O, Bəhmənin dizlərinə sıxılan uşaqları məzəmmətlədi. – Nə minmisiniz, ə, kişini? Qoyun rahat otursun də. – Sonra üzünü Bəhmənə tutdu. – Professor, gəldiyin yerlərdə nə var, nə yox?
– Salamatlıqdır, – deyib Bəhmən gülümsədi. İstədi professor olmadığını da desin. Ancaq üstünü vurmadı. "Nə eybi, Çərkəzin ürəyinə necə yatırsa, qoy məni elə də çağırsın". Bu ailəyə məhrəm olduğunu bildirməyə çalışan, hamı ilə ərkyana danışan bu kişinin gəlişi Bəhməni sevindirirdi.
Çərkəz ovcunu armudu stəkanın ağzından çıxan buğa tutub ortalığa dedi:
– Dünya yaman qəribə olub. Cavanlardan baş aça bilmirəm. Niyə belə deyirəm, çünki sözümün canı var... Bizim ispalkomda bir oğlan

işləyir, sütülcə uşaqdı, üzünə təzə-təzə ülgüc vurdurur, amma ədası yerə-göyə sığmır. Bu gün zəng eləyib ki, mənə nömrə saxla, hamama gələcəm. Dedim, a bala, camaat necə, sən də elə. Gəl, növbə tut, ürəyin nə qədər istəyir çim. A kişilər, bunu deməyimə peşman oldum. Zalımın balası ağzını açdı, nə açdı. Dedi, gözlərini sil, məni əməlli tanı, mən rəhbər orqanın işçisiyəm, başına bir oyun açaram ki, fələk səndən ötrü qan ağlayar. Dedim, a bala, mən davada faşistin başına oyun açanda sənin izin-tozun yox idi. Dedim, mənə hərbə-zorba gəlmə... Sonra oturub fikirləşirəm, öz-özümə deyirəm, ay dünya, ay dünya, ay dünya, sən niyə belə korlandın? A kişilər, vallah, cəmi cavanların könlündən ağalıq keçir. İmanım itin olsun, indiki cavanların hamısı zaydı. Hamısı...

Bəhmən, kişinin hökmünə yumşaq tərzdə etiraz elədi:

– Bizim yaxşı cavanlarımız çoxdur. Qurunun oduna yaşı da yandırmaq insafdan deyil. Düz demirəm, Çərkəz dayı?

Kişi əlinin dalını ağzına tutub bir neçə dəfə öskürdü.

– Tamam düzdü, professor. Yaxşı cavanlarımız çoxdu. Allah canlarını sağ eləsin.

Xəlil bilirdi ki, Çərkəzi bircə anda fikrindən döndərmək mümkündür. O, kişinin son sözlərinə ürəkdən güldü. Metal dişlərini göstərməkdən utanırmış kimi tez də ağzını yumdu.

– Ay səni, Çərkəz dayı... – deyib başını buladı.

Çərkəz onun gülməyinə fikir vermədi. Üzünü Bəhmənə tutub təəssüflə dilləndi:

– Amma pislər də var, professor. Az da olsa var. Bilirsən, burda adamın yadına dana-naxır məsələsi düşür. Bir dana bir naxırın adını korlayar. Buna sözün nədi? Bəs bu pisləri kimin siyahısına, kimin hesabına yazaq, hayy?

Bəhmən də təəssüflə cavab verdi:

– Meşə çaqqalsız olmur. O pisləri də yazın meşənin hesabına. Onsuz da meşə böyükdür.

– Böyük meşədə çaqqal da çox olur, professor. Buna sözün nədi?

Xəlil stəkanı kişinin qarşısına itələdi:

– Çərkəz dayı, çayını iç, soyudu. Çaqqal dərdi çəkmək bizə qalmayıb ki? Nə qədər ki, dünya var, əclaf adamlar da olacaq, lap meşədə də, meşədən qıraqda da.

Bəhmənin qaşlarının düyünlərini görəndə Xəlil öz sözlərindən diksinən kimi oldu. Nəzərlərini əmisi oğlunun üzündən tez yayındırdı.



Yaxşı ki, Teybə içəri girdi.

– Yemək hazırdı. Gətirim?

Çərkəz onu tələsdirdi:

– Tez ol, qırıldıq acından.

Xəlil arvadına kömək elədi. Stolun üstünə boşqab, çəngəl düzdü, bir şüşə də araq qoydu. Bəhmənin yanını kəsdirən uşaqlarına üz tutdu:

– Keçin bir tərəfdə oturun. Qoyun əminiz çörəyini rahat yesin...

Çərkəz toyuğun budunu dişlərinə çəkdi.

– Məni qınamayın, qışda çolpa çığırtması adama ləzzət vermir. Qışınkı əriştədi, umacdı...

Bəhmən də onun sözlərinə şərik çıxdı:

– Hə, qışda əriştə ayrı aləmdi.. Neçə ildir dilimə əriştə dəymir.

Teybə üzrxahlıq elədi:

– Bu, tələm-tələsik oldu, gərək bağışlayasınız. Axşama əriştə bişirərəm.

Çərkəz süfrəyə göz gəzdirdi:

– Narın var, ay Teybə?

– Payızdan bir-ikisi qalıb, amma büruş-büruşdü.

– Elə mən özüm də büruş-büruşəm. Gətir sıxaq soğanın üstünə. Gətir, xəsislik eləmə. Bir çürük narı Bakıdan gələn qonağa qıymırsan?

Teybə gülümsədi:

– Bəhmən qonaq niyə olur? Bu evdə nə var, hamısı ona qurbandı.

– Teybə iki nar gətirib nimçədəki doğranmış soğanın üstünə sıxdı.

Xəlil qədəhini yuxarı qaldırdı.

– Xoş gəlmisən, Bəhmən.

Çərkəz də qədəhini götürdü:

– Həmişə sən gələsən, professor.

İçdilər... Çəngəllər tez-tez boşqablara dəyib dınqıltı qoparırdı. Otaqda başqa səs eşidilmirdi. Əmioğluların susmağı, zahiri sakitliyi Çərkəzə təəccüblü görünürdü. Bayaq o, hamamda eşitmişdi ki, Bakıdan gələn məşhur həkim Xəlilin əmisi oğludur, özü də onlar uzun illər görüşmürlər. Onda Çərkəzin Xəlilə yazığı gəlmişdi. Düşünmüşdü ki, həmişə qızdırmalı xəstəyə oxşayan, cansız-cəsədsiz Xəlilin ürəyi bu görüşün sevincinə tab gətirməyəcək. Qapıdan girib onları arxayın-rahat görəndə, Çərkəz eşitdiklərinə şübhə eləmişdi. "Yox, bunlar çoxdan ayrı düşmüş qohuma oxşamırlar. Niyə bir-birilərini duz kimi yalamırlar? Niyə çırtıq çalıb oynamırlar? Niyə səs-küyləri bu otağı başına götürməyib? İmanım itin olsun ki, bunlar qohuma heç oxşamırlar".

Çərkəz iri çörək tikəsini narın suyuna batırıb ağzına qoydu:

– Professor, camaat danışırdı ki, Həmid kişi indi ölər, bir azdan ölər. Sən gələndən sonra deyirlər, Həmidin yönü bərilikdi. Əlin var olsun, professor. Axı, sən bu kişiyə nə dava-dərman verdin? O qəlbilikdə binadan yıxılan adam dirilə bilər? Lap məəttəl qalmalı işdi.

Bəhmən çəngəli boşqaba qoydu:

– Həmidin bel sütunu qırılıb, onurğa beyni zədələnib. Bu yaşda adam üçün belə zədə təhlükəlidir. Onurğa beynindən maye aldıq, fəqərələrin sınıq yerində operasiya apardıq. Sonra da korset geyindirdik.

– O nə olan şeydi, professor?

– Korset?.. Gipsdən kostyum.

Çərkəz başını buladı:

– Hə-ə Həmidin sementdən kostyum geyən gününü də gördük. – Üzünü Xəlilə tutub araq şüşəsinə işarə elədi. – Tök görüm, ə... Çox içən döyüləm. Bu mənim axırıncı badəmdi. Bir-iki kəlmə söz demək istəyirəm. – Xəlilin doldurduğu qədəhi götürdü. – Professor, çox şadam ki, sənnən bir süfrənin qırağında oturub, duz-çörək dadıram. Mən şəxsən sənə baxanda fərəhlənirəm, ürəyim dağa dönür. Ona görə ki, sən bizim xəstələrə şəfa verirsən, ona görə ki, bizim camaata lazımlı adamsan, həm də ona görə ki, Xəlilin əmisi oğlusan... Bax, yetimçilik görmüşəm, əsgərlik görmüşəm, cürbəcür vəzifələrdə, işlərdə olmuşam, indi də hamam müdiriyəm. Düzdü, sən deyən elə savadım yoxdu, amma bacarığım var. Bu bacarığımın da sayəsində ailəmin ruzusunu qazanıram... Çox danışıb baş-beynini ağrıtmıram ki, professor?

– Xeyr, xeyr. Xoşdur, buyurun.

– Dediyim nədi? Dediyim odu ki, işin, vəzifənin pisi-yaxşısı yoxdu. Adam harda işləyirişləsin, gərək fərasəti olsun, sənətin beş barmağı təkin bilsin. Xəlil hamamda kaçeqardı, amma necə kaçeqardı? İmanım itin olsun ki, bu rayonun dörd həndəvərini çıraqnan gəzəsən, belə kaçeqar tapmazsan, işgüzardı, intizamlıdı, sənətinin də ustasıdı. Dediyim nədi? Dediyim odu ki, içək Xəlilin sağlığına, onun arvadının sağlığına, gül balalarının sağlığına. – Kişi qədəhdəki arağın hamısını içdi.

Bəhmən ala gözlərini Xəlildən gizlətməyə çalışdı. Ona elə gəldi ki, bu dəqiqə Xəlil onu qanlı-qanlı süzür və şübhəsiz ki, Xəlilin baxışlarından açıq-aydın nifrət, məzəmmət oxunur: "Mən ocaqçı olmamalıydım, əmioğlu, sən məni ocaqçı elədin. Mən kəndimdən, kəsəyimdən didərgin düşməməliydim, sən məni eldən-obadan ayrı saldın. Bəlkə



mən də sənin kimi elmli, adlı-sanlı olacaqdım? Yolumu kəsdin, əmioğlu. Arzumu, muradımı gözlərimdə qoydun".

Bəhmən fikirləşdi ki,bu sözləri onun üzünə deməyə Xəlilin haqqı var. Əgər desə, onda Bəhmən nə cavab verər? Bəlkə deyər ki, bir təsadüfdür, Xəlil, taleyin hökmüdür, məni qınama? Onda Xəlil daha bərkdən qışqırmazmı? "Niyə taleyini mənim taleyimlə dəyişdin? On üç il bundan qabaq o soyuq çöldə bəxtini nimdaş pencək kimi soyunub üstümə atdın, mənim bəxtimi götürüb getdin. Niyə?!"

Xəlil əmisi oğlunun pərt olduğunu duyurdu. Ancaq onun düşüncələrindən xəbərsiz idi. O, arağı bir dəfəyə ağzına atıb, qədəhini stolun üstünə qoydu. Bəhmən də içdi. Odu azalmış sobaya nəzər saldı, otağa göz gəzdirdi. Divara rəngbərəng saplarla hörülmüş tikmələr vurulmuşdu. Hörmələrin ortasında Xəlillə Teybənin böyüdülmüş şəkli asılmışdı. Sobanın arxa tərəfində nikelli çarpayı qoyulmuşdu, onun da üstünə yaşıl ipək örtük çəkilmişdi. Baş-başa dirənmiş iki balaca çarpayı televizorla üzbəüz idi. Dördkünc ortalıq stolu, qab-qacaq rəfi, şifoner otağı çox darısqal göstərirdi. Bəhmən anladı ki, Xəlilin vur-tut bir otağı var: burda yeyirlər, burda yatırlar, burda qonaq qəbul eləyirlər. Bəhmən bir-birinə sığınan əşyalara baxdı, baxdı və ürəyi darıxdı.

Çərkəz ayağa qalxdı:

– Professor, mən gedim. – Paltosunu geyindi. – Xəlil bala, nigaran qalma, mən sənin işini görərəm... Ay Teybə, a qızım, əriştə yadında olsun haa, axşam sizdəyəm.

– Yadımdadı, Çərkəz dayı, axşam hökmən gəlin...

Kişi getdi. Uşaqlar da harasa çıxdılar. Teybə artırmaya adladı. Bəhmən qədəhlərə araq süzdü. Dirənə-dirənə nəsə dedi. Ancaq Xəlil heç nə eşitmədi. Əmisi oğlunun allanmış yanaqlarına baxa-baxa papiros yandırdı. "Kazbek"in tüstüsü sinəsinə, sifətinə yayıldı, sonra burula-burula tavana qalxdı, elə bil Xəlilin xəyalı da bu göyümtül tüstüyə qarışdı, onun burulğanında axdı, əridi.

– Xəlil belə qar görməmişdi, belə soyuq görməmişdi. Gecələr yatağında da sümükləri qızmırdı. Küləyin uğultusunu eşitməmək üçün yorğana bərk-bərk bürünürdü. Amma faydası olmurdu.

Onları alaqaranlıqdan üstü brezentli böyük maşına yığıb meşəyə aparırdılar. Xəlilgil iri-iri ağacları qırıb arıtlayırdılar. Eynən belə şalbanlardan o, öz kəndlərində çox görmüşdü. Xəlil inanırdı ki, bu şalbanlardan bir neçəsi mütləq onun doğma kəndinə gedib çıxacaq. Kimi

ondan sütun yonacaq, kimi taxta kəsdirib evinə döşəmə, tavan vurduracaq, ya da həmin şalbanları yol qırağında basdıracaqlar, başlarına elektrik, telefon, radio xətləri bağlayacaqlar və heç kimin ağlına gəlməyəcək ki, bu dirəklərə Xəlilin əli dəyib.

O, meşədə də üşüyürdü, bekar dayananda az qalırdı donsun. Bəhmənin bağışladığı qulaqlı papaq, yun köynək karına gəlmirdi. Burada keçə çəkmələr, isti əlcəklər vermişdilər, ancaq yenə ayaqları da, əlləri də sızıldayırdı. Paltarları ona ağırlıq edirdi. Dizə çıxan qalın qarda özünü güclə çəkib aparırdı.

Bir dəfə möhkəm yoruldu. Nəfəsini dərmək üçün kürəyini ağaca söykəyib gözlərini yumdu. Lap qulağının dibində briqadirin yoğun səsini eşitdi:

– Nə olub Cəfərzadə?

– Gözlərim göynəyir... Qar çox ağdı, çox.

– Mən bu qarın rəngini necə dəyişdirim, balaca?.. Meşədə işləmək sənin hünərin deyil. Cənublu hara, şaxta-qar hara?.. Mayorla danışaram, səni başqa işə göndərsin, yoxsa donub ölərsən burda.

Səhəri günü Xəlili qazanxanaya yolladılar.

...Bəhmən qədəhini Xəlilin qədəhinə toxundurdu:

– Çoxdan ocaqçı işləyirsən?

– Çoxdan.

– Götür vuraq.

Xəlilin daha içməyə həvəsi yox idi. Gördü ki, araq şüşəsi boşalıb. Əmisi oğlunun qəlbinə dəyməmək üçün axırıncı qədəhdən imtina *eləmədi.*

– Sabah Bakıya yola düşürəm, Xəlil... Səni də özümlə aparacam. – Xəlilin təəccüblə baxmağından anladı ki, əmisi oğlu onun nə demək istədiyini başa düşməyib. Sorğu-suala, etiraza imkan verməmək üçün fikrini qəti bildirdi. – Sən Bakıda yaşayacaqsan. İşə düzəlməyin də, instituta girməyin də mənim boynuma.

Xəlil mənalı tərzdə gülümsədi:

– Bu yaşımda nə institut? Elə bilirəm orta məktəbi yüz ildi bitirmişəm.

– Səninlə özüm məşğul olaram, müəllim də tutaram. İşləyə-işləyə oxuyarsan.

– Burda evim-eşiyim, ailəm... Camaata üz-gözüm öyrəşib.

Bəhmən əl çəkmədi:



– Orda da evin olacaq... Sabah mənimlə gedərsən. Hələlik uşaqlar qalar burda. Mənzillə iş məsələsini həll eləyəndən sonra gəlib Teybəgili apararıq.

Xəlil "Kazbek" qutusunu fikirli-fikirli çırtmaladı. Bu vaxta qədər harasa köçüb getmək barədə düşünməmişdi. Hətta doğma kəndləri üçün burnunun ucu göynəsə də, ora qayıtmaqdan əlini birdəfəlik üzmüşdü. Qorxurdu ki, qalan ömrün acı xatirələrlə çarpışmada keçirsin. Qorxurdu ki, kəndə qayıdar və bütün inamı, ümidi tar-mar olar. Başa düşər ki, Xəlil adlı oğlanı Sayad çoxdan unudub. Bax onda, illərdən bəri ürəyində yuva salan bir mahnı, çətin anlarında qəlbini işıqla dolduran, onu yaşamağa sövq edən həzin bir səs ölər.

– Xəlil, niyə dinmirsən?

– Fikirləşmək lazımdı.

– Tərslik eləmə, qardaş, qurban olum... Cəfərzadələr ocağından iki nəfər başıpapaqlı qalıb. Onlar bir-birinə həyan olmalıdır. Onsuz da anam sənin tapıldığını bilən təki özü qopub gələcək bura, yaxandan yapışıb səni darta-darta aparacaq şəhərə. Sənin üçün ağlamaqdan az qalıb kor olsun arvad. Heç olmasa ona yazığın gəlsin.

Xəlil əmisi oğlunun xumarlanan, axan ala gözlərində yalvarış gördü. Bəlkə, Xəlil doğrudan da ona qoşulub getsin Bakıya? Orda fərli iş tapar, oxuyar. Teybə də işıqlı, yaraşıqlı şəhərdə yaşayar. Toyuq-cücə saxlamaqdan, dəmir sobaya çırpı qoymaqdan, təndirə çörək yapmaqdan canı qurtarar. Uşaqlar da əli-ayağı, üstü-başı tərtəmiz dolanarlar. Bakıya köçsə, Xəlil heç nə itirməz.

*Xəlil əmisi oğlunun nəmli gözlərinə baxıb gülümsədi:*

– Deyirsən yəni...

– Mütləq getməlisən! Bilmirəm necə deyim ki, sözlərimdən inciməyəsən. Axı, Xəlil hara, ocaqçılıq hara? Mən sənin ürəyinə bələdəm. İnanıram ki, bu sənət sənin arzularınla bir yerə sığmır.

– Bəlkə də sən haqlısan.

Bəhmən əlini onun kürəyinə vurdu:

– Bu dəqiqə ərizə yaz.

– Nə ərizə?

– İşdən çıxmaq barədə. Sabah tezdən haqq-hesabı çürüdürsən, sonra yola düşürük.

– Ağlım kəsmir ki, dava-şavasız məndən əl çəksinlər. Çərkəz dayı hələ bir-iki gün məni dilə tutacaq.

– Özüm hər şeyi yoluna qoyaram. Lazım gəlsə, lap raykoma gedərəm, ispalkoma gedərəm, yarım saatın içində əmrini verdirərəm. Dur, dur, ərizə yaz.

Xəlil arxayın-arxayın papiros yandırdı. Otağı yenə göyümtül tüstü dumanı bürüdü...

Bəli, sabah o, ərizəsini Çərkəz dayının qarşısına qoyacaq. Çərkəz özündən çıxacaq. Deyəcək: "İmanım itin olsun ki, səni heç yana buraxan döyüləm. Noolsun ki, Bakıya köçmək istəyirsən? Cəhənnəmə istə, gora istə". Axırda yəqin ki, kişi yumşalacaq: "Getmə, Xəlil bala. Burda özünə gün-güzəran qazanmısan. Bizdən nə bədlik görmüsən? Bir yadına sal, bəlkə sənə pisliyimiz keçib?"

Xəlil maddım-maddım Çərkəzin üzünə baxacaq, burda keçirdiyi günləri istər-istəməz yadına salacaq.

...O bu rayona təzəcə gəlmişdi, özünə iş axtarırdı. Çərkəzin yanına getdi.

– Məni hamama ocaqçı götürün, – dedi.

Kişi onu çox soyuq qarşıladı:

– Ocaqçımız var, səni hara götürüm?

Xəlil təmir-tikinti idarəsində işə girdi. Amma öz sənətinə qayıtmaq fikrini başından çıxara bilmədi. Bir aydan sonra Çərkəz onu yanladı:

– Sabahdan gəl, ocağını yandır, bala. Kaçeqarımız qudurub, deyir təmiz qulluq tapmışam.

Xəlil yaxşı tanımadığı bu kişilə zarafat elədi:

– İndi də mən işləmək istəmirəm.

Çərkəzin üz-gözü qırışdı, sifətindəki çopurlar yığılıb açıldı.

– Cəhənnəmə işlə, gora işlə. Çox lazımsan mənə. – Bir neçə addım gedib dayandı. – Sabah tezdən gəl haa...

Xəlil elə ilk gündən ocaqxananın bir küncünə açılıb-yığılan çarpayı qoydu. Hərarəti səhərə qədər soyumayan qazanların yanında yatdı. Ev almaq, ev tikmək arzusunda deyildi.

Bir gün işdən sonra Çərkəz onun yanına gəldi. Çarpayının üstündə oturub başını bulaya-bulaya mənalı tərzdə dedi:

– Xəlil Cəfərzadə... Hə, Xəlil Cəfərzadə... Adın yaxşıdı, elə kaçeqar adına oxşayır: Xəlil! Amma familin məni qorxudur. Kaçeqarın da familyası zadə olar? Zadə deyəndə gözlərimin qabağında professor, şair, raykom, ispalkom gəlib durur... Amma öz aramızdı, lovğalığın var. Həmişə "Kazbek" çəkirsən.



– Ayrı papiros sinəmə düşmür... Həm də ki, zadəliyim gərək bilinsin də.

Çərkəz kişi saymazyana əlini yellətdi:

– Ə, kiri, kiri. Tütünnən tənbəkiynən kişilik bilinsəydi, gədə-güdələrin hamısı gümüşü qəlyan çəkərdi... Sənin elə o can-cəsədinə papiros sümürmək yaraşır. Ayaq üstə ölürsən, tərgiz getsin də.

– Tərgizə bilmirəm, Çərkəz dayı.

– Cəhənnəmə tərgiz, gora tərgiz! İmanım itin olsun ki, səni başının çıxacağını bilən adam döyülsən. Ə, nə vaxtacan tiyanların dibində yatacaqsan? Niyə özünə yurd-yuva qurmursan?

– Axı, neynən tikim evi?

– Mən təzə ev tikdirmişəm. Köhnə evin tiri-pasnası, qapı-pəncərəsi sağ-salamat durur. Ayıbalası kərpiclər də elə bil yonma daşdı. Tay nəyin çatmır? Səndən hərəkət, məndən bərəkət.

– Yox, Çərkəz dayı, ev tikdirməyəcəm.

Çərkəz qalxıb deyinə-deyinə ocaqxanadan çıxdı:

– Cəhənnəmə tikdir, gora tikdir! İmanım itin olsun ki, bu dünyada səndən avara adam yoxdu. Qal burda canın çıxsın...

Kişi, Xəlili hər gün danladı. Axırı ki, yarıxoş, yarızor onu ev tikdirməyə razı saldı. Məhlə yeri götürdülər, çəpər çəkdilər. Çərkəz köhnə evinin salamat qalan taxtasını, kərpicini, qapı-pəncərəsini maşına yığdırıb daşıtdırdı Xəlilin boş həyətinə.

Ona təkgözlü, yaraşıqlı ev tikdilər...

Bir gün Çərkəz kişi Xəlilin təzə mənzilinə gəldi. Suvağı hələ tamam qurumamış divarlara baxdı:

– Ev-eşiyi arvad nəfəsi qızdırar, bala.

Xəlil güldü:

– İndi nə deyirsən, Çərkəz dayı?

– Bizim qapı-bacada hərlənən qıza göz qoymusan? Qonşumuz Qəmərin qızını deyirəm, Teybəni. – Sağ əlini dizləri bərabərində tutdu. – Bax, bu boydalığından gözlərimin qabağında böyüyüb. Ağıllı-kamallı, həyalı, təmizkar qızdı. Özü də fikir vermişəm ki, sənə altdan-altdan yaman baxır. Amma, öz aramızdı, Teybəni görəndə sənin də rəng-rufun dəyişir, utanırsan. Gərək...

Xəlil onun sözünü yarımçıq kəsdi:

– Yox, yox, Çərkəz dayı, mən heç kimdən utanmıram. Evlənmək də istəmirəm.

– Cəhənnəmə evlən, gora evlən! Çox lazımmış mənə sənin evlənməyin. İmanım itin olsun ki, sən bifər adamsan. Lovğa-lovğa "Kazbek" çəkməkdən savayı əlindən iş gəlmir.

Çərkəz acıq eləyib getdi...

Gecələr Xəlilin yerinə qor dolurdu. Təzə evin nəm divarları onu sıxırdı. Sükutdan qulaqlarında gurultu qopurdu. Söz deməyə, kəlmə kəsməyə bir adam arzulayırdı. Nə vaxta qədər bu otaqda o öz-özüylə danışacaq? Nə vaxta qədər pal-paltarını özü yuyacaq? Nə vaxta qədər Sayadın həsrətilə yaşayacaq? Anlayırdı ki, Saday onunçün intəhasız göyün lap uzaq nöqtəsində közərən ulduz kimidir. Sayad səmada axan bir parça buluddur. Qopart o ulduzu, görüm necə qoparırsan. Endir yerə o buludu, görüm necə endirirsən.

Hərdən Çərkəzgilə gedəndə Teybə gözlərinə dəyirdi. Qıza oğrun-oğrun baxırdı. Ürəyində ona qarşı heç olmasa zərrə qədər məhəbbət, zərrə qədər həvəs axtarırdı. Tapa bilmirdi. Ucaboy, arıq, ağbəniz bu qız Sayada qətiyyən oxşamırdı. Teybənin çox iri, qapqara, tərtəmiz gözləri vardı. Xəlil onun üzünə baxanda təkcə gözlərini görürdü. Ömründə belə gözlərə rast gəlməmişdi: iri, qapqara, tərtəmiz!

Xəlil yatağına uzanıb gecə yarıdan keçənə qədər fikirləşirdi. Qaranlıq otaqda hərdən Teybənin gözlərini açıq-aydın görürdü. Ona elə gəlirdi ki, əlini uzatsa barmaqlarını bu iri, qapqara, tərtəmiz gözlərə toxundura bilər. O an ürəyində, beynində yüngüllük, canında hərarət duyurdu. Sanki bu hərarət qaranlıq otağa Teybənin iri gözlərindən axıb tökülürdü. Xəlil düşünürdü ki, buradan heç yana gedə bilməyəcək. Burada özünə yuva qurub və bu yuvaya işıq lazımdır, səs lazımdır, ılıq nəfəs lazımdır.

Elçiliyə Çərkəz kişi özü getdi...

Xəlil toy çaldırmağa razılıq vermədi. Balaca bir məclis düzəltdi. Hamamın bütün işçiləri, bir də Çərkəz kişinin dörd-beş tanışı Xəlilin otağına yığıldı. Yeyib-içdilər, bəylə gəlinə xoşbəxtlik arzulayıb dağılışdılar.

– Çox susacaqsan, Xəlil?

– Qoy bir az da fikirləşim.

– Bir saatdır fikirləşirsən. Bəsdir. Ərizəni yaz. – Bəhmən ayağa qalxıb artırmaya boylandı. – Teybə bacı, zəhmət olmasa, kağız-qələm gətirin.



Teybə içəri girib künc-bucağı xeyli axtardı. Sonra Bəhmənin qarşısına dama-dama dəftər vərəqi qoydu:

– Evdə yazanımız yoxdu, qələm almaq eynimizə gəlməyib.

Bəhmən qoltuq cibindən dördrəngli yoğun qələm çıxarıb Xəlilə verdi. Kağızı da ona tərəf itələdi:

– Di, yaz.

Xəlil papirosu damağından götürüb külqabıya basdı. Tərəddüd içində arvadına baxdı:

– Bakıya köçürük, – dedi.

Teybə ərinin sözlərini zarafat sanıb güldü:

– Bizim orda nə itimiz azıb?

– Doğru sözümdü... Köçürük.

Teybə gülməyini kəsdi:

– Biz Bakıda neyləyəcəyik?

– Camaat neynir, biz də ondan. – Xəlil arvadının təəccüb, çaşqınlıq dolu baxışlarından tutulub nəzərlərini onun üzündən yayındırdı.

Bəhmən Teybəni yola gətirməyə çalışdı:

– Biz hər şeyi götür-qoy eləmişik. Sizin Bakıya köçməyiniz vacibdir.

Teybə çiynini çəkib könülsüz-könülsüz dilləndi:

– Xəlil özü bilər.

Teybə incik adamlar təki qaş-qabağını salladı və bununla da ərinə bildirmək istədi ki, Bakıya köçmək söhbəti onun ürəyincə deyil. Huşu, xəyalı uzaqlardaymış kimi, gözləri yol çəkə-çəkə otaqdan çıxdı.

Xəlil dama-dama vərəqə yaşıl rəngli hərfləri bir-birinin ardınca düzdü... Qol çəkib kağızı dörd qatladı, bambazı köynəyinin döş cibinə qoydu. Bəhmənin uzana qalmış yumşaq, ağ əlini bərk-bərk sıxdı.

İkisi də rahat nəfəs aldı. İkisi də gülümsədi.

Çöldə it yava-yava hürdü.

Teybə ona təpindi:

– Kaştan! Kaştan! Sürük burdan!!

İt zingildəyib səsini tamam kəsdi.

Teybə başını qapıdan içəri saldı:

– Qədimov gəlir, – deyib tez də çəkildi.

Qədimov açıq qapını taqqıldatdı, cavab gözləmədən yanını basa-basa otağa keçdi:

– Olar?.. Salam-əleyküm. – Elə bil bu sözləri deyincə təngnəfəs olub taqətdən düşdü. Bayaq Çərkəzin oturduğu boş stula baxdı, sanki

onun ağırlığına stulun tab gətirib-gətirməyəcəyini gözəyarı yoxlayırdı... Əyləşdi.

Xəlil ayağa qalxdı:

– Paltonuzu çıxardın, həkim.

– İndi gedirəm... Balam, itiniz az qalmışdı məni parçalasın.

Xəlil öz yerində oturdu:

– Kaştan kaftarlaşıb. Əvvəlki dövrü olsaydı, peşmançılıq eləyərdi. Kaştan tanımadığı adamı həyətə buraxmır.

– Həyətə oğrunu, qulduru buraxmasın. Mən yəni çalıb-çapana oxşayıram? – Ağızlığından tüstü çıxan sobaya baxdı. – Balam, yaman soyuqdu, qış əhədimizi kəsəcək. Bizim xəstəxanada da odun qıtlığıdı. Eh, bu rayonda baş həkim işləmək zülümdü. Min dərdim var. – Dərindən nəfəs aldı və xışıltı ilə qalxan sinəsi az qaldı ətli çənəsinə yapışsın.

Xəlil samovara işarə elədi:

– Çay süzümmü, həkim?

Qədimov tıncıxa-tıncıxa cavab verdi:

– Bugünkü maye normamı içmişəm. – Əlini qarnının üstünə qoydu. Şişkin göz qapaqları sallandı. Kirpiklərinin arasında nazik bir xətt parıldamasaydı, güman etmək olardı ki, o yatıb. Handan-hana gözlərini açıb üzünü Bəhmənə tutdu. Dəyirmi dodaqları tərpənib bir-birindən güclə aralandı. – Balam, sanaviasiya bu dəfə yaxşı karımıza gəldi. Teleqram vurandan iki-üç saat keçməmişdi ki, siz gəldiniz. Yoxsa Həmid kişi əlimizdən getmişdi... Professor Dövlətov necədir, doktor? Məndən ona salam deyərsiniz. Tələbə yoldaşı olmuşuq... Mürsəl Şamilzadə doktorluq dissertasiyasını qurtardımı?

– Bu yaxınlarda müdafiə edəcək.

– Məndən salam deyərsiniz. Tələbə yoldaşı olmuşuq... Quliyev yenə Semaşkoda işləyir?

Sorğu-sual uzandı...

Sonra Qədimov, Xəlili məzəmmətlədi:

– Balam, sən niyə belə birtəhər adamsan? Bu vaxtacan bizə deməmisən ki, doktor Cəfərzadənin əmisi oğlusan. Bayaq görürəm xəstəxananın qapısında yolumuzu kəsib durmusan. Mən də deyirəm, ya keç, ya da yol ver keçək. Nə bilim ki, siz yaxın qohumsunuz? Doktor səni qucaqlayanda lap çaşdım. Canın haqqı, sonra məni ağlamaq tutmuşdu.

Xəlil inanırdı ki, Qədimov onun adını doğru-düzgün bilmir. Çünki həkim aylarla hamama ayaq basmırdı. Onu çox vaxt evdə çimizdirirdilər.



Bir xeyli hamı susub Qədimovun sinəsindən qopan xışıltıya qulaq asdı. Nəhayət Bəhmən dilləndi:

– Həkim, bu soyuqda zəhmət çəkmisiniz... Özü də piyada... Onsuz da mən yanınıza gələcəkdim.

– Nə zəhmət-bazlıqdır? Əmioğlu olmasaydı sizi heç yana buraxan deyildim. Evdə hazırlıq gördürmüşəm... Gəldim deyəm ki, sizin xahişinizi yerinə yetirmişəm. Ov məsələsi...

– Ov? – Bəhmənin qaşları dartıldı. – Hə-ə... Yadıma düşdü. Amma bilmirəm, getmək vacibdirmi?

– Şəhərdən gələn adam üçün bir saatlıq ov bir milyona dəyər.

Bəhmən, qırıla-qırıla qalmışdı. Xəlilin yanında ovdan söhbət düşməyini heç arzulamırdı. İstədi həkimin təklifindən boyun qaçırsın, ancaq qorxdu ki, Qədimov onun bu qərarından təəccüblənsin, onu sorğu-suala tutsun: "Niyə getmirsiniz? Axı, səhər tüfəng üçün nə qədər xahiş-minnət elədiniz".

Bəhmən, başını aşağı salıb fikirləşən əmisi oğluna baxdı:

– Həkim, bəlkə... Belə havada...

– Havaya nə olub? – Qədimov stulda qurcalandı. – Əsil ov havasıdır.

Xəlil təəccübünü gizlədə bilməyib Bəhməndən soruşdu:

– Ova gedirsən?

– Ov deyəndə...

Qədimov macal vermədi ki, Bəhmən sözünün dalını gətirsin:

– Doktor, tüfəng tapdırmışam. Maşınla gedərik. Şoferim babat atandı. Mən də sizə qaraltı verərəm.

Bəhmən bir anın içində qəti qərara necə gəldiyini özü də anlamadı:

– Gedək!.. Xəlil, sən də tərpən.

Xəlil gülümsədi:

– Ova? – Başını buladı. – Məni toya çağırıblar.

Qədimov altındakı stulu cırıldatdı:

– Sən toya getməsən gəlin gərdəyin dalına keçməyəcək?

– Mən camaatın xeyrindən, şərindən qala bilmərəm. – Xəlilin qaşları çatıldı.

Bəhmən qalxıb boynu xəzli qalın paltosunu geyindi.

Qədimov onun qarşısında dayanıb gözlərini parıltılı, qıvrım xəzin üstündə gəzdirdi:

– Doktor, siz Bəşirovu yaxşı tanıyırsınız? Terapevtdi. Yaman məşhurlaşdı haa. Balam, heç institutda ağıllı-başlı oxuya bilmirdi. Tələbə yoldaşı olmuşuq...

Bəhmən paltonun iri, qara düymələrini bağlaya-bağlaya dedi:
– Axşam əriştə yeyəcəyik, həkim.
Bəhmən otaqdan çıxdı, Qədimov da onun ardınca.
Xəlil stolun üstündəki boş qədəhlərə baxa-baxa papiros yandırdı. O, elə bilmişdi ki, əmisi oğlu bir daha tüfəng götürüb çölləri dolanmayacaq. Elə bilmişdi ki, hər qəfil güllə səsi Bəhməni diksindirəcək, onun yadına Tağını salacaq. Xəlil indi çaşbaş qalmışdı. Bu nə ovdu? Bu nə kefdi? Yoxsa Bəhmən keçmişləri unudub?
Xəlil başa düşürdü ki, onun Bakıya köçməyi özündən çox Bəhmənə lazımdır. Yəqin Bəhmən bu məqamı çoxdan axtarırdı. O dəridən-qabıqdan çıxsa da, əmisi oğluna babat güzəran düzəldəcək və bununla da ağrıyan vicdanına məlhəm tapacaq. Sonra rahat nəfəs alıb sakit-sakit deyəcək: "Biz bir-birimizə borclu qalmadıq, Xəlil".
O, artırmaya çıxdı. Göyə baxdı. Hava bozarmışdı. Teybə əriştə üçün xəmir yoğururdu. Kaştan keçəlləmiş quyruğunu bulaya-bulaya yarıyumulu zığlı gözlərini teştə zilləmişdi.
Teybə başını yuxarı qaldırmadan soruşdu:
– Doğrudan toya gedirsən?
Xəlil yenə boz-bulanıq göyə nəzər saldı.
– Gedirəm, – dedi.
O, adamayovuşmaz idi. Çərkəzdən başqa heç kim onun dərdini-sirrini bilməzdi. Xəlili hələm-hələm toya, qonaqlığa çağırmazdılar. İndi də çağırmamışdılar.
Teybə teştin üstünə qalın məzər saldı:
– Təzə kostyumunu gey. Qalstuk da bağla.
– Lazım deyil.
– Bakıya köçmək məsələsi gerçəkdi, Xəlil?
Xəlil cavab vermədi. Artırmadan düşüb asta-asta küçəyə çıxdı.
O, çalğı səsini lap uzaqdan eşitdi. Doqqazdan keçib ömründə ayaq basmadığı həyətə girdi. Qapının ağzında stul qoyub oturmuş bığlı kişinin qarşısındakı balaca çamadana bir qırmızı onluq tulladı.
– Oğullu, qızlı olsunlar, qoşa qarısınlar! – deyib şirni ilə təpələnmiş məcməyidən bir ovuc noğul götürdü.
Xəlil adamla dolu mağarda yer tapıb oturdu. Toybəyi kimisə oynamağa çağırdı. Bayırda külək güclənmişdi, brezent örtüklü mağarı yumruqlayıb titrədirdi. Mağarın ortasından asılmış iri lampa yellənirdi. Xəlil eldən-obadan uzaq diyardakı gecələrini xatırladı. Orada da külək



tez-tez tufan qoparırdı, tavandakı lampanı saat kəfgiri kimi yırğalayırdı. Xəlil də yatağında uzanıb sağa-sola yellənən bu işığa gözləri qaralınca baxırdı, kəndlərini xatırlayırdı, anasını xatırlayırdı. Bəhmən yadına düşürdü. Hər dəfə də qətiyyəti artırdı: "Ona məktub yazmayacam". Heç kimə yazmırdı. İstəmirdi ki, Bəhmən onun ünvanını öyrənsin. Bilirdi ki, əmisi oğlu ona gündə bir məktub yollayacaq və hər kəlməsindən üzrxahlıq iyi gələn bu məktubları sakit oxumağa Xəlilin hövsələsi, dözümü olmayacaq. Amma Bəhmən istəsəydi, Xəlilin yerini-yurdunu çoxdan öyrənə bilərdi.
Xəlil o uzaq diyarda kimdənsə məktub almaq həsrətiylə qovrulurdu. Kaş Sayad ona kağız yazaydı. Yazaydı ki, Xəlil, ay Xəlil, "Küçələrə su səpmişəm, yar gələndə toz olmasın".
Xəlil qəflətən yerindən qalxdı. Gəlib uzunboğaz, arıq xanəndənin qarşısında dayandı. Cibindən bir onluq çıxarıb stolun üstünə atdı:
– Mənə bir mahnı oxu... Küçələrə su səpmişəm.
Çaldılar. Xanəndə sədəfli, zərli dəfi çırtmalaya-çırtmalaya zil səslə oxudu. Xəlil qol götürüb asta-asta oynadı. Tez-tez çaşırdı. Ayaqlarını musiqinin ahənginə uyğun götürüb qoymağı bacarmırdı. Hamı əl vururdu. Hamı qollarını naşı-naşı oynadan Xəlilə tamaşa eləyirdi.
Mahnı qurtaran kimi Xəlil mağardan çıxdı. Çörək yeməyə də qalmadı...
Teybə yun şala bürünüb artırmada dayanmışdı. Xəlili görən kimi qəhərləndi:
– Tay məndə can qalmadı, nigarançılıqdan ölürəm. Harda qaldı Bəhmən? Adam bu ruzigarda qonağı ova buraxar?
Qulaqlarının, sifətinin sızıldadığını Xəlil indicə hiss etdi. Külək səngimişdi, amma hava yenə soyuq idi.
Xəlil motor uğultusu eşidib darvazadan tələsik çıxdı. "QAZ-69" Xəlilgilin evlərinin qabağında dayandı. Maşının dal qapısı açıldı. Xəlil qapını tutdu ki, Bəhmən maşından düşsün.
Qədimovun xırıltılı səsi sinəsinin xışıltısına qarışdı:
– Balam, doktor bizdə dincələcək. Onsuz da otağınız darısqaldır.
Xəlil maşının qapısını buraxmadı, əmisi oğlunun düşməyini gözlədi.
Arxa oturacaqda Bəhmənin mülayim, yorğun səsi eşidildi:
– Sabah görüşərik, Xəlil. Tezdən Qədimovgilə gəl.
Maşının içi qaranlıq idi. Xəlil nə qədər zəndlə baxdısa da, Bəhmənin ala gözlərini görə bilmədi.

"QAZ-69" tərpəndi, nərildəyə-nərildəyə tini burulub gözdən itdi. Motorun uğultusu uzun müddət Xəlilin qulaqlarından getmədi. Sonra uğultu kəsildi. Xəlil key kimi durub gecənin sükutunu dinlədi...

Uşaqlar qoşa çarpayıda yatmışdılar. Soba gurhagurla yanırdı. Teybə boşqaba əriştə töküb Xəlilə verdi:

– İsti-isti ye, canın qızsın... Çərkəz dayı gəlmədi. Demişdi gələcəm. – Mis ləyəni əriştə ilə doldurub sobanın üstünə qoydu. – Bu da Bəhmənin payı. Sabah gələndə verərəm.

Xəlil əriştəni qaşıqlaya-qaşıqlaya sobanın üstündəki ləyənə baxdı. Qulağına xırıltılı bir səs gəldi: "Onsuz da otağınız darısqaldır... Darısqaldır... Darısqaldır..." Bu xırıltıya mülayim, yorğun bir səs də qarışdı: "Sabah görüşərik... Görüşərik... Görüşərik..."

Xəlil qalxıb sobanın üstündəki ləyəni götürdü. Asta-asta artırmaya çıxdı:

– Kaştan! Kaştan!

İt özünü artırmanın qabağına yetirdi. Şöngüyüb quyruğunu buladı.

Xəlil ləyəni ağzıüstə çevirdi. İsti əriştəni buğu yerdən tüstü kimi qalxdı. Kaştan diksinib geri sıçradı, qaçıb çəpərin dibində dayandı.

Xəlil göyə baxdı. Səma tərtəmiz idi.

Rayon mərkəzində uca dirəkdən asılan gümüşü radio susurdu. Deməк, gecə saat on ikidən keçmişdi. Demək, yenə gün başlanmışdı.

Xəlil döş cibindəki ərizəni çıxartdı. Tikə-tikə cırıqlayıb yerə səpəldi. Birdən ona elə gəldi ki, rayon mərkəzində uca dirəkdən asılmış gümüşü radio xırıldadı. Sonra xırıltı kəsildi, həzin musiqi çalındı. Yo*ğun, yatımlı, bakirə bir səs – bir kişi səsi gecənin sükutuna, qəribliyinə* layla çaldı:

"Küçələrə su səpmişəm.
Yar gələndə toz olmasın..."

*1971*



# QUYU

1

Umud gözlərini soğan, kartof qabıqları tökülmüş torpaq döşəməyə zilləyib, çirkli xalatının düymələrini yavaş-yavaş açmağa başladı. Neçə gündən bəri ürəyində ağır daş kimi gəzdirdiyi sözləri indi bərkdən dedi:

– Yox, kişi sənəti deyil bu!

Ocağın hisindən bomboz bozarmış xalatın yaxası da, ətəyi də yağ ləkələri ilə dolu idi. Umud yan-yörəyə göz gəzdirdi, elə bil ürəyini boşaltmaq üçün həmdərd axtarırdı. Əhəngi çoxdan qaralıb rəngini itirmiş divara baxdı. Bu divara soğan iyi hopmuşdu, bu iy gecələr də Umudun burnundan getmirdi. Umud xalatı iri ət kötüyünün üstünə tulladı.

– Bacarmıram, – dedi. – Zor deyil ki!

Başını balaca pəncərəyə dürtüb, müştərilərin arasında yeməkxananın müdirini nəzərləri ilə aradı. İçəridə adam çox idi, ağız deyəni qulaq eşitmirdi. Həmişə buralarda veyllənən müdir Umudun bu darıxdığı, təngidiyi vaxtda elə bil yağlı əppək olub yoxa çıxmışdı. Umud xörəkpaylayan caydaq oğlana əl elədi. Oğlan stolların yanından burula-burula, tələm-tələsik keçib pəncərəyə yaxınlaşdı. Umud arın-arxayın dedi:

– Özünüzə adam tapın... Məndən sizə aşpaz olmaz.

Umud caydaq oğlanın təəccüblənməyini də görmədi, duzlu-istiotlu söyüşünü də eşitmədi. Ət iyi, yağ iyi verən isti mətbəxdən yel-yepərək çıxdı.

Umudun canı od tutub yanırdı. Güman eləyirdi ki, beyni pıqhapıqla qaynayır, təpəsindən buxar qalxır. Alnında, çənəsində muncuqlanan təri əlinin dalı ilə sildi. Yenə burnuna zəhrimar soğanın iyi dəydi, elə bil ovcunda bir baş soyulmuş soğan tutmuşdu... Addımlarını yeyinlətdi. Özünü artezian quyusuna güclə çatdırıb, yarımqol, nimdaş köynəyini soyundu. Boynunu yoğun borudan şarhaşarla axan ılıq suyun altına tutdu. "Görəsən, işdən getməyimə dədəm nə deyəcək?". Su kürəyinə axanda Umud elə bildi ki, kürəyi qızmar dəmir kimi cızıldadı. "Xalıq dayı abrımı alacaq. Deyəcək, gündə baş-beynimi aparıb iş istəyirdin məndən. Deyəcək, onca gün kürənin dalında dayanmağa təpərin ol-

madı". Umud qollarını dirsəyəcən sarımtıl palçıqla sürtüb yudu. Əllərini iylədi. Deyəsən, əllərindən yenə soğan iyi gəlirdi. "Bacarmıram, vəssalam. Çox da ki, əsgərlikdə aşpaz olmuşam. Heç aşpaz olmamışam, aşpaz Kirsanova kömək eləmişəm. Buyruğa baxmışam: su gətir, kələm doğra, bu qazana kartof tök, bu qazanı qarışdır..."

Umud köynəyini geyinib fikirli-fikirli addımladı. Kəndin uzun, tozlu küçəsinə düşüb gedirdi. Hara gedir getsin, təki səsli-küylü yeməkxanadan uzaq olsun. Uzaq, uzaq, uzaq! Damı şiferli, çöl divarları çat-çat olmuş yeməkxananın birmərtəbəli, uzunsov binasını görməmək üçün tini burulub enli küçəyə çıxdı. "Xalıq dayı acıqlansa, qiymət cədvəlini göstərəcəm ona. Deyəcəm, ay sədr, Barnaulda iki ay aşpazlıq kursunda oxumuşam. Daha doğrusu, oxutdurublar məni. Deyəcəm, qiymətlərimə bax, təpədən dırnağa "üç"dür. Bircə dənə də "dörd"üm yoxdur, hələ "beşi" demirəm. Deyəcəm, ay sədr, bir adam ki, sənətini "üç"ə bilə..."

Sədrin "QAZ-69"u Umudun yanında dayandı. Maşının qabaq qapısı şaqqıltı ilə açıldı və Umudun bayaqkı fikirləri pərən-pərən düşdü.

Xalıq zəndlə Umuda baxdı, ancaq Umud anlamadı ki, bu necə baxışdı. Sədrin, altı tuluqlanmış yorğun gözləri Umudun üzünə zillənmişdi, amma, deyəsən, Umudu görmürdü. Xalıq danışmaqdan təngə gəlmiş adam kimi ərincək-ərincək dedi:

– Axşam dədəni də götürüb bizə gələrsən.

Sədr, şofer Piriyə də ərincək-ərincək baxıb qapını çırpdı. Piri maşını tərpətdi. Tozun içində "QAZ-69"da görünməz oldu, Umud da. Sapsarı toz Umudun ağzına, burnuna doldu. Umud gözlərini yumdu. Fikirləşdi ki, toz pərdəsinin içindədir. Ona elə gəldi ki, bütün dünya tozun içindədir. Umud nəfəsi tıncıxa-tıncıxa gözlərini açdı. Sarı pərdə hərəkətdə idi, əriyirdi, seyrəlirdi. Umud yavaşca nəfəs çəkdi və elə bildi ki, toz burnunun deşiklərindən keçib dilçəyində palçığa döndü. "İşdən getməyimi nə tez sədrin ovcuna qoydular?"

Umud evlərinə sarı gedən cığıra buruldu. Papiros çıxardıb yandırdı. Fikirləşdi ki, yəqin indi yeməkxanada aləm bir-birinə qarışıb. Camaat xörək istəyir, müdir də qapının ağzında dayanıb hər gələnə elan eləyir ki, aşpaz qaçıb, sonra da Umudun qarasınca dişinin dibindən çıxanı deyir. İndi müştərilər, güman ki, Umudu lağa qoyub gülürlər. Umud da ürəyində onların cavabını verdi: "Hamınız avarasınız. Hamınızın kənddə ev-eşiyi var. Örüşdən qayıdan mal-qara kimi toxsunuz. Yeməkxanaya laqqırtı vurmağa, qeybət qırmağa gəlirsiniz".



Umud uzaqdan gördü ki, həyətlərindən ağımtıl tüstü qalxır. Düşündü ki, atası havayı zəhmət çəkir. Ağcaqanadın nə can-cəsədi var ki, tüstüdə boğulsun. "Dədəm axşamlar nahaq təzək yandırır, tay da dəlmə-deşikdəki ağcaqanadları ürküdür, onlar da hirslənib daraşırlar canımıza".

Umud əlindəki papirosu hələ yarıyacan çəkməmişdi. Yarımçıq atmağa heyfi gəlirdi. Papirosla da həyətə girmək olmazdı, çünki Umud bu vaxtacan nəinki atasının, heç qardaşı Kamranın da yanında damağına papiros qoymamışdı. Umud pitraq kollarının arasından keçən ensiz cığırın tən ortasında dayanıb, papirosunu arxayın-arxayın sümürdü. Başını qaldırıb göyə baxdı. Göydə günəş görünmürdü. Təkcə qızartısı qalmışdı. Yavaş-yavaş toran qarışırdı, ancaq gündüzkü isti hələ səngiməmişdi. Hələ hava bürkülü idi. Havadan toz iyi gəlirdi. Bu toz iyi Umudun yadına Xalığı saldı. Xalığın torbalanmış yorğun gözlərini saldı. "Sədr, deyəsən, məni dədəmin yanında tənbeh eləmək istəyir".

Umudun qulağının dibində bir ağcaqanad zümzümə çaldı. Bu zümzümədən Umudun bədəni uyuşub açıldı. Umud Altayda əsgərlik çəkmişdi. Altay meşələrində bal arısı boyda ağcaqanadlar görmüşdü, amma onlardan bu qədər qorxmamışdı, çünki onların səsi belə zəhmli deyildi, iynələri belə acı, belə ağrılı deyildi. Bu kəndin ağcaqanadları çox həyasız idi, sancdığı yeri yandırmasa, şişirdib yara eləməsə, adamdan əl çəkmirdi... Bayaqkı zümzümə birdən-birə kəsildi. Amma Umud sevinməyə macal tapmadı; sol əlinin üstünə elə bil iynə ucu boyda köz basdılar. Umud baş barmağının yanındakı xıpxırda, sarımtıl ağcaqanada baxdı. Bu sarımtıl ağcaqanad get-gedə böyüdü, rəngi dəyişdi onun, qarnı qıpqırmızı qızarıb yumrulandı. Umud dişlərini dişlərinə sıxıb əlinin üstündəki göynərtiyə dözdü. "Sor qanımı köpəkoğlunun malı. Qarnın partlayınca sor". Ancaq ağcaqanad partlamaq bilmirdi. Gənə kimi yapışıb qalmışdı. Umudun əlinin üstündə, deyəsən, yükünü qaldırmağa ağca-qılca qanadlarının gücü çatmırdı.

Umud papirosu tullayıb sağ əlinin üstünə şappıltı ilə vurdu. Ağcaqanad xıncım-xıncım oldu və Umudun öz qanı öz əlinə yayıldı.

Umud həyətə girib yan-yörəyə göz gəzdirdi, ancaq atasını görə bilmədi. Təzək qalağının aşağısından süd rəngli qatı tüstü qalxırdı. Yuxarı milləndikcə tüstü seyrəlib saralırdı, sonra tamam göyərirdi. Bu üçrəngli tüstü burulğanının dalından Məcid kişi öskürə-öskürə çıxdı. Özü də ağappaq tuman-köynəkdə idi, heç tüstü sütunundan seçilmirdi.

Kişi artırmanın qabağında mat-məəttəl dayanmış oğluna baxdı.

– Ditdilinin dədəsinə od vurmuşam. – dedi. Ayağındakı şap-şupları sürütləyə-sürütləyə gəlib Umudla üzbəüz dayandı.

Məcid kişinin enli alnının tən ortasında bir ağcaqanad oturmuşdu. Deyəsən, tərpənmək fikri yox idi, ömürlük qonmuşdu ora. Umud axşamın toranında atasının çəhrayıya çalan uzunsov sifətinə, çal qaşlarına nəzər saldı. Sonra kişinin alnında qara xala oxşayan ağcaqanada baxdı.

– Sancmır səni? – dedi.

– Nə?

– Alnındakı ağcaqanad.

Kişi çal qaşlarını çatdı. Alnındakı qırışlar dartılıb enləndi. Ağcaqanad tərpənmədi ki, tərpənmədi.

Umudun hövsələsi lap daraldı.

– Qov onu, dədə. Qanını sorur axı.

– Mənim nə qanım var ki, Allahın bu heyvanı da sora.

Təzəyin acı tüstüsü Umudun gözlərini gicişdirirdi, boğazını göynədirdi. Umud artırmaya çıxıb işığı yandırdı. Bu işıqda həyətin tüstüsü dağ dumanına oxşadı.

– Nahaq gözlərini kor eyləyirsən, dədə. Tüstü ağcaqanadın vecinə deyil.

Kişi də artırmaya qalxdı.

– Vecinə oldu, olmadı... Onsuz da həyət-bacadakı zir-zibil yanmalıdı.

Umud bilirdi ki, atasının ağcaqanaddan qorxusu yoxdur, atası onunçün əlləşir, gecələr miçətkəni də onunçün qurur.

– Aclığın var?

Umud cavab verməmiş təzədən atasının alnına baxdı. Qara xala oxşayan ağcaqanadı görmədi orda. Deyəsən, ağcaqanadın ağzı boşda qalmışdı. Yetmiş il dünyanın isti-soyuğuna tab gətirib köşəyə dönmüş bu qırışlı alından bircə damcı da qan sora bilməmişdi.

– Qayğanaq bişirimmi?

Umud başını buladı:

– Toxam.

– Orda yemisən?

Umud fikirləşdi ki, indi hər şeyi açıb deməyin məqamıdır. Onsuz da bir azdan Xalığın yanına gedəcəklər, Xalıq taxçada-boğçada nə varsa, tökəcək ortalığa.



– Xörək bişirmək arvad işidi, dədə.

Məcid kişi oğlunun nəyə işarə elədiyini anlamadı.

– Əlacımız nədi? Evdə arvad xeylağı olmayanda gərək özümüz...

– Onu demirəm... İşdən çıxmışam... Aşpazlıq arvad peşəsidi.

Məcid kişi yanını taxta çarpayının qırağına qoydu. Əvvəlcə boynunu qaşıdı, sonra köynəyinin ətəyini qaldırıb qarnını qaşıdı.

– Bə çöldə tər tökmək arvad işidi? – dedi. – Traktor sürmək arvad sənətidi? Bə onlar niyə şikayət eləmirlər?

Umud arxasını sütuna söykəyib tüstüdən acışan gözlərini ovxaladı:

– Camaat mənim bişirdiyim xörəkləri bəyənmir.

– Niyə? Duzun, istiotun qədərini bilmirsən, yoxsa...

– Bunlar borş, sup, kotlet yemirlər. Tikə kababdan dəm vururlar. Mən də onların istədiklərini bişirə bilmirəm. Bir yekə qazan borş bişirmişəm, üç gündü qalıb elə heylə. Hər gün ocağın üstünə qoyub təzədən qızdırıram. O qədər qaynatmışam, xəşilə dönüb.

– Niyə borşu bəyənmir bu camaat? Qarnına azar dolub bu camaatın?

– Deyirlər, borş şəhər xörəyidir.

Məcid kişi elektrik lampasının həndəvərində fırlanan pərvanələrə baxdı.

– Qudurublar, – dedi. Sonra üzünü oğluna tutdu. – Bə əsgərlikdə nə qələt eləyirdin, ə?!

Umud başını aşağı saldı:

– Əsgərlik ayrı, bura ayrı... Orda yekə qazanlar asırdıq, hərəsi çəllək boyda. Kələmi, kartofu doldururduq içinə.

Məcid kişi çat-çat olmuş əlini ağzına qoyub əsnədi:

– Anaları ölməsin əsgərlərin. İki il sənin bişirdiyin zəqqutunu yeyiblər.

Kişi yenə nəsə demək istədi. Elə bu heyndə "QAZ-69"un tırıltısı eşidildi. Faraların işığı artırmanın əhəngli divarını yalayıb ötdü. Yolun sapsarı tozu həyətin ağappaq tüstüsünə qarışdı. Maşının səsi kəsildən sonra Məcid kişi öz-özünə danışırmış kimi dedi:

– Xalıq işdən nə tez qayıdıb, balam? – Tərs-tərs oğluna baxdı. Elə bil Xalığın işdən qayıtmağında Umud müqəssir idi. Kişi lampanın dövrəsində fırlanan pərvanələrə də tərs-tərs baxdı. Nursuz gözlərini lampaya zilləyib mülayim-mülayim soruşdu: – Bə bir işin qulpundan yapışmayacaqsan?

Umud çiynini çəkdi:

– Görək də... Xalıq dayı çağırıb məni.

– Neynir?

– Yəqin danlayacaq... Səni də çağırıb.

– Məni niyə? Mən borş bişirmirəm ki. – Məcid kişi çarpayının başındakı mütəkkəni qoltuğunun altına çəkib dirsəkləndi. – Heç hara gedən deyiləm. – Qərarının qəti olduğunu Umuda bildirmək üçün kəlləsini mütəkkəyə atıb, gözlərini yumdu.

Umud həyətə düşdü. Hasarın üstündən Xalıqgilin işıqlı eyvanına baxdı. O tərəfdən səs-səmir gəlmirdi. Səs-səmir eləyəsi adam da yox idi o evdə. Xalığın oğlu Tofiq Bakıda, qızı Solmaz da Ağdamda idi. Tofiq universitetdə oxuyurdu, Solmaz tibb texnikumunda. Xalığın arvadı Əslini dindirməsən dinməzdi, çimdikləməsən səsi çıxmazdı. Anası Minnət qarı bir teşt xəmir kimi idi, hara qoysan, orda dururdu. Bu evin yır-yığışına, biş-düşünə baxan qonşu Güləndam əldən yaman zirək idi, amma o da yerə baxan idi, su kimi lal axan idi. Bu yurdda hərdən şofer Pirinin dalğalı, yoğun səsi eşidilərdi. Şofer Pirinin boğazını elə bil iskənə ilə deşmişdilər, asta danışmaqla arası yox idi.

Piri eyvanda əyilib qalxdı. Pirinin qıvrım başının kölgəsi divara on qat böyüdü. Bu kölgə titrədi, səyridi və tavana qədər uzandı. Sonra Pirinin dalğalı, gur səsi eşidildi:

– Axşamın xeyrindənsə, sabahın şəri yaxşıdı, Əsli bacı.

Umud dönüb tövləyə tərəf getdi. Fikirləşdi ki, Pirinin sözləri səfeh sözlərdi, cəfəng sözlərdi. Çünki adam elə axşam da xeyir tapa bilər, lap gecənin yarısı da xeyir tapa bilər. Umud sonra da fikirləşdi ki, bu sözlər Pirinin sözləri deyil, bunlar atalar sözüdür, atalar məsələdir. Atalara qurban olum, görünür, onların da içində tənbəli olub. Bu sözləri, yəqin axşamın işini sabaha qoyan ərincək atalar düzəldiblər. Ərincək olmasaydılar belə deməzdilər. Çünki onların fərasətli, diribaş tay-tuşları bunun tərsini deyiblər: "Bu günün işini sabaha qoyma".

Ağcaqanadlar yaman qol-qanad açmışdılar. Gah Umudun qulağına soxulurdular, gah burnuna dürtülürdülər, gah da gözlərinin qabağında zümzümə çalıb ona meydan oxuyurdular. Umud boynunu şappıldatdı, çənəsini qaşıdı, sinəsini cırmaqladı, axırda yoruldu, təngə gəldi. "Qoy sancsınlar. Qoy məni diri-diri yesinlər. Tərpənsəm, kişi deyiləm".

Kamrangil burda olanda Umudun başı qarışırdı, heç ağcaqanadları vecinə almırdı. İndi bu həyət, bu ev suyu sovulmuş dəyirmana oxşayırdı. Kamran arvad-uşağı yığışdırıb dağa aparmışdı. Mal-qaranı da



yaylağa göndərmişdi. Qoca atasını bu yurda keşikçi qoymuşdu, Umudu da ona həyan. Umuddan nə həyan, Umuddan nə kömək? Day da atasına yük olub, kişinin dincliyinə haram qatıb. Görəsən, Kamran bilmir bunları?... Eh, Kamranda nə günah var? Çobanın işi belədir. Çoban köçəri quş kimidir: yayda dağa, qışda arana...

Umud artırmanın qabağında dayandı. Məcid kişi, deyəsən, gerçəkləmişdi. Deyəsən, şirin-şirin yatırdı burda.

– Dədə, ay dədə! Sədr, yəqin bizi gözləyir.

Məcid kişi elə bil bu səsə bənd idi, dikəlib ayaqlarını çarpayıdan sallatdı.

– Borşu xəşilə döndərən sən, məzəmmət yeyən mən? – Əllərini dizlərinə qoyub yalın ayaqlarına baxdı. Sədrin yanına alt tuman-köynəkdə getmək yaramazdı.

Məcid kişi nimdaş şalvarını arxayın-arxayın geydi. Sətin pencəyi çiyninə salıb artırmadan düşdü.

– Gəl, a bəfərin balası, gəl. Sən anadan olan gecə yanan çırağın nöyütünə hayıfım gəlir.

Məcid kişinin qaramtıl dodaqları təbəssümlə dartılanda Umud da istər-istəməz gülümsədi...

Uzun stolun bir başında Xalıq oturmuşdu, bir başında Piri. Məcidi görəndə Xalıq çəngəli boşqaba qoyub təəccüblə baxdı və onun baxışından Məcid də çaşdı, Umud da. Xalıq elə baxırdı, elə bil bu adamları ömür-billah görməmişdi, elə bil bunlar bu işıqlı eyvana indicə tavandan düşmüşdülər.

Süfrə üstünə çıxmağı Məcidi heç açmadı. Stoldan xeyli aralıda dayanıb mızıldandı:

– Gədə dedi ki, bizi çağırmısan.

Hə, deyəsən. Xalığın yadına düşdü. Qaşlarını çatıb başını silkələdi:

– Zəhmət vermişəm sizə... Əyləşin, Məcid dayı. Lap vaxtında gəlmisiniz. – Arvadı yanında müntəzir dayana-dayana üzünü eyvanın o başına tutdu. – A Güləndam, yemək gətir.

Umud Pirinin sağ yanında oturdu. Baxıb gördü ki, toyuğun budunu dişlərinə çəkib çeynədikcə Pirinin qulağı tərpənir. Alnının, üzünün dərisi rezin kimi dartılıb yumulur. Umud özü də hiss etmədən zəndlə Piriyə baxdı. Pirinin sifəti koppuş idi, yanaqları görünmürdü. Daha doğrusu, yanaqları yerli-dibli yox idi, çünki gözlərinin altınacan tük bitmişdi. Qulağının içində də uzun-uzun, qara-qara tüklər dikəlmişdi.

Umud nəzərlərini Piridən yayındırdı. "Haqqına buna Porsuq Piri deyirlər. Porsuğa oxşayır yazıq".

Güləndam Məcidlə Umuda yemək gətirdi. Sonra sual dolu nəzərlərini Əslinin üzünə dikdi.

Əsli stolun üstünə baxdı, gördü ki, süfrədə hər şey yerli-yerindədir, daha Güləndama ehtiyac yoxdur. Astadan dedi:

– A Güləndam, tay get balalarının yanına. Obaşdan burda ol, iş-güc çoxdu.

Güləndam eyvanın o başındakı düyünçəni götürüb pilləkəni asta-asta düşdü. Güləndam hər axşam bu evdən gedəndə qoltuğunda bir şey aparardı. Bu axşam da əliboş getmədi.

Əsli ərinin yanında dimdik dayanmışdı. Xalıq çəngəl tutan əlini hara aparırdısa, Əsli də ora baxırdı.

Umud Əsliyə diqqət yetirməyə utanırdı. Neçə il idi bu evdə olmamışdı, neçə il idi Solmazın anasını ağıllı-başlı görməmişdi. Umud tikəni ağzına aparanda Əsliyə ötəri nəzər saldı. Əslinin saçları sığallı idi, həm də qırmızımtıl idi. Deyəsən, başına həna qoymuşdu. Lampanın gur işığında bənizi solğun görünürdü. Boğazının altına nazik qırışlar düşmüşdü, ancaq Əsliyə qoca demək insafdan deyildi. Əslinin vur-tut 44-45 yaşı ancaq olardı.

Xalıq ağzındakı tikəni həvəssiz çeynəyirdi, əlini boşqaba həvəssiz aparırdı. Əsli yavaşcadan, amma məzəmmətlə dedi:

– Xalıq... Xörəyi soyutma...Ye...

Xalıq gülümsəyib başını buladı:

– Görürsən də, Məcid dayı. Calalın qızı boynumun ardını soldat kimi kəsdirib. Boşqabın dibini yalatdırmasa əl çəkmir məndən.

Məcid kişi baş barmağının ucu ilə bığının altını sildi.

– Halal olsun anasının südü ona. Anası rəhmətlik də yaman ər istəyən idi. Calalı yağ içində böyrək kimi saxlayırdı.

Əsli utanıb üzünü yana çevirdi:

– Neynəyim, – dedi. – Xalıq uşaqdan da betərdi, zor eləməsən boğazından tikə ötmür... Yazıq səhərdən axşamacan ayaq üstədi.

Əsli son sözləri az qala ağlamsına-ağlamsına dedi. Onun qayğılı səsindəki titrəyişdən, deyəsən, Xalıq da kövrəldi. Çəngəli boşqabın qırağına dirəyib köks ötürdü:

– Vallah, Məcid dayı, əlacım olsa, günü sabah sədrlik stulundan durub, yapışaram, sizin Kamranın çomağından. Deyərəm, qardaş, gəl



yerimizi dəyişək, sən sədr ol, mən çoban... Mənim günüm it günüdü. Kolxozun hər işinə cavabdehəm. Heyf deyil çobanlıq!

Umud sədrin bəbəklərində bir işartı gördü, torbalanmış gözlərinin yanında xəfif qızartı gördü. Anladı ki, Xalıq yalan danışır, Xalıq heç vaxt əlinə çomaq alıb sürü dalına düşməz. Anladı ki, Xalıq öz vəzifəsini pisləyə-pisləyə tərifləyir.

Əsli ərinin çiyninə ehmalca toxundu.

– Xörəyin buza döndü... Qatıq gətirimmi? Camış qatığıdı. Güləndam səhər çalıb.

Xalıq çəngəli təzədən götürdü:

– Qatığı yatanda verərsən, – dedi.

Umud daha yeyə bilmirdi. Xalığın səbri onu hövsələdən çıxardırdı. "Bizi bura niyə çağırıb? Mətləbi niyə uzadır?". Onsuz da Umud sədrin nə deyəcəyini əvvəlcədən bilirdi və cavabını da əvvəlcədən hazırlamışdı.

Piri bud sümüyünü boşqaba tullayıb yağlı barmaqlarını marçıltı ilə yaladı. Stolun arxasında oturanlara bir-bir nəzər salıb gülümsədi və bununla da məlum oldu ki, Piri nəsə bir söz deyəcək. Pirinin boğazındakı burum-burum damarlar şişdi, səsi gur-gur guruldadı:

– Mən bir şeyə məhəttəl qalmışam. Adam ki, sulu xörəyi isti-isti yeyir, ha, ağzı pörşələnəndə niyə başını qaldırıb yuxarı baxır? Nə qədər ağzı yanan görmüşəmsə, hamısı heylə eləyir.

Əsli pıqqıldamaq istədi, ancaq Xalığı qaşqabaqlı görüb dodaqlarını yumdu.

Məcid kişi qarşısındakı boşqabı kənara itələdi:

– Ağzı yanan adam öz xoşuynan başını yuxarı qaldırmır, a bala. Allah-təala onun qulağından yapışıb başını döndərir özünə tərəf. Deyir, gözlərimin içinə düz bax, ey səbirsiz bəndəm. İsti xörəyi qaşıqlayanda üfürməmiş udma hər işdə səbirli ol.

Hamı süfrədən əlini çəkmişdi. Xalıq dördqatdalı, ütülü dəsmalı işıldayan dodaqlarına ehmalca toxundurub, başı ilə arvadına işarə elədi.

– Yığışdır buranı. Çay gətir. – Üzünü Məcid kişiyə tutdu. – Bilirsən sənə niyə zəhmət vermişəm? Gərək bir quyu qazasan bizə.

– Nə? – Məcid kişinin ağzı açıla qaldı.

– Quyu. Su quyusu... Qabaqlar qazırdın ha.

– A sədr, mən iyirmi ildi quyu qazmıram. İndi qollarımda heylə güc də qalmayıb.

– Kaş sənin təpərin məndə olaydı, Məcid dayı. Həvəsin olsa, gündə bir quyu qazarsan. Küllü-Qarabağda sənin kimi kənkan olmayıb. Sənin əlin xeyirlidi. Qazdığın quyunun suyu mət kimi şipşirin olur. Həm də dupduru... göz yaşı kimi... Çünki torpağın damarını tanıyırsan.

Məcid kişi çaşbaş qalmışdı. Anlaya bilmirdi ki, sədr gerçək danışır, yoxsa zarafat eləyir.

– Bu zamanada quyu kimin nəyinə lazımdı, a Xalıq?

– Lazımdı, Məcid dayı. – Xalıq başı ilə ara qapıya işarə elədi. – Minnət qarıya lazımdı... Görürsən ki, havalar necə isti keçir. Yer-göy od tutub yanır. Soyuducuya qoyduğumuz şeylərdən Minnət qarıya verən kimi yazığın ya qarnı pozulur, ya boğazı gəlir. Anadı da, hay-hayı gedib, vay-vayı qalıb. Gərək qulluğunda dayanam.

Məcid kişi ara qapıya nəzər saldı. Bildi ki, Minnət qarı o qapının dalındadır. O otaqdakı çarpayının üstündədir və dünyanın bütün dərdsərlərindən uzaq öz yarıişıq-yarıqaranlıq, yarıyuxulu-yarıayıq aləmindədir.

– Yoxsa qarını quyuya sallamaq fikrin var?

Məcid kişinin bu sözlərinə Piri güldü. Xalıq da gülümsədi.

– Yox, əşi, – dedi. – Quyuya cürdək, qarpız-yemiş sallayarıq. Göy-göyərti filan... Qarı da sərin-sərin yeyib-içər... Nə deyirsən, Məcid dayı? Gəl, bu işə boyun ol. Pulu pul, minnəti də minnət.

Məcid kişi naəlac qalıb çiynini çəkdi:

– Vallah, nə deyim... Qorxuram səni yarıtmayam.

Xalıq ona ürək-dirək verdi:

– Yarıdarsan. Maşallah, yanında pəhləvan kimi oğlun var.

Günortadan bəri başqa söhbət gözləyən Umudun sivri çənəsi tərpəndi, amma Xalıq ona ağzını açmağa macal vermədi.

– Xəbərdaram, – dedi. – İşdən əkilmisən. Lap əlinin içindən gəlib. – Başını bulayıb öz-özünü məzəmmət elədi. – Günah məndədi. Nahaq açdırdım oranı. Bu kəndin nəyinə lazımdı yeməkxana? Müsəlmana yaxşılıq yoxdu. Deyirdim, üç-dörd adam külfətinə ruzi qazanar ordan. Sonra gördüm yox, orda işləyənlər əliəyridi, ora yığılanlar da dələduz. Oturub mənim qeybətimi qırırlar... Çoxdan qapısına qıfıl vurmaq istəyirdim. Umud çıxdı böyürdən. Dedim, genə qurban olsunlar Umuda, qoy Umud bekar qalmasın... İstəyirsən səni göndərim şoferliyə... Kolxozun hesabına...

Umud atasının üzünə baxdı. Məcid kişi çal qaşlarını çatdı.



– Lətifəsi Piridən uzaq olsun, – dedi, – bu zamanada itə ağac atırsan, gedib şoferə dəyir.

Xalıq Əslinin armudu stəkanda gətirdiyi "xoruzquyruğu" çaydan bir qurtum içdi. Umuda elə gəldi ki, sədrin ağzı pörşələndi və bayaq Pirinin dediyi kimi, sədr indicə başını qaldırıb tavana baxacaq.

Xalıq çaydan bir qurtum da alıb stəkanı nəlbəkiyə qoydu.

– Yoxsa instituta getmək niyyətindəsən?

Umudun əvəzinə atası cavab verdi:

– Nəynən? Başında bir qara qəpiklik elm var ki, gedib dalını da oxusun? Bildikləri də əsgərlikdə yadından çıxıb.

Xalıq gözlərini qıyıb fikrə getdi. O, fikrə gedəndə Piri narahat-narahat Umudla Məcidə baxdı. Umuda elə gəldi ki, Piri bu dəqiqə şəhadət barmağını qalın dodaqlarına yapışdırıb "tcc" eləyəcək, yəni ki, susun, sədr çox vacib bir məsələ barəsində düşünür, allah eləməmiş, birdən cınqırınızı çıxardarsınız, sədrin fikri dağılar. Piri gördü ki, Məcid daş kimi səssizdir. Umud ondan da betərdir. İnandı ki, bunları dürtmələməsən hay verən deyillər, ondan sonra Xalıq sayağı Pirinin də gözləri yol çəkdi. Pirinin gözləri yol çəkəndə Umudla Məcid başa düşdülər ki, sədr doğrudan da, çox vacib bir məsələni beynində götür-qoy eləyir.

Xalıq nəyisə xatırlayıbmış kimi şəhadət barmağını Umuda tuşlayıb sevincək dedi:

– Dayan, dayan. Gəlsənə sentyabrda səni göndərim mexanizatorluq məktəbinə? Qızlardan nəyin əskikdi, ə, sənin? Keçən il Xeyransanın qızı Tubuya orden vermişəm. Bir az işləyərsən, sənə də orden təşkil eləyərəm. Elə Tubunu da alarsan. Yumurta kimi qızdı. Bir evdə iki mexanizatorumuz olar.

Umud başını aşağı salıb uzun süfrənin saçaqlarını didişdirirdi. Xalıq anlaya bilmədi ki, Umud nədən incidi; mexanizator söhbətindən, yoxsa Tubunu almaq məsələsindən?

Sədr, Məcid kişiyə göz vurub gülümsədi:

– Gədən yaman dəymədüşərdi ha... Bir iş fikirləşərəm onunçün. Qoymaram bekar qala...

Evə dinməz-söyləməz qayıtdılar.

Məcid kişi yenə çöldə miçətkən qurmaq istədi. Umud razı olmadı.

– İçəridə yatacam, – dedi.

– İstidən bişərsən.

– Qoy bişim.

Umud yaylı çarpayıda uzanıb gözlərini qaranlıq tavana zillədi. Yadına düşdü ki, Xalıqgildə bircə dənə də ağcaqanad yox idi. Bircə

dəfə də ağcaqanadın zəhlətökən zümzüməsi eşidilmədi. Xalıqgilin eyvanı işıqlı idi. Xalıqgilin eyvanında adamın gözləri qamaşırdı. "Ağcaqanadlar işıqdan qorxurlar".

Umud cəld durub otağın işığını yandırdı.

2

Piri qatlama bıçağın tiyəsi ilə tut ağacının altında iri bir dairə çızdı.

– Burdan qazın, – dedi.

Məcid kişi qollu-budaqlı tut ağacının təpəsinə baxdı, yoğun gövdəsinə baxdı.

– Olmaz, – dedi. – Ağacın barı töküləcək quyunun içinə.

Məcid ağacın tuşundan başlayıb günçıxana tərəf iyirmi addım ölçdü.

– Quyunun yeri buradı, – dedi. – Quyu gərək açıqlıqda olsun.

– Nə deyirəm, əşi. – Piri cibindən bir göy iyirmibeşlik çıxardıb Məcid kişinin ovcuna basdı. – Xeyirli olsun. Bunu sədr göndərib. Siftədi...

– A bala, qaytar bu pulu sədrə. Nə siftəbazlıqdı?

– Elimizin adətidi, Məcid dayı. Bir işə başlayanda ev yiyəsi ustaya gərək xeyirlik versin.

Məcid kişi başını bulaya-bulaya pulu cibinə qoydu.

– Düzəlmişdi hər yarağım, qalmışdı saqqal darağım. Elin hansı adətini saxlamışıq ki, bunu da saxlayaq... Bəs sədr özü hardadı?

– Sədrin günü-diriliyi var? Tülküdurmazdan çölə aparmışam onu. – Piri evin kəlləsində qab-qacaq yuyan Güləndama nəzər saldı. – Bəlkə sədr günorta yeməyinə də gəlmədi.

Bayaqdan bəri tut ağacının dibində səssiz-səmirsiz dayanmış Umud təzəcə qızaran üfüqə baxdı.

– Dədə, gün çıxır ha, isti düşəcək.

– Səbr elə, halva bişər, ey qora səndən. – Məcid kişi ovcuna tüpürüb belin sapından yapışdı.

Belin ağzı saralmış çayırları xırpıltı ilə kəsə-kəsə yekə bir dairə cızdı. Elə bil dairəni kağızın üstündə pərgarla cızmışdılar. Umud atasının quyu qazdığını heç vaxt görməmişdi. Ona hərdən "kənkan Məcidin oğlu" deyirdilər və Umud düşünürdü ki, kənkanlıq peşə deyil, kim əlinə bel götürsə, quyu qaza bilər. İndi Məcidin bel tutmağından, dairə boyu gəzişə-gəzişə beli eyni xəttə tez-tez vurmağından Umud başa düşdü ki, kənkanlıq hər adamın xörəyi deyil.

Məcid kişi xırda gözlərini qıyıb tər-təmiz səmaya baxdı.

– Allah, Məhəmməd, ya Əli, – deyib birinci təpkeşi qazmağa başladı.



Belin ağzı torpağa yeridikcə Məcid kişinin çəhrayıya çalan boynundakı yoğun damarlar qabarırdı. Bu göyümtül damarlara baxanda Umud dünən gecə sədrin dediyi sözləri xatırladı: "...torpağın damarını tanıyırsan". Umud fikirləşdi ki, atası qaza-qaza yerin altındakı damarı tapacaq. Torpağın damarını partladacaq və bu damar quyunu mət kişi şipşirin, gözyaşı kimi dupduru su ilə dolduracaq.

Piri eyvana qalxmışdı, sinəsini məhəccərə söykəyib Məcid kişiyə tamaşa eləyirdi. Əsli şəhərdən görünmürdü, deyəsən, hələ yuxudan durmamışdı. Həyətdə səs-səmir yox idi. Təkcə Güləndamın qab-qacaqları dınqıldayırdı.

Qara tula marığa yatmış kimi qarnı üstə uzanıb çənəsini yerə dirəmişdi. Pıçalıqlı ölgün gözlərini döyə-döyə mürgü vururdu. Tula keçələşmişdi: adda-budda yerlərdə belinin tükü tökülmüşdü. Qapqara ağzı-burnu qaloş üzü kimi işıldayırdı. Sallaq qulaqlarına qonan yaşıl milçəkləri qovmağa heç kəslə, heç nəylə işi yox idi.

Tulanı Xalığa on il əvvəl bir tənəkəçi usta bağışlamışdı. Xalıq evin damına dəmir vurdurmaq üçün Yevlaxdan usta gətirmişdi. Ustanın adı Turab idi. Amma bu kəndin camaatı daldada onun adına doqquzbarmaq deyirdi, çünki Turabın sağ əlində baş barmağı yox idi. Turab bu barmağını müharibədə qoymuşdumu, dəzgah-bıçağın ağzına vermişdimi, bilən yox idi. Ancaq məlum məsələ idi ki, Turab da bütün bəniinsanlar kimi anadan onbarmaqlı doğulmuşdu. Deyilənə görə, Qarabağda onun kimi taxtapuş düzəldən yox imiş. Turab yanınca Patron adlı bir tula da gətirmişdi.

Umud Turabı görmüşdü, saatlarla dayanıb onun işinə tamaşa eləmişdi. İndi qoca tulaya baxanda nəfəsi çiynindən çıxan o arıq, cılız kişini xatırladı. Turab tək işləyərdi. Titrəyəndə göy gurultusu qoparan ağ dəmir laylarından doqquzbarmaqlı yapışıb dama tək qaldırardı. Tənəkələri taxtalara tək mıxlayardı. Səhərdən axşamacan heç kimlə kəlmə kəsməzdi. Çoxlu su içərdi, çoxlu siqaret çəkərdi. Xalıq yeşik-yeşik mineral su alıb qoyardı dama. Turab bir dəmir vurandan sonra bir butulkanın ağzını qurumuş dodaqlarına dirəyib boşaldardı. Gün təpəsinə döysə də, qırışqırış, seyrək tüklü, sarımtıl üzündə bir damcı da tər görünməzdi.

Solmaz tulaya yaman mehr salmışdı. İşi-peşəsi səhərdən-axşamacan Patronla oynamaq idi. Solmaz Patronun boğazına qırmızı lent bağlayardı. İri dişli dəmir daraqla tez-tez onun başını, belini darayardı. Yaxşı deyiblər ki, "uşaq məhəbbətə, it əppəyə gələr". Solmaz küncüddən tutmuş qarpız tumuna qədər əlinə nə düşsə, Patrona yedizdirərdi. Patron da bu xeyirxah, səxavətli qızcığazın dizlərindən uzağa getməzdi.

Turab işini qurtardı. Haqq-hesabını üzüb Yevlaxa qayıtmaq istəyəndə Solmaz tulanın boynunu qucaqlayıb ağladı.

– Vermərəm, – dedi. – Mənimkidi.

Əsli də kövrəldi, Xalıq da.

Xalıq Turabı dilə tutdu:

– Uşaq yaman öyrəşib bu itə, usta. Neçə deyirsən verim, aparma bu iti.

Turab qaşqabağını tökdü:

– Yox... Satmıram... – Sonra Solmazın yanaqlarına süzülən yaşa baxdı, tulanın göyümtül, şəfəqli gözlərinə baxdı. – İndi ki, mehrini ona salıb, qoy havayı götürsün, – dedi. Əllərini yellədib həyətdən çıxdı. Bircə dəfə də dönüb geriyə, canından çox istədiyi Patrona baxmadı.

– Dədə, bu tulanın cavanlığı yadındadı?

Məcid kişi oğlunun səsinə əl saxladı. Pıçaqlı gözləri ilə mürgü vuran Patrona baxdı. Sonra Umuda məzəmmətli nəzər saldı:

– Sarsaq oğlu, sarsaq! Guya tula mənim tay-tuşumdu, – deyib təzədən işə girişdi.

Əsli eyvanda göründü, Piriyə nəsə dedi, sonra evin kəllesində boşqabları suya çəkib çinləyən Güləndamı səslədi:

– Ay Güləndam! Bir az əlli-ayaqlı ol! Mitil-şitilin yununu çırpmaq lazımdı!

Əsli butalı, uzun xalatının açıq yaxasını örtdü, dirsəklərini məhəccərə qoyub Məcid kişinin işləməyinə xeyli tamaşa etdi. Sonra nəzərləri Patrona sataşdı.

– Ay Umud! – dedi. – O çər dəymişi qov ordan! Quyunu murdarlayar.

Umud tulaya baxa-baxa qaldı. Bilmədi Patrona necə acıqlansın, onu necə qovsun. Lap yavaşcadan, özü də çox həvəssiz dilləndi:

– Sürük burdan.

Patronun bir tükü də tərpənmədi. Bu dünya onun vecinə deyildi. Heç kimin də hədəsindən qorxmurdu. Umud başa düşdü ki, mürgüdən ayılmaq, yerindən qalxıb onca addım yeriməк Patron üçün cəhənnəm əzabından da betərdi. Daha Patronu qovmağa Umudun ürəyi gəlmədi. Yenə onun yadına tulanın keçmiş sahibi düşdü. Gündə bircə dəfə qarnına qulluq eləyən cansız-cəsədsiz, sarı-sısqa Turab! Turab iki dəfə Yevlaxdan bura basa-basa Patronun görüşünə gəlmişdi. Axırıncı kərə tulanı qucaqlayıb bağrına basmışdı. Sonra barmaqlarının doqquzunu da Patronun belində, başında gəzdirə-gəzdirə göyümtül gözləri yaşara-yaşara demişdi: "Bu, qızıldı, qızıl... Bundan muğayat olun. Bu da mənim kimi təkdi, kimsəsizdi". Sonra Turab bu yerlərdə görünmədi. Xalıq dedi ki, Turab Yevlaxda kiminsə damından yıxılıb ölüb. Yazıq Turab dünyadan vaxtında köçüb. Patronun bu gününü görsəydi ürəyi partlardı. Patron bu boyda səmanın altında tək-tənha qalmışdı.

Piri qaça-qaça gəldi. Tut ağacının altına köhnə kilim saldı, kilimin üstünə qalın döşəkcə tulladı, mütəkkə qoydu, yenə qaça-qaça evə getdi. Bir azdan Piri döşəkağına bükülmüş bir şeyi qucağında bərk-bərk tutub, hıqqına-hıqqına pillələri düşdü. Elə bil döşəkağının arasına bir şaqqa quyruqlu ət qoymuşdular və Piri yeridikcə bu ət tir-tir titrəyirdi. Piri qucağındakını ehmalca döşəkcənin üstünə qoyub döşəkağını götürdü. Dümağ bir baş göründü. Hərəsi zoğal boyda bir cüt qıpqırmızı, kirpiksiz göz göründü. Umud anladı ki, döşəkcənin üstündə yumaq kimi bükülmüş bu kündəsifət məxluq Minnət qarıdır.

Piri döşəkağını qarının çiyninə alıb tıncıxa-tıncıxa dedi:

– Dincəl, bu kölgədə.

Piri qollarını sinəsində çarpazlayıb eyvanda dayanmış Əsliyə ötəri nəzər saldı. Dodaqlarının ucu ilə gülümsəyib həyətdən çıxdı.

"QAZ-69" nərildəyə-nərildəyə doqqazdan uzaqlaşdı. Əsli də əlləri qoynunda, köks ötürə-ötürə maşının qaldırdığı qatı toz dumanına uzun-uzadı baxdı.

Umud gözlərini Minnət qarıdan çəkmirdi. Neçə il idi Umudun ayağı bu həyətə dəymirdi. Neçə il idi Umud Minnət qarını görmürdü, onun səsini eşitmirdi. Qarının bu kökə düşəcəyini Umud ağlına da gətirməzdi.

Minnət qarının qaşları da yox idi. Burnu yastıqlanıb yanaqlarına bitişmişdi. Amma yanaqları qırmızımtıl idi, elə bil onlara qızılgül suyu çəkmişdilər. Umud fikirləşdi ki, qarının üzündəki çalın-çarpaz qırışları saymaq üçün düz bircə gün vaxt lazımdır. Qarının boğazı görünmürdü: çiyinlərinin üstündə yumru bir daş dayanmışdı. Dodaqları əyilib ağzına girmişdi və adama elə gəlirdi ki, Minnət qarı daim utana-utana gülümsəyir.

Umud gördü ki, atası da dayanıb mat-mat Minnət qarıya baxır. Məcid kişi beli torpağa sancdı, asta-asta gəlib Minnət qarının qarşısında çöməldi:

– Nə təhərsən, ay tanrının fağırı? – dedi.

Minnət qarının zoğal gözləri tərpəşdi. Amma qarı heç hara baxmırdı, heç nə görmürdü. Qıpqırmızı gözlərinin içində bəbəkləri də itib-batmışdı.

Məcid kişi köynəyinin ətəyilə alnının tərini silə-silə dedi:

– Bunun bir ağmaya vaxtı vardı ki... Dünya gözəli idi Minnət. – Ağzını qarının büzüşmüş qulağına tutdu. – Səninçün aranla dağın nə fərqi var, a bəxtəvər?! İstəyirsən çeşmə suyu iç, istəyirsən quyu suyu, təfavütü yoxdu!.. Yəqin Allah-təalanın yadından çıxmısan, yoxsa səni bu vaxtacan boğazlamışdı.

Qarı onun dediklərini eşitməsə də, zoğal gözlərini səmaya tuşlayıb, titrək dodaqlarının arasından civiltiyə bənzər bir səs çıxartdı.

Məcid kişi ayağa qalxdı.

– Qurban olum ilahinin məsləhətinə. Gündə neçə cavanı qara yerə quylayır.

Kişi elə bərkdən danışdı ki, eyvanda dayanmış Əsli də onun sözlərini eşitdi. Əsli əllərini qoynundan çıxarıb təzədən məhəccərə dirsəkləndi.

Məcid kişi quyunun yanına qayıdanda nəzərləri tulaya sataşdı. Qazdığı torpaqdan bir ovuc götürüb Patrona tərəf atdı.

– İtil burdan!

Tula diksinib gözlərini açdı, ancaq yerindən tərpənmədi. Məcid kişi təzədən aşağı əyildi.

– Sənnən döyüləm?!

Patron gümüşü saçlı, pəhləvan cüssəli, çalqaş qocaya mürgülü gözləri ilə baxıb tənbəl-tənbəl qalxdı. Yavaş-yavaş samanlığa tərəf getdi.

Eyvanda Əslinin səsi eşidildi:

– Kül onun it başına! Bu qapıya gələni bircə kərə də hürməyib! Səsinə həsrət qalmışıq! Amma beş adamın payını tıxır!

Məcid kişi bellə quyunun divarını hamarlaya-hamarlaya oğluna baxıb qımışdı.

– Bu da heyvanların müftəxorudur, – dedi.

Əsli Məcidin sözlərini eşitmədi. Gözlərini hündür daş hasarın üstündən uzaqlara zilləyib Patronun qarasınca deyindi:

– Çər dəymişi bir azdıran da yoxdu. Xalığa ha deyirəm, bu qulağından alıb, o qulağına verir.

Tula gedib samanlığın qabağında sərələndi. Umud o tərəfə baxdı. Yoğun pasnaya söykədilmiş motosikli bayaqdan bəri görmədiyinə təəccüb elədi. Motosiklin üstünə cır-cında atmışdılar, təkcə təkərlərinin yarısı açıq qalmışdı. Onu Tofiq sürərdi. Umud da gendə dayanıb Tofiqə həsədlə baxardı. İkitəkərli bu maşını kəndin tozlu küçələrində heç olmasa, bircə dəfə sürmək Umuda qismət olaydı. Tofiq onu lazımsız bir şey kimi atıb getmişdi. İndi yəqin köhnəlib.



Umud özünü saxlaya bilmədi, yaxınlaşıb motosiklin üstündəki cındırın bir ucunu qaldırdı. Avtomobil müfəttişlərinin motosikli eynən bu rəngdə olur, kəhrəba rəngində... Umud istər-istəməz əlini yəhərə çəkdi. Yəhərin üstündə bir barmaq qalınlığında toz vardı. Motor da tozlu idi.

– A gədə, gəl bu torpağı kürə burdan. – Məcid kişi çəkilib tut ağacının kölgəsində, Minnət qarıdan bir az aralıda oturdu.

Quyu üç bel ağzı qazılmışdı. Dərinliyi dizəcən olardı.

Umud torpağı kürəyəndə elə bil qəlbinə işıq doldu. Düşündü ki, göz yaşı kimi dupduru bu suda Solmaz əl-üzünü yuyacaq. Bayaqdan bəri qızı xatırlamadığına heyrətləndi... Eh, niyə də xatırlasın? Xatırlamağın nə xeyri? Solmaz hara, Umud hara? Nə olsun ki, hərdən gecələr Solmazı yuxusunda görür? Əsgərlikdə də Solmaz onun yuxusuna girirdi. Görən, Umud da Solmazın yuxusuna girirmi? Bax, məsələnin düyün yeri buradır. Yox, Umud, bir daş altdan, bir daş üstdən!

– Dədə, qazımmı?

– Korlayarsan. Quyu gərək düppədüz olsun, divarları şüşə kimi hamar olsun. Bir balaca əyildimi, onda o, quyu deyil, lağımdı.

– Qoy özümü sınayım.

– Belə dur görüm. – Məcid kişi beli oğlundan aldı. – Ta sənlik iş yoxdu burda. Get, kənd-kəsəydə veyillən, axşamüstü gələrsən.

Umud getməyə bir bəhanə axtarırdı, ancaq hara gedəcəyini də bilmirdi. Hara olur olsun. Heç olmasa atasının gözündən iraq arın-arxayın papiros çəkər. Bir az tut ağacının altında dayanıb Minnət qarıya baxdı. Minnət qarı başını mütəkkəyə qoyub büzüşmüşdü. Zoğalı gözlərinin qızartısı da görünmürdü. Qarının üstündəki kraxmallı, ağappaq döşəkağı asta-asta enib qalxırdı.

Umud samanlığın kölgəsində mürgü vuran Patronun yanından ötdü, motosiklin böyründən keçəndə kiçik uşaqlar kimi əlini yəhərə çırpdı.

Umud Xalıqgilin həyətindən çıxanda gün günorta olmuşdu.

Kəndin küçələrində adam görünmürdü. Yollardan toz qalxmırdı, elə bil maşınlar da kölgəyə təpilmişdi. İtlər də susurdu. Qarğı çəpərlərdə, kol hasarlarda cırcıramaların biahəng, yeknəsəq cırıltısı eşidilirdi.

Papiros Umuda ləzzət vermirdi. Umudun ağzında ocaq tüstüsünün təmi vardı. Papirosu atdı. Kölgədən çıxmağına peşman olmuşdu, ancaq bu tezliklə geri qayıtmağa da utanırdı. Tozlu yolda ayaqlarını ehmallıca ata-ata gedirdi. Cırcıramaların mürgü gətirən səsi Umudun qulaqlarında bitməz-tükənməz uğultuya dönmüşdü. Gün təpəsini oyurdu və bu

istidə Umud heç nə fikirləşə bilmirdi, elə bil beyni yerli-dibli yox idi, buxarlanıb uçmuşdu.

Umud qəflətən başını qaldıranda bir anlığa özünü itirdi. Yeməkxana binasının çat-çat olmuş divarına çaşqın-çaşqın baxdı. "Lənət şeytana! Bura niyə gəldim?" İçəridən səs-küy eşidilmirdi, mətbəxin hisli-qurumlu bacasından tüstü qalxmırdı. Həmişə qapının ağzında dayanıb, sümsük gözlərini girib-çıxanların əlindən çəkməyən, canavara oxşayan boz köpək mətbəxdən azacıq aralıda, qıvrım çayırların arasında uzanmışdı. Hərdən qulaqlarını şappıldatmasaydı, deyərdin bəs ölüb. Umud yavaş-yavaş uzunsov binanın qarşısına keçdi. İkilaylı hündür qapıda qapqara iri qıfıl görəndə Umudun ürəyindən bir səs qopdu: "Yaşasın Xalıq dayı!".

Yan-yörədə hələ kartof, pomidor qabıqları gözə çarpırdı, ancaq bu həndəvərdən daha ət iyi, soğan iyi gəlmirdi. Yeməkxananın qarşısındakı dayaz çalanı, nədənsə, torpaqlamamışdılar. Bu çalanın içindəki sür-sümüyə yepyekə, yamyaşıl milçəklər daraşmışdı. Milçəklər o qədər çox, o qədər yaşıl idilər ki, elə bilirdin sür-sümüyün üstünə bir yaşıl pərdə çəkiblər və bu pərdəni yel vurub yelləyir.

Umud kəndin aşağısından keçən qobuya tərəf getdi.

İndi qıvraq yeriyirdi. Sağ olsun Xalıq dayı. Avaraların ayağını kəsdi burdan. Qoy gedib fərli bir işin qulpundan yapışsınlar. Qızlar, gəlinlər səhərdən axşamacan günün qızmarında bellərini əyib alaq vururlar, amma bığıburma cavanlar əllərini stola döyüb, Umuddan əmlik kababı istəyirlər. Bunlar da adlarını kişi qoyublar. Avaralar!.. "Bəs mən? Bəs özüm?". Umud ürkə-ürkə yan-yörəsinə baxdı. Guya çöldə alaq vuran qızlar kənarda dayanıb ona göz qoyurdular və bu qızlar onun beynindən keçən sualdan xəbərdar idilər. Yaxşı ki, ətrafda heç kim yox idi.

Umud addımlarını yeyinlətdi. Yerdən od qalxırdı, göydən od ələnirdi. Umud bu iki kürənin arası ilə gedə-gedə fikirləşdi: "Mənə ürəyimcə iş versinlər, meydan versinlər, onda görərlər ki, analar necə oğullar doğub".

Umud qobuya çatan kimi köynəyini soyunub böyürtkən kolunun üstünə tulladı. Şalvarını çıxara-çıxara düşündü ki, o, bu işıqlı dünyaya kartof-soğan doğramaq, borş bişirmək üçün gəlməyib. Onu daha böyük, nəcib işlər gözləyir.

Umud nəyə güvəndiyini hələ anlamırdı, ancaq inanırdı ki, gözlədiyi gün uzaqda deyil. Bu inamla da Umud özünü suya tulladı.

Su ılıq idi. Umud başını sudan çıxarıb dikələndə ayaqları palçığa dirəndi. Yadına düşdü ki, bir vaxtlar bu ensiz qobunun dibi taxta kimi



hamar idi. Onda kəndin bütün ətcəmətən uşaqlarını harda itirsəydin, burda tapardın. Deyəsən, Umud əsgərliyə gedəndən bəri bura ayaq dəymir. Qobunun enişində kol-kos, sarıtikan bitib. Bura su çiləyərdilər, burdan qarnı üstə sürüşüb tısbağa kimi qobuya girərdilər.

Umud suya cumub çıxdı. Başı sahildə, kökü suda olan yulğun ağaclarının dibində zirehli, qaramtıl, balaca tısbağalar dayanıb səksəkə içində Umuda baxırdılar. Qobunun kölgə tutan, nəm divarına yapışmış yaşılbel, dombagöz qurbağaların boğazı təngimiş ürək kimi çırpınırdı. Təyyarəvarı, uzunqıç cücülər suyun üstündə nazik iz qoya-qoya sürətlə o tərəf bu tərəfə qaçışırdılar.

Umud qırağa çıxmaq üçün ayağını qoymağa yer tapmadı. Sapsarı çayırlardan yapışıb yuxarı dırmandı. Başını kandalaş kolunun altına soxub kürəyini günə verdi. Beli qızdıqca canında hərarət, xoş bir süstlük duydu. Sonra şappıltı eşitdi. Dikəlib baxdı. Bəndin aşağısında, çayın dayaz yerində üç-dörd camış uzanmışdı. Camışlar qapqara lığ içində idilər. Hərdən tərpənib ağnayır, ağırlaşmış yaş quyruqlarını işıldayan bellərinə çırpırdılar.

Qobunun o tayındakı geniş sahədə pambıq kolları iki qarışacan boy atmışdı. Cərgələrin arasıyla tırıldaya-tırıldaya traktor gedirdi. Dörd-beş qız bir-birindən aralıda çömbəlmişdi. Qızlar hərdən dikəlib əyilə-əyilə irəliləyirdilər. Elə bil bu torpaqda, nəsə, qiymətli bir şey salıb itirmişdilər, həmin qiymətli şeyi axtarırdılar. Qızların hamısı başına qıyqac bağlamışdı. Umud onlardakı dözümə, təpərə məəttəl qaldı. "Görəydim isti kar eləmir bunlara? Gün yazıqları qovurğaya döndərib".

Umudun bədəni çoxdan qurumuşdu. Başının ortasına elə bil dağ basırdılar. Canında heysizlik vardı. Suya girmək istəyirdi, amma yerindən qalxmağa həvəsi yox idi. Təzədən başını gəndalaş kolunun altına soxdu.

Tofiq onu burda vurmuşdu. Bu qobunun qırağında.

Tofiq ondan bir yaş böyük idi, ondan bir sinif yuxarıda oxuyurdu. Uşaqlar çiçək üstünə toplaşan arı kimi Tofiqin başına yığışırdılar. Hamı onun karına gəlməyə can atırdı, hamı onun işinə yaramağa tələsirdi. Təkcə Umuddan başqa. Umud Tofiqi çox istəyirdi, çünki Tofiq Solmazın qardaşı idi, qaşları da onun qaşlarına oxşayırdı: nazik, uzun.

Bu qobuya çimməyə gələn uşaqların hamısının tumanı dizlərinə düşürdü. Çoxu da qobuda lüt anadangəlmə çimirdi. Tofiqin tumanı göyümtül idi. Qırağında ağ haşiyəsi, üstündə də bapbalaca cibi vardı. Özü də elə bil əyninə biçilmişdi.

...Tofiq həmin göyümtül tumanda dizlərini qucaqlayıb oturmuşdu. Umud sudan çıxıb bir ayağı üstündə silkinəndə Tofiq onu çağırdı: "Bura gəl, çəyirtkə!" Tofiqi dövrələyən tay-tuşları uğundular. Umud arıq idi, uzun idi, dayananda belini bir az əyri tuturdu, doğrudan da, çəyirtkəyə oxşayırdı. Gülməkdən uşaqların gözləri yaşarmışdı. Tofiqə bax ha, gör bu ayama ağlına necə gəlib. "Çıxart görüm o məktubu". Umudun nitqi qurudu: "Nə məktub?" Tofiq ayağa qalxdı: "Mənim bacıma yazdığın məktub". Bu məsələdən Umudun iki yoldaşı xəbərdar idi, indi ikisi də Tofiqin yanında dayanmışdı. Umudun ürəyindən bir sızıltı keçdi. "Görəsən, hansı satıb məni?" Bilmədi bu xəbəri Tofiqə hansı çatdırıb. Onda da soruşmadı, ondan sonra da. Tofiq yeriyib Umudla üzbəüz dayandı. "Tez ol, ə!" Umud çiynini çəkdi: "Məndə məktub-zad yoxdu. Mən heç kimə məktub yazmamışam". Umud bu sözlərdən xəcalət çəkdi. Düşündü ki, bu məsələdən xəbərdar olan dostlarının gözündə acizləşdi, xırdalaşdı, qorxacaq bir dovşan oldu.

Umud məktubda Solmazın adını yazmamışdı. Məktubu Tofiqə verə bilərdi: nə eybi var, qoy oxusun. Ancaq bu məktub Solmaz üçün yazılmışdı. Di gəl ki, oradakı sözlərdən Solmazın heç xəbəri olmayacaqdı, çünki məktubu Solmaza verməyə Umudun cəsarəti çatmazdı. Umud elə-belə, ürəyini kağıza boşaldıb yüngülləşmişdi. Fərli bir söz də yazmamışdı. Tofiq oxusaydı, güləcəkdi.

"Mən həmişə sənə baxıram, ancaq bilmirsən ki, qəlbimdə nələr var, ay insafsız. Qəlbimdə sən varsan. Səni görməyəndə darıxıb ölürəm. Mən səni unutmaram. Unutsam, qara torpaqlara qismət olum.

"Stolun üstündə üzüm,
Sənə qurban iki gözüm,
Məndən yaman gen gəzirsən,
Ayrılığa necə dözüm?"

"Kənkan Məcidin oğlu yəni belə qudurub?". Şillənin zərbindən Umudun başı çiyninə əyildi. Umudun sol yanağı od tutub yandı. Umud keyikmiş uşaqlara baxdı. Sonra Tofiqin alacalanmış gözlərinə baxdı. Bu gözlərin lap dəriliyində sevinc gördü, qürrə gördü, üstünlük, qələbə gördü. Umud Tofiqdən boylu-buxunlu idi, özünü ondan güclü sanırdı. İnanırdı ki, Tofiqi burmalayıb ayaqlarının altına basa bilər. Ancaq əllərini tərpətmədi, çünki Tofiq Solmazın qardaşı idi, qaşları da onun qaşlarına oxşayırdı: nazik, uzun.

Umudun boğazına acı qəhər tıxanmışdı. Bu qəhər iri yumruq kimi idi. Nə irəli gedirdi, nə geri. Umud bükmələyib yulğun topasının dibinə



atdığı dizləri domba, nimdaş şalvarını götürdü. Dil-dodağını çeynəyə-çeynəyə cibindən dördqatlı bir kağız çıxardıb Tofiqə verdi: "Oxu". Bu bircə kəlmə də, elə bil ağzından çıxmadı, boğazındakı qəhərə toxunub içinə düşdü.

Tofiq məktubu tikə-tikə cırıb suya atdı. "Anqır, tayını tap" dedi.

Umud tək-tənha kəndə tərəf üz tutub gedəndə arxadan Tofiqin qürrəli səsini eşitdi: "Qara çəyirtkəmiz əskikdi elə". Bu dəfə "çəyirtkə" sözünə gülən olmadı. Sanki qurbağa gölünə daş atmışdılar.

...Umud başını kəndalaş kolunun altından çıxardıb qobunun o tayındakı pambıq sahəsinə baxdı. Traktor susub dayanmışdı, qızlar da görünmürdü. Yaxınlıqda qurbağalar hürküşüb şappaşupla suya atıldılar. Umud üzünü o tərəfə döndərdi və heyrətdən ağzı açıla qaldı. Azacıq aralıda bir qız paltarını soyunub böyürtkən kolunun üstünə sərmişdi. Uzun, şəvə saçlarını boynunun ardında düyünləyirdi. Qızın tunc bədəni günün altında parpar parıldayırdı. Yupyumru döşlərinin rəngi bədəninin rəngindən azacıq açıq idi, ağımtıl idi. Görünür, günəş oranı çox döyəcləyə bilməmişdi. Çiyinləri əzələli, sinəsi qabarıq idi. Ancaq bu "əzələ" məsələsi Umudu heç açmadı. Çünki əzələ qızı qızlıqdan çıxarırdı. Onu bir az kişiləşdirirdi, oğlanlaşdırırdı. Umuda elə gəlirdi ki, əsl qız Solmaz kimi olmalıdır. Sifəti ağ, yanaqları al, qaşları nazik, uzun, bədəni də pambıq kimi yumşaq. Solmazın bədəninin bərk-boşluğundan Umudun xəbəri yox idi, amma təpədən dırnağa Solmaza baxanda, nədənsə yadına bir topa çiyidsiz pambıq düşürdü.

Qız saçlarını boynunun ardında düyünləyib qurtardı. Əlini gözlərinə kölgəlik edib göyə baxdı. Qız başını yuxarı qaldıranda onun dəyirmi sifəti apaydın göründü. Umud qızı tanıdı: Tubu! Xeyransanın qızı Tubu! Umud dünən gecə Xalığın dediyi sözləri xatırladı: "Elə Tubunu da alarsan. Yumurta kimi qızdı". Umud ha baxdı, ha baxdı, bədəni təzətər badımcan rəngində olan Tubunu yumurtaya heç cür oxşada bilmədi.

Tubu ehmallıca suya girdi və elə bil orada batdı. Umud nəfəsini içinə çəkib qulaq kəsildi, ancaq hənirti-filan eşitmədi. Dizləri üstə dikəlib irəli boylandı. Tubu qobunun tən ortasında üzü Umuda tərəf dayanmışdı. Çiynini, boynunu sığallayırdı. Su Tubunun qoltuğunun altınacan idi, yumru döşləri görünmürdü. Umud qorxdu ki, Tubu başını qaldırıb onu görər. Dirsəkləndi, hiss etdi ki, qolu tir-tir titrəyir, bədənini güclə saxlayır. Qıçları da boşalmışdı, elə bil özününkü deyildi. Birnəfəsə dağa çıxıb yorulmuş adam kimi ürəyi bərk-bərk çırpınırdı. Gicgahlarında, qarnının altında qəfil ağrı qopdu. Sonra elə bil onun damarlarını kəsib qanını buraxdılar. Canını xoş bir süstlük bürüdü. Bu

süstlük Umudun sinəsinin ortasından başlayıb bütün bədəninə yayıldı. İstədi təzədən dikəlib Tubuya baxsın. "Lənət kor şeytana" deyib arxası üstə uzandı.

Nə yaman böyüyüb canıyanmış. Ətə-qana gəlib. Tubu bapbalaca, çəlimsiz, qarabəniz bir qız idi. Özü də Solmazla bir sinifdə oxuyurdu. Adamayovuşmazlığının ucbatından heç kim onu dindirib danışdırmazdı. Tubunun üç yaşı olanda atası Fərzəli bir gecə səhərə qədər qusub-qusub ölmüşdü. Tubunun bu dünyada anası Xeyransadan başqa, heç kimi yox idi. Oğlanlar məktəbdə danışırdılar ki, Tubunun atası yoxdu deyə həmişə qaşqabağı açılmır və Tubunun atalı uşaqlardan zəhləsi gedir. Deyirdilər ki, Tubu yaraşıqsızdı, böyüyəndə ona elçi düşən olmayacaq, yazıq qız Xeyransanın daxmasında qarıyacaq. Gəl Tubuya indi bax. Gör necə qız olub. Mexanizator! Özü də ordenli!

Umud fikirləşdi ki, əsgərlikdə olanda kəndin bütün adamlarını xatırlayıb, amma Tubu onun yadına bircə dəfə də düşməyib. Umud iməkləyə-iməkləyə kəndalaş kolunun dalına keçdi. Saralmaqda olan yarpaqların arasından qobunun o tayına baxdı. Gözlərini iri böyürtkən topasının üstündəki pal-paltara zillədi.

Tubu asta-asta qobudan çıxıb, arxası Umuda tərəf dayandı. İslanmış saçlarını burub sıxdı, təzədən boynunun ardında topladı. Tubu qollarını tərpətdikcə, əyilib-qalxdıqca bayaqkı çırpıntı az qalırdı Umudun ürəyini saplağından qırsın.

Bir azdan Tubunun tunc bədəni bozumtul kombinezonunun altında görünməz oldu.

Tubu sahənin ortasındakı traktora tərəf üz tutdu. Uzaqdan oğlana oxşayırdı. Yerişi də oğlan yerişi idi. Gedəndə qollarını yana atırdı.

Umuda elə gəldi ki, Tubu adlı bir tuncbədən qız qobunun gömgöy suyundan çıxandan sonra Tubu adlı bir oğlana dönüb getdi...

Umud kəndə qayıdanda gün günorta yerindən xeyli adlamışdı. İstidən Umudun ayaqlarının altı bişməcə olmuşdu, dərindən nəfəs almağa qorxurdu, havanı ciyərlərinə çəkəndə elə bilirdi təndirin dəmini udur. Umud yeyin-yeyin gedirdi. Xalıqgilin həyətindəki tut ağacının kölgəsi üçün burnunun ucu göynəyirdi.

Pirinin tozlu maşını hündür darvazanın qarşısında dayanmışdı.

Umud həyətə girdi. Eyvanda gözünə adam dəymədi. Güləndam samanlığın kölgəsində bardaşqurma oturub yun çırpırdı. Minnət qarı bayaq döşəkcəyə necə düşmüşdüsə, eləcə də qalmışdı. Patron da əvvəlki yerində idi. Məcid kişi kürəyini tut ağacının yoğun gövdəsinə söykəyib, dizəcən çırmalı qıçlarını yana uzatmışdı. Qabağındakı ağ



süfrənin üstündə göy-göyərti, pendir, çörək, pomidor, bir kasa da qatıq vardı.

Umud çatan kimi quyuya baxdı.

– Niyə belə az, dədə?

Məcid kişi başını yuxarı qaldırıb yorğun gözlərini ağacın budaqlarında gəzdirdi.

– Havanı görmürsən? – Göy soğandan bir dişdəm aldı. – Quyu qazmağı yadırğamışam, bala. Həm də ki, güc o güc döyül. Canımda təpər qalmayıb. Ac döyülsən?

Umud süfrənin qırağında əyləşdi. Məcid kişi kasanı götürüb onun qabağına qoydu.

– Qatıq yanğı söndürən şeydi.

Umud kasadakı qatığı tez-tez qaşıqladı. Pomidora, pendirə də əl atdı.

Məcid kişi iki barmağı ilə çal bığını sığallayıb köks ötürdü.

– Havayı işdi bu.

– Nə, dədə?

– Mən bu quyunu əmələ gətirincə Minnət qarı bezin qırağın çəkəcək. – Başı ilə Minnət qarıya işarə elədi. – Quyu qurtarana qalmaz bu.

Umud Minnət qarının tükləri ağappaq, dərisi qıpqırmızı yumru başına baxdı. Daha yeməyə həvəsi olmadı. Gözlərini eyvanda gəzdirdi. Kaş Solmaz bu dəqiqə o eyvanda olaydı. Bayaq Əslinin durduğu kimi, dirsəklərini məhəccərə qoyub Umuda baxaydı. Umud onda pələngə, aslana dönərdi. Bu günün istisində canına heyfi gəlməzdi. Beli əlindən yerə qoymazdı. Quyunu Minnət qarı üçün yox, Solmaz üçün qazardı. Suyu mət kimi şipşirin, göz yaşı kimi dupduru quyu... Umud quyusu...

Umud düşündü ki, Əsli onun ürəyindən keçənləri bilsə, bu dəqiqə eyvana çıxıb qansız dodaqlarını büzər və elə qışqırar ki, bütün kənd onun səsini eşidər: "Xalqa it hürər, bizə də çaqqal! Qudurasan səni! Solmazı qapımdakı tulaya verərəm, amma kənkan Məcidin oğluna verməərəm!" Sonra Əsli ağappaq yumruğunu hənalı başının üstündə silkələyib, eynən oğlu Tofiqin neçə il bundan qabaq dediyi kimi deyər: "Anqır, tayını tap!"

Umud Əslinin yumruğunu görürmüş kimi gözlərini eyvandan çəkdi. Ağ daşdan hörülmüş hündür barıya baxdı. Umud balaca olanda bu barı da alçaq idi. Onda Xalıq kolxoz sədri deyildi. Umud böyüdükcə barı da kərpic-kərpic qalxdı. Sonra Xalıq kolxoz sədrinin yumşaq stulunda oturdu və barı qəflətən boy atıb iki Umud hündürlüyündə oldu. Küçədən keçən adam yalnız bu həyətdəki ağacların təpəsini, bir də ikimərtəbəli evin taxtapuşunu görə bilərdi. Yaşlılar bu evin hələ də

pas atmayan dəmir damına baxanda usta Turabı xatırlayıb köks ötürərdilər: "Allah sənə rəhmət eləsin, doqquzbarmaq!"

Məcid kişi deyirdi ki, Xalığın tikdirdiyi barı Əlincə qalasına oxşayır. Umud Əlincə qalası barədə az-çox eşitmişdi. Bilirdi ki, bu qala onun ata yurdu Qarabağdan çox-çox uzaqda, Azərbaycanın o biri başındadır və bu qalanı indiki naxçıvanlıların əcdadlarının əcdadları tikiblər. Umud onu bilirdi ki, bu qalanın qənşərində neçə-neçə düşmən ordusunun beli sınıb, neçə-neçə yağının əcəli tamam olub...

Məcid kişi elə bərkdən öskürdü ki, Umud bircə anda Əlincə qalasından Xalığın qalasına düşdü.

– Əndamı yanmış Güləndam bura niyə bir içim su qoymadı? Ciyərim pörşələnir. – Məcid kişi başını tənbəl-tənbəl döndərib samanlığın kölgəsində yun çırpan Güləndamı səslədi. – Güləndam! Ay Güləndam!

Güləndam ağız-burnunu cuna qıyqacla bərk-bərk sarımışdı. Əlini qaldırıb-endirdikcə nazik yun çubuğundan kəsik-kəsik vıyıltı qopurdu.

Məcid kişi Güləndamın qarasınca deyindi:

– Qulağının dibində top atsan da qımıldanmaz. Zalımın qızı adam döyül, qarışqadı. Gün çıxandan gün batanacan Xalığın qapısında əlləşməkdən savayı, fikri-zikri yoxdu. Görəydim Cəfərqulu, heç olmasa, gecələr bunun səsini eşidirmi?

Cəfərqulu Güləndamın əri idi. Xalıq sədr olandan bəri gecələr kolxoz idarəsində qarovul çəkir, gündüzlər isə Xalığın buyruğuna baxırdı. Xalıq sədr olandan bəri Güləndam da ev-eşik üzü görmürdü. Xalıq ona əməkgünü yazırdı. Əsli də hərdən görüm-baxım eləyirdi. Güləndamla Cəfərqulu bu işıqlı dünyaya yeddi qaraca uşaq gətirmişdi. Onların da ruzusunu, Cəfərqulu demişkən: "Göydən Allah, yerdən Xalıq yetirirdi".

– A gədə, Güləndamın boğazına diri ilan salsan da işini yarımçıq qoyan döyül. Dur gör bulların suyu hardadı.

– Mən bu öyə bələd döyüləm, dədə.

– Dilin də yoxdu? Qalx yuxarı. Əslidən soruş. Denən dədəmin ciyəri kababa dönüb.

Umud heç getmək istəmirdi, çünki Əslidən utanırdı. Tərs kimi Piri də yan-yörədə görünmürdü, yoxsa Piridən su istəmək olardı, Piri bu evdə yad deyildi.

Məcid kişi qalın, çal qaşlarının altında qaynaşan xırda gözlərini oğlunun üzünə zillədi. Umud başa düşdü ki, bir az da ləngisə, atası hövsələdən çıxacaq.



Umud əvvəlcə aşağı mərtəbədə, artırmadakı qab-qacaqlara baxdı. Gözünə su qabı dəymədi. Naəlac qalıb ikinci mərtəbəyə qalxdı. Eyvanda heç kim yox idi. İstədi Əslini səsləsin. Ürək eləmədi. "Birdən yatmış olar". Pəncələri üstə yavaş-yavaş gedib qarşısına çıxan birinci qapını itələdi. İlk gözünə dəyən enli çarpayının üstündə Pirinin qıllı kürəyi oldu. Piri qapının cırıltısına qıvrım başını kötük boynu üstündə geri döndərdi və Umudu görəndə dəyirmi gözləri hədəqəsindən çıxdı. Həmin andaca Pirinin tüklü sinəsinin altında Əslinin hənalı başı tərpənib yastığın qırağına düşdü.

Piri çarpayıdan cəld sıçrayıb üzünü divara çevirdi. Əsli heyrətdən içini çəkib nazik adyalı tələm-tələsik hənalı başına dartdı.

Umud ilanvurmuş kimi taxta pillələri hoppana-hoppana düşəndə, qulaqlarında dünən gecə Əslinin ərinə dediyi sözlər guruldayırdı: "Xalıq... Xörəyi soyutma...Ye!.. Ye!..Ye!..".

## 3

Umud səhərəcən işığı yanılı qoymuşdu. Atası iki-üç dəfə haylayandan sonra gözlərini açdı. Dikəlib yerinin içində oturdu. Yumruqlarını sinəsinə vurub gərnəşdi:

– Mənsiz getsən olmaz?

– Elə bilirsən sənin qara qaş-gözünə aşiq olmuşam? Quyunun pəstahası bundan sonradı. Dur ayağa, dur! – Məcid kişi tavandan sallanan elektrik lampasına baxdı. – Bunu göz qırpmağa qoymursan. Ayın axırında bunun haqqı kimin kisəsindən çıxacaq? – Qapının küncündəki düyməni çıqqıldadıb işığı söndürdü.

Atası gedəndən sonra Umud əlini ağzına tutub əsnədi. Həvəssiz-həvəssiz paltarını geyinməyə başladı. Yadına düşəndə ki, yenə o həyətə gedəcək, uzaqdan da olsa Əslinin hənalı başını görəcək, təzədən paltarlı-zadlı uzandı yatağa.

Məcid çöldə beli vedrəyə vurub danqıldatdı:

– Nooldun, o?! A yıxılı evin dirəyi, harda qaldın?!

İri laylı qırmızı darvazanın zəhmi birdən birə Umudu basdı. Umud elə bildi ki, bu darvazanın bala qapısı bir daha onun üzünə açılmayacaq. Daş barı da bu səhər Umuda yaman hündür, qaşqabaqlı göründü. Bu barı bir azdan acığını Umudgilin evinin üstünə tökəcək. Gün qalxdıqca barının qara kölgəsi xəlvəti, çərək-çərək sürüncək və Umudgilin çiy kərpicdən tikilmiş beşmərtəbəli daxmalarını bərk-bərk qucaqlayacaq. Məcid kişinin evi bu qara kölgənin ağırlığı altında nəfəsini də çəkmə-

yəcək. Dözümü ilə kölgəni də, günəşi də heyrətdə qoyacaq. Sonra günəş ayaqlarının altındakı dünyanı şəfəqli, odlu gözləri ilə süzüb gizlənəcək və Məcid kişinin birmərtəbəli daxması daş barının qır-saqqız kölgəsindən çıxıb, gecənin qaranlıq qucağına atılacaq.

Umud bayıra baxdı. Hələ kölgədən əsər-əlamət yox idi, çünki günəş yuxulu gözlərini təzəcə açırdı. Bu an Umudun ağlına qəribə fikir gəldi: "Kölgənin ömrü günəş ömrünə bənddi. Günəş olmasa, kölgə də olmaz".

Onlar həyətə girəndə Minnət qarını tut ağacının altında gördülər. Qarı yenə ağ başını göyümtül mütəkkəyə qoyub yumağa dönmüşdü. Güləndam daş hasarın dibində çöməlib, ocağın üstündəki iri qazanı çömçə ilə qarışdırırdı. Cəfərqulu onunla üzbəüz kətildə oturmuşdu, dizlərinin kündəsində də dərin boşqab vardı. Tikəsini görəndə Cəfərqulu dodaqlarını marçıldadıb dedi:

– İşin irəli, a Məcid!

– Xoş gəldin, – deyib kişi qırağı əyilmiş köhnə vedrəni torpaq qalağının yanına tulladı. Sonra gedib Minnət qarının başının üstündə dayandı.

Minnət qarı qıpqırmızı zoğalı gözlərini bir anlığa açıb təzədən yumdu. Ağzını tərpətdi və büruş-büruş, dəyirmi üzü kündə kimi yayıldı.

Məcid kişi yavaşcadan dedi:

– Bu nə bilir qarın ağrısı nədi? Quyu bunun nəyinə lazımdı? Bizi də əngələ saldı allahın mağmın bəndəsi.

Məcid kişi beli götürüb quyuya girdi. Quyunun dərinliyi onun qurşağından idi. Kişi bir ovuc torpağı xışmalayıb barmaqlarının arasından ələdi.

– Dərin olacaq bu quyu, – dedi.

– Nədən bilirsən, dədə?

– Yuxarının torpağı çox qurudu. Kəsəkdi elə bil. Hələ nəmlikdən əsər-əlamət yoxdu.

Məcid kişi qaramtıl, qabarlı əllərinə tüpürüb belin sürüşkən sapından yapışdı.

Umud çəkinə-çəkinə, ehtiyatla eyvana baxdı. Əslinin iyi-tozu da görünmürdü. Birdən Pirinin tüklü kürəyi Umudun yadına düşdü. Umudun qulaqlarında uğultu qopdu, özü də bilmədi ki, bu nə uğultudur. Yenə gözləri zəhrimar barıya sataşdı. Düşündü ki, bu barı Əslini qonşum-qonşudan, Minnət qarını dünyadan ayırıb. Bu barı Patronu kəndin zəncir çeynəyən, yava itlərinə yad eləyib. Barı qəflətən Umudun



nəzərində köydələnə düşdü: "Bura quş gəlsə, qanad salar, qatır gəlsə dırnaq".

Umud dizlərini təzəcə atılmış sarımtıl torpağın üstünə qoyub udquna-udquna dedi:

– Dədə, bu quyunu qazmağa niyə razılıq verdin?

Məcid kişi belin ağzındakı torpağı çölə tulladı.

– Sarsaq-sarsaq danışma.

– Gəl gedək. Tüpürüm onların puluna.

– Pula mən də tüpürüm. Əvvəllər də olmayıb, indi də yoxumdu. Pul nəyimə lazımdı?

– Bəs niyə özünü həlak eləyirsən burda?

Məcid kişi beli ayaqlarının yanında torpağa sancıb tövşüyə-tövşüyə dedi:

– Kamranın çörəyinə bais olmaq istəmirəm.

– Əşi, Kamranın bura nə dəxli?

– Kamran çobandı. Özü də Xalığın kolxozunda, Xalığın fermasında. Mən bu quyunu qazmasaydım, Xalıq Kamrana quyu qazardı. Xalıqda dəvə kini var. Onun kolxozunda mən də işləmişəm. Ovcumun içi kimi tanıyıram onu. – Məcid beli torpaqdan dartıb çıxartdı.

Umud şüşələrində günəşin bərq vurduğu aynabəndə baxdı. Yadına qobu düşdü, şəvə saçlarını, boynunun ardında düyünləyən tunc bədənli Tubu düşdü. Umud gülümsədi və fikirləşdi ki, bu həyət, bu barı onun təsəvvür elədiyi qədər də zəhmli deyil. Yəqin dünənki əhvalatdan sonra Umudun gözləri böyüyüb, bu həyətdəki hər şey ona sirli, müəmmalı görünür, hər şey ona ölçüsündən böyük görünür.

Umud qalxıb pasnaya söykədilmiş motosiklin yanına getdi. Cındırı yana çəkib yəhərə baxdı.

Darvazanın qabağında maşın dayandı. Motor dərindən nəfəs çəkib susdu. Sonra Piri balaca qapıdan həyətə girdi. Əlində ağır zənbil vardı. Tula quyruğunu bulaya-bulaya onun qabağına yüyürdü.

– Cəhənnəm ol burdan!

Pirinin səsi guruldayanda Umud üzünü yana çevirdi. Hiss etdi ki, boynu, sinəsi birdən-birə istiləndi. Umudun qıçları da əsdi. Ancaq bu əsməcə bir anlıq oldu. Umud fikrini yayındırmaq üçün çöməlib motosiklin motorunu qurdaladı. Sonra yanında Pirinin kölgəsini gördü, tövşüyünü eşitdi. Piri zənbili çaparaq qoyub qayıtmışdı.

– Xoşun gəlir?

Bunu Piri soruşdu, ancaq bu səs Pirinin səsinə oxşamadı. Umud elə bildi ki, bu səs dədəsinin qazdığı quyudan gəldi. Umud Pirinin enli kölgəsinə baxdı:

– Yox, – dedi.

– İstəyirsən bunu...

– İstəmirəm! – Umud cındırı motosiklin üstünə çəkib durdu. Utana-utana, gözlərini tez-tez qırpa-qırpa tut ağacının təpəsinə baxdı.

Piri motosiklin açıq təkərlərinə nəzər saldı. Şəhadət barmağı ilə tüklü üzünü qaşıdı.

– İndi qayıdıram, – dedi. Bala qapıdan çıxmağı ilə maşının işə düşməyi bir oldu.

Umud quyunun yanına qayıtdı. Atasının yaxalıqsız ağ köynəyi tərdən islanıb kürəyinə yapışmışdı. Sümüklü boynunun kösöv kimi dərisinə elə bil şeh düşmüşdü.

– Dədə, ver bir az qazım.

– Fas-farağat otur yerində. Sənin də nobatın çatacaq. Bu quyunun lilini, palçığını sən çəkəcəksən.

Cəfərqulu yumyumşaq təndir çörəyini yavan-yavan yeyə-yeyə gəlib quyunun qırağında durdu.

– Dünəndən bəri qazdığın elə budu, ay Məcid?

Məcid kişi başını yuxarı qaldırmadan dilləndi:

– Bir şahını bəyənməyən, bir abbası çıxardar. Əlindən gəlirsə, irəli dur.

Cəfərqulu iki addım geri çəkildi.

– Yox, mənim qırıjam var, – dedi. Axırıncı tikəni ağzına basıb çeynəyə-çeynəyə getdi...

Yenə darvazanın qabağına maşın gəldi, yenə motor dərindən nəfəs alıb susdu. Piri, əlində dəmir qab həyətə girdi.

– Benzin gətirmişəm.

Piri motosiklin üstündəki cır-cındanı götürüb atdı. Yaş əski ilə tozunu tər-təmiz sildi. Tofiqin bir vaxtlar kənddə səyirtdiyi sarı motosikl gün işığında parıldayanda köhnə həsəd Umudun ürəyində təzədən baş qaldırdı.

Piri nasos gətirib şinlərə hava vurdu. Sonra motosikli işə saldı. Tırıltı, gurultu həyəti bürüdü. Bu səsdən Patron səksənib qaçdı. Bu səsə Məcid kişi başını quyudan çıxarıb baxdı, ocağın qırağında düməllənən Güləndam döyükdü. Amma Əsli eyvanda görünmədi. Bu gurultu Minnət qarının vecinə olmadı. Minnət qarı zoğalı gözlərini yumub yatmışdı, qarının üstündəki soruq da asta-asta qalxıb-enirdi.

Piri yaman pörtmüşdü. Onun alnından, çənəsindən tər süzülürdü, amma tərini silmək yadına düşmürdü. Elə hey Umuda baxıb yazıq-yazıq gülümsəyirdi. Piri Umudu qaş-gözü ilə, təbəssümü ilə çağırırdı.



Umud ayağını yəhərin üstündən nə vaxt aşırdığını özü də bilmədi. Piri hündür darvazanın bir tərəfini itələyib açdı...

İsti külək Umudun saçlarını dalğalandırır, üz-gözünü yalayırdı, köynəyinin yaxasından girib ətəyini torbalandırırdı. Təkərlər çala-çuxura düşdükcə, Umudun əti silkələnirdi. Ona elə gəlirdi ki, dabanlarından başlamış peysərinə qədər yüz əl onu qıdıqlayır. Umudun gülməyi tuturdu.

Motosikl divarları yarıyacan hörülmüş hamam tikilisinin yanından ötdü. Sonra kol hasarlı bir bağın böyründən keçdi. Yarpaqları tozdan bozarmış ağaclar motosiklin gurultusunu sürətlə bir-birinə ötürdü. Artezian quyusu da arxada qaldı, qapısı qara qıfıllı yeməkxananın uzunsov binası da.

Umud hərdən başını geri döndərib, təkərlərin altından fəvvarə kimi çıxan toza baxırdı. Uçmaq istəyirdi! Lap uzaqlara! Bax, göyün yerlə birləşdiyi o üfüqə. Orda nə porsuq Piri var, nə də saçları hənalı, bənizi solğun Əsli. Piri indi Umudun qolubağlı quludur. Umud onu dənə də göndərə bilər, dəyirmana da. Əgər Piri Xalığın yanında desə ki, "adamın ağzı pörşələnəndə niyə yuxarı baxır?", onda Umud dinməz-söyləməz qalxıb Pirinin ənginə bir yumruq ilişdirə bilər. Piri də dinməz-söyləməz dəsmal çıxarıb ağzının qanının silər.

Umud ürəyində "Tüpürüm Piriyə!" deyib sürəti artırdı. Qobunun üstündəki ensiz taxta körpüdən keçdi. Kənarları kol-koslu araba yoluna buruldu. Motosiklin uğultusu qarğılığa düşüb dalğa-dalğa yayılırdı. Yan-yörədəki sərçələr, torağaylar hürküşüb pırıltı ilə havaya qalxırdı.

Umud dayaz arxı keçib açıqlığa çıxanda ucsuz-bucaqsız sahədə Tubunun traktorunu gördü. İstədi qayıtsın, amma onu qəribə bir maraq bürüdü: "Görəsən, Tubu məni tanıyacaqmı?"

Umud motosikli yolun kənarında qoyub traktora tərəf addımladı. Traktora yaxınlaşdıqca ürəyinin döyüntüsü də artırdı. Özünə acığı tutdu: "Lənət kor şeytana! Mən niyə belə ağciyərəm?"

Tubu traktorun yanında dayanıb Umuda baxırdı. Umud ona çata-çatda qız da irəlilədi:

– Xoş gəlmisən, saldat. – dedi. – Sənin də üzünü görmək olarmış. – Umudun əlini bərk-bərk sıxıb silkələdi.

Umud onun qaramtıl barmaqlarında oğlan gücü duydu. Qızın əzələli çiynini, qollarını xatırladı.

– Yaman böyümüsən ha, Tubu.

– Elə cırtdan qalmayacaqdım ki! – Qız Umuda zəndlə baxıb gülümsədi və qızın qabaqdakı üç qızıl dişi parıldadı. – Bığ sənə yaraşır, – dedi.

– Sənə də qızıl diş yaraşır.
Tubu əlini yellətdi:
– Heyf deyil adamın öz dişi. Texniki peşə məktəbində təcrübə keçirdik, traktordan yıxıldım, dişim sındı.
– Maşallah, yaman dilli-dilavər olmusan.
– İclaslarda danışmaqdan çənəmin çüyü çıxıb. İndi elə bir yığıncaq olmur ki, orda mənə söz verməsinlər. Tez-tez də Bakıya çağırırlar. Radio, televiziya, komsomol aktivi. Nə bilim nə... Əsgərlikdən qayıdanı Solmazı görmüsən?
Tubunun söhbətin səmtini birdən dəyişdirməyi Umudu çaşdırdı. Umud mat-mat qızın üzünə baxıb soruşdu:
– Necə yəni?
– Qonşunuzu də... Elə-belə xəbər alıram.
– Bir dəfə görmüşəm.
– Medsestra olacaq. İnstituta girmək istəmir. Texnikuma da zorla göndərdilər. Hamımız sözü bir yerə qoymuşduq ki, mexanizator olaq. Xalıq dayı az qalırdı Solmazı şişə çəksin.. – Qız yolun kənarındakı motosiklə baxdı. – Səninkidi?
Umud özünü eşitməməzliyə vurdu.
– Ordenin də mübarəkdi, – dedi.
Tubu:
– Sağ ol, – deyib utancaq-utancaq gülümsədi. Nazik dodaqlarının cəvcəsi qırışdı.
Umud onun işıqlı, qaynar gözlərinə heyran-heyran baxdı. Qız Umudun sirayətedici nəzərlərindən sıxılıb üzünü yana döndərdi:
– Çənəm söhbətə qızışıb, – dedi və traktora tərəf yönəldi.
– Bu kombinezonu geyinməsən olmaz? – Umud istədi desin ki, bu paltarda oğlana oxşayırsan, amma sözünün dalını gətirmədi, çünki bu dəm Xalığın səsi qulaqlarında cingildədi: "Yumurta kimi qızdı".
– Belə yaxşıdı. – Tubu bir sıçrayışla sükanın arxasında oturdu.
Umud traktora niyə dırmandığını özü də anlamadı. Ha fikirləşdi bu "niyə"nin cavabını tapa bilmədi. "Lənət kor şeytana. Birdən Tubu elə bilər ki, mən sırtığın biriyəm". Umud istədi yerə hoppansın, ancaq yadına bir atalar sözü düşdü: "Eşşəyə minmək bir ayıb, düşmək iki ayıb". Umud əzəl binadan zarafat eləməyi bacarmırdı, indi naəlac qalıb zarafata keçdi:
– Sür "İsa bulağına".
Bu sözləri deyəndə ağız-burnunun, gözlərinin nə kökə düşməyindən Umudun xəbəri yox idi, amma Tubunun ona diqqətlə baxıb qımışmağından hiss etdi ki, sir-sifəti xəmir kimi sıyrılıb. Umud dodaqlarını bir-birinə sıxıb dişlərinin üstünü örtdü. Bu məcburi zarafatı yarımçıq qoymaq olmazdı. "Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu".



– Ordan da sürərsən "Turşsu" yaylağına.
Tubu traktoru tərpətdi:
– Bəxtəvərlikdən dəm vurursan, saldat.
Maşın cərgələrin arası ilə silkələnə-silkələnə irəlilədi. Tubunun qolları, kombinezonunun yaxasını dikəltmiş döşləri titrəyirdi. Umud oğrun-oğrun qızın sinəsinə baxdı. Ovcunun içi kimi bilirdi ki, bunun bu titrəyən döşləri yupyumrudur, həm də bədəninə nisbətən ağımtıldır. Umud istədi ki, Tubunu xəyalən kombinezondan çıxartsın, onu dünən Qobuda gördüyü təkin görsün. Ancaq qorxdu ki, təsəvvürünə güc versə, dünən Qobunun qırağında olduğu kimi birdən yenə onu əsməcə tutar. Umud fikrini yayındırmaq üçün bayaqkı söhbətin üstünə qayıtdı. Ağzını qızın qulağına yaxınlaşdırıb, maşının gurultusunu üstələməyə çalışdı:
– Yaylağa getmək yəni heylə bəxtəvərlikdi?!
Tubu gözlərini cərgələrdən çəkmədən qışqırdı:
– Mənim yaylağım burdadı! Səhər sübhdən ta şər qarışanacan gün vannası qəbul eləyirəm!
Umud yenə ağzını qızın yaraşıqlı, balaca qulağına dirədi:
– Ona görə də canın polad kimidi!
Qız sifətinə dəyən isti nəfəsdən səksənib başını yana elədi və deyəsən, gülməmək üçün alt dodağını bərk-bərk dişlədi.
Traktorun gurultusundan az qalırdı Umudun qulaqları tutulsun. Bu gurultu onun fikirləşməyinə, söz axtarmağına mane olurdu. Umud danışmaq istədi, Tubunu söhbətə çəkmək istədi, ancaq düşündü ki, nə desə qışqıra-qışqıra, boğazını yırta-yırta deməli olacaq, Tubu da ona qışqıra-qışqıra cavab verəcək. Umudun qışqırmaqdan zəhləsi gedirdi, ona görə də daha qışqırmadı. Xəyalına gətirdi ki, guya traktorun motoru bir anlığa susub, guya traktor işləmir. Umud bayaqkı səslərin arasından traktorun gurultusunu çıxarıb atdı. Bu ucsuz-bucaqsız çölə dərin bir sükut çökdü, bu sükutun içində təkcə Umudla Tubunun sual-cavabı qaldı. Umud gördü ki, onlar yan-yana dayanıb elə qışqırırlar ki, səsləri sahənin o başında eşidilir. Bu mənzərə Umuda çox gülməli göründü, ancaq Umud gülməyə macal tapmadı, çünki Tubu ilə özünün qışqırığına neçə il bundan qabaq eşitdiyi bir qışqırıq da qarışmışdı. "Anqır, tayını tap!" Tofiq göyümtül tumanda gəlib durdu Umudun gözlərinin qabağında.

Umud fikirləşdi ki, görəsən, bu çölün düzündə "ay mənim tayım, hardasan?" deyib qışqırsa, onun harayına hay verən tapılarmı? Tubunun başını sığallayıb, "elə sənsən mənim tayım" desə, Tubu neynər? Yəqin qaramtıl, güclü barmaqları ilə Umudun qulağını dartıb yerindən çıxardar. Umud traktorun çətirindən bərk-bərk yapışıb, Tubunun nazik barmaqlarına baxdı və hiss elədi ki, qız tərəfdəki qulağı gicişir.

Traktor dövrə vurub qayıtdı. Umud xeyli aralıda işləyən qızları indi gördü. Uzaqdan-uzağa qızları tanıya bilmədi. Düzü, onların kimliyi də Umudu maraqlandırmırdı. Umud susmamaq üçün elə-belə soruşdu:

– Bunlar kimdi?

Tubu gözlərini cərgədən çəkib üzünü Umuda tutdu:

– Mənim briqadamın qızlarıdı, – dedi, – hamısını tanıyırsan. Bizim məktəbi qurtarıblar.

Umud atasını xatırladı. "Yəqin kişi nigarandır".

– Salamat qal, Tubu! – Umud traktordan yerə tullandı. O dəqiqə traktor dayandı.

– Qal, biznən nahar elə, saldat! Odu ey, qızlar da gəlirlər!

Səhərdən bəri Umudun dilinin altından bir damcı su da keçməmişdi. Amma:

– Toxam, – dedi. – Xirtdəyəcən yemişəm.

Umud yolun qırağındakı motosiklə tərəf qaça-qaça yenə Xalığın sözlərini xatırladı: "Tubunu da alarsan, yumurta kimi qızdı".

Umud motosikli işə salıb yəhərə oturdu və özü də anlamadı ki, birdən-birə niyə xəcalət çəkdi. Elə bildi ki, o, motosikli yox, motosikl onu minib...

Motosikl gurultu ilə həyətə girəndə quyunun başında dayananlar dönüb baxdılar. Xalıq əllərini belinə vurub motosiklə tamaşa eləyirdi, sanki bunu harda gördüyünü yadına salmaq istəyirdi. Onun duruşundan Umud xoflandı. Güman elədi ki, bu dəqiqə Xalıq onun gözlərini ovub ovcuna tökəcək və ağzı köpüklənə-köpüklənə deyəcək: "Ə, qoduq, sənə kim icazə verib bunu götürmüsən?!"

Umud motosikli pasnaya söykəyib, imdad diləyən nəzərlərlə Piriyə baxdı. Piri çox sakit görünürdü, hətta, deyəsən, irişirdi də.

Xalıq başı ilə motosiklə işarə elədi:

– Eşitdim Əsli bacın bunu sənə bağışlayıb... Yaxşı eləyib. Onsuz da toz-torpağın içində çürüyürdü. – Əllərini belindən götürüb üzünü bağçaya tutdu. – Ay Güləndam, bir az tez olsana!

Güləndam bir vedrə su gətirdi, iri mis dolça gətirdi, bir qəlib də sabun.



Xalıq hələ də yuxuda olan Minnət qarını döşəkağılı-zadlı qucaqlayıb götürdü. Qarı bapbalaca qırmızı gözlərini açıb səmaya baxdı. Ağzına girmiş dodaqlarını tərpətdi və çağa kimi bircə dəfə qığıldadı.

Xalıq Minnət qarını bağçadakı teştin içinə ehmalca qoyub nəfəsini dərdi.

– Ayaqlarının tozu olum, ay ana, – dedi.

Xalıq köynəyinin qollarını dirsəyəcən çırmalayıb çöməldi. Əlini vedrəyə salıb suyun isti-soyuqluğunu yoxladı. Yumurta sarısına oxşayan sabunu Minnət qarının ağappaq başına sürtdü.

– Güləndam, su tök!

Su başından süzülüb büirüş-bürüş bədəninə töküldükcə Minnət qarı kirpiksiz gözlərini tez-tez yumub açırdı. Qarı yekə teştin içində uşağa bənzəyirdi.

Xalıq onun sallaq döşlərini sabunladı.

– Sənə qurban olum, ay ana, – dedi. – Mənə bu döşlərindən süd vermisən. Südünü mənə halal elə.

Məcid kişi quyunun başındakı torpağın üstündə oturub palçıqlı əllərini ovxalaya-ovxalaya Xalığa baxırdı. Deyəsən, kişi kövrəlmişdi. Onun qalın dodaqları hərdən səyriyirdi və Umuda elə gəlirdi ki, atası bu dəqiqə ağlayacaq.

Kişinin bu halını Piri də gördü. Sədrin əvəzinə özü qürrələndi.

– Anasını bu qədər istəyən adam görməmişəm, – dedi. – Hər həftə özü çimizdirir qarını... Düz on ildi...

Piri bu sözləri Məcid kişiyə deyib cavab gözlədi. Ancaq Məcid kişi onun dediklərini qulaqardına vurdu. Yavaş-yavaş qalxdı, yoğun, uzun kəndirin bir ucunu ağzı əyri vedrənin qulpuna bağladı, o biri ucunu Umuda verdi.

– Bir yanını qaçacaq qoymusan. Ortadan partdasan da qoymaram əkiləsən.

– Ta əkilmərəm, dədə.

– Quyu dərinləşib, torpağı çölə ata bilmirəm. – Kişi ehmal-ehmal quyuya düşdü. – Vedrəni ver bəri görüm.

Umud vedrəni quyuya salladı. Başını döndərib yenə Xalığa baxdı. Xalıq Minnət qarını ağappaq məhrəba ilə qurulayırdı.

Piri yaxınlaşıb quyuya baxdı... Umud hiss elədi ki, quyuya baxmaq bəhanədi, Piri onunla danışmaq istəyir.

Piri dəyirmi gözlərini Məcid kişinin peysərinə zilləyib Umuddan soruşdu:

– Necə gedir?

– Nə?
– Motosiklet.
– Pis deyil.
Məcid kişi ipi tərpətdi:
– Ə, nə key-key durmusan? Çək görüm!.. Boynun qırılsın, oğul yiyəsi!
Umud kəndiri əllərinə dolaya-dolaya vedrəni yuxarı dartıb nəm torpağı kənara boşaltdı.
Piri mızıltı ilə soruşdu:
– Xoşuna gəlir?
– Nə?
– Motosiklet.
Məcid kişi yenə qışqırdı:
– Ə, nooldun?! Əllərini pişik yeyib?! – Başını quyudan çıxardıb Piriyə təpindi. – Əl-ayağa dolaşma burda, sən maşın sürəndə biz qıraqdan qəmiş olmuruq ki?!
Piri gülümsəyib dala çəkildi:
– Gedirəm, Məcid dayı, gedirəm, – dedi. Əlini Umudun kürəyinə vurub pıçıldadı. – Sür də, kefini çək, cavan oğlansan.
Xalıq qarını döşəkağına büküb həmin yerinə qoydu.
– Yat, ana – dedi. – Yuxun şirin olsun!
Xalıqla Piri tut ağacından aralanan kimi Məcid kişi başını quyudan çıxartdı. Əllərini quyunun kənarına qoyub zəndlə Minnət qarıya baxdı.
– Bununçun quyu yox ey, qəbir qazmaq lazımdı, – dedi. Aşağı əyilib vedrəni yaş torpaqla doldurmağa başladı.
Yarımca saatdan sonra Umudun kürəyi zoqquldadı, ovcu gör-gör göynədi. Kəndir dəmir kimi idi, Umudun uzun barmaqlarında zol-zol iz qoymuşdu.
– Dədə, hələ çox qazacağıq?
– Qazacağıq deyəndə bir az yekə çıxır. Guya sən də qazırsan?
– Dartıram ki.
– Dartmaqnan qazmağın zəmin-asiman təfavütü var.
– İstidə kefin qalxıb, dədə, zarafat eləməyə vaxt tapmısan.
– Bir qazan bozbaşdan sonra nənəm də zarafat eləyər. Oğul ona deyərəm ki, işi bərkə düşəndə zarafat eləsin...Hə, necədi? Borş bişirmək yaxşıdı, yoxsa Minnət qarı üçün quyu qazımaq?
– İkisi də bir zibildi... – Umud ipi əlində dəstələyə-dəstələyə dolu vedrəni qaldırdı. Ona elə gəldi ki, vedrə get-gedə ağırlaşır.



Umud tut ağacının kölgəsinə həsrət-həsrət baxdı. Qınayan olmasaydı, Minnət qarının yanında başını mütəkkəyə atıb ölü kimi yatardı. Umud ağrıdan keyimiş çiynini ovxaladı. Qulaqlarının dibinə süzülən təri köynəyinin qolu ilə sildi. Tubunun gülümsəməyi və qabaqda parıldayan qızıl dişləri yadına düşdü. Yəqin Tubu indi qobunun qırağında dayanıb şəvə saçlarını boynunun ardında düyünləyir. Sonra Tubu asta-asta suya girəcək. Əzələli qollarını ehmal-ehmal tumarlayacaq. Kaş Umud gözlərini yumub-açınca özünü qobunun kənarında görəydi. Gəndalaş kolunun dalında gizlənib Tubunun tunc bədəninə oğrun-oğrun baxaydı.
Piri eyvandan qışqırdı:
– Məcid dayı, yuxarı qalxın!
Bu gur səsi eşidəndə elə bil Umudun başına bir vedrə sərin su tökdülər.
Yemək vaxtı Piri Umudla üzbəüz oturmuşdu. Piri yaman narahat idi, daha dünənki təkin acgözlüklə yemirdi. Nəzərlərini Umuddan çəkmirdi, elə bil onun, ağzından söz qaçıracağından qorxurdu. Xalıq hər dəfə tikəsini çeynəyib udandan sonra köks ötürürdü:
Məcid kişi dözə bilməyib soruşdu:
– A, sədr qanın qaradı, deyəsən. Yoxsa işlər əyilib?
Xalıq lap dərindən köks ötürdü.
– İşlər nə vaxt düz gedib ki, Məcid dayı? Başımı cəncələ salmışam. Alimlik mənim harama yaraşırdı axı? Elmi işim tökülüb qalıb. Əlimə qələm ala bilmirəm. Rəhbərim də Kirovabaddan xəbər göndərib ki, durma, gəl. Alağın qızğın vaxtında kənddən çıxa bilərəm mən yazıq? Gərək raykom katibini birtəhər aldadıb sabah özümü verəm Kirovabada. Ayrı əlacım yoxdu.
Xalıq Kənd Təsərrüfatı İnstitutunu qiyabi qurtarmışdı. Sonra da alim olmaq xəyalına düşmüşdü. Amma ara-bərədə pıçıldayırdılar ki, onun elmi işini institutun müəllimi yazır. Bir dəfə Kamran da hirslənib Umudun yanında sədrin qarasınca danışmışdı: "Xalıq fermada qoyun qoymadı qalsın. Ayda ikisinin dərisini boğazından çıxarıb apardı Kirovabada. İnstitutu Xalıq yox, qoyunlar qurtardı. İndi də qoyunlar onu alim eliyəcək".
Xalıq vur-tut ikicə kələm dolması yeyib boşqabını kənara itələdi. Güləndamın qrafində gətirdiyi ayrandan bir stəkan içib dodaqlarını marçıldatdı.
– Mənə fikir verməyin, – dedi. – Siz yeyin. Bu gün Cəlalın qızı başımın üstünü kəsdirməyib, asudəyəm.

Məcid kişi yeyə-yeyə yan-yörəyə göz gəzdirdi:
– Dünəndən bəri Əsli gözümə dəymir. Allah eləməmiş...
Xalıq başını tərpətdi:
– Naxoşlayıb Əsli. Davlenisi qalxanda halı özündə olmur.
Pirinin rəngi dəyişdi, enli burnu az qaldı qarşısındakı boşqaba dəysin. Gözünün quyruğu ilə Umuda baxıb, tez də nəzərlərini yayındırdı. Pirinin səksəkəli, xoflu baxışından Umudun boğazı tıxandı, tikəsini zorla udub fikirləşdi ki, yəqin indi Pirinin ürəyi yel vurmuş yarpaq təkin titrəyir. İndi Umuddan qorxduğu kimi heç kimdən qorxmur. Qorxu pis şeydi. Allah göstərməsin, adam qorxudan sağalmaz azara da düşə bilər. Əgər Umud xəlvətə salıb Xalığın qulağına pıçıldasa ki, ay sədr, bir sirr mənim ürəyimi dağıdır, istəmirəm ki, cavan yaşımda ürəyim partlasın, ona görə də bu sirri sənə açmalıyam. Bu sirr də ibarət olsun ondan ki, dünən günün günortaçağı porsuq Piri sənin şəxsi evində, şəxsi arvadınla... o söz. Umud inanırdı ki, Xalıq bu əhvalatı eşitsə, porsuq Pirini də, Əslini də Kamranın Kirovabada göndərilən dilsiz-ağızsız qoyunlarına döndərər.
Xalıq sözünə davam elədi:
– Əsli neyləsin? Ər dərdi, uşaq dərdi, ev-eşik dərdi. Neçə ildi kurort üzü görmür. Allahın Naftalanına da göndərə bilmirəm onu, çünki camaatımız sözbazdı. Göndərsəm, deyəcəklər, sədrin arvadı kefdədi, amma biz burda kirpiyimiznən od götürürük. – Xalıq fikirli-fikirli başını sinəsinə endirdi. Ağ buxağı qat-qat olub çənəsinin altından çıxdı. Xalıq gözləri yol çəkə-çəkə dedi: – Qoy Tofiq universiteti qurtarsın, onu prokuror eləyim, ondan sonra tüpürəcəyəm sədrliyə. Əslini də qoltuğuma vurub...
Deyəsən, Əsli söhbəti Pirinin lap amanını qırdı. Piri tələm-tələsik söz arasında söz qatdı:
– Sədr, prorab Zahidi də tutdular.
Xalıq ona baxmadan qaşlarını çatıb:
– Bilirəm, – dedi.
Məcid kişi əlini boşqabdan çəkib soruşdu:
– O nə prorabdı hələ?
Xalıq başını buladı:
– Əşi, avaranın biri ürcah olmuşdu bizə. Üç ildi bu kənddə bir hamamı tikdirib qurtara bilmirik. Beş prorab dəyişdirmişik. Axırı Ağcabədidən bu Zahidi göndərdilər bura. Cəmi üççə gün işlədi. Sən demə, pyaniskanın biriymiş. Vurub yıxılırdı kolların arasına, tapa bilmirdik...



Öz işçisindən rüşvət alanda yaxalayıblar. Cəmi-cümlətani otuz manatın üstündə getdi güdaza.
Pirinin qırışığı indicə açılırdı. Gödək barmaqlarını qatlayıb şaqqıldatdı.
– Az alanları yaman tez tuturlar, – dedi. – Çox alanlara heç ilişmirlər.
Xalıq tərs-tərs ona baxdı və bu anda Umudun Xalığa yazığı gəldi. Umud gördü ki, Xalığın da bənizi Əslinin bənizi kimi solğundur. Gördü ki, Xalığın saçları ağarıb, seyrəlib. Xalıq vaxtından tez qocalır. Umud Əslinin hənalı başını, Pirinin tüklü kürəyini xatırladı və durub Pirinin kürəyinə təpik ilişdirməkdən özünü güclə saxladı.
Umud qalxdı:
– Gedək, dədə!
Onlar eyvandan çıxanda Xalıq arxadan dedi:
– Məcid dayı, istidə özünüzü üzməyin. Səhər gün çıxmamış, bir də axşam sərinində işləsəniz bəsdi.
Məcid kişi pilləkənin aşağısında dayandı:
– A sədr, – dedi. – Quyu yavaş-yavaş palçığa çıxır. Ayaqyalın qaza bilmirəm. Bəlkə evdə rezin çəkmədən-zaddan ola?!
– Var, Məcid dayı, var. Özü də təzəsi. Ov çəkmələrimi Piri aşağı otaqdan götürüb verər sənə.
Umud kəndiri əlində sürüşdürə-sürüşdürə vedrəni quyuya salladı. Sonra ikiqat olub ağzını quyuya tutdu:
– Dədə, sən dünyagörmüş adamsan. Bu dünyada qeyrətli adam çox olar, yoxsa biqeyrət?
– Dünyadakıları saymamışam, amma kəndimizdəkiləri deyə bilərəm.
– Kəndimizdə hansı çoxdu?
Məcid kişi ipi tərpətdi:
– Dart, quzu bala, dart!

## 4

Hələ gün çırtlamamışdı, hələ camaat mal-qaranı örüşə ötürməmişdi. Toyuqlar tardan təzəcə düşürdü.
Umud elə bilirdi ki, bu vədə Xalıqgilin evində inc-cins yuxudan oyanmaz, bu vədə ora nahaq gedirlər.
Məcid kişi hündür darvazanın bala qapısını ehtiyatla itələdi və qapı cırıltı ilə açıldı. Umud gördü ki, Güləndamla Cəfərqulu artırmanın qabağında dümələnirlər; yağlı-quyruqlu qoyun cəmdəyini ağ parçaya bükürlər. Umud anladı ki, obaşdan bu nə hazırlıqdır: "Sədr Kirovabad tədarükü görür".

Quyu xeyli dərinləşmişdi, daha Məcid kişi ayaq üstə duranda başı quyudan çölə çıxmırdı.

Quyuda nəsə şappıldadı. Məcid kişinin hirsli səsi eşidildi:

– Ə, şikəst döyülsən ha!

Vedrədən Məcid kişinin başına bir ləmbə palçıq düşmüşdü. Kişi deyinə-deyinə başının palçığını sildi, amma palçıq yapışqan kimi idi, gümüşü tüklərin dibinə ilişib qalmışdı.

Umud vedrəni yavaş-yavaş quyuya salladı.

– Ağzınacan doldurma, dədə, – dedi.

– Məni öyrətmə! – Kişi aşağı əyilmişdi, səsinin yarısını quyu udurdu. – Ehmal-ehmal dart!

Umud yuxudan doymamışdı, dünənki ağrı Umudun canından tamam çıxmamışdı. Tərpəndikcə qolları, sinəsi sızıldayırdı. Zəhrimar vedrə bu gün yaman ağır idi. Kəndir də islanıb sürüşkən olmuşdu, əldə-ovucda dayanmırdı.

Umud vedrəni qaldırıb başı üstünə çevirdi. Qaramtıl lığ sarı çayırların arası ilə axıb getdi. Umudun şalvar-köynəyində palçıq quruyub bozarmışdı. Əlləri də palçıqdan bomboz idi. Umuda elə gəlirdi ki, Məcid kişi ömrü boyu qazsa da, axtardığı damarı tapa bilməyəcək və Umud yerin yeddi qatındakı palçığı vedrə-vedrə dartıb çölə tökməli olacaq.

Məcid kişi başını yuxarı qaldırdı. Umud ha baxdı, atasını tanıya bilmədi. Kişinin bir yerində sağ-istahat qalmamışdı, sir-sifəti qapqara palçıq içində idi, təkcə xırda gözləri işıldayırdı.

– Ta torpaq horraya dönür. Suya az qalıb.

– Bəs deyirdin bu quyu dərin olacaq?

– Mənim dediklərimin hamısı doğru olsaydı, nə dərdim vardı. Torpaq üstüörtülü bir xəzinədi, nə bilirsən ki, xəzinə onun hansı qatındadı. Torpağın sirrindən Allah da baş açmaz. On yeddi yaşımdan quyu qazıram, hələ də torpaq möcüzədi mənimçün.

– Bu vaxtacan neçə quyu qazmısan, dədə?

– Sənin başının tükü sanı. – Kişi mala çəkirmiş kimi palçıqlı əlini quyunun divarına sürtdü. – İndi quyu heç kimə lazım döyül, – dedi. – Qazdıqlarımın da hamısı batıb gedib. Elə quyu qazmışam, dərinliyi 40 ərşin... Dünyada sudan qiymətli nemət yoxdu.

Umud dizlərini yaş torpağın üstünə qoyub, atasına qulaq asırdı. Birdən ona elə gəldi ki, bayaq atasının gözlərində görünən parıltı qəflətən sönüb getdi. Umud atasının batıq səsində bir kədər, bir təəssüf duydu.



– Yəqin bu mənim axırıncı quyumdu. Kim bilir, bəlkə Minnət qarıdan tez ölüb getdim. Bu quyu məndən yadigar qalar. Dədən yadına düşəndə, gəlib baxarsan. Balalarına da göstərərsən. Deyərsən, bu quyunu babanız qazıb.

Umud burnunu çəkdi.

– Kövrəltmə bizi, əşi.

– Sən kövrələn həşərat döyülsən... Çək görüm!

Umud hıqqana-hıqqana vedrəni dartıb quyudan çıxartdı.

İsti düşmüşdü. Güləndamla Cəfərqulu harasa çəkilmişdi. Tut ağacının dibində Minnət qarının yeri boş qalmışdı. Patron da, deyəsən, haradasa kölgələnirdi.

Umud bayaqdan eyvana baxırdı. Heç olmasa uzaqdan-uzağa Əslini görmək istəyirdi, onun səsini eşitmək istəyirdi. Amma Əsli ilə göz-gözə gəlməyi arzulamırdı. Əslidən utanırdı.

Məcid kişi aşağıdan soruşdu:

– Yorulmusan?

– Gün başımı deşir.

– Quyunun içi buzxanadı elə bil.

– Qoy qalsın, dədə, axşam sərini gələrik. Xalıq dayı özü dedi ki...

– Könlünə avaralanmaq düşüb?

– Düşüb.

– Get avaralan, amma, tez qayıt.

Umudun dərdi-azarı motosikl sürmək idi. Özünü həyətə çatdıran kimi əsgi götürüb kəhrəba rəngli motosiklin tozunu tər-təmiz sildi. Özü də yaxşıca yuyundu, paltarını dəyişdi. Keçib bağçadan bir az ərik, bir az gilənar dərdi...

Qızlar bir yerə toplaşmışdılar. Motosiklin səsinə hamı dönüb baxdı. Umud yaxına getməyə ürək eləmədi. Bura gəlməyinə birdən-birə peşman oldu.

Tubu onu səslədi:

– Utanma, gəl!.. Bəlkə qızları qovum burdan?! Yəqin məni təklikdə görmək istəyirsən!

Qızlar gülüşdülər.

Umud Tubudan belə atmaca gözləmirdi. Qızlara baxa-baxa fikirləşdi: "Sözü bir yerə qoyublar ki, məni pərt eləsinlər". İstədi geri qayıtsın, amma Tubu dillənən kimi qərarından döndü.

– Zənbildəki nədi, saldat?

Umud meşin zənbili götürüb qızlara tərəf getdi.

– Sizə ərik, gilənar gətirmişəm.

Tubu zənbili aldı:
– Payın çox olsun, – dedi. – Sovqatsız da gələ bilərdin.
– Nə böyük sovqatdı ki?!
Umud utana-utana qızlara baxdı. Qızlar hələ də gülümsəyirdilər. Onlar pıqqıldaşmağa başlayanda Umud düşündü ki, xudahafizləşib getməyin məqamıdır. Birdən qızlar elə bilərlər ki, bura gəlməkdə onun başqa niyyəti-zadı var. Umudun heç bir niyyəti yoxdur. Hava isti, Tubu da qızmar günəşin altında işləyir. Qoy ərikdən, gilənardan yeyib sərinlənsin. Nə niyyətbazlıqdır? Tubu bu kəndin ordenli qızıdır, ona hörmət eləmək hamının borcudur. Umud da hamının biri. Vəssalam!
Umud başa düşdü ki, qızların yanında Tubuyla onun söhbəti tutmayacaq. Bir də axı Tubuyla onun nə söhbəti, nə alveri? Umudun burda nə ölümü var?
– Salamat qalın!
Umud geri dönmək istəyəndə Tubu təəssüflə soruşdu:
– Hara tələsirsən?
Tubunun səsindəki mülayimlik Umudun bayaqkı şübhələrini bir andaca alt-üst elədi: "Yox, Tubu adam dolayana oxşamır. Tubu məni ələ salmaz". Umud utancaq-utancaq gülümsədi, ancaq onu da anladı ki, bu gün Tubudan yox, onun yanındakı qızlardan utanır. Umud geriləyə-geriləyə:
– İşim var, – dedi.
Tubu onun ardınca qışqırdı:
– Sovqat üçün sağ ol! Ağzın şirin olsun!
Umud özünü motosiklə çatdırınca elə bildi ki, bir ildir yol gedir. Hiss edirdi ki, qızlar arxadan ona baxırlar. Umudun ayaqları bir-birinə dolaşırdı.
Umudun həyətə girməyindən, deyəsən, heç kim xəbər tutmadı. Xalıq tut ağacının kölgəsində, Minnət qarının qarşısında çöməlmişdi. Piriylə Cəfərqulu da onun böyüründə dayanmışdı. Məcid kişi onlardan kənarda oturub üst-başının palçığını ovxalayırdı.
Xalıq şüşə kasadakı qatıqdan bir çay qaşığı götürüb Minnət qarının ağzına uzatdı:
– Ye, ana, ye... Dərdin mənə gəlsin.
Minnət qarı qırmızı gözlərini oğlunun üzünə dikmişdi, deyəsən, ağzını açmaq fikrində deyildi. Xalıq qaşığın ucunu qarının içəri əyilmiş dodaqlarına dirədi:
– Ye, ana. Mən çağa olanda sən də məni belə yedizdirmisən.



Minnət qarının çiyninə bitişmiş bürüş-bürüş boğazı bircə dəfə tərpəndi.
– Bax, belə ha, – deyib Xalıq qaşığı təzədən qatıqla doldurdu.
Piri bu tamaşanı hər gün görsə də, yenə heyran-heyran sədrə baxırdı. Piri üzünü kənarda yorğun-arğın oturmuş Məcid kişiyə tutub danışdı və elə danışdı ki, onun dediklərini nəinki Xalıq, hətta artırmanın qabağında sil-süpür eləyən Güləndam da yəqin eşitdi:
– Hər gün özü yedizdirir anasını... Düz on ildi... Halal olsun!
Məcid kişi onun sözlərinə baş qoşmadı, gözlərini damar-damar, palçıqlı əllərinə zilləyib susdu.
Piri Umudu yanladı.
– Kirovabada getmək istəyirsən?
– Nəyə?
– Gəzməyə. Axşam qayıdarıq.
Piri Umudun cavabını heç gözləmədi, əyilib Xalığın qulağına nəsə pıçıldadı. Xalıq əlində qaşıq geri qanrılıb Umuda ötəri baxdı. Qaş-qabağını töküb Piriyə astadan nəsə dedi. Piri də təzədən nəsə onun qulağına pıçıldadı. Xalıq çiynini çəkdi, sonra ayağa qalxıb Umuda üz tutdu:
– Əsli bacın zakaz verib ki, səni də Kirovabada aparım. Bizim arvad mehrini yaman salıb sənə. – Xalıq gülümsədi və gözlərinin altındakı tuluqlar daha da şişdi.
Umud atasına baxdı:
– Bəs quyu?
Məcid kişinin əvəzinə Xalıq cavab verdi:
– Cəfərqulu burdadı.
Cəfərqulu Minnət qarının süfrəsindən götürdüyü tikəni ağzına basdı. Cəfərqulunun sağ ovurdu şişib parıldadı.
– Sədr... mənim... qırıjam var.
– Əyə, yeddi uşağı əkib-törədəndə heç demirdin qırıjam var!
Cəfərqulu ağzındakı tikəni güclə uddu:
– O ayrı, bu ayrı... Torpaq işi ağırdı.
– Əl yetirərsən Məcid kişiyə.
– Sədr, qırıja...
Xalıq sözünü tamamlamağa ona macal vermədi:
– Dilləşmə mənnən, – dedi. – Elmi rəhbərin yanına getdiyim yerdə qanımı qaraltma!..
Maşın çala-çuxura düşüb silkələndikcə arxadakı ət kisəsi yırğalanıb Umudun kürəyinə dəyirdi. Umudun bədəni çimçişirdi: yadına piy iyi

verən mətbəx düşürdü. Hələ üstəlik Kamranın dediyi sözlər də yadına düşürdü: "...Qoyunlar onu alim eləyəcək".

Maşın kənddən çıxanacan heç kim dinib-danışmadı. Asfalt yolda Xalıq geri qanrıldı. Gücə düşən adam kimi onun solğun bənizinə qızartı çökdü.

– Əsli bacın bilirsən səni mənə niyə qoşub? Elə bilir iş-gücümü buraxıb uxajorluq eləyirəm... Qocaldıqca Calalın qızının başı xarab olur. Keçi can hayındadır, qəssab piy axtarır... – Üzünü Piriyə tutdu. – Elmi işi qurtarmağım, deyəsən uzun çəkəcək. Rəhbər zalım balası da həftə səkkiz, mən doqquz zəng vurur ki, durma gəl.

Pirinin tüklü yanağının dartılmağından Umud başa düşdü ki, Piri irişir.

Üzümçülük sovxozuna dönüb bir balaca çəllək konyak götürdülər. Umud fikirləşdi ki, Xalığın elmi rəhbəri yəqin möhkəm içədir...

Yevlaxda bazarlıq elədilər. Mey-meyvə, göy-göyərti, xiyar-pomidor aldılar. Umud indi də fikirləşdi ki, əlbəttə, bu ətin, bu konyakın yanında meyvə, göyərti mütləq olmalıdır.

Sonra bir mağazaya girdilər. Xalıq yeddi metr bahalı parça ölçdürdü. Umud düşündü ki, yəqin bu da elmi rəhbərin ya arvadı, ya da qızı üçündür.

Xalıq Pirini qırağa çəkib başladı onunla pıçıldaşmağa. Xalığın bir gözü Umudda idi, Umud anladı ki, söhbət onun barəsindədir. Sədr bir az pərt görünürdü. Piriyə tez-tez nəsə deyirdi. Piri də çiyinlərini çəkirdi.

Xalıq barmağının işarəsi ilə Umudu yanına çağırdı.

– Gəlsənə qalıb burda gəzəsən? Qayıdanbaş səni götürrük. Cibindən pul çıxarıb Umuda uzatdı. – Restorana-zada gedərsən.

Umudun bir qara qəpiyi də yox idi, amma:

– Pulum var, – dedi. – Sağ olun.

Umud nəzərlərini Pirinin üzünə zillədi. Guya son söz, son qərar Pirinin idi. Sədrin təklifi, deyəsən, Pirinin ürəyincə deyildi. Piri Umud tərəfə baxmağa utanırdı, gözlərini Xalığın ağzına dikmişdi və Pirinin gözləri açıq-aşkar yalvarırdı: "Amandır, sədr, daşı ətəyindən tök".

Xalıq maşının qapısını açdı. Bir ayağı yerdə, bir ayağı göydə:

– Darıxma, Umud, – dedi. – Tez qayıdacağıq. Vağzalın qabağında bizi gözlə.

Piri qaşqabağını töküb sükanın arxasına keçdi.

Umud uzaqlaşan maşının ardınca key-key baxdı. Onu niyə yarıyolda qoydular? Əgər Umudu Kirovabada aparmaq niyyətləri yox idisə, onu niyə yerindən dingildətdilər? Bu nə sirdir, nə müəmmadır belə?



Maşın aralıda dayandı. Piri yerə düşüb sevinə-sevinə Umuda əl elədi:

– Yüyür, ə!

Amma Umud yüyürmədi. Umudun ürəyindən qara qanlar axırdı, Umud pərtliyindən ağlamaq istəyirdi...

Xalıq bircə dəfə də dönüb arxaya baxmadı. Xalığın bir gözü Piridə idi. Piri onun baxışlarını üzündə hiss edib sıxılırdı.

Umud başa düşürdü ki, bu gün onu Xalığa ilişdirən Porsuq Piridir. Kəhrəba rəngli motosikli də Umuda Piri verdirib, bax bu maşının arxa oturacağında da onu Piri əyləşdirib. Bütün bu qurğular porsuq Pirinin əməlləridir. Umudun hörmətini, etibarını qazanmaq üçün Piri dəridən-qabıqdan çıxmağa hazırdır.

Maşın Yevlaxdan sağa buruldu. Kürün körpüsündən keçəndə Umud baxıb gördü ki, bu yol Kirovabad yoluna oxşamır. Umud Kirovabada iki dəfə getmişdi, amma o yolda nə Kür görmüşdü, nə də körpü.

Alaqapısında "Mingəçevir" yazılmış şəhərə girəndə Umud maşının pəncərəsindən döyükə-döyükə gah sağa, gah sola baxdı. Burda geniş küçələr gördü, hündür-hündür evlər gördü. Yolun qırağındakı beşmərtəbəli binaların balkonlarından, pəncərələrindən sarıkəkil qızlar, gəlinlər boylanırdılar. Umud gördü ki, bu şəhərin bir suyu elə onun əsgərlikdə olduğu Barnaula oxşayır. Umud fikirləşdi ki, yəqin bu yaraşıqlı, səliqəli şəhərin içindən keçib Kirovabada gedəcəklər. Kaş yarımca saat burda dayanaydılar, Umud ala-yarımçıq da olsa, bu şəhəri gəzəydi.

Maşın Kür çayının sahilində "finski" deyilən evlərdən birinin qənşərində dayandı. Burda qollu-budaqlı, hündür qovaq ağacları vardı. Bu ağaclar, doğrudan da, Kirovabaddakı ağaclara çox oxşayırdı.

Piri koppuş əlini siqnal düyməsinin üstünə qoydu. Siqnalın səsi uzun, boş küçəyə yayıldı, Xalıq tərs-tərs Piriyə baxdı.

– Yavaş, – dedi. – Pajardı?

Alçaq hasarlı, sarmaşıqlı həyətdəki evin pəncərəsindən ətli-əndamlı bir qadın gülümsəyə-gülümsəyə baxırdı. Xalıq maşından düşdü. Sarmaşıqlı hasarın arxasında taxta divarları qızaran "finski" evə girib görünməz oldu.

Umudun yerində başqa adam olsaydı, yəqin barmağını dişləyib deyərdi: "Ay dadi-bidad..." Amma Umud barmağını dişləmədi. Üzünü Kürə tərəf tutub fikirləşdi: "Xalıq dayı buna görə məni başından eləmək istəyirdi?.. Qara qızın dərdi varmış".

Porsuq Piri maşındakı şey-şüyləri tövşüyə-tövşüyə evə daşıdı. Sonra gəlib tövşüyə-tövşüyə sükanın arxasında oturdu. Maşını tərpədəndə Umuda dedi:

– Keç yanıma.

Umud adlayıb qabaq oturacaqda əyləşdi. "QAZ-69"-un şəhərdən çıxdığını görüb soruşdu:

– Kirovabada gedirik?

– Buranın Kirovabaddan nəyi əskikdi, ə? Bilirsən burda nə qəşəng qızlar var? Hamısı da kulturnu...

Piri maşını gölün qırağındakı kababxananın qabağında saxladı.

Çimərlikdə adam əlindən barmaq basmağa yer yox idi. Qumun üstündə uzanıb özünü günə verən kim, çığırışa-çığırışa göldə çimən kim. Xeyli aralıda qayıqla gəzənlər də vardı.

Umud suyu şappıldada-şappıldada üzən qızlara baxıb qobunu xatırladı, Tubunun tunc bədənini xatırladı. Əlini gözlərinə kölgəlik eləyib qızlara zəndlə diqqət yetirdi. Gördü ki, bu qızlardan hər hansının bədəni Tubununku kimi badımcanı deyil. Bunların bəyazı var, sarısı var, hələ günəşin yandıra bilmədiyi ağappağı var. Bu pambıq kimi ağappaq qızların çoxusu bədəndə Solmaza oxşayırdı.

Piri də, Umud kimi əllərini gözlərinə kölgəlik eləyib qızlara baxa-baxa dodaqlarını yaladı:

– Görürsən, camaat nə kefə baxır? Biz də kənddə toz-torpağın içində eşələnirik... Hayıf ki, əynimdə fərqli tumanım yoxdu, yoxsa soyunub çimərdim.

Keçib kababxanada oturdular.

Piri xörəkpaylayan oğlanı çağırdı.

– Dörd pors balıq kababı.

Umud etiraz elədi:

– Dördü çoxdu.

Piri sağ əlini yuxarı qaldırıb barmaqlarını araladı.

– Beş pors, - dedi, – çaxır da gətir... Suxoy. – Xörəkpaylayan oğlan gedəndən sonra Piri gülümsədi. – Bunların porsusu nədi ki? Üç tikə! Bir oturuma yüz şiş yeyərəm.

Piri çaxıra əl vurmadı.

– Rulun dalında öldürsələr də içmərəm. Qismət olsun, kənddə oturaq, onda burnumdan gəlincə vuraram.

Umud Pirinin tez-tez tökdüyü sərin çaxırı içdi və bir də baxıb gördü ki, butulka boşalıb. Umudun canında xoş sızıltı vardı, ancaq bu sızıltı quyudan vedrə-vedrə torpaq dartanda onun bədənini bürüyən ağrıya



bənzəmirdi. Hər şey, hətta Pirinin tüklü sifəti də Umudun gözlərinə içdiyi çaxırın rəngində görünürdü. Umud Pirinin şişib tərpənən ovurdlarına, qulaqlarının sırğalığında dikələn uzun tüklərə baxdı, özü də fərqinə varmadan soruşdu:

– Sənə niyə "Porsuq" deyirlər?

Tikə Pirinin boğazında qaldı. Güclə udqunub gülümsündü, ancaq bu təbəssümdə acıq vardı, hiddət vardı.

– Nə bilim, – dedi. – Kəndimizdə o qədər avara adam var ki, hərəyə bir ləqəb qoyurlar. Mən porsuğa oxşayıram?

– Oxşayırsan.

– Canın sağ olsun. Onsuz da hərə bir şeyə oxşayır.

– Mən də?

– Sən də.

– Nəyə oxşayıram?

– Çəyirtkəyə.

Qobunun qırağındakı lüt uşaqlar gəlib durdu Umudun xumarlanan gözlərinin qabağında. Tofiqin şilləsinin səsini də eşitdi. Üzü gizildədi. "Yəqin Tofiq deyib buna".

Piri, deyəsən, Umudun acıqlanacağından qorxub sözünü dəyişdi:

– Zarafat eləyirəm, sən yaxşı oğlansan.

Umud gözləyirdi ki, bu dəqiqə Piri ona yalvaracaq. Ağlamsına-ağlamsına deyəcək ki, "mənim beş balama yazığın gəlsin, Umud. Əsli ilə məni bir yataqda gördüyünü ağzından qaçırtsan, qanım getdi. Xalıq bu məsələni bilsə, məni də, Əslini də tikə-tikə doğrayar". Piri yəqin bu sözləri deyəndən sonra cibindən əzik bir dəsmal çıxarıb gözlərinin yaşını siləcək. Umud da onun ağladığını görüb kövrələcək. Deyəcək: "Kişi kişinin namusuna toxunmaz, Piri. Mən bu sirri ürəyimdə qəbrə aparacağam. Amma boynuna al ki, əclaflıq eləmisən". Piri başını tərpədəcək: "Tamam düz buyurursan; əclafın yekəsiyəm. Amma beş balamın ölmüşünə, bir də belə qələt eləmərəm".

Umud baxıb gördü ki, Piri heç yalvarana oxşamır, özünü elə aparır ki, guya aydan arı, sudan durudur. Umud az qaldı inansın ki, Pirini Əslinin çarpayısında ömür-billah görməyib, Xalığın evində onu yəqin qara basıb.

Piri dirsəklərini stola dirəyib Umuda tərəf əyildi:

– Nə olsun ki, adıma "Porsuq" deyirlər. Sən mənim ürəyimə bax. Ürəyim mum kimidi... Xalığın ipini çəkən mənəm. Yaxşını yaxşı işə qoydurram, pisi işdən götüzdürrəm. Mən kənd üçün əlləşirəm, camaat üçün əlləşirəm. Odu ey, dədən quyu qazır. Elə bilirsən Xalığın ağlına

gəlib bu? Bunu onun yadına mən salmışam. Fikirləşmişəm ki, Məcid dayı heç harda işləmir, qoy oğul əlinə möhtac olmasın. Haqqını artıqlamasıynan verdirəcəm onun... Quyu Minnət qarının nəyinə lazımdı, ə? Hey?

– Lazım döyül.

– Amma Məcid dayıya pul qazanmaq lazımdı. – Piri qaşqabağını töküb susdu. Yan-yörəyə nəzər salıb astadan, dirənə-dirənə dedi: – Di gəl ki, mənim üzümün pis tərəfi də var. Vay o adamın halına ki, bilə-bilə ayağımı basdalaya. – Sözlərinə cavab gözləyirmiş kimi zəndlə Umuda baxdı.

Umudun gözləri yumulurdu, Piri onun baxışlarından heç nə anlamadı. Piri üzünü yana döndərdi, guya indi deyəcəklərinin Umuda dəxli yox idi, guya biri öz-özünə danışırdı:

– Kim mənim jiznimi pozmaq istəsə, baxtından küssün.

Umud sinəsini stolun qırağına söykədi.

– Neynərsən o adama?

– Özüm billəm neynərəm.

– Öldürərsən?

Piri stolun üstündəki çörəkdən bir qırıq kəsib, iki barmağı arasında Umudun yarıyuxulu gözlərinin qabağına tutdu.

– Bu bərəkət haqqı öldürrəm, – dedi. – Ta jiznim pozulandan sonra...

Umud ağlının bu dumanlı çağında fikirləşdi ki, porsuq Piri, doğrudan da adam öldürə bilər. Günlərin bir günü Umud başıaşağı yol getdiyi yerdə Pirinin maşını çıxar onun belinə. Vəssalam! Günah öləndədir!

Umud qalxdı.

– Gedək.

Piri də qalxdı. Umudun boynunu qucaqlayıb üzündən öpdü.

– Qardaşam sənnən, – dedi. – Ölənəcən.

Şəhərin bütün küçələrini dolandılar. Elə küçə vardı ki, içindən üç-dörd dəfə keçdilər. Umud bir az özünə gəlmişdi, amma başı, gözlərinin altı ağrıyırdı. Bir kölgəlikdə, döşəkcənin üstündə uzanmaqdan ötrü burnunun ucu göynəyirdi. Eybi yoxdur, döşəkcəsiz də keçinər. Lap quru yer olsun, lap Minnət qarıyla ayaq-baş olsun. Umud yorğun-yorğun soruşdu:

– Hələ kəndə qayıtmırıq?

Piri bu suala cavab vermədi. Piri ayrı söz dedi və Umud bu sözdən tamam ayıldı.

Piri dedi:

– Bilirəm, Solmazdan xoşun gəlir.



Umudun matı-qutu qurudu.

Piri bir az da uzağa getdi:

– Məktub da yazmısan ona.

Umuda elə gəldi ki, dünyada Piridən gizli sirr yoxdur, Piri yerin altından da xəbərdardır, üstündən də. Umud doğrudan-doğruya Piridən qorxdu. Elə qorxa-qorxa da dedi:

– Qəribə sözlər danışırsan.

Piri bu dəfə baltanı lap kökündən vurdu:

– Solmazın üstündə Tofiqnən dalaşmısan.

Piri, deyəsən "dalaşmısan" sözünü qəsdən dedi. Gərək "döyülmüsən" deyəydi. Görünür, Umudun şəstinə toxuna biləcəyindən ehtiyat elədi.

– Əsli də bilir bu məsələni.

Umud daha təəccüblənmədi:

– Lap ağ elədin, – dedi.

Piri bir əlini sükandan buraxıb sinəsinə vurdu:

– Bu canım ölsün bilir... Beş balamın canıçün...

Umud az qaldı Solmazı istədiyini etiraf eləsin, Pirinin yanında ürəyini boşaltsın. Özünü güclə saxladı. Təəssüflə:

– Solmaz hara, mən hara?! – dedi.

– Kimin oğlundan əskiksən? İstəyirsən mən bu işə əncam çəkim. Əsli qızı sənə verəndən sonra Xalıq nə deyəcək? Evdə Əslinin sözü zakondu.

– Bəs, Solmaz?

– Solmaz bir əppək yesin, birini də Allah yolu versin ki, sənin təkin oğlan onu istəyir... Özün də əl-ayaq eləyərsən.

– Necə?

– Qızla görüş, danış... İstəyirsən təşkil eləyim.

– Yox, yox. Sağ ol.

Umud "yox"u candərdi dedi, utandığından dedi və ona elə gəldi ki, Solmazı bu dəqiqədən etibarən əbədi itirdi. Umud Solmazı yenə qatmaqarışıq, dumanlı yuxularında arayacaq. Qorxa-qorxa onun yumşaq barmaqlarından tutacaq. Ancaq qızın şabalıdı saçlarının ətrini, əllərinin hərarətini duymayacaq. Çünki yuxuların ətri yoxdu, yuxularda isti-soyuq bilinmir. Adamı qov kimi yüngülləşdirən bu dumanlı-pərdəli yuxularda ömür sürmək, səadət axtarmaq Umudu təngə gətirməzmi, ilahi?

Piri saatına baxıb:

– Uje vaxtdı, – dedi.

Maşın qovaq ağaclarının arasındakı "finski" evin qarşısında dayanan kimi Xalıq sarmaşıqlı həyətdən səkiyə çıxdı, sanki bayaqdan burda dayanıb gözləyirmiş. Sədr asta-asta gəlib maşına oturdu və o dəqiqə ətir iyi Umudun burnunu qıcıqlandırdı.

Şəhərdən çıxana qədər ətir iyi Umudun burnundan getmədi...

Xalığın əhvalı yaman yaxşı idi. Umud onu ömründə belə şən, belə gülümsər, belə xoşbəxt görməmişdi. Xalığın bənizi allanmışdı, gözlərinin altındakı tuluqlar çəkilmişdi.

Xalıq zümzümə eləməyə başladı. Xeyli keçəndən sonra zümzüməsini kəsib, başını geri çevirdi:

– Umudbala, sən yaxşı oğlana oxşayırsan ha, – dedi. Bir az da qanrılıb gözlərini Umudun üzünə zillədi. – Əsli bacın girəvəyə salıb səni sorğu-suala tutacaq.

Umud az qaldı desin ki, Əsli bacı mənim yanımda cınqırını da çıxarmayacaq, Əsli bacı məndən yeddi ağac uzaq dolanacaq.

– Nə deyəcəksən onda, Umudbala? Əsli bacın xəbər alacaq ki, hara getmişdiniz. Onda nə deyəcəksən? Deyəcəksən hara getmişdik?

– Kirovabada.

– Kimin yanına, Umudbala?

– Sizin elmi rəhbərin.

Piri sıxıla-sıxıla dedi:

– Umud ağzıbütöv uşaqdı. – Pirinin tüklü qulaqları qızardı.

– Malades! – Xalıq üzünü qabağa tutub, təzədən zümzümə etməyə başladı...

Umud artırmanın işığını yandırdı. Məcid kişinin gözləri açıq idi. Kişi qalxıb mütəkkəyə dirsəkləndi.

– Niyə ləngidiniz, a bala?

– Kirovabad hara, buradı? Gedib-gəlməyi altı saat çəkir. – Umud üzünü yana tutdu ki, atası onun yalan danışdığını gözlərindən hiss etməsin.

Kişi əsnəyib sinəsini qaşıdı.

– Bu gecə ditdililəri tüstüyə verə bilmədim. Elə yorulmuşam, tərpənməyə heyim yoxdu... Aclığın var?

– Balıq kababı yemişəm.

– Bəxtəvər, – kişi təzədən başını mütəkkəyə qoydu.

Gecə sakit idi. Ulduz ulduzu çağırırdı. Bir balaca meh olsaydı, ağcaqanadları qovub aparardı. Umud qulağının dibində zəhlətökən zümzümə eşitdi. Ağcaqanadı qovurmuş kimi başını sağa-sola tərpətdi.

– Bunların əlindən hara qaçaq? – dedi.



– Onları da Allah yaradıb. Lazım olmasa, yaratmazdı. İlan pis heyvandı, heləmi? Amma deyirlər, indi hökumət ilanları qırmağa icazə vermir. Çünki ilan nəyəsə lazımdı. Demək, ditdili də nəyəsə lazımdı. Pis adamları niyə qırmırlar? Demək, onlar da nəyəsə lazımdı. Pis olmasa, yaxşının qədrini bilmərik. Onlarsız yaşaya da bilmərik, vallah. Hamı quzu kimi olsa, dünya nəyə gərəkdi?

Umud düşündü ki, atası düz demir, atası hirsli olanda həmişə tərsməzhəb danışır, qaraya ağ deyir, ağa qara. Pis kimin nəyinə lazımdı? Piri olmasa dünya boş görünməz ki! Əgər Piri kimiləri min-min, milyon-milyondursa, onda necə?

– Deyəsən, qanın qaradı, dədə?

– Qanım qara niyə olur? Şükür Allaha, canım sağ, yeməyə də çörəyim var.

Arvadı öləndən bəri Məcid kişi tez-tez darıxırdı. Kamrangil dağa gedəndən sonra kişinin əhvalı lap xarab olurdu. Umud bu yaxınlarda atasının bağçada tək-tənha oturub ağladığını görmüşdü. Kövrələ-kövrələ soruşmuşdu: "Niyə ağlayırsan, ay dədə?" Həmişə dərdini hamıdan gizlədən, heç vaxt gileylənməyən Məcid kişi bu dəfə dözə bilməmişdi: "Humayın rəhmətə getdiyi yeddi ildi. Hələ də inanmıram. Elə bilirəm böyürdən çıxıb deyəcək ki, ay imansız, gör nə kökə düşmüsən!" O gecə Umudun da eyni açılmamışdı. Səhərdən axşamacan həyətdə əlləşən arıq, balacaboy anası gözlərinin qabağından getməmişdi. Umud yorğanı başına çəkib səssiz-səmirsiz ağlamışdı.

Umud çarpayıda uzanıb hərdən köks ötürən atasına baxdı. Başa düşdü ki, atası yenə darıxır, başa düşdü ki, atası çoxdan darıxır və darıxdığı üçün də Xalığın həyətində quyu qazır.

Məcid kişi gözlərini açıb gülümsədi:

– Səni Xeyransanın qızı soruşurdu... Tubu.

– Neynirdi?

– Deyirdi, Umudun məndə zənbili var, gəlsin aparsın... O nə zənbildi helə?

– Heç, əşi... Bir az mer-meyvə aparmışdım ona.

– Zənbili özü gətirə bilməzdi? – Kişi təzədən dikəldi. – Ə, a lotu, yoxsa Xalığın sözü ağlına batıb? Yoxsa Tubunu almaq fikrinə düşmüsən? Yaxşı sövdadı, Allah xeyir versin.

– Əşi, qoy görək, – deyib, Umud çarpayıdan uzaqlaşdı.

Bu gecə Umud işığı yandırmadı. Yerinə girən kimi gözləri süzüldü. Hardansa yadına Patron düşdü. Fikirləşdi ki, yəqin Xalığın evində Patrona çörək, sür-sümük verən yoxdur. Yəqin Solmaz bu evdən gedəni

Patron ac-susuzdur. Umud fikirləşdi ki, Patron bu yaxınlarda öləcək, özü də acından öləcək. Çünki Patron hündür daş hasarı aşa bilmir. Dərdini həmcinslərinə danışa bilmir.

Umud yarıhuşda, yarıyuxuda qərara aldı ki, sabah Patrona yemək aparsın.

5

Umud girəvəyə salıb özünü samanlığın qabağına verdi Cibindən çıxartdığı bir parça təndir çörəyini kölgəlikdə sərələnmiş Patronun qabağına atdı. Patron başını qaldırıb laqeyd-laqeyd Umuda baxdı. Umud çörəyi bir az yaxın itələdi:

– Ye, Patron, ye, – dedi.

Patron bir neçə dəfə qulaqlarını tərpətdi, ancaq gözlərinin pıçalığına qonmuş yaşıl milçəkləri qova bilmədi. Sonra qarşısındakı çörəyi iylədi. Çörək boyat olsa da, hələ qupquru qurumamışdı, sür-sümükdən çox-çox yumşaq idi. Patronun dişləri bu çörəyə bata bilərdi, amma nədənsə, Patron dişlərini çörəyə batırmadı. Çənəsini pəncələri üstə qoyub gözlərini yumdu. Yaşıl milçəklər təzədən onun ağız-burnuna daraşdı...

Məcid kişi üst-başından su süzələnə-süzələnə quyudan çıxdı. Palçıqlı əlini Umudun üzünə sürtüb yavaşcadan dedi:

– Su. – Sonra üzünü eyvana tutub qışqırdı. – Su!.. Su"!..

Birinci Piri gəldi, onun dalınca Xalıq.

Məcid kişi quyudan bir vedrə lilli su çıxartdı. Sudan bir ovuc götürüb dili ilə yoxladı.

– Şipşirindi, – dedi.

Piri də çöməlib dilini vedrədəki suya vurdu.

– Əlin var olsun, Məcid dayı, – dedi.

Xalıq tut ağacının kölgəsində mürgüləyən Minnət qarıya yaxınlaşdı.

– Quyun hazırdı, ay ana! Allah sənə bundan sonra yüz il də ömür versin.

Məcid kişi quyudan vedrə-vedrə lilli su çəkib çölə tökdü.

– Hələ bulanıqdı. Axşamacan durulacaq. Göz yaşı kimi olacaq.

Umud gördü ki, Əsli dirsəklərini məhəccərə dirəyib eyvandan baxır. Əsli başını yaşıl qıyqacla bərk-bərk bağlamışdı. Uzaqdan bənizi ağappaq ağarırdı. Əsli eyvanda çox dayanmadı, otağa girib qapını örtdü.

Piri gözlərini Umudun palçıqlı üzünə zilləyib gülümsədi:

– Xeyir iş var, – dedi. – Ağdama getməlisən.

– Mənim orda nə azarım?



– Əfəl olma. Bu məsələni təşkil eləyincə min dona girmişəm.

Umuda elə gəldi ki, Piri Xalığa göz vurub kənara çəkildi.

Xalıq Minnət qarının üstünü döşəkağıyla örtdü. Samanlığın kölgəsində uzanmış Patronu Piriyə göstərib dedi:

– Sən işində ol. Bu çər dəymişi elə yerdə azdır ki, gəlib buranı tapa bilməsin. Lap uzağa apar. Yoldan, rizdən qıraq bir yerdə tulla... Həyətdə qalsa quyunu murdarlayar.

Sonra Xalıq Umudun kürəyindən itələyə-itələyə onu eyvana qaldırdı. Başladı bərkdən danışmağa:

– Sənə işimiz düşüb, kişi qırığı! İyirmi gündü Solmazdan xəbərimiz yoxdu. Əsli özünü didib tökür ki, gərək uşaqdan mənə bir xəbər gətirəsiniz. Mən heç, mən ayaqları çataqlı kəhərəm. Piri də mənə bənddi. Bu kənddən tərpənməyə bizim mümkünümüz yoxdu. Əlac qalıb sənə.

Xalıq şəbəkəli pəncərəyə baxdı. Umud başa düşdü ki, Əsli bu şəbəkəli pəncərənin arxasındadır. Xalıq sözlərini ona eşitdirir.

Xalıq səsini bir az da qaldırdı:

– Əsli bacın səni göndərir Solmazın yanına.

Umudun qulaqları Xalıqda idi, gözləri Piridə. Piri Patronun boğazına bağladığı gödək ipin ucundan tutub dartırdı. Tula qabaq ayaqlarını yerə bərk dirəmişdi, Piri də ipi ikiəlli bərk-bərk çəkirdi, az qalırdı Patronun başını bədənindən ayırsın. Umud bu dəm Patronun hürməyini arzulayırdı, heç olmasa, ömründə bircə dəfə onun səsini eşitmək istəyirdi.

– Nə deyirsən, Umudbala?

Umud Pirinin bala qapıdan sürüyə-sürüyə çıxardığı Patronun sağa-sola çırpılan lümə quyruğuna baxdı.

– Nə deyim? Mən...

– Ə, Ağdam budu, buradı. İkicə saata gedib gələrsən. İstəyirsən elə motosikletnən get.

Bala qapı örtüldü. Umud çiynini çəkdi.

Xalıq əlini onun kürəyinə vurdu:

– Sənə yaxşı yol, Umudbala...

Yarım saatdan sonra Umud kəhrəba rəngli motosiklin üstündə asfalt yola çıxdı.

Qara meşin zənbilin içində bir qazan aş vardı. Qazan hələ soyumamışdı. Xalıq Umuda tapşırmışdı ki, gərək yel kimi gedəsən, gərək bu xörəyi Solmaza isti-isti çatdırasan. Solmazçün xərclik də vermişdi, Umudun cibinə məktub da basmışdı: "Solmaza çatacaq".

Umud elə bilirdi ki, yuxu görür, ancaq bu yuxuda o daha qov kimi yüngül deyildi. Bu yuxunun dumanı, pərdəsi yox idi, bu yuxunun ətri də vardı, rəngi də. Umud qorxurdu ki, birdən bu yuxunun ömrü gödək olar, gözlərini açıb özünü on il bundan qabaq Kamranın puluna alınmış yaylı çarpayıda görər və bu ətirli, rəngli röyadan onun ürəyində təkcə acı bir həsrət qalar. Külək Umudun saçlarını dağıdır, ılıq nəfəsi ilə onun bədəninə xoş vicvicə salırdı. Umud hiss etdi ki, bütün əzaları yaşayır və gerçək aləmdə olduğuna inandı. "Solmazla nə danışacam? Solmaz məni necə qarşılayacaq?"

Solmaz onu görəndə sevindi:

– Nə yaxşı, ay Umud? Sən hara, bura hara?

– Məni Xalıq dayı göndərdi... Gör qazan soyumayıb ki?..

Solmaz qazana əl vurmadı. Umudun verdiyi məktubu açıb oxumağa başladı. Yarıya çatanda gülümsədi. Alt dodağını dişləyib Umuda baxdı:

– Anama nə olub görəsən. Yazır ki, Umuda yaxşı üz göstər. Mən nə vaxt sənə güldən ağır söz demişəm, ay Umud?

Umud pərt halda dedi:

– Əsli xala niyə heylə yazıb?

Solmaz məktubun ardını oxudu. Umud qızın nazik, uzun qaşlarına heyran-heyran baxdı. Düşünürdü ki, Solmaz böyüyüb arvad olanda onun da bənizi anasının bənizi kimi solğun olacaq. Yəqin qızlığında Əslinin də yanaqları bax beləcə, qıpqırmızı olub, saçlarının rəngi beləcə şabalıdı olub. Amma Solmaz bədəncə anasına oxşamayacaq. Solmaz kökələcək. İndidən buxağı yavaş-yavaş dikəlir, indidən qolları, sinəsi ətlənir.

Onlar yataqxananın qarşısında dayanmışdılar. Solmaz nədənsə, Umudu içəri dəvət eləmirdi. Umud bunu arzulamırdı da. Çünki girib-çıxan qızlardan utanırdı.

Solmaz məktubu qatlayıb ovcunda tutdu.

– Sağ ol, Umud, zəhmət çəkmisən, – dedi. Binanın tininə söykədilmiş motosiklə baxdı, amma, deyəsən, tanımadı.

Qız Umudun başı üstündən gözlərini səmaya dikib gülümsədi. Ancaq Umuda elə gəldi ki, qız zorla gülümsəyir, anasının Umud barədə yazdığı sözlərə görə gülümsəyir. Umudun bu təbəssümdən xoşu gəlmədi.

– Kəndə nə vaxt qayıdacaqsan, Solmaz?

– İyunun iyirmisində axırıncı imtahanımdı. Bu gün on beşidi... Beş gündən sonra... Papama deyərsən gəlsin, məni aparsın.

– Bəlkə məktub yazasan. Gözləyərəm burda.



– Yox, dil cavabı çatdırarsan.

Solmazın bir gözü yataqxananın qırmızı qapısında idi. Qız bir yanını qaçacaq qoymuşdu, amma yenə bayaqkı kimi gülümsəyirdi.

Umud düşünürdü ki, bu təbəssüm Solmazın özününkü deyil. Solmaz bu təbəssümü Əslinin məktubundan götürüb yapışdırıb sifətinə, Umud onun belə gülümsəməyini istəmirdi.

– Piri Patronu apardı azdırmağa... Daha Patron geri qayıda bilməz.

Solmaz yenə gülümsəyə-gülümsəyə Umuda baxdı və Umud qızın iri gözlərində səma boşluğu gördü.

– Hə, qayıda bilməz.

Umuda elə gəldi ki, Solmaz tələsik dediyi bu sözlərlə darıxdığını büruzə verdi. Qəribədir ki, bu an Umud da darıxdı və darıxmağına zərrə qədər də təəccüblənmədi.

– Mən gedim, – dedi.

Solmaz çiynini çəkdi:

– Bizimkilərə salam-dua söylərsən.

Kəhrəba motosikl yolu yarı eləmişdi. Kəndə yaxınlaşdıqca Umudun kefi durulurdu. Bayaq az qala itirdiyi ümid təzədən qəlbində dirçəlirdi. Son söz Əslinindir. Əsli Solmazı ona verəcək. Əsli Xalığı da yola gətirəcək. Bəs Solmaz? Piri deyir ki, Solmaz anasına ağ olmaz, anasının sözündən çıxmaz.

Umudun ürəyi şirin-şirin döyünməyə başladı. Umud xəyalında bir mağar qurdu. İşıqlı, uzun bir mağar. Kəndin bütün camaatını yığdı bu mağara. Kamranı da otuzdurdu lap baş tərəfdə, çalğıçıların yanında. "Yox, qoy orda dədəm otursun, ağsaqqaldı". Bu uzun, işıqlı mağarda bir vur-çatlasın başladı ki, gəl görəsən. Musiqi səsi ərşə qalxdı. Toybəyi adamları dartdı oynamağa. Camaat qol-qola verib yallı getdi. Bütün kənd səhərəcən dinclik bilmədi. Ortalığa çıxan ortalıqda oynadı, yerində oturan yerində dingildədi. Sübhə yaxın kimsə qışqırdı ki, "balam, ta bəsdi, qoyun indi də bəy özü oynasın, deyirlər, bəy öz toyunda oynayanda ucuzluq olur. Kim ucuzluq olmağını istəyirsə, əlini qaldırsın". Mağardakıların hamısı hər iki əlini qaldırdı. Umud yaman utanırdı, heç oynamaq istəmirdi. Çünki oynamağı bacarmırdı, oynayanda yaman gülməli görünürdü, qollarını tərpədəndə eynən çəyirtkəyə oxşayırdı. Amma əlac yox idi, bütün kənd oynamışdı, gərək Umud da oynayaydı. "Palaza bürün, elnən sürün" deyiblər. Sağ olmuş çalğıçılar bir yeyin hava çaldılar. Umud başını bulayıb dedi ki, bəs məni bağışlayın, mən yeyin havaya oynaya bilmərəm. Çalğıçılar ağır bir hava çaldılar. Umud bu dəfə də başını bulayıb dedi ki, bəs üzüm ayağınızın altında,

bu, arvad havasıdır, mən kişi ola-ola zənən havasına necə oynayım? Çalğıçılar pıçıldaşdılar, məsləhətləşdilər, təzə bir hava çaldılar. Umud gördü ki, bu hava sümüyünə yaman düşür, qol götürüb başladı oynamağa. Mağarda bir dövrə vurdu, iki dövrə vurdu, süzə-süzə gəldi qavalçalan oğlanın yanına. Elə süzə-süzə də ağzını oğlanın qulağına dirəyib dedi: "Qardaş, bu havanı mən birinci dəfədir eşidirəm. Sən canın, de görüm, bu havanın adı nədir?" Oğlan da qavalı çala-çala ağzını Umudun qulağına dirəyib dedi ki, vallah, bu havanın doğru-dürüst adını mən də bilmirəm, amma el içində buna deyirlər: "Özgə atına minən tez düşər". Umud fikirləşdi ki, bu hava yaxşı havadır, ürəyə yatandır, hayıf ki, adı sarsaq addır. Umud qohumlarını bir-bir qaldırdı. "Əhd eləmişəm, gərək toyumda cəmi qohum-əqrabaynan oynayam". Əvvəlcə atasıyla oynadı, sonra Kamranla. Kamranın balalarını da çəkdi ortalığa. Axırda baxıb gördü ki, ta mağarda qohum-filan qalmayıb. Ürəyindən keçdi ki, Solmaznan da oynasın, amma Solmaznan oynaya bilməzdi, çünki Solmaz bu dəqiqə gərdəyin dalında idi, ürəyi döyünə-döyünə Umudun yolunu gözləyirdi. Eh, bu kəndin də qəribə adəti var: gəlini adam içinə çıxmağa qoymurlar. Umud gördü ki, Porsuq Piri mağarın aşağı tərəfindən süzə-süzə onun üstünə gəlir. Umud dedi: "Mən qohumlarımnan oynamağa əhd eləmişəm. Sən niyə düşmüsən ortalığa?" Piri də cavab verdi ki, bu havanı mən düzəltmişəm, mən təşkil eləmişəm, indi sən mənim havamı oynayırsan. Cin vurdu Umudun başına: "Çıx, rədd ol burdan!" dedi. Bir ayrı cin də Pirinin başına vurdu. Piri mağarın ortasında dayanıb əllərini qaldırdı. Elə sakitlik oldu ki, "qu" deseydin, qulaq batardı. Pirinin səsi mağarda guruldadı: "Ay camaat, bu aşpazı mən kişi eləmişəm! İndi bu məni bəyənmir!"

Umudun xəyalındakı işıqlı, uzun mağar qəflətən qeyb oldu. Pirinin səsi onun qulaqlarında motosiklin gurultusuna döndü. Umud gördü ki, faranın sarımtıl işığı yolu güclə işıqlandırır. Motosikl bu çala-çuxur yolda elə sürətlə gedir ki, allah eləməmiş, təkərlər daş-kəsəyə toxunsa, Umud yıxılar, beyni burnundan gələr. Umud sürəti azaltdı.

Heç vaxt onun ürəyi belə şiddətlə döyünməmişdi. Umudun canını qəribə qorxu almışdı, ancaq bu qorxunun səbəbini aydınca dərk edə bilmirdi. Sərin meh sir-sifətini döyəclədikcə onun ağlı-huşu özünə gəldi. İçini sızıldadan o qəribə qorxunun səbəbini Umud anlamağa çalışdı: Solmazı itirmişdi, Solmaza olan məhəbbətini itirmişdi: birdən-birə, qəflətən. Daha onu qarşıda böyük, xoş əzablar gözləmirdi.

Umud özünü bir boşluqda, bir heçlikdə sandı. Qəhərlənə-qəhərlənə fikirləşdi ki, Solmaz doğrudan da onun arvadı ola bilər. Əsli öz qızını yola



gətirib onun evinə köçürə bilər. Ancaq belə asan məhəbbət Umudun nəyinə gərəkdir? Belə səadət buğlana-buğlana məcməyidə adamın qabağına gətirilmiş xörəyə bənzəməzmi?

Qurtardı! Hər şey qurtardı! Neçə ildən bəri Umudun ürəyini titrədən xoşqılıq hisslər də qurtardı! Umud indi içi boş, gövdəsi çürük bir ağacdır... Bütün günahlar Porsuq Piridədir! "Tutalım ki, Əsli mənim qayınanam oldu, Xalıq da qayınatam. Bəs onda Piri mənim nəyim olur?.. Solmazı alsam, Pirinin üzünə necə baxaram? Axı, Piri mənim..." Umud elə bil neçə günün qatmaqarışıq röyasından indicə ayıldı. İndicə başa düşdü ki, Porsuq Piri onun da şərəfini ayaqları altına salıb. "Atam düz demir. Dünyanın pis adamlara ehtiyacı yoxdur. Pislər düzləri də əyə bilərlər. Hər şeyi əyə bilərlər. Hətta, Yer kürəsini də".

Umudun üzü islanmışdı. Umud ağlayırdı, ancaq Umuda elə gəlirdi ki, onun gözlərini yaşardan sərin küləkdir. "Əgər o quyu olmasaydı. Dədəm o quyunu qazmasaydı... Quyunu doldurmaq lazımdır!.. Elə bu gecə... Bu saat..." Atasının sözlərini xatırlayanda Umud qərarından əl çəkdi. "Bu quyu məndən yadigar qalar. Dədən yadına düşəndə gəlib baxarsan. Balalarına da göstərərsən. Deyərsən, bu quyunu babanız qazıb".

Motosiklin sürətindən Umudun xəbəri yox idi. Umud yol-rizi görmürdü. Gözlərinin qabağında Xalığla Piri yan-yana dayanmışdı. Motosikl irəlilədikcə onlar da uzaqlaşırdılar. Umud onlara çatmağa tələsirdi. "Çox də məndən böyüksünüz! Çox da məndən güclüsünüz! Mən sizə göstərərəm! Göstərərəm! Göstərərəm!"

Faranın işığı hündür daş hasarın diş-diş divarına toxunub yayıldı. Divarın qəflətən ucaldığını, yaxınlaşdığını görəndə Umudun gözləri böyüdü. Motosikllə divarın arasında üççə addım yol vardı. Umud əllərini sükandan buraxıb özünü yerə atdı. Divardan gurultu qopdu. Dəmir danqıldadı, şüşə cingildədi, aləm qaranlığa qərq oldu.

Umud canındakı şiddətli ağrıdan huşunu itirhaitirdə bir səs eşitdi: daş hasarın o tərəfində, Xalıqgilin həyətində it hürürdü.

Deyəsən, Patron qayıdıb gəlmişdi.

*1976*

## DƏDƏ PALID

Kürün sağ yaxasında yaşıl zolaq kimi uzanıb gedən meşədə Bağır düz iyirmi il idi ki, gözətçi işləyirdi. Ən uca, ən qoca palıdın otuz-qırx addımlığında balaca bir koma qaralamışdı və Bağır bu komada olanda ən uca, an qoca palıdın hənirini eşidirdi. Hərdən Bağıra elə gəlirdi ki, bu meşədə qoca palıddan savayı acac yoxdur və Bağır iyirmi ildir ki, yalnız bu ağacın keşiyini çəkir.

Bağır bu palıdı hər gün görürdü; səhərdən axşamacan onun yanından bəlkə yüz dəfə ötürdü. Onun kölgəsində süfrə açırdı, dincəlirdi. Bürkülü gecələrdə bəzən elə buradaca – palıdın çətiri altındakı taxta çarpayıda yatırdı. Bu palıd Bağırçın dünyanın özü qədər qədim idi, əbədi idi. Bağır bu palıdın bozumtul, çat-çat gövdəsinə kürəyini bəlkə min dəfə, milyon dəfə söykəmişdi, ancaq elə bil palıdın təpəsinə baxmamışdı, fikir verməmişdi. Yəqin ki, baxmışdı, amma Bağır bu gün, bu yay səhərində gördüyünü əvvəllər görməmişdi.

Bu səhər də o biri səhərlərə oxşayırdı – yenə Günəş yavaş-yavaş dikəlirdi, yenə bürkünün nəfəsi duyulurdu və Bağır dirrikdə xiyar, pomidor dərirdi. Bağır balaca taxta yeşikləri doldurandan sonra yenə həmişəki kimi əllərini belinə vurub, nəfəsini dərdi. Mavi göyə baxdı, qıpqırmızı Günəşə baxdı və yenə ona elə gəldi ki, Günəş meşənin ayağındakı ağacların dibindən qalxır. Sonra Bağırın nəzərləri qoca palıdın təpəsinə ilişdi və Bağır əlləri elə belindəcə donub qaldı. "Bu nə vaxtdan başlayıb qurumağa?" Bağır zəndlə baxdı və gördü ki, budaq sınmayıb, əyilməyib, budaq dümdüz dayanıb, sapsarı yarpaqlar da üstündə. Altı unlu kimi görünən yaşıl yarpaqların arasında bir süpürgə boyu sünbülü budaq dayanmışdı, elə bil özgə ağacın budağı idi, sonradan bənd eləmişdilər bura. Bağır Günəşin şəfəqindən qızılıya çalan yarpaqlara baxdı, baxdı və hiss elədi ki, ürəyi bərk-bərk çırpınır, içini yavaş-yavaş qorxu bürüyür. "Bu nədi, Dədə palıd, yoxsa can verirsən? Yoxsa ölməyə hazırlaşırsan? Amandır, bərk dur, sən də əcələ macal verəndən sonra day bu dünyada güvənməli nə qalır?"

Bağır köməyə adam axtarırmış kimi əlləri belində qanrılıb geri baxdı, xeyli aralıda, üzü Kürə tərəf dayanmış Nurcabbarın uzun, şüy qamətini gördü. Nurcabbar tərpənmirdi, elə bil qurumuşdu, elə bil



şalvar-köynəyə salınmış şalban ili, basdırılmışdı sahildə. Nurcabbarın başı da köynəyi rəngində – ağımtıl idi və ağımtıl köynəklə ağımtıl baş arasında onun kösövə dönmüş boynu qaralırdı. Bağır bilirdi ki, bu dəqiqə Nurcabbardan haray gözləmək, Nurcabbarla kəlmə kəsmək müşkül məsələdir, çünki Kürlə üzbəüz dayananda Nurcabbarın ağlı-huşu özündə olmur, balaca, qıyıq gözləri Kürün boz-bulanıq, lal-dinməz suyundan başqa heç nə görmür.

Bağır təzədən dönüb palıdın təpəsində saralan yarpaqlara baxdı, ancaq yarpaqlar barədə fikirləşmədi, Nurcabbar barədə fikirləşdi: "Bu kişini niyə belə xəlq eləmisən, fələk? Yaşı altmışı addıyıb, di gəl ki, ağlı uşaq ağlıdı. Nurcabbar o suda nə görür, o suya nə deyir? Nə var axı orada? Suyu da axır. Nurcabbar bu dünyaya gəlməmişdən də Kür beləcə axırdı. Nurcabbar bu dünyadan köçəndən sonra da beləcə axacaq. Adam suya nə qədər tamaşa eləyər?"

Üç ildən çox idi ki, Nurcabbar bu meşədə işə düzəlmişdi, Bağır kimi gözətçi idi (hərçənd iki gözətçiyə ehtiyac yox idi burda).

Bura ayaq basandan bəri elə gün olmazdı ki, Nurcabbar Kürün qırağında dayanıb fikrə getməsin. Əvvəllər ancaq şər qarışanda gedirdi çayın sahilinə, Piti Namaz bu meşədəki balaca dirriyə dadanan gündən Nurcabbar səhərlər də gedirdi Kürə baxmağa. Səhər tezdən Piti Namazın furqon "Moskviç"i dirriyin böyründə dayanan kimi Nurcabbar yollanırdı Kürə tərəf və Bağır başa düşürdü ki, Nurcabbar Piti Namazla üz-üzə gəlmək istəmir, Nurcabbarın Piti Namazdan zəndeyi-zəhləsi gedir. Bunu, deyəsən, Piti Namaz da başa düşürdü, ancaq özünü o yerə qoymurdu.

Bağır gözlərini sapsarı yarpaqlardan çəkib yana baxdı. Gördü ki, Piti Namaz xiyar-pomidor yeşiklərini səliqə-sahmanla yığır maşının banına. Bağır elə-belə baxırdı Namaza, fikri quru budağın yanında idi və deyəsən, Namaza çox baxmışdı, zəndlə baxmışdı, çünki özünə gələndə gördü ki, Namaz da ona zəndlə baxır. Namazın sifəti, boyunboğazı tər içində idi, qaşlarında, kirpiklərində də tər işıldayırdı və tər muncuqlanan kirpiklərinin arasında gözləri gülümsəyirdi. Namazın gülümsəyən gözlərinə baxa-baxa Bağır istədi desin ki, palıd quruyur, bala, palıda azar dəyib. Bağır bilirdi ki, Namaz, Dədə palıdın dərdinə əlac eləyən deyil. Dədə palıdın ölməyi Namazın nə vecinə? Dədə palıd bu dəqiqə kökündən qopub yerə sərilsə, Namaz "uf" da deməz. Bağır bunu ovcunun içi kimi bilsə də, istəyirdi kiminləsə danışıb,

bayaq ürəyinə dolmuş xofu yüngülləşdirsin. Namaz daş deyil, ağac deyil, adamdı, ürəyi var, gözləri var, qulaqları var, heç olmasa, başını bircə dəfə qaldırıb Dədə palıdın qurumuş budağına baxar, yalandan da olsa, vaysınar. Bağır ağzını doldurdu ki, desin: "Namaz bala, Dədə palıd köçür dünyadan", amma demədi, deyə bilmədi. Namazın işıldaq gözlərindəki təbəssümdən birdən-birə elə qorxdu ki, söz boğazına balıq sümüyü təkin tıxanıb qaldı. Bu baxış, bu təbəssüm Bağıra tanış idi. Keçən ilin yayında da Namaz eynən belə zəndlə baxmışdı Bağıra, eynən belə bic-bic gülümsəmişdi və bic-bic gülümsəyən gözlərinin altı eynən belə qırışmışdı. "Bağır dayı, gəlsənə məhləni satasan mənə, – demişdi. – Ev-eşik nəyinə lazımdı, onsuz da meşədən çıxmırsan". Və onda Bağır Namazın sözlərindən yox, bic-bic gülümsəyən gözlərindən xoflanmışdı. Bağıra elə gəlmişdi ki, bic təbəssümdən az qala partlayan bu işıldaq gözlər onu əridə bilər, yandıra bilər, ovsunlaya bilər və Bağır özünə gələndə görər ki, ata-baba məhləsi əldən gedib. Bağır qurdnan qiyamətə qalmayacaq ha, vaxt yetişəndə o da öləcək. Bəs onda yurdsuz Bağırın cənazəsini hardan götürəcəklər, camaat hara yığışacaq? Bağırın cənazəsini hardan götürəcəklər, camaat hara yığışacaq? Bağırın dalınca hansı damın altında ağı deyib ağlayacaqlar? Bağır niyə meşədə ölsün axı, fil deyil, ayı deyil, canavar deyil, adamdı. Bir də ki, Bağır kimsiz-kimsəsizdi, bəyəm? Bakıda qızı var, nəvəsi var, kürəkəni var. Bağır evi, məhləni necə sata bilər?

Onda Bağır heç nə deməmişdi Piti Namaza, elə beləcə, çarəsiz gülümsəmişdi, ancaq necə gülümsədiyindən xəbəri olmamışdı. Əgər Bağır gendən özünə baxa bilsəydi, görərdi ki, gülümsəyəndən çox, ağlamsınana oxşayır, görərdi ki, yanaqları iflic vurmuş adamın yanaqları təkin səyriyir, dodaqları dartılır. Amma, deyəsən, "məhlə" söhbətinə xitam vermək üçün kişinin yanaqlarının səyriməyi, dodaqlarının dartılmağı kifayət eləmişdi, çünki Bağırın yanaqları səyriyəndən sonra Namaz heyrətli bir şeyə baxırmış kimi donuxub qalmışdı, daha sözün ucundan tutub ucuzluğa getməmişdi.

Bəs Namaza indi nə olub görəsən? Niyə gözlərini çəkmir Bağırdan? Namazın içində nə var ki, bəbəkləri belə parıldayır?.. Palıd da, budaq da yadından çıxdı Bağırın. Bədəni gərilib ağaca döndü, qulaqları şeşələndi və Bağır fikirləşdi ki, bu dəqiqə Namazın səsini eşidəcək: "Bağır dayı, gəlsənə məhləni satasan mənə?" Bağırın qulaqları gözlədi, gözlədi, gərginlikdən uğuldadı və Bağır hiss elədi ki, day qulaqları söz



eşidəcək halda deyil, lap yanında top atsalar da xeyri yoxdu. Namaz insafsız da nə dinirdi, nə gözlərini çəkirdi, elə boyun-boğazının tərini iri yaylıqla silə-silə Bağıra baxıb gülümsəyirdi, sanki Bağırın səbrini, dözümünü yoxlayırdı.

Axırı ki, Namaz nəzərlərini kişidən yayındırdı; gülümsəyə-gülümsəyə yaylığı şalvar cibinə basdı, gülümsəyə-gülümsəyə əyilib pomidor yeşiyini qaldırdı, gücə düşüb boyun-boğazının damarları şişəndə də gülümsəməyindən qalmadı.

Bağırın içini bürümüş xof çəkilib getdi, o xofun yerini adamı bizləyən, neştərləyən bir nigarançılıq tutdu. Bağır inanırdı ki, Namaz boş-boşuna gülümsəyən deyil, Namazın yəqin niyyəti var. Bəs niyə dillənmir görəsən? "Məhləni sat", desəydi, min pay bundan yaxşı idi, vallah, billah yaxşı idi, heç olmasa adam bilərdi ki, Namazın ürəyində dolaşan nəymiş, gözlərini parıldadan nəymiş. İndi gəl, baş aç bundan.

Bağır nigarançılıqdan üzülə-üzülə komaya tərəf getdi. Gedə-gedə Kürün qırağına nəzər saldı. Odey, bəxtəvər Nurcabbar sancılıb qalıb orda, səhər-səhər Namazın nə üzünü görür, nə də bic-bic gülümsəyən gözlərini. Bir də ki, Nurcabbarın Piti Namazla nə alıb-verəcəyi? Piti Namaz Nurcabbarın məhləsinə tamah salmayıb ha. Heç tamah salmazdı da, çünki Nurcabbarın evi Namazın evindən çox uzaqda idi. Ev də nə ev? Nurcabbarın çiy kərpicdən tikilmiş bir daxması vardı, aylarla kandarına ayaq basmazdı, çal-çəpərsiz həyəti vardı; çayırın, sarıtikanın, şax-şəvəlin əlindən həyətdə bir qarış da torpaq görünmürdü. Daxmasının içində fəqli bir şeyi də yox idi fağırın. Nurcabbarın koması, çayırlı-tikanlı məhləsi Piti Namazın nəyinə lazım idi? Nurcabbar o yurdu havayı versəydi də, Namaz ona yaxın durmazdı. Amma Bağırın qırmızı kərpicdən tikilmiş kürsülü evində də, səliqə-səhmanlı, bağ-bağçalı həyətində də Namazın gözü vardı. Qapıbir qonşu idilər, aralarından ensizcə barı keçirdi. Bağırın həyətindəki tut ağacının bir yoğun budağı Namazın həyətinə sallanmışdı, budaqdakı tutun dəymişi də, kalı da Namazgil tərəfə tökülürdü. Namaz da həyətin hansı bucağında manqal qoyub kabab bişirsəydi, ağımtıl tüstü burula-burula, sallana-sallana düz Bağırın evinə gəlirdi, qapı-pəncərədən içəri dolurdu və otaqdakı mitil-şitilə, bütün əşyalara kabab iyi hopurdu. Bağır evdə az-az olurdu; həftədə-ayda bir dəfə gəlirdi və qapını açıb otağa girən kimi burnuna kabab iyi dəyirdi. Onda Bağır çıxıb artırmada dayanırdı. Namazın şüşəbəndli, şiferli evinə, gen-bol həyətinə acıqlı-acıqlı baxırdı. Sonra

aradan keçən ensizcə barıya baxırdı və qorxurdu ki, günlərin bir gündə Namaz bu barını sinəsiylə itələyib uçurda bilər, çünki Namazın özündən kiçik, evlənməli qardaşı vardı, bu qardaşa həyət-baca lazım idi, ev-eşik lazım idi. Yaxşı qardaşı Namaz özündən niyə uzağa buraxsın? Yaxşı qardaş dar gündə adama dayaqdı, həyandı, arxadı. Kiçik qardaş, Namazın kababxanasında işləyirdi, gəlir-çıxarları bir idi, bəs dərd-sərləri niyə bir olmasın? Onun həniri, kölgəsi buna lazım idi, bunun həniri, kölgəsi ona. Bağır bu "hənir-kölgənin" ona yetirəcəyi sədəmədən qorxurdu, günlərin bir günündə Namazın barını sinəsiylə uçurda biləcəyindən qorxurdu, ən çox da Namazın bic-bic gülümsəyən gözlərindəki ovsundan qorxurdu.

Komanın qabağındakı iri, dəyirmi kötüyün üstündə oturan kimi Bağırın yadından Piti Namaz da çıxdı, Piti Namazın qardaşı da. Cəhənnəm olsun hamısı! Dədə palıdın ürəyinə xal düşüb, Dədə palıd göz görə-görə quruyur burda – dərd budu, müsibət budu. Bağır bu meşədə ağacların qurumağını çox görmüşdü, nə qədər quru ağac kəsmişdi, doğramışdı, ancaq Dədə palıdın nə vaxtsa quruyacağını indiyəcən ağlına da gətirməmişdi. Bağır Dədə palıdı bu meşənin ulu əcdadı hesab eləyirdi, fikirləşirdi ki, bu meşənin bütün ağacları Dədə palıdın törəmələridi – balaları, nəvələri, nəticələri, kötükcələridi. İndi bu törəmələr lal-dinməz dayanıb Dədə palıdın qurumağına arın-arxayın necə baxırlar? Niyə saçlarını yolmurlar, niyə haray-həşir qopartmırlar? Bəs Nurcabbar niyə dayanıb Kürün qırağında? Dədə palıdın dərdindən niyə xəbərsizdi? Bu palıda "Dədə" adını o qoyub axı? Onda Nurcabbarın sözləri də, hərəkəti də Bağıra qəribə gəlmişdi, gülməli gəlmişdi. Nurcabbar meşəyə qədəm basdığı gün qoca palıdın dibində çöküb, üzünü onun gövdəsinə sürtəndə Bağır elə bilmişdi ki, kişi havalanıb, ancaq havalı adam belə eləyə bilərdi, havalı adam belə sözlər deyə bilərdi: "Ululardan ulusan, dədə! Bəlkə də dünyayla yaşıdsan. Bu obadakı ağacların başı sənin əllərinin altındadı. Böyüksən, ağsaqqalsan, səxavətlisən! Həm zəhmli, həm mehribansan! Mən, Nurcabbar bu gündən sənin adını "Dədə" qoyuram. Yaşa, Dədə palıd, yaşa! Kölgəni üstümüzdən əskik eləmə!" Görəsən, Nurcabbar bilirmi ki, yarım ildən, bir ildən sonra Dədə palıdın kölgəsi olmayacaq?

Palıdın təpəsindəki sapsarı yarpaqlara baxa-baxa Bağır özünü inandırmağa çalışdı ki, nahaq yerə qorxuya düşüb, Dədə palıd ölməyəcək. Bir budaq qurumaqla ağac da ölərmi? Bir budağı, beş budağı,



lap yarısı olmasa da yaşayar Dədə palıd. Dədə palıdın canı onun gövdəsindədi, kökündədi... Bağır gözlərini Dədə palıdın cadar-cadar gövdəsinə zilləyib rahat nəfəs aldı. "Yaşa, Dədə palıd, yaşa! Kölgəni üstümüzdən əskik eləmə!"

Dədə palıd ölsə, bütün meşə yetim qalacaq, ağaclar bu dərdə, bu xiffətə dözməyəcəklər. Bağır belə fikirləşdi və özü də başa düşdü ki, bu fikri gülməli fikirdi. Bağırın ömrü bu meşədə keçib, amma Bağır bir-birinin "dərdindən" ölən ağac görməyib. Ağacların öldürüldüyünü görüb, çox görüb. Bu meşədə nə qədər ağac vardı, fələk? Bu meşə nə boydaydı? Ağaclar o qədər sıx idi ki, bura gün işığı düşmürdü. Burda palıd da vardı, qovaq da vardı, qarağac da vardı, çəkil də...

Bağır lap cavanlıqdan bu meşəyə bələd idi. Bura ova gələrdi. Meşənin ayağındakı taladan qırqovul vurardı, turac vurardı. Onda Bağır pambıq məntəqəsində fəhlə işləyirdi. Bir gün hiss elədi ki, pambıq tayasının üstündə darıxır, hiss elədi ki, meşənin sərinliyi, sakitliyi üçün burnunun ucu göynəyir. Bağır yaba götürüb pambıq tayalayırdı, ancaq fikri bu ağ tayadan çox uzaqda idi; gözlərinin qabağında Kürün yaxasına sinmiş yamyaşıl meşə dayanırdı, qulaqlarına quşların səsi, yarpaqların xışıltısı gəlirdi. Həmin gecə Bağır meşəni yuxuda gördü. Gördü ki, Kür ahəstə-ahəstə şırıldayıb meşəyə layla çalır, quşlar lal-dinməz dayanıb Kürün zümzüməsinə qulaq asır, özü də Bağırdan qətiyyən hürkmürlər, qaçmırlar. Bağır küreyini çətirli bir palıdın yoğun gövdəsinə söykəyib durmuşdu, tüfəngi də uzatmışdı qıçlarının arasına. Bağır gördü ki, zümrüd quyruğu yerlə sürünən kəkilli bir qırqovul dayanıb onun yanında. Qırqovul əvvəlcə tüfəngin qundağını dimdiklədi, sonra ala-bəzək sinəsini Bağırın qıçına sürtdü, sonra da başını Bağırın dizinə qoyub, yarpaqların xışıltısına qulaq asa-asa yuxuya getdi. Bağır qırqovulun ipək qanadlarını tumarlaya-tumarlaya: "yat, bala", – dedi, üzünü yuxarı – palıdın çətirinə tutdu, o dəqiqə də burnuna qızılgül iyi dəydi. Bağır gözlərini yumub, dərin-dərin nəfəs aldı, qızılgül ətirli yumşaq, sərin mehi ciyərlərinə çəkdi. Sonra dizinin üstündə yuxulayan zümrüd quyruqlu qırqovula nəzər saldı, gördü ki, qırqovul deyil bu, özünün dünyadan köçmüş ilk övladı – beşyaşlı Nazlıdı, di gəl, Nazlının nəfəsi yoxdu, Nazlı ölüb. Bağırın dodaqları titrədi, ancaq Bağır ağlaya bilmədi, çünki bir vaxtlar Nazlının dalınca o ki var ağlamışdı, indi Bağırın gözlərində bir damcı da yaş qalmamışdı... Bağır çətirli palıdın altında balaca bir qəbir qazdı. Qəbri qazanda da qızılgül ətri Bağırın burnundan

getmədi, Kürün zümzüməsi, yarpaqların xışıltısı qulaqlarında bitməz-tükənməz uğultuya döndü. Çətirli palıdın altında bapbalaca qəbir dikəldi. Bağır ilk övladını ikinci dəfə yuxuda basdırdı. Sonra gördü ki, burda iri bir qəbir də var, bu iri qəbir arvadı Qələmin qəbridi. Bağır qəbirlərin arasında oturub fikrə getdi və Bağırın kədərinə qızılgül ətri qarışdı, Kürün, meşənin həzin nəğməsi qarışdı.

Səhərisi gün pambıq tayasının üstündə də qızılgül ətri Bağırın burnundan getmədi. Bağır başa düşdü ki, daha pambıq məntəqəsində dözüş gətirə bilməyəcək...

Bağır meşə gözətçisi oldu. Səhərdən axşamacan meşəni dolaşıb, evə yorğun-arğın dönürdü. Bir aydan sonra Bağır hər gün evə qayıtmaqdan bezikdi. Fikirləşdi ki, meşənin nəyi pisdir evdən? Burda da yaşamaq olar. Evə həftədə, ayda bir dəfə baş çəksə, bəsdi. Nə var axı, kənddə-kəsəkdə?.. Və Bağır kənddən-kəsəkdən ayağını kəsdi. Qollu-budaqlı palıdın qənşərində bir koma tikdi. Bu həmin palıd idi ki, Bağır onu yuxuda görmüşdü, yuxuda arvadının da, qızının da qəbrini bu palıdın dibinə köçürmüşdü. Bu, həmin palıd idi ki, sonralar Nurcabbar ona ad qoymuşdu: "Dədə".

Bağır bu meşənin bəxtəvər günlərini görmüşdü. Burda adam itiyini də tapa bilməzdi. Burda ağaclar vardı, arxasında beş enlikürək oğlan gizlənərdi. Burda quşlar vardı, hərəsi bir meşənin yaraşığı. İndi hanı o ağaclar, hanı o quşlar?

Bağır bir vaxt gözlərini açıb gördü ki, Kürün sahilində ensiz bir meşə zolağı qalıb, gördü ki, meşənin səsi azalıb, daha burda quşlar oxumur, təkəm seyrək ağaclar daha əvvəlki kimi pıçıldaşmır. Meşə nəfəsini udmuşdu, daha meşədən qızılgül ətri gəlmirdi. İndi Kür də səngimişdi, daha dalğalı diliylə sahili yalamırdı. Kür susmuşdu. Kür küsmüşdü. Kür bu yerlərdən asta-asta, oğrun-oğrun keçirdi, çünki Kürün hənirini səsə göndərən, avaza döndərən ağaclar yox idi.

Sonra rayondan azacıq aralıda təzə meşə zolağı saldılar. Körpə-körpə ağaclar əkdilər orda. Bağır iki ayağını bir başmağa dirəyib yerindən tərpənmədi, təzə meşəyə köçmədi. "Qoyun burda qalım – qoyun burda ölüm", – dedi...

Bağır fikrini dədə palıddan yayındıra bilmədi. Bağırın nəzərləri ilişib qaldı sapsarı yarpaqlarda. Bağır baxdı, baxdı və birdən Dədə palıd ona təpədən-dırnağa sapsarı göründü. Bu sarılıqdan Bağırın gözləri qamaşdı. Bağır gözlərini yumub:



– Lənət şeytana, – dedi.

O dəqiqə də xırıltılı bir səs eşitdi:

– Şeytanda nə günah var, əşi?

Bağır bu səsdən diksinib gözlərini açdı. Nurcabbarın özündən əvvəl uzun, nazik kölgəsini gördü. Kölgə tərpəndi, soluxmuş otların üstü ilə süründü, sonra yaxınlıqdakı ağacın gövdəsinə dirəndi.

Nurcabbar Bağırla üzbəüz quru yerdəcə oturub, paya kimi dikələn dizlərini qucaqladı. Uzun-uzadı sorğu-suala başlayacaqmış təkin yerini rahatladı, balaca başını irəli uzatdı, xırda gözlərini Bağırın üzünə zillədi:

– Şeytana niyə lənət oxuyursan? – dedi.

Sarı pərdə Bağırın gözlərindən hələ tamam çəkilməmişdi, ona elə gəlirdi ki, içini də, çölünü də sarılıq bürüyüb və onun sapsarı saraldığını yəqin ki, Nurcabbar görür. Bağır gözlərini tez-tez qırpdı və bu dəfə meşəni də, Nurcabbarı da öz rəngində gördü. Yenə Nurcabbarın xırıltılı səsini eşitdi:

– Şeytanda nə günah var? Şeytan sənə neyləyib?

Bağır başını bulaya-bulaya:

– Heç, – dedi, – Dədə palıd quruyur.

Bağır gözləyirdi ki, Nurcabbar bu xəbərdən diksinəcək, heyrətlənəcək, amma Nurcabbarın tükü də tərpənmədi. Nurcabbar Dədə palıda gözünün ucuyla da baxmadı. Nurcabbarın tükü də tərpənmədi, Nurcabbarın biganəliyindən Bağır baş aça bilmədi, onun uzun, kösöv boynuna, almacıq sümükləri dikəlmiş tunc üzünə baxdı. Bağırın ürəyinin dərinliyində sarı bir sim incik-incik titrədi: "Qəribə adamdı Nurcabbar. Qanadıqırıq sərçə görəndə ağlamsınır, amma Dədə palıdın şikəstliyi vecinə döyül. Bəs Dədə Palıdın qabağında diz çökən bu döyüldümü? "Uludan ulusan" – deyən bu döyüldümü? Nooldu bəs? Özü də adını yazan qoyub. Bir sandığı cızma-qaraynan doldurub. Yoox, bunun yazdıqları bir qara qəpiyə dəyməz. Yazan adamın ürəyi köyrək olmalıdı". Bağıra elə gəldi ki, bayaq dediklərini Nurcabbar eşitməyib. Səsini bir az qaldırdı:

– Dədə palıd quruyur, – dedi.

Nurcabbar uzun qollarıyla paya qıçlarını qucaqlayıb bədənini yırğaladırdı. Dinmirdi, danışmırdı, elə bil Bağırı intizar içində üzmək istəyirdi. Bağır incik-incik soruşdu:

– Karsan?

Nurcabbar bədənini yırğalaya-yırğalaya başını qaldırıb göyə baxdı, seyrək tüklü, sivri çənəsini tərpətdi, dodaqlarının arasında nəsə pıçıldadı,

sonra xırda gözlərini Bağırın üzünə zilləyib gülümsədi, bədənini yırğalaya-yırğalaya:

– Özün şeytan ola-ola, şeytana lənət oxuyursan? – dedi.

Bağırın qalın, qıvırcıq qaşları dartıldı, alnındakı dərin qırışlar tərpəşdi. Bağır matı-qutu qurumuş halda:

– Şeytan niyə oluram? – dedi və ağzı açıla qaldı, sanki dili pörşələnmişdi, dilini havaya verirdi.

Nurcabbar qıçlarını uzadıb dirsəkləndi, köynəyinin altında çiyninin sümüyü dombalıb yumruq kimi dayandı. Qulağının dibindən boynunun kökünəcən göyümtül bir damar buğum-buğum qabardı. Bağıra elə gəldi ki, Nurcabbar beşcə dəqiqə bu vəziyyətdə dirsəklənib qalsa, boynunun göyümtül damarı partlayacaq. Fikirləşdi ki, Nurcabbarın canında bircə qram da ət yoxdu, zalımın balası başdan-ayağa sümükdü, damardı. Qıçları paya, qolları quru ağac, sinəsi taxta, boynu dəvə boynu... Belə də adam olar, belə də can-cəsəd olar? Pərvərdigara bunu nə deyib yaradıb? Qurban olduğum ətini-qanını niyə əsirgəyib bundan? Barmaqlarına bax bunun, qarğıya oxşayır.

Bağırın heç ağlına da gəlməzdi ki, bu dəqiqə Nurcabbar da onun yan-yöndəminə fikir verir. Nurcabbar fikirləşirdi ki, görəsən qolları niyə gödəkdi bunun. Bir belə işləməyin qabağında gərək Bağırın qolları uzanıb dizlərinə çataydı. Bu adam səhərdən axşamacan dinclik bilmir, yanını yerə qoymur. Dirriyə də bu baxır, inək-camışa da, qoyunlara da, pətəklərə də. Özü də arıya oxşayır – bal arısına. Bəlkə işləməkdən bu kökə düşüb Bağır? Qıçları bedahat əyridi fağırın – elə bil iki orağı üz-üzə qoyublar. Qıçlarını birləşdirəndə arasından dovşan keçə bilər, lap tülkü də keçə bilər. Amma canı buz baltasıdır elə bil. Azar-bezar tanımır. Buna bax, yanaqlarından qan damır zalımın. Qarnıfilanı da möhkəmdi. Bir oturuma dörd adamın payını yeyir. Mədəsinə çınqıl da atsan, əridər. Nurcabbar Bağırın açıla qalmış ağzına baxa-baxa belə fikirləşirdi. Bağır da Nurcabbarın yuxa qulağının dibindən boynunun kökünəcən uzanan buğum-buğum damara baxa-baxa fikirləşirdi ki, görəsən Nurcabbar məni niyə şeytana oxşadır.

İndi Bağırın ürəyini nigarançılıqdan çox, adamı təntidən bir maraq bürümüşdü.

– Deyirsən, şeytanam da mən?

Nurcabbar üzünü göyə tutub, kəlmələri çeynəyə-çeynəyə:

– Şeytan olmasan da, şeytan kimi bir şeysən, – dedi.



Bağır tələsik soruşdu:

– Niyə axı?

Nurcabbar dirsəkləndiyi yerdən dikəldi, elə qəfil, elə tələsik dikəldi ki, bədəninin harasındasa sümük zərbə düşüb şaqqıldadı və bu şaqqıltının dalıycan Nurcabbarın acıqlı-gileyli səsi eşidildi.

– Sən burda dirrik əkməsəydin, Namaz qoduq bu meşəyə dadanmazdı. Namazın ayağı dəyən yer qurumalıdı, küllü-küf olmalıdı... Dirriyin qırağındakı "Moskviç"ə başıyla işarə elədi. – Səfasın o görür, cəfasın sən çəkirsən.

Nurcabbarın bu tənbehindən Bağır çaş-baş qaldı. Məgər Nurcabbar bilmir ki, Bağır bu dirriyi öz xoşuyla salmayıb? Bu qədər pomidor, xiyar, göy-göyərti Bağırın nəyinə lazımdı? Məgər Nurcabbar bilmir ki, bu meşənin böyüyü var, bu dirriyin yiyəsi var? Bağır nəçidi, nəkarədi ki, onun sözündən çıxsın? Bağırın borcu İdrisovun dediyinə əməl eləməkdi, çünki bu meşənin pisinə də, yaxşısına da cavabdeh İdrisovdur. İdrisov istəsə burda bostan əkdirər, istəsə ağac kəsdirər, istəsə Kürün ağzını bura döndərər, istəsə Bağırı da, Nurcabbarı da bir günün içində işdən çıxardar. Yəni Nurcabbar bilmir bunu? Lap yaxşı bilir. Bilir ki, bu meşədə səhərdən axşamacan kövşək vuran on səkkiz qoyunun dördü Bağırındı, on dördü İdrisovun. Üç inəyin biri Bağırındı, ikisi İdrisovun. Bu meşədə bircə camış var, o da İdrisovundu, Bağırın camışı yoxdu. On iki bal yeşiyinin ikisi Bağırındı, onu İdrisovun. Dirrik də onundu a kişilər. Nurcabbar bunu bilə-bilə günahı niyə Bağırın boynuna qoyur? Elə bu dirrik söhbəti Nurcabbarın öz gözünün qabağında olmalıdımı? Nurcabbarın qulağı eşidə-eşidə İdrisov dedi ki, bu talada dirrik əkin, hökumətdən icazə almışam. Dedi, əkin, siz də yeyin, mən də yeyim, dirriyin bizə nə ziyanı var. Bir kilo pomidordan ötrü bazara niyə gedək, – dedi. Toxumu da, şitilləri də İdrisov özü gətirdi. Pis adam döyül bu İdrisov, əşi, vallah pis adam döyül. Meşəyə də can yandırır, bizə də. Üzüyumşaq müdirdi, adam onun üzünün yumşaqlığından keçə bilmir, "öl" desə, məcbursan yıxılıb qabağında öləsən. Day biz hardan biləydik ki, Piti Namaz bu meşəyə ayaq açacaq, hər səhər dirriyin xırını seçib-seçməliyib aparacaq öz kababxanasına. İdrisov bu dirriyin xiyar-pomidorunu Piti Namaza satır, satsın də. Bizə nə var, öz payını satır. Bəs İdrisov neynəsin? Axı, atalar deyib ki, "bal tutan barmağını yalayar".

Yadına Barmaq düşəndə Bağır Nurcabbara hiss elətdirmədən, nədənsə öz barmaqlarına baxdı. Barmaqları gödək idi, çat-çat idi, bar-

maqları düz dayanmırdı, yumulmağa bənd idi. Əllərinin içində ağ-çəhrayı düyünlər vardı, əllərinin içi aşılanmış gönə oxşayırdı. Birdən-birə bu düyünlər geyişdi, göynədi və Bağır başladı sağ ovcunu qaşımağa, ancaq dırnaqları elə bil daşı cırmaqlayırdı, ağacı cırmaqlayırdı, – elə bil bu ovuc Bağırın özününkü deyildi, onun bədənindən, əzalarından ayrı bir şey idi. Bağıra elə gəldi ki, bu dəqiqə yekə bir közü götürüb ovcuna qoysa, ovcu yanmaz, ağrımaz. Bağır indicə anladı ki, talada dirrik salana qədər əlləri belə deyildi. Gör nə qədər torpağı Bağır təkbaşına təpdi? Belin sürüşkən sapı əllərinin içini yandırırdı, zoqquldadırdı. Ləkləri hazırlayıb qurtaranda, Bağırın əllərinin içi suluq atmışdı, amma bu ağrıya, bu göynərtiyə məhəl qoymamışdı Bağır. Bağır indi əlləri zoqquldaya-zoqqulaya fikirləşirdi ki, bu Nurcabbar nə təhər adamdı, nə təhər yoldaşdı? O vaxt bircə dəfə də köməyə gəlmədi, bir belin ağzı qədər torpaq çevirmədi, yerə bircə şitil də basdırmadı. Səhərdən axşamacan Dədə palıdın kölgəsində oturub kağız-kuğuz qaraladı. A kişilər, bunun yazdıqları kimə lazımdı, kimdən ötrü yazır bu? Vallah, billah, bundan şair olmaz, alim olmaz. Şairin meşədə nə iti azıb? Avaranın biridi bu Nurcabbar. İdrisov olmasaydı, kim bilir, indi harda veyllənirdi. Qurban olsun İdrisova, bunu meşəyə gözətçi qoyub, bağladı mənim qıçıma. Gərək Nurcabbar başa düşsün ki, meşə də İdrisovundu, meşənin içindəkilər də. Onun sözünün qabağına çöp salmağa bizim haqqımız yoxdu.

– Dirriyi İdrisov əkdirib, – dedi.

Nurcabbar elə bilirdi ki, "dirrik" söhbətinə son qoyulub, elə bilirdi tənbehi Bağırın ağlına batdığı üçün Bağır susur. Nurcabbar da bayaqkı sözlərini unudub sakitləşmişdi, ancaq Bağırın handan-hana cavab verməyi Nurcabbarı təzədən qızışdırırdı.

– Bura bax, ə, – dedi. – İdrisov əmr eləsə ki, özünü Kürə at, atarsan?

– Əgər lazımdırsa, niyə atmıram? – dedi və gördü ki, Nurcabbar yenə hirsli-hirsli nəsə demək istəyir, Nurcabbara ağzını açmağa macal vermədi. – Bəs bu dirriyin xiyar-pomidorundan özün niyə yeyirsən? – dedi. – Heylə ki, xoşuna gəlmir, yemə də.

– Sənin payından yeyirəm, – dedi. – Sənin kimi ayının qazandığını yemək halaldı.

Bağır başını bulayıb gülümsədi.

– Bilmirəm büyün saa nolub? – dedi. – Adımı gah şeytan qoyursan, gah ayı qoyursan. Axı səndən iki yaş böyüyəm, ay şair.



Bağır ömründə birinci dəfəydiki, Nurcabbara "şair" deyirdi və güman eləyirdi ki, bu söz Nurcabbarın ürəyinə sarı yağ kimi yayılmalıdı, ancaq, deyəsən, "şair" sözü Nurcabbarın xoşuna gəlmədi. Nurcabbar üz-gözünü turşutdu.

– Mən şair döyüləm, – dedi. – Şeir yazana şair deyəllər.

– Bəs sən nə yazırsan?

– Dastan yazıram, nağıl yazıram.

Bağır köks ötürdü.

– Nə bilim, əşi, hansınıza nə deyillər.

Nurcabbar da köks ötürdü.

– Hardan biləsən, – dedi. – Ömründə bircə kitab varaqlamamısan.

– Nə təhər varaqlayım? Adımı gücnən yazıram. Bir də, ay pir olmuş, bu meşədə yazıb-oxumaq mənim nəyimə gərəkdi? Meşəyə ki, girdin, oldun bax, – yaxınlıqdakı palıdı göstərdi, – bu ağacın tayı.

Nurcabbar təzədən ayaqlarını uzadıb dirsəkləndi.

– Qoçaq adamsan, Bağır, buna sözüm yoxdu, – dedi. – Amma sənə yazığım gəlir.

...İndi də yazıq oldum?

Nurcabbar, deyəsən, Bağırın sualını eşitmədi. Nurcabbar üzünü göyə tutub, gözlərini yummuşdu, elə bil uzaqdan gələn və Bağırın eşidə bilməyəcəyi bir səsi dinləyirdi. Elə bil üzünü, boynunu sarımtıl rəngə boyayan günəşin zərrələrini canına hopdurmaq, süd kimi əmmək istəyirdi. Dəpdəyirmi günəş komanın üstündə asılıb qalmışdı, özü də Nurcabbarla üz-üzə dayanmışdı, sanki Nurcabbarın sümüklərini qızdırmaqdan, onu narıncı şəfəqində çimizdirməkdən həzz alıb, bəxtəvər-bəxtəvər gülümsəyirdi.

Nurcabbar yuxulu səslə dedi:

– Sənə yazığım gəlir, Bağır... Sən meşədə təkcə ağacları görürsən... Bilmirsən ki, meşənin də nəfəsi, həniri var. Bilmirsən ki, ağacların da canı var, ürəyi var, dili var.

Bağır elə bildi Nurcabbar onu ələ salır.

– Əşi, qoy oturmuşuq, – dedi və fikirləşdi ki, Nurcabbar get-gedə lap ağ eləyir, yaxşısı budur ki, Nurcabbarı danışdırmayasan.

Amma Nurcabbar özü danışdı. Bayaqkı yuxulu səslə:

– Ağaclar da adamlar kimidi, – dedi. – Ağlayan vaxtları da olur, gülən vaxtları da. Mahnı da oxuyurlar, bir-birilərinə dərdlərini də danışırlar.

Bağır Nurcabbarın yumulu gözlərinə baxa-baxa başını buladı. Bu Nurcabbar yaman məzəli adamdı. Bekarçılıqdan ağlına qəribə-qəribə fikirlər gəlir bunun. Əşi, meşənin nə canı, nə dili? Ağac da gülərmi?

– Bura bax, Nurcabbar, mən iyirmi ildi ki, bu meşədə ağac təkin bitmişəm. Hər ağaca bələdəm burda. Yalan olmasın, ağacların üstündəki budaqların, yarpaqların sayını da bilirəm. Sən cəmi-cümlətani üç ildi burdasan. Bəs nə təhər olur ki, ay Nurcabbar, sən bu meşənin ürəyini görürsən, mən görmürəm?

Nurcabbar hələ gözlərini açmamışdı, hələ günün altında taxta sinəsini qızdırırdı.

– Meşə hər yetənə ürəyini göstərmir, Bağır. Meşəni duymaq üçün gərək adamın gönü cığara kağızından da nazik olsun.

Bağır üzdə olan iri gözlərini pərt-pərt döydü. Elə bil bayaqdan bəri içində mürgüləyən bir acıq, güclə ovunan bir giley qalxıb dilçəyinə dirəndi. Yox, bu Nurcabbar, doğrudan da, ağ eləyir bu gün. Ağzını qoyub Allah yoluna, ağlına nə gəldi, danışır, hər kəlməbaşı Bağırı tikanlayır. Yoox, həvəsdi-bəsdi, buna dözmək olmaz. Lap cızığından çıxır Nurcabbar. Gərək beləsinin cavabını verib, oturdasan yerində, yoxsa çox baş aparar.

Bağır, küsəyən uşaq təkin, qaşqabağını salladı, incikliyini büruzə vermək üçün səsinə bir az sərtlik qatıb dedi:

– Tutaq ki, mən gönüqalın adamam, heç nə görmürəm, heç nə qanmıram. Bəs sən nəsən? Əgər gönün belə yuxadırsa, bəs Dədə palıdın qurumağını indiyəcən niyə görməmisən? Hay, de də, niyə görməmisən?

Nurcabbar gözlərini açıb, dirsəyini yerdən qaldırdı.

– Birinci yarpağı quruyanda görmüşəm, – dedi, – amma sən indi görürsən... O boyda budağı kor da görər.

Nurcabbar, nədənsə, dönüb Dədə palıda tərəf baxmırdı,elə bil ora baxmaqdan qorxurdu, ürpənirdi. Gözlərini Bağırın başının üstündən harasa zilləyib donuxmuşdu. Bağır Nurcabbarın hara nəzər dikdiyini bilmirdi, ancaq onun nöqtə bəbəklərindəki donuqluğu görüb, başa düşürdü ki, bu dəqiqə Nurcabbarın gözlərinin qabağında başqa dünya, başqa aləm dayanıb. Nurcabbar indi göyə baxsa da, yəqin ki, göyü görmür. Bəlkə Kürün lal-dinməz, bulanıq suyunu görür, bəlkə arxasındakı Dədə palıdın qupquru budağını görür? Nurcabbarın xırda gözləri qıyıldı, qıyıldı və qaramtıl göz qapaqlarının altında itdi. Sivri çənəsi tərpəndi, çənəsindəki seyrək, ağ tüklər biz-biz dayandı, qırışlı, tunc sifətinə sanki kölgə çökdü. Nurcabbarın donqar burnunun pərələri titrəyəndə Bağıra elə gəldi ki, Nurcabbar bu dəqiqə hönkürüb ağlayacaq. Bağırın Nurcabbara yazığı gəldi. Bağır bayaqkı incikliyi də, pərtliyi də unutdu. Fikirləşdi ki, Nurcabbar onun qəlbinə dəymək niyyətində olmayıb, olmaz da – axı Bağırın Nurcabbara nə pisliyi keçib? Yəqin bu gün Nurcabbarın qanı qaradı – niyə qaradı, özü bilər – adamın qanı qara olanda dünya gözlərinə fındıq boyda görünür və bu fındıq boyda dünyada adam ürəyini boşaltmaq üçün dilini tikana döndərib yan-yörəsindəkilərə batırır. Yoox, Nurcabbar insaflıdı. Nurcabbar qəsdən, bilə-bilə Bağırı incitmək fikrinə düşməz. Nurcabbar pis adam döyül, vallah. Bu gün görəsən nə olub ona? Yoxsa Nurcabbar hələm-hələm yava danışmaz, qəlb sındırmaz. Özü də kimin qəlbini – Bağırın? O Bağırın ki, Nurcabbara "ayağın yandı, geri dur" demir, çox vaxt Nurcabbarın işini də o görür.

Nurcabbar gözlərini açıb, Bağırın başının üstündən yenə bayaqkı səmtə baxdı və:

– Dədə palıd öləcək, – dedi.

Nurcabbar yumruq düyüb, baş barmağını çiyni üstündən arxaya – Dədə palıda tərəf tuşladı.

– Bir gün onun da ürəyi dayanacaq, – dedi.

İkisi də susdu, ikisi də fikrə getdi. Bağır Dədə palıdın halına yanırdı və inanırdı ki, indi Nurcabbar da Dədə palıd barədə fikirləşir, ancaq Nurcabbarın yadına komadakı köhnə sandıq düşmüşdü, sandığın içindəki dəftərlər düşmüşdü və Nurcabbar heyfsilənirdi ki, bu səhər bircə sətir də yaza bilməyib. Nurcabbar üzünü Bağıra tutub:

– Dünən bir nağıl başlamışam yazmağa, – dedi. – Kürlə Dədə palıdın nağılıdı. İstəyirsən bir az oxuyum sənə.

Bağır istədi desin ki, oxuma, səhər-səhər nə nağılbazlıqdı, nağılı gecələr danışarlar. İstədi desin ki, lazım deyil, işlərim tökülüb qalıb, amma deməyə macal tapmadı, çünki Nurcabbar artıq ayaq üstə idi. Nurcabbar yavaş-yavaş komaya tərəf gedirdi. Nurcabbarın Dədə palıd barədə dedikləri Bağırın ağlına gah batırdı, gah batmırdı. Bağır Dədə palıdın öləcəyinə gah inanırdı, gah inanmırdı. Yox, Dədə palıd indi ölməsin, nə qədər ki, Bağır sağdı Dədə palıd Bağırın gözlərinin qabağında tac başını yerə qoymasın, aləmi özünə güldürməsin. Nə qədər ki, Dədə palıd burdadı, Bağır dünyanın qədimliyinə də, əbədiliyinə də inanır.

Nurcabbar qayıdıb Bağırın böyüründə oturdu. Açılıb örtülməkdən şaxı getmiş şagird dəftərini vərəqləməyə başladı. Onun xəttinin yaxşı, ya pis olmağından Bağırın başı çıxmırdı, ancaq Bağır görürdü ki, hərflər çox xırdadı, – hərəsi bir küncüd boyda – həm də hərflər bir-birinin qarnına girib, sıx yazılıb, vərəqdə bir dırnaq boyda da ağ yer yoxdu. Bağır inanmadı ki, Nurcabbar öz yazdığını özü oxuya bilər.

Nurcabbar dörd-beş vərəq ötürüb dayandı.

– Ortadan oxuyuram, – dedi, – hələ yarımçıqdı. – Və səsinə həzinlik verib, başladı oxumağa: "Bala palıd sahilə gəldi, gördü ki, Kür şırıl-şırıl axır. Bala palıd dizə düşüb, əllərini sinəsinə qoydu. Dedi: ay Kürüm, ana Kürüm, Dədəm palıd gedir əldən. Suyunumu əsirgədin onnan, südünümü əsirgədin onnan? Dədəm palıd ölsə əgər, göy guruldayar, şimşək çaxar, göydən yerə gürşad yağar".

Nurcabbar gözlərini döndərib baxdı ki, görsün oxuduqları Bağırın xoşuna gəlir, ya yox. Bağırın üzü muma dönmüşdü, dəyirmi gözlərindən işıqlı təbəssüm tökülürdü. Bağır indiyəcən Nurcabbarın bu səslə, bu avazla danışdığını eşitməmişdi. Onun səsindəki titrəyişin, həzinliyin adamı kövrəldə biləcəyini ağlına da gətirməmişdi. Nurcabbarın yazdıqları Bağırın ürəyindən xəbər verirdi, vallah Bağır da bu dərdi çəkir, amma neyləsin ki, içindəkiləri Nurcabbar kimi deyə bilmir. Bağıra elə gəldi ki, Nurcabbar onun ürəyini dəftər kimi qabağına qoyub, sətirbəsətir oxuyur. Bağır özünü məzəmmətlədi ki, Nurcabbarın yazdıqlarından bu vaxtacan xəbərsizdi, onun yazmağına məhəl qoymayıb. Bağıra elə gəlirdi ki, Nurcabbar sinəsinə saz tutub Dədə palıdın dərdini avazla oxuyur və istəyirdi Nurcabbar yenə oxusun, çox oxusun.

Nurcabbar başladı ardını oxumağa: "...Kür nəfəs çəkib, köks ötürüb, dedi: ay oğlum, əziz oğlum, eşit və agah ol ki, dikəlməyə taqətim qalmayıb, nə aşıram, nə daşıram. Üstümdə bənd qurublar, hirsim-havam alınıb, boynum kəməndə salınıb. Ayaqlarım cidarlı, qollarım bağlı. Dodaqlarım Dədə palıdın kökünə çatmır, Dədə palıdın yanğısını söndürə bilmirəm. Quruyacaq Dədə palıd, ayaq üstə can verəcək... Kür bunu deyib başladı şırıl-şırıl axmağa. Bala palıd da başladı gözlərindən bıldır-bıldır yaş tökməyə".

Nurcabbar bu yerə çatanda dirriyin yanındakı maşın işə düşdü. Nurcabbar diksinən kimi oldu və dəftəri yumub, qaşqabağını salladı.

Bağırın muma dönmüş üzündəki işıqlı təbəssüm hələ silinib getməmişdi, hələ ruhu Nurcabbarın avazında quş kimi qanadlanıb uçurdu. Bağır bihuş olmuşdu, yan-yörədə səs-filan eşitmirdi.



Dəftəri gizlətməyə, deyəsən, yer axtarırdı Nurcabbar. Əvvəlcə qoynuna soxmaq istədi, sonra nə fikirləşdisə bürmələyib əlində saxladı. Başını dilxor-dilxor buladı. Arxasında dişdən çəpər olmayan dodaqları içəri əyilib, təzədən düzəldi.

– Dəyyusun biri, dəyyus! Niyə rədd olub getmir bu? – dedi. – Pul qazanmaqdan savayı dərdi yoxdu. Puldan ötrü anasının əmcəyini də kəsər... Elə bilirəm o kababxanada mənim ətimi şişə çəkib, verir camaata.

Bağır sanki yuxudan ayıldı. Nurcabbarın deyinməyini tamam-kamal dərk eləməsə də, üzündəki işıqlı təbəssüm silinib getdi. Motorun səsinə başını döndərəndə lap yaxınlığında furqon "Moskviç"i gördü.

Piti Namaz başını maşının pəncərəsindən çıxarıb Bağıra baxırdı. Baxırdı və Bağırın amanını qıran bic təbəssümlə gülümsəyirdi. Bəd xəbər eşidəcəyindən qorxurmuş kimi Bağır nəfəsini udub, qulaq kəsildi. Bağırın bütün vücudu yekə bir qulağa döndü. Amma Piti Namaz ona heç nə demədi, Dədə palıdın təpəsinə nəzər salıb gülümsəyə-gülümsəyə:

– Quruyur ha, – dedi. – Nə kömürü çıxar bunun. Düz bir il bəs eləyər mənə.

Elə bil Bağırın ürəyi qopub ayaqlarının altına düşdü. Nitqi qurudu, ha fikirləşdi, Piti Namaza deməyə tutarlı bir söz tapa bilmədi.

Namaz, Nurcabbara gözünün ucuyla da baxmırdı, elə bil burada "Nurcabbar" adlı adam yox idi. Yenə nəzərlərini iynə kimi sancmışdı Bağırın üzünə, yenə bic-bic gülümsəyirdi. Namaz motorun səsini üstələmək istəyirmiş kimi bərkdən qışqırdı.

– Bağır dayı, muştuluğumu ver, qızın gəlib!

Bayaq Bağırın özü boyda qulağa dönmüş vücudu gərilib açıldı. Bağır dirənə-dirənə, ürəyi döyünə-döyünə:

– Nə təhər gəlib, ə? – dedi. – Tək?

– Yox uşaqnan!.. Gedirsən, aparım!

Bağır başını buladı.

"Moskviç" nərildəyib tərpəndi. Yükün ağırlığından maşının arxası az qalırdı yerə dəysin. Maşın qabağına gələn ot-ələfi yastılaya-yastılaya, ütüləyə-ütüləyə çıxıb getdi.

Bağır bir xeyli lal-dinməz oturub, "Moskviç"in getdiyi səmtə key-key baxdı. Sonra həmin key nəzərlərlə Nurcabbara baxdı. Nurcabbar göy dəftəri əlində bürmələyib, gözlərini zilləmişdi Dədə palıdın gövdəsinə.

Bağır asta-asta qalxdı.

– Gec gəlsəm, heyvanları rahatlayarsan, – dedi və meşənin ayağına – ürgə atı cidarladığı yerə tərəf getdi.

Həmişə rayonun girəcəyində Bağır atın yüyənini bir balaca dartardı, at yerişini yavaşıdardı, Bağır da aylarla görmədiyi yerlərə gözləri dolusu tamaşa eləyərdi. İndi atın cilovu çəkilmədi, köpüklü, qaramtıl cəhəngi ağrımadı, yəqin at elə bildi ki, üstündəki adam yatıb, adətkərdə at yerişini özü səngitdi.

Bağır şose yolun sağındakı çörək zavodunun hündür, yoğun borusuna axdı, təzə tikilmiş yağ-pendir zavodunun uca daş barısına baxdı. Sonra şose yolun solunda göz qaralanacan uzanıb gedən cavan meşəyə baxdı. Aralıdan qalın kolluğa bənzəyən meşənin girəcəyində qolluşaxəli yeddi-səkkiz ağac vardı ki, onların da kölgəsində Piti Namazın isti-yapalaq kababxanası qaralırdı. Bu kababxanadan səhər-axşam dumana oxşayan tüstü qalxırdı və Bağır hər dəfə burdan ötəndə ona elə gəlirdi ki, təzə meşədəki ağacları böyüməyə qoymayan bu ağımtıl tüstüdür. Bir meşə ki, bütün günü kabab iyi, araq iyi uda, kefli müştərilərin dedi-qodusunu, söyüşünü, çığırtısını eşidə, o meşəni ha sula, ha bəslə – xeyri yoxdu – yenə qınında yanacaq...

Qəbiristanlığı ötəndən sonra Bağırın yadına düşdü ki, qəbiristanlığa tərəf baxmayıb. Həmişə burdan keçəndə yəhərdə dikəlib, yola yaxın, torpağı qaralmış, başağacları çürüyüb tərg olmuş iki yan-yana qəbrə – arvadının və ilk övladının qəbrinə baxardı, dodaqlarının altında pıçıldayardı: "Allah sizə rəhmət eləsin". İndi demədi. İndi ölülərə rəhmət oxumaq yadından çıxmışdı, çünki qızının qəfil gəlişi Bağırı çaşdırmışdı. Bağır ağıllı-başlı sevinə bilmirdi, sevinci hardasa qırılırdı, yarımçıq qalırdı. Bağırın ürəyinə dammışdı ki, qızının gəlişi xeyirliyə deyil. Nazlı bu rayona hələm-hələm gəlməzdi, iki-üç ildə bir dəfə gələrdi, özü də əriylə. Gəlməmişdən xəbər göndərərdi: filan ayın filan günündə yanındayıq, dədə. Bəs indi niyə xəbərsiz gəlib, niyə Müzəffərsiz gəlib?

Bağır yüyəndən yapışıb atı darvazadan keçirəndə aynabəndə nəzər saldı; aynabəndin pəncərələri taybatay açıq idi, ancaq orda kimsə gözə dəymirdi, səs-səmir eşidilmirdi. Əvvəllər Nazlının gəlişi belə olmurdu axı. Qırmızı kərpicdən tikilmiş kürsülü evə Nazlı özüylə hərarət gətirirdi, səs-küy gətirirdi. Bu gen-bol həyətə təkcə Nazlının qəhqəhəsi bəs eləyirdi. Həyət də gülürdü, ağaclar da gülürdü, qırmızı binanın



kərpicləri də gülürdü. Nazlı aynabənddə dolaşanda aynabəndin işığı artırdı, aynabəndin işığı göz qamaşdırırdı, adamlar bu işığı yeddi ağaclıqdan görürdülər və bilirdilər ki, Bağırın qızı Nazlı Bakıdan gəlib. Bəs hanı o işıq, hanı o hərarət? Bura elə Bağırın qoyub getdiyi kimidi – tutqun, incik, soyuq...

Bağır kimisə hürküdəcəyindən qorxurmuş təkin pilləkəni ehmal-ehmal qalxdı və qapının ağzında ayaq saxladı. Nazlı donunun ətəyini çırmalayıb yaş əski ilə döşəməni silirdi. Elə bil arxada atasının nəfəsini duyub qanrıldı. Əllərini yerə verib qalxdı. Atasına baxa-baxa suyu süzülən əskini yanındakı vedrəyə tulladı.

– Ay dədə, – deyib gülümsədi və gülümsəyəndə üzünə nazik qırışlar düşdü.

Nazlı əvvəlki Nazlı deyildi. Nazlı yaman arıqlamışdı, sifəti lap yumruq boyda olmuşdu.

Nazlı atasının tüklü üzündən dönə-dönə öpdü, soyuq, yaş əllərini kişinin boyun-boğazında gəzdirdi.

– Sənə qurban olum, ay dədə, – dedi. – Hardan bildin gəldiyimizi?

Qızının solğun bənizinə baxmaqdan utanırmış kimi Bağır üzünü yana tutub:

– Namaz xəbər gətirmişdi, – dedi və ürəyinə damdı ki, Piti Namaz Nazlının qəfil gəlişinin səbəbini bilir, yoxsa elə müəmmalı gülümsəməzdi. Bu dünyada Namazın bilmədiyi, baş açmadığı sirr yoxdu. Zalımın balası adamın ürəyindən keçənləri də görür, keçməyənləri də. Namaz yeri iyləyir, havanı iyləyir və allahla bəndənin arasında "sirr" deyilən şeyi burnuyla öyrənir, burnuyla duyur.

Nazlı donunun ətəyini saldı.

– Haçar elə həmənki yerindəydi, – dedi, – pilləkanın altında. Bəs demirsən ev-eşiyi soyub apararlar?

Bağır başını buladı. Nazlının ağlı şəhərə gedib: beş-on dəqiqəliyə evdən çıxanda qapını hər yerdən qıfıllayırlar.

Nazlı üst-başını çırpa-çırpa çirkli suyla dolu vedrəyə baxdı.

– Buralar nə kökdəydi, – dedi. – Döşəmədə əl qalınlıqda toz vardı.

Bağır təəccüb içində dayanıb qızına baxırdı, ancaq onu təəccüblendirən Nazlının sözləri deyildi, ev-eşiyin tozlu olmağına Bağır çoxdan öyrənmişdi. Bağırı təəccübləndirən Nazlının gətirdiyi çamadanlar, yeşiklər idi. – Nazlı aynabəndin küncünə bir xaraba yükü şey düzmüşdü. Bağırı təəccübləndirən Nazlının səsindəki titrəklik, kövrəklik idi – elə

bil Nazlı ağlamaq istəyirdi, elə bil qəhərini güclə boğurdu. Əvvəllər də Nazlı rayona gələndə ev-eşiyi bu kökdə görərdi, onda kövrəlməzdi, atasının boynunu qucaqlayıb zarafatla deyərdi: "evlən, ay dədə, hələ cavansan".

Nazlının iri gözlərinə diqqətlə baxanda Bağır başa düşdü ki, məsələ ev-eşikdə deyil, Nazlını kövrəldən, ağrıdan başqa şeydi, başqa sirdi. Nazlının gözlərində bir kədər kölgəsi dolanırdı və bu kölgənin rişəsi, deyəsən, çox dərində idi.

Nazlı baxışlarını atasından gizlətməkçün yaş əskini götürüb, təzədən döşəməni silməyə başladı.

Bağır qapının ağzında dayanıb, qızının tərpəndikcə sümükləri dikələn çiyninə, şəhərli əllərinə oxşamayan çat-çat, qırmızımtıl əllərinə baxa-baxa soruşdu:

– Bəs balaca hanı?

Nazlı başını qaldırmadan, döşəməni silə-silə:

– İçəridə yatıb, – dedi. – Gecə vaqonda yuxusu qaçmışdı yazığın.

– Yəqin acsan.

Nazlı əskini vedrəyə tulladı, yaş əlini saçına çəkib gülümsədi və gülümsəyəndə yumruq boyda üzünə yenə nazik qırışlar düşdü.

– Dişimizin altına qoymağa evdə heç nə tapmadıq, – dedi. – Tünzalə də ac yatıb.

Bağır dönüb pilləkəni enə-enə:

– Tünüdə nə can var, – dedi. – Tünü aclığa necə tab gətirsin?

İşlənməkdən sürtülüb didilmiş qırmızımtıl xurcunu atın belindən götürəndə Bağırın yadına düşdü ki, kürəkənindən hal-əhval tutmayıb. Müzəffər barədə heç Nazlı özü də bir söz deməd.i "Müzəffərin başında bir iş olsaydı, Nazlı açıb deyərdi. Bəlkə dalaşıblar, bəlkə küsüşüblər?.."

Bağır xurcunu çiyninə atdı, pilləkəni qalxa-qalxa bu qərara gəldi ki, Nazlıdan Müzəffərin əhvalını soruşsun və nədənsə, onu da fikirləşdi ki, Müzəffərin adını çəkən kimi Nazlı hönkürüb ağlayacaq.

Bağır xurcunu aynabəndin girəcəyinə qoyub, üzünü Nazlıya tutdu, ağzını doldurdu ki, Müzəffəri soruşsun, amma soruşa bilmədi, çünki qızının şabalıdı saçında bir çəngə ağ tük gördü və bu ağ tük kişinin dilini qıfılladı. Bir barmaq enində ağ zolaq idi. Nazlının alnından başlayıb cığası boyu gedirdi. "Bunun qocalan vaxtıdımı, fələk? Nazlının vur-tut iyirmi beş yaşı var. On ildən sonra bunun halı necə olacaq?" Bağır xurcunun yanında çöməldi, özü də bilmədi niyə çöməldi. Səsinin tutulacağından, xırıldayacağından ehtiyat elədiyi üçün yumruğunu ağzına dirəyib öskürdü.



– Burda pendir də var, çörək də var – dedi.

Nazlı atasıyla üzbəüz çöməlib xurcunun ağzını tələm-tələsik açdı. Böyük mis kasa çıxartdı ordan.

– Pendiri özün tutmusan? – dedi.

Bağır yenə öskürdü.

– Özüm tutmuşam.

Nazlı xurcundan beş-altı yumşaq yuxa çıxartdı.

– Ay dədə, qurban olum sənə, bundan ötrü ölürəm. Gör neçə ildi yuxa yemirəm.

Bağır altdan-altdan qızının saçındakı ağ zolağa baxdı.

– Sacda özüm salmışam, – dedi.

Nazlı xurcundan ağzı bağlı bir banka da çıxartdı.

– Bal da gətirmisən ki, dədə.

– Bu da öz yeşiyimdəndi... Keçən ay bunnan sizə də göndərmişdim.

– Hamısını Tünzaləyə yedizdirdik.

Bağır otağın örtülü qapısına baxıb soruşdu:

– Tünü əmələ gəlibmi?

Nazlı xurcunu eşələyə-eşələyə başını buladı, köks ötürdü.

– Tünü elə boya verir, – dedi. – Bir əlimiz ağzındadı, genə əti-qanı yoxdu.

Bu dəqiqə nəvəsini görmək, onu yuxudan oyatmaq həvəsi Bağırı ayağa qaldırdı. Pəncələri üstə otağa tərəf gedə-gedə:

– *Pomidor-xiyarı boşalt bir qaba. Bunları da özüm becərmişəm,* – dedi və o andaca fikirləşdi ki, görəsən bunu Nazlıya demək vacib idimi?

Nazlı pəncərələrin pərdələrini endirmişdi, içəri alaqaranlıq idi, ancaq bu alaqaranlıqda da otağın səliqə-sahmanı görünürdü. Tərtəmiz yuyulmuş döşəmədən yaş taxta iyi gəlirdi. Yağ rəngli divarların tozu, çirki silinmişdi, divarlar işıldayırdı. Tavanın hisi-pası, qurumu alınmışdı. Ortalıqdakı iri dördkünc stolun üstünə saçaqlı süfrə salınmışdı. Otaq sahibsizliyin daşını atmışdı, adamın üzünə gülürdü. Nə vaxtdan bəri yadırğadığı bu səliqə-sahman Bağıra qəribə gəldi. Amma ən qəribəsi bu idi ki, hər dəfə ayağını qapıdan içəri qoyanda Bağırın burnunu qıdıqlayan kabab iyi çəkilib getmişdi burdan. Bağırın yadına düşdü ki, bayaq aynabənddə də onu kabab iyi vurmadı. İllərdən bəri ağımtıl tüstüyə qarışaraq Piti Namazın həyətindən burula-burula, qıvrıla-qıv-

rıla, yağlı diliylə ənsiz barını yalaya-yalaya addayıb, qırmızı evin canına hopmuş kabab iyi Nazlının gəlişiylə yoxa çıxmışdı.

Uşaq arxası üstə yatmışdı, balaca əllərini qoşalaşdırıb sinəsinə qoymuşdu. Bənizi anasının bənizi təkin solğun idi. Boğazı uzun, həm də – yalan olmasın – Bağırın biləyi yoğunluğunda idi. Birdən Bağıra elə gəldi ki, Tünzalə başını yelli tərpətsə, boğazı meyvə saplağı kimi üzülə bilər. Bağır əyilib, Tünzalənin tərli alnından ehmalca öpdü və pəncələri üstə otaqdan çıxdı...

Bağır tut ağacının yanında bənd aldı. Həyətdə işi-gücü yox idi, ancaq başa düşürdü ki, Nazlı ilə təkbətək qalanda canını bir narahatlıq, səbəbini özünün də anlamadığı bir nigarançılıq bürüyür. Nazlının şabalıdı saçındakı ağ zolaq da, Tünzalənin bilək yoğunluğunda boğazı da Bağırın ürəyini xoşagəlməz bir əhvalatın, acılı-ağrılı bir sirrin qorxusu-ürküsü ilə doldururdu. Bağır bu qorxu-ürküdən, bu nigarançılıqdan qurtarmağın yolunu bilirdi. Nazlıdan bircə dəfə soruş ki, niyə gəlmisən, nə əhvalat baş verib? Vəssalam! Bunu soruşmağa nə var? Amma Bağır özünə yaxşı bələd idi, bilirdi ki, nəyi soruşsa da, bunu soruşa bilməyəcək. Doğma yuvasına, ata ocağına qayıdan övladdan gəlişinin səbəbini necə soruşasan? Bu həyət də, bu ev də Nazlınındı. Bağır bir gün öləcək və bu dünyada Bağırın ixtiyarı, haqqı çatan nə varsa, Nazlının olacaq. İndi Nazlı öz evinə gəlib. Xoş gəlib, səfa gətirib! Bəs Nazlının saçındakı o ağ zolaq nədi elə? Bəs niyə gözləri qüssəlidi, niyə bənizi solğundu? Bağıra elə gəldi ki, qızı da, nəvəsi də böyük şəhərdən deyil, illərlə bir yanı üstə yatdıqları böyük xəstəxanadan gəliblər. Bağır çox fikirləşdi, ərköyün Nazlının, haylı-haraylı Nazlının indiki süstlüyünü, sakitliyini bircə yerə yozdu: illər ötür, yaş artır, uşaqlıq havası Nazlının başından gedir. Nazlının xasiyyəti dəyişib, ağırlaşıb. İndi Nazlı anadı, özünü ana kimi aparır. Ananın saçları da ağarar, dişləri də tökülər, beli də bükülər. Qara-qura fikirləri başından qov, Bağır. Nazlı səni görməyə gəlib, bu yurddan anasının iyini almağa gəlib.

Bağırın öz yozumundan, öz təsəllisindən xoşu gəldi. Bağır rahat oldu. Kürəyini tut ağacına söykəyib fikirləşdi ki, bu dünyada onun Nazlıdan əziz heç kimi yoxdu. Qoy Nazlının ayağına dəyəsi daş, Bağırın başına dəysin. Nazlı, Bağırın özündən sonra qoyub gedəcəyi yeganə yadigar, yeganə nişanədir. Bağıra oğul qismət olmadı. Çox övlad arzulamışdı, bircəciyini tapdı. Qələm vur-tut iki qız doğdu onunçün.

Birincini beş yaşında itirdilər.



Bağır beş yaşlı Nazlını torpağa tapşıranda elə bilirdi gözlərinin yaşı heç vaxt qurumayacaq, elə bilirdi dərdin əlində qəddi əyiləcək, çünki Nazlı Bağırın ilk nübarı, ilk övladı idi. "Nazlı" Bağırın mərhum anasının adı idi və Bağır qızı Nazlını anası Nazlı qədər istəyirdi. Bağır gecə yarısı yuxudan oyanıb yerinin içində ah çəkəndə arvadı Qələm gözlərinin qorasını tökərdi. Hər dəfə də sakitləşib yorğanı başına çəkəndə Qələm eyni sözləri deyərdi: "Uşağa ananın adını qoymasaydıq, ölməzdi. Anan rəhmətlik yəqin adını heç kəsə vermək istəmir".

Vaxt ötdükcə, Bağırın dərdi qaysaqlandı, gözlərinin yaşı qurudu, qəddi də əyilmədi. Bağır elə əvvəlki kimi qaldı – sağlam, qıvraq, işlək. İkinci qızı dünyaya gələndə Bağır onun da adını "Nazlı" qoydu. Onda Qələmin ürəyi qırılıb düşdü ayaqlarının altına, dodaqları səyirə-səyirə: "Bu da öləcək, – dedi, – ananın adını nahaq qoydun buna". Qələm səksəkəylə yaşadı, qızının öləcəyindən qorxa-qorxa yaşadı və Nazlının üç yaşı tamam olanda Qələm özü öldü. Qələm xəstələnmədi, bir yerindən şikayətlənmədi, gecə şad-şalyan yatağına girdi, səhər silkələdilər oyanmadı. Qələmin necə, gecənin nə vədəsində ölməyindən Bağır xəbər tutmadı. Bağırın əli yerdən-göydən üzüldü. Bu necə işdi, bu necə dünyadı? Bu necə Allahdı ki, gün görməmiş, dövran sürməmiş bir adamın ömrünə qıydı? Bağırı naçar qoydu, Nazlını yetim? Yəni Allah bu dünyada canından bezmiş bir bəndə tapmırdı ki, onun canını alsın? Bəs deyirlər, adildi bu, qadirdi bu? Qəribə-qəribə işləri var bu allahın. Özü çaşır, camaatı da çaş-baş eləyir...

At qabaq ayağını qaldırıb yerə çırpdı, elə bil Bağırı fikirdən ayırmaqçün belə eləyirdi, elə bil çağırırdı sahibini. Bağır kürəyini tut ağacından aralayıb, tappıltı gələn tərəfə baxdı. At mürgülü gözlərini Bağıra dikib, qabaq ayağını yerə bir də vurdu. Ürgə açmışdı, yem istəyirdi, ancaq ona vermək üçün bu həyətdə nə ot-ələf vardı, nə alaq. Bağırın həyəti, bağçası təmiz idi, ələcsiz idi, çünki hər dəfə bura yolu düşəndə Bağır həyət-bağçaya əl gəzdirirdi, qapı-bacanı səliqə-sahmana salırdı. Gah həyəti süpürürdü, gah ağacların dibini belləyirdi. Bağır işsiz qalanda darıxdığı üçün belə eləyirdi, həm də ona görə belə eləyirdi ki, bu yurdun sahibsiz olduğu bilinməsin, bu yurd xarabaya oxşamasın. Nurcabbarın baxımsız, küskün, viranə yurduna bənzəməsin. Nurcabbarın həyətində ("həyət" deməyə adamın dili də gəlmir) kölgələnmək üçün bircə dənə də ağac yoxdu, amma bura bax – ağaclar vər-vər, hamısı da barlı-bəhrəli, alma, armud, heyva, gavalı, gilənar, ərik... ha-

sarın dibiylə iki sıra nar kolları uzanıb gedir, bar gətirəndə altdan dayaq verməsən, budaqlar əyilib burnunu yerə döyür. Mələs nar, gülöyşə nar... Özü də necə nar? Yetişib ətə-qana gələndə hərəsi bir uşaq başı boyda olur. Heyf ki, bu qədər, mer-meyvə zay olub gedir. Yerə töküləni tökülür, çürüyəni çürüyür, çoxunu Bağır Bakıya – Nazlıgilə göndərir, qalanını da İdrisovun evinə daşıyır, qonum-qonşulara paylayır. Bağır özü nə qədər yeyəcək? Bir qarnı var də Bağırın. Bu bağça olmayaydı Bağırın, olaydı Piti Namazın vallah, kalını da dəymiş əvəzinə bazara çıxardıb satardı. Bazara niyə – elə kitabxanadaca xırd eləyərdi. Bəs belə həyətə Namaz göz dikməsin, neyləsin?

Odey, adını çək, qulağını bur. Maşınının tırıltısı gəlir. Zalımın bir ayağı elə evdədi. Nə gətirir, nə aparır bu? Yoxsa həmişə Bağırı güdür? Bağır evə qayıdan kimi Namaz da böyürdən çıxır. Meşədə hər gün Bağırın gözlərini döyənək elədiyi bəs deyilmiş, burada da əl çəkmir ondan. İlanın zəhləsi yarpızdan gedər, o da gəlib bitər yuvasının ağzında.

Elə bil Piti Namazın ürəyinə dammışdı ki, Bağır tut ağacının yanında dayanıb onun barəsində fikirləşir. Barının üstündə əvvəlcə Namazın əlləri göründü, sonra başı. Deyəsən, Namaz ayaqlarının altına nəsə qoyub qalxmışdı. Piti Namaz gah Bağıra baxdı, gah quyruğunu yambızına çırpıb milçəyini qovan ata baxdı, gülümsədi.

– Adam var ki, vojunu buraxsan samalyot alar, – dedi. – Sən hələ bu əyripaçadan əl çəkməmisən. Kimdi, əkşi, indi at minən?

Doğrudan da, bu boyda rayonda at minən təkcə Bağır idi – atlar çoxdan yoxa çıxmışdı. Amma Bağır atsız güzəranını ağlına sığışdırmırdı. At Bağırçın həm minik idi, həm dost idi.

– Bağır dayı, heç olmasa, motosiklet al, rədd elə getsin bu ürgəni.

Bağır Piti Namazın harasa dirənmiş enli sinəsinə baxdı, ancaq heç nə demədi Piti Namaza. Fikirləşdi ki, Namazın başı xarabdı, vallah xarabdı. Heç ağlına vurmur ki, at motosikletdən min kərə yaxşıdı. Motosiklet yol görmür, riz görmür, səs eşitmir. Dəmirdi də, dəmirə nə etibar? At qabağına arx çıxanda özü dayanır, palçığa-lığa girmir, yolu özü seçir. Benzin işlətmir, yağ işlətmir. Yediyi ot-ələfdir, o da ki, çöldə, düzdə, meşədə nə qədər desən, özü də mütəəlləzzin. Həm də at girən yerə motosiklet girməz axı? Meşədə nə motosiklet? Bu Namazın başı xarabdı. Başı xarab olmasaydı, qanardı ki, Bağır motosiklet sürə bilməz, motosikletin üstündə otura bilməz. Piti Namaz ömründə at minməyib ha, nə bilir atın qədrini?



– Bağır dayı, istəyirsən pul verim, özünə maşın al.

Bağır bayaqdan bəri qonşusunun atmacalarını vecinə almırdı, amma Piti Namazın indi dedikləri kişinin kürkünə birə saldı. Bağır başını döndərib, Piti Namazın ilk-əvvəl gözlərinə baxdı. Ona elə gəldi ki, Piti Namaz səhərdən bəri bircə dəfə də kirpik çalmayıb, yoxsa bu səhər gözlərində dolanan bic təbəssüm çoxdan silinib gedərdi. Elə bil Piti Namaz bu təbəssümü gözlərinə həkk eləyib maska kimi gəzdirirdi və bu maskanı Bağıra göstərməkdən həzz alırdı. Bağır isə bu maskaya baxmaqdan qorxurdu. Bu maskaya baxanda Bağırın ürəyinə qara-qura fikirlər gəlirdi.

– Qulağını aç, Namaz, yaxşı-yaxşı eşit. Həyəti satmayacam. Əlini birdəfəlik üz bu sövdadan.

Piti Namaz özünü təəccüblənən kimi göstərdi.

– Nə həyət əşi? – dedi. – Mən həyət adı çəkdim burda? Bir sözüydü, bir dəfə demişdim, düzəlmədi, mən də bir daş altdan qoydum, bir daş üstdən. Havaxtdı?.. Yadımdan da çıxıb.

Bağır, Piti Namazın barının başından üzü bəri qabaran sinəsinə baxdı. Baxdı ki, görsün günlərin bir günü Piti Namaz bu enli sinəsiylə bu ensiz barını uçura bilər, ya yox? Namazın sinəsi, deyəsən, möhkəm idi, polad kimi idi. Bağır inandı ki, Piti Namaz bu barını sinəsiylə uçura bilər.

– Sənin bu həyət-bacada gözün var – dedi. – Başa düşürəm, Namaz, gözün var.

Görəsən bu Namaz niyə gülümsəyir belə? Yoxsa kişinin gerçək sözünü zarafat hesab eləyir? Yoxsa Bağırın yanıb-yaxılmağı, acıqlı-acıqlı danışmağı Namazın eyninə deyil?

Bağır təbdən çıxdı. Bayaqkı sözlərini açıq-aşkar qəzəblə təkrar elədi:

– Sənin bu həyətdə gözün var, Namaz! Gözün var!

Piti Namazın tükü də tərpənmədi. Həminki bic təbəssümlə gülümsəyə-gülümsəyə:

– Bu həyətdə gözü olanın gözzəri pırtdasın, – dedi. – Ev-eşik qəhətliyidir, əşi? Allahın yeri-yurdu o qədərdi – itinə tök. Heç yalvarsan da, almaram buranı, dədəmin goru haqqı!

Piti Namazın andına Bağır zərrə qədər də inanmadı.

Öz sözlərinə Namaz özü də inanmırdı. Başqa vaxt, bəlkə də, Bağırı dilə tutardı, amma kişinin indiki qırımından ağlı bir şey kəsmədi. Hiss

elədi ki, Bağır dilxordu. "Yəqin bir əhvalat olub. Yəqin qızın gəlməyi xeyirliyə döyül". Namaz başa düşdü ki, bu dəqiqə Bağırı dindirib-danışdırmaq ona ziyandan başqa heç nə gətirməz. Bağırgilin eyvanına baxa-baxa, nəzərləriylə nəyisə axtara-axtara astadan:

– Almaram, Bağır dayı, – dedi.

Namazın başı barının arxasında görünməz oldu. Əlləri də barının üstündən sürüşüb düşəndə Bağır yavaşca:

– Kəllən haqqı, almazsan – dedi.

Bağır qərara gəldi ki, day sabahdan dirrikdə Namaza kömək eləməsin. Namazın dədəsinin hambalı döyül ha. Niyə cəfanı Bağır çəksin, səfanı özgələr görsün? Əgər İdrisovun Namaza ürəyi yanırsa, qoy özü gəlsin, zəhmət çəkib, bircə-bircə pomidor-xiyar dənnəsin onunçün. Yəni Piti Namaz belə qudurub ki, Bağırı – atası yaşda kişinin uşaq yerinə qoyub, dirrikdə işlədir?

Piti Namaz əvvəllər belə deyildi. Lap cavan olanda, yəni o vaxtlar ki, adının qabağına hələ "Piti" sözü qoyulmamışdı – onda Namaz arıqca bir oğlan idi, həm də başıaşağı, üzüyola oğlan idi. Kim hara buyururdu hoppana-hoppana gedirdi. Namaz ya altıncı sinifdən qayıtmışdı, ya yeddinci sinifdən, çünki atası rəhmətə gedəndən sonra Namazın oxumağa həvəsi-filanı qalmamışdı. Bir anası idi, bir də özündən kiçik qardaşı. Bir evdə cəmi-cümlətani üç ağız vardı, di gəl ki, bu üç ağzın işləyəni, çörək gətirəni yox idi. Namaz başladı toylarda, yaslarda aşpaza, çayçıya kömək eləyib qəpik-quruş qazanmağa. Hansı kababxananınsa, rəhmdil böyüyü Namazı çəkdi yanına. Dedi, aşpaza kömək elə, ruzunu çıxardarsan burdan. Namaz mətbəxdə kartof soydu, soğan soydu, ət doğradı, manqal odladı və günlərin bir günü özü dönüb oldu aşpaz. Kababxanaya gələn müştərilər birdən duyuq düşdülər ki, a kişilər, bu Namaz elə piti bişirir, yeməknən doymaq olmur, adam az qalır barmaqlarının beşini də yalasın. Səs yayıldı rayona: "Namazın pitisindən olmaz", "Azərbaycanda Namaz kimi piti qoyan yoxdu", "Namazın qoyduğu pitini ölü yesə dirilər" və Namazın adı qaldı "Piti Namaz". Namaz mətbəxdə boy atdı, ətə-qana gəldi, yarrı-yaraşıqlı bir oğlan oldu. Özü bişirdiyi pitidən yedikcə sinəsi başladı ennənməyə. Namaz hiss elədi ki, kişiləşir. Kişinin gərək bığı olsun – Namaz da qalın bığ saxladı. Bir gün mətbəxdə bığını tumarlaya-tumarlaya fikirləşdi ki, səhərdən axşamacan sobanın yanında dayanmaq onun nə boyuna yaraşır, nə bığına.



Camaat bir də gözünü açıb gördü ki, Namaz təzə meşənin girəcəyində təzə kababxana tikdirib, day özü bişirmir, pitini başqasına bişitdirir. Namaz dönüb oldu özü boyda od parçası. Rayonun bu başından vurub, o başından çıxdı, yeməli-içməli şeylərdən tapıb gətirdi kababxanaya. Hansı müştərinin ürəyi nə istədisə, Piti Namaz bir göz qırpımında çıxardıb qoydu ortalığa. Təzə meşənin üstünə pərdə kimi yayılan ağ tüstünün iyi gedib çıxdı lap uzaqlara. Tüstü camaatı boğazlayıb dartdı Piti Namazın kababxanasına. Sonra bu tüstü geniş eyvanlı, üstü şiferli, ikimərtəbəli ev oldu, daş, qaraj oldu, təptəzə maşın oldu. Bu tüstü Piti Namazı qucağına alıb qaldırdı göyün yeddinci qatına. Göyün yeddinci qatında əli Allahın əlinə dəyən kimi "Mən Allahın bacısı oğluyam" – dedi və yetim Namaz başladı hamını yetim gözündə görməyə...

Bağırın burnuna kabab iyi dəydi, elə o dəqiqə də Nazlının səsini eşitdi.

– Dədə, niyə orda durmusan?! Qalx yuxarı!

Eyvanda süfrə açmışdı Nazlı. Bağırın gətirdiyi balı, pendiri boşqablara töküb, düzmüşdü stolun üstünə. Yumşaq yuxaları qatlayıb iri nimçəyə yığmışdı. Dilim-dilim kəsilmiş xiyar bir qabda, fal-fal kəsilmiş pomidor bir qabda... Ağappaq təmiz süfrə, duzla dolu duzqabı... Balaca samovar stolun üstündə dızıldayırdı. Süfrəyə gün işığı düşmüşdü, süfrə göz qamaşdırırdı, ancaq Bağıra elə gəlirdi ki, süfrəni bəyaz şəfəqə boyayan Nazlının əllərinin işığıdır. Qadın əllərinin səliqə-sahmanı, hərarəti Bağırın ürəyinin lap dərinliyində illərdən bəri uyuyan, susub qalan kövrək bir simə toxundu. Bu simin həzin səsini təkcə Bağır eşitdi və içindəki bu həzin səs birdən qəhərə dönüb, Bağırın boğazına tıxandı. Bağır qəhərlənə-qəhərlənə ömründə birinci dəfə bu fikrə gəldi ki, Nurcabbarla onun arasında qətiyyən fərq yoxdur. Nurcabbar kimsəsizdi, Bağır da övladı ola-ola tək qalıb. Nurcabbarın da komasında ocaq yanmır, çıraq yanmır, Bağırın da komasında. Bir evdə ki, ocaq yanmaya, bir evdən ki, işıq gəlməyə – o ev kimə lazımdı? Bir evdə ki, gündə süfrə açılmaya... Eh, gör neçə vaxtdı Bağır belə süfrə arxasında oturmur. Necə gəldi, harda gəldi – yeyir. Bağır stol arxasında, süfrə başında əyləşməyi yadırğamışdı və indi əlini süfrəyə uzatmağa qorxurdu. Qorxurdu ki, stolun üstündəki nemətləri təhərində yeyə bilməz, süfrədən yadırğadığını Nazlının yanında büruzə verər.

Nazlı atasının süfrəyə baxdığını görüb dedi.

– Başla, dədə. Sən yeməsən, boğazımdan loğma keçməz.

Bağır başladı yeməyə. Yuxudan tikəni balaca kəsirdi, xiyar dilimindən balaca dişdəm alırdı, pomidorun nazik falını ağzına bir-bir qoyurdu və Bağıra elə gəlirdi ki, heç nə yemir.

Nazlı əlini süfrəyə uzadanda Bağırın içində küt ağrı təkin səngiyib qalmış dumanlı-pərdəli xatirələr birdən-birə dirçəldi. Uzaqda qalmış illər Bağıra bir an, bir gün, lap dünən kimi göründü. Hər axşam ata-bala bir süfrə arxasında bax, beləcə üz-üzə otururdular. Onda Nazlı bir əlcə uşaq idi, xalasının yanında qalırdı və deyəsən, anasının yoxluğunu hiss eləmirdi, çünki bircə dəfə də onun adını çəkmirdi, onu soruşmurdu. Yəqin ki, Bəyim xalanın qayğısı, məhəbbəti anasız olduğunu unutdurmuşdu Nazlıya. Bəyim xala sonsuz idi. Əri davada itkin düşmüşdü, Bəyim də saçının birini ağ, birini qara hörüb tək-tənha oturmuşdu ərinin yurdunda, yolunu gözləyirdi onun (ölənəcən gözlədi, nəfəsi ağzından çıxanacan gözləri qapıda qaldı). Bəyim xalası ərköyün böyüdürdü Nazlını, elə bil bu dünyaya ancaq Nazlının qulluğunda durmaq üçün gəlmişdi.

Bağır axşamdan-axşama görürdü Nazlını. İşdən çıxıb gəlirdi Bəyimgilə və Nazlını özü yedizdirirdi...

Nazlı kitabxanaçılıq texnikumunun ikinci kursunda olanda Bəyim öldü.

Nazlı texnikumun üçüncü kursunda olanda atasına bir məktub göndərdi və Bağır bu məktubu oxuyandan sonra qızını ərköyün, sərbəst böyütdüyü üçün ömründə birinci dəfə peşman oldu. Nazlı yazmışdı: "Dədə, burda bir oğlan var, adı Müzəffərdi, məni çox istəyir. Bakıda kinomexanik kursunu qurtarıb, indi burda yekə bir zavodun klubunda kino verir. Əsli-nəsli Masallıdandı, orda təkcə anası var, bir də özündən balaca bacısı var, day heç kimi yoxdu.

Dədə, Müzəffərə ərə gedəcəm, çünki mən də onu çox istəyirəm. Sakit, qanacaqlı oğlandı. İnanıram ki, sənin də xoşuna gələcək... Elçi-filan olmayacaq, dədə, oğlanın fərli adamları yoxdu, anası da neçə ildi ayaqüstü xəstədi, o boyda yolu basa-basa sənin yanına gələ bilməz. Öpürəm səni. Qurban olum sənə, dədə".

Kişi əvvəlcə dilxor oldu, çünki Nazlının bu sayaq ərə getməyi köhnə bazara təzə nırx qoymaq kimi bir şey idi. Necə yəni elçi-filan olmayacaq? Nazlı kimsiz-kimsəsizdi bəyəm? Onu böyüdən var, boya-başa çatdıran var, bir gəlib deməzlər ki, ay kişi, razılıq ver, xeyir-dua ver, zəhmətini, çörəyini halal elə, allahın əmriynən, peyğəmbərin şəriyətiynən sənin qızını oğlumuza alırıq? Necə yəni oğlanın fərli adamları yoxdur? Fərli adamları olmayan kürəkən gərək elə mənim ürcahıma çıxaydı? Elimizin adəti var, qayda-qanunu var – bunu necə pozum mən? Vallah, adamı məsxərəyə qoyub gülərlər. Bu qız nə hoqqa çıxardır özündən?



Bağır Nazlının məktubunu elçilik kimi qəbul eləyib toy gününü gözlədi. Hər ehtimala qarşı altdan-altdan hazırlıq gördü. "Birdən qəfil gələrlər".

Bağırın gözləri yolda qaldı, qulağı səsdə, ancaq toydan xəbər-ətər çıxmadı. Bağır bu məsələni unudhaunudda Nazlıdan məktub aldı. "Dədə, mən də yataqxanadan çıxmışam, Müzəffər də. Balaca bir otaq kirayələmişik. Düzdür, hələlik şey-şüyümüz yoxdu, amma babat dolanırıq. Müzəffərin maaşı yemək-içməyimizə çatır.

Mən də məktəbi qurtarıb işləyəcəm, ondan sonra vəziyyətimiz yaxşı olacaq. Öz evimiz olanda, inşallah, hər şey alacağıq, mebel-filan, nə lazımdırsa, düzələcək. Məndən nəyran qalma. Öpürəm səni. Qurban olum sənə, dədə..."

– Çirkli pal-paltarını yığışdır, gətir, yuyum, – Nazlı samovardan çay süzüb atasının qabağına qoydu. – Evdə sabun var?

– Sabun alaram.

Bağır bayaqdan bəri süfrədən çəkilmişdi. Nazlı hələ yeyirdi, ancaq könülsüz-könülsüz yeyirdi. Hərdən gözləri yol çəkirdi və ağzındakı tikəni çeynəməyi elə bil yadından çıxarırdı. Bir tərəfdən Nazlının tutqunluğu, bir tərəfdən də eyvandakı istilik Bağırı təntitmişdi. Bunların hamısından betəri eyvana dolan kabab iyi idi. Bağır iri dəsmalla üzünün, boynunun tərini silə-silə fikirləşirdi ki, onun canını yandıran günəşin istisi deyil, Namazın həyətdəki manqalın odudur. Bağırın yadına meşə düşdü, Dədə palıd düşdü. Yəqin indi Nurcabbar baba Dədə palıdın qapqara kölgəliyində uzanıb mürgü döyür, ya da nəsə yazır. Dədə palıd da çətir olub onun başının üstündə, günəşin odunu zərrə-zərrə udur və öz yaşıl yarpaqlarının şeh sərinliyini ələyir yerə... Dədə palıdın sərin kölgəliyindən ötrü Bağırın burnunun ucu göynədi. Bağır qeyri-iradi burnunu çəkdi, kababın iyi boğazına dilçəyinə, ciyərlərinə yayıldı.

Deyəsən, kababın iyi Nazlını da tutmuşdu. Elə bil kababın iyi indi yediklərini Nazlının gözündən salmışdı.

Bağır, qızının bir nöqtəyə zillənmiş gözlərinin içinə baxdı, bu gözlərdə dalğınlıq gördü və başa düşdü ki, Nazlını keyləşdirən kabab iyi

deyil. Nazlı içini didib-dağıdan hansı dolaşıq fikirlərinsə əlində naçar qalıb. Bu vaxtacan qızını belə halsız, belə qüssəli görməmişdi Bağır. Nazlı ən ağır anlarında da deyib-gülmək üçün bəhanə tapırdı və həmişə Bağıra elə gəlirdi ki, Nazlı bu dünyada dərd-kədərin varlığından bixəbərdi. Bəs indi Nazlıya nə olub? Bu nə qəmdi bürüyüb onu?

– Nazzı bajı! Ay Nazzı bajı!

Nazlı yerindən tərpənmədi, başını qaldırıb eyvanın açıq qapısından hasara tərəf baxdı.

Bağır da qanrılıb səs gələn səmtə nəzər saldı, Namazın qıvrımsaç, kiçik qızı barının üstündən boylanırdı. Həmişə bu qızın kilkələri üzünə tökülüb gözlərinin üstünü örtərdi. Qıvırcıq telləri indi də üzünə səpələnmişdi, sol gözü tamam görünmürdü. Uşaq barının üstünə qoyduğu mis ləyəni iki əllə bərk-bərk tutmuşdu. Qız bircə gözüylə Bağırı da görürdü, Nazlını da – aynabəndlə barının arası dörd-beş addımdan artıq olmazdı – ancaq çox bərkdən çağırırdı, guya yeddi ağaclıqdakı adamı haylayırdı.

– Nazzı bajı! Ay Nazzı bajı!

Nazlı qalxıb aynabənddən çıxdı.

Bağır üzünü bu yana göndərmişdi, amma qulağı çöldə idi, uşağın dediklərini açıq-aydın eşidirdi.

– Bunu qağam göndərib, Nazzı bajı. Kababdı. Qağam deyir, issi-issi yesin. Deyir, Nazzı bajı yol gəlib, yəqin öydə heç nə hazırramayıb.

Bağır elə bildi ki, Nazlı qonşu payını geri qaytaracaq, amma Nazlı mis ləyənlə qayıtdı, özü də gülə-gülə, sevinə-sevinə:

– Bir-iki tikə də sən ye, dədə – dedi.

Bağır başını buladı:

– Mədəm belə şeyləri əritmir, – dedi və fikirləşdi ki, Nazlı nahaq götürdü bu payı. Bu kababın hesabına Piti Namazın dili açılacaq, Piti Namaz nə vaxtsa, məhlə söhbətini yenə salacaq ortalığa və "verdiyim kabab burnunuzdan gəlsin" deyə-deyə Bağırın canını boğazına yığacaq.

Nazlı ləyəndəki isti kababa baxa-baxa nəsə fikirləşdi, ləyəni qırağa itələyib, vacib bir sirr açmaq qərarına gəlibmiş kimi nazik qaşlarını çatdı.

– Bilirsən nə var, dədə, – Müzəffərdən ayrılmışıq.

Bağır key-key qızına baxdı. Qəribədir ki, bayaq tut ağacının altında keçirtdiyi qorxu hiss indi onun içini bürümədi. Bağırın ürəyini üzən nigarançılıq Nazlının bircə cümləsiylə sovuşub getdi. Sanki bu günü həsrətlə, intizarla gözləyirmiş. Bağır daxilində bir yüngüllük, bir arxayınçılıq duydu və bu qəribə arxayınçılığa özü də məəttəl qaldı.



Nazlı atasıyla üzbəüz oturub, gözlərini onun başının üstündən aynabəndin qapısına dikdi.

– Təngə gəlmişəm, – dedi. – Adam evsiz-eşiksiz, onun-bunun küncündə nə qədər yaşayar? Neçə ildi mənzil ala bilmir. Day canım boğazıma yığılıb. Biryolluq ayrıldıq. Geri qayıdan döyüləm. Vəssəlam!

Nazlı kirpiklərini qırpa-qırpa atasının dillənməyini gözləyirdi. Bağır da qızının saçındakı ağ zolağa baxa-baxa cavab axtarırdı, di gəl ki, yadına bircə kəlmə də söz düşmürdü.

Otaqdan Tünzalənin səsi gələndə elə bil Bağırın çiynindən dağ yükü götürüldü.

– Deyəsən, Tünü oyandı. Gedim, görüşüm, – dedi və qalxıb, tələsik addımlarla Tünzalə yatan otağa tərəf yeridi.

Bağır həmişə Nurcabbardan tez oyanardı, amma bu səhər gözlərini açanda Nurcabbarı yerində görmədi.

Nurcabbar çöldə də dəymədi Bağırın gözlərinə Bağır ağılın salxaq, taxta qapısını açdı. Heyvanlar bir-birilərinə sürtünə-sürtünə ağılın dar qapısından çıxıb, dəstəylə üz qoydular meşənin ayağındakı talaya tərəf. Bu ağılı Bağır qarağac çubuqlarından düzəltmişdi. Mal-qaranı gecələr bura salırdı – açıqda saxlamaqdan qorxurdu – çünki bunların çoxu əmanət idi. Canavar nə bilir əmanət nədi?

Bağır atı meşəyə buraxandan sonra komanın qabağındakı taxta çəlləkdən su götürüb, əl-üzünü yumağa başladı. Yuyuna-yuyuna fikirləşdi ki, Nazlı ata ocağına qayıtmaqda yaxşı iş görüb. Öləndə Bağırın day nisgili qalmaz. Bağırın evi yadlara qismət olmayacaq, satışa qoyulmayacaq. Bağırın yurdunda Nazlı çıraq yandıracaq. Düzdür, Tünzalənin atasız qalmağı Bağırın ürəyincə deyildi, bu da Bağıra bir dərd olmuşdu, ancaq dünyada bundan da betər dərdlər var. Axı, Nazlı kimin qızından əskikdi? Nazlı niyə ömrü boyu kirayədə qalsın? İt itdi, a kişilər, onun da öz damı var. Toyuq-cücənin öz hini var. Əgər Müzəffər əsl ər, əsl ata olsa, köçüb arvad-uşağının yanına. Hökmdür, gərək şəhərdə veyillənə? Bəyəm burda klub yoxdu? Gəlsin, kinosunu burda versin də. Qınından çıxıb, qınını bəyənmir – rayonlu balasıdır, bərk-bərk yapışıb şəhərdən, min əzaba dözür orda – guya kənddə-kəsəyə qayıtsa, dünya qara geyəcək. Əgər Müzəffərin, doğrudan da, qeyrəti, kişiliyi varsa, gəlsin rayona, yaşasın Bağırın gen-bol mənzilində. Əgər qeyrəti yoxdursa, qoy rədd olsun, dalıycan da bir qara daş. Bağıra elə kürəkən lazım deyil, Nazlıya elə ər lazım deyil, Tünzaləyə elə ata lazım deyil.

Vallah, adam özü-özünə təsəlli verməsə çox yaşaya bilməz. Adamı sakitləşdirən, arxayınlaşdıran təsəlli də, bəlkə yalan da var, ancaq bu yalan yaraya məlhəmdirsə, dərdə dərmandırsa – qoy olsun.

Təsəllisinin yalan, ya gerçək olduğunu Bağır bilmirdi. Təkcə onu bilirdi ki, Nazlının qayıtmağıyla onun evinə bərəkət qayıdıb, duz-çörək qayıdıb, səliqə-sahman qayıdıb və nəhayət, Nazlının qayıtmağıyla Bağırın evinə Qələmin nəfəsi qayıdıb. Nazlının gəlişi Bağırın ürəyindəki əbədi qorxunu – bir damın altında kimsəsiz can vermək qorxusunu qovub çıxardıb...

Bağır yuyunub qurtarandan sonra Dədə palıdın təpəsinə baxdı. Nəzərləriylə quru budağı ha axtardı, ha axtardı, tapa bilmədi. Quru budaqdan, sapsarı yarpaqlardan əsər-əlamət qalmamışdı. Bu nə möcüzədi, fələk? Qurumuş, ölmüş budaq da dirilərmi?

Maşın tırıltısı eşidəndə Bağır Dədə palıddan nəzərlərini çəkdi. "Moskviç"in burnu ağacların arasından çıxanda Bağır üz qoydu Kürə tərəf.

Kim bilir, Nurcabbar nə vaxtdan dayanmışdı burda. Bircə nöqtəyə baxırdı – təzəcə çırtlamış günəşin narıncı haləsi səyriyirdi orda. Bulanıq su qırçınlana-qırçınlana axırdı, qırçınlar halənin şəfəqində narıncı rəngə boyanıb ötürdü və adama elə gəlirdi ki, su bu halənin altından qaynayıb çıxır.

Nurcabbar, deyəsən, ürəyində danışırdı. Hərdən onun batıq dodaqları tərpənirdi, qaramtıl üzündəki qırışlar nazılıb-enlənirdi.

Bağır cınqırını çıxartmağa, Nurcabbarın fikrini dağıtmağa cəsarət eləmirdi.

Handan-hana Nurcabbar özü dilləndi:

– Sən burda nə gəzirsən? – dedi. – Sən ki, suyun dilini başa düşmürsən.

Başqa vaxt olsaydı Bağır deyərdi, suyun dili yoxdu, qardaş, özündən hoqqa çıxartma. İndi Nurcabbarın sualını qulaqardına vurdu, səsi tutula-tutula:

– Möcüzə görmüşəm, – dedi. – Dədə palıdın quru budağı...

Nurcabbar Bağırın sözünü ağzında qoydu – o budağı mən kəsmişəm, – dedi və təzədən gözlərini suyun üzündəki narıncı haləyə zillədi.

Bağır çaşqın-çaşqın gülümsədi. Bayaqkından da bir az batıq səslə soruşdu:

– Necə yəni... kəsmişəm?



Bu sualdan xoşu gəlmirmiş təkin Nurcabbar qaş-qabağını salladı.

– Sən yuxuda olanda balaca mişarı götürüb, dırmaşdım Dədə palıdın kəlləsinə. Quru budağı dibindən kəsdim. Elə kəsmişəm ki, nişanəsi də qalmayıb, gənnən yüz göz baxsa da görməz.

Bu Nurcabbarın qarnının sirrindən fələk də baş aça bilməz. Nə hoqqa desən, çıxardar özündən. Budağı kəsmək kimin ağlına gələrdi? İndi də deyir suyun dili var.

Bağır da Nurcabbarın baxdığı səmtə baxdı: gözlərini suyun üzündəki haləyə zilləyib qulaq verdi. Kür səssiz-səmirsiz axırdı, heç nə demirdi Bağıra.

Arxadan səs eşidəndə Bağırın kürəyi gizildədi...

– Sabahınız xeyir... Su üstəsiz, aydınlığa çıxasız.

Piti Namaz idi. Meşədən bura gəlib çatanacan pörtmüşdü. Qalın qaşlarının üstündə şehə oxşayan tər damcılarını iri yaylıqla silə-silə:

– Bağır dayı, bura niyə qaçmısan? – dedi. – Elə bilirdin genə səni işlədəcəm? Ürəyimə dammışdı ki, büyün yaxanı ələ verməyəcəksən. Özümnən iki nərçə gətirmişəm, dirrikdə doldururlar maşını... mənnən qaçma, Bağır dayı. Qorxma. Niyə qorxursan?

Nurcabbar suya baxa-baxa Bağırın əvəzinə cavab verdi:

– Sənnən qorxan-zad yoxdu. Əzrayıl döyülsən ha.

Piti Namaz eynini də pozmadı. Yaylığı bürmələyib alnında gəzdirə-gəzdirə:

– Bilirəm, əşi, – dedi, zəhlən gedir mənnən, bilirəm. Təkcə onu bilmirəm ki, nə pisliyim keçib sənə?

Sanki Nurcabbar bu suala bənd imiş və Namazla deyişməyə, ürəyini boşaltmağa məqam gəzirmiş. Üzünü Piti Namaza tutub:

– Sən mənə pislik eləyə bilməzsən! – dedi. Bunu elə acıqlı dedi ki, uzun boğazının gömgöy damarları burum-burum şişib çeçələ barmaq yoğunluğunda oldu. – Neyləyəcəksən mənə?! Sənin o zibilli kababxanana da getmirəm ki, üç tikə ət verib, pulumu əlimdən alasan! Deyəsən, Namaz hirsləndi.

– Əkşi, mən camaatın cibinə girmirəm! – dedi. – Heç kimin pulunu əlindən zorınan almıram! Camaatın yaxasından tutub kababxanaya dartmıram mən. Gəlirlər, qarınlarını doyuzdururam. Yamanlıq eləyirəm? İstəmirlər, gəlməsinlər! – Cərə gəlsinlər, cəhənnəmə gəlsinlər. – Danışığına ara verib, enli, qabarıq sinesi az qala çənəsinə dəyə-dəyə nəfəsini dərdi. Sonra elə bil birdən-birə yazıqlaşdı, iri, qara gözlərini,

pörtmüş üzünü məsum bir ifadə bürüdü. Səsini aşağı salıb: – Əkşi, ay Nurcabbar, – dedi, – bilsən ki, o pulu nə zülümnən qazanıram, qanımı it qanına döndərməzsən. Qəpeyi qəpeyin üstünə qoyanacan dəridən-qabıqdan çıxıram. Gendən baxana hasand gəlir. Kababxananın min dərdi, min əngəli var. Bircə saat işləyə bilməzsən orda, əkşi. İnandığımız haqqı, qara fəhləlik onnan min pay yaxşıdı. Dolanmağın çatısını salmışam boğazıma, dözürəm.

Nurcabbar dinmədi. İndi suya da baxmırdı. Kürün o tayındakı yulğun kollarına baxırdı. Daha əvvəlki təkin qəzəbli, fikirli görünmürdü. Xırda gözlərində, qaramtıl sifətində, batıq dodaqlarının yanlarında güclə seziləcək istehzalı bir təbəssüm dolanırdı. Bu təbəssüm Piti Namazın nəzərindən yayınmadı. Piti Namaz da başladı istehzayla gülümsəməyə:

– Bilirəm, niyə mənnən zəhlən gedir, – dedi. – Mənim pulum çoxdu. Çox zəhmət çəkirəm, çox qazanıram, amma sən bu dünyada bir şeyin yiyəsi döyülsən, xətrinə dəyməsin, əlin heç yana çatmayıb, ona görə də paxıllığın tutur mənə. Qaldı sənin yazdıqların, incimə, onlara bir qara qəpey verən yoxdu. Heç kim Nizamini, Füzulini qoyub, sənin cızma-qaranı oxumayacaq, ondan xatircəm ol, əkşi.

Namaz güman eləyirdi ki, Nurcabbarın yaralı yerinə toxunub və şübhəsiz, Nurcabbar onu cavabsız qoymayacaq. Namaz, doğrudan da, Nurcabbarın yarasının gözünün qopartmışdı, ancaq Nurcabbar bu ağrıya dözə-dözə dururdu. Nurcabbar onsuz da, ürəyini boşaldıb, Namazdan acığı gəldiyini deyib ona. Kifayətdi.

Meşədən "Moskviç"in uzun-uzadı siqnalı eşidildi. Deyəsən "nərçələr" işlərini qurtarmışdılar.

Namaz başını bulaya-bulaya geri döndü, iki-üç addım gedib dayandı. Çevrilib, bu dəfə Bağıra zəndlə baxdı. Nəsə demək istəyirdi ki, amma elə bil tərəddüd eləyirdi: "Deyim, deməyim?" Axırı ki, dedi. Səsi elə yumşaq, elə kövrək çıxdı ki, Bağır az qaldı qəhərlənsin, çünki Piti Namazın belə mülayim, belə məhrəm danışdığını ömründə birinci dəfə eşidirdi.

– Mənnən nahaq qaçırsan, Bağır dayı. Gor qonşuyusuq, bir-birimizə lazımıq biz. Allah eləməmiş, sənin başına bir iş gəlsə, hayına birinci mən çatacam... Dilim-ağzım qurusun, mənnən qabaq ölsən, sənin meyidini yerdən mən götürəcəm. Vallah, səninkilər özlərini Bakıdan bura çatdıranacan meyidin ortalıqda qalar, əkşi. Onların əli sənə



vaxtında yetməyəcək, Bağır dayı, nə zəhmətin olsa, bu qonşun çəkəcək. – Yumruğunu sinəsinə vurdu. – Mən namərd adam döyüləm.

Namaz köks ötürüb susdu. Bağır gözlədi ki, bu dəqiqə Piti Namaz deyəcək: Dünən verdiyim kabab burnunun iki deşiyindən gəlsin", amma Namaz yaylığı tərli boynuna basıb, ayaqlarını sürüyə-sürüyə uzaqlaşdı və nədənsə, Bağır inandı ki, Namaz ağlaya-ağlaya gedir.

Piti Namazın sözlərini, şübhəsiz, Nurcabbar da eşitmişdi. Nurcabbar Bağırla yanaşı dayanmışdı, ola bilməzi ki, Piti Namazın kövrələ-kövrələ dediklərini eşitməsin. Bağır gözləyə-gözləyə qaldı ki, görsün Nurcabbar bu barədə nə fikir söyləyəcək. Nurcabbar heç qımıldanmadı da. Nurcabbar bu aləmdən, deyəsən, çox uzaqda idi, deyəsən, Piti Namazın kəlamlarını qulağı çalmamışdı. Nurcabbarın qulaqlarında ancaq özünün eşidə biləcəyi səs vardı. Ürəyində ancaq özünün duya biləcəyi hisslər, beynində ancaq özünün dərk edə biləcəyi fikirlər dolanırdı. Bu an, o, bəlkə, Bağırın bir addımlıqda dayandığını yadından çıxartmışdı. Bəlkə qarşısında ahəstə-ahəstə axan Kürü yerli-dibli görmürdü. Nurcabbar əllərini arxasına qoyub, qıyıq nəzərlərini Kürün o tayındakı yulğunluğa dikmişdi.

Bağır da əllərini, Nurcabbar kimi, arxasına qoydu, gözlərini Kürün o tayındakı yulğunluğa zilləyib Nurcabbar kimi fikrə getdi. Əvvəlcə fikirləşdi ki, görəsən Nurcabbar nəyin xiffətini çəkir, nə nisgili, nə yarası var onun? Əgər Nurcabbar təkliyi, kimsəsizliyi özünə dərd eləyirsə – nahaq yerə. Bu məlum dərddi, Nurcabbar bununla çoxdan barışıb sakitləşməliydi. Bir dərdin ki, çarəsi olmaya, o dərdi gəzdirməyin nə faydası? Yox, əgər Nurcabbarın ayrı dərdi, ayrı ağrısı varsa, niyə bir adama ürəyini boşaldıb yüngülləşmir? Üç ildi gecəbəgündüz bir yerdəyik, hələ içindən xəbərim yoxdu onun. Ürəyinin qapısından yekə bir qıfıl asıb. Haçarını da qoyub cibinə. Sağolmuş, suya pənah gətirir, ürək qızdırır, mənə yox. Elə səhər-axşam Kürün qırağında dayanıb nəsə pıçıldayır. Nə deyir Kürə bu? Bəs Kür buna nə deyir, nə cavab verir? Vallah, çox fikirləşməkdən bu yazığın başına hava gələcək. Elə çox fikirləşməkdən bu kökə düşüb də. Altmış iki yaşı var – məndən cəmi-cümlətani üç yaş kiçikdi – amma buna bax, deyirsən bəs, yüzü çoxdan addıyıb. Saçı-saqqalı dümağdı, üzü qırış-qırışdı, ağzında vur-tut beş-altı dişi qalıb. Yox, qardaş, dünyanın dərdini çox götür-qoy eləmək lazım döyül. Çox götür-qoy eləyərsən, çox dərinə gedərsən, Nurcabbarın kökünə düşərsən.

Sonra Piti Namazın sözlərini xatırladı Bağır, bilmədi hirslənsin, ya kövrəlsin. "Mənim meyidimi yerdən Namaz niyə götürməlidi? Nazlı gəlib, özü də həmişəlik gəlib. Nazlı olan yerdə Namaz kimdi? Nazlını yüz oğula dəyişmərəm. Sözünə bax bunun "gor qonşusuyuq, bir-birimizə lazımıq". Yox, Namaz, gözün var mənim ev-eşiyimdə, nəyə desən and içərəm, gözün var. Mənim ölməyimə bəndsən. Bəlkə sən məndən tez öldün, ay düdəmə! Fələyin gərdişini nə bilmək olar. Qırx yaşın ola-olmaya, amma on addım yol gedən təkin tər basır səni. Yəqin ürəyin piy bağlayıb sənin, Namaz, bala, piyli ürəyə etibar yoxdur. Heç piysizə də etibar yoxdu, vallah. Dayandı, dayandı də, neynəmək olar?.. İpi əlimizdə döyül ki, tutub çəkək".

Bağır Kürün qırağında nə qədər dayandığını deyə bilməzdi, ancaq qıçlarının ağrımağından başa düşdü ki, çox dayanıb burda. Uzaqdakı yulğunluğa baxmaqdan gözlərinin toyşu getmişdi. Kürə nəzər saldı, su gözlərinə yulğun rəngində göründü. Kürü qara-qırmızıya çalırdı, şırıltısız-gurultusuz axırdı, Bağırın baxışlarını da, kəməndinə salıb, ahəstə-ahəstə axıdırdı. Bağırın gözlərindəki ala-toran pərdə bir azdan yavaş-yavaş çəkildi və Bağır Kürü öz donunda gördü. Bulanır, narın ləpələr bir-birini itələyə-itələyə, bir-birində əriyə-əriyə gedirdi. Bu endə, bu uzunluqda çay səsini içinə salmışdı, təkcə nəfəsi, həniri duyulurdu çayın. Kür boyunu da qısmışdı. Sahilin qat-qat, dilim-dilim, oyuq-oyuq sarımtıl divarından bilmək olurdu ki, Kür vaxtilə sahillə dodaqbadodaq axıb, bir yerdə qərar tutmayan soyuq diliylə yalayıb, yaralayıb sahili... O tayda – Kürün lap qırağında böyürtkən kolları, tikanlıq, yulğunluq görünürdü. Bu tayda da Kürün sahili eynən elə idi. Və çox baxanda bu eynilik adamı darıxdırırdı, yorurdu, adama qüssə gətirirdi.

Bağır hiss elədi ki, boynunu, kürəyini gün yandırır. Bayaqdan burda dayanmağına peşman olubmuş kimi başını buladı.

– Yoldaş İdrisovun düyəsi yelinləyib, – dedi. – Birdən doğar, xəbər tutmaram.

Bağır tələsə-tələsə meşəyə doğru getdi, Nurcabbar da cığırı ölçürmüş təkin ləng, ancaq iri addımlar ata-ata onun dalınca düşdü...

İdrisov gələndə Dədə palıdın kölgəsi enlənib, uzanıb komanı altına almışdı. Şoferi ola-ola "QAZ-69"u müdir çox vaxt özü sürərdi, indi də tək gəlmişdi. İdrisov Kürün qırağındakı meşəyə iki-üç gündən bir – axşamüstülər – baş çəkərdi, maşının yük yerini şey-şüylə doldurub



qayıdardı. Bağır günün qızmar vədəsində İdrisovun bura ayaq basdığını, görməmişdi, indi görəndə məəttəl qaldı: "Görəsən, nə olub?"

İdrisov kabinet adamı deyildi, vaxtının çoxunu təzə meşədə keçirirdi. Bütün fikrini-zikrini təzə meşəyə verirdi, "təzə meşənin gələcəyi var", – deyirdi.

Müdir maşından düşdü, salam-kalam eləməmiş aralıdan üzünü Bağıra tutub soruşdu:

– Düyənin halı nə təhərdi?

Müdirin meşəyə təntik gəlməyinin səbəbi Bağıra indi çatdı. Bağır:

– Hələ doğmayıb, – dedi, – amma bu gecədən ötürməz.

– Gözdə-qulaqda ol ha, tələf olar.

İdrisov bu sözləri deyəndən sonra arxayınlaşıb, maşından aralandı, yarımqol köynəyinin yaxasını aça-aça Dədə palıdın altındakı çarpayının yanına gəldi. Bağır çarpayıdan düşüb, dik dayandı, Nurcabbar necə oturmuşdusa, eləcə də qaldı.

Müdir əyləşməyə tərəddüd eləyirmiş kimi çarpayının üstündən mütəkkəyə, köhnə palaza diqqətlə baxdı (bu uzun, enli taxta çarpayını Bağır neçə il idi ki, gətirib qoymuşdu Dədə palıdın altına, qışda da götürmürdü onu burdan).

Bağır mütəkkəni müdirə tərəf itələdi.

– Dirsəklən, – dedi.

İdrisov yanını çarpayının qırağına qoydu, özü də elə ehtiyatla qoydu ki, elə bir çarpayının sınacağından qorxurdu.

– Bağır qardaş, suyun varmı? – dedi.

Bağır, Dədə palıdın dibindəki cürdəyi götürdü. İdrisov oturduğu yerdə əllərini paçasının arasında qoşalaşdırdı. Bağırın cürdəkdən tökdüyü suyla ovcunu doldurub üzünü, boyun-boğazını yudu, yaş barmaqlarıyla kürən saçlarını daraqlaya-daraqlaya soruşdu:

– Nə var, nə yox? – Sualına cavab almamış, üzünü Nurcabbara tutdu. – Sən nə təhərsən? – dedi.

Nurcabbar əvvəlcə başını qaldırıb Dədə palıdın çətirinə baxdı, sonra çəyirtkə dizləri kimi dikəlmiş dizlərini tərpədə-tərpədə cavab verdi.

– Dünyadan şikayətim yoxdu.

Müdir, ovurdunu havayla doldurub, açıq sinəsinə üfürdü.

– Burda yaxşıca sərindi, – dedi. – Rayondan xəbəriniz yoxdu, istidən qırılırıq orda. Belə yay görməmişəm. Hələ iyun ayı qurtarmayıb, göydən od tökülür. Bunun iyulu, avqustu necə olacaq?

İdrisov cavan idi. Amma bu cavan adamın beş qızı vardı. Deyilənə görə, qızlarının hamısı üçün indidən cehiz tədarük eləmişdi, lap balacasının – yeddi yaşlı qızının da cehizi guya hazır idi. İdrisovun əsli buralı deyildi, bura hardan gəlib çıxmağını da doğru-dürüst bilən yox idi, ancaq bu yerin camaatıyla elə qaynayıb qarışmışdı ki, heç kim onu gəlmə gözündə görmürdü. Bir toydan, bir yasdan qalmazdı İdrisov. Onun da xeyir-şər işində bu elin camaatı qıraqda dayanmazdı. Hamı familiyasıyla çağırırdı onu, elə bil anadan olandan adını "İdrisov" qoymuşdular. Güləş adam idi, üzündə əbədi bir təbəssüm vardı. Danışana qulaq asanda daima gülümsəyirdi, elə bilirdin müsahibinin sözlərindən şübhələndiyi üçün gülümsəyir.

Bağır müdirini fərasətli, tədbirli, ağıllı adam hesab eləyirdi. Meşədə mal-qara saxlamaq, pətək qoymaq, dirrik əkmək, əlbəttə, ağıllı adamın ağlına gələrdi. İdrisov əvvəlcə meşəyə iki qoyun gətirib, əmanət kimi tapşırdı Bağıra. "Qoy otlasınlar burda, – dedi – Xeyirdə-şərdə lazım olar". Bir aydan sonra iki qoyun da gətirdi. "Qat bunların yanına" – dedi. – Qoyunlar törəyib artdıqca İdrisovun da mal-qara saxlamağa həvəsi artdı. Kürün o tayındakı kəndlərin birindən iki inək, bir camış alıb gətirdi, buraxdı meşəyə. "Bizə nə ziyanı var bunların? – dedi. – Ağartı üçün onun-bunun qapısına getmərik". Sonra İdrisovun könlünə bal düşdü və meşədə pətəklər yan-yana düzüldü.

Bağır müdirinin ağartı-filanına şərik olmaq istəmədi. İki qoyun aldı, bir inək aldı, İdrisovun pətəklərindən azacıq aralıda iki pətək qoydu. Gördü ki, mal-qara saxlamaq yaxşı şeymiş: nə bazara möhtac olursan, nə qonum-qonşuya. Həm də heyvanlara qulluq eləməyin o qədər əziyyəti-zadı da yoxdur. Nə qulluq, nə əziyyət? Allahın meşəsidir də, heyvanlar yay-qış otlayırlar burda.

Vallah, İdrisov ağıllı adamdır, a kişilər, tədbirli adamdır. Qoyun-quzusu, inək-camışı artdıqca artığını bir ucdan satır. Bal da satdırır, süd də, pendir də satdırır. Halal xoşun olsun, öz malında xeyir götürür, özgə malında gözü yoxdur...

İdrisov dincini alandan sonra qalxdı.

– Bağır qardaş, bəri dur görüm – dedi. Bağırın qolundan tutub onu dirriyə tərəf çəkdi. – Uşaqların azuqəsi qurtarıb ha.

Bağır:

– Bir yeşik pomidor dərmişəm, – dedi, – bir yeşik də xiyar.

– Qoyarsan baqaja... Pendir mayalamamısan ki?



– Pendir də var, axşam sağdığım süd də durur.

– Onları da qoy maşına.

İdrisov gendə dayanıb, gözlərini zillədi dirriyə.

– Yaxşıdı ha, – dedi.

– Gəlsin, yaxşı olmasın, ağılın bütün peynini bunun şumuna tökmüşəm.

– Vallah, əjdahasan, Bağır qardaş.

İdrisov özündən böyüklərin adının yanına "qardaş" sözü qoyurdu. Əvvəllər Bağırın xoşuna gəlmirdi bu, Bağır buna yekəxanalıq kimi baxırdı. Sonralar Bağırın qulaqları öyrəşdi, hətta, İdrisov ona "Bağır qardaş" deyəndə Bağır elə bilirdi cavanlaşır, İdrisovla həmyaş olur...

Müdir pətəklərə də gendən durub baxdı. Həmişəki kimi mal-qaranın vəziyyətini xəbər aldı. Axırda da, həmişəki kimi Bağıra: "Yaşa" – dedi.

İdrisovun "yaşa"sından sonra Bağır başının yük yerinə iki yeşik qoydu, bir vedrə pendir qoydu, bir sərnic süd qoydu.

Müdir maşına tərəf gedə-gedə birdən dayanıb, Dədə palıdın kəlləsinə baxdı, çaşqın-çaşqın gülümsədi.

– Quru budaq hanı? – dedi. – Kim kəsib bunu?

Nə Bağır dindi, nə Nurcabbar.

İdrisov başını bulaya-bulaya "QAZ-69"a oturdu. Motoru işə saldı.

– Bağır qardaş, düyə amanatı, – deyib maşını tərpətdi.

Gecə İdrisovun düyəsi ağılda doğurdu. Bağır qollarını çırmalayıb düyənin arxasında çöməlmişdi. Nurcabbar neft çırağını çənəsi bərabərinə qaldırıb, düyənin qabaq tərəfində dayanmışdı və bir əlilə heyvanın qaşqasını tumarlayırdı.

Düyə hərdən başını döndərib, çuval kimi şişmiş böyrünə baxırdı. İç-içalatı tökülürmüş təkin qırıq-qırıq, ağır-ağır nəfəs alırdı. Dımır-dımır, odlu diliylə bir-iki dəfə Nurcabbarın əlini yaladı, sanki "qurtar məni bu ağrıdan" demək istəyirdi.

Nurcabbar çırağı bir az endirib, düyənin əzabdan böyümüş gözlərinə baxdı və ona elə gəldi ki, bu gözlərin haşiyəsində sevincə, qürura bənzər bir ifadə var. Nurcabbar bunu belə yozdu ki, düyə doğmağına sevinir və düyənin küt, lal hissələri dilə gəlib ona deyir ki, dünyada ən xoş əzab, ən xoş ağrı doğmaq əzabı, doğmaq ağrısıdı. Nurcabbar barmaqlarını düyənin qaşqasında gəzdirdi.

– Döz, ay bəxtəvər, döz – dedi...

Bağır yumurtadan təzəcə çıxmış cücə təkin titrəyən, gözləri yumulu buzovu yerə qoyanda Nurcabbar soruşdu:

– Erkəkdi, dişi?

Bağır buzovun ağımtıl, nazik maye pərdəyə bələnmiş yaş belini sığallaya-sığallaya:

– Dişidi, – dedi.

Nurcabbar çırağı başının üstünə qaldırdı.

– Həə, – dedi, – İdrisov yoldaşın külfətində bir qız da artdı.

Düyə gah quyruğunun altını yalayır, gah da başını uzadıb, diliylə buzovun üzünə, yumulu gözlərinə sığal çəkirdi. Bu an Nurcabbarın ürəyini mərhəmət hissi bürüdü. Fikirləşdi ki, dünyaya bir varlıq gəlib. Ağlı, dili olmasa da, canlıdır. Zərrədən, damcıdan yaranıb. Dünyanın heyrəti, xoşbəxtliyi, əbədiliyi ondadır ki, canlılar da doğur, cansızlar da. Torpaq yarandığı gündən hamilədir. Bətnində toxumu mayalandırır, cücərdir, sonra zeh yerə qoyub, körpəsini dünyaya gətirir, onu əmizdirir, yedizdirir, ona can verir. Torpağa "ana torpaq" ona görə demirlər ki, onun üstündə ömür sürürlər, sevib-sevilirlər, küsüb-barışırlar və axır – aqibətdə gözlərini əbədi yumub torpağa qarışırlar? Yox, qardaş, yox! Torpağa ona görə "ana torpaq" deyirlər ki, o da ana kimi hamilə olur, ağrı çəkir, doğur, o da ana məhəbbətlidir, ana səxavətlidir, övladcanlıdır. Küləyin əsməyi möcüzə deyil, qarın, yağışın yağmağı möcüzə deyil, yer kürəsinin fırlanmağı da möcüzə deyil. Əsl möcüzə – doğuşdur, törənişdir. Görəsən bu nə gücdü, nə sirdi, nə qüdrətdi təbiətdə? Ağaclar da doğur, balalayır. Bu Dədə palıdın gör nə qədər törəməsi var? Bunlar da dünyaya gəlirlər, böyüyürlər, nəyəsə yarıya-yarıya yaşayırlar, qocalırlar və ölürlər. Gözə görünən hər şeyin əzəli var, ortası var, axırı var, təkcə dünyanın axırı yoxdu. Kim deyir ki, dünya əbədi deyil? Nə qədər ki, torpaq doğur, doğuzdurur, o qədər də dünyanın ömrü uzanacaq... Bəs bu dünyanın ömrünü, heç olmasa, bircə saniyə uzatmaq üçün Nurcabbar neynəyib?

Fikri bu yerə atanda Nurcabbar qəddini düzəldib, köks ötürdü. Daxilində bir boşluq duydu. Sonra bu boşluğu ümidsizlikdən, əlacsızlıqdan doğan qüssə dalğası bürüdü. Bu, Nurcabbarın yaxşı tanıdığı, illərlə ürəyində gəzdirdiyi, hərdən çıxıb, hərdən batan, lakin ağrısız, göynərtisiz bir qüssə idi. Dişsiz, zəhərsiz ilan kimiydi – çalmırdı könül bulandırırdı.



Bağır buzovu əmizdirdi, mayalandırdı, sonra aparıb komaya qoydu...

Onlar Dədə palıdın altındakı çarpayıda oturub çörək yeyəndə gecə yarı olmağa az qalmışdı. Ay meşənin üstünə ağappaq şəfəq salmışdı. Koma da apaydın görünürdü, ağıl da, ağıldakı heyvanlar da. Meh əsmirdi, bir yarpaq da tərpənmirdi, elə bil burda təbiət nəfəsini içinə çəkib susmuşdu.

Bağırın da, Nurcabbarın da qulaqları bu sükuta alışmışdı, onu pozmağa hələm-hələm səy də eləmirdilər, çünki bu sükutdan darıxmırdılar, bezikmirdilər. Meşəyə, meşənin iliklərə dinclik gətirən səssizliyinə elə öyrəşmişdilər ki, daha tünlüyə, qələbəliyə uyuşa bilmirdilər.

Bağır çörəyi iştahla yeyirdi, amma Nurcabbarın yediyi canına yatmırdı, çünki könül bulandıran, dişsiz, mənasız qüssə hələ içindən tamam çəkilib getməmişdi. Pomidoru bir ovurdundan o biri ovurduna ötürüb damağı ilə əzəndə, əmzik soran körpə kimi ağzından marçıltı qopurdu... Yemək də, marçıltı da Nurcabbarı təngə gətirdi. Nurcabbar "Avrora" yandırıb mütəkkəyə dirsəkləndi, istədi ürəkaçan bir şey barədə fikirləşib, içindəki qüssəni qovsun, ağcaqanadlar macal vermədi. Nurcabbar ağcaqanadın sancmağından qorxmurdu, səsindən qorxurdu. Bu balaca zəhər tuluğunun zəhlətökən vızıltısını boynunun ardında eşidəndə bütün bədəni gərilirdi. Ağcaqanadların adda-budda hücumuna gündüz birtəhər dözmək olurdu, elə bil ki, axşam düşürdü, elə bil dünyanın bütün ağcaqanadlarını yığıb tökürdülər bura və ağcaqanadlar adamı yandırıb tökən, iynəli xortumlarını işə salırdılar. Bunun dərdindən Nurcabbar gecələr komada yatırdı, orda ağcaqanad çöldəkinə nisbətən az olurdu, adamın gözlərinə, burnunun deşiklərinə soxulmurdu.

Nurcabbar əlini atıb boynunu şappıldatdı, alnını şappıldatdı, çənəsini qanı çıxanacan qaşıdı, sonra keçdi ayağının altını qaşımağa, nə qədər qaşıdısa da buranın gicişməsini kəsə bilmədi. Ayağın altı bədənin ən qalın yeridi, ha qaşı, xeyri yoxdu, elə bil ağacı, daşı qaşıyırsan. Nurcabbar yavaş-yavaş bütün ayağına yayılan bu göynərtini, yanğını unutmaq üçün fikrini dağıtmağa çalışdı. Üzünü Bağıra tutub kefi durulmuş adam səsiylə soruşdu:

Sən bilən bu meşə necə əmələ gəlib?

Bağır axırıncı tikəsini boğazından ötürüb udqundu. İndiyəcən ona belə sual verən olmamışdı. Heç Bağır özü də bu meşənin necə əmələ gəlməyi barədə indiyəcən düşünməmişdi. Əvvəlcə istədi desin: "Allah yaradıb bu meşəni", ancaq fikirləşdi ki, səfeh cavabdı, bu, belə desə, Nurcabbar onu lağa qoyub gülər.

Bağır bir az götür-qoy eləyib, ağlı kəsən cavabı verdi:

– Meşəni burda Kür salıb, – dedi. – Kür lap qədimdən var, amma meşə sonralar düşüb. Kür daşıb, tökülüb buralara, suyun da içində ağac toxumu-filandı. Yaş torpaq ola, toxum ola – cücərər, cücərməz?

Nurcabbar siqaretini sümürdü. Siqaretin odu kişinin donqar burnunun ucunu, xırda gözlərini zəif, qırmızımtıl şəfəqə boyayıb söndü. Və Bağır onun bir anlığa işıqlanmış gözlərində razılıq ifadəsi görüb sevindi.

Bağırın cavabı Nurcabbarın yadına Kürün kükrəyib – çağlayan vədələrini saldı. Əvvəllər yaman daşardı Kür. Yaz gələndə öhd eləmək olmurdu onnan. Dəliliyi necə tuturdusa, ürcahına çıxanı döşləyib aparırdı. Budey, gözümüzün qabağındakı bu Yastıyol kəndini Kür neçə dəfə dağıdıb? Kürün qabağını almaqçün rayondan əli bel tutanları yığıb tökərdilər bura. Hamı mitil-şitilini də gətirərdi. Neçə gün gecə-gündüz əlləşərdilər, Kürə bənd atardılar. Kür indi səngiyib, indi dilini qoyub qarnına. Mingəçevir tikiləndən sonra köpü alınıb Kürün. Əvvəllər dəlivurğun vurmuşun biriydi bu. Yetdiyinə yetirdi, yetmədiyinə bir daş atırdı.

Nurcabbar siqareti çarpayının qırağına basıb, əzdi, üzünü Bağıra tutub:

– Nağılın dalını oxuyummu? – dedi.

Bağır günahkar adam təkin mat-mat Nurcabbara baxdı. Necə olub ki, nağılın yarımçıq qaldığı yadından çıxıb? Bağır:

– Di başla, sən Allah, – dedi. – Nigaran qalmışam, görüm bunun axırı hara gedib çıxacaq.

Nurcabbar sevincini büruzə vermək istəməyən adamsayağı, sosi boğula-boğula soruşdu:

– Bağır...doğrudan...xoşuna gəlib?

Bağır əlini sinəsinə qoydu:

– Bircə balamın başı haqqı xoşuma gəlib?

Nurcabbar ayağa qalxanda nədənsə Bağıra çox uzun göründü. Ona elə gəldi ki, bu vaxtacan Nurcabbarın yarısı yerdə imiş, indi üzə çıxıb...

Ayın işığı komanın balaca pəncərəsindən süzülüb, içərini ağsarımtıl rəngə boyamışdı. Hələ gözləri dünyaya açılmamış buzov bir küncdə – Bağırın köhnə sırıqlısının üstündə yumağa dönmüşdü, o biri küncdə Nurcabbarın dəmir qapaqlı sandıqçası parıldayırdı.

Nurcabbar dizləri üstə çökdü. Həmişə sandıqçanı açanda "bismillah" deyərdi, indi də yadından çıxarmadı, müqəddəs bir şeyə toxunurmuş kimi dodaqlarının altında:



...Bismillah, – deyib qapağı ehmalca qaldırdı.

Nurcabbarın dünyada bu sandıqçadan qiymətli heç nəyi yox idi. Yanlarına, üstünə gül naxışları vurulmuş bu qədim sandıqça ona anasından qalmışdı. Sandıqçanın içində dəftərlər çin-çin yığılmışdı. Qalını vardı, naziyi vardı, köhnəsi vardı, təzəsi vardı. Hamısının da vərəqləri Nurcabbarın muncuq xəttiylə dolmuşdu.

Nurcabbarın əsl adı Cabbar idi. O gün ki, əlinə qələm alıb ilk nağılını yazmağa başladı, bax onda atası Nurəlinin adının yarısını öz adının qabağına qoyub, oldu Nurcabbar. Kimi bunu əllaməlik, səfehlik hesab elədi, kimi buna ürəyində, kimi aşkarda güldü, amma heç kim bu təzə adın üstündən qələm çəkmədi. Hamı başladı Cabbara "Nurcabbar" deməyə.

Nurcabbarın cəmi bir neçə sinif savadı vardı, di gəl ki, qalın-qalın kitablar əlindən düşməzdi, lap cavanlığından kitab aşiqi idi. Uzun qış gecələrində yatağına uzanıb səhərəcən kitab oxuyardı. Belə gecələrin birində Nurcabbar hiss elədi ki, özü də yazmaq istəyir, həm də nağıl yazmaq istəyir. Nurcabbarın ürəyi dolu idi və ürəyini boşaltmaq üçün qələmə sarılmaqdan savayı əncam görmürdü... "Bismillah" deyib ilk nağılını yazmağa başladı və bu yazan düz davaya gedənəcən sərasər yazdı. Əsgər gedənlər evlərinə məktub yazardılar. Nurcabbar kağızın qıt vaxtında saralmış, cırılmış vərəqlərə hərdən nağıl yazardı, həm də hərfləri xıpxırda yazardı ki, nağıl çox yer tutmasın. Elə o vaxtdan Nurcabbarın xətti xırdalaşdı. Nurcabbar davada bircə nağılı da başa çatdıra bilmədi. Nağıl yazmaq vədəsi deyildi axı, nağıl yazmağa vaxt, imkan nə gəzirdi? Müharibəyə gəlmişdin – gərək düşmənlə vuruşaydın, Nurcabbar da kişi kimi vuruşurdu.

Əsgərlikdən qayıdandan sonra Nurcabbar davada başladığı nağılı yazıb qurtardı. Nağılın üstünə iki səhifəlik bir məktub qoyub, poçtla göndərdi Bakıda çıxan ən "yekə" jurnala".

Nurcabbarın nağılını çap eləmədilər. Dalbadal iki təzə nağıl göndərdi, onları da bəyənmədilər. Daha Nurcabbar redaksiyaya heç nə göndərmədi, yazdıqlarını çin-çin yığdı sandıqçaya.

Anası Nurcabbarı çox istəyirdi. Çünki bu dünyada onun Nurcabbardan savayı heç kimi yox idi. Arvadın arzusu bu idi ki, oğlu fərli bir işin qulpundan yapışsın, evlənsin, ata olsun. "Yazma, ay oğul, – deyirdi. – Vallah, gecələr yuxusuz qalmaqdan gözün-başın xarab olacaq. Davada nə qədər müsibət çəkmisən, bəs indi niyə canına qəsd eləyirsən?".

Nurcabbar da anasını çox istəyirdi, çünki onun da bu dünyada anasından savayı heç kimi yox idi. Nurcabbar anasını inandırmağa çalışırdı ki, çəkdiyi əziyyət hədər getməyəcək, inşallah elə bir gün gələcək ki, onun adı dodaqlarda, dillərdə gəzəcək. "Yazmaya bilmərəm ana, – deyirdi. – Yazmasam, ölərəm".

Nurcabbar barama qəbulu məntəqəsində bir ilə qədər qapançı işlədi. Sonra nə illah elədilər ayaq basmadı ora. "Acgözlər var burda, – dedi. – Nəfsi qılınc kimi iti olanlar var. Onlarla mənimki tutmaz". Nurcabbar bir az bekar gəzdi, sonra gedib pendir zavodunda dümələndi. Bir il tamam olanda oradan da çıxdı. "Bunlarla mənimki tutmaz, – dedi. – Acgözlər var burda, əllərinə nə gəlir, çırpışdırırlar". Nurcabbar bazarda tərəzipaylayan oldu. Beş ay keçməmiş ordan da qaçdı. "Alver olan yerdə mənim şəltəm işləməz, – dedi. – Bazarda natəmiz adamlar var. Kimə tərəzi verirsən, cibinə pul basır, kimə hörmət eləyirsən, əvəzini pulnan çıxmaq istəyir". Nurcabbar taxta-şalban anbarında da duruş gətirə bilmədi. "Hökumətin taxta-şalbanını dədə malı təkin satırlar, – dedi. – Acgözlər var burda". Nurcabbar başladı ürəyinə yatan işi axtarmağa. Bu axtarmaqla bir neçə il axtardı. Axırda başa düşdü ki, heç bir işdə tikiş tutub dayana bilməyəcək və ürəyinin dərinliyində etiraf etdi ki, yazmaq həvəsi onun əl-qolunu bütün başqa işlərdən soyudub.

Nurcabbar gecə-gündüz nağıl yaza-yaza yaşa doldu. Nurcabbarın anası: "Evlən, bala, evlən", deyə-deyə dünyadan nisgilli köçüb getdi. Anası öləndən sonra Nurcabbar yazmağa lap möhkəm girişdi. "Bunlar xalqa lazımdı, – dedi. – Mən öləndən sonra tapıb oxuyarlar, onda qədrimi bilərlər. Mənim qələmimdən çıxan sözlər yaşayacaq, dünya durduqca yaşayacaq".

Bu əminlik Nurcabbarın xəyalını qaldırıb apardı göyün yeddinci qatına. Nurcabbar öz ölümündən sonra onun nağıllarını oxuyub heyrətlənən, ağlayan, vaysınan adamları təsəvvürünə gətirdi. O adamlar çox uzaq gələcəyin adamları idilər və bugünkü adamlara qətiyyən oxşamırdılar. Nurcabbar belə bir gələcəyin şirin xəyaliylə qidalana-qidalana baxıb gördü ki, heç kimlə söhbəti tutmur, onun sözlərini başa düşmürlər, dediklərini anlamırlar və Nurcabbar başladı adamlardan gen gəzməyə...

Nə yemək-içməyinə fikir verdi, nə geyim-gecíminə, Nurcabbarın aləmincə, ali hisslərlə yaşayan adam məişət qayğılarının fövqündə durmalı idi, ehtiyacların, məhrumiyyətlərin əlində qul olmamalı idi.



Nurcabbar var-dövlətə də, varlanmaq ehtirası ilə özünü oda-közə vuranlara da ikrahla baxırdı. Yaxşı yaşamaqdan söhbət düşəndə müdrik görkəm alıb deyirdi: "Dünyanın malı dünyada qalacaq. Yaşamaq üçün insana bir dəst yorğan-döşək, bir dəst əyin-baş və gündə bir parça çörək lazımdı. İnsanın ləyaqəti onun geyimində, qarnında deyil". Görüşüb-danışdığı adamların əqidəsiylə, Nurcabbarın əqidəsi arasında elə uçurum yarandı ki, Nurcabbar daha onların əhatəsində qalmaq istəmədi, güc-bəla ilə meşədə işə düzəldi. Nurcabbar anasındanqalma sandıqçanı götürüb Kürün qırağındakı meşəyə gələndə onun əlli doqquz yaşı vardı, saç-saqqalı ağarmışdı, ağzında vur-tut onca diş qalmışdı.

Nurcabbarın meşədə gözətçi işlədiyi üç il idi, bu üç ildə Bağırnan bircə dəfə də cani-dildən söhbətləşməmişdi. Nurcabbar Bağırı özünə iş yoldaşı, süfrə yoldaşı hesab eləyirdi, fikir, əqidə yoldaşı hesab eləmirdi. İndi düşündü ki, deyəsən, bu Bağırın başı pis işləmir, deyəsən, ürəyi var bunun – nağılına qulaq asmaq istəyir.

Nurcabbar üstdəki dəftəri götürüb, sandıqçanın qapağını ehmalca endirdi...

Bağır çırağı qoydu ortalığa. Nurcabbar çarpayıda yerini rahatlayıb dəftərin bir neçə səhifəsini çevirdi.

– O dəfə harda qaldıq? – dedi.

Bağır çırağa baxa-baxa bir gözünü qıyıb:

– O dəfə zadda qaldıq, – dedi. – Nədi... orda... hə, Dədə palıdın balası ağlaya-ağlaya Kürün qırağında dayanıb.

Nurcabbar dəftəri çırağa yaxın tutdu, başını əyib, səsini uzada-uzada oxudu:

– "Bala palıd göz yaşları tökə-tökə çıxıb getdi. Bilmədi hara yollansın, dərdini kimə desin, Dədə palıdın mərəzinə harda əncam axtarsın. Dədə palıd uzaqdan gördü ki, bala palıdın gözlərindən yaş sel təkin axır. Dədə palıd silkələndi, qol-budağını tərpətdi. Dedi, bu nə haldı, niyə göz yaşlarına qəltan olmusan? Bala palıd bir az da kövrəldi. Dedi, ay babam, ulu babam, hələ dizlərim bərkiməyib, hələ qollarıma güc gəlməyib, acizəm, gücsüzəm – sənin dərdinə əlac tapa bilmirəm, bağışla məni. Dədə palıd gülümsədi, qəm yemə, dedi, mən günümü görüb, dövranımı sürmüşəm, mənə yas saxlama. Bala palıd nə illah elədi, hıçqırtısını saxlaya bilmədi. Dedi, gözlərim görə-görə öləcəksən, babam mənim. Yaşıl gözlərinin yumulduğunu görəcəyəmsə, gözlərimə mil girsin, qollarının sınmağını görəyəcəyəmsə, qollarım qırılıb yanı-

ma düşsün, ürəyinin dayandığını görəcəyəmsə, ürəyim oxlansın. Niyə bizi başsız qoyub gedirsən, ağıllı babam, camallı babam, sənsiz bizim halımız necə olacaq? Bilmirsənmi küləklər saçımızı yolacaq, yağışlar donumuzu əynimizdən çıxaracaq, tufanlar qəddimizi əyəcək. Bilmirsənmi pənahımız sən idin, həyanımız sən idin? Dədə palıd yaşıl yarpaqlayırla bala palıdın yaşıl gözlərinin yaşını sildi. Dedi: mən öz ölümümdən qorxmuram, körpə, bu ölümə sevinirəm, çünki mənim ölümüm sizin diriliyinizdir. Biləcəklər ki, mən susuzluğun ucbatından getdim, sizə su verəcəklər. Su verəcəklər ki, sizin aqibətiniz mənim aqibətimə oxşamasın. Kür böyrünüzdədi, qorxmayın, körpə, Kür heydən düşüb, amma ölməyib, Kür əlini sizə çatdıracaq".

Yaxınlıqda canavar uladı. Bu uzun, tükürpədən ulartıdan Nurcabbarın bədəni gizildədi. Qaş-qabağını sallayıb dəftəri örtdü.

– İlin bu vaxtında canavar niyə belə ulayır? – dedi.

Bağır nağıla elə aludə olmuşdu ki, bu səsi, deyəsən heç eşitməmişdi.

– Əşi, cəhənnəmə ulasın, – dedi. – Dalını oxu görək.

Nurcabbar başını buladı:

– Yox, – dedi. – Canavar acgöz heyvandı. Acgözlərdən zəhləm gedir.

Bağır məəttəl qaldı,

– Nağılı canavara oxumursan ha, – dedi. – Maa oxuyursan.

Nurcabbar yola gəlmədi.

– Üz vurma. Canavarın adı gələndə ovqatım pozulur, – dedi və başını mütəkkəyə qoyub gözlərini yumdu.

Bağır anladı ki, ilan dili çıxartsa da, Nurcabbar nağılın ardını oxumayacaq, amma yenə marağını gizlədə bilmədi.

– Bunun dalı nə təhər qurtaracaq? – dedi.

Nurcabbar mütəkkənin üstündə başını buladı.

– Bilmirəm, – dedi.

Bağır, Nurcabbarın "bilmirəm" deməyinə inanmadı.

– Amma öz aramızda, Nurcabbar, qiyamət yazmısan, – dedi.

Nurcabbar bu tərifdən elə xoşhallandı ki, durub mütəkkəyə dirsəkləndi.

– Bax, sənin xoşuna gəlib, – dedi. – Gör dünyada sənin təkin nə qədər adam var? Nağıllarımı ortalığa çıxartsam, əldən-ələ gəzər.

– Bəs niyə çıxartmırsan ortalığa?

– Hələ vaxtı döyül, – deyib, Nurcabbar təzədən başını mütəkkəyə qoydu. – Birinci kərədi ağacdan yazıram. Rayonumuzun adamlarını nağıla çox salmışam. Müharibədən də çox yazmışam. Dava indi də gözlərimin qabağındadı. Hərdən yuxuma da girir. Topçuydum mən... Bəs sən davada nə iş görmüsən?

Bağır elə bil utana-utana:

– Mən konnı armiyaydaydım, – dedi. – Atlara qulluq eləyirdim.

– Sən kefə baxmısan.

Birdən Bağırın ağlına bir sual gəldi. Bu sual onun özünə mənasız göründü, amma yenə dilini saxlaya bilmədi.

– Nurcabbar, mən ölüm, yadına arvad düşür? – dedi və fikirləşdi ki, nədənsə özünün yadına arvad düşmür.

Nurcabbar çırağa baxa-baxa:

– Yox, – dedi. – Cavanlığımda bəlkə on qıza vurulmuşam, amma onların biri də bu dünyada olmayıb, xəyalımda özüm yaradırdım onları. Yaradırdım, sevirdim, vurulurdum, ancaq istəmirdim ki, mənim olsunlar.

Bağır çiynini çəkib maraqla soruşdu:

– Niyə axı?

– Axı onların biri mənim olsaydı, day o birilərini yarada bilməzdim. Hər şey qurtarardı mənimçün. Onların əzabını çəkməkdən xoşum gəlirdi. Əlim yetmirdi, məhəbbətim nakam qalırdı, mən də ləzzətnən dərd çəkirdim. Dünyada ondan şirin dərd yoxdur.

Nurcabbarın sözlərindən Bağır heç nə başa düşmədi.

Yenə həmişəki tanış, ağrısız, göynərtisiz qüssə Nurcabbarın ürəyinə yol tapdı. Nurcabbar hövsələsiz-hövsələsiz:

– Çırağı keçirt, – dedi. – Cücü-mücü yedi bizi – Və özü üfürüb, çırağı söndürdü. Üzüqoylu düşüb, mütəkkəni qucaqladı.

Bağır qolunu başının altına qoyub, çarpayının ayaq tərəfində uzandı. Nurcabbarın ürəyindəki qüssədən xəbəri yox idi. Dedi:

– Bir söz soruşacam, amma xətrinə dəyməsin: hər səhər Kürün qırağında dayanıb, öz-özünə nə danışırsan?

Nurcabbar ağzını mütəkkədən aralayıb:

– Kürnən dərdləşirəm, – dedi və bildi ki, Bağır mütləq soruşacaq: "Niyə?" Bağıra macal vermədi. – Tutalım ki, dərdimi sənə danışdım, – dedi, – nə xeyri? Sən hər gün mənə qulaq asa bilməzsən, təngə gələrsən. – Nurcabbar köks ötürüb ağzını təzədən mütəkkəyə dirədi.

Bağır da köks ötürdü, arxası üstə çevrilib göyə baxdı. Ay lap alçaqda dayanmışdı, ulduzlar isə uzaqda idilər, saysız-hesabsız, xırda köz kimi qızarırdılar. Gecənin səssizliyindən qulaq tutulurdu – quşlar, cü-

cülər də susmuşdular – elə bil Kürün qırağındakı meşəni özü boyda dərin bir quyunun dibinə atmışdılar. Bu səssiz gecədə Bağır birdən-birə evi üçün qəribsədi. Nazlı ərindən ayrılıb gələndən bəri Bağır birinci dəfə fikirləşdi ki, qızının bəxti-taleyi yaxşı gətirməyib, yoxsa saçına indidən ağ zolaq düşməzdi... "Kaş Nazlı çoxdan qayıdaydı rayona. O vaxt mənim sözümə baxsaydı, belə olmazdı. Onda yaxşıca məsləhət vermişdim ona".

Amma Bağır onda qızına məsləhət verməkçün getməmişdi Bakıya. Nazlı ərə gedəndən üç-dörd ay sonra Bağırın hirsi soyudu, incikliyi, pərtliyi sovuşub getdi. Dedi, Nazlıya baş çəkmək lazımdı, qoy elə bilməsinlər ki, kimsəsizdi, həm də görüm kürəkənim necə adamdı, nə şəkildədi, nə cilddədi, görüm nə təhər dolanırlar... Bağır günlərin bir günü paydan-püşdən götürüb, Bakıya yola düşdü.

Nazlıgil İçərişəhərdə bir otaq kirayələmişdilər. Bağır otağı görəndə inana bilmədi ki, Nazlı üç-dörd aydı burda yaşayır.

– Elə siftədən burda olursuz? – dedi.

– Hə, ay dədə, bəs harda qalaq? – Nazlı atasının təəccübünü, pərtliyini dağıtmaq üçün gülümsədi. – Buna da min şükür, – dedi, – indi mənzil kirələmək çətindi.

Otağın eni, uzunu üç-dörd addım güclə olardı. Qapısı elə alçaq idi ki, gərək başını əyib keçəydin. Bircə pəncərəsi vardı, o da dar küçəyə açılırdı. Otağın içinə heç vaxt gün işığı düşmürdü, divarlar nəm idi, divarlardan rütubət yağırdı. Otaqda bircə dəmir çarpayı vardı, bir tumboçka, iki dənə də kətil. Bura bundan artıq şey qoymaq mümkün deyildi. Xörək bişirmək üçün gərək ara qapıdan ev sahibinin mətbəxinə keçəydin. Girəcəyində su kranı olan bu darısqal həyətdə Nazlıgildən başqa üç-dörd ailə yaşayardı və Bağır heç cür başa düşə bilmirdi ki, bu adamlar bura necə yerləşirlər... Bağır istədi desin ki, "ay qızım, gərək elə bu zülmnən ərə gedəydin?" amma ayrı söz dedi:

– Allah özü sizə kömək olsun, bala.

Kürəkəninin təhər-töhürü Bağırın xoşuna gəldi. Qarabəniz, arıq, uzun oğlan idi, deyəsən, arıq olduğu üçün də, gözləri çox iri görünürdü. Xasiyyəti də, Nazlı necə yazmışdı, elə idi: qanacaqlı, başıaşağı. Dindirməsən, dinmirdi, danışanda da adamın üzünə baxmağa utanırdı. Bağırın fikrincə, Müzəffərin bircə pis adəti vardı: tez-tez qabaq tərəfdən qıvrım saçının bir cəngə tükünü şəhadət barmağına dolayıb bururdu.

Bağır Bakıya gəlmişdi ki, qızının yanında beş-altı gün qalsın, amma bircə gün qaldı. Gecə Bağıra çarpayıda yer saldılar. Kətilləri tumboçkanın üstünə qoydular ki, Müzəffər döşəmədə yata bilsin. Bağır, qayınatayla kürəkənin bir otaqda yatmağını ayıb, qəbahət hesab eləsə də, əlacsız qalıb, ədəb-ərkan gözləməkdən vaz keçdi. Nazlı yerləri salandan sonra harasa yoxa çıxdı, deyəsən, ev sahibinin otağında yatacaqdı.

O gecə Bağır çimir eləyə bilmədi. Otaq dörd tərəfdən sıxırdı onu. Bağırın havası çatmırdı, başına tavandan rütubət yağırdı. Bağır elə bilirdi qəbirdə uzanıb və bu qəbir qorxusu səhərəcən onun gözlərini açıq qoydu.

Obaşdan dar küçəyə açılan pəncərənin lap qabağında cingiltili, avazlı bir səs Bağırın qulaqlarını dəldi.

– Matsoon! Matsoon!.. Yumurta var, yumurta!

Bağır dikəlib yerinin içində oturdu.

– Adam burda dəli olar, ə – dedi və alaqaranlıq otaqda döşəməyə tərəf zəndlə baxıb gördü ki, Müzəffərin də gözləri açıqdı...

Kürəkəni işə gedəndən sonra Bağır Nazlını yanladı:

– Gəl qayıt yerimizə-yurdumuza, – dedi.

Nazlı utancaq-utancaq gülümsədi:

– Bəs Müzəffər necə olsun, dədə?

– Demirəm ha, Müzəffər burda qalsın. Müzəffər də gəlsin sənnən. O boyda evimiz var, içində at min, çap. Niyə gəlib bu deşiyə dürtülmüsünüz?

– Yox, ay dədə, şəhər yaxşıdı, nə var rayonda?

– Axı bu nə güzərandı, nə dolanışacaqdı belə?

– Müvəqqəti çətinlikdi, dədə, həmişə belə qalmayacaq ha.

– Mən bu axşam yola düşürəm, bala. Sən də otur, mənim sözlərimi yaxşı-yaxşı götür-qoy elə... məsləhətimə qulaq asın, yığışın gəlin rayona, ziyan çəkməzsiniz...

Heyf ki, Nazlı onda atasının məsləhətinə qulaq asmadı. Yoxsa indi saçlarına ağ zolaq düşməzdi. Ərindən ayrılmazdı. Heyf! Qələm sağ olsaydı, yəqin ki, Nazlının dərdini salardı ürəyinə, bircə ayın içində çərləyərdi. Görəsən, Nazlı anasını xatırlayırmı? Görəsən, rayona gələndən bəri Qələmin qəbrinin üstünə gedibmi, adını daşıyıb üzünü görmədiyi bacısının qəbrini ziyarət eləyibmi?

Bağır istədi dikəlib Dədə palıdın altına baxsın, görsün bir cüt qəbir gözlərinə dəyəcəkmi orda – qalxmağa tənbəllik elədi. Qəbirlərin burda olmağına Bağır əvvəllər o qədər inanmışdı ki, hər səhər komadan çıxanda qəbirləri görmək ümidiylə Dədə palıdın altına nəzər salırdı. Kaş

burda olaydı o iki qəbir. Dədə palıd o qəbirlərin üstünə yayın qızmarında sərinliyini səpərdi, qışın şaxtasında hərarətini...

Nurcabbar ahəstə-ahəstə xoruldayırdı. Bağır bir müddət onun xorultusuna qulaq asdı və Bağırın göz qapaqları yavaş-yavaş ağırlaşdı. Bağır huşa gethagetdə meşənin ayağında canavar ulartısı eşitdi. Canavar bir də uzun-uzadı ulayanda Nurcabbarın xorultusu kəsildi. Nurcabbar sinəsinin altındakı mütəkkəni bərk-bərk qucaqlayıb qışqırdı.

Bağır diksinib, əlini Nurcabbarın çiyninə atdı.

- Nurcabbar! Nurcabbar! Oyan görək, əşi! Noolub sənə?

Nurcabbar hövlnak dikəlib oturdu. Harda olduğunu əvvəlcə kəsdirə bilmədi. Haqsızlıqdan boğulurmuş kimi tövşüyə-tövşüyə yan-yörəsinə baxdı, sonra qarşısında kölgə təkin görünən Bağıra baxdı. Başını silkələyib:

– Ürəyim partlamışdı, – dedi.

– Noolub? Pis yuxu görürdün?

– Görürdüm davadayıq, özü də canavarlarnan vuruşuruq.

Nurcabbar hələ özünə gəlməmişdi, hələ təngnəfəs olmuş kimi tövşüyə-tövşüyə yan-yörəsinə baxdı, sonra göyə baxa-baxa çarpayıdan düşüb, üz tutdu Kürə tərəf. Bağır arxadan çağırdı onu:

– Nurcabbar! Gecə vaxtı hara gedirsən, ə?

Kür sanki donmuşdu, sanki Nurcabbarın gündüzlər gördüyü bozbulanıq su deyildi bu. Elə bil Kürə gümüş əridib tökmüşdülər və gümüşün şəfəqindən çayın hər iki sahili bəyaz rəngə boyanmışdı. Göyün sinəsindən asılmış dəpdəyirmi ay Kürün üstünə ağappaq halə atmışdı. Nurcabbar gözlərini bu haləyə zilləyib təngiyə-təngiyə pıçıldadı:

– Mən gederiyəm, sən əbədi. Mən acizəm, sən güclü. Qoru bu dünyanı acgözlərdən. Onların gətirdikləri bəladan, yamanlıqdan hifz elə bizi. Qorxuram acgözlərdən, Kürüm, qorxuram. – Nurcabbarın səsi də titrədi, dodaqları da. – Yadında saxla ki, yer üzünə mənim kimi qorxaqlar hələ çox gələcək. Qurban olum sənə, Kür, yadında saxla. Xırda-xırda damcılar Nurcabbarın yanaqlarından süzülüb, çənəsinə axırdı və bu xırda damcılar aydın gümüşü işığında mirvari dənələrinə oxşayırdı.

Bağır aynabəndə girəndə gözünə birinci dəyən Müzəffər oldu. Kişi qapının ağzında quruyub qaldı – bilmədi irəli getsin. Yoxsa geri qayıtsın.

Müzəffər qabağa gəlib, utana-utana Bağıra əl uzatdı.

– Salam ata, – dedi.



Bağır da key-key:

– Salam, – dedi. Gözlərini dolandırıb Nazlıya baxdı, görəndə ki, Nazlı razılıqla gülümsəyir, kürəkəninin əlini ürəkli-ürəkli sıxdı. – Xoş gəlmisən, – dedi.

Bağır gətirdiyi azuqəni aynabəndin bir küncünə qoydu. Keçib stolun arxasında kürəkəniylə üzbəüz oturdu. İstədi hal-əhval tutsun, bir söz deyə bilmədi. Çünki nagüman idi. "Nəyə gəlib görəsən?"

Kürəkən də susurdu – susmaq onun xasiyyəti idi. Müzəffərin təhər-töhürü dəyişmişdi – elə bil üz-gözü tülmüşdü, dərisi yanmışdı, başını vaxtilə par-par parıldayan qıvrım, qara tükləri qarsılmış kimi görünürdü, saçı alın tərəfdən seyrəlmişdi, amma Müzəffər adətini tərgitməmişdi. İndi də birçəyini şəhadət barmağına dolayıb bururdu. Onun bu adətindən Bağırın o qədər zəhləsi gedirdi ki, az qalırdı qışqırsın: "Farağat dur, ə!".

Müzəffərin iri gözlərindən, qaramtıl çöhrəsindən arxayınçılıq yağırdı, işıldayan nazik dodaqlarında mənasını Bağırın anlaya bilmədiyi bir təbəssüm dolanırdı. Bağır çaş-baş qaldı: "Bunlar ayrılana oxşamırlar heç. Əgər kəbin-talaqlarını doğrudan da, geri oxutdurublarsa, onda bu Müzəffərin burda nə iti azıb? Müzəffər gərək birdəfəlik əl çəksin Nazlıdan. Bir kişi ki, arvad-uşağına gün-güzəran düzəldə bilməyə, onun nəyi kişidir? Hünəri var, ağzını açıb giley-güzar eləsin. Vallah, dişimin dibindən çıxanı deyəcəm ona. Mən qızımı çöldən tapmamışam ha".

Müzəffərin dillənməyini Bağır nahaq gözləyirdi.

Müzəffər əvvəlcə, elə bildi ki, Bağır kimsə, qıvrım tüklərini yavaş-yavaş vururdu. Bu dəm Bağır qızıgilin İçərişəhərdə kirayələdiyi darısqal, alaqaranlıq, rütubətli otağı xatırladı və Bağırın birdən-birə Müzəffərə yazığı gəldi.

– Şəhərdə nə var, nə yox? – dedi. Elə-belə, danışmaq xətrinə dedi.

Müzəffər əvvəlcə elə bildi ki, Bağır kimsə, başqa adama müraciət eləyir. Qulaqlarına inanmış kimi, çaş-çaş kişinin üzünə baxdı. Bağırın ondan cavab gözlədiyini görəndə tələsə-tələsə:

– Salamatlıqdır, – dedi. – Salamatlıqdır. Salamatlıqdır.

Sanki Nazlı bu kiçik sual-cavaba bənd imiş. Nazlı hərəkətə gəldi, başladı stolun üstünü yığışdırmağa.

– Dədə, çay içirsənmi? – dedi.

Susuzluqdan Bağırın ciyəri yansa da:

– İçmirəm, – dedi və belə deməyinə də tez peşman oldu.

Yaxşı ki, Nazlı əl götürmədi ondan:

– Samovarı indicə dəmləmişəm, dədə. Yol gəlib yorulmusan. – Samovarın lüləyini burub çapma stəkana çay süzə-süzə: – Xeyir ola, ay dədə, – dedi, – bu istidə özünə niyə əziyyət vermisən?

Bağır aynabəndin künc-bucağına göz gəzdirdi.

– Dedim, yəqin ayın-oyununuz qurtarıb.

Nazlı stəkanı atasının qabağına qoydu.

– Müzəffər bu səhər bazarlıq eləyib – dedi. – Hər şeyimiz var. – Atasının təəccüblə baxdığını görüb, əlavə elədi: – keçən gecə gəlib Müzəffər.

Öz qızından baş aça bilmirdi Bağır: Nazlı Müzəffərin adını elə şirin-şirin çəkirdi ki, guya "həmişəlik ayrılmışıq" deyən bu deyildi. Bir an Bağıra elə gəldi ki, qızı da, kürəkəni də onu ələ salırlar, onunla nəsə qəribə bir oyun oynayırlar.

Nazlı atasının qolundan yapışdı.

– Dur, dədə, get, əl-üzünü yu, tozun-tərin içindəsən.

Bağır aynabənddən çıxanda Namazgilin həyətinə nəzər saldı. Tünzalə ordaydı, Namazın kiçik qızıyla oynayırdı. Bağır Tünzaləyə baxa-baxa bu qərara gəldi ki, "ayrılmaq" məsələsini Müzəffərin üzünə vurmasın, ona güldən ağır söz deməsin. "Özləri bilərlər – küsərlər, barışarlar – öz işləridir. Hansı evdə dava-dalaş olmur?".

Nazlı əlüzyuyanı sürtüb ağartmışdı. Əlüzyuyanın yanına bir qəlib ətirli sabun qoymuşdu. Sütuna vurduğu mıxdan tiftikli, təmiz məhrəba asmışdı.

İlıq sudan xoşhallandı Bağır. Yadına düşdü ki, çoxdandı çimmir, çoxdandı alt paltarını dəyişdirmir. Özünə söz verdi ki, bu həftə, heç olmasa, Kürdə çimsin – Kür böyüründədi... Nimdaş kepkasını çıxardıb yaş əlini başının dazına çəkəndə Bağırın canına bir sərinlik yayıldı. Bağır təpəsindən dırnağınacan yayılmış sərinlikdən həzz ala-ala fikirləşdi ki, bəlkə Müzəffər həmişəlik gəlib? Bəlkə arvad-uşağının ayrılığına, həsrətinə dözə bilməyib, tüpürüb şəhərə də, şəhərdəki işinə də, güzəranına da. Təki elə olsun, təki Tünzalə atasız böyüməsin – atasız uşağın ürəyində yağ olmaz.

Nazlı həyətə düşdü.

– Dədə, çayın soyuyur, – dedi və gəlib durdu atasının yanında. Məhrəbanı götürüb, onun boynunu, başını quruladı.

Bağır bu kiçicik qayğıdan uşaq təkin kövrəldi. Titrəyən dodaqlarını gəmirə-gəmirə astadan soruşdu:



– Onu sən çağırtdırmısan. Yoxsa...

Nazlı başını aşağı dikdi:

– Özü gəlib, – dedi.

– Xeyridimi?

Nazlı atasına baxıb çiynini çəkdi.

– Bilmirəm, – dedi.

Nazlı məhrəbanı mıxdan asıb, biganə görkəm aldı, guya Müzəffərin gəldiyinin ona heç bir dəxli yox idi. Amma Bağır hiss eləyirdi ki, qızının biganəliyi zahiridi.

Nazlı sözünün qətiliyinə inanan adam kimi:

– Biz ayrılmışıq, – dedi.

– Bəs onda bu niyə gəlib?

– Əl çəkmir bizdən. Deyir, sizsiz ölərəm... Tünzalədən ayrı qala bilmir. Tünzalə də onu görməyəndə kürlük eləyir. Atasını təhərsiz istəyir Tünzalə.

Bağır aynabəndə tərəf baxdı, gördü ki, Müzəffər bayaq necə olmuşdusa, eləcə də oturub, yenə gicgahının tüklərinin barmağına dolayıb yavaş-yavaş burur.

– Vallah adamın buna da yazığı gəlir, – dedi. Sonra soruşdu: – Tamam-kamal gəlib bu?

– Yoox... Öldürsən də, şəhərdən çıxmaz o.

– Bəs bu işin axırı nə təhər olacaq?

– Ev olmasa burdan tərpənən döyüləm... Bu da ki acizin biridi, ev ala bilmir. Əvvəl-axır alacaq, amma, allah bilir, havaxt.

Bağır yenə bayaqkı sualını verdi:

– Bəs bu işin axırı necə nə təhər olacaq?

– Bilmirəm, dədə, bilmirəm. Bakıya qayıtmayacam.

– Nazlı gülümsədi. – Qayıdası olsam, səni də aparacam... Həmişəlik.

– Bağır da gülümsədi:

– Özünüz başınızı soxmağa hin tapmırsınız, – dedi. – Mən harda qalacam? Küçədə?

– Küçədə niyə qalırsan? Ev düzəltmək mümkündü. Başqa yolnan.

– Hansı yolnan?

– Kooperativə yazılıb mənzil almaq olar.

– O nə olan şeydi, a bala?

– Nəğd pulnan ev tikirlər... – Nazlı gördü ki, atası dinmir, əlini onun sinəsinə qoyub, günahkar adam kimi tutula-tutula, dirənə-dirənə danışdı.

– Sənə qurban olum ay dədə, indi ki, söz tuş gətirib qoy elə ürəyimdəkini deyim. Əgər pis desəm, deynən pis deyirsən. Amma ayaqlarının altında ölüm, ürəyinə başqa şey gəlməsin.

– De görüm, nə deyirsən.

– Dədə gəl bu evi sataq.

Bağır bu sözlərdən heç nə anlamadığı üçün cavab vermədi.

Nazlı o biri əlini də atasının sinəsinə qoydu.

– Bu evi satsaq, bunun puluna kooperativ mənzil alarıq, – dedi. – Özü də üç otaqlı... Sən də gələrsən yanımıza... Day nə qədər işləyəcəksən? İndi sənin dincələn vədəndi. Gəl otur şəhərdə, əli-ayağı təmiz. Yoxsa mən orda, sən burda. Vallah, gecə-gündüz ürəyimin içini yeyirəm. Deyirəm, ay allah, görəsən dədəmin halı necədi? Yemək-içməyinə, əyin-başına kim baxır onun? Lap gəlib burda yaşasan da, təm-tək neynəyəcəksən, ay dədə? Bura sənin nəyinə lazımdı?

Bağır bayaqdan istəyirdi qızının sözünü kəssin, di gəl ki, nitqi qurumuşdu, dili ağzında ağırlaşıb daşa dönmüşdü. Yaxşı ki, Nazlı özü susdu. Susub, atasının gözlərinin içinə zəndlə baxdı, amma onun gözlərindəki ifadədən heç nə başa düşmədiyi üçün ehtiyatla soruşdu:

– Nə deyirsən, dədə?

Bağır özünü güclə ələ aldı.

– Deyirsən, bu evi sataq?

– Hə, dədə, müştərisi də başının üstündədi, uzağa getmək lazım deyil. Namaz bu dəqiqə haqqını saymağa hazırdı. Nə qədər desən, verəcək.

Bağıra elə gəldi ki, qarşısında məlul-məhzun dayanıb əllərini onun körüyə dönmüş sinəsinə qoyan bu qonurgöz qız Nazlı deyil, Piti Namazdır, intəhası, Nazlının cildində gəlib bura.

Bağır qızının əllərini sinəsindən qopardı.

– Deyirsən babamızdan qalan bu yurdu Piti Namaza sataq də?

– Burda ayıb nə var ki, ay dədə? Həm sənin işin düzələr, həm bizim.

Bağırın qulaqları guruldadı, gicgahlarından kəskin bir ağrı qopdu. Sonra bu ağrı onun başına, boynuna yayılıb, keyləşdirdi onu. Bağır qulaqlarındakı uğultunu dinləyə-dinləyə soruşdu:

– Bəs mən harda öləcəm, bala?

Nazlının dodaqları büzüldü. Kövrələ-kövrələ:

– Allah eləməsin, – dedi. – Sənin düşmənlərin ölsün. Tək qalmayacaqsan ha, dədə, aparacayıq səni, qurban olum sənə.



– Bəs siz ev alanacan mən harda qalacam?

– Həminki yerində... Meşədə... Uzaq başı bir ilə mənzil alacağıq.

Deyəsən Bağırın nəfəsi tükəndi, bir azdan boğulacaqdı Bağır, səsi xırp kəsiləcəkdi onun.

– Müzəffərin ağlına gəlib bu, yoxsa...

– Tünzalənin ölmüşünə xəbəri yoxdu onun. Öz fikrimdi.

Bağırın nəfəsi tükənmədi, amma içində hər şey bir-birinə qarışdı, alt-üst oldu. Bağır bilmədi ki, içində qaynayan nədir: qəzəbdirmi, ağrıdırmı, peşmançılıqdırmı, təəssüfdürmü? Bəlkə də bu, indiyəcən Bağırın duymadığı, keçirmədiyi, adını bilmədiyi bir hiss idi, bürümüşdü onun qəlbini? "Övlad necə amansız olarmış fələk?"

Bağır soruşdu:

– Əgər razı olmasam...

Nazlı köks ötürdü.

– Onda ailəmiz dağılacaq, – dedi. – Tünzalə yetim qalacaq.

Belindən qopan ağrı az qaldı Bağırın qəddini əysin. Bağır dərindərin nəfəs aldı, gözlərini göyə zilləyib, güclə danışdı.

– Bir də belə söz desən... hesab elə ki... mən adda atan yoxdu.

Bağır daha aynabəndə qalxmadı. Gedib ürgə atı tut ağacından açdı...

Səhər çoxdan açılmışdı. Piti Namaz "nərçələriylə" çoxdan gəlib getmişdi. Nurcabbarla Bağır yan-yana dayanıb Dədə palıdın təpəsinə baxırdılar. Lap məəttəl qalmalı iş idi: indi Dədə palıdın başqa budağı saralırdı.

Nurcabbar dinməzcə dönüb komaya girdi, göy cildli dəftərini sandıqçadan götürdü, gəlib Dədə palıddan aralıdakı kötüyün üstündə oturdu, dodaqlarını tərpədə-tərpədə Başladı yazmağa.

Bağır komanın qabağında dayanıb, gendən Nurcabbara tamaşa elədi. Nurcabbarın nağıl yazmağı Bağırçın, doğrudan da, bir tamaşa idi, çünki Nurcabbar yazanda qəribə oyunlar çıxarırdı və onda Bağırı gülmək tuturdu. Nurcabbar gah şıdırğı yazdığı yerdə əlini saxlayıb, qələmi alnına vura-vura nəsə pıçıldayırdı, gah üzünü göyə tutub, barmağını silkələyə-silkələyə kiməsə hədələyirdi. Gah gözlərini bir nöqtəyə zilləyib, oturduğu yerdə yırğalanırdı. Gah başını dizlərinin arasına soxub, alnını yumruqlayırdı. Vallah, müsibət idi bu kişinin işi – nağıl yazanda da neynəmirdi, nə oyundan çıxmırdı?

Bağır qalxıb Dədə palıdın yanına gəldi, əlini onun qabar-qabar, çat-çat gövdəsinə sürtdü. Hələ Dədə palıdın canında su vardı, şirə

vardı. Nurcabbar düz deyir, Dədə palıd bundan sonra hələ min il ömür sürəcək, bu meşəyə böyüklük, ağsaqqallıq eləyəcək.

Törəmələri Dədə palıdı dövrələmə hasara almışdılar, onun yanında məsum, aciz görünürdülər, elə bil təbiətin kəşməkəşlərindən qorxduqları üçün Dədə palıdın kölgəsinə, nəfəsinə pənah gətirmişdilər. Bunlar nə vaxt böyüyəcəklər? Bunlar nə vaxt "dədə" olub yaşıl əlləriylə meşənin başına sığal çəkəcəklər? Yəqin elə bir dövr gələcək, amma, səd heyif, Bağır o günləri görməyəcək. Bağır yox ha, heç Bağırın nəvəsi də o günləri görməyəcək. Onda Bağırın nəvəsinin nəvəsi də, nəvəsinin nəticəsi də bu dünyada olmayacaq. Nə eybi, onda Kürün sahilində, indi Bağırın dayandığı bu yerdə Bağıra oxşayan başqa nəvələr dayanacaqlar və onlar da öz palıd dədələrinin vüqarına, əzəmətinə heyran qalacaqlar, onu qurumağa, zavala gəlməyə qoymayacaqlar.

Dədə palıdın gövdəsindən iki-üç addımlıqda – günbatan tərəfdə Bağırın gözlərinə iki qəbir görünüb tez də yox oldu. Bağırın ovqatı yenə korlandı. Yenə içində küt bir ağrı dolaşdı. Qızıyla söhbəti Bağıra yuxu kimi gəlirdi və Bağır bu pis yuxunu xatırlamağa, yozmağa qorxurdu. Bağır iki gün idi ki, evə getmirdi - incimişdi, küsmüşdü Nazlıdan – amma yenə ayrılığa ürəyi tab gətirmirdi. Nigarançılıq üzürdü Bağırı: "Görəsən, qayıtdılar Bakıya, yoxsa hələ burdadılar? Görəsən Nazlı mənim qəlbimə dəydiyini başa düşübmü, peşman olubmu? Axı o nə söz idi dedi mənə? Yəni məni diri-diri qəbirə qoymaq istəyir?" Bağır bütün günahları Piti Namazda görürdü, Piti Namazın gözlərindəki bic təbəssümdə – adamı əridən, huşdan çıxardan təbəssümdə görürdü. Nazlıda nə təqsir var? Piti Namaz deyib, Nazlının da beyninə batıb. Nazlı uşaqdı hələ, dünyanın əlləm-qəlləm işlərindən xəbərsizdi... Boynunun dalını görər Namaz, qulağının dibini görər. Yalnız Bağırın meyiti o həyətdən çıxandan sonra Piti Namaz dişlərini ora qıcırda bilər.

Bağırın içindəki ağrı yavaş-yavaş çəkilib getdi, bir az yüngülləşdi Bağır. Elə bu dəm Nurcabbarın səsini eşitdi:

– Ay Bağır, bəsdi ağaca dirənib durdun. Bəri gəl, görüm!

Bağır yaxınlaşıb Nurcabbarla qabaq-qənşər dayandı, ha baxdı, Nurcabbarın əhvalının necəliyini onun gözlərindən başa düşə bilmədi – Nurcabbarın gözlərində bulanıq bir ifadə dolanırdı.

Nurcabbar nəzərlərini zilləmişdi Bağırın üzünə adamı deşib keçən bir baxışla onun gözlərinə baxırdı. Baxdı, baxdı və birdən gülümsəyib:

– Bunlar qonurdu ə, – dedi. – Sənin gözlərin qonurumuş. Mən də bu günəcən elə bilmişəm qaradı.



Bağır da eynilə Nurcabbar kimi gülümsədi:

– Belə yoldaşsan da, – dedi. – Üç ildi bir yerdəyik, bu üç ildə mənim gözlərimin içinə birce dəfə də zəndnən baxmamısan. Ondan qabaq da, nə qədər görüşmüşük, rastlaşmışıq bir rayonluyuq, çoxdan tanışıq... Bu vaxtacan... Ay səni, Nurcabbar...

Nurcabbar əlindəki qələmin ucuyla başını qaşıya-qaşıya:

– İncimə – dedi. – Heç öz gözlərimin də rəngini dürüst bilmirəm. Mənim yadımda rəng qalmır. – Dizinin üstündəki dəftərə çənəsiylə işarə elədi. – Səni nağıla salmaq istəyirəm – dedi. – Səni yaşadacam Bağır... Yüz il, beş yüz il, min il... bəlkə də çox... hamı ölüb gedəcək; İdrisov da öləcək, Piti Namaz da öləcək, amma sən yaşayacaqsan.

Nurcabbarla söhbətləşəndə Bağır həmişə çaş-baş qalırdı. Bilmirdi Nurcabbar nə vaxt zarafat eləyir, nə vaxt ciddi danışır. İndi də çaşqın-çaşqın:

– Ay sağolmuş, min il yaşamaq olar? – dedi.

Nurcabbar başını tərpətdi:

– Olar, Bağır, olar... İntəhası, cismən yox... mən səni o qədər diri saxlaya bilmərəm. Cismən öləcəksən, buna heç şəkk-şübhən olmasın. Amma adın yaşayacaq... Nağılda... – Qələmin ucunu dəftərə bərk-bərk dirədi. – Burda səndən də yazacam. Gələcəkdə adamlar bu nağılı oxuyacaqlar, biləcəklər ki, bəli, qədim dövrlərdə bir Bağır varmış. Bu Bağır günlərin bir günündə, boz sərçənin dünbülündə gəlir çıxır Kürün qırağındakı meşəyə. Görür ki, meşə nə meşə? Allahın mürvətsiz bəndələri meşənin çoxunu həzm-rabedən keçiriblər, heç nişanə də saxlamayıblar. Bağır az oturur, çox fikirləşir, çox oturur az fikirləşir, deyir, ey dili qafil, yarı canı getmiş bu meşənin dərdini çəkmək sənə qalmayıb ki? Yaxşısı budu, burda ona-buna inək saxla, qoyun saxla, arı bəslə, bostan ək, əvəzində hörmət qazan. Bəli, Bağır başlayır bu dediklərini eləməyə. Səhər tülküdən tez durur, gecə bayquşdan gec yatır, işlə ki, işləyəsən. Bağır əkir, özgələr sökür. Bağır bəssiyir, özgələr məzziyir, Bağıra da qırıq-qırtıq qalır. Bağır burda işləməkdə olsun, indi də sizə kimdən deyim, yeri-göyü xəlq eləyən Allah-taaladan. Allah dünyanın yüyənini əlində tutub oturubmuş taxtında, hərdən də gözünün ucuynan yerə baxırmış. Görür bunun binəva bəndəsi Bağır gecə-gündüz yığır, toplayır, acgözlər də onun yığdığını dartıb aparırlar. Allah-taala qəzəblənir, nə qəzəblənir. Tutur Bağırın qulağından, deyir: ey quşbeyin insan, mən sənə iki əli, iki ayağı, iki gözü, bir başı nədən ötrü vermişəm? Yoxsa yadımdan çıxıb, sənin qafana ağıl qoymamışam mən? Deyir,

imanıma and olsun ki, səni döndərib eləyərəm inək. Səni elə südlü, elə yelinli inək eləyərəm ki, gündə səndən dörd sərinc süd sağarlar, əmcəklərini yara eləməsələr, əl çəkməzlər səndən...

Nurcabbar bu yerə çatanda Bağır daha dözə bilmədi, incik-incik dedi:

– Hələ yazmamışdan əzbərləmisən ki, bunu... Dalı necə olacaq bunun?

Nurcabbar dəftəri dizinin üstündən götürdü.

– Bilmirəm, – dedi, – amma yazacam. Axırı özünə gələcək.

Bağır bu yarımçıq nağıldan həm pərt olmuşdu, həm də bir az qorxmuşdu. Bilmirdi Nurcabbar bu nağılı yazacaq, ya yox.

– Yazma, – dedi – Bağır.

Nurcabbar başını buladı:

– İncimə, – dedi, – yazacam. Çatdasan da yazacam.

Bağır yalvarmağa bənzəyən bir səslə soruşdu:

– Min ildən sonra dünyaya gələn adamların nəyinə lazımdı bu? Neynirsən bunu yazıb?

Nurcabbar dəftəri qoltuğuna vurdu:

– Onunçün yazıram ki, onlar bunu oxuyandan sonra day özgələrə havayı bostan əkməsinlər...

Bağır daha danışmadı. Onsuz da Nurcabbarın yazdığı nağıllar min il ömür sürməyəcək. Heç min gün də yaşamayacaq bu nağıllar. Onda Piti Namaz necə demişdi buna? "Heç kim Nizamini, Füzulini qoyub, sənin cızma-qaranı oxumayacaq, onnan xatircəm ol, əkşi".

Bağır birdəfəlik inandı ki, Nurcabbar avara adamdı, başının çıxacağını bilməyəndi, vecsizdi və Nurcabbarın vecsiz olduğunu fikirləşəndə Bağırın ona yazığı gəldi. Yəqin ki, qələmə uymasaydı, Nurcabbarın həyət-bacası o kökə düşməzdi, evinin divarı quzulayıb tökülməzdi. Özü də belə vaxtsız-vədəsiz qocalmazdı, səfil-sərgərdan qalmazdı. Vallah yazmasaydı, bu da beş kişinin biri olardı, toylarda, yaslarda baş tərəfə keçirərdilər bunu.

Nurcabbar altdan-altdan Bağıra baxdı. Bağır gözlərini boşluğa dikib, məlul-məlul dayanmışdı. Bağırın məlul-məhzun dayandığını görəndə Nurcabbarın ona yazığı gəldi. Görəsən niyə belə avam yaranıb bu? Görəsən, dünyaya nə üçün gəldiyini fikirləşirmi? İnsan nə qədər işləyər axı? Ya öküz, ya Bağır – fərqi yoxdu. Öküz işləyir, otlayır, işləyə-işləyə, otlaya-otlaya qocalır və ölür. Bağır da elə... Kim bunun qədər işləsəydi, evinin direyi qızıldan olardı, amma buna bax – bu nə əyin-başdı, bu nə yör-yöndəmdi? Tərdən-tozdan köynəyinin rəngi də bilinmir.



Bu köynəyi itə atsan, it qaçar. Gör şalvar neçə yerdən sökülüb? Çustlarına bax – altı rezin, üstü brezent – indi kimdi belə çust geyən? – Nahaq buna yazığım gəlir mənim. Beləsini gərək tikanlayasan, bizləyəsən ki, heç olmasa, bircə dəfə gözlərini açıb dünyaya baxa.

– Bu çustları neçə ildi geyirsən, Bağır?

– İki yaydı geyirəm. – Bağır başını sinəsinə əyib, çustlarına baxdı. – Qışda bunları geymirəm, – dedi. – Qışda patava geyirəm... Necə bəyəm?

– Heç... Deyirəm, tez dağıtmısan, mənim belə möhkəm çustlarım olsaydı, azı beş il geyərdim.

Nurcabbarın da ayaqlarında çust vardı. Özü də çustları yalın ayaqlarına keçirtmişdi. Bağır heç olmasa, corab geyirdi. Bağırın çustları dağılmamışdı, əyilməmişdi, amma Nurcabbarın çustlarının üzü didik-didik idi, dabanı əzik-əzik idi.

Bağır başa düşdü ki, Nurcabbar onu ələ salır, dedi:

– Kor-kora lağ eləməsə, bağrı çatdar.

Nurcabbar da nəsə demək istədi, amma lap yaxınlıqda eşitdiyi maşın səsi macal vermədi.

İdarənin yük maşını nərildəyə-nərildəyə, addım-addım gəlib durdu komanın qənşərində. İdrisov kabinədə – sürücünün yanında oturmuşdu, kuzovda da meşəçilik idarəsinin dörd-beş işçisi ayaq üstə dayanmışdı.

İdrisov kabinədən düşən kimi:

– Bağır qardaş, salamatlıqdırmı? – dedi.

Bağır hər şeyin yaxşı olduğunu arxayın bir görkəm alıb:

– Salamatlıqdı, müdir, salamatlıqdı, – dedi.

İdrisov gəlib Bağırın lap yanında durdu.

– Buzov neynəyir? – dedi.

– Oynaqlayır, otuxub buzov.

Buzovun otuxmaq xəbərindən elə bil İdrisovun kefi duruldu. Gülümsəyə-gülümsəyə üzünü kuzovdakılara tutdu, əlini bircə dəfə qaldırıb endirdi.

– Başlayın, – dedi.

Meşəçilik idarəsinin işçiləri maşından düşürtdükləri yekə mişarı götürüb Dədə palıda tərəf gedəndə Bağırın içində sanki nəsə qırıldı.

İdrisov barmaqlarıyla kürən saçlarını daraqlaya-daraqlaya:

– Qocanın əcəli çatıb, – dedi. Sonra üzünü Nurcabbara tutdu: – Azarrıdı bu. O biri palıdlar bundan zavala gələrlər. Körpə ağaclar xəstəliyə qarşı çox həssas olurlar.

Söz İdrisovun ağzından qurtaran kimi elektrik mişarının tırıltısı eşidildi. Mişarın iri, dəmir dişləri Dədə palıdın gövdəsinə yeriyəndə Bağır üzünü yana döndərdi.

Nurcabbar, mişarın çeynəyib tökdüyü ağappaq ovxantıya baxırdı, elə bil ovsunlanmışdı, gözlərini çəkə bilmirdi ordan... Dədə palıd, bıçaq altında boğazının son tilişiyi qalan qurbanlıq qoyun kimi xırıldayanda Nurcabbar komaya tərəf qaçdı.

Bağırın yadına iki qəbir düşdü. Dədə palıdın altına nəzər yetirdi, hər gün gözlərinə görünən qoşa qəbri indi orda görmədi. Onların yerində Dədə palıdın əzalarından, damarlarından üyünüb tökülən ağappaq ovxantı topası yavaş-yavaş dikəlirdi.

– Bağır qardaş, içməyə suyun varmı?

Bağır İdrisovun dediklərini eşitmədi, onun göyümtül, parıltılı gözlərinə baxa-baxa qaldı. Ancaq müdirin dodaqlarının tərpənməyindən, dəyirmilənməyindən başa düşdü ki, müdir, nəsə, bir şey istəyir və bu şey komadadı.

Bağır ayaqlarını sürüyə-sürüyə komaya tərəf getdi, komanın yanında Nurcabbarı görüb dayandı.

Nurcabbar komanın böyründə çömbəltmə oturmuşdu. Dəmir qapaqlı sandıqçanı da qoymuşdu qabağına. Qalın dəftərlər sandıqçadan götürüb bir-birinin oduna yandırırdı. Qaralıb büzüşmüş vərəqlərdən kül topası qalaqlanmışdı. Nağıllar alovlanırdı, tüstülənirdi, "biri varmış, biri yoxmuş" qışqıra-qışqıra külə dönürdü. Amma, qəribə bu idi ki, Nurcabbar ağlamırdı, sızlamırdı. Nurcabbar illərlə axtardığı qiymətli bir şeyi indicə tapmış adam kimi sevinirdi, iki barmağının arasında tutduğu dəftərin aşağısından yalmana-yalmana yuxarı qalxan alova baxıb gülümsəyirdi və gülümsəyə-gülümsəyə deyirdi?

– Eh, Süleymana qalmayan dünya...

Bağırın qulağına Nazlının səsi gəldi: "Tünzalə yetim qalacaq, dədə... Tünzalə yetim qalacaq... Yetim qalacaq...".

Üççə dəqiqədən sonra Bağır talada ürgənin cod yalını tumarlayırdı, ürgə də bu sığaldan xoşhallana-xoşhallana, quyruğunu yellədə-yellədə qulaqlarını şəkləyib Bağırın dediklərini dinləyirdi.

– Gedək, ürgə... Apar məni Piti Namazın yanına. Sataq həyətbacanı ona... Qoy Nazlı şəhərdə özünə ev tikdirsin. Qəm eləmə, biz sənnən meşədə də yaşayarıq.

*1979*



## GÜMÜŞGÖL ƏFSANƏSİ

*Eldar Quliyevə ithaf*

Çalğıçılar restorana bir haray-həşir salmışdılar ki, gəl görəsən. Elə bil bir-birini üstələməkçün bütün alətlər bəhsə girmişdi: heç hansı öz dilində, öz xanasında "danışmırdı". Sağanağından ağ şunur sallanan elektrik gitarası deyirdin bəs odlu silahdı, adamların üstünə partapart güllə yağdırır. Zərb alətindən gah top gurultusu qopur, gah zindan cingiltisi. Təkcə pianonun "nitqi" batmışdı burda. Sarıbəniz cavan oğlan barmaqlarının bütün gücü ilə şirmayı dilləri ha döyəcləyirdi, özünü kətilə ha çırpırdı – pianonun səsi eşidilmirdi ki, eşidilmirdi. Orxan bir ara fikirləşdi ki, sarıbəniz oğlan heç nə çalmır, yalandan ərəsət eləyir ki, özünü.

Orxan Yavərlə qabaq-qənşər oturmuşdu, onun gülə-gülə dodaq tərpətdiyini görürdü, ancaq sözlərini eşitmirdi. Heç çiyin-çiyinə əyləşdiyi Səfanın da dediklərini eşitmirdi. Qız bircə kəlmə söz soruşmaq üçün ağzını oğlanın qulağına dirəyirdi. Orxan da bircə kəlməyə cavab verməkçün ağzını qızın qulağına dirəməli olurdu... Belə qulaq söhbətindən Orxanın yavaş-yavaş zəhləsi getməyə başladı. Orxan səsartıran gümüşü qutulara baxdı, sonra mikrofonu az qala ağzına soxub, arıq can-cüssəsinə uyuşmayan yoğun səslə hansı əcnəbi dildəsə mahnı oxuyan ağ kostyumlu oğlana baxdı. Ona elə gəldi ki, ağ kostyumlu oğlanın qulaqları partladan avazı, bax, bu gümüşü qutularda alətlərin gurultusu ilə toqquşub, səslərin davasına, mərəkəsinə çevrilir və "Azərbaycan" mehmanxanasının on ikinci mərtəbəsində qopan bu hay-küy bütün dünyaya yayılır.

Musiqi birdən kəsildi. Orxan üzünü Yavərə tutub:

– Yer tapdın də, bizi gətirməyə, – dedi və öz sözlərini eşitmədi: hələ qulaqlarında uğultu vardı, elə bil qulaqlarına nazik borularla isti hava vurmuşdular.

Yavər başı ilə ağ kostyumlu müğənniyə işarə eləyib:

– Bu oğlan erməni balasıdı, – dedi. – Əsl adı Robertdi, hamı ona "Alen" deyir, çünki Alen Delona oxşayır... Zalım bizim mahnıları qiyamət oxuyur.

Orxan balaca estradada təkəbbürlə dayanmış müğənniyə baxdı. Bu cavan, yaraşıqlı oğlan səsindən çox, deyəsən, Alen Delona oxşamağı ilə qürrələnirdi. Yayın bu vədəsində bürkülü salonda kostyum geymişdi. Saçı rəngində – qapqara köynək vardı əynində. Kostyumuna düşən ağ qalstuk bağlamışdı. Üzündə tər-zad görünmürdü. Orxan fikirləşdi ki, yəqin ürəyi çox sağlamdı Alen bəxtəvərin. Onu da fikirləşdi ki, Səfa bayaqdan bəri bu qəşəng müğənniyə bircə dəfə də nəzər yetirməyib. Səfa üçün bu dünyada Alen-filan yoxdu, Səfanın xoşladığı bir kişi var yer üzündə, o da Orxandı.

– Roberti tanımırsan? – dedi Yavər.

Orxan başını buladı. Bura axırıncı dəfə nə vaxt gəldiyini də yadına sala bilmədi. Bu mehmanxana tikiləndən cəmi iki-üç dəfə qalxmışdı on ikinci mərtəbəyə. Hərdən Səfayla aşağıya – kafeyə gəlirdilər, saatlarla oturardılar orda. Orxan gününü restoranlarda keçirən oğlanlardan deyildi; artıq pulu olanda, ya da dost-tanışlar dəvət eləyəndə gedirdi. Əvvəllər bu boyda Bakıda bəyəndiyi bircə yer vardı: köhnə "İnturist". Süfrələrin ağlığından tutmuş, xidmətçi oğlanların geyiminə qədər, burda hər şey xoş gəlirdi ona. Sonra Dağüstü parkın yanında "Moskva" mehmanxanası tikdilər və bu mehmanxananın restoranına ayaq basdığı gündən köhnə "İnturist" Orxanın gözündən düşdü. Zalın genişliyi, bəzək-düzəyi, qəndillərin böyüklüyü və yemək-içməyin qiyməti "Moskva" restoranını əzəmətli göstərirdi. Burda oturanda Orxanın özünün özünə hörməti artırdı.

Yavər Səfaya baxa-baxa:

– İndi oxudarıq Aleni, – dedi və qalxıb musiqiçilərin yanına getdi, sarıbəniz oğlanla əl verib köhnə tanış kimi görüşdü. Deyəsən, doğrudan da tanış idilər: pianoçu oğlan Yavəri çox məhrəm qarşıladı, gülümsəyə-gülümsəyə nəsə dedi ona. Orxanın ürəyində həsədə oxşayan bir hiss baş qaldırdı. Adamın da bu qədər tanışı olarmı? Civə kimi qaynaşan balacaboy Yavəri bütün Bakı tanıyır. Bununla küçədə yol getmək müsibət işdi: on addımdan bir saxlayırlar, salam verirlər, hal-əhval tuturlar. Dükan-bazarda, restoranlarda, institutlarda, teatrlarda, xəstəxanalarda, lap hamamlarda da dost-tanışı var. Deyirlər, dostu çox olan adamın dərd-qəmi olmaz. Yəqin ona görə Yavər həmişə gümrahdı, şəndi, gözlərindən işıq, dodaqlarından təbəssüm əskik olmur bunun.

Yavər pianoçu oğlanın ovcuna pul basıb qayıtdı.

– İndi Alenin əsl oxumağını eşidərsiniz, – dedi. – Bayaq oxuduqlarına bir qoz.



Sarıbəniz oğlan barmaqlarını pianonun dilləri üstündə xırda-xırda gəzdirdi və Orxan heyrətindən yerində dondu. Sarıbəniz oğlan muğama oxşar bir şey çalırdı və Orxan onun adını doğru-dürüst bilməsə də fikirləşirdi ki, təkcə bunu eşitmək üçün bu gecə "Azərbaycan" mehmanxanasının on ikinci mərtəbəsinə lap piyada qalxmağa dəyərdi. Oğlanın barmaqlarından alaqaranlıq, tüstülü restorana dupduru bulaq suyunun şırıltısını andıran həzinlik süzülürdü. Oğlan yarıayıq-yarıkefli zala layla çalırdı. O biri musiqiçilər dinməzcə dayanıb pianoçu oğlanın xanalarda "gəzişməyinə" qulaq asırdılar.

Alen Delona oxşayan müğənni pianoçunu çox çalmağa qoymadı, mikrofonu dodaqlarına yaxınlaşdırıb, Yavərə təbəssümlə baxa-baxa oxudu:

Tut ağacı boyunca,
Tut yemədim doyunca...

Yavər başını mahnının ahənginə uyğun yellədə-yellədə:

– Can, ay can! – dedi.

Orxanın diqqəti pianodan qopan sədaların yanında idi. Piano elə bil müğənni ilə danışırdı, onun sözlərinə qüvvət verirdi. Zərb aləti daha əvvəlki təki guruldamırdı, elektrik gitarası partıltı qoparmırdı. İndi meydan pianonun idi, o biri alətlər səslərini boğub onun avazına dəm tuturdular.

Yavər müğənniyə qoşulub zümzüməylə oxudu:

Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca...

Oxuya-oxuya gözlərini zillədi Orxanın enli alnına, elə bil mahnının sözləri orda yazılmışdı. Yavər nəzərlərini açıq-aşkar həsədlə Orxanın üzündə gəzdirdi. Hərdən özünü unudub, bax, beləcə süzürdü onu. Sanki özünün bu boy-buxunda, bu yaraşıqda olmadığına heyfsilənirdi. Orxan qarabəniz idi. Qəşəng deyildi, ancaq suyişirin idi. Dərində olan iri gözləri doğmaya da, yada da həmişə istehza ilə baxırdı... Yavər nəzərlərini onun qalın dodaqlarında, enli çiynində, qabarıq sinəsində gəzdirdi və yüngülcə bir ah çəkdi. Sonra üzünü yana döndərib, o da pianoçuya baxdı.

Saçı qabaq tərəfdən seyrəlməyə başlamış pianoçu, deyəsən, restoranda olduğunu unutmuşdu: gözlərini yumub şövqlə çalırdı. Onun bütün görkəmindən sevinc yağırdı, elə bil ürəyini boşaltmağa məqam tapdığı üçün özünü bu dünyanın ən xoşbəxt adamı sanırdı. Sən demə, ürəyi doluymuş bu sarıbəniz oğlanın. Sən demə, yanındakı insafsızlar, heyvərələr hay-küyləri ilə əlini, dilini bağlayıblarmış, səsini, harayını batırıblarmış onun.

Mahnı qurtaran kimi Yavər əl çaldı. Yan-yörədən ona qoşulanlar da oldu. Müğənni zaldakılara baş əydi. Orxan qan-tər içində gülümsəyə-gülümsəyə adamlara nəzər salan, baxışlarından yüngüllük, arxayınlıq, bir az yorğunluq yağan sarıbəniz oğlana əl çalırdı. Pianoçu onu görmürdü, deyəsən, heç kimi görmürdü, kim bilir, indi onun fikri haralarda dolanırdı.

Musiqiçilər səhnədən düşüb lap yaxınlıqdakı stolun arxasında oturdular. Yavər xörəkpaylayan oğlanı yanına çağırdı, musiqiçiləri göstərib:

– Onlara bir butulka konyak, bir şampan, iki plitka şokolad ver, – dedi.

Xörəkpaylayan oğlan gedəndən sonra Yavər üzünü Orxana tutub:

– Bugünkü əhvalın xoşuma gəlmir, – dedi. – Nə fərli yeyirsən, nə içirsən.

Orxan badəsini götürdü.

– İçək!

Yavər də badəsini götürdü:

– Sağlıq de, içək.

Orxan başını buladı.

– Bilirsən ki, sağlıq deməyi bacarmıram. Genə özün yaxşısan.

Sanki Yavər bu sözə bənd idi; badəsini çənəsi bərabərinə qaldırıb:

– Dostlar! – dedi. – İyirmi yeddi, iyirmi səkkiz yaşın içindəyik. Papağımızı fırladanacan otuz gəlib çatacaq. Qocalırıq, tələsin... Bizim taytuşlarımızın iki-üç uşağı var. Məni gecikdirən səbəblər ayrıdır, mənə fikir verməyin. Bircə ana ümidinə qalmışam. Kənddən yüngülcə yay paltarında gəlmişəm Bakıya. İnstitut, yataqxana, filan... İndi də kirayədə oluram. Nəsə, söhbət məndən getmir. Dəmiri gərək isti-isti döyəsən. Gərək məqamı ötürməyəsən. Bir sözlə, mən sizin toy gününüzü səbirsizliklə gözləyirəm, çünki o məclisin tamadası olmaq arzusundayam.

Orxan badəsini Yavərin badəsinə toxundurub:

– Tamadanın sağlığına! – dedi.



Yavər başını bulaya-bulaya:

– Yox, – dedi, – hələ mənim sağlığıma içmək vaxtı deyil... İcazə ver... Axı, söz mənimdi.

Orxan yenə:

– Tamadanın sağlığına! – deyib içdi.

Yavər gah Səfaya baxdı, gah əlindəki badəyə baxdı, çiynini çəkib, narazı-narazı içdi.

Səfa badəni dodaqlarına toxundurub süfrəyə qoydu, pərt-pərt Orxana baxdı, gördü ki, Orxan da pərtdir.

Orxan Səfaya bağlılığını heç kimdən gizlətmirdi, ancaq onunla evlənəcəyi barədə də heç kimə bir söz demirdi. Orxan boynuna belə bir borc götürməmişdi, Səfa da Orxanın qarşısında belə tələb qoymamışdı... Səfanın pörtdüyünü görəndə Orxan düşündü ki, Yavərin artıq-əskik danışmağı yəqin onun da xoşuna gəlməyib... Bəlkə də gəlib?.. Bəlkə də sağlıq ürəyindən olduğu üçün Səfanın yanaqları bu təhər allanıb? Orxanı hirs boğdu. Bu gecədən az-çox aldığı zövq-ləzzət zəhər-zəqquma dönüb boğazına tıxandı. "Kimdi, axı, bu Yavər? Nə olsun ki, Səfayla bir yerdə işləyir? Yəni Səfanın həmkarları mənim qəlbimi ələk-vələk eləyib, ürəyimin içinə baxmalıdırlar?" Orxan istədi bir bəhanəylə Yavəri acılayıb getsin burdan. Səfanı da götürüb bu tüstülü, hay-küylü restorandan uzaqlaşsın. Şəhərin işıqlı, ancaq kimsəsiz guşəsinə getsinlər. Orda bir Səfa olsun, bir Orxan, bir də onların xırdaca sirləri...

Orxanın yadına dağ düşdü, çəmən düşdü, suyu diş göynədən bulaq düşdü və bircə anın içində əhvalı duruldu. Yavəri acılamaq fikrindən vaz keçdi, həm də baxıb gördü ki, Yavərin oynaq gözlərində bir ocağın nuru var, üzündə bir dünyanın sevinci var – bu anında onun kefinə soğan doğramaq insafdan, kişilikdən deyil. "Yavər yazıq pis söz demədi ha... Mən niyə belə dəymədüşərəm, fələk, niyə belə cırtqozam?! Yavər məndən min dəfə yaxşı adamdı, heç olmasa ürəyindəkiləri gizlətmir".

Rəqs musiqisi çalınanda, Yavər qalxıb Səfanın böyründə dayandı. Rəsmi əda ilə baş endirib, Orxandan soruşdu:

– Bağışlayın, sizin xanımı dəvət eləmək olarmı?

Orxan çiynini çəkib:

– Tamadanın xahişini yerə sala bilmərəm, – dedi.

Ləngərli, ağır bir rəqs havası çalınırdı. Oynayanlar yuxulu adamlar kimi ayaqlarını asta-asta, ehtiyatla götürüb qoyurdular. Yavərlə Səfa

rəqs eləyənlərin arasında batıb-çıxırdılar. Hər dəfə Orxan səmtə gələndə, qız üzünü ona tutub gülümsəyirdi, elə bil Orxana anlatmaq istəyirdi ki, "mən səninçün rəqs eləyirəm, ikicə addımlıqda səninçün darıxıram, burda səndən başqa heç kimi görmürəm, hətta belimi bərk-bərk qucaqlayan Yavərin əlinin, nəfəsinin hərarətini hiss eləmirəm, onun mənimlə birgə, bitişik fırlanmağından da xəbərim yoxdu, mən təkcə, təmtəkcə, rəqs eləyirəm, bax!"

İşığı ölgün bu restoranda Səfanın ala gözlərindəki ifadəni Orxan lap uzaqdan da gördü. Ancaq Yavərin baxışlarını tuta bilmirdi. Onun tez-tez batıb çıxan, gah işığa, gah da kölgəyə bürünən üzünün ağlığını görürdü, nazik qara bığını görürdü, bir də aypara qaşlarını. Orxan da baxdı, ha diqqət verdi – Yavərin sifətini bütöv görə bilmədi və onun üzündəki natamamlıq bir az maraqlı, bir az gülməli gəldi Orxana. Xalçaçılıq muzeyində Yavərlə tanış olduğu günü yadına saldı. "Üzlü adamdı Yavər. Onda da özü yanladı məni".

Onda Yavər yaxınlaşıb Orxana əl verdi. "Mən Yavərəm", – dedi. Orxan istədi desin ki, "gözlərimin ikisi də aydın", amma "xoşdu" dedi. Sonra Yavər: "Cəmi üç gündü ki, Səfa bacıyla bir yerdə işləyirəm", – dedi və Orxan başa düşdü ki, gözləri qaynayan bu oğlan onun barəsində hardansa, nə isə eşidib. Yavər Orxanı bir az da təəccübləndirdi: "Sizi tanıyıram, – dedi, – xalçaçılıqla məşğulsunuz... Aspirant... Memarlıq və incəsənət institutunda... xalq dekorativ tətbiqi sənətlər şöbəsi..." Orxan qaşlarını çatıb: "Məni hardan tanıyırsınız?" – dedi. Yavər gülümsəyə-gülümsəyə: "Tanıyıram də", – dedi. Orxan da sual-cavaba girişmədi, qorxdu ki, birdən bu balacaboy oğlan onun Allahdan da gizli qalan sirlərindən xəbərdar olar və başlayar onları bir-bir sadalamağa.

İkinci dəfə küçədə rastlaşdılar. Orxan axşamüstü Səfanın qoluna girib, Kommunist küçəsiylə üzüyuxarı gedirdi, gördü ki, budu ha, Yavər özü boyda bir qızla qol-qola üzüaşağı gəlir. Yavər dedi: "Tanış olun, bu qız mənim nişanlımdı, payızda evlənəcəyik". Qız utancaq qız idi, adamın üzünə baxa bilmirdi, söz soruşanda qıpqırmızı qızarırdı.

Yavərin təklifilə təzə filmə baxdılar... O biri həftə yenə Yavərin təklifilə köhnə "İnturist"in restoranında oturdular. Sonra bir yay axşamı Orxanın "Jiquli"sində Buzovna çimərliyinə yollandılar... Daha bir neçə dəfə görüşdülər. Sonra utancaq qız hara isə yoxa çıxdı, deyəsən, ərə getdi. Bu itki Yavəri zərrə qədər də kədərləndirmədi. Yavər başqa bir qızla çıxdı ortalığa. Dedi, "öz yerlimizdi, anam seçib bunu mənimçün, inşallah, yazda toyumuz olacaq". Bu qız utancaq deyildi, danışqan idi, həm də yaman qarınqulu idi, restoranda sifarişi sifariş dalınca verirdi. Söz-söhbəti qəşəng kişilərdən, oğlanlardan idi. Tamaşalarda, filmlərdə gördüyü cavan aktyorları, qışın günündə yadına gülöyşə nar düşən adam təki, ağzı sulana-sulana tərifləyirdi. Qız, deyəsən, Yavərin balacaboy olmağından utanırdı, küçədə Yavərlə qol-qola, çiyin-çiyinə gedəndə bir az sıxılırdı. Bu qızdan nə Orxanın xoşu gəlirdi, nə Səfanın, ancaq Yavərin xatirinə qızın sırtıqlığına dözürdülər.

Günlərin bir günü Yavər gülə-gülə, sevinə-sevinə gəldi ki, bəs qurtardım o qıznan, bu gen dünyada bir o qala, bir mən, genə almaram onu...

Neçə vaxt idi ki, Yavər qızlardan uzaq gəzirdi, daha evlənməkdən söhbət salmırdı, ancaq dünən sevinə-sevinə dedi ki, dostlar, Fidan adlı bir qıznan tanış olmuşam, bu qız qiyamət qızdı, mən ömrümdə belə ağıllı-dərrakəli, gözəl-göyçək qız görməmişəm. Dedi ki, bu qızın böyük qardaşı tarix elmləri namizədidi, universitetdə baş müəllimdi – qohumların, dostların uşaqlarını instituta şappıltıynan düzəldəcəyik; ortancıl qardaşı avtomobil müfəttişidi – daha Orxanın maşınına dəyib-dolaşan olmaz; kiçik qardaşı ərzaq mağazasının müdiridi – ətimiz, yağımız havayı gələcək; anası qənnadı fabrikində ustadır. Həm də deputatdır, amma dürüst bilmirəm haranın deputatıdır – bir müşkül işimiz olanda salarıq qabağa; Fidan özü də, gözünüz aydın, uşaq həkimidir – körpələrimiz xəstələnəndə day təcili yardım-filan çağırmayacağıq. Yavər dedi, dostlar, mən Fidanın dərdindən ölürəm, Fidan da mənim dərdimdən ölür, iki dünya bir olsa, genə alacam onu. Sonra da dedi ki, sizin barənizdə Fidana çox danışmışam, sabah axşam saat yeddidə "İyirmialtılar" metrosunun qabağında üçümüz də Fidanla görüşməliyik, sizi restorana aparacam...

Onlar bu axşam saat yeddidə "İyirmialtılar" metrosunun qabağında dayanıb gözlədilər, gözlədilər, Fidan gəlib çıxmadı. Yavər heç eynini də pozmadı, saatına baxıb gülümsəyə-gülümsəyə dedi:

– Yəqin Fidanın vacib işi olub... Eybi yoxdu, bu gecəmizi onsuz keçirərik.

Gəzə-gəzə restorana gedəndə də, liftə minib on ikinci mərtəbəyə qalxanda da, Orxan yalnız Yavərlə Fidan barədə düşündü. Düşündü ki, qızla tanışlıq əhvalatını, deyəsən, Yavər özündən uydurub. Fidan yəqin Yavərin yaxşı qız tapmaq arzusundan yaranıb...

İndi Yavərlə Səfa Orxanın lap yaxınlığında rəqs edirdilər. Yavər qızın qulağına nəsə pıçıldayırdı, qız da gözlərini Orxana zilləyib

xoşbəxt-xoşbəxt gülümsəyirdi. Yavərin əhvalının duruluğu Orxanın Fidan barədəki şübhəsini bir az da artırdı. "Ola bilməz ki, sevdiyin qız görüşə gəlməyə, sən də qətiyyən vecinə almayasan bunu. Bu Yavər lap mat qalmalı adamdı. Bayaq metronun qabağında elə bil Fidanın gəlməməyinə sevinirdi. İndi də sevinir. Odu ey, zalımın üzündə guya gül bitib". İndi Orxan Yavərin sifətini bütöv görürdü. Yavər elə fərəhlənirdi, deyirdin, bəs dünyanın ən bəxtəvər adamıdı.

Yavərlə Səfa yavaş-yavaş Orxandan uzaqlaşdılar. O biri oynayanların arasına girhagirdə Yavər başını qəflətən irəli uzadıb, tez də çəkdi və Orxana elə göründü ki, Yavər Səfanın boynundan öpdü. Orxanın təpəsindən dabanına qədər bir ağrı zolağı keçdi. Birdən-birə qulaqlarında qopmuş uğultu ətrafdakı bütün səs-küyü batırdı. Elə bil adamlar musiqiyə deyil, onun qulaqlarındakı uğultuya oynayırdılar. Orxan istədi durub elə buradaca Yavəri şilləsin, ayaqlarının altına salıb çığnasın. Bu dəm Səfagil rəqs edə-edə Orxana yaxınlaşdılar. Orxan baxıb gördü ki, Səfa yenə ala gözlərini ona zilləyib ilıq-məhrəm bir təbəssümlə gülümsəyir. Əllərinin əsməcəsi dayanmasa da, Orxan içində bir sərinlik, arxayınlıq duydu. "Yavər belə qələt eləyə bilməz. Yoxsa, Səfa o dəqiqə dərsini verərdi onun. Səfaya bələdəm mən. Səfa kişilərin çoxundan qeyrətlidi".

Rəqs qurtardı. Yavər stolun arxasına keçən kimi badələrə konyak süzdü. Onun şüşə tutan əli titrəyirdi. Bunu görəndə Orxanın beyninin qurdu təzədən tərpəndi. Yavərin əlinin əsməyi təbdən çıxartdı onu. "Bu nə murdar fikirdi girib mənim beynimə? Bəlkə bayaq məni qara basmışdı, bəlkə kefliyəm mən?" Üç adam bir şüşə konyakı hələ yarı eləməmişdi. Nə keflilik? Orxan nə qədər içir-içsin, ağlı-huşu yerində olur, gözləri də ağı qaradan seçir. Orxan ayıq-sayıq gözlərilə gördü ki, Yavər Səfanın boynundan öpdü. Öpdü, öpdü, öpdü... Orxan Səfanın boynuna baxdı, guya Yavərin dodaqlarının izini görəcəkdi orda. Səfanın boyun-boğazı tərtəmiz idi, ağappaq idi. Yanaqlarındakı allıq-qırmızılıq da çəkilib getmişdi. Üzünün dərisi süd rəngində idi. Bu süd rəngi Orxana xoş gəlirdi, illah da gecələr: ay işığında, elektrik işığında elə bil bu ağlıq bir az da artırdı.

Yavər badəsini götürüb sağlıq demək istəyəndə, Orxan onu sancmaq həvəsinə düşdü.

– Tamadalıq da bir istedaddı, – dedi. – Sən, görünür, mahir tamadalardansan.



Yavər Orxanın sözlərindəki lağı başa düşmədi. Gülə-gülə:

– Qoy oturmuşuq, – dedi.

Yavərin səsindən də Orxanın zəhləsi getdi. Yəni kişi səsidi bu? Yer üzündə belə ət tökən səs yoxdu. Eşidəndə adamın bədəni çimçişir. Nə əcəb Orxan bu vaxtacan fikir verməyib buna? Fikir verməyib ki, Yavərin səsi siçan ciyiltisinə oxşayır? İndi Yavərin nazik, qara bığından da, aypara qaşlarından da, azacıq üzdə olan dəyirmi gözlərindən də Orxanın zəhləsi getdi. Sən demə, Yavərin üzü körpə qız üzü kimi totuq imiş, dodaqları sallaq, işıltılı imiş, səliqəylə yana daradığı yumşaq saçlı yağlı, parıltılı imiş. Oğlan xeylağı da bu qədər sığallı-tumarlı olarmı?

Orxan dedi:

– Sənə əməkdar tamada adı versələr, halaldı.

Yavər Orxanın içini didib-dağıdan qəzəbdən xəbərsiz idi, ona görə də onun sözlərindəki acılığı, eyhamı duymadı.

– Zarafatsız, məndə tamadalıq məharəti var, – dedi. – Bu yaxınlarda bir dostumun qardaşının toyu idi. Nazirlər sovetində işləyir o dostum. Məclisə böyük vəzifəli adamlar toplaşmışdı. Heç kim ağsaqqallığı boynuna götürmədi. Axırda məni verdilər qabağa. Bilirsən necə tamadalıq elədim? Canımçün, hamının ağzı açıla qalmışdı.

Orxan açıq-aşkar istehzayla:

– Yox, əşi, – dedi.

Orxanın səbbini almaq üçün Səfa stolun altında ayağını onun ayağına toxundurdu.

Orxan basılmadı.

– Lap hamının ağzı açıla qalmışdı? – dedi. – Böyük vəzifəli adamların da ağzı açıla qalmışdı?

Yavər Orxanın bu sualından təəccüblənə-təəccüblənə:

– Böyük vəzifəli adamları nə bilmisən? – dedi. – Onların içində elələri var ki, üç cümləni dal-dala qoyub danışa bilmirlər. Tamadalıq savadnan, vəzifəynən deyil, ha.

Səfa bayaqdan başa düşmüşdü ki, Orxan söhbəti qəlizləşdirmək niyyətindədir. Orxanın dizinin kündəsini ustufca sıxdı. Orxan qızın səssiz-sözsüz xahişinə, yalvarışına məhəl qoymadı. Yavərin dəyirmi gözlərinin içinə baxa-baxa soruşdu:

– Sənin ki belə məharətin var, nə əcəb toylarda pulnan tamadalıq eləmirsən?

Yavər dillənmək istədi, ancaq Orxan ağzını açmağa macal vermədi. Dedi:

– Sən alverçisən, Yavər, bilirəm. Aldığın məvacib hara, xərclədiyin hara? Layka plaş, dublyonka, cins şalvar, importnı cır-cındır satırsan.

Yavərin gözlərindəki təbəssüm o saat silinib getdi. Badəni süfrəyə qoyub çaşqın-çaşqın gah Orxana baxdı, gah Səfaya. Qız Orxanı daha işarə, him-cim eləmirdi; iş-işdən keçmişdi.

Orxan soruşdu:

– Alver eləmirsənsə, bu qədər pul səndə hardandı? Hə?

Yavər acı-acı gülümsədi:

– Heç səndən soruşurammı ki, "Jiquli" ni nəynən almısan?

Orxan belə sual gözləmirdi; bir az tutuldu, dirənə-dirənə cavab verdi:

– Məlumdu necə almışam... Hamı bilir... Kömək eləyiblər... Anam otuz beş ildi sahə həkimi işləyir. Bacım, yeznəm xaricdə... Lap tutalım ki, maşını mənimçün alıblar? Nə olsun? Halal pulnan alıblar, amma sən...

Səfa, yalvarırmış kimi, astadan:

– Orxan, bəsdi də, – dedi.

Yavərin gözlərinə çökmüş çaşqınlıq tez də çəkilib getdi, dodaqlarında sirli bir təbəssüm dolandı. Onun əhvalındakı bu qəfil dönüş də Orxana xoş gəlmədi. Orxan şəhadət barmağını Yavərə tuşlayıb:

– Sənin xərclədiyin pul, haram puldu, – dedi.

Yavər gərginliyi sındırmaq üçün bu sözləri zarafata salıb güldü.

– İstəyirsən məni hirsləndirəsən, – dedi, – amma hirslənməyəcəyəm, havayı zəhmət çəkirsən. Sənin danışığın yadıma bir dostumu saldı. Şairdi, özü də yaxşı şairdi. Hərdən şəhərdə darıxanda cumur rayonlara, kəndlərə. O tərəflərdə onu yaxşı qarşılayırlar. Rayon rəhbərləri süfrə açırlar onunçün, süfrədə – day nə deyim – can dərmanı, naznemət... Şair dostum yeyir, içir, sağlıq deyir, onun da sağlığına dönə-dönə badə qaldırırlar. Axırda, canını yediyim şair keflənir, olur lül atəş, başlayır ev yiyələriynən dalaşmağa. Deyir, siz juliksiz, oğrusunuz, siz kəndlilərin qanını içirsiniz, bu süfrədəkiləri özünüz qazanmamısınız. Nə başını ağrıdım, şair qardaş ev yiyələrinin aşının suyunu verir. Ev yiyələri də neyləsinlər – dayanıb baxırlar bir-birilərinin üzünə... Şair dostum yatıb-ayılandan sonra elədikləri yadına düşür, xəcalətdən qaçır ordan. O yerdə ki işləri korlayıb, day ora getməyə ömür-billah üzü gəlmir. Bir dəfə ona dedim, ə, bu nə xasiyyətdi səndə? Vallah, elə eləyəcəksən, axırda ayaq basmağa rayon, kənd tapmayacaqsan bu boyda Azərbaycanda. Deyir, elə bilirsən nanəciblikdən belə eləyirəm? Yoox, deyir, içki məni götürəndən sonra dumanlı beynimdə bircə fikir dolanır. Fikirləşirəm ki, əyə, belə də iş olar? Bura gəlirəm, bunlar məni qonaq eləyirlər, bunlar Bakıya gəlirlər, orda da yenə bunlar məni qonaq eləyirlər. Öz-özümə deyirəm, əyə, ay tifağı dağılmış, bəs sən nə vaxt kişi olacaqsan? Nə vaxt sənin cibin imkan verəcək ki, bunları bir stolun başına yığasan? Baxıram onların süfrəsinə, görürəm yox, qardaş, belə süfrə açmağa mənim heç vaxt qeyrətim çatmayacaq, qarnımın borcunu qaytara bilməyəcəyəm. Bax, onda cin vurur təpəmə, mən də dalayıram, sancıram camaatı...



Yavər köks ötürüb susan kimi Orxan dedi:

– Göydən üç alma düşdü.

Yavər kürəyini stulun söykənəcəyinə dirəyib, gülümsəyə-gülümsəyə:

– Neynək, – dedi, – hesab elə ki, sənə kiçik, müasir bir nağıl danışdım bu gecə.

Səfa Orxanın qolundan yapışıb təntik-təntik:

– Qalxaq, dedi, – havam çatmır burda.

Mehmanxananın qarşısında Yavər onlarla xudahafizləşdi.

– Sabah Fidan mütləq gələcək. Yenə həmin vaxt "İyirmialtılar" metrosunun qabağında görüşək. Sabah başqa yerə gedərik... "Moskva" restoranına. Gəlin ha, Orxan.

Yavər dönüb uzaqlaşdı. Səfa Orxanın enli sinəsini yumruqlarıyla döyəclədi.

– Kobudun biri kobud... Vəhşi... İnsafsız... Axı, yazıqdı Yavər, niyə qəlbinə dəydin onun?

Orxan qızın yumruqlarını iki əliylə tutub sinəsinə sıxdı.

– Yavər arsızlıq elədi bu gecə.

– Bizə görə özünü şən aparırdı o. İstəmirdi ki, bizim qanımız qaralsın.

– Sənin bu iş yoldaşın sırtığın sırtığıdı. Hələ utanmaz-utanmaz bizi sabah restorana dəvət eləyir.

Səfa az qala ağlamsına-ağlamsına dedi:

– Axı niyə başa düşmürsən ki, bu, restorana dəvət deyildi, söyüş idi, məzəmmət idi, ay...

Orxan Səyanı özünə tərəf çəkib, gözlərindən öpdü. Qız dartınıb, mehmanxananın qabağındakı adamlara ürkək-ürkək baxdı.

– Onlardan utanmırsan? – dedi və Orxanın qoluna girdi.

Asta-asta bulvara doğru addımladılar.

Göydə yepyekə, ağappaq bir ay vardı, hər yan bəyaz işığa qərq olmuşdu. Bu bəyaz işıqda Orxanın gözləri qaranlıq bucaq axtarırdı, çətirli ağacların altında boş skamya axtarırdı. Qız isə qəsdən onu adamların gur yerinə çəkirdi.

Xiyabanın nisbətən sakit, seyrək guşəsində Orxan qızla üzbəüz dayanıb, əllərini onun çiyninə qoydu. Hündür dirəkdəki elektrik lampasının qatı işığında Səfanın süd rənginə çalan üzünə baxdı və ona elə gəldi ki, bir xeyli beləcə baxsa, gözləri qamaşacaq. Bir əliylə qızın ipək, şabalıdı saçını sığallaya-sığallaya əyilib, onun şüşə kimi şəffaf boynundan öpdü. Səfa dinmədi, müqavimət göstərmədi və qızın bu mütiliyi Orxanın yadına restoranı saldı. Səfayla Yavərin rəqs eləməyi gəlib durdu Orxanın gözlərinin qabağında. Yavərin razı-bəxtəvər gülümsəməyini də, başını Səfanın boynuna tərəf əyməyini də Orxan təzədən gördü. Əlini Səfanın saçından çəkib, yoluna düzəldi. Küsülülər kimi yan-yana, dinməz-söyləməz yeridilər...

Bulvardakı vışkanın tuşuna çatanda Səfa dayandı və müqəddiməsiz-filansız:

– Mənnən evlən, – dedi.

Orxanın nəzərləri dənizdə – sahildən çox-çox uzaqda qırmızı nöqtə kimi səyriyən işığa zillənib qaldı. Orxan ürəyində: "Köpəyoğlu Yavər, – dedi, – bu evlənmək söhbətini hardan saldı ortalığa?"

Orxanın susduğunu görəndə, Səfa başladı niyyətini çözələməyə:

– Üç ilə yaxındı açıq-aşkar görüşürük. Ömrüm boyu sənnən məşuqə kimi yaşaya bilmərəm. Mən dörd qardaşın bacısıyam, çox da ki, uzaqda olurlar, xəbər tutsalar, ətimi şişə çəkərlər.

Orxanın dilinin ucuna bir söz gəldi. Gah istədi desin, gah istədi deməsin, qaldı kəkələyə-kəkələyə:

– Bəs onda... o oğlanla... qardaşların...

– Onda mən ərə getmişdim... O ayrı, bu ayrı...

Səfanın belə ötkəm, belə qəti danışığını Orxan heç vaxt eşitməmişdi. Bir anlığa ona elə gəldi ki, üzbəüz dayandığı bu alagöz, ağçöhrə qız Səfa deyil, bambaşqa, yad bir adamdı. Orxan başa düşə bilmədi ki, bu "yad qız" ondan nə istəyir.

– Nə olub sənə? – dedi. – Yavərdən uzaq olmaq lazımdı, aranı qarışdırır o.



– Yavərin bura nə dəxli? Məni bəyənmirsənsə, rədd elə... Ya əl çək məndən, ya da... Bir sözlə, belə yaşamaq mənə sərf eləmir.

Orxan gözlərini vışkanın kəlləsində yanıb-sönən lampalara dikdi. Orda işıq-kəlmələr tez-tez batıb çıxır, bir-birini əvəz edirdi: "vozdux... veter... more... vozdux... veter... more"

Səfa:

– Vaxtım keçir, mən də ana olmaq istəyirəm, – dedi

Orxanın yadına dağ düşdü, çəmən düşdü, suyu diş göynədən bulaq düşdü. Naxışı, bəzəyi otlardan, çiçəklərdən toxunmuş canlı bir xalça gəlib durdu gözlərinin qabağında. Elə bir xalça ki, bir ucu Orxanın ayaqlarının yanında, bir ucu göylə yerin birləşdiyi xətdə. Orxan quş olub o diyara uçmaq istədi, amma Səfasız. Oranın sükutu, həniri, ətri ilə təkbətək qalmağı arzuladı. O yerlərdən ötrü burnunun ucu göynədi. Onsuz da kəndə getmək niyyəti vardı, ancaq günü günə sata-sata qalmışdı. Elmi rəhbəri Xürrəm müəllim təzə həvəsə salmışdı onu. Demişdi, dörd ildi xalçaçı Ağbəyimdən səs-soraq yoxdu, get tap Ağbəyimi, gör başında nə var onun, Ağbəyim niyə qızıl əllərini yanına salıb susur...

Orxan vışkanın kəlləsində yanıb-sönən lanpalardan gözlərini çəkdi.

– Ana ol də, – dedi, – uşaq lazımındırsa...

Səfa onun mürgülü, dalğın danışığını yarımçıq kəsdi:

– Mən bic doğmaq istəmirəm, – dedi.

Orxanın gözlərinə yenə xalça göründü. Dünyadakı bütün rənglərin qarışığından toxunmuş bu xalça indi səmadan asılmışdı, elə səmanın özü boyda idi. Başı günəşə dirənən bu xalçanı, əlbəttə, Ağbəyim qızıl əllərilə toxumuşdu.

Orxan Səfanın kürəyində çəpərlənmiş saçını tumarladı:

– Bu söhbətin yeri deyil, – dedi, – vallah, yeri deyil.

Taksiyə mindilər. İkinci mikrorayona çatanacan bir kəlmə də danışmadılar... Yayın günündə, beşmərtəbəli binanın qarşısında addabudda oturub, özünü havaya verən adamların da yanından kirimişcə ötdülər. Ayaqlarının tappıltısına qulaq asa-asa üçüncü mərtəbəyə qalxdılar. Səfa yaşıl qapının qabağında dayanıb bikef-bikef:

– Xudahafiz, – dedi.

Orxan cibindən öz açarını çıxarıb, qapını açmağa başladı.

– Bu gecə sənnən qalacam, – dedi.

Səfa başını bulayıb:

– Yox, yox, çıx get, – dedi.

Orxan qapını itələdi, Səfanı irəli buraxdı, özü də onun ardınca içəri girdi.

* * *

Fatma həkim bürküsü yavaş-yavaş hiss olunan bu yay səhərində qalın şala bürünüb, oturmuşdu pəncərənin qabağında, dünəndən yoxa çıxıb, indicə peyda olan oğlunu biganə nəzərlərlə süzürdü. Fatma həkim oğlunun şişmiş, qızarmış gözlərinə baxıb məzəmmətlə soruşdu:

– İkinci mikrorayondan gəlirsən?

Orxan anasının sualını qulağının dibindən vıyıltıyla buraxıb, öz sualını verdi:

– İşə niyə getməmisən?

– Xəstələnmişəm, – deyib Fatma şalın ətəyini dizlərinin üstünə çəkdi. – Elə bilirsən həkim xəstələnmir? Bu dəqiqə bədənimdə sızıldamayan yer yoxdu, Simanın canıyçün.

Sima onun ilk övladı, sevimlisi idi. Həmişə söz düşəndə deyirdi ki, Simanın atılan dırnağına dəyişmərəm oğlanlarımı. İki oğlumun heç birindən yarımamışam, deyirdi, Orxan əhli-kefdi, ev-eşik dərdi çəkən deyil, o biri də şikəst, kəmağıl, gözdağıdı.

Canının ağrıdığı dəmdə Fatma həkimin yadına Sima düşdü.

– İndi burda olsaydı, ayaqyalın, başıaçıq qaçıb gələrdi yanıma, yüz dəfə "can mama" deyərdi. Nə tapıblar, bilmirəm, bu xaricdə?

Orxan nəzərlərini anasının seyrək, gümüşü saçında gəzdirə-gəzdirə soruşdu:

– Nə xəbər var Simagildən?

Fatma həkim başqa söz danışdı.

– Otuz beş ildi uçastkovı həkim işləyirəm, bu küçə mənim, o küçə sənin, bu dalan sənin, o dalan mənim. Heç olmasa işdən qayıdanda evdə bir rahatlıq görəsən. Görəsən ki, xörəyin-filanın hazırdı.

Orxan gicişən gözlərini anasının üzünə dikdi. Arvadın üzü çox solğun, çox balaca göründü ona. Deyəsən, Fatma həkimin boğazındakı qırışlar da artmışdı, buxağı bir az da torbalanmışdı. Orxan anasının könlünü almaq üçün zarafatla dedi:

– Mən evlənsəm, elə bilirsən evdar qız alacam? İşləyən qızla evlənəcəyəm! Bəlkə bu daxmaya o səndən gec qayıtdı? Evə pul gətirməyən qızı indi almırlar, ay Fatma həkim.



Fatma həkimin batıq, sönük gözlərində təbəssümə bənzər bir işartı dolandı və Orxan inandı ki, anasının xəstəliyi uzun çəkməyəcək, sabah Fatma həkim yatağından sapsağlam qalxacaq, əvvəlki rəng-rufu da, gözlərinin nuru da yerinə qayıdacaq. Birinci dəfə deyil ki! Fatma həkimin belə xəstələnməkləri çox olub. Həmişə də azar-bezar, dava-dərmansız, ayaq üstə dözüb.

Oğlunun bayaqkı sualına Fatma həkim indi cavab verdi:

– Simadan xəbər-zad yoxdu. Nə xəbər olacaq? Ər-arvad oturublar orda, pul qazanırlar, məni də nəvələrimə həsrət qoyublar.

Orxanın başı ağırlaşmışdı, boynu qatıb ağaca dönmüşdü. Fatma həkim oğlunun yorğun, əzgin olduğunu çoxdan duymuşdu.

– Yəqin gecə yatmamısan – dedi. – Get, uzan... Adamın sənə yazığı gəlir. Axırda özünü üzüb avara salacaqsan...

Orxan yan otaqdakı taxta çarpayıda gah o böyrü üstə çevrildi, gah da bu böyrü üstə. Kirpik çalmaqdan qorxurdu, çünki kirpik çalanda elə bilirdi gözlərinə bir topa tikan batır. Orxanın beyni oyaq idi, qulaqları xırdaca çıqqıltını da eşidirdi.

Fatma həkim oğlunun yata bilmədiyini hiss eləmişdi, o biri otaqda dilləndi:

– Rayonlu qızı avara qoyacaq səni.

Ara qapını açıq qoymağına Orxan peşman oldu. İndi durub örtməyə də ürəyi gəlmirdi. Anasının xətrinə dəyərdi bu. Fatma həkim də elə bil oğlunu sancmağa məqam tapmışdı, səsini bir az da qaldırdı:

– Fərli olsaydı, əri qoyub qaçmazdı!

Orxan ağzını dirəmişdi yastığa, anasına cavab vermək istəmirdi. Onu susmağa vadar edən səbəb canındakı ağrı, ərincəklik deyildi. Onun dilini qıfıllayan ürəyinin başındakı göynərti idi. Səfanı ömürlük itirməyə Orxanın gücü, kişiliyi çatmırdı. Səfayla evlənməyi də ağlına gətirmirdi. Qəlbində, beynində hamından gizlətdiyi bir etiraf dolanırdı: "Səfanı ər məhəbbəti ilə sevmirəm mən". İndiyəcən Orxan bu fikirdə olmuşdu ki, Səfa onun ömrünün boş, yeksənəq və asudə dəqiqələrinin bəzəyidir, ancaq keçən gecə başa düşdü ki, bu təsəlli ilə həmişə aldadıb özünü. Başa düşdü ki, üç il ərzində Səfa onun ürəyində dağılmaz bir yuva qurub. Səfa onunla elə möhkəm tellərlə bağlanıb ki, həmin telləri kəsib atsa, o kəsiklərin ağrısı Orxanı qəbir evinəcən incidər.

Orxan arxası üstə çevrilib ürəyində: "Lənət şeytana, – dedi. – Onda bəs niyə almıram Səfanı? Anam bircə dəfə də görməyib o qızı, amma

adı gələndə daş atıb başını tutur. Deyir, onu özünə arvad eləsən, küçələrə düşüb dilənəcəm, gecələr də vağzalda-zadda yatacam, qoy camaat sənin üzünə tüpürsün. Deyir, atan rəhmətlik adlı-sanlı həkim olub, abırlı adam olub, onun goruna söydürməyə haqqın yoxdu... Eh, ay ana! Dedin, neynək, gəzirsən gəz – kimin uşağı gəzmir ki, – amma sonra bu evə halal süd əmmiş bir qız gətirəsən gərək. Dedin, başqalarının artığıdı, bir az oturub-duracaqsan, ürəyini vuracaq... Onda mən də sənin kimi düşünürdüm, ay ana".

Onda Orxan elmi işilə əlaqədar xalçaçılıq muzeyinə tez-tez gedərdi – evlərinin əlli-altmış addımlığında idi muzey – həmişə də Səfanı burda görərdi. Görərdi ki, alagöz, ağbəniz, şabalıdı saçlı bu arıq qız oturduğu yerdən saatlarla tərpənmir, danışdırmasan, danışmır. Orxan öyrəndi ki, bu qız hələ institutun dördüncü kursunda oxuyanda evlərindən xəbərsiz ərə gedib, amma əri ilə niyəsə çox yaşamayıb. Oğlan mənzili də Səfaya qoyub, yollanıb BAM-a. Orxan onu da öyrəndi ki, Səfanın rayonda dörd qardaşı var, anası var, di gəl ki, onlardan icazəsiz iş tutduğu üçün qızı heç hansı danışdırmır. Orxan yavaş-yavaş başladı Səfanın halına acımağa. Hər dəfə rastlaşanda ona ılıq bir söz demək ehtiyacı duydu. Sonra qızın üzünün ağlığı, süd rəngi xoş gəldi ona. Sonra ürkə-ürkə danışmağı, səsinin məlahəti, titrəkliyi... Bir də duyuq düşdü ki, Səfa fikrindən çıxmır, hətta gecələr yuxusuna da girir. Onda Orxan güman elədi ki, məhəbbət deyil bu, sadəcə olaraq gözəl, gənc bir qadınla görüşmək, onunla yaxın olmaq həvəsidir... Və Orxan qır-saqqıza dönüb yapışdı Səfadan...

Əlaqələri elə pilləyə çatdı ki, Səfa mənzilin açarını Orxana verdi. Orxan hər axşam açıq-aşkar gəldi Səfanın mənzilinə. O qədər gedib-gəldi ki, həmin binada yaşayanlar daha təəccüblənmədilər, Orxanın ardınca pəncərədən boylanmağa, qapının gözlüyündən baxmağa daha həvəs göstərmədilər... Orxan Səfanın keçmişi ilə maraqlanmamışdı, qızı sorğu-suala tutmamışdı. Tək bircə dəfə əri barədə üstüörtülü söz salmışdı. Onda Səfa demişdi ki, "o məni atmayıb, mən onu atmışam". Vəssalam. Orxan Səfanın gələcəyi barədə də düşünməmişdi. Onun zənnincə, Səfa bəxtindən razı qalmalı idi. Orxan kimi subay bir oğlanla yaxınlıq Səfadan ötrü lap göydəndüşmə idi. Görəsən, Səfa taleyindən daha nə uma bilər?.. Dünən gecəyə qədər Orxan belə fikirləşirdi və dünən gecə Yavər restoranda sağlıq deyən ana qədər Orxanın ömrü əvvəlki sakit məcrasında axıb gedirdi. Sonra qaranlıq otaqda Səfa



çarpayıya paltarlı, üzüqoylu uzanıb ağladı. "Sən xudbin adamsan", – dedi. İnsanın ürəyində nə qədər qubar olarmış, gözlərində nə qədər yaş olarmış...

Orxan yatmaqdan, dincəlməkdən ümidini üzdü, dikəlib çarpayıda oturdu. Anladı ki, sabah da belə olacaq, bir gün də, o biri günlər də – beləcə xiffət çəkəcək, bu xiffətdən yaxasını qurtarmayınca bu gen dünyada rahatlıq tapmayacaq. Bəs bu fikirlərin əlindən baş götürüb hara qaçasan, hara? Adam özündən necə qaça bilər?.. Orxanın qulaqlarına bulaq şırıltısına bənzər bir səs gəldi, yenə yadına dağ düşdü, çəmən düşdü. "Bir neçə günlüyə şəhərdən çıxmalıyam. Gedib Ağbəyimi taparam, həm özü ilə tanış olaram, həm də işlərilə. Bəlkə təzə bir şey toxuyub..."

Ürəyini sıxan kədərdən xilas olubmuş kimi sevinə-sevinə durub, o biri otağa keçdi.

Fatma həkim şala bürünüb kətilin üstündə mürgüləyirdi. Ayaq səsləri eşidən təki gözlərini açdı.

Orxan danışmaq xatirinə soruşdu:

– Baton hardadı?

Fatma həkim gözlərini təzədən yumdu.

– Harda olacaq? Həmişəki yerində.

Orxan pencəyini, üzqırxanını götürüb evdən çıxdı...

İçərişəhərdə, Mirzə Muxtarın evinin qabağında irigövdəli, qollu-şaxəli məşhur bir tut ağacı var. Orxan "Jiquli"ni gecə-gündüz bu ağacın yanında saxlayırdı. Tut ağacının budağı Mirzə Muxtargilin ikinci mərtəbədəki mənzillərinin eyvanına toxunurdu. Binanın sağ yanındakı balaca meydança əvvəllər uşaqla, böyüklə dolu olardı, burda şahmat, nərd, domino oynayardılar. Sübhdən gecə yarısınacan səs-küy əskik olmazdı burdan. Sonralar meydançanın yan-yörəsindəki evləri sökdülər, buranın sakinlərini pərən-pərən saldılar: bəzilərini Əhmədliyə, bəzilərini mikrorayonlara, bəzilərini də Yasamala köçürdülər. Burda bircə Mirzə Muxtarın iri daşlardan tikilmiş, qalaya bənzər evi qaldı, bir də budağı eyvana toxunan tut ağacı. Meydançadan səs-küy kəsildi, bura iri-iri zibil yeşikləri düzdülər; meydança gündüzlər yaşıl milçəklərin, gecələr ağ pişiklərin güzar yerinə döndü.

Orxan maşının yanına gələndə gördü ki, klarnetçalan Ağazəki çiynini Mirzə Muxtarın evinin tininə söykəyib, qəzet oxuyur. Ağazəki qəzet-kitab oxuyan deyildi, indi də əlindəki qəzetdən çox, gəlib-gedənlərə baxırdı. Orxanı görən kimi uzaqdan qışqırdı:

– Professor, QTO nə deməkdir? – Özü də cavab verdi: - Qe... te... o... yəni "qonşunun toyuğunu oğurlama". – Başladı bərkdən gülməyə, gülə-gülə əlindəki qəzeti bürmələyib, atdı yaxındakı zibil yeşiyinə. – Alə, mən ölüm, – dedi, – adamın başını qatmaqda bu. QTO nədi, alə? Hə, professor?

Yaşı əllini adlasa da Ağazəki bu vaxtacan evlənməmişdi, elə subay oğlan kimi də qayğısız-filansız yaşayırdı. Onun zarafatlarından İçərişəhərdə heç kim incimirdi. Ağazəki yaxşı adam idi, xeyrə-şərə yarayan idi, dost-tanışların məclisində pulsuz çalırdı, kimsəsiz cavanların toyunda haqq istəmirdi. Klarneti tez-tez xoruz buraxırdı, həm də çaldığı havaları tamam-dəstgah bilmirdi, ona görə də adına "yarımçıq Ağazəki" deyirdilər. Klarnetə güc gələndə iri; qıpqırmızı gözləri yerindən çıxıb dayanırdı burnunun yanlarında və baxanlar fikirləşirdilər ki, bu dəqiqə Ağazəkinin gözləri diyirlənib düşəcək döşəməyə. Alnında, qulaqlarının dibində yoğun-yoğun damarlar qabarırdı, bütün qanı yığılırdı üzünə, boynu şişib kötüyə dönürdü və adamın yazığı gəlirdi ona. Amma Ağazəki İçərişəhərdə klarnet çalmağı ilə yox, qəribə-qəribə suallar verməyi ilə məşhur idi. Heç kim baş açmırdı ki, Ağazəki bu sualları hardan tapır, hansı kitabdan öyrənir. Bir də görürdün ali təhsil almış məhlə cavanlarından birinin nəfəsini daraldıb: "Xalaoğlu, de görüm birinci dünya müharibəsində neçə Qarabağ atı iştirak eləyib?", "Teymurləngin topal ayağı sağlam ayağından nə qədər qısa idi?" Ağazəkinin bu təhər "qatıaçılmamış" suallarına heç kim cavab verə bilmirdi, onda Ağazəki qürrələnə-qürrələnə deyirdi: "Savadlı olmaq, institut qurtarmaqnan döyül. Diplom almağa nə var?"

Ağazəkinin adamlara ləqəb qoymaqdan da xoşu gəlirdi. Elə Orxanın qardaşına da "Baton" ləqəbini o qoymuşdu. Uşağın gül kimi adı vardı: "Qorxmaz". Bir gün Ağazəki Qorxmaza baxıb-baxıb gülmüşdü, demişdi "alə, mən ölüm, bunun başı baton çörəyə oxşayır". İçərişəhərin uşaqlarına nə var – ağızlarına bir söz düşdümü, qurtardı – o gündən Qorxmazın adı qaldı "Baton". Axırda Fatma həkim də özü qoyduğu adı unudub, öz oğlunu "Baton" çağırdı...

Orxan maşınını işə salanda Ağazəki dedi:

– Professor, səni pivəyə qonaq eləyirəm... noxudnan...

– Çox sağ ol, Ağazəki, - deyib Orxan "Jiqulini" ni tərpətdi...

Orxan "Gənclik" metrosuna düşdü, gəlib-gedən qatarlara göz gəzdirdi. Bilirdi ki, Batonun öz yeri var – Baton həmişə ikinci vaqonda oturur.



Qardaşının dərdi hərdən Orxanın ürəyindən ağır daş kimi asılırdı. Fikirləşirdi ki, Baton heç vaxt sevib-sevilməyəcək, evlənməyəcək, oğul-uşaq sahibi olmayacaq, bu dünyaya nə üçün gəldiyini də anlamayacaq. Fatma həkim gözlərini əbədi yumandan sonra həyat ağır yumruğunu çırpacaq Batonun başına və Baton azacıq ağlıyla yavaş-yavaş qanacaq ki, məşəqqət nə deməkdir. İyirmi üç yaşı olsa da, can-cüssədən uşağa oxşayırdı, uşaqlarla da oturub-dururdu, ancaq son vaxtlar onlara yovuşmurdu. İçərişəhərdə də görünmürdü. İçərişəhərdəki uşaqlar böyük yolu gözləyən idilər, ağsaqqal gələndə yerlərindən qalxırdılar, baş əyib salam verirdilər, tanımadıqları yaşlıların da yanında ədəb-ərkandan qırağa çıxmırdılar. Baton da içərişəhərli idi və böyüklərin hörmətini saxlamağı yaşıdları kimi özünə borc bilirdi, intəhası, ağsaqqallara qulluq göstərməkçün İçərişəhərin meydançalarından, dar küçələrindən daha münasib məkan seçmişdi. Baton dadanmışdı metroya; səhər tezdən girirdi ora, bir də axşam düşəndə çıxırdı. Hamıdan qabaq vaqonda yer tuturdu və nəzərləriylə ağsaqqal axtarırdı ki, yerini ona versin. Yerini bir qoca, sinli adama verməyincə ürəyi sakit olmurdu. Hər gün metro ilə gedib-gələnlər Batonu yaxşı tanıyırdılar, ona adət eləmişdilər. Metro işçiləri Batona öz adamları kimi baxırdılar, içəri girməkçün ondan haqq istəmirdilər. Baton bazar günündən savayı hər gün gəlirdi metroya. Qatarları dəyişə-dəyişə on saat "vicdanla işləyirdi", sonra acsusuz, yorğun-arğın qayıdırdı evə... Orxan da, Fatma həkim də əvvəllər onu danlayırdılar, qorxuzurdular – xeyri olmurdu. Bir dəfə Fatma həkim oxlovla ayağına-ayağına döymüşdü onun; Baton yenə səhər tezdən durub axsaya-axsaya metroya getmişdi. Batonla nə Fatma həkim bacara bildi, nə Orxan; sonra öyüd-nəsihət verməkdən təngə gəlib, daha ona baş qoşmadılar.

Orxan "Neftçilər" stansiyasından gələn qatarların birində Batonu tapıb düşürdü.

– Necəsən? – dedi.

Başı ağrıyırmış kimi Baton ensiz alnını ovxalaya-ovxalaya:

– Yaxşıyam, – dedi, sonra da soruşdu: – Nöş gəlmisən, qərdeş?

Orxan qardaşının qara, tər bığına, üzünün dəngül-düngül uzun tüklərinə, qalın əyri qaşlarına baxdı və gördü ki, Batonun qaşları bir az Yavərin qaşlarına oxşayır. Orxan gülümsəyə-gülümsəyə:

– Səni görməyə gəlmişəm, – dedi və bloknotundan bir vərəq cırıb yazdı:

"Səfa, vacib iş düşdü, rayona gedirəm. İnanıram ki, mən qayıdana qədər sakitləşəcəksən. Sənsiz darıxacam.

Orxan"

Vərəqi iki qatlayıb Batona verdi.

– Bunu çatdırarsan Səfaya... Anaya da de ki, məndən nigaran qalmasın.

Baton narazı-narazı çiynini çəkdi:

– Axı, mən işdəyəm, qərdeş.

– Heç zad olmaz. Naçalnikdən icazə almışam səninçün, – deyib, Orxan əlini Batonun kürəyinə vurdu.

Orxan dayanmadan dörd saat yol gəlmişdi, asfaltından daş-beton binalarından ilğım qalxan Bakıdan indi xeyli uzaqda, xeyli hündürdə idi. Orxan Azərbaycanı eninə-uzununa çox gəzmişdi, yollarda, çöllərdə çox günlər keçirmişdi. Evlərindən qıraqda istiyə də düşmüşdü, soyuğa da, rahatlıq da görmüşdü, əziyyət də. Rayonlar, kəndlər onunçün təzə, təəccüblü, yad deyildi. Kənddə özünü kəndlidən aciz hesab eləmirdi. Elmi rəhbəri Xürrəm müəllim cavanlığını belə səfərlərdə keçirmişdi – yaşı yetmişi ötsə də, hələ qıvraq idi – elə indi də fürsət düşəndə şəhərdən yayınırdı. Kəndləri qarış-qarış gəzməyi də Orxana o tövsiyə eləmişdi: "Xalçaçılığı özünə sənət seçən adamın bir ayağı gərək çöldə, kənd-kəsəkdə ola. Savadsız ana-bacıların toxuduqları xalı-gəbələri axtarmaq, görmək lazımdı. Bu dünyada müdrik arvadlar var, bala, kişilər onlardan çox şey öyrənə bilərlər".

Ağbəyim sarıdan Xürrəm müəllimin dili ağzına sığmırdı. Deyirdi, Ağbəyim rəssamdı, şairdi, toxuduğu xalçaların hər ilməsinə ürəyinin işığından bir zərrə qatır, onun əlindən çıxan xalı-xalçaları görəndə adam mahnı oxumaq, şeir demək istəyir, adamın qəlbi nurla dolur. Neçə il bundan qabaq Bakıda xalq ustalarının sərgisi açılmışdı, onda Ağbəyimin işini görənlər bu savadsız arvadın ağlına, fəhminə heyran qalmışdılar. O günlərdə Ağbəyimin şəkli neçə qəzetin bəzəyi olmuşdu, radioda, televizorda bol-bol təriflər yağdırmışdılar onun başına.

Ağbəyimin kəndinə çatandan beşcə dəqiqə sonra Orxan bu qədər yol gəlməyinə peşman oldu. Dedilər, Ağbəyim çoxdan köçüb burdan. Köçüb gedib Çapıqqaya kəndinə. Orxan zəhmət çəkib Bakıdan bura gəlmişdi, Ağbəyimi görməmiş geri qayıtmayacaqdı. Dedilər, amma Çapıqqayanın yolu xarabdı, "Jiquli"ynən ora çətin çıxarsan, gərək hovur-hovur sürəsən...



Elə bil dünyanın qurtaracağındaymış bu kənd – get ki, çatacaqsan. Sükan fırlamaqdan Orxan əldən-dildən düşdü, axırı ki, uca bir dağın başında balaca bir binəyə yetişdi. Düzü, buranın Çapıqqaya olduğunu bilmirdi və güman da eləmirdi ki, yer üzündə belə kənd olar. Cəmi dörd-beş yastı-yapalaq daxma vardı burda, iki-üç keçə alaçıq vardı, bir də çay daşından hörülmüş uzun bina – onun da damının yarısı dəmir idi, yarısı şifer. Burda nə adam görünürdü, nə səs-səmir eşidilirdi, təkcə öndəki daxmanın qabağından göyümtül tüstü qalxırdı və bu tüstü olmasaydı, deyərdin bəs bura xarabalıqdı.

Orxan maşını bir az irəli sürdü, elə bu dəm canavara oxşayan dörd-beş it acıqla, qəzəblə hürə-hürə "Jiquli"nin üstünə cumdu. Öndəki daxmadan bir qadın çıxıb itlərə təpindi. Arvad gördü ki, uzaqdan qışqırmağın xeyri yoxdu, irəli gəlib itləri qovdu. Bu, arıq, uzun bir arvad idi. Başındakı qıyqacın uclarını boğazının altında düyünləmişdi. Aralıdan cavan, ya qoca olduğu bilinmirdi.

Orxan maşından düşüb:

– Xala, – dedi, – Çapıqqaya çox uzaqdadı?

Arvad:

– Çapıqqaya buradı, – dedi.

Orxan alaçıqlara göz gəzdirə-gəzdirə soruşdu:

– Bura kənddi?

Arvad Orxanın dar-dütək "cins" şalvarına, enli qayışına, yaxası-açıq uzunqol köynəyinə baxıb gördü ki, bu tərəflərin adamına oxşamır bu oğlan.

– Bura fermadı, – dedi, – mal ferması...

– Mənə kənd lazımdı, xala. Çapıqqaya kəndi...

– Çapıqqaya elə buradı. – Arvad başıyla aralıdakı qayaya işarə elədi. – Bundan savay Çapıqqaya yoxdu bu həndəvərdə.

Orxan, arvadın başıyla işarə elədiyi səmtə baxdı və o yanda əzəmətli, qara bir qaya gördü. Qaya dağın uçuruma meyllənən tərəfində idi. Qayanın ortasında get-gedə nazilən bir yarıq vardı, elə bil oranı çapıb götürmüşdülər. Çapıq yeri bu qara qayanı böyrü üstə qoyulmuş ağzıaçıq, nəhəng qayçıya oxşadırdı.

Orxan təzədən üzünü arvada tutub soruşdu:

– Ağbəyim burda olur?

Arvad xeyli susdu, sonra:

– Ağbəyim mənəm, – dedi və nədənsə, bir-iki addım dala çəkildi. Cavan bir oğlanın onun soraqlamağı, deyəsən, Ağbəyimin ürəyincə

olmadı, deyəsən bu oğlanın gəlişi arvadı bir az qorxuzdu da: Ağbəyim bir yanını qaçaraq qoymuşdu.

Orxan üzünü ilk dəfə gördüyü bu arvaddan ərkyana incidi: bunu görmək həvəsilə Bakıdan bura maşın sürəsən, bu da səni belə soyuq qarşılaya? Orxan səsini qaldırdı:

– Ay xala, məni Xürrəm müəllim göndərib!

Ağbəyim elə bil daş idi, heç cınqırını da çıxartmadı. Orxan sözünün cavabsız qalmağından pərt oldu. Geri qayıtmaq istəyirmiş kimi qanrılıb gəldiyi yola baxdı, sonra bir-birindən xeyli aralıda yerləşən daxmalara baxdı, çiynini çəkib, öz-özünə:

– Yaman yerdə axşamladım, – dedi.

Arvad Orxandan utanırmış kimi nəzərlərini onun başının üstündən harasa zilləyib, naçar-naçar dedi:

– A qonaq, vallah indi evdə kişi xeylağı yoxdu. Gəl bir loxma çörək ye, yorğunluğunu al. Rza gəlsin, görək dərdin-sərin nədi.

Orxan "Jiquli"ni qabağından tüstü qalxan daxmanın böyrünə sürdü. Maşından düşən kimi özünü verdi ocağın qırağına. Canında bir soyuqluq vardı, şaxtaya düşübmüş təki burnunun ucu, qulaqları, ayaq barmaqları sızıldayırdı. Ocağa yaxın çöməlib fikirləşdi ki, dünya çox qəribə qurulub: kürreyi-ərzin hər guşəsinin bir cürə ab-havası var – burda mənim dişim dişimə dəyir, sinəmi istiyə verib qızınıram, amma indi Bakıda bürküdən nəfəs almaq olmur, indi camaat orda bircə udum sərin hava həsrətindədi, adamlar su köşklərinin qabağında növbəyə dayanıblar. İndi yəqin Səfa oturub məni xatırlayır, mənim şəhərdən qəfil çıxmağıma təəccüblənir.

Səfa yadına düşəndə, Orxan bura gəlməyinə birdən-birə peşman oldu. Fikirləşdi ki, bəlkə elə sabah qayıtsın Bakıya, taleyinin Səfayla bağlı düyününü dağların başında yox, elə orda – Səfanın yanında açsın? Sonra da fikirləşdi ki, onu şəhərdən qaçıran təkcə Səfanın göz yaşları deyil, bəlkə də şəhərin adamı tez yoran, usandıran qələbəliyi, münasibətlərin qəlizliyidir. Düzünə qalsa, Ağbəyimi görmək niyyəti olmasaydı, Orxan bəlkə də buralara gəlməzdi. Amma Ağbəyim elə ilk dəqiqədən onun niyyətinin üstündən bir qara xətt çəkmişdi. Qəribə arvaddı Ağbəyim; dinib-danışmır, heç Orxanın nə mətləbə gəldiyini də xəbər almır. Qonaq-zad vecinə deyil bunun. Bu balaca, yastı daxmanın içində xalça toxumaq olmaz. Bəs görəsən Ağbəyim dəzgahını harda qurur? Arvadın qınımından Orxan elə qorxmuşdu ki, ağzını açıb



söz soruşmağa ürək eləmirdi. "Neynək, qoy Rza gəlsin, Rzanın yanında danışarıq".

Orxanın üzü, sinəsi istilənmişdi, amma kürəyi qızmamışdı. Ocaqda iri-iri qıpqırmızı közlər vardı, di gəl ki, sacayağının üstündəki ağzıörtülü yekə qazandan buğ qalxmırdı, xörək iyi də gəlmirdi. Orxan ac idi, yanları hisli qazana baxa-baxa udqundu və yadına Yavərin dünən gecəki qonaqlığı düşdü: o süfrədəki xörəklər indi burda olsaydı, hamısını gözünə təpərdi... Saatına baxdı; səkkiz tamam olmuşdu, gün batabatda idi. Yəqin indi Bakıda gün Bayıl dağından o tərəfə adlayıb. Yəqin saat yeddidə Yavər "İyirmialtılar" metrosunun qabağında Orxanla Səfanı gözləməkdən yorulub. Kim bilir, Fidan görüşə gəlib, yoxsa yox? O da gəlməyibsə, Yavər yəqin indi küçələrdə dilxor-dilxor veyllənir.

Arvad Orxana dürmək gətirib verdi:

– Hələlik, bunu ye, – dedi və ocağa bir-iki odun atıb getdi.

Orxan çöməldiyi yerdən qalxdı. Üzünü Çapıqqayaya tutub, dürməkdən iri dişdəmələr ala-ala başladı yeməyə və yedikcə ona elə gəldi ki, dünyada bu yuxadan, bu pendirdən dadlı, ləzzətli nemət yoxdur. Yeyə-yeyə onu da fikirləşdi ki, bu arvadın "Rza" dediyi adam yəqin bir azdan gələcək – yəqin Rza bu uzun arvadın əridi – arvad ona deyəcək ki, a kişi, bizə Allah qonağı gəlib, Rza da deyəcək ki, Allaha da qurban olum, qonağına da. Orxanı aparacaqlar daxmaya, bu qazanda bişən nədirsə, bundan doyunca yedizdirəcəklər ona, sonra yük yerindən yumşaq yorğan-döşək çıxaracaqlar, sonra... Orxan birdən gördü ki, çəhrayı donlu bir qız arxasını qapının tininə söykəyib, diqqətlə ona baxır. Qız on üç-on dörd yaşlı uşağa oxşayırdı. Pırtlaşıq saçları çiyinlərinə tökülmüşdü, özü də bu sazaqlı havada ayaqyalın idi. Gözlərini zilləmişdi Orxanın donbalıb-batan ovurdlarına, dodaqlarını gəmirə-gəmirə gülməyini güclə saxlayırdı. Orxan tikəsini udub gülümsəyəndə, qız cəld daxmaya girib, qapını örtdü.

Naxır qayıdana qədər qız çölə çıxmadı...

Naxırı fermaya iki oğlan gətirdi. Biri ortaboylu, tökməbədən, o biri uzun, caydaq idi. Naxır gəlib üstünün yarısı dəmir, yarısı şifer olan uzun damın qabağında dayandı. Bayaqdan kimsəsiz kimi görünən fermaya hay-küy düşdü, arvadlar elə bil yerin altından çıxdılar. Kimi sərnic, kimi vedrə götürüb özünü verdi mal-qaranın yanına. Pırtlaşıq saçları çiyninə tökülən qız daxmadan əli vedrəli çıxıb, gülümsəyə-gülümsəyə Orxanın yanından keçdi. Orxan gördü ki, uşaq deyil bu, iyirmi-iyirmi iki

yaşlı qaraşirin, yapışıqlı bir qızdı. Əldətoxunma yun köynək geymişdi, ayaqlarında şişburun, təzə qaloş vardı. Ağbəyim də daxmadan çıxdı, vedrənin qulpunu qoluna keçirib naxıra getmək istəyəndə, caydaq oğlan çomağını qoltuğunda tutub üzübəri gəldi və Ağbəyim dayanıb onu gözlədi.

Ağbəyim başı ilə Orxanı göstərib:

– Allah qonağıdı, – dedi.

Oğlan Orxanın əlini bərk-bərk sıxıb:

– Allaha da qurban olum, qonağına da, – dedi. – Sonra üzünü arvada tutub soruşdu: – Ay ana, qonaq bir şey yeyibmi?

Arvad naxırın dayandığı tərəfə gedə-gedə:

– Yox, ay Rza, – dedi, – səni gözdüyürdük.

"Demək, Rza bu imiş". Rza çox cavan idi, yeniyetmə idi, bağı təzə-təzə çıxırdı, üzünün tükü hələ tamam-kamal qaralmamışdı, hələ üzündə sarı tüklər vardı. Boğazı uzun, nazik idi, gözləri iri, qapqara idi – bayaqkı qızın gözlərinə oxşayırdı. Ayağında cütburun çarıq vardı, bozumtul, nimdaş şalvar-pencəyi elə bil əldətoxunma parçadan tikilmişdi. Köhnə papağının bəzi yerdən dərisi ağarırdı. Orxanın bu oğlana birdən-birə qanı qaynadı, onun didilmiş papağından da, cütburun çarığından da, toppuzlu çomağından da, kişi-kişi danışmağından da xoşu gəldi.

Bir azdan sağın qurtardı, malları uzun tövləyə saldılar. Arvadlar necə qəfil gəlmişdilərsə, eləcə də yoxa çıxdılar.

Çapıqqayaya gecə düşdü, qulaqbatıran sükut çökdü...

Orxan iri-iri çay daşlarından hörülmüş darısqal daxmanın baş tərəfindəki ensiz taxta çarpayıda Rzayla üzbəüz bardaşqurma oturub, içərini nəzərdən keçirirdi. Daxmanın divarları suvaqsız, kələ-kötür idi, torpaq döşəməsi ayaq altda bərkiyib betona dönmüşdü. Girəcək tərəfə şey-şüy yığılmışdı; dolu çuval, teşt, tabaq, ələk, səhəng... Balaca pəncərənin sürahisinə qoyulmuş yeddilik çıraq içərini sarımtıl, zəif bir işığa boyamışdı. Daxmadakılar tərpəşdikcə divarlarda onların gah çarpazlaşıb-ayrılan, gah uzanıb-qırılan, gah enlənən, gah nazilən kölgələri səyrişirdi və araya sükut çökəndə Orxana elə gəlirdi ki, alatoran daxmada yalnız titrəşən kölgələr yaşayır. Tavanın hisli tirlərinə baxanda, nədənsə, Orxanın yadına Alen Delona oxşayan ağ kostyumlu, sığallı-tumarlı müğənni düşdü.

Qaragözlü qızın adı Bənövşə idi. İndi Ağbəyimlə Bənövşə döşəmədə köhnə palazın üstündə oturmuşdular: Ağbəyim yanları qara qazandan dərin boşqablara xörək çəkirdi, Bənövşə də stəkan-nəlbəkini silib təmizləyirdi...



Orxan ömründə belə xörək yeməmişdi; quymağa oxşayan duruhal, şirintəhər xörək idi, deyəsən, südün içinə un töküb bişirmişdilər. Orxan quymağa oxşayan xörəyi qaşıqlayıb yedi. Sac çörəyi ilə motal pendirindən də daddı. Sonra Bənövşə balaca sarı samovardan qalın stəkana çay süzüb qoydu onun qabağına. Orxan bir anlığa qızın gözlərinə baxdı. Fikirləşdi ki, bu irilikdə, bu təmizlikdə göz görməyib. Orxan qızın azacıq qalın dodaqlarında güclə seziləcək bir təbəssüm də gördü və şübhələndi. Şübhələndi ki, qız yəqin onun saçının qısalığına gülür – Orxan saçını qısa vurduranda dalaşqan oğlanlara oxşayırdı – ancaq Orxan özünü inandırdı ki, Bənövşə onun burda olduğuna sevindiyi üçün gülümsəyir. Bənövşənin gözlərindəki duruluqdan, dodaqlarındakı təbəssümdən Orxanın ürəyinə bir işıq seli axdı. Ürəyi o qədər isindi ki, divarları diş-diş olan daxmanın soyuqluğunu daha hiss etmədi.

Qız, üzünə dağılan telini hərdən başının hərəkəti ilə geri atırdı və həmin anda fürsət tapıb Orxana nəzər salırdı. Orxanla Bənövşənin baxışları rastlaşanda qız ürküb gözlərini tez çəkirdi, ucuqatdalı uzun kirpiklərini çırpa-çırpa döşəməyə baxırdı, ya da özünü məşğul kimi göstərirdi; çay dəsmalını götürüb samovarın qulpunu, qapağını silirdi. Bənövşə sevincini, marağını gizlədə bilməyən uşağa bənzəyirdi.

– Mən bir şeyi başa düşmədim, – dedi Rza. – Sən kəndləri gəzirsən, evlərdə xəli-gəbələrə baxırsan, nə olsun? Hökumətə bunun nə xeyri?

Orxan bilmədi nə cavab versin.

Bunun xeyri odur ki... – dedi və susdu. Yadına Xürrəm müəllimin sözləri düşdü. "Nənələrin, xalaların barmaqlarında min sehr var, onların fantaziyasına adam mat qalır". Orxan sözünün dalını dedi: – Bunun mənə xeyri var. Mən bundan çox şey öyrənirəm. Hərə bir cürə toxuyur... hərənin öz desti-xətti...

Rza, deyəsən, Orxanın sözlərindən heç nə başa düşmədi və təzə sual verməkdən vaz keçdi.

Orxan sözünü deməyə indi macal tapdı.

– Hamı maraqlanır ki, Ağbəyimdən niyə xəbər-ətər yoxdu.

Rza soruşdu ki:

– Kim maraqlanır, "hamı" kimə deyirsən?

Orxan cavab verdi ki:

– Bakıda Ağbəyimi tanıyan sənətkarlar məəttəl qalıblar ki, Ağbəyimə nə olub. Ən çox da Xürrəm müəllim narahatdı... Axı, qabaqlar Ağbəyimin şöhrəti...

Rza onun sözünü yarımçıq kəsdi.

Qabaqlar yaxşı toxuyardı, – dedi. – Day tərgizib, toxumur.

Orxan təəccüblə Ağbəyimə baxdı.

– Niyə, axı?

Ağbəyim nəzərlərini döşəməyə zillədi. Bənövşə də başını aşağı saldı. Orxan anladı ki, xalı-gəbə söhbəti Ağbəyimin yaralı yeridi və Ağbəyim istəmir ki, kimsə bu yaranın közünü qopartsın.

Anasının əvəzinə Rza cavab verdi:

– Vaxtı yoxdu... day həvəsi də qalmayıb. – Rza başa düşdü ki, Orxan onun yalanına inanmadı. – Dəzgahını da yandırıb, – dedi və əlini daxmanın qaranlıq küncünə uzatdı. – Odey, ordakı fərməşi anam toxuyub... Nəyi vardı, paylayıb qohum-əqrəbaya, xırda-xuruş nişanası qalıb indi.

Orxan çarpayıdan düşüb fərməşə baxdı. Köhnə fərməş idi, lap köhnə. Ağbəyim bunu, bəlkə də qızlığında toxumuşdu. Orxan birinci dəfə idi ki, xovlu fərməş görürdü.

Zərif işdi, – dedi və baxıb gördü ki, daxmaya girəndən bəri bir kəlmə də danışmayan Ağbəyimin üzü gülür, qansız dodaqları titrəyir. Ağbəyim yaşlı deyildi, indi çöhrəsini bürümüş yüngülcə təbəssüm onu bir az da cavanlaşdırırdı. Orxan fərməşi o tərəf-bu tərəfə çevirdi. – Bunun üzünü köçürəcəm, – dedi. – İndi belə şey toxumurlar. Bu mənə lazımdı, üzünü köçürüb, qaytararam.

Rza:

– Peşkəşdi, – dedi, – istəyirsən qaytarma.

Daxmanın qapısı cırıldayıb açıldı. Qapının ağzında tökməbədən, gödərək, qırmızıyanaq bir oğlan dayandı. Orxan tanıdı bu oğlanı: axşamüstü Rzayla birgə naxırı gətirən oğlan idi.

Bənövşə onu görən kimi anasının böyrünə sıxıldı.

Orxan heç özü də bilmədi ki, niyə fərməşi küncə tullayıb, tez-tələsik əvvəlki yerinə qayıtdı.

Oğlan ayaqlarını aralı qoyub, bütün bədəni ilə qapını örtmüşdü, deyəson içəri adlamaq üçün təklif gözləyirdi.

Rza:

– Gəl, Dəmir, gəl! – dedi.



Dəmir daxmaya girib aşağı tərəfdə dayandı. Onun əynində qoyun dərisindən kürk vardı. Tüklü papağını qalın qaşlarına dirənənəcən basmışdı. Çarığın bağını iplik corabın üstündən bərk-bərk dolayıb bağlamışdı. Oturmağa yer axtarırmış kimi Dəmir yan-yörəyə göz gəzdirdi, sonra qapının yanında döşəməyə əyləşib, arxasını divara söykədi. Papağını başından götürüb dizinin kündəsinə keçirtdi və Orxan gördü ki, Dəmirin enli, ağappaq alnı var, yəqin ki, çoxdan daranmadığından buruq-buruq olmuş sıx saçı var. Dəmir daxmanın baş tərəfində qaralan buxarıya baxdı.

– Ocağı niyə yandırmamısınız? – dedi. – Soyuq döyül sizə?

Rza:

– Qonağa görə dayandırmamışıq, – dedi, – tüstü içəriyə vurur.

Orxanın inciyə biləcəyini Dəmir heç vecinə də almadı, saymazyana dedi:

– Qonağın gözünün qarası getməyəcək, ha.

Dəmir yenə nəsə demək istədi, amma Rza qoymadı.

Rza soruşdu:

– Çörək yeyirsənmi?

Dəmir başını buladı.

Rza soruşdu:

– Çay içirsənmi?

Dəmir yenə başını buladı, sonra:

– Su istəyirəm, – dedi və anasının böyründə büzüşüb qalmış Bənövşəyə baxdı.

Ağbəyim əllərini yerə verib qalxmaq istəyəndə Dəmir hökmlə:

– Sən otur! – dedi. – Bənövşə dura-dura sən niyə zəhmət çəkirsən?

Bənövşə daxmadan çıxdı.

Dəmirlə Orxanın nəzərləri rastlaşdı və Orxan inandı ki, Dəmirin ondan zəhləsi gedir. Dəmirin parıltılı, xırda gözlərində acıqlı, istehzalı bir təbəssüm dolanırdı. Dəmir sanki baxışı ilə Orxana deyirdi ki, "aşna, ağlım bir şey kəsmir səndən, fırıldaq adama oxşayırsan. Bu dağın başında nə itin azıb, nə sülənirsən burda? Fas-farağat dur ha, sən şəhər bicisənsə, mən də mənəm..."

Bənövşə iri dolçada su gətirdi. Dəmir ciyəri pörşələnirmiş kimi, dolçadakı suyu qurthaqurtla axıracan içdi. Dolçanı qaytarıb, islanmış bığını əlinin dalıyla sildi, sonra tüklü üzünü qaşıya-qaşıya Rzaya baxdı, Ağbəyimə baxdı, Bənövşəyə baxdı, təzədən gözlərini zillədi Orxanın

üzünə. Orxan da gözlərini onun üzünə zilləyib fikirləşdi ki, "görəsən, Dəmir bu adamların nəyidi? Görəsən, Dəmirdən niyə çəkinirlər bunlar? O gələni Ağbəyim başını yuxarı qaldırmır, Rza susub, Bənövşə də ki..." Orxan hiss eləmişdi ki, Dəmir bu daxmaya girəndən bəri Bənövşə gizlənməyə yer axtarır. Dəmir bu daxmaya girəndən bəri Bənövşə bircə dəfə də Orxana sarı baxmamışdı.

Dəmir sanki su içməyə, yanğısını söndürməyə gəlmişdi. Papağını başına qoyub qalxdı.

– Gedək, yataq. – Qapıdan çıxhaçıxda: – Yeriniz yoxdursa, qonağı özümnən aparım, – dedi.

Rza:

– Qonaq bizimdi, burda qalacaq, – dedi.

Orxan yuxudan oyanan kimi, yerinin içində xumarlana-xumarlana bu qərara gəldi ki, çay-çörəkdən sonra fərməşin üzünü köçürüb, Çapıqqayan getsin. Gəzməli, görməli yerlər nə çox. Dost-tanış da həmçinin.

Yuxusu olmasa da, isti yataqdan qalxmağa tənbəllik elədi. İçəri soyuq, həm də alaqaranlıq idi. Balaca pəncərədən çarpayının üstünə ağ işıq zolağı düşməsəydi, deyərdin bəs hələ səhər açılmayıb. Gözləri alaqaranlığa alışandan sonra Orxan baxıb gördü ki, daxmada ondan savayı heç kim yoxdu. Qalxıb üşüyə-üşüyə geyindi...

Çölə çıxanda havanın təmizliyindən Orxanın sinəsinin altı gicişdi. Öskürə-öskürə göyə baxdı; göy şəffaf şüşə rəngində idi. Günəş lap aşağıda, Çapıqqayanın tənində dayanmışdı, sanki bir azdan gedib qayanın haça ucuna ilişəcəkdi. Orxan canının yavaş-yavaş qızmağından xoşhallana-xoşhallana yan-yörəyə nəzər saldı. Daxmalar, alaçıqlar çal-çəpərsiz idi. Kölgələnmək üçün bircə ağac da, bircə kol-kos da yox idi. Ətrafdakı adda-budda iri daşlar günəşin şəfəqindən buz parçası təki parıldayırdı. İns-cins görünmürdü, "qu" deyirdin, qulaq batırdı burda.

Daxmanın böyründə hənirti eşidildi. Orxan o tərəfə adladı və gördü ki, Bənövşə yekəpər, tüklü itin qabağında dayanıb astadan nəsə deyir, it də balaca çaladakı ayranı uzun, qırmızı dili ilə laqqıldada-laqqıldada içir. Bənövşə Orxana baxıb yüngülcə gülümsədi və üzünü yana tutdu. Orxan fikirləşdi ki, qızı dindirib-danışdırmaq üçün bundan yaxşı məqam tapmayacaq.



Soruşdu:

– Bu it məni parçalamaz ki?

Qız başını buladı.

Yallanan itə baxa-baxa Orxan bir-iki addım irəlilədi.

– Məni qapsa, cavabdeh sənsən, – dedi.

Bənövşə gülümsəyə-gülümsəyə:

– Day qapmaz, – dedi, – səni bu evdə görüb. Bilir ki, qonaqsan.

Orxan qıza bir az da yaxın durdu.

– Qonaq bunun xoşuna gəlməsə?..

Bənövşə başını döndərib Orxana baxdı, amma əvvəlki təki gülümsəmədi. Qızın gözləri indi Orxana kədərli göründü. Bu qəfil qüssənin səbəbini bilməsə də, Orxanın ürəyində rəhmə oxşayan bir duyğu baş qaldırdı və birdən-birə ona elə gəldi ki, Bənövşəni çoxdan, lap çoxdan tanıyır. Canıyananlıqla soruşdu:

– Niyə bikeflədin?

Qız özünü eşitməməzliyə vurdu, əlini dərəaşağı uzadıb:

– Bulaq odey, ordadı, – dedi, – yuyunmaq istəyirsənsə... – Bənövşənin səsi titrəyib qırıldı.

Orxan:

– Yoox, ora uzaqdı, – dedi və daxmanın qabağındakı güyümdən qara aftafaya su töküb, əl-üzünü yudu.

Bənövşə tiftikli məhrəba gətirdi.

– Şəhərlilərin hamısı sənin təki tənbəl olur?

Qızın cəsarətlənib sual verməyinə Orxan həm heyrətləndi, həm də sevindi.

– Mən tənbəl deyiləm, ərincəyəm, – dedi və ilk dəfə qıza diqqətlə, zənlə baxmağa başladı.

Bənövşənin dodaqları çiyələk rəngində idi. Qaşları qara, uzun idi, nağıllarda belə qaşlara "qələm qaşlar" deyirlər. Balaca burnu, balaca ağzı vardı. Duruşundan, tərpənişindən çevik, əzələli, güclü qıza oxşayırdı. Orxana elə gəldi ki, bu qızın işi-peşəsi dağ keçisi təki qayalara dırmaşmaq, daşdan-daşa hoppanmaqdır. Orxan əl-üzünü qurulaya-qurulaya baxıb gördü ki, Bənövşənin gözlərində bayaqkı qüssədən əsər-əlamət yoxdur. Bənövşə yenə əvvəlki ılıq, nurlu təbəssümlə gülümsəyir. Bu təbəssümü görəndə, Orxan fərməşin üzünü köçürəndən sonra burdan dərhal getmək fikrinin üstündən qalın bir xətt çəkdi; qət elədi ki, işə başlamazdan əvvəl, bu yerləri bir az da gəzib-dolansın...

Tələm-tələsik bir kasa süd doğraması yedi. Fikirləşəndə ki, yad adamların ruzisinə şərik olub, boğazı tıxandı, süfrədəki camış qatığına, üzlü pendirə utandığından əl vurmadı. "Məscidin qapısı açıqdı, itdə də bir həya gərək" məsələni yadına salıb qalxdı.

Üz tutdu səmtə, ancaq Çapıqqaya çata bilmədi: binəylə Çapıqqayanın arasındakı dərədə bir gölə rast gəlib dayandı. Göl dəyirmi idi, amma böyük deyildi, yaxşı üzgüçü bu tərəfdən o tərəfə birnəfəsə üzüb keçə bilərdi. Gölün bir sahili sıldırım idi, al-əlvan qatlardan dikəlmiş nəhəng divar təki parıldayırdı. Divarın üstündəki ağ, sal daş şapqa günlüyü kimi irəli çıxmışdı... Düzəngah sahilə bənövşəyi, firuzəyi, sarı çiçəklər düymə-düymə səpələnmişdi. Mamırlı, xınalı iri daşları elə bil gölün həndəvərinə əllə bircə-bircə düzmüşdülər. Su uzaqdan ağappaq görünürdü, sanki köpüklənmişdi, amma yaxın getdikcə yavaş-yavaş rəngini dəyişib maviləşirdi. Orxan çöməldi, suyu ovuclayıb baxdı – su dupduru idi, buz təki soyuq idi, Orxanın əllərini zoqquldadırdı. Günəşin zərrələrindən gölün üzü pul-pul olmuşdu, şəfəqli olmuşdu və bu şəfəqdən Orxanın gözləri qamaşırdı. Günəş indi Çapıqqayanın haça ucundan çox-çox yuxarıda dayanmışdı, bir az balacalaşmışdı, bəyazlaşmışdı, qayanın qapqara səthini də, yamyaşıl yamacı da, gölün kənarındakı xınalı daşları da ağappaq nura boyanmışdı. Yer-göy elə işıqlı idi ki, buralarda gecə düşəcəyini adam ağlına gətirə bilmirdi. Bu işıq, bu aydınlıq dünyanın əbədiliyinə Orxanın ürəyində bir inam oyatdı və Orxan özünün də dünya kimi əbədi olacağına qətiyyən şübhə eləmədi. Bu hissdən ürəyi atlana-atlana qarşıdakı dağın döşünə baxdı, sonra şehli sinəsi parıldayan Çapıqqayaya baxdı, sonra binəylə qayanın arasında inci kimi bərq vuran gölə baxdı və hələ də ürəyi atlana-atlana fikirləşdi ki, təbiətin möcüzəsinə möcüzə çatmaz, Xürrəm müəllim demişkən, dünyanın ən mahir toxucusu təbiət özüdür, onun toxuduğu xalı-gəbələrin hər qarışında min rəng var...

Orxanın gözləri Çapıqqayaya sataşdı. Könlündən keçdi ki, o qayanın belinə çıxıb, ordan aşağılara baxsın, yan-yörədə qanad gərib süzən qartallara baxsın. Qayaya tərəf yeridi... O getdikcə elə bil qaya da uzaqlaşdı və bir azdan Orxana agah oldu ki, Çapıqqaya çox da yaxında deyil, ona çatmaq üçün hələ ən azı bir saat yoxuşa yol getmək lazımdı. Orxan yamacı qalxıb, aşırımın üstündə dayandı. Dağın o biri ətəyinə səpələnmiş naxırı gördü. Dəmir orda olmasaydı, enib Rzayla söhbətləşəcəkdi: ilk tanışlıqdan Dəmir xoşuna gəlməmişdi.



Orxanın yadına Bənövşə düşdü, onun ılıq təbəssümü düşdü və Orxan birdən-birə Bənövşə üçün darıxdı...

Hələ binəyə çatmamış aralıdan baxıb gördü ki, Bənövşə daxmanın böyründə "Jiquli"yə söykənib dayanıb. Orxan güman elədi ki, qız onun yolunu gözləyir. Bu gümana inandı da. Bənövşənin intizar baxışını xəyalına gətirdi, hətta qızın gözlərinə bürünmüş həsrət kölgəsini də gördü və özü də hiss eləmədən addımlarını yeyinlətdi.

Gəlib Bənövşəyə çatanda Orxan öz gümanına ürəyində güldü. Qızın üz-gözündə zərrə qədər də narahatlıq əlaməti yox idi. Qız nəzərlərini uzaqlara dikib gülümsəyirdi, sanki Orxanın burda tövşüyə-tövşüyə dayanmağından xəbərsiz idi.

Bənövşə Orxana tərəf çevrildi, onun başının üstündən harasa baxa-baxa soruşdu:

– Harda qalmısan?

Orxan tövşüyünü boğa-boğa:

– Veyllənirdim, – dedi.

Bənövşə məhrəm, doğma adamıyla danışırmış kimi ərklə dedi:

– Tək getmə o tərəflərə. Nabələdsən, yarğana-zada düşərsən.

Orxan yanını quru yerə qoya-qoya:

– Nolar? – dedi. – Yarğana düşüb ölsəm, dünya dağılmaz ki?

Bənövşə Çapıqqayaya baxıb, qorxa-qorxa;

– Allah eləməsin, – dedi, sonra gedib daxmanın qənşərindəki boş güyümü çiyninə aldı, adamı kövrəldə biləcək bir səslə: – Səni istəməyənlər ölsün, – deyib, öz sözlərindən utanırmış kimi dərədəki bulağa tərəf götürüldü.

Bənövşə qaçdıqca çiynindəki mis güyüm günəşin şəfəqində bərq vururdu, elə bil qız çiynində ağımtıl, böyük od aparırdı. Orxan oturduğu yerdə dizlərini qucaqladı, Bənövşənin ardınca baxa-baxa belə qərara gəldi ki, bu gecə də Çapıqqayada qalsın...

Buxarını yenə qalamadılar. Orxan taxta çarpayıda Rzayla qabaqqənşər əyləşib, yeddilik çırağın işığında nəzərləri ilə Bənövşənin gülümsər gözlərini axtarırdı. Hərdən yadına düşürdü ki, qıza altdan-altdan baxmaqda həddini aşır – birdən Ağbəyim, Rza şübhələnərlər – onda özünü yığışdırırdı. Bir azdan Ağbəyimi, Rzanı unudub, Bənövşənin bütün hərəkətini təzədən oğrun baxışlarla izləyirdi. Arada Ağbəyimə və Rzaya da baxırdı. Baxırdı görsün ki, ev sahibləri onun bu gecə də qalmağına darılmırlar ki, Ağbəyimin üzündəki ifadədən

heç nə anlamaq olmurdu, üzü daş kimi donuq idi. Tərpənişi də dünənki təki ləng idi, yenə səsi çıxmırdı, elə bil ağzını açıb bir kəlmə söz deməyə ərinirdi, elə bil əlini bu dünyadan üzmüşdü. Rzanın isə gözlərindən nur yağırdı, sevinc tökülürdü. Üzündə təzəcə-təzəcə qara tüklər dikələn bu arıq, şüvərək oğlan özünü ağır aparmaqdan, evdə ağsaqqal kimi görünməkdən yəqin zövq alırdı. Rzanın davranışında, danışığında yaşına uyuşmayan bir ciddilik vardı. Daxmadakı qadınlar da özlərindən kiçik bu uşağı ailənin böyüyü, dayağı, qazanc gətirən sayırdılar, onun buyruğuna yarımağa həmişə müntəzir idilər.

Süfrə yığışılandan sonra Rza Orxandan soruşdu:

– Bizim yerlər xoşuna gəldimi? Haraları gəzdin?

Orxan:

– Buranın ab-havası nəyə desən dəyər, – dedi, – dedi. – Üstəlik göl də var burda. Mən dağ yerində hələm-hələm gölə rast gəlməmişəm. – Rzanın xoşhal olduğunu görüb, Orxan tərifi bir az da artırdı. – Cənnətdi buralar. Göl ayrı aləmdi.

Rza dedi:

– Orda çimmək olmaz, mal-heyvan sulamaq olmaz. Günahdı. Bizim göl barədə heç nə eşitməmisən?

Orxan başını buladı.

Rza elə bil göl haqqında danışmağa macal tapdığı üçün sevindi:

– O göl pir kimi, ocaq kimi şeydi, – dedi, – günah-savab tərəzisidi. – Rza döşəkcənin üstündə bardaşqurma oturan anasına baxdı, Ağbəyim onun sözlərini bircə dəfə kirpik çalmaqla təsdiqləyəndə, Rza başladı, ürəkli-ürəkli danışmağa: – Onun adı Gümüşgöldü, – dedi. – Gecələr tamaşa eləsən, görərsən ki, gölün suyu elə parıldayır, deyirsən, bəs su döyül bu, doğrudan da gümüşdü, əridib töküblər bura. Bu yer qədimdə belə olmayıb ha. Burda şəhər varmış... Batıb, gedib. Təkcə Gümüşgöl qalıb. Onun da suyu azalıb. – Rza üzünü Ağbəyimə tutdu. – Heylə döyül, ana?

Ağbəyim yenə bircə kirpik çaldı. Rza dedi:

Ay ana, o əhvalatı danışsana... Xanla çoban qızının əhvalatını... Nağıl elə, qonaq da eşitsin.

Ağbəyim gözlərini əvvəlcə döşəməyə, sonra Rzanın üzünə dikdi, yəni özün danış. Bənövşə də anasının yanında yerini rahatlayıb, gözlərini zillədi qardaşının ağzına.

Rza başladı danışmağa:



– Nağıl döyül bu, olmuş əhvalatdı. Burda, doğrudan da böyük bir şəhər varmış. Küçələri, qalaları, evləri... Bu elin böyüyü, sahibi Dağlarxan adlı bir igid imiş. Ox atan, qılınc vuran, at oynadan adam olub. Onun qorxusundan bu həndəvərə yağı ayaq basmazmış. Amma bir dəfə düşmən qoşun yeridir bu yurda. Dağlarxan da öz qoşununu yığır başına, Hüsnübəyim adlı arvadını yanına çağırıb deyir ki, Hüsnübəyim gedirəm davaya, bu el-obanı sənə tapşırıram, deyir, sən kişi təki qoçaqsan, qeyrətlisən, yurd-yuvamızdan muğayat ol. Dağlarxan bunu deyib, qoşunu aparır düşmənin üstünə... Dağlarxanın beş-altı arvadı varmış – o vaxtlar hər kişinin ən azı üç arvadı olurmuş, indi birindən artıq qoymurlar almağa...

Bu yerdə Rza yaşlı adam sayağı başını mənalı tərzdə tərpədib gülümsədi və Orxan onun təbəssümündən bir az da nurlanan çöhrəsinə baxıb fikirləşdi ki, bu arıq, dumaboğaz oğlanın danışığı da dünyagörmüş kişilərin danışığı kimi şirindi, təmkinlidi. Rza dastan söyləyən yeniyetmə aşığa oxşayırdı, təkcə sədəfli sazı əskik idi.

Rza ona diqqətlə qulaq asan ana-bacısına baxa-baxa:

– Hüsnübəyim çox ağıllı, diribaş, tədbirli gəlin imiş, – dedi. – Əri davaya gedəndən sonra mahalın bütün ixtiyarını alır əlinə. Qoymur ki, bircə sünbül də it-bata düşsün, bircə dıbır yoxa çıxsın, bircə buzovun burnu qanasın. Hüsnübəyim çoban qızıymış, Dağlarxanın o biri arvadları – dövlətli kişilərin qızları paxıllığını çəkirmişlər Hüsnübəyimin. Belə də iş olar? Çoban qızı gəlib bizim üstümüzə hökmranlıq eləsin? Bunu nə allah götürər, nə bəndə... Hüsnübəyim həm də səxavətli imiş, kasıb-kusuba əl tutarmış, acların qarnını doyuzdurarmış. Camaat da çox istəyirmiş onu. Xanın o biri arvadları sözü bir yerə qoyurlar ki, Hüsnübəyimin başını əksinlər. Gün o gün olur ki, Dağlarxanın qoşunu düşməni tar-mar eləyir. Dava qurtarır, Dağlarxan qoşun-ləşkərin qabağında şəhərə qayıdır. El-oba başlayır bayram eləməyə. Qoyunlar kəsilir, qazanlar asılır. Çalan kim, oynayan kim... Dağlarxan görür ki, buralarda salamatlıqdı, dinclikdi, taxıl biçilib, qışın azuqəsi toplanıb, camaatın da kefi kökdü. Görür ki, bu mahalı nə təhər qoyub-gedibsə, eləcə də var, hələ qoyub getdiyindən bir az da yaxşıdı. Dağlarxan başlayır o biri arvadların yanında çoban qızından razılıq eləməyə. Deyir, sağ ol, Hüsnübəyim, min yaşa, mənim sənə hörmətim yerdən göyəcən artdı... Xan belə deyəndə o biri arvadlar paxıllıqdan qovurğa təki qovrulurlar. Hərəsi xanı təkbətəkliyə salıb deyir, əşi, sən nə danı-

şırsan, nə qoyub axtarırsan? Sən davada ölümnən üz-üzə duranda çoban qızı sənin adını ləkələyib, namusunu yerə vurub, sənə xəyanət eləyib; çoban qızı hər gecə sənin evindən xəlvətcə gedirdi, allah bilir, hansı kişiylənə görüşüb səhərə yaxın qayıdırdı... Arvadlar o qədər deyirlər, o qədər danışırlar ki, axırda xanın qulağını doldurub, ağlını əlindən alırlar. Xan Hüsnübəyimi yanına çağırtdırıb qəzəblə soruşur ki, çoban qızı, bu mahalda məni kimə dəyişmisən? Hüsnübəyim qalır mat-məəttəl, deyir, canım sənə sadağa, xan, bu mahalda səndən qeyri kişi varmı ki, səni də ona dəyişəm?.. Xanın hirsi soyumur, ayağını yerə dirəyir ki, tez ol, bu dəqiqə aşnanın adını de, de görüm kimdi sənin aşnan, ikinizə bircə qəbir qazdıracam ki, həmişəlik bir yerdə olasınız. Hüsnübəyim cavab verir ki, başına dönüm, xan, ayaqlarının altında ölüm, mənim aşnam-zadım yoxdu, sən ürəyimdə eşqdən bir qala qurmusan ki, onu fələk də dağıda bilməz. Hüsnübəyim nə qədər yalvarır, and-aman eləyir, Dağlarxan yumşalmır ki, yumşalmır, inanmır ona. Belə olanda çoban qızı deyir; indi ki, mənə inanmırsan, onda mənim qalmağımdan ölməyim məsləhətdi – inam olmayan yerdə nə məhəbbət, nə hörmət – əmr elə, boynumu vursunlar. Xan əmr verir ki, Hüsnübəyim öldürülsün, özü də camaatın gözünün qabağında, Gümüşgöldə qərq olsun... Gecə Hüsnübəyimi gətirirlər Gümüşgölün qırağına. Ay çıxıb, su parpar parıldayıb adamın gözlərini qamaşdırır, camaat da dayanıb zülümzülüm ağlayır. Hüsnübəyim üzünü göyə tutub deyir; ey bizi heçdən var eləyən xaliq, səndən savayı pənah yerim yoxdu. Mən ölümdən qorxmuram, ancaq məni o dünyaya xəyanətkar kimi, bişərəf kimi göndərmə, ya rəbb! Günahsız olduğumu el-obaya da, canımdan çox istədiyim ərimə agah elə... Hüsnübəyim belə deyib yavaş-yavaş qədəm basır gölə, ha gedir, su heç topuğunacan qalxmır bunun. Camaat görür ki, əyə, batmaq nədi, çoban qızı budu ey, suyun üstüynən addımlayıb gedir, elə bil şüşə təki yolnan yeriyir. Hüsnübəyim ehmal-ehmal gedib gölün o biri tərəfində çıxır quruya. Camaatın matı-qutu quruyur. Dağlarxan məəttəl qalır bu işə. Deyir, əgər çoban qızının günahı olsaydı, Allah-taala onu göldə batırardı. Xan sevindiyindən başlayır ağlamağa. Əmr eləyir ki, o biri arvadları çəksinlər ortalığa. Xanın o biri arvadlarını itələyib salırlar gölə, deyirlər, di yeriyin görək nə təhər yeriyirsiniz. Bədbəxtlər çırmalanıb giriblər gölə. Su əvvəlcə çıxır dizlərinə, sonra qurşaqlarına, sonra boğazlarına, sonra da boy vermir, boğulub ölürlər... O vaxtdan Gümüşgöl olur adamların günahını ölçən mizan-tərəzi. Bir kəsin təqsirkar olub-olmadığını bilmək istəyəndə onu dartıb gətirirmişlər Gümüşgölün qırağına. Günahı olan adam qorxusundan girməzmiş gölə. – Rza gülümsəyə-gülümsəyə Orxana baxıb: – İndinin özündə də heç kim Gümüşgölə girmir, – dedi, – heç kim çimmir orda. Hamı ehtiyat eləyir ki, birdən nədəsə günahkar olar, batar göldə.



Rza dərindən nəfəs dərib susdu. Alaqaranlıq daxmada sükut uzun çəkdi, sanki cınqırını çıxartmağa heç kim ürək eləmirdi. Ağbəyim damarlı əllərini dizlərinin üstünə qoyub oturmuşdu. Qarşı divara zillənmiş baxışlarından laqeydlik, tərkidünyalıq yağırdı. Bənövşənin gözləri yol çəkirdi, çiyələk rəngində olan dodaqları hərdən səyriyirdi, deyəsən, Bənövşə çoban qızının aylı gecədə Gümüşgölün üzü ilə addımladığını görürdü, ürəyində Hüsnübəyimə nəsə deyirdi. Rzanın üzündə arxayınçılıq ifadəsi dolaşırdı. Rza, çoban qızını ölməyə qoymayan taleyin hökmündən də, savab-günahları ölçən Gümüşgöldən də razı idi. Orxan gah Rzaya baxırdı, gah da qadınlara. Baxırdı və əldən-ayaqdan uzaq bir dağın başında yaşayan adamların ağlabatmaz əfsanəyə inanmaqlarına təəccüblənirdi. Yalan yalandı, istəyirsən adını "əfsanə" qoy, istəyirsən "nağıl". Belə söyləmələri dərdli adamlar təsəlli üçün düzəldiblər. Bu quraşdırmanı Səfa eynilə almazdı, amma Bənövşəyə bax – kim bilir, Hüsnübəyimin hekayətini neçənci dəfə eşidir – budu ey, gözləri dolub bu avam qızın.

Qapı zərblə açıldı. Dəmir çöldən üzünü Rzaya tutub acıqlı-acıqlı:

– Bəri gəl, ə, sənnən işim var! – dedi.

Rza tələm-tələsik daxmadan çıxıb qapını çəkdi.

Ağbəyimlə Bənövşənin nəzərləri örtülü qapıya zillənib qaldı. Dəmir çöldə tez-tez nəsə deyirdi, hərdən Rzanın da səsi eşidilirdi, amma başa düşmək olmurdu ki, söhbət nədən gedir. Sonra birdən danışıq kəsildi. Qadınlar narahat-narahat baxışdılar. Ağbəyim qalxıb balaca pəncərədən çölə nəzər saldı, deyəsən, heç nə görmədi. Qulağını qapıya tərəf tutub dinşədi: səs-səmir yox idi. Arvad pəncərənin qabağında quruyub qaldı, elə bil daxmadan çıxmağa ürək eləmirdi. Bənövşə ayaqlarını altına yığıb oturmuşdu, başını yuxarı qaldırmırdı. Orxan isə çarpayının üstündə mütəkkəyə dirsəklənib, gah Ağbəyimə, gah Bənövşəyə baxırdı. Daxmada adamın canını üzən bir sükut vardı. Orxan bilirdi ki, Rza gələnəcən bu sükut beləcə davam eləyəcək...

Rzanın qayıtmağı azı yarım saat çəkdi. Rza qanıqara qayıtmışdı. Gəlib Orxanla qabaq-qənşər dayandı, utancaq uşaq təkin dirənə-dirənə:

– İncimə, – dedi. – Bu gecə ayrı yerdə qal... Belə məsləhətdi... Yer var... Atlıxan dayıgildə qalacaqsan...

Orxan o dəqiqə Bənövşəyə baxdı, gördü ki, qız başını bir az da aşağı dikib Ağbəyim xəcalətindən içəridə dayana bilməyib çölə çıxdı.

Rza fərməşi küncdən götürdü.

– Bunu da tullayıram maşınına... istəmişdin, – deyib, anasının dalınca getdi.

Orxan ürəyində "zatına lənət, Dəmir" deyib, çarpayıdan düşdü. Hiss elədi ki, pərtlikdən qıçları əsir. Az qaldı qışqırıb desin ki, "bu hayıfı səndə qoymayacam, zırrama oğlu zırrama!" Orxan qəti əmin idi ki, Dəmirin bütün hoqqası Bənövşəyə görədi. Qıza baxdı. Qız döşəmədə yumağa dönmüşdü, elə bil nəfəsi tükənmişdi. Orxan Bənövşəyə baxdı, baxdı və birdən dəli şeytan dəli bir fikrə saldı onu. Orxan güman elədi ki, dəli şeytanın sözünə baxsa, Dəmirdən min qat hayıf alar, yandırıb yaxar, külə döndərər onu.

Orxan gözlərini açıq qapıya zillədi, dəli şeytanın pıçıldadıqlarını səsi titrəyə-titrəyə astadan Bənövşəyə dedi:

– Gölün qırağında səni gözləyəcəm. Gecəyarıdan keçəndən sonra gələrsən ora. Eşitdin?

Orxana elə gəldi ki, onun bircə addımlıqdan dediklərini Bənövşə eşitmədi.

Atlıxan çiynini dirəmişdi buxarının qırağına – əynində sırıqlı da vardı, amma, deyəsən, yenə canı qızmırdı – ocağı maşa ilə hey eşələyirdi. Orxan döşəkcənin üstündə Atlıxanla üzbəüz əyləşmişdi, kişi hər dəfə közü tərpədəndə ocaqdan yaşıl tüstü qalxırdı və Orxanın gözləri gicişib sulanırdı. Güləndam daxmanın aşağı tərəfində bardaşqurma oturub yun didirdi. Heç kim dinib-danışmırdı. Atlıxan da, Güləndam da bikef görünürdü. Orxana elə gəlirdi ki, qocalar bu dəqiqə onun barəsində fikirləşirlər. Fikirləşirlər ki, Dəmir şəhərdən gəlmiş bu oğlanı Rzagilin evindən iti qovan kimi qovdu.

Bura qədəm basdığı dəqiqədən Orxanın hirsi-hikkəsi sovuşmuşdu. Bənövşəni görüşə çağırdığı üçün peşmançılıq çəkirdi, ürəyində dəli şeytanın qıyıqdan keçəninə də söyürdü. "Yaxşı deyiblər ki, hirsli başda ağıl olmaz". Orxan çox düşünüb-daşındı və axırda inandırdı ki, Bənövşə görüşə gəlməyəcək. Onda rahat-rahat nəfəs alıb, daxmaya birinci dəfə arın-arxayın nəzər saldı. Bu da Rzagilin daxmasına oxşayırdı. Şeyşüyləri də eyni idi; fərməş, xurcun, dolu çuval, tabaq, divardan asılmış yeddilik çıraq... Təkcə çarpayı yox idi burda.



Orxan birdən-birə darıxdı, içəridəki sükutdan təngə gəldi. "Görəsən, bu qocalar dillənəcəklər, ya yox?".

Atlıxan Orxanın qəlbindən keçənləri duyubmuş kimi, ocağa baxa-baxa başını tərpədib, elə bil bayaqdan ürəyində götür-qoy elədiklərinə yekun vurdu.

– Həə. Dəmir belə Dəmirdi. – dedi.

Orxan anladı ki, Atlıxan daşı onun bostanına atır, gözlərini kişinin tüklü üzünə zillədi; Dəmirin necə Dəmir olmağı Orxançün çox maraqlı idi.

Kişi hələ də ocağa baxa-baxa:

– Xofludu, – dedi. – Yetim olub, gözüqıpıq olub. Caynağına keçirtdiyi şeyi cəmi-aləm tökülsə də onnan ala bilməz.

Orxan soruşdu:

– Dəmir onların nəyidi?

Atlıxan maşa ilə ocağı eşələyə-eşələyə:

– Heç nəyi, – dedi.

Güləndam yun diddiyi yerdə əl saxlayıb, söhbətə qarışdı:

– Niyə demirsən ki, Bənövşənin deyiklisidir?

Orxan indicə diqqət yetirib gördü ki, Atlıxanla Güləndam bir-birilərinə yaman oxşayırlar, elə bil ər-arvad yox, qardaş-bacı idilər. İkisinin də burnu yekə idi, sifəti uzunsov, gözləri dəyirmi idi. İkisinin də alnında, üzündə nazik qırışlar vardı.

Qocalar başladılar Orxanın bilmədiyi məsələlər barəsində mübahisə eləyə-eləyə danışmağa.

Kişi dedi:

– Nə deyiklibazlıqdı? Bənövşənin göbəyini Dəmirə kəsməyiblər ha.

Arvad dedi:

– Nə olsun? Bu obanın it-pişiyi də bilir ki, Dəmir Bənövşəni istəyir.

Kişi dedi:

– Oğlanın istəməyiynən döyül ha, gərək qızda istəsin.

Arvad dedi:

-Qızın lap ürəyi də uçur. Bənövşə bir əppək yesin, beşini də allahyolu versin ki, Dəmir onu alacaq.

Kişi dedi:

-Bənövşə Dəmirə getsə, Dəmir papağını göyə atsın.

Bu yerdə Güləndam dözə bilməyib, səsini bir az qaldırdı.

-Əşi, sən allah, nainsaf danışma, – dedi. – Dəmirə nə olub? Canavar təki oğlandı.

Atlıxan didilib köhnəlmiş qulaqlı papağını başından götürüb çırtmalaya-çırtmalaya:

– Dəmir qoçaq oğlandı, – dedi. – Diribaladı, amma... – Papağı başına qoydu... – amma gönüqalındı. Qanacağı olsaydı, Ağbəyimin evində ağalıq eləməzdi. Bənövşənin nişanlısı-zadı döyül hələ.

Ərinin avam-avam danışmağına Güləndam, deyəsən, bir az hirsləndi.

– Əşi, eşi, – dedi, – nişanlının buynuzu olur?... Bəs nişanlı nə təhər olur? – Güləndam yun topasını itələdi qırağa, yəqin fikirləşdi ki, dünyanın bir para işlərindən bixəbər Atlıxanı indi bəzi mətləblərdən hali eləmək yun didməkdən çox-çox vacibdir.

– Əşi, Dəmirin haqqı var, – dedi. – Haqqı var ki, o öydə böyüklük eləsin. Bəs qazancını onlara yedizdirəndə yaxşıdı? Əlinə keçəni Ağbəyimin daxmasına dartır. Rzanı yanında hərrəyir ki, Rzanın da ağzı əppəyə çatsın. Bəs nə bilmişdin, Atlıxan? Bənövşənin ucbatından Dəmir bu dağlarda sərgərdandı. Yoxsa, nə iti azmışdı onun buralarda! Tək oğlandı, gedib ruzulu yerdə bəy balası təki dolanardı. Ağbəyimin evinə bir həyan lazımdı, Atlıxan, heylə demə. O öyün başıpapaqlısı Rzadı, Rza da hələ uşaqdı. Bənövşənin qurumsaq dədəsi kişi olsaydı, qalıb külfətinə ağsaqqallıq eləyərdi.

Atlıxanla Güləndamın danışığından Orxan öyrəndi ki, Bənövşənin atası da var. Öyrəndi ki, bura mal binəsidir – malabaxanlar burda yaşayırlar – Çapıqqayanın o tərəfində qoyun binəsi yerləşir. Bənövşənin atası da həmin o qoyun binəsindədir, sağ-salamatdır, canı buz baltası kimidir, özü də orda evlənib, iki oğlu var, üçgözlü evi var, bu yaxınlarda da "Jiquli" almaq niyyətindədir. Orxan onu da öyrəndi ki, Bənövşənin atası bu yanlara ayaq basmır, burdakı uşaqlarına "görüm-baxım" eləmir. Güləndam dedi ki, Ağbəyim aydan arı, sudan duru qadındı, di gəl ki, yazıq cavan yaşından ərsiz qaldı, çünki əri namərdin, nankorun, şorgözün biriydi. Ağbəyimi atıb getdi və Ağbəyim də bu günəcən baş aça bilmir ki, günahı nəymiş, baş aça bilmir ki, ərinin gətirdiyi bəhanəyə "günah" demək olarmı. Sözə bax, sən allah, biqeyrətin danışığına bax: guya Ağbəyimi tez-tez ora-bura çağırırlarmış, Ağbəyim kişilərnən oturub-dururmuş. Axırıncı dəfə Bakıya çağırıblar onu – neçə il bundan



qabaq – qəzetdə şəkli çıxıb, özü də bir kişiynən çiyin-çiyinə. Əri deyib ki, Ağbəyim, yaxşı xəlçə toxumağın tifağını dağıtdı sənin, naməhrəm kişilərnən laqqırtı vuran arvad mənə lazım döyül, get, o yad kişilər, o da sən... Ağbəyim deyib, ay camaat, ay həzarat, o şəkildəki kişi xəlçə ustasıdı. Türkmənistandan gəlib, məni onnan yanaşı qoyub şəklimizi çəkdilər, məndə nə günah var? Əri deyib, yox ki, yox... qurumsağın əməlinə bax, sən allah, qoyun binəsində cavan bir qıza uyubmuş, evdən getməkçün şəkli bəhanə eləyib... Ağbəyim o gündən biri xəlçə toxumağın daşını atandır ki, atıb. Uşaqlarını da götürüb köçüb bura.

Bunu eşidəndə Bənövşənin atasının dalınca Orxan ürəyində yağlı bir söyüş söydü. Sonra durub daxmadan çıxdı. Başını qaldırıb, tərtəmiz göydə sayrışan ulduzlara baxdı, elə ulduzlara baxa-baxa Bənövşənin atasının dalınca yenə ürəyində yağlı bir söyüş söydü. Sonra yaxına, uzağa göz gəzdirdi. Hər yan bəmbəyaz idi. Binədəki daxmalar, alaçıqlar apaydın görünürdü. Xeyli aralıda Çapıqqaya yuxuya getmiş nəhəng kimi qaralırdı. Səs-səmir eşidilmirdi, elə bil binənin üstünə qarşıdakı dağın sükutu çökmüşdü.

Orxan ürəyinin tıppıltısına qulaq asa-asa Gümüşgölə tərəf yeridi. "Kaş Bənövşə gəlməyəydi... Kaş gəlməyəydi..." Get-gedə qatılaşan sükutdan Orxan bir az vahimələndi, özünü dünyanın əlçatmaz, ünyetməz guşəsinə atılmış kimi tək-tənha hiss elədi, ancaq hardasa bir it hürdü və Orxanın ürəyini bürümüş tənhalıq hissi, vahimə o dəqiqə sovuşdu. Orxan, hətta, görüşə getməyinə və gecənin belə işıqlı, əsrarəngiz olmağına sevindi də. Fikirləşdi ki, oğlanla qız ilk görüşə çıxanda gecə elə belə nurlu olmalıdır, gecənin vücudundan sirr, məhəbbət yağmalıdır. Orxan addımlarını yeyinlətdi: "Kaş Bənövşə gələydi... Kaş gələydi..."

Bənövşə gəlməmişdi. Orxan dayanıb gözlədi. Gölə baxdı, elə bildi güzgüyə baxır: ay da, ulduzlar da sayrışırdı orda. Orxan bu rəngdə su görməmişdi: sanki gümüşü əridib yepyekə bir çalaya tökmüşdülər və yergöy işığını bu gümüşdən alırdı. Gölün üstü ilə addımlayan Hüsnübəyim gəlib durdu Orxanın gözlərinin qabağında. Çoban qızı əllərini göyə qaldırıb tanrıdan imdad dilədi, sonra dönüb gölün üzü ilə narın-narın yeridi. Hüsnübəyim ayaqlarını qaldırıb qoyduqca Orxan suyun ahəstə şappıltısını da eşitdi və birdən hiss elədi ki, üşüyür. Pencəyinin yaxasını çəkə-çəkə arxaya qanrıldı. Gözlərinə inanmadı: Bənövşə ona çathaçatda idi.

Qız yaxınlaşıb Orxandan bir-iki addım aralıda dayandı. Bircə donda gəlmişdi, başı da açıq idi. Soyuqdanmı, qorxudanmı yüngülcə titrəyirdi.

Orxan soruşdu:

– Niyə qalın geyinməmisən?

Bənövşə gölün parıldayan səthinə baxa-baxa cavab verdi:

– Qalın geyinsəydim, duyuq düşərdilər.

Orxan qıza doğru bir addım atdı, qız da bir addım geri çəkildi:

– Bura nahaq gəlmişik, – dedi. – Görsələr, bizi tikə-tikə doğrayarlar.

Orxan başa düşdü ki, qız "doğrayarlar" deyəndə Dəmiri nəzərdə tutur.

– Qoy görsünlər, – dedi. – Qorxursan?

Bənövşə "bilmirəm" mənasında çiyinlərini çəkib, ayın şəfəqindən daha da işıqlı, nurlu görünən gözlərini Orxanın üzünə zillədi. Dodaqlarına Orxana tanış olan təbəssüm qopdu. Təngiyən nəfəsini nizamlamağa çalışıb, qırıq-qırıq dedi:

– Səni... yuxuda... görmüşdüm.

Orxan:

-Nə vaxt? – dedi və Bənövşənin əlindən tutmaq həvəsinə düşdü, ancaq qızı ürküdəcəyindən qorxub, yerindən tərpənməyə cəsarət eləmədi.

Bənövşə ay işığında Orxanın üzünə zənlə baxa-baxa:

– Çoxdan, – dedi. – Sən bu binəyə gəlməmişdən.

Orxan istədi soruşsun ki, "axı, sən məni tanımaya-tanımaya yuxuda necə görə bilərdin", qız ona ağzını açmağa macal vermədi.

– Səni görməmişdim ha, – dedi. – Yuxuma girən ağsaqqal, nurani bir kişi idi... Xızır peyğəmbər... ürəyimə dammışdı ki, bu qoca kişi Xızır peyğəmbərdi... Mənə dedi ki, sizin binəyə atlı bir oğlan gələcək, həmin oğlan sənin qismətindir... Sən gəldin, intəhası at əvəzinə maşını sürüb gəldin. Nolar, maşın da minikdi... Mən səni hər gün gözləyirdim. – Bənövşə səsini alçaldıb, az qala pıçıltı ilə: – Sən mənim qismətimsən, – dedi.

Orxan keyiyib qaldı. Danışmaqçün fərli söz tapa bilmədi. Ürəyində dönə-dönə: "Ay avam, ay avam", – dedi. Handan-hana əlini qıza uzadıb, dilini ağzında güclə tərpətdi:

– Bənövşə...

Qız başını bulaya-bulaya dala çəkildi və birdən dönüb binəyə tərəf qaçdı.



Orxan sözlərinin yarımçıq qalacağından qorxub, tələsə-tələsə dedi:

– Sabah səni burda gözləyəcəm! Elə bu vaxt! Mütləq gəl! Eşitdin?!

Yenə bilmədi ki, Bənövşə onun dediklərini eşitdi, ya yox.

Səhər açıldı, yeri-göyü ağappaq nura qərq eləyən günəş qalxıb durdu binənin üstündə. Orxan darıxa-darıxa fikirləşdi ki, burda günəş çox ləng tərpənir. Bu gedişlə öz mətəsinə çata bilməyəcək o və bu yerlərə qaranlıq düşməyəcək, gecə öz növbəsini gözləyə-gözləyə qalacaq Çapıqqayanın o tərəfində.

Günün ömrünü qısaltmaqüçün nəsə bir işlə məşğul olmaq lazım idi. Orxanın yadına düşdü ki, Rza fərməşi "Jiquli"nin dal oturacağına tullayıb

Orxan həmişə maşında gəzdirdiyi dama-dama dəftərlə karandaşı götürdü, fərməşi çiyninə atıb, dərədəki meşəliyə getdi... İri vələsin qapqara kölgəsində oturub, fərməşi yerə sərdi. Xovlu fərməş bir neçə yerdən didilib-yeyilmişdi, elə bil güvənin ağzından çıxmışdı, amma hələ rəngini itirməmişdi. Üstündə pəncərə şəbəkəsini xatırladan bəzək vardı, bəzəyin də dörd yanında xırda-xırda, sarı, qırmızı dairələr... Bu sarı-qırmızı dairələrin arasında enli, uzun, ağ bir zolaq keçirdi; fərməşin belinə dolanmış ağ kəmərə oxşayırdı, ancaq Orxan bunu, nədənsə, ağ cığıra bənzətdi... Ağbəyimin ömür cığırına... Gedib hardasa qırılırdı. Görəsən, zalım əri olmasaydı, Ağbəyim bu cığırla hara gedib çıxacaqdı? Gərək etibarsız, üzüdönük ərinə görə bütün dünyadan küsməyəydi Ağbəyim, qollarını yanına salıb durmayaydı, taleyinin ağ cığırına düşüb lap ayacan, günəşəcən gedəydi.

Orxan fərməşi astar üzünə çevirib ilmələri saymağa başladı və birdən ona elə gəldi ki, hər dilinin altında əcazkar bir səs gizlənən nəhəng pianonun şirmayı dillərini sayır. Bu nəhəng piano onun qulağına nəsə pıçıldadı. "Azərbaycan" mehmanxanasının restoranında sarıbəniz oğlanın barmaqlarından süzülən həzin, kövrək bir mahnının avazı Çapıqqayadakı vələs ağacının qapqara kölgəsini işığa qərq elədi. Orxanın ürəyində bir tel titrədi: "Tut ağacı boyunca..." Və daha əli işə yatmadı. Üzünü ha yana tutdusa, Bənövşə dayandı gözlərinin qabağında. Güman elədi ki, şirin yuxu görür – axı, bəzən adam yuxuda gördüklərini yuxu olduğunu bilir – bu dünyada nə "Çapıqqaya" deyilən yer var, nə Gümüşgöl, nə də Bənövşə. Orxan gözlərini açıb görəcək ki, darısqal bir otaqda dəmir çarpayının üstündədi. Görəcək ki, ara qapı açıqdı və Fatma həkimin o biri otaqda dedikləri açıq-aydın eşidilir: "Sən bu evə

halal süd əmmiş, təmiz bir qız gətirəsən gərək". Ancaq Orxan bilirdi ki, gördükləri gerçəkdi: həqiqətən bu dünyada "Çapıqqaya" deyilən bir yer var, bu yerdə suyu gümüşə çalan göl var, qaragözlü Bənövşə var və onu da bilirdi ki, günün ömrü nə qədər uzun olsa da, gün karvanını sürüb gedəcək, sonra gecə Çapıqqayanın dalından çıxıb öz yerini tutacaq. Bax, onda ay da, ulduzlar da Gümüşgölün şəfəqli suyunda çiməcək və Orxan bu şəfəqli gölə baxa-baxa, ürəyi dadlı bir intizarla döyünə-döyünə Bənövşənin yolunu gözləyəcək. Gələcəkmi Bənövşə?... Gələcək! Qismətinin dalınca gəlməlidi.

"Qismət" sözünə Orxanın gülməyi tutdu. O dəqiqə də yadına Dəmir düşdü. Nə hirsləndi, nə sevindi. Ürəyində Dəmirə qarşı acıq, kin yox idi. Heç nə yox idi. Heç yazığı da gəlmirdi ona. "Dəmir yazıq deyil, səfehdi. Tanımadığı adama ilk görüşdən rəqib gözüylə baxmaq səfehlik deyil, nədi bəs? Dəmir şəklidi, qısqancdı, qısqanclığı ilə də gülməlidir. Bənövşə sevməyəcək onu. Bənövşənin könlü-gözü Xızır peyğəmbərin yuxuda ona verdiyi qismətin yanındadı".

Orxan vələs ağacının kölgəsində dirsəklənib fikirləşdi ki, yer üzündə bircə yazıq varsa, o da Bənövşədi; yuxuya da inanır, yalana da. Bu qız niyə belə avamdı, fələk?.. Bənövşə safdı... Qəlbi tərtəmizdi onun. Yox! Saflıq, təmizlik – yazıqlıq deyil, cin-ciyər. Bənövşə xoşbəxtdir. Bu yuxunun sevincindən ürəyi nurla, inamla dolan adam xoşbəxt deyil, nədir bəs? Görəsən, bu inamın ömrü nə qədər olacaq? Şəhərdən gəlmiş oğlan nə vaxtsa bu inamı öldürməyəcəkmi? Orxan burdan gedən günü Bənövşənin ürəyindəki işığı əbədi söndürəcək. Onda Bənövşə olacaq bu dünyanın ən yazıq adamlarından biri.

Orxanın gicgahları başladı atmağa. Sonra bu döyüntü qulaqlarına keçdi onun: gupp... gupp... gupp... Orxan dikəlib oturdu. Narahat-narahat yar-yörəyə, aşağı-yuxarıya baxdı. Bu dərədən nə Çapıqqaya görünürdü, nə binə. Təkcə yamyaşıl yarpaqların arasından sapsarı günəş görünürdü göydə, Orxan gözləri qamaşa-qamaşa günəşə baxdı, fikirləşdi ki, bu dəqiqə Bənövşə də gözləri qamaşa-qamaşa sapsarı günəşə baxır və onların baxışları günəşin bir qızılı telində birləşir. "Aparacam onu şəhərə". Orxan özünün bu qəfil qərarına, qətiyyətinə heyrətləndi. Hiss elədi ki, ürəyi çır-çır çırpınır. Qulaqlarındakı guppultunun şiddətindən gözlərini yumub, arxası üstə uzandı. "Bənövşəni aparacam Bakıya – qoy kim mənə gülür gülsün – aparacam və deyəcəm, ay ana, təmiz qız arzulayırdın, buyur, bu da səninçün təmiz qız. Dağ çiçəyi kimi tərdi, təzədi. Gəlinini qəbul elə, Fatma həkim. Noolsun ki, ali təhsili yoxdu.



Savadlı qızların ədalı danışığından təngə gəlmişəm, vallah. Yerin altına da, üstünə də bələd olan qız lazım deyil mənə. Çoxbilmiş qızlardan qorxuram... Amma Bənövşə... İnanıram ki, başdan ayağa məhəbbətdi, itaətdi Bənövşə. Ona yad olan şəhərlilərin içində məni canından artıq istəyəcək, ürəyinin oduyla məni isindirəcək. Məni Bənövşəyə yuxuda Xızır peyğəmbər verib. Mən bu qızın bəxtiyəm, taleyiyəm, qismətiyəm. Bənövşə qismətinin üstündə yarpaq kimi tir-tir əsəcək. Mənə bundan artıq nə lazımdı, ay ana?.. Hə, Fatma həkim, gülürsən, işlərin düzəlib, deyəsən".

Orxan təzədən dikəlib oturdu, kürəyini ağacın gövdəsinə söykəyib gülümsədi. Qərarını daha götür-qoy eləməyəcək. Dedi, qurtardı! Bənövşəni aparacaq, vəssalam. Bənövşə onun sevimlisidi, əzizidi, gözlərinin işığıdı. Bənövşə onun arvadı olacaq.

"Görəsən Səfa neynəyəcək onda? Heç nə... Onsuz da məndən ayrılmaq istəyirdi. Bir dul kişi tapıb gedər ərə. Könlünə ər düşüb – kimliyinin dəxli yoxdu, təki ər olsun". Orxan xəyalına gətirdi ki, Səfa başqa bir kişinin yanındadı. Gördü ki, kişi üzünü Səfanın süd rəngli üzünə sürtür, onun şabalıdı saçını tumarlayır, dodaqlarından, ağappaq boğazından öpür. Orxan qısqanclıq hissi keçirmədi, elə bil Səfanı heç tanımırdı. İndi burda, vələs ağacının dibində oturub, restorandakı gecəni xatırladı. Orxanı qara-zad basmamışdı, ağlı başındaydı Orxanın, gözləri də hər şeyi yaxşı seçirdi: görmüşdü, Yavərin binamus hərəkətini açıq-aydın görmüşdü, Yavər Səfanı öpdü, Səfa cınqırını da çıxartmadı. Yavər sıyıqdı, sırtıqdı, arsızdı, ondan belə alçaqlıq gözləmək olar. Bəs Səfa?.. Hə, gidi dünya, belə-belə işlərin varmış sənin? Adam oturub dərin-dərin fikirləşəndə əməllər, hoqqalar çıxır ortalığa, di baş sındır ki, düyününü açacaqsan bunların. O gecə xain-xəyanətkar Yavərin oğurluq öpüşündən sonra Səfanın birdən-birə dəyişməyi, dönməyi, Orxana olan soyuqluğu, yadlığı düyün deyil, nədir bəs? Düyündü, can-ciyər, düyündü. Bəs onda Orxan Yavəri niyə şilləmədi, niyə təpikləmədi, niyə qovmadı? Yəqin sevmirmiş Səfanı, yəqin onu Səfaya bağlayan əsl məhəbbət deyilmiş. Hə, can-ciyər, elə bu da bir düyündü. Əgər Yavər Orxanın gözlərinin qabağında Bənövşənin boynundan öpseydi, neynərdi Orxan? "On ikinci mərtəbədən atardım qurumsağı". Orxan hiss elədi ki, Yavəri, Səfanı xatırladıqca hirslənir. Cəhənnəm olsun Yavər də, Səfa da. Yaxşısı budur yadına könülaçan əhvalatlar, adamlar salsın. Bu dağın başında Ağazəkini xatırlamaq Yavəri xatırlamaqdan min kərə yaxşıdı. Ağazəki gül kimi adamdı. İndi yəqin Mirzə

Muxtarın evinin sağındakı balaca meydançada, bir kubik daşın üstündə oturub qabağında da iki-üç butulka pivə. Məhlə uşaqları ona balaca cürcənəklərdə noxud da gətiriblər. Ağazəki pivədən içir, noxuddan ağzına atır və həmişə dəmlənəndə dediyi sözləri deyir: "Alə, mən ölüm, mənim yaşadığım küçənin adına bax: Duxovski pereulok... Saymışam, uzunluğu qırx səkkiz addımdı. Bu nə küçədi, alə, bu nə addı? Kimə adres verirsən iki gün axtarır, tapa bilmir. Gərək deyəsən ki, Qulaməlinin kababxanasının tinindəki küçə. Bir dəqiqəyə tapırlar, mən ölüm... Qulaməli rəhmətlik, iyirmi ildi o dünyadadı, hələ də "Qulaməlinin kababxanası" deyirlər, elə bil Baksovet rəhmətliyin adına qoyub kababxananı... "Şaşlıçnaya imeni Qulamali...". Ağazəki pivəni içib qurtarandan sonra bəzilərinin savadsızlığını sübuta yetirmək üçün xoruz səsi eşitməmiş suallar verəcək: "Xaloğlu, de görüm Napolyon rəhmətə gedəndə temperaturası neçə qradus idi onun?" Ağazəkinin sualları üstündə çoxları baş sındırıb. "O hansı ölkədi ki, orda atlar adamlardan çoxdu?", "Adama əmi yaxındı, yoxsa dayı?...". Ağazəki Orxanı da pərt eləmişdi. Onda Orxan ya ikinci, ya da üçüncü sinifdə oxuyurdu. Ağazəki Orxanın bir çantasına, üz-gözünə baxıb, yanındakılara demişdi ki, "mən ölüm, Fatma doxtorun oğlu professora oxşayır. Budu ey, alnı ənni, gözləri qara əncir boyda, başı da kruqlı. Allah qoysa, çeşmək də taxacaq, olacaq nastoyaşi professor". Sonra Ağazəki Orxanın qara əncir boyda gözlərinin içinə baxıb soruşmuşdu: "Professor, de görüm dünyaya toyuq əvvəlcə gəlib, yoxsa yumurta?" İndiyəcən Orxan bu sualın cavabını tapmayıb və Ağazəki də ömründə toyuğun yumurtladığını görməyən məktəb uşaqlarını bu sualı ilə indiyəcən utandırır.

Ağazəkinin İçərişəhərdə hörmət elədiyi, saydığı, sual vermədiyi bir adam vardı, o da Mirzə Muxtar idi. Mirzə Muxtarı görəndə qalxıb baş əyərdi və həmişə onun ardınca qürurla baxa-baxa yanındakılara deyərdi: "Bilirsiz necə kişi olub bu?" Mirzə Muxtarın əvvəllər neco kişi olduğunu nə Ağazəki görmüşdü, nə də onun tay-tuşları. Mirzə Muxtara İçərişəhərdə hamı ehtiram göstərirdi: balaca da, böyük də.

Mirzə Muxtar boylu-buxunlu bir kişi idi. Qoca olsa da gözləri hələ nurdan düşməmişdi. Yad adamlara da köhnə tanış kimi gülümsəyə-gülümsəyə baxırdı. Küçədə, məhlədə az görünərdi. Çox vaxt eyvanda dayanıb, budağı pəncərəyə toxunan tut ağacına saatlarla tamaşa eləyərdi. Deyilənə görə, tut ağacını burda Mirzə Muxtarın atası əkmişdi. İkimərtəbəli binanı da o tikdirmişdi. Guya ikinci mərtəbədəki otaqların



tavanı hər biri kibrit qutusu boyda bəzəkli, qiymətli mərmərdən idi və guya Mirzə Muxtarın atası bu bəzəkli mərmərin hər birini o vaxtın pulu ilə iki manata Fransadan alıb gətirmişdi və guya tavanı da elə Parisdən gəlmə usta düzəltmişdi. Mirzə Muxtarın tərifli otaqlarını İçərişəhərdə çox adam görmək istəyirdi, amma görə bilmirdi, çünki nə Mirzə Muxtar bir kimsənin evinə gedirdi, nə bir kimsə onun qapısını açırdı.

Mirzə Muxtarın gözünün ağı-qarası bircə oğlu davadan qayıtmamışdı. Oğlu öləndən sonra Mirzə Muxtarın arvadı evdən çölə çıxmadı. Hərdən Mirzə Muxtar dükana qənd-çay almağa gedərdi. Həmişə damağında əyri qəlyan olardı, soyuq havada boynu qaragül dərili uzun paltonu çiyninə salardı. Başına paltosunun boyunluğu rəngində yastı, dəyirmi papaq qoyardı. Təzəcə ayaq açan uşaq təki xırda addımlar atardı. Deyirdilər, Mirzə Muxtar inqilab vaxtı Əzizbəyovun yaxın köməkçisi olubmuş, onun gizli tapşırıqlarını yerinə yetirirmiş. Od parçası, ürəkli, ciyərli bir oğlan imiş, ən qorxulu işlərə onu göndərirmişlər. İyirmi altı Bakı komissarı tutulanda Mirzə Muxtar Bakıda olmayıb, yoxsa Ağcaqum çölündə onun da sinəsini qırmızı güllə ilə dəlmə-deşik edəcəkdilər.

İçərişəhərlilər Mirzə Muxtarın otaqlarını arvadı öləndə gördülər. Gördülər ki, bəzəkli mərmər-zad yoxdu burda, adicə tavandı, o qədər köhnədir ki, çat-çat olub, rəngi tökülüb.

Arvadının ölümündən bir müddət sonra, Mirzə Muxtar da rəhmətə getdi və eyvanına tut ağacının budağı toxunan evi Tambovdan gəlmiş fəhlə ailəsinə verdilər.

Yuxarıda, dağın döşündə bir at kişnəyib Orxanı fikirdən ayırdı. Orxan başa düşə bilmədi ki, Mirzə Muxratı nə üçün xatırlayıb. Mirzə Muxtar Ağazəkini onun yaddaşından nə vaxt sıxışdırıb çıxardıb? Bu barədə fikirləşmək istəmədi; həm vələs ağacının kölgəsində üşüyürdü, həm də fərməşin üzünü köçürməliydi hələ.

* * *

– Elə bilirdim şəhərlilərin hamısı ağ olur... Amma sən qarasan.
– Qara deyiləm, qarabənizəm.
– Nə tafotu var?
– Var, Bənövşə, var. Qarabəniz qaradan bir az yaxşıdı.
– Qarabəniz olsan da... qəşəngsən...

– Məni çox istəyirsən, Bənövşə?

– Bəs adam öz qismətini istəməz? Baxtıma sən çıxmısan.

– Əgər Xızır peyğəmbər məni sənə qismət kimi verməsəydi, onda necə?

– Elə şey olmaz. Hərənin öz qisməti var. Alnımıza belə yazılıb.

Gümüşgölün yan-yörəsi iri, ağ daşlarla dolu idi. Ay işığında bu daşlar gölün ətrafında səpələnmiş qoyunlara oxşayırdı. Qoyuna oxşayan bu daşların birinin üstündə Bənövşə oturmuşdu, birinin üstündə Orxan. Qabaq-qənşər idilər, amma Orxan heyfsilənirdi ki, əli Bənövşəyə çatmır. Çatsaydı, qolunu qızın belinə dolayıb, başını onun başına söykəyərdi və səhərə qədər beləcə oturub aylı, ulduzlu Gümüşgölün gümüşü suyuna baxardı. Heyf, heyf ki, Bənövşədən bir az aralıdı. Qızın yanına keçməyə də qorxurdu. Neçə kərə cəhd eləmişdi ki, qalxsın, ancaq hər ayağa duranda Bənövşənin ürkdüyünü görüb təzədən oturmuşdu.

Ətrafda adamı vahiməyə salan bir sükut vardı. Barı bir meh əsəydi, gölün üzü qırçınlanıb səsləneydi. Elə bil göl donmuşdu, daşlaşmışdı, burda bir qurbağa da yaşamırdı. Heç olmasa, gündüz bu gölün üstündə qanad çalan quşların biri indi bircə ağız oxuyaydı.

Bənövşə üzünü göyə tutdu:

– Güləndam nənə demişdi ki, kim doqquz işıqlı ulduz sayıb yatsa, yuxuda öz qismətini görər. Saydım... Yuxum çin çıxdı. – Qız gözlərini göydən çəkib Orxanın üzünə zillədi. – Sən də say, – dedi. – Doqquz ulduz say. Üçü məğribdə, üçü məşriqdə, üçü də onların arasında...

Orxan zarafatla dedi:

– Saymağına sayıram, amma qorxuram yuxuda başqa adam görəm.

Qız başını bulaya-bulaya dedi:

– Dilim-ağzım qurusun, yəni allah neylədiyini bilmir? Əstəğfurulla de. Sənin yuxuna, mən girməliyəm.

Orxan gördü ki, qız az qalır ağlamsına. Gülə-gülə:

– Zarafat eləyirəm, – dedi və fikirləşdi ki, gərək bu sözlərdən sonra qızın gözlərindən öpüb, ovundurasan onu. Öpməyin əsl məqamıdı, vallah, amma Bənövşəyə necə yaxınlaşasan? Əl vuracaqsan, dəli ceyran kimi daşların üstü ilə hoppana-hoppana qaçıb gedəcək.

Orxanın gülməyi Bənövşəni arxayınlaşdırdı. Qız başıyla göyə işarə eləyib:

– Say, – dedi, – doqquz ulduz seç. Böyük olsun, işıqlı olsun...



Orxan başladı nəzərləriylə göydə ən işıqlı ulduzları axtarmağa.

– Bir... iki... üç...

– İndi bu tərəfdən, məşriqdən, deyib, Bənövşə əlini göyə tuşladı. – Budu ey, ayın bu tərəfində.

– Hə... dörd... beş... altı

Ortadan da üçünü... Yeddi... səkkiz... doqquz... Bənövşə rahat-rahat nəfəs alıb:

– Vəssalam, – dedi.

Orxan da eynən onun kimi rahat-rahat nəfəs alıb, dedi:

– Bu gecə səni yuxuda görəcəm. Doyunca danışıb ürəyimi boşaldacam... Səni yuxuda qucaqlayacam.

Orxan güman elədi ki, bu sözdən sonra Bənövşə durub qaçacaq, amma qız qaçmadı. Başını aşağı salıb, üşüyürmüş kimi, bir az büzüşmüşdü. Gecə sərin olsa da, Bənövşə keçən dəfəki təki yenə yüngül geyinmişdi. Yenə başı açıq idi, donu da nazik. Bənövşənin susduğunu görüb Orxan bir az ürəkləndi.

Dedi:

– Bənövşə, yəni yuxuda da məni yaxına buraxmayacaqsan?

Bənövşə elə bil Orxanın sualını eşitmədi, saçını barmaqlarıyla daraqlaya-daraqlaya özü sual verdi ona:

– Bu nə addı qoyublar sənə? "Orxan" nə deməkdi?

Orxan kəkələdi:

– Addı də... Atam rəhmətlik qoyub... Bir şair olub... Orxan... Xoşuna gəlmir?

– Gəlir... Amma mən sonralar səni ayrı adla çağıraram. Razısan?

– Mənə nə ad qoyacaqsan, Bənövşə?

– Dağlarxan.

Orxan atasının qoyduğu adı daha çox xoşlayırdı, amma Bənövşənin qəlbinə dəymək istəmədi; kim bilir, Bənövşə nə vaxtdan bəri bu adı əfsanədən çıxardıb ürəyində əzizləyə-əzizləyə gəzdirir, nə vaxtdan bəri öz cəngavər Dağlarxanın yolunu gözləyir.

Orxan:

– Razıyam, – dedi. – Bir şərtlə: mən də səni "Hüsnübəyim" çağıracam.

Bənövşə elə yanıqlı köks ötürdü ki, Orxan özünü saxlaya bilməyib daşın üstündən durdu, gəlib dayandı Bənövşənin qabağında. Bənövşə də qalxdı, gözlərini Orxanın gözlərinə zilləyib qaldı. Orxan hiss elədi

ki, birdən-birə canına üşütmə gəldi. Baxıb gördü ki, Bənövşə də üşüyür, çiyinlərini yığıb yüngülcə titrəyir. Orxan qızın dodaqlarının səyridiyini də ay işığında açıq-aydın gördü və Bənövşəni bağrına basıb qızdırmaq, lal gölün buz nəfəsindən qorumaq həsrətilə alışıb-yandı. Əlini qızın saçında ehmalca gəzdirdi. Bənövşə bir az da büzüşdü, Orxanın nəfəsini üzündə hiss eləyəndə dartınıb geri çəkildi. Kəklik təki səkə-səkə gölün sıldırım sahilinə dırmaşdı. Lap yuxarıda şapqa günlüyünə oxşayan uzun, sal daşın üstündə dayandı. Qız ayağını bircə çərək qabağa qoysaydı, uçacaqdı gölə.

Orxan qorxudan boğazı göynəyə-göynəyə:

– Bənövşə... çəkil, – dedi.

Bənövşədən səs çıxmadı. Bənövşə quruyub qalmışdı şapqa günlüyünə oxşayan sal daşın qırağında, kim bilir, bu dəqiqə hara baxırdı, nə fikirləşirdi.

Bənövşə bərkdən:

– Orxan! – dedi.

Və Orxana elə gəldi ki, Bənövşənin səsi bütün binəyə yayıldı, dalğalana-dalğalana gedib, uzaqda qaralan Çapıqqayaya dirəndi.

– Qalx bura, Orxan!

Orxan fikirləşdi ki, iməkləməsə, gecə vaxtı daşların üstü ilə Bənövşənin yanına dırmana bilməyəcək.

Yenə boğazı göynəyə-göynəyə:

– Sən düş aşağı! – dedi. – Düş, yıxılarsan!

Bənövşə bayaqkı dalğalı səslə:

– Ora bax! – dedi. Gölün o tərəfinə bax!

Orxan baxdı, gölün o tərəfində ağaran qoyun – daşlardan savayı heç nə görmədi.

Bənövşə dedi:

– Hüsnübəyim dayanıb orda! Görürsən?.. Ağpaltar var əynində! Mən həmişə bura çıxanda Hüsnübəyimi görürəm! Sən də qalx bura!

Orxan da heç nə demədi. Yavaş-yavaş daşın üstündə oturdu və hiss elədi ki, istilənib, bayaqkı üşütmədən canında əsər qalmayıb. Siqaret çıxardıb, barmaqları titrəyə-titrəyə yandırdı...

Siqareti çəkib qurtaranacan Orxan dillənmədi, Bənövşə də sal daşın üstündə dayanıb susdu, elə bil Orxanın siqaret çəkməyinə mane olmaqdan qorxurdu... Orxan siqareti atıb, ayaqqabısının burnu ilə əzdi. Sonra qalxıb sıldırım sahilə tərəf yeridi. Astadan Bənövşəni çağırdı:



– Bənövşə... Bənövşə... – Gördü ki, qız dinmir, tərpənmir. Səsini bir az qaldırdı. – Hüsnübəyim!.. Hüsnübəyim! Mən Dağlarxanam, sənin ərin! Burda səni gözləyirəm! Gəl yanıma, Hüsnübəyim, gəl!

Bənövşə daşların üstü ilə tullana-tullana gəlib durdu Orxanın çənəsinin altında. İndiyəcən heç belə yaxın dayanmamışdı Orxana. Nədənsə, Orxanın üzünə baxmırdı, gözlərini dikmişdi onun sinəsinə. Öz-özüylə danışırmış kimi pıçıltıyla dedi:

– Dağlarxan igid olub... Namuslu olub...

Orxan əlini qızın saçına uzatdı, qız ürkmədi, çəkinmədi.

Bənövşə dedi:

– Dağlarxan Hüsnübəyimi çox sevib, çox.

Orxan Bənövşənin saçını ehtiyatla tumarladı.

– Bilirəm, dedi, – bilirəm.

Bənövşə dedi:

– Hüsnübəyim gözəl olub... əri kimi qoçaq olub.

Orxan qızın saçını tumarlaya-tumarlaya:

– Bilirəm, – dedi.

Bənövşə yenə pıçıldadı:

– Hüsnübəyim namuslu olub... Vəfalı olub...

– Bilirəm, Bənövşə, bilirəm.

– Hüsnübəyim ərini çox sevib, lap çox

– Bilirəm, quzum, bilirəm.

Bənövşə üzünü Orxanın sinəsinə qoydu.

– Ürəyin nə bərk döyünür, – dedi.

Ürəyinin bərk-bərk döyünməyini Orxan özü də hiss eləyirdi. Yüyürüb yorulmuş adam təki nəfəsi tıncıxa-tıncıxa:

– Sən mənimsən, – dedi. – Səni heç kimə vermərəm.

Bənövşə başını Orxanın sinəsindən götürdü.

– Elçilərini dədəmin yanına göndər, dedi. – Qoyun binəsinə... Yaxşı?

Orxan Bakıdan qoyun binəsinə elçi göndərmək fikrində deyildi, amma razılıqla başını tərpətdi və başını tərpədə-tərpədə fikirləşdi ki, ən yaxşı elçi elə özüdü. "Özüm gedərəm Bənövşənin atasının yanına, ay əmi, ay dayı, mən sənin qızını sevirəm, sənin qızınla evlənmək istəyirəm, ver onu aparım Bakıya, qurtarım onun canını inək-camışdan, tövlədən, sacayaq üstündə qazan qaynatmaqdan...". Birdən Orxanın yadına düşdü ki, Bənövşənin atası neçə illərdi arvad-uşağını atıb ge-

dib. Bənövşənin zəhmətinə qatlaşan ananı, qardaşı burda qoyub nanəcib atanın qapısına elçi getmək düz deyil. Gərək Ağbəyimə, Rzaya ağız açıb söz deyəsən. Bənövşənin atası kimdi, nə karadı? Arvadının, uşaqlarının öldü-qaldısından da xəbəri yoxdu. Dəyyusun, qurumsağın biridi o.

Orxan qızın qəlbinə dəyəcəyindən qorxurmuş kimi, ehtiyatla dedi:

– Bənövşə, axı, sənin atan...

Bənövşə macal vermədi ki, Orxan sözünün dalını gətirsin.

– Ata, evin allahıdı, – dedi.

– Düzdür... əgər evdə olsa...

– Lap olmasa da. – Qız Orxandan aralanıb üzünü gölə tərəf çevirdi.

Orxan ata söhbətini açıb-ağartdığı üçün peşman oldu. Yaxınlaşıb Bənövşəylə çiyin-çiyinə dayandı.

– Bağışla, – dedi, – bilmirdim ki, atanı bu qədər istəyirsən, bağışla.

– Mən səndən küsməmişəm ha...

– Dedim, bəlkə atana görə...

– Atalarımız olmasaydı, biz bu işıqlı dünyaya gəlməzdik. Bir-birimizi görməzdik. Bax, beləcə, yan-yana dayanmazdıq. Heylədi? Biz onlara borcluyuq... Həmişə... Göydə allah yerdə ata. Bildin?

– Bildim, Bənövşə, bildim, – deyib Orxan təzədən başladı qızın saçını tumarlamağa. Bənövşə gözlərini gölə zilləyib qaldı. Deyəsən, yenə Hüsnübəyimi gördü. Dağlarxanın səsini eşidirdi.

Orxan əlini Bənövşənin saçından çiyninə sürüşdürdü. Barmaqlarını qızın çiynində bir az gəzdirdi. Sonra onun kürəyini tumarladı. Sonra Bənövşənin belini bərk-bərk qucaqladı və get-gedə istilənən, səyriyən dodaqlarını onun soyuq yanağına toxundurdu. Qız səksənib başını yana çəkdi, guya yanağına köz basmışdılar. Orxan onun belini ikiəlli qucaqlayıb qulağına pıçıldadı:

– Axı, mən sənin qismətinəm. Məndən niyə ürkürsən? Qorxma məndən, Bənövşə.

Qız Orxanın qolları arasından çıxmağa cəhd eləmədi, başını bulaya-bulaya:

– İndi yox, – dedi. – Kəbin kəsiləndən sonra... Mən sənin halal arvadın olandan sonra... Allahın əmrilə...

Orxan az qaldı qızı silkələyib desin ki, "sən hansı əsrdə, hansı gündə yaşayırsan, ay binəva?... Dilindən Allah, peyğəmbər düşmür sənin? Dünyanın səs-sədası yəni gəlib bu dağın başına çatmır? Sənin şəhərdəki yaşıdların allahın özünü çaya susuz aparıb, susuz gətirərlər,



rastlaşsalar, barmaqlarına dolayarlar onu! Yəni bu Çapıqqayadan bir yana çıxmamısan? Yəni Gümüşgöl əfsanəsindən başqa heç nə eşitməmisən?" Orxan bu sözləri Bənövşəyə demədi, fikirləşdi ki, Bənövşə şəhərdə avamçılığın daşını atacaq, görüb-götürəcək, şəhər Bənövşəni öz qəlbinə salıb düzəldəcək və onda Bənövşə dünyaya başqa gözlə baxacaq. İndi də nəsə demək, Bənövşəni ayıltmaq lazımdı. Orxan dedi:

– Aya insan ayağı dəyib, Bənövşə. Göydə minlərlə peyk fırlanır. Başqa planetdən bizim planetə siqnallar gəlir. İndi min doqquz yüz səksən ikinci ildi:

Bənövşə yenə başını buladı:

– Kəbindən sonra, – dedi.

Orxanı dəli bir gülmək tutdu. Elə güldü ki, daha Bənövşənin belini qolları arasında saxlaya bilmədi. Qız əvvəlcə mat-mat baxdı Orxana, sonra:

– Niyə gülürsən? – deyib özü də qoşuldu ona.

Qəhqəhə səsi gecənin sükutunu parçaladı. Bu səs gölün par-par parıldayan ağappaq sinəsinə töküldü, dalğalana-dalğalana qoyun – daşların üstündən keçib, uzaqda əks-səda verdi. Orxan gülməyini güclə boğa-boğa soruşdu:

– Düzünü de, Çapıqqayadan başqa bir yer görmüsən heç?

Bənövşə də gülməyini güclə boğa-boğa:

– Niyə görməmişəm, – dedi. – Rayonu görmüşəm.

– Hansı rayonu?

– Öz rayonumuzu... Anamla ayda bir dəfə gedirik rayona. Dükana, bazara dəyirik... Amma qışda yol xarablaşır, qışda biz getmirik, Rza gedir.

İri bir quş qanadlarını şappıldada-şappıldada gölün üstündən dövrə vurdu. Bənövşə də, Orxan da quşun qaqqıltısına qulaq asdılar – bu səs bir az adam səsinə oxşayırdı – elə bil göydə adam uçurdu.

Bənövşə dinməz-söyləməz dayanıb bir xeyli göyə baxdı. Tələsənə bənzəmirdi, sanki evə getmək yadına düşmürdü. Ağlına nə gəldisə, Orxanın əlindən bərk-bərk yapışıb:

– Gəl girək suya, – dedi.

Orxan səthi ay işığında gümüş ərintisi kimi şəfəqlənən gölə nəzər saldı və hiss elədi ki, bədənini gizilti bürüyür. Elə bil göl bircə anda buza döndü və adamı qılınc kimi kəsən soyuq nəfəsilə Orxanın damarlarında qanını dondurdu.

Orxan:

– Yox, – dedi və fikirləşdi ki, əgər bu göl, doğrudan da, günahları ölçən "mizan-tərəzi" gölü olsaydı, onun burda gurumbultu ilə batmağı üçün – böyük günahları bir yana – elə xırda günahları da bəs eləyərdi. Təkcə Səfanın qarğışı daş olub asılardı Orxanın boynundan, təkcə Səfanın ahı onu bu göldə qərq eləyib öldürərdi. Orxan: – Lazım deyil, – dedi.

Bənövşə:

– Qorxma, – dedi. – Burda bütün günahlar ölçülmür. Burda ər-arvad sədaqəti ölçülür... Bir də xəyanət... Nəyə olur-olsun... Lap yadlara da...

– İstəyirsən sətəlcəm olub yorğan-döşəyə düşək? Axı, Rza dedi ki, bura heç kim girmir.

– Hə, Hüsnübəyimdən sonra bu gölə girən olmayıb. Amma burda çimmək olar. Bilirəm, olar. Hamı qorxur bura girməkdən. Gərək ürəyində niyyət-zad tutmayasan. Günah ölçməyəsən. Elə belə çiməsən. Çimmək olar. Yəqin Hüsnübəyimdən qabaq çimənlər olub burda. Səncə olub, olmayıb?

Orxan istədi desin, "olub", ancaq bu bircə kəlməni deyə bilmədi: xırda daşları ayaqlarının altında şaqqıldada-şaqqıldada iki qaraltı onlara tərəf qaçırdı. Orxan o dəqiqə başa düşdü ki, təngnəfəs yüyürənlərin biri Rzadı, biri də Dəmir – Dəmirin dəri kürkü uzaqdan ağarırdı. Qəribə idi ki, Orxan zərrə qədər də qorxu hiss eləmədi, sanki bu görüşü çoxdan gözləyirdi. Vuruşa hazır olmaq üçün əlini qızın əlindən qoparmaq istədi, ancaq Bənövşə Orxanın əlini buraxmadı, barmaqlarını elə qatladı ki, dırnaqları onun ovcuna batdı.

Dəmir çatan kimi Orxanın boynunun kökünə bir yumruq ilişdirdi. Orxana elə gəldi ki, Dəmir onu yumruqla yox, daşla vurdu. Eynən belə bir zərbədən Orxanın sinəsi yandı. Orxan bütün gücünü bir qoluna yığıb, yumruğunu Dəmirin alnına çırpdı. Dəmir dalı-dalı səndələyib arxası üstə uçanda Orxan macal tapıb nəzərləriylə Bənövşəni axtardı. Rza: "a qaragün" deyə-deyə bacısını sillələyirdi, bacı da üzünü əllərilə örtüb dayanmışdı, heç cınqırını da çıxartmırdı. Orxan qızın imdadına yetişə bilmədi: Dəmir qollarını qaraquş qanadları kimi açıb, Orxanın qabağını kəsdi, sözləri dişlərinin arasında sıxa-sıxa qəzəblə dedi:

– Köpəyoğlu, öldürrəm səni!

Orxan gözlərini zillədi Dəmirin geniş açılmış qollarına, amma Dəmir qollarını işə salmadı, qəflətən Orxanın qarnına bir təpik ilişdirdi:



– Şəhər tulası! – dedi.

Orxan ikiqat oldu, ağrıdan dişlərini bir-birinə sıxıb, altdan-yuxarı Dəmirin çənəsinə yumruq atdı, amma yumruğu boşa keçdi. Sonra qarnını qucaqlayıb qaldı. Orxanın başına, boynuna, kürəyinə zərbələr dəydi.

– Sümsük köpəyoğlu! Binamus! Oğraş!

Hər zərbə dəyən yerə elə bil od basırdılar. Orxanın ağlı-huşu yerində idi, ancaq nəfəsi batmışdı, ayaq üstə dayanmağa taqəti qalmamışdı. Yıxılhayıxılda gördü ki, Rza Dəmirin kürkündən tutub dartır:

– Bəsdir, Dəmir! Allahdan qorx, ayə! Ölər, əngələ düşərsən! Ayə, bəsdi!

Orxan böyrü üstə yıxıldı. Gözlərinin qabağında axıb gedən saysız-hesabsız işıqlı nöqtələrə baxa-baxa Dəmirin get-gedə uzaqlaşan, əriyən səsini eşitdi.

– Nacinsin, nakişinin qızı! Səni saçından asacam! Səni tikə-tikə doğrayıb binədəki itlərə yedizdirəcəm.

Sonra Orxan sanki dibi görünməyən bir quyuya düşdü. Ağzını çınqıllı torpağa dirəyib, birdən-birə başına ələnmiş qurğuşun sükutu xeyli dinmədi. Handan-hana qalxıb yaxınlıqdakı qoyun-daşın üstündə oturdu. Elə bildi ağzı qanla dolub, tüpürdü. Fikirləşdi ki, yəqin bu dəqiqə Bənövşəni döyüb incidirlər. Yəqin Dəmir saçından asıb onu.

Orxan durub, tüpürə-tüpürə binəyə getdi.

Binə sərin, nəmli gecənin qucağında uyuyurdu. Çapıqqaya tərəfdən gələn ağ duman bir azdan yeri-yurdu ağappaq örtüyə bürüyəcəkdi.

Orxan birbaş Rzagilin daxmasına getdi. Ana da, balalar da ayaqüstə, narahat, nigaran dayanmışdılar. Dəmir yox idi burda. Bənövşənin saçı üzünə dağılmışdı, yanaqları göz yaşlarından islanmışdı. Orxanı görəndə Bənövşə üzünü divara dayayıb başladı hıçqırmağa.

Orxanın gəlişindən Rza heyrətlənib özünü itirdi, mat-mat gah anasına baxdı, gah da Orxana, bilmədi belə yerdə nə danışsın, nə desin.

Ağbəyim nəzərlərini Orxanın sifətində gəzdirdi, onun dodaqlarının cövcəsində, çoxdan qırxılmamış üzündə qan gördü, alnında, gözlərinin altında göy ləkələr gördü. Ağbəyimin bir yanağı yüngülcə səyridi. Oğlu ilə qabaq-qənşər dayanıb, elə bir yanağı səyriyə-səyriyə:

– Qərib adamı bu kökə salmazlar, – dedi və Rzaya yağlı bir sillə çəkdi.

Rza başını aşağı dikdi.

Ağbəyim səsi boğula-boğula:

– Allah qonağına əl qaldıranın əli quruyar! – dedi və bir yağlı sillə də Rzanın o biri üzünə çəkdi.

Rza uşaq təki kövrəldi.

– Qurban olum, ay ana, döymə məni, – dedi. Mən ona əl vurmamışam, özündən soruş.

Ağbəyim ağlamsına-ağlamsına qışqırdı:

– Sən biqeyrət atanın belindən gəlmisən! Oxşama ona! Oxşama!

Orxanın inanmağı gəlmirdi ki, üz-gözündən tərki-dünyalıq tökülən, qaradinməz Ağbəyim belə hirslənə bilər. Orxan alnını divara söykəyib hıçqıran Bənövşəyə şəfqət, mərhəmət dolu, uzun-uzadı bir nəzər saldı, sonra dönüb daxmadan çıxdı.

Çapıqqayadan üzü bəri sürünən ağappaq duman düzü-dünyanı uda-uda gəlib binəyə çatmışdı...

Yatağına girəndə Orxan yadına saldı ki, bu gecə doqquz işıqlı ulduz sayıb, bu gecə qismətini – Bənövşəni yuxuda görməlidi. Ulduz məsələsini Güləndam qarının quraşdırması hesab eləsə də, Bənövşəni yuxuda görmək ümidi ilə yorğanı başına çəkdi... Amma yuxusuna gah klarnetçalan Ağazəki girdi, gah Xürrəm müəllim. Yuxusu çox qarma-qarışıq, mənasız, məzmunsuz oldu.

Neçə gün Orxan aralıdan Rzagilin daxmasını pusdu, Bənövşə gözlərinə dəymədi. Qız axşamlar heç sağına da gəlmirdi. Bənövşədən ötrü Orxanın burnunun ucu göynəyirdi, ancaq qalmışdı naçar, bilmirdi neynəsin. Hərdən qərəzlənirdi ki, günün günorta çağı – Rza örüşdə olanda – gedib girsin Bənövşəgilin daxmasına. O dəqiqə də Ağbəyimi xatırlayıb fikrindən dönürdü. Hərdən də qərəzlənirdi ki, Bənövşə barədə Güləndamdan bir söz soruşsun, amma qarı hər dəfə Orxanın niyyətini duyubmuş kimi üz-gözünü elə turşaldırdı ki, Orxan ağzını açmağa ürək eləmirdi. Atlıxan da, Güləndam da Orxanın əməlindən, deyəsən, xəbərdar idilər. Orxan döyülüb gələn gecəsi qocalar onun ağız-burnunu qanlı görəndə zərrə qədər də təəccüblənmədilər, narahat olmadılar, heç xəbər də almadılar ki, "a qonaq, səni hansı əliqurumuş bu kökə salıb?" Atlıxan sırıqlısına bərk-bərk bürünüb çiynini söykəmişdi buxarının qırağına, Güləndam da Orxanın qabağına iri ləyəndə isti su qoymuşdu ki, Orxan sir-sifətinin qanını yusun.

Orxan hər gecə gedirdi Gümüşgölün qırağına, gözləyirdi, gözləyirdi, Bənövşə gəlmirdi ki, gəlmirdi. Deyəsən, Dəmirgil Orxanın ayağını gölün qırağından birdəfəlik yığışdırmaq fikrində deyildilər. Heç onlar



da bu tərəflərə yön tutmurdular. Axırda Orxan qət elədi ki, özü onların yanına getsin. Bəlkə Bənövşə barədə Rzadan bir kəlmə söz eşitdi? Birdən yenə döyərlər onu? Qoy döysünlər. O ayı peysərli Dəmir qanmalıdır ki, Orxan ondan qorxmur. Qətiyyən qorxmur. Orxan birdənbirə Səfanı xatırladı və məəttəl qaldı ki, min fikrin arasında Səfa hardan düşdü yadına, Sonra Yavər gəlib durdu gözlərinin qabağında və anladı ki, Səfanı xatırlamağı əbəs deyilmiş. O gecə restoranda Orxan ürəyinin göynərtisinə güclə dözmüşdü, içindəki təlatümü güclə yatırmışdı – nədi-nədi, Yavər Səfanın boynundan öpüb. Onu da dəqiq bilmirdi, bəlkə gözlərinə elə görünmüşdü? Düzdür, Orxan onda Yavəri döyməmişdi, amma onu acılayıb, heç olmasa, ürəyini bir balaca boşaltmışdı. Bəs, Dəmir neynəsin? Məhəbbəti əlindən gedir. Bəlkə də həyatı tar-mar olur. Dəmir buna necə dözsün?.. İndi Orxan bunları düşünəndə dalaşdığı, coşub-daşdığı üçün Dəmiri qətiyyən qınamadı, əksinə, ürəyində haqq qazandırdı ona. Di gəl ki, Orxanın fikri bundan uzağa getmədi, Dəmirin aqibəti və özünün qeyrəti barədə götür-qoy eləməkdən vaz keçdi.

Orxan dağın o biri üzünə aşdı. Gördü ki, naxır yayılıb döşə, dəmir çomağın ucunu sinəsinə dirəyib durub bir qıraqda. Rza da göy otun üstündə dirsəklənib, başını tərpədə-tərpədə nəsə danışır. Gözləri Orxana sataşanda Dəmir qəddini düzəltdi. Dəmirin belə eləməyi, deyəsən, Rzanı şübhəyə saldı; Rza dikəlib oturdu, başını qanırıb geri baxdı və eləcə quruyub qaldı, elə bil cin-şəyətinə ürcah olmuşdu. Orxan pis niyyətlə gəlmədiyini bildirməkçün naxırçılara yaxınlaşa-yaxınlaşa gülümsədi. Dəmir acıqlı-acıqlı nəsə deyib tüpürdü, sonra çomağıyla göy otları döyəcləyə-döyəcləyə naxıra tərəf getdi.

Rzanın boynu əyri qalmışdı. Orxan gəlib çatanacan Rza gözlərini çəkmədi ondan.

Orxan:

– Salam, – dedi.

Rza təəccüblənə-təəccüblənə soruşdu:

– Dalaşmağa gəlmisən?

– Dalaşmağa niyə? – Orxan Rzayla üzbəüz oturdu. – Bir dəfə dalaşdıq, bəsdi... Binədə darıxdım.

– Darıxırsan, çıx get şəhərə.

– Bura xoşuma gəlir, axı.

– Bəs onda niyə darıxırsan burda?

Orxan, Rzanın didilmiş papağına, qıçlarının arasında tutduğu çomağına baxdı, dəngül-düngül tük bitmiş üzünə baxdı, fikirləşdi ki, bu yeniyetmə naxırçının yanında hətərən-pətərən danışmaq olmaz. Uşağa oxşasa da, uşaqlığın daşını çoxdan atıb bu. Həm də Orxanın bura – örüşə gəlməyi, deyəsən, Rzanın ürəyincə deyil. Yəqin Bənövşə barədə onun dilindən bircə kəlmə də söz çıxmayacaq. Əgər işdi-şayət Orxan ürəklənib özü soruşsa, vay onda Orxanın halına; Rza toppuzlu çomaqla onun başını qarpız kimi partladar... Orxan yan-yörəyə baxdı, naxırın qabağında üzü o yana dayanmış Dəmirə baxdı, Rzayla söhbət eləmək, bəlkə də mümkün olsa, barışmaq xatirinə danışdı.

– Adam burda bütün günü yatmaq istəyir... İl boyu bura gəlib-gedən olmur yəni?

– Kolxoz sədri gəlir, hesabdar gəlir. Ferma müdirinin bir ayağı burdadı, bir ayağı aranda. Kolxoz aşağıdadı, rayona yaxın... Süd daşıyan maşınlar gəlir... Günaşırı...

Orxan gördü ki, Rza qaşqabaqlı. Həvessiz də olsa, onun suallarına cavab verir.

– Kolxoz sədri gələndə harda qalır? – dedi və o andaca başa düşdü ki, səfeh sualdı bu.

Sualın mənasız olduğunu Rza da başa düşdü, amma üstünü vurmadı, Orxana tərs-tərs baxıb dedi:

– Binənin girəcəyində ağ alaçıq var ha, sədrindi o. Gələndən-gələnə orda qalır. – Hirsli-hirsli əlavə elədi: – Mal-qaranı da gecələr o uzun tövləyə salırıq. Qışda kolxoz hərdən bura maşın yollayır, ayın-oyun gətirirlər; un, sabun, pal-paltar, nöyüt, kibrit, duz... Hər yüz camışdan yüz on baş bala alırıq! İşimizdən də, güzəranımızdan da razıyıq. Day nə sualın var?!

Orxan gülümsədi:

– Cinlənmə, – dedi. – Mən səninlə acıqlı danışmıram ki.

Rza darıxmış, təntimiş halda:

– Yaxşısı budu, tamam çıx get burdan, – dedi.

– Hələ getmək fikrində deyiləm.

– Gözləyirsən ki, dodaqlarının şişi çəkilsin?

Orxan barmaqlarını sağ gözünün altındakı qaramtıl şişə sürtdü.

– Kişi kişini daşnan vurmaz, – dedi.

– Dəmir heylə namərd deyil, ə. Onun yumruğunu daş bilmisən... Güzgüdə özünə baxmısan heç? Bu ağız-burunla ananın gözlərinə görünməyə ürəyin gəlmir?



Orxan, doğrudan da, bu kökdə Bakıya qayıtmaq istəmirdi. "Tanış-biliş adama nə deyər? Şəhərdən belə çıxmışam mən?" Orxan nə illah elədi, Bakıdan ayrıldığı günlərin sayını dəqiqləşdirə bilmədi. Günlərin hesabını itirmişdi. Əlini tüklü üzünə çəkdi və saqqalının uzunluğundan anladı ki, şəhərdən çıxdığı xeyli vaxtdır. Saqqalını tumarlaya-tumarlaya fikirləşdi ki, elektrik üzqırxan bu dağın başında karına gəlmədi onun. Rzadan soruşdu.

– Bu gün ayın neçəsidi?

– Bilmirəm.

– Doğrudan bilmirsən?

– Nəyimə lazımdı?

– Məncə... iyun ayı qurtarmayıb hələ...

Rza istehzayla soruşdu:

– İl necə? İl də yadından çıxıb?

– İl?.. Min doqquz yüz səksən iki... Amma gün... Görəsən neçə gündü burdayam?...

Bütün bu sual-cavablar, danışıqlar Rzaya mənasız göründü. Rza dedi:

– Bura bax, ay allah qonağı, niyə ev-eşiyindən didərgin düşmüsən? Avara-sərgərdan adama oxşayırsan sən. İşləyən adam dağda-daşda bu qədər boş-bekar veyillənməz.

Aspirantam mən, Rza, aspirant. Xəlçəçilik üzrə... Rza söhbətə son qoymaq istədi:

– Çıx get binədən! Bəlkə hökumətdən-zaddan gizlənirsən?

– Heç kimdən gizlənmirəm. Mən azad, sərbəst adamam. Kefim istəyəndə çıxıb gedəcəm.

– Çıx get, allah qonağı, yoxsa Dəmir öldürər səni.

– Öldürə bilməz.

– Dəmir çomağa dolayar səni.

– Dəmirdən qorxmuram.

– Dəmir toza döndərər səni.

– Deyəsən, Dəmirdən zorlu oğlan görməmisən?

– Dəmir bir də sənə əl bulasa, aralığa girməyəcəm, qəhmər durmayacam sənə.

Orxan naxırın qabağında dayanmış Dəmirə başıyla işarə elədi:

– Dağ ayısıdı o. İstəyirsən üzünə deyim?

Rza əməlli-başlı hirsləndi;

– Ayə, – dedi, – Dağ ayısı səndən min kərə yaxşıdı! Heç olmasa oğraş deyil o! Sən bizim halal süfrədən duz-çörək yemisən! Kişi olan

kəs çörəyi tapdalamaz! Evin qızı qardaşın, ata-ananın qeyrətidi! Qeyrətə toxunanın iri tikəsini qulağı boyda eləyib torbaya yığırlar. – Rza çomağından bərk-bərk yapışdı: – Dur, sürük burdan, qoduq! Dur!

Orxan Rzanın qırımından başa düşdü ki, durub getməsə Rza çomağı, doğrudan da onun kəlləsinə endirəcək. Qalxıb üz tutdu binəyə tərəf. Beş-altı addım getmişdi ki, arxada söyüş, şappıltı eşidib başını geri döndərdi. Gördü ki, Dəmir bir camışı salıb çomağının altına döyür:

– Çər dəysin sənə! Azar tutsun səni! Köpəyoğlunun heyvanı! Səni gülləyə tuş gələsən!

Çomaq camışın belində şappıltı qoparırdı, camış böyürürdü. Orxan başa düşürdü ki, Dəmir onun hayfını camışdan alır.

Rza ayağa qalxıb Dəmirə tərəf gedə-gedə:

– Ayə, ay allahsız, niyə öldürürsən heyvanı?! Ayə, naxırın üzünü hara döndərirsən, otduyur dana burda!

Dəmir indi qabağına keçən heyvanı vurub, naxırı burdan uzaqlaşdırmaq istəyirdi.

Gümüşgöl yenə ölü idi: nə dillənirdi, nə tərpənirdi, ağappaq sinəsini göyə tutub, batmaqda olan günəşin öləziyən oduna qızınırdı. İri, qırmızımtıl, günəş bir azdan ətəyini Çapıqqayanın iti ucuna sürtə-sürtə dağın dalınca keçəcəkdi, onda Gümüşgöl, ta günəş bu yana qayıdanacan, qətrə-qətrə soyuyacaqdı.

Orxan bayaqdan dayanıb gölün suyuna tamaşa eləyirdi. Lal suya o qədər baxdı ki, axırda bir az xoflandı da. Bəlkə adicə su deyil bu, vücudu, sirri kimsəyə bəlli olmayan bir mayedir, bunu bu böyük çalaya Dağlarxan tökdürüb. Tökdürüb ki, Hüsnübəyim bu bərk mayenin üstü ilə narın-narın yerisin, batmasın burda? Orxan əyilib sudan bir ovuc götürdü, bir qurtum içib tamsındı. Şirin su idi, həm də bumbuz. Yox, deyəsən, günəşin gücü çatmır bu gölə, günəş bunun bircə damcısını da qızdıra bilmir. Dağ günəşinin üzüyumşaqlığından, deyəsən, Gümüşgöl ilin bütün fəsillərində beləcə soyuq olur.

Gümüşgölün üstündəki səma sanki rəngini göldən almışdı – göyün göl boyda parçası ağımtıl idi. Bu ağımtıl dairənin belinə Çapıqqayanın təpəsindəki günəş narıncı qurşaq dolamışdı. Orxan göyə baxdı, gölə baxdı, yan-yörəyə baxdı və fikirləşdi ki, heç yanda bu gözəllikdə mənzərəyə rast gəlməyib. Buradakı rəngləri heç Xürrəm müəllimin xalçalarında, çeşnilərində də görməyib. Kaş Orxan belə bir əsər yarada



biləydi. Ömrünü belə xalçanın ilmələrində əritsəydi, "uf"da deməzdi. Göydə dəpdəyirmi, sapsarı ay... Ayın əksi gölün üzündə şəfəqli halə kimi dayanıb, yanında da pul-pul ulduzlar. Ucaboylu, ağ paltarlı, pərişan Hüsnübəyim gölün üstü ilə yeriyir. Adamlar gölü dövrəyə alıb mat-mat baxırlar. Gözlərdə təlaş, qorxu, ümid, sevinc... Bu adamlar Orxanın tanıdığı adamlardı. Rəhmətlik Mirzə Muxtar da burdadı. Əynində zirehli paltar, başında dəbilqə, əlində nizə dayanıb əsgərlərin lap qabağında. Ağazəki də burdadı; iri, dəyirmi gözlərini göyə zilləyib, allaha yalvarır ki, Hüsnübəyim göldə batmasın. Fatma həkim saçını yolub ağlayır. Baton da ağlayır, ancaq Hüsnübəyimin müsibətinə yox, anasının fəryadına ağlayır. Yavər əynində uzun əba, başında əmmamə saqqalını tumarlaya-tumarlaya maraqla baxır ki, görsün bu işin axırı necə qurtaracaq. Səfa elə baxır, elə bil ölümə məhkum olunmuş Hüsnübəyimə paxıllığı tutur, qibtə eləyir... Dağlarxan gölün sıldırım sahilindədir, atın belində şəstlə oturub, amma Hüsnübəyimə baxmır, göydəki dəpdəyirmi, sapsarı aya baxır. Çoban qızını şərləyən xan arvadları şapqa günlüyünə oxşayan uzun, sal daşın üstündə büzüşüb dayanıblar, irilənmiş gözlərini Hüsnübəyimin ayaqlarına zilləyiblər... Orxan tanıdığı adamların bəzilərinin surətini xəyalında yaratdığı bu xalçaya köçürtdü. Alen Delona oxşayan ədalı müğənnini də, pianoçu sarıbəniz oğlanı da, lap Atlıxanı, Güləndamı da ilmələrlə həkk elədi ora. Dəmiri, Rzanı, Ağbəyimi, Bənövşəni... Amma Bənövşə sahildəki adamların arasında olmamalıdı, Bənövşə gölün ortasında olmalıdı, qoy hamı ona baxsın. Əlbəttə, gölün üstü ilə məğrur-məğrur addımlayan ağ paltarlı, pərişan saçlı o gözəl Bənövşədir.

Birdən Orxanın ürəyindən keçdi ki, kaş doğrudan da, elə bir göl olaydı, adamların günahlarını ölçəydilər orda: təkcə xəyanəti yox, irili-xırdalı bütün günahları... Onda istintaq yazılarından cild-cild kitablar yaranmazdı. Müqəssirin günahını sübuta yetirməkçün divan-məhkəmədə günlərlə, aylarla baş sındırmazdılar, şahid-filan axtarmazdılar. Sorğu-sual da uzun çəkməzdi. "Oğurluq eləmisən, bala?", "Xeyr", "Buyur, gir gölə...", "Filankəsi sən öldürmüsən?", "Xəbərim yoxdu", "Zəhmət çək, gir gölə...", "Pulnan instituta uşaq düzəltmisən?", "Böhtandı", "Bu göl, bu da sən...". Kaş elə bir göl olaydı, fələk. Oğrular, əyrilər, rüşvətxorlar, qeyrətsizlər, insafsızlar, namərdlər özlərini yığışdırardılar. Heç kim heç kimi aldatmazdı bu dünyada. Heç kim heç kimə kələk gəlməzdi. Qoluzorlular gücsüzlərin başından basmazdılar,

haqqı nahaqqın ayağına verməzdilər. Hamı ürəyinin xıltını təmizləyərdi, ürəklərdə ancaq işıq, məhəbbət olardı. Hamı bir-birinin dərdinə-sevincinə şərik olardı. Ər arvada xəyanət eləməzdi, arvad ərə. Dostbazlığın, qohumbazlığın, yerlibazlığın kökü kəsilərdi. Kim nəyə layiqdirsə, o haqqı da alardı. Dərrakəli, namuslu, işgüzar adamların üstündə başıboşlar, nadanlar ağalıq eləməzdilər. Loğmandan soruşublar ki, dünyada ən böyük bədbəxtlik nədir? Loğman cavab verib ki, ən böyük bədbəxtlik odur ki, qanan olasan, qanmaz buyruğuna baxasan... Həə, günahları ölçən elə bir mizan-tərəzi göl olsaydı, kişilər kişi kimi yaşayıb, kişi kimi ölərdilər, arvadlar da kişi arvadları kimi yaşayıb, kişi arvadları kimi köçərdilər bu dünyadan.

Orxan fikirləşdi ki, günahları sayıb-sadalamağa dursa, məsələ uzanacaq – daha saymadı. Nə mənası var? Onsuz da xam xəyaldı bu. Lap belə bir göl olsa da, adamlar özləri batırardılar onu. Başına min oyun açarlar gölün. Qorxa-qorxa yaşamaq kimin xoşuna gələr? Nəfsi boğa-boğa ömür sürmək çoxlarını təngə gətirər. Onda bəzzadlar, bicəltəklər peyda olarlar, gölün işçilərini yoldan çıxarardılar. Onlara adam taparlar, rüşvətlə ələ alarlar onları. Vallah, gecənin birində qurudarlar o gölü, pulun gücünə adamlara qurtum-qurtum içirdərlər, ya da gölün altında elə əngəl eləyərlər ki, göl günahları ölçə bilməz. Bir də görərsən ki, təpədən-dırnağa günah içində olan adam, budu ha, gölün üstü ilə qaşqaldaq kimi dazıyır, amma ömründə bir qarışqa da tapdalamayan günahsız bir binəva ikicə addımdan sonra ağır daş təki gedir gölün dibinə. Yox-yox, can-ciyər, lazım deyil belə göl, günahsız adamları qərq eləyərlər orda...

Günəş Çapıqqayanın təpəsindən aşıb, dağın dalında gizlənmişdi, yer-yurd axşamın bozumtul kölgəsinə bürünmüşdü. Orxanın gözləri dikilmişdi binənin yoluna, amma orda heç nə görünmürdü. Meşəliyin üstündə ay dikəlib boylandı və Orxanın ümidi artdı. "Bəlkə Bənövşə gəldi?" Bənövşəni tamam itirməyinə Orxan inanmırdı. Qət eləmişdi ki, qızı aparsın burdan. Elə indi, bu gecə, obaşdannan, səhər tezdən – dəxli yoxdu, nə vaxt olur-olsun, təki Bənövşə razılıq versin. Orxan Bənövşədən ayrı yaşamağını ağlına sığışdırmırdı. Yəqin tale onu Bənövşəylə görüşməkçün əldən-ayaqdan uzaq bu dağın başına qəsdən atıb. Orxan Səfanı unuda bilər, görüşdüyü bütün qızları unuda bilər, ancaq Bənövşəni unuda bilməz. Bənövşənin eşqi onun uzun məhəbbət yolunda son dayanacaq, son mənzildi, burdan o yana dibi görünməyən



dərin uçurumdu. Bənövşənin büllurluğu, təmizliyi Orxanı da saflaşdıracaq. Bənövşə Orxana hava-su kimi lazımdı. Qoy Fatma həkim nə deyəcəksə, desin. Lap ağlasın, söysün, danlasın Orxanı. İki ayağını bir başmağa dirəyib inad eləsin ki, "qaytar bu avam, dilbilməz qızı kəndlərinə, mən sənə demişdim, halal süd əmmiş qız al, süd sağan deməmişdim". Bəlkə Fatma həkim heç haray-həşir qopartmayacaq? Bəlkə Bənövşəni görüb bəyənəcək?

Orxan binənin üstündə qızaran aya baxa-baxa köks ötürdü. "Fatma həkimlə dil tapmaq olar, təki Bənövşə gəlib çıxsın".

Orxan bir də baxıb gördü ki, bənövşə gölün sıldırım tərəfində, şapqa günlüyünə oxşayan uzun sal daşın üstündə durub. Qız elə bil qəflətən göydən düşmüşdü. Sevincdən Orxanın gözləri yaşardı. "Öldü var, döndü yoxdu – Bənövşə mənimdi".

Qız qaça-qaça sıldırımı endi, yaxınlaşıb Orxanla qabaq-qənşər dayandı. Sonra keçən dəfəki kimi üzünü onun sinəsinə qoyub, ürəyinin döyüntüsünə qulaq asdı. Orxan da, keçən dəfəki kimi, qızın saçını tumarladı və qəhərdən səsi titrəyə-titrəyə:

– Gedək burdan, – dedi, – aparım səni... Lap indi... Bənövşə başını Orxanın sinəsindən qaldırmadan:

– Yox, – dedi, – qoşulub qaçmaq istəmirəm...

– Bəs mən neynəyim, Bənövşə?

– Adamlarını göndər atamın yanına.

– Birdən mən qayıdanacan səni zorla...

Bənövşə başını Orxanın sinəsindən qaldırıb, onun gözlərinin içinə baxdı.

– Heylə şey olmaz, – dedi. – Yazıya pozu yoxdu: mən səninəm.

Orxan qəhərlənə-qəhərlənə Bənövşənin sadəlövhlüyünə gülümsədi. Qızın inamını qırmamaq üçün dedi:

– Düzdü, yazıya pozu yoxdu, amma genə narahatam.

– Arxayın get, ürəyini buz təki saxla. – Bənövşə barmaqlarını Orxanın yanağında qaysaq bağlamış yaraya ehmalca sürtdü. Sonra dodaqları titrəyə-titrəyə yaradan öpdü. – Yaxşı yol, – dedi və çəkilib aralıda dayandı.

Orxanın qolları boşda qaldı. Orxan bu ayrılıq dəmində Bənövşəni qucaqlayıb bağrına basmaq, dodaqları göynəyənəcən öpmək istəyirdi, ancaq Bənövşə dalı-dalı uzaqlaşırdı ondan

Bənövşə:

– Səni Allaha tapşırıram, – dedi. – Allah amanında ol... Tez qayıt ha.

Bənövşə qaçıb getdi. Sıldırım döşə elə sürətlə dırmandı ki, Orxan onun ardınca söz deməyə macal tapmadı. Ürəyinin guppultusuna qulaq asa-asa dayanıb qaldı. Bir azdan arxadan ayaq səsləri eşidib çevrildi – gələn Atlıxan idi.

Kişi dedi:

– Ay bala, gecə vaxtı cin-şayətin kimi burda nə gəzirsən? Nabələd adamsan, qayadan-zaddan uçub mağmın olarsan... Bu binədən sağ-salamat çıxıb getsəydin, bizim də canımız qurtarardı.

Kişinin danışığında bir inciklik, giley duyulurdu, ancaq Orxan ona cavab vermədi; Orxanın fikri-xəyalı hələ Bənövşənin yanında idi, hələ ürəyinin çırpıntısı səngiməmişdi.

Atlıxan binəyə tərəf yönəldi, Orxan da onun dalınca düşdü. Çınqılları ayaqlarının altında xışıldada-xışıldada bir xeyli getdilər. Atlıxan yeriyə-yeriyə başını çiyni üstdən geri döndərib dedi:

– Bənövşə sənin babın döyül. Qız qəhətliyidi yəni? Şəhərdə o qədər gözəl-göyçək qız var ki...

* * *

Orxan lap sübhdən ev sahibləri ilə xudahafizləşdi. Atlıxanla Güləndam özlərini bikef göstərsələr də sevinirdilər ki, binənin suyunu bulandıran bu çağırılmamış qonaq axırı ki, çıxıb gedir. Day bundan sonra yetim Dəmir rahat nəfəs alar, qarabəxt Ağbəyimin yuxusu ərşə çəkilməz, Rza xəcalətindən başını aşağı salmaz, Bənövşənin də danlanmaqdan canı qurtarar. Həm də şükür olsun tanrıya ki, bu şəhərli gədəsi salamat gedir burdan – yaxşı ki, öldürmədilər bunu – yoxsa çək-çevirdən, sorğu-sualdan yaxa qurtarmaq olmazdı.

Orxan da özünü bikef göstərirdi, amma ürəyində bu sübhün işartısı kimi bir işıq vardı. Ürəyində deyirdi: "Ay qocalar, elə bilirsiniz məndən birdəfəlik canınız qurtarır? Ay qurtardı hay. Sağlıq olsun, bir həftədən sonra burdayam".

-Yerinizi dar eləmişəm, çörəyinizi yemişəm, – deyib Orxan əlini cibinə saldı.

Atlıxan başını buladı.

– Bax, bu olmadı. Biz qonağa çörəyi pulnan vermirik ha. Rəhmətliyin oğlu, bu dağın kəlləsində pul bizim nəyimizə gərəkdi?

Güləndam maşının dalıycan atmaqçün əlində bir sapılca su tutmuşdu, sapılcanı çənəsi bərabərində qaldırıb:



– İnşallah, – dedi, – qismət olsa, ölməsək sağ qalsaq, biz də gədərik Bakıya, sənin yerini dar eləyərik.

"Jiquli" tərpəndi və Güləndam bir sapılca suyu maşının dal şüşəsinə çırpdı. İçəri hələ qızmamışdı, Orxan sübhün soyuğunda üşüyə-üşüyə pəncərədən Bənövşəgilin daxmasına baxdı, amma gözünə ins-cins dəymədi orda.

Çapıqqayaya gələndə Orxanı itlər hürə-hürə qarşılamışdılar, gedəndə də itlər onu hürə-hürə yola saldılar...

Mənzil uzaq idi, fikirlər də uzanırdı, çözələnirdi, gah dolaşıq düşürdü, gah da hardasa qırılırdı. Orxan Bənövşəni xəyalən gətirib qoymuşdu Fatma həkimin yanına. Fatma həkim də gəlinin başına pərvanə kimi dolanırdı. "Əhsən, ay oğul, – deyirdi. – Belə abırlı-ismətli qızı hardan tapmısan? Canıyanmış, gör nə gözəldi... Bəh, bəh, bəh... Ağız balaca, burun balaca, gözlər köşək gözü kimi, özü də elə bil dağ çiçəyidi... Qız deyil, qızıldı bu. Əmdiyi süd də halaldı, sağdığı süd də". Fatma həkim min tərif deyirdi gəlininə, Orxan da sevincindən ürəyi atlana-atlana gülümsəyirdi... Orxan hər gün işdən qayıdandan sonra Bənövşəni gəzməyə aparırdı; parka, dəniz sahilinə, kinoya, teatra, hərdən də kafeyə, restorana, toya, ad gününə. Bir gün belə, beş gün belə, beş ay belə... bir il belə... Sonra Orxan gördü ki, Bənövşə mətbəxdə oturub ərinin yolunu gözləməkdən, tanış yerlərə ayaq döyməkdən təngə gəlib. Gördü ki, Bənövşə şəhərdə darıxır, Bənövşənin işi-peşəsi bələk açıb-bağlamaqdır, səhərdən axşamacan zarıyan körpəni ovundurmaq, əmizdirməkdir. Gördü ki, Bənövşənin yanaqları şaxta vurmuş gül təki solub, gözləri əvvəlki nurunu itirib. Fatma həkim də gəlinindən gen gəzir, elə hey deyinir onun dalınca: "Gözün hara baxırdı ay oğul? Bunu hardan tapıb gətirdin sən? Qanacağı yox, dili-ağzı yox. Nə söz qanır, nə him-cim. Qonaq qarşılaya bilmir, məclis yola sala bilmir, ağzını açanda adam xəcalət çəkir. Bu haranın zırramasıdı, əlindən yır-yığış da gəlmir, döşəmə süpürməyi də bacarmır. Neynirdin bunu gətirib? Bu boyda şəhərdə uşaq doğa bilən bir qız tapmırdın yəni?" Orxan gördü ki, özü də darıxır, daha əvvəlki kimi işdən evə tələsmir, orda-burda ləngiyir, həm də... Gözləri Səfanı gəzir. Ağıla gələsi fikir deyil bu, dost-tanışa deyiləsi söz deyil, belə niyyətə düşmək günahdı, vallah, amma Orxan neynəsin ki, Bənövşə evdə otura-otura Səfa gəlib Orxanın ürəyinə? Allahdan gizli deyil, bəndədən nə gizli: Bənövşə Orxanı Səfa kimi qucaqlaya bilmir, Səfa kimi əzizləyib oxşaya bilmir, Səfa kimi qılıqlı deyil o. Səfanın gözləri də, sözləri də Orxanı onun məhəbbətində uyumağa, dünyanın dərd-sərini unutmağa çağırır. Bə-

növşənin də gözlərindən məhəbbət tökülür, ancaq bu məhəbbətdə mütilik var, adamı təngə gətirəcək itaətkarlıq var. Belə məhəbbət Orxanı yormazmı, fələk? Həm də Bənövşə dağların dərilməmiş, qoxulanmamış çiçəyidir, dupduru çeşmə suyudur, Orxan isə... Yox, yox, heyifdir Bənövşə. Bir ildən, para ildən sonra böyük şəhər onunçün böyük məhbəsə dönər, Gümüşgölün xiffətindən çərləyib ölər Bənövşə. Əfsanələrin mürgü gətirən nənnisində ömür sürən bir qızı həyatın səsli-küylü, qayğılarla dolu qəliz qucağına tullamaq insafsızlıqdır. Balıq sudan qıraqda ölər, vallah. Bənövşə Orxanın dünyasına yad adamdır. Yaddır, yaddır, yaddır...

Az qaldı Orxan sükanı buraxıb, başına ikiəlli qapaz salsın. "Ay sarsaq, nə vaxtacan səhf eləyə-eləyə, özünü aldada-aldada yaşayacaqsan? Axı, bu səhvlərinin əzabını özün çəkirsən. O gölün qırağındakı nə alışmaq idi, nə yanmaq idi? Məhəbbət idimi o? Dəmir kimi pəzəvəngin nə təqsiri vardı ki, ondan mənasız intiqam almaq fikrinə düşüb, günahsız qızın qəlbini yaraladın?"

Bir uca dağın başında bir gözəlin gözləri uzaqlara dikiləcək, əhdpeymanına inandığı bir şəhərli oğlanın yolunu gözləyəcək o. Oğlanın ürəyində, xəyalında gəzdirəcək, yuxularında görəcək, Gümüşgölün kənarında axtaracaq. Oğlan isə ya qaranlıq otaqda, ya kimsəsiz xiyabanda süd bənizli bir qızın şabalıdı saçını tumarlayacaq. "Bizim kəbinimiz göydə kəsilib, can-ciyər. Bir-birimizə elə bağlanmışıq ki, bizi heç fələk də ayıra bilməz". Bəs oğlanın şabalıdı saça tumar çəkən əli göynəməyəcək? Süd bənizli qızın qulağına söz deyən dili göynəməyəcək? Axı, uca dağlar başında ümidli qoyub gəldiyi qaragözlü qız yadına düşəcək. Yadına düşsə, yəqin ki, vicdanı ağrıyacaq. Vicdanı ağrısa, yəqin ki, o ağrıya məlhəm tapacaq. "Mən Bənövşəni yoldan azdırmamışam. Onun məhəbbətini qazanmaqçün hiylə işlətməmişəm. Mən o binəyə getməmişdən qabaq Bənövşə ürəyini ümidlə, məhəbbətlə doldurub, ağ atlı qismətinin yolunu gözləyirdi. Təsadüf məni seçib. Əgər əlahəzrət təsadüf ora başqa oğlan göndərsəydi, Bənövşə "qismətim" deyib onu tutacaqdı. Yox can-ciyər, məndə günah yoxdu. Günah bənövşənin rəngli yuxularındadır".

Bu təsəllidən Orxan, doğrudan da, arxayınlaşdı. Sən demə, ağrıyan vicdanı ovundurmaq o qədər də çətin deyilmiş. Vicdanı sakitləşəndən, uyuyandan sonra Orxan ən müşkül məsələləri həll eləyə bilər. Lap Fatma həkimin inadını qırıb, Səfayla evlənə də bilər. Ayağını yerə bərk dirəsə, Fatma həkimi yola gətirər. Bu vaxtacan özü baş qoşmayıb, çünki ürəyinin ən gizli, ən dərin guşəsindən həmişə bir səs gəlirdi ki,



Səfadan sənə arvad olmaz, onunla evlənməyəcəksən, evlənməyəcəksən, evlənməyəcəksən... Amma indi "Jiquli" də Bakıya gedə-gedə ürəyinə qulaq asdı: ürəyinin ən gizli, ən dərin guşəsindən daha etiraz səsi qalxmadı. Və Orxanın içini qəribə bir sevinc bürüdü. "Gəlirəm, Fatma həkim, təslim ol". Fatma həkimi təslim eləməyin yolunu Orxan bilirdi. Simanın canı sağ olsun. Orxan Yəməndəki bacısına yazacaq ki, "Səfa mənim olmasa, bu dünyadan nakam gedəcəm". Sima da kövrəlib anasına uzun bir namə göndərəcək. Onda Fatma həkim mum kimi yumşalacaq. Fatma həkimçün bütün dünya bir yanadı, Sima bir yana.

Orxan birdən-birə hiss elədi ki, Səfadan ötrü darıxır, maşının sürətini artırdı...

Gecəyarıdan keçəndən sonra "Jiquli" ikinci mikrorayonda, Səfanın yaşadığı binanın qabağında dayandı. Orxan üçüncü mərtəbədəki pərdəli pəncərəyə baxa-baxa maşından düşdü. Otaqda işıq yanmırdı. Orxan pilləkənləri qaça-qaça qalxdı.

Nə illah elədi, açarı açar yerinə sala bilmədi. Mərtəbənin işığı yanırdı və Orxan bu işıqda baxıb gördü ki, qıfıl dəyişilib; qıfıl onun qoyub getdiyi qıfıl deyildi. Orxan bir az keyikib qaldı, sonra başladı qapını yumruğu ilə döyməyə. Döydü, döydü... Qulaq asdı: içəridə səs-səmir eşitmədi. Heç ağlına da gətirmədi ki, Səfa harasa gedə bilər. Əgər Səfa bu vədə evində yoxdursa, demək, başında bir iş var onun. Orxan qapını bərk-bərk yumruqladı. Yenə nəfəsini içinə çəkib dinşədi. Dəhlizdə elektrik düyməsi çıqqıldayanda Orxanın ürəyi üstünə gəldi. Açar iki dəfə buruldu, sonra zəncir şaqqıldadı və qapı azacıq aralandı. Orxan qapının arasında bir cüt yuxulu göz gördü, düyünlənmiş aypara qaşlar gördü, elə bildi ünvanı səhv salıb. İstədi geri dönsün, birdən aypara qaşlar tanış gəldi ona. Orxanın içində elə bil nəsə qırıldı. Orxan, boynunun dalından başlayıb dabanınacan uzanın zoqqultudan, ağrıdan tıncıxa-tıncıxa:

– Ay köpəyoğlu! – deyib, əlləri əsə-əsə qapını itələdi; qapı zəncirdə idi, açılmadı.

Yavər o tərəfdən kal səslə:

– Ağzını təmiz saxla, – dedi.

Orxan qapının dəstəyindən yapışdı, bilmədi haray-həşir qopartsın, ya yox. Hirsindən boğula-boğula:

– Səfanı çağır, – dedi.

– Səfa yatıb.

– Dedim, Səfanı çağır!

– Dedim, Səfa yatıb!

Orxanın boğazı quruyub göynədi.

– Bu dəqiqə qapını sındırıb, ikinizi də öldürrəm!

Yavər eynini də pozmadı, arxayın-arxayın dedi:

– Səfa sənin kəbinli arvadın döyül... Day bura gəlmə! Eşitdin? Biz sabah ZAQS-a gedirik... evlənirik... Bir də bura ayaq bassan, özündən küs.

Orxan qapının arasından içəri boylana-boylana çağırdı:

– Səfa!.. Səfa!.. Səfa!...

Qapı Orxanın lap burnunun qabağında çırpılıb bağlandı. Orxan az qaldı hönkürüb ağlasın, ürəyini əzib-ağrıdan hirsi-hikkəni, incikliyi gözünün yaşına qatıb axıtsın, bəlkə ürəyi bir az boşala, rahatlana. Burda qalıb deyişməyin, savaşmağın nə mənası? Bu andan dünyada onunçün Səfa adlı adam yoxdu. Səfa ölüb, Orxanın qəlbində bu itkinin ancaq göynərtisi qalıb. Ölü ilə haqq-hesab çəkməzlər.

Orxan çöldə, binanın qabağında xeyli dayandı; hələ özünə gəlməmişdi, hələ içindəki əsməcə sengiməmişdi. Yaxasını açdı, sinəsini mehə verdi. Sonra sükanın arxasında oturdu...

Mirzə Muxtarın evinin qabağında, "Jiquli" nin içində Orxan səhəri dirigözlü açdı. Yorğun idi, qulaqlarında qıjıltı vardı, amma ürəyi sakitləşmişdi, daha gecəki təki göynəmirdi. Orxan ağlının bir az sərin vədəsində fikirləşib özünü inandırmışdı ki, Səfada günah yoxdu, Səfa onu çox gözləyib, onun şıltaqlığına da, soyuqluğuna da gücü çatanacan dözüb. Orxan öz cəzasını çəkir. Əsl xəyanətkar Orxan özüdür. Dağlarxanın dövrü olsaydı, bu günahı üçün Orxanı Gümüşgöldə batırardılar. Səfa xəyanətə cavab verib... Bəs kövrək, büllur Bənövşə bu ağrıya, əzaba necə dözəcək?.. Orxan içində qaynayan bu suala xəcalət çəkə-çəkə cavab axtarırdı. Və xəcalət çəkə-çəkə fikirləşdi ki, ürəyi məhəbbətlə dolu bir qızı bu dünyada xoşbəxt eləsə, özü də xoşbəxt olar. Bəlkə Bənövşə, doğrudan da, taleyin yazısı ilə onun bəxtinə düşən qismətdi? Sevdiyi adamı başqasına dəyişə bilən Səfa Orxanın nəyinə lazımdı? Orxan Çapıqqayadan şəhərə gələrkən, yolda avara-sərgərdan fikirlərlə özünü nahaq aldadıb, ürəyinin ən gizli, ən dərin guşəsindən gələn etiraz səsini nahaq boğub. Səfadan ona arvad olmaz. Orxana Bənövşə lazımdı. Bənövşə ona hava-su kimi gərəkdir. Orxan tərəddüdünə, şübhələrinə son qoymalıdır, hərdəmxəyallığın daşını atmalıdır. Bir sözlə, Orxan kişi olmalıdır.

Və Orxan elə burda – Mirzə Muxtarın evinin qabağında, maşının içində qərara aldı ki, bu gündən bütün qüsurlarının, günahlarının dalınca bir qara daş atır, bu gündən Bənövşəyə layiq bir insan kimi ömür sürəcək. Mərhum Mirzə Muxtarın evinin qabağında bu gün dünyaya yeni bir Orxan gəlib. Qədəmləri mübarək! "Səfanın acığına, bütün xəyanətkarların acığına, lap öz acığıma da Bənövşəni alacam. Qoy Səfa da, Yavər də görsünlər ki..."

Orxan sinə dolusu nəfəs alıb Mirzə Muxtarın eyvanına baxdı. Pəncərənin qabağında sarışın bir qadın saçını darayırdı. Əvvəllər rəhmətlik Mirzə Muxtar dayanardı orda, qəlyanını tüstülədə-tüstülədə qollu-şaxəli tut ağacına saatlarla tamaşa eləyərdi. Tut ağacının budağı eyvana toxunardı... Orxan baxıb gördü ki, eyvana budaq-zad toxunmur, gördü ki, Mirzə Muxtarın evinin qabağı açıqlıqdır. Tut ağacı sərələnmişdi meydançaya. Torpaqdan dartıb çıxartdığı sarımtıl rişələri əyri-üyrü caynaqlara oxşayırdı. Yəqin ki, küləyin işi idi bu; Mirzə Muxtarın atasının yadigarı Xəzər küləyindən savayı heç kimə, heç nəyə can verməzdi. Orxan məyus-məyus fikirləşdi ki, Mirzə Muxtarın nəsli-kökü daha yer üzündən kəsildi.

Süpürgəçi Səlimcan qabağına bozumtul, çirkli önlük bağlayıb tut ağacının həndəvərini süpürürdü. Ağazəki də kürəyini balaca ərzaq mağazasının örtülü qapısına söykəyib ona baxırdı. Ağazəki bərkdən dedi:

– Səlimcan! İstəyirsən səhər-səhər sənə sveji bir sual verim: o hansı ölkədi ki, orda cəmi-cümlətani otuz soldat var, onlar da kralın keşiyini çəkirlər?

Səlimcan əl saxlayıb gülə-gülə Ağazəkiyə cavab verdi:

– Elə o bizim evdi, znaçit. Hamısı oturublar, znaçit, ağızlarını açıblar. Gözləyirlər, mən qazanım, znaçit, onlar da ötürsünlər.

Sonra Ağazəki, deyəsən. Təzə sual verdi, amma Orxan onun dediyini eşitmədi, çünki Baton elə bu dəm maşının qapısını açıb oturdu Orxanın yanında və oturan kimi soruşdu ki:

– Qərdeş, maşın nöş palçıqlıdı?

Orxan onun hara getdiyini bilirdi, yenə xəbər aldı ki:

– Səhər-səhər hara gedirsən?

Baton yuxulu gözlərini qardaşının üzünə zilləyib yorğun-əzgin dedi:

– İşə gedirəm... amma bu gün deyəsən işləyə bilməyəcəyəm, qərdeş, canım yaman ağrıyır. Neçə gündü başımda səs var.

Orxan əlini Batonun çiyninə qoyub:

– İşə getmə, – dedi. – Yat, istirahət elə, dincəl.

– Getməsəm, olmur. Metroda o qədər qoca arvad-kişi var ki. Hamısına gərək yer düzəldəsən. Bunlar bu qədər hardan çıxır, qərdeş? Qocalar evlərində oturmurlar, qarışqa kimi doluşurlar metroya... Zəmbilli, sumkalı... Müsibətdi, vallah, yorulmuşam day.

Orxan qardaşının şişkin gözlərinə, solğun bənizinə baxdı.

– Bədbəxt, – dedi, – ac-susuz metroda nə gəzirsən? Təzyiqin qalxar, ölərsən. Getmə ora.

Qardaşının məsləhəti, deyəsən, Batonun ağlına batmadı. Baton söhbəti dəyişdirmək istədi.

– Professor, bu nə saqqaldı qoymusan? – dedi, sonra səsini alçaldıb soruşdu: – Məktubun-zadın varsa, ver aparım.

Orxan üzünü meydançadakı ölü ağaca tutub fikirləşdi ki, Bənövşənin atasının yanına özü tək gedəcək.

Baton maşından düşə-düşə:

– Sima posılka göndərib, – dedi. – Əntiqə köynəklər, qalstuklar...

Orxan metroya tələsən qardaşının dalınca baxa-baxa bu qərara gəldi ki, Bənövşə barədə Fatma həkimə hələlik bir söz deməsin.

Atlıxan Orxanın əlini yerdən-göydən üzdü.

– Nahaq gəlmisən, – dedi. – Day Bənövşə sənə lazım döyül. İndi Bənövşəyə Dəmirdən savayı heç it də yiyə durmaz.

Orxan anlaya bilmədi ki, kişi nə deyir, nədən danışır.

– Başa düşmədim, – dedi.

Və Atlıxan onu başa salmağa çalışdı.

– Qızı korlayıb Dəmir.. ləkələyib onu.

Orxan yenə heç nə başa düşmədi.

– Niyə? – dedi.

Atlıxan Orxanın kallığına, keyliyinə təəccüblənirmiş kimi çiynini çəkdi.

– Day bunun niyəsi yoxdu ki? Qız səni görüb ağlını itirmişdi. Sən yığışıb gedəndən sonra da gölün qırağından əl çəkmirdi. Gecə də gedirdi ora, gündüz də. Dəmir pusub onu. Günün günorta çağı yaxalayıb orda. Deyib, köpəyin qızı, elə eləyəcəyəm ki, səni mənnən savay heç kəs almasın. Ayı kimi şeydi Dəmir. Qızı basmarrayıb, yıxıb altına... Yazıq qız binəyə ağlaya-ağlaya gəlmişdi, əynində bircə alt paltarı vardı, o da cırıq-cırıq.

Orxan, doğrudan da keyləşmişdi. Gözlərini kişinin ağzından çəkmirdi. Kişi görürdü ki, Orxan ondan, nəsə, yenə söz gözləyir, amma kişi mətləbi deyib qurtarmışdı, bilmirdi dediklərinə nə əlavə eləsin. Başını bulaya-bulaya Dəmirin qarasınca deyindi.

– Namərd oğlu, namərd...

Orxan daha heç nə soruşmadı. Baxıb gördü ki, axşam düşür. Gözlərini uzaqda qaralan Çapıqqayaya dikib fikirləşdi ki, tale insanı necə çətin sınaqlara çəkirmiş. Adam bircə günün, bircə saatın kəşməkəşindən ölə bilər, vallah. Belə zərbəyə dözmək üçün gərək o Çapıqqaya kimi möhkəm olasan.



Orxan Cümüşgölə tərəf addımladı. Daxilində özünü də təəccüblləndirən bir sakitlik vardı. "Gələcək! Mütləq gələcək!.. Heç şübhəsiz, mənim burda olmağımdan xəbərdardı. Yəqin maşını görüb..."

Bənövşə binə tərəfdən yüyürə-yüyürə gəldi, çatan kimi də soruşdu:

– Çoxdan burdasan?

Orxan dinmədi. Atlıxanın söylədiyi əhvalat dilini bağlamışdı onun.

Qız yaxınlaşıb Orxanın lap çənəsinin altında dayandı.

– Birdəfəlik gəlmisən? – dedi.

Orxan gölün üzündə ayın səyriyən əksinə baxa-baxa kəkələdi.

– Yox... gəlmişəm... gəlmişəm ki... səni aparım...

Bənövşə başını buladı. Orxandan iki-üç addım aralanıb əllərini arxasına qoydu.

– Gedə bilmərəm, – dedi. – Bəs buranı kimin umuduna qoyum?

Bənövşəni əbədi itirməyinə Orxan indicə inandı. İnandı ki, Bənövşə onun qisməti deyil, Bənövşə qəflətən onun əlindən uçmuş bir quşdur, o quşun qanad çaldığı yüksəkliyə qalxmağa heç vaxt Orxanın gücü çatmayacaq. Orxan elə bil yüz ilin yuxusundan ayıldı. Ömründə ilk dəfə özünə yazığı gəldi, ömründə ilk dəfə özündən zəhləsi getdi və ömründə ilk dəfə özünü bədbəxt hesab elədi. Düşündü ki, xoşbəxtliyi siniyə qoyub adamın hüzuruna gətirmirlər, xoşbəxtlik göydən adamın başına yağış kimi, dolu kimi yağmır. Xoşbəxtliyə gedən yolda neçə-neçə uçurum var...

Bənövşə:

– Sən burda yaşaya bilməzsən, – dedi.

Və Orxan fikirləşdi ki, Bənövşə də bədbəxtdir. Bənövşə ona görə bədbəxtdir ki, Orxan bu dağların başında ömürlük qala bilməz. Bənövşə ona görə bədbəxtdir ki, mavi yuxulara inanır. Orxan istədi desin ki, "yuxulara inanma, Bənövşə, xızırlara aldanma". Orxan çox söz demək istədi, ancaq deyə bilmədi, çünki ürəyi ağrıyırdı, ürəyinin ağrısı nitqini batırmışdı onun. Orxan boğazına tıxanmış qəhəri boğa-boğa soruşdu:

– Düzdü o?.. O əhvalat?

Qız aralıda dayanmışdı, elə bil bir yanını qaçaraq qoymuşdu. Səsi də öz səsinə oxşamırdı:

– Hansı əhvalat?

– O alçaq... səni... Dəmir...

Bənövşə sanki onun qırıq-qırıq kəlmələrindən heç nə anlamadı. Ayrı söz dedi:

– Anamı tək qoya bilmərəm. Yazıqdı...

Qızın laqeyd, süst danışığından Orxan heyrətləndi, az qaldı hönkürüb ağlasın. Elə ağlamsına-ağlamsına da soruşdu:

– Düzdü o?.. Bənövşə... Bəlkə böhtandı? Niyə dinmirsən?

Qız dedi:

– Başa düşmürəm, nədən danışırsan... Bilmirəm nə soruşursan məndən.

Qara, iri bir quş gölün üstündə dövrə vurdu. İnsan səsinə bənzər səs çıxarda-çıxarda uçub getdi. Səs kəsiləndən sonra Bənövşə dedi:

– Mən heç kimə ərə getməyəcəyəm... heç kimə.

Qız gölə tərəf yeridi. Gedə-gedə donunun ətəyini çırmalayıb əlində tutdu. Sonra gölə girdi. Bir addım, iki addım... beş addım getdi... Orxan gördü ki, Bənövşə batmır, Bənövşə suyun üzü ilə narın-narın yeriyir. Orxanın boğazı qurudu, ürəyi az qaldı sinəsini partladıb çıxsın.

Bənövşə suyu ayaqlarının altında ehmalca şappıldada-şappıldada yeriyirdi. Gölün üzündə ayın səyriyən əksinə çatanda qanrılıb Orxana baxdı. Ayın haləsində bir qədər dayandı.

Orxan nəfəsinin batacağından qorxurmuş kimi, bütün gücü ilə qışqırdı:

– Bənövşə! – Gölə girdi, ikicə addım atmışdı ki, su dizlərinə qalxdı. Tez sahilə çıxıb bir də qışqırdı. – Bənövşəəə!!!

Bənövşə elə bil bu səsdən diksinib ayın haləsindən çıxdı və təzədən başladı gölün üstü ilə yeriməyə. Yeridi, yeridi, gedib o biri sahilə çıxdı və binəyə tərəf qaçdı.

Bənövşənin qaraltısı gözdən itənəcən Orxan onun ardınca baxdı. Elə bildi yuxu görür. Axı, adam bəzən yuxu gördüyünü yuxuda bilir. Orxan qıçları əsə-əsə yaxınlıqdakı daşın üstündə oturub, yuxudan ayılacağı dəqiqəni gözlədi.

*Ağcabədi – Bakı*
*1982-83*



# HEKAYƏLƏR

# OĞUL

– Görəsən bu uşaq harada qaldı?

Arvad cavab əvəzinə köksünü ötürdü. Fərrux yorğanı üstündən atıb dikəldi. Ayaqlarını çarpayıdan salladı. Xeyli sükutdan sonra üzünü yanında uzanmış arvadına tutdu:

– Əminə, sən də bilmirsən Tahir bu vaxtacan haralarda gəzir?

Əminə yorğanın altında büzüşüb böyrü üstə çevrildi.

– Bilmirəm, kişi, bilmirəm.

– Bəs niyə xəbər almırsan?

– Deyir, yoldaşlarımnan imtahana hazırlaşıram.

Fərrux başını buladı. Otağa süzülən ayın solğun işığı onun qansız sifətinə bir sarılıq da yaymışdı. O, əllərini çarpayıya dayayıb qalxdı. Sol ayağını döşəmədə sürüyə-sürüyə pəncərəyə tərəf getdi. Alnını şüşəyə dirəyib boş, sakit küçəyə baxdı. "Naxoş olmasaydım gedib Tahiri axtarardım, – deyə düşündü. – Axı, bu iflic məni haradan tapdı? Bəlkə mən xəstə olduğum üçün Tahir istədiyini eləyir, məni gücsüz görüb daha qorxmur, çəkinmir?..". O, özünü doğrudan da gərəksiz bir adam zənn etdi. Bu fikirdən Fərruxun qəlbində özünə qarşı acıq dolu bir narazılıq yarandı. O, bütün bəlaların səbəbini sürünən sol qıçında gördü və əsəbiləşdi. Həkimin sözlərini xatırladı. "Sizə əsəbiləşmək olmaz, qətiyyən olmaz". Fərrux ürəyini toxtatmağa çalışdı. "Tahir belə özbaşınalıq eləməzdi. Evə gec gəlməzdi. İcazəsiz bir yerə getməzdi. Bəs indi nə oldu? Bir aydır, evə vaxtlı-vaxtında qayıtmır. Bilmir ki, bəyəm, mən xəstəyəm, narahatam?..".

Fərrux pəncərədən aralandı. Gəlib çarpayının küncündə əyləşdi.

– Gör saat neçədir, – deyə yatağının içində fikrə getmiş arvadına yenidən müraciət etdi. Əminə durub işığı yandırdı. Ərinin stolun üstündəki qol saatına baxdı. Yuxusuzluqdan kallaşmış səslə dedi:

– İkidir, üçdən beş dəqiqə işləyib...

Fərrux qızarmış gözlərini oğlunun divardan asılmış şəklinə zillədi, dərindən köksünü ötürdü. Onun hüznlü baxışında, tutqun sifətində açıq-aydın bir sual oxunurdu: "Haradasan, Tahir? Axı, mən nigaranam, oğul!".

Fərrux güclə nəfəs alırdı. Əminə işığı söndürdü. Yorğanı götürüb ərinin çiyninə saldı. Kişi astadan, qırıq-qırıq danışdı.

– Əminə, mən ona söz deməyə utanıram. Yekə kişi olub, bığ saxlayır, üzünə ülgüc vurdurur. Daha uşaq deyil. Sən anasan, onunla açıq danış. Mənim adımdan de ki, belə olmaz, dərslərini oxusun. Hələ institutu qurtarmağına iki il var.

– Ay Fərrux, bəlkə elə Tahir doğrudan da dərs oxuyur. Səbirsizlik eləmə, indicə gələr.

– Elə bilirsən onun haralarda gəzməyindən xəbərim yoxdur? Başa düşürəm harda ləngiyir, amma deməyə dilim gəlmir... Əminə, qorxuram uşaq bir para cavanlara qoşulmuş ola.

– Tahir pis yola getməz, Fərrux

– Nə bilirsən?

– Deyirsən, yəni bir qıza-zada ilişib?

– Qıza ilişsə yaxşıdı. Mən qorxuram bir yanı-qoduqluya dadanmış ola, sonra düşə əngələ, dərsdən soyuya. Bu saat onun beyninin qan vaxtıdı. Heç nəyin ağına-bozuna baxmır.

Ağlım kəsmir, – deyə Əminə inamla dilləndi. Amma bir azdan Fərruxun narahatlığı ona da keçdi. – Deyirsən, yəni...

– Ayrı nə ola bilər? Bu qız məsələsi deyil. Ağlı başında olan qız bu vaxta qədər küçədə qalmaz. İmtahana hazırlaşmağı deyirsənsə, ona da inanmıram. İndiyəcən belə hazırlaşmaq görmüşdün?..

– Uşağın babalını yuma.

– Məni hövsələdən çıxarma, Əminə. Burda sən bilən şey yoxdur. Oğlunun tənbehini ver, yoxsa...

– Bir səbrin olsun, a kişi...

– Necə səbir eləyim, rəhmətliyin qızı? Biz gözümüzü açınca nəf qudurub mayanı yeyəcək... Onun nə vaxtıdır ki, bildiyini edir?! Atanı saymır, ananı vecinə almır.

Bayaq pəncərənin qabağında dayanarkən onun ürəyini bir tikəyə döndərən qəzəb yenidən coşdu. Fərrux yumruğunu düyünləyib sağ dizinə çırpdı. Elə bil quru ağac parçaları bir-birinə dəyib şaqqıldadı.

– Məni saymır... Mən ona göstərərəm! Onda bilər ki...

Qapının zəngi çalındı. Kişinin bədəni gərildi. Əminə cəld ayağa qalxdı. İşığı yandırdı. Qapını ehmalca açdı. Tahirin gülümsəyən sifəti göründü.

Fərruxun uzun, sümüklü sağ qolu havada qolaylanıb astanada oğlanın üzünə çırpıldı. Qəflətən aldığı zərbədən Tahirin gözləri böyüdü. Kişi müvazinətini saxlaya bilməyib səndələdi. Tahir qüvvətli əlləri ilə atasının belindən yapışıb onu yıxılmağa qoymadı. Əminə özünü yetirdi.



– Fərrux, tifilin bağrını niyə yarırsan?

Kişi oğlunun qolları arasından çıxdı. Divardan tuta-tuta yataq otağına keçdi. Çarpayıya uzandı. Ürəyi az qalırdı yerindən çıxsın. Gicgah damarları hey atırdı. Sağ əlinin içində zoqqultu vardı. O, birdənbirə taqətdən düşdü. Elə bil canında olan-qalan güc oğluna vurduğu zərbə ilə qurtarmışdı. Yenə həkimin tövsiyəsini xatırladı. "Sizə əsəbləşmək olmaz..."

Fərrux xəyalən cavab verdi: "Bu mümkün deyil, həkim. "Görürsünüz ki, mümkün deyil..."

Mətbəxdə stəkan-nəlbəki cingildədi. Asta, həzin pıçıltılar eşidildi. Aradan xeyli keçmiş Əminə Fərruxun çarpayısına yaxınlaşdı.

– Onu niyə vurdun, Fərrux?

– ...

– Necə qıydın? – Əminənin səsi titrədi. Fərrux hiss etdi ki, arvadı ağlayır. – O, işdən qayıdırmış, Fərrux, biz bilməmişik...

Fərrux qulaqlarına inanmadı.

– Necə? – deyə soruşdu və səsi xırıldadı.

Əminənin əlində nəsə xışıldadı.

– Onun ilk maaşıdır. Sənin vəziyyətini belə görüb, işə girib... gecələr...

Əminə sözünün dalısını deyə bilmədi. Yatağına girib yorğanı başına çəkdi, yorğan titrədi.

Fərruxun heydən düşmüş bədənini tər basdı. Sağ əlindəki zoqqultu acı, ağır bir düyün olub ürəyinə keçdi. Sevinclə peşmançılığın qarışığından doğan qəhər onu da boğdu.

*1964*

## DUZ

Seymur paltosunu geyinib qapının ağzında dayandı. Anası balaca qara çamadanı və içi dolu həsir zənbili gətirib onun qarşısına qoydu. Oğlan şeylərə tərəf baxmadı. Gözlərini anasının yanına sallanmış damarlı, quru əllərinə zillədi. Sonra onu umacaqlı baxışla süzdü. Firuzə oğlunun fikrini anlayıb gülümsədi. Əlini dirsəkdən ilməsi qaçmış sarımtıl, nimdaş jaketinin cibinə saldı.

– Al, hələlik bunu xərclə...

Seymur səliqə ilə bükülmüş pulun arasını açdı. Üç dənə qırmızı onluğu görüb qaşqabağını tökdü. Gah ovcundakı pula, gah da anasına baxdı. Ayrılıq dəqiqələrində ürəyini sarmış kövrəklik əriyib getdi. Deyəcəyi vida sözləri qırılmış zəncir halqaları kimi beynində dağıldı, pərən-pərən düşdü. Gözucu anasının ciblərinə baxdı. "Bəlkə yenə verdi?.. Bəlkə..."

Firuzə sanki oğlunun titrəyən barmaqlarını görməmək üçün üzünü döndərdi. Baxışları həsir zənbilin üstündə dolandı:

– Maşın küçədə səni gözləyir.

Seymur qırmızı onluqları ovcunda sıxıb yumruladı:

– Otuz manatla hara gedim?

Firuzə istədi oğlunun hirsini dağıtsın, könlünü alsın. Gülümsədi. Və tez də peşman oldu; anladı ki, bu təbəssüm Seymurun olan-qalan səbrini çalxaladı, daşdırdı.

Oğlan pulu stolun üstünə atdı:

– Bilsəydim belə olacaq, heç qış tətilinə gəlməzdim. Başqaları öz uşaqlarını ağıllı-başlı yola salırlar.

Ana köks ötürdü.

– Bizim də gücümüz buna çatır.

– Elə bilirsiniz tələbə olmaq asandır? Şəhərdə dolanmaq asandır?

Seymurun səsi də titrədi, dodaqları da. Atası ilk dəfə onun nəzərində adiləşdi, balacalaşdı. "O da gedib özünə sənət tapıb. Poçtalyonluqdan nə çıxar? Otuz ildir onun-bunun qapısına məktub daşıyır. Cibləri də boş".

Firuzə istəmirdi ki, Seymur evdən narazı getsin. İstəmirdi ki, bu vida dəqiqələri sonralar ağır daş olub ürəyindən asılsın. Ana oğlunu məhəbbətlə süzdü. "Arıqlayıb Seymur. Rəngi də ağarıb. Ağız-burnu nəcimləşib. Yəqin çətinlik çəkir, doyunca yemir. Neynəsin, yanında anası yox, bacısı yox".



Ana ayrılığın, həsrətin dad-tamını bilirdi. Altı aydan bəri gecəli-gündüzlü bütün fikri-zikri oğlunun yanında olmuşdu. Bircə qismət çörək yeyəndə də, bircə içim su içəndə də Seymuru xatırlamışdı: Görəydim günləri necə keçir balamın!".

Seymurun tətildə olduğu müddətdə ana onunla üz-üzə çox oturmuşdu; doymamışdı. Firuzə bu ayrılıq anını qorxa-qorxa gözləmişdi. Özünə söz vermişdi ki, Seymur yola düşəndə ağlamasın. "Uşaq birdən könlü qırıq gedər".

– Bacarmırsınız, oxutmayın. Hələ birinci kursu qurtarmamışam. Bəs beş il məni necə dolandıracaqsınız?!

Firuzə cavab verə bilmədi. Ürəyində ərinin qarasına deyindi: "Heç olmasa gəlib uşağı yola da salmadı. Bu yağışlı gündə çantasını atıb getməsəydi dünya dağılmazdı ki!"

Küçədə maşın siqnal verdi. Ana stolun üstündən əzik pulları götürüb Seymura uzatdı:

– Al, bala, dəlilik eləmə.

– İstəmirəm!

– Axı təqaüd də alırsan.

– Ondan sizə nə?! Aldığım ayın başına çatmır. Ac qalanda kimin qapısına gedim?! Elə bilirsiniz yeməkdən savayı xərclərim yoxdu?

– Biz də atanın maaşı ilə dolanırıq, bala. Axı səndən başqa evdə iki bacın da var.

– Məni adam yerinə qoymursunuz. Şəhərdə batsam da vecinizə gəlməz.

Maşın uzun-uzadı siqnal verdi. Seymur şəhadət barmağını çiyni üstdən qapıya tuşladı:

– Uşaq oxudan elə olar. Oğlunu öz maşınında stansiyaya göndərir. Mən də onun qoltuğuna qısılmışam. Mənim atam...

Firuzənin ərinə yazığı gəldi. Cansız-cəsədsiz kişinin bu yağışlı, küləkli gündə palçığa batıb qalacağından qorxdu. Naxoşlayıb yatağa düşəcəyindən qorxdu. "Pay-piyada nə qədər gəzmək olar?" Ayaq döyməkdən bədbəxtin canının suyu da quruyub. Bir dəridir, bir sümük... Gör neçə ildir... Gör ha".

Yenə siqnal səsi eşidildi; dalbadal, əsəbi Seymur çamadanın qulpundan yapışdı. Ana yalvardı:

– Ağrın mənə gəlsin, pulu al. Yenə tapıb göndərərik. Bir az... qənaətlə xərclə, israfçılıq eləmə.

– Yoxsa bu vaxta qədər gen-bol xərcləmişəm?! Bilirsən borc almaq nə deməkdir?! Şəhərdə olmusan? Bir stəkan suyu da pulsuz vermirlər.

– Al, bala.

– İstəmirəm! – Oğlan zənbili də götürdü.

Firuzə əzilib yumrulanmış pulu Seymurun paltosunun yan cibinə saldı.

– Dərdin mənə gəlsin.

Oğlan anasının ağarmış, xəstəhal çöhrəsinə baxdı. Titrəyən qansız dodaqlarına baxdı. Onun gözlərindəki nəmi sezmədi. Ürəyinin ağrılı-acılı döyüntüsünü eşitmədi. Qapını itələyib çıxdı.

Küləyin əydiyi çəpəki yağış ananın üzünə, sinəsinə nöqtə-nöqtə çırpırdı...

"QAZ-69" tərpəndi. Seymur yanındakı yoldaşının adda-budda suallarını cavabsız buraxdı. Gözlərini maşının aramla, xışıltı ilə işləyən şüşətəmizləyəninə dikib fikirləşdi: "Dedilər, orta məktəbi qurtaranda sənə bahalı kostyum alacağıq. Əvəzində altmış manatlıq ucuz kostyumu aldılar. Dedilər, instituta girsən sənə qızıl saat alacağıq. Almadılar. Saat üçün cəmi-cümlətani iyirmi beş manat göndərdilər. İndi də... Pulları yoxdur, mənə nə? Haradan tapırlar-tapsınlar. Nə vaxta qədər qorxa-qorxa, qənaətlə xərcləyəcəyəm?.. Atam məni ötürməyə də gəlmədi... Verdikləri otuz manatı Bakıya çatan kimi poçtla geri göndərəcəyəm".

Maşın dikə dırmaşan palçıqlı yolu güclə çıxdı. Üzbəüz gələn bir kişi əl qaldırdı, sonra dərənin dibini göstərib nəsə qışqırdı. Sürücü maşını saxladı. Qapını açıb aşağıya baxdı.

– Seymur, deyəsən, anandır, dalımızca yüyürür.

"Görəsən nə olub? Məni neynəyir?" Seymur maşından düşdü. Təzə qəhvəyi tuflilərinin palçığa batacağından ehtiyat edib, təmiz yer seçə-seçə ayaqlarının ucunda təpənin üstünə gəldi. Qara şala bürünüb dikə dırmanan anasını gördü. Arvad kəsə yolla sürüşə-sürüşə qalxırdı. İki dəfə büdrəyib dizlərini yerə verdi. Sağ əlini tez-tez başının üstünə qaldırıb yelləyirdi.

Yağışın suyu oğlanın boynuna, bədəninə süzüldü. Əti çimçişdi. Silkələnib geri döndü. Ayaqlarını ehmalca qoya-qoya özünü maşına saldı. "Pul gətirir, qoy gətirsin".



– Bəlkə qabağına gedək? – deyə yoldaşı soruşdu.

– Çatıb. – Seymur üzünü, boynunu yaylıqla sildi, sarı, tüklü papağını çıxarıb çırpdı.

Firuzə oğlu tərəfdəki açıq dal qapıya özünü güclə yetirdi. Bənizi ağappaq idi. Nəfəs aldıqca bütün bədəni uçunurdu. Qurumuş boğazını yaşlamaq üçün tez-tez udqunurdu. Seymur anasının hədəqədən çıxmış nursuz gözlərinə baxdı:

– Nə olub?

Arvad ovcunda tutduğu bükülü kağızı Seymura uzatdı. Oğlan kağızı əlinə alıb barmaqları ilə yoxladı:

Firuzə sanki son nəfəsini topladı:

– Sənə zənbildə... soyutma toyuq... yumurta qoymuşam... Duz yadımdan çıxmışdı. Elə yerə qoy... islanmasın.

Seymur ağzını geniş açıb ciyərdolusu hava udan anasının göyərmiş nazik burnuna baxdı. Onun üzündəki ifadəni yağış tellərinin arxasından sanki daha aydın görmək üçün gözlərini qıydı. "Bunlar məni dolayıblar. Bunlar məni adam saymırlar".

Oğlan əlindəki kağız bükülüsünü yerə çırpıb, qapını zərblə çəkdi: Maşın tərpəndi. Təkərlərdən qopan horra palçıq yola səpilmiş narın ağ duzun üstünü tamam örtdü...

*1968*

## TALİSMAN

Ağarəhim Borçalıda cəmi-cümlətani bircə gecə qaldı. Bu da işdir sən allah, dünən gəl, bu gün qayıt. Gərək, heç olmasa, üç-dörd gün gəzəydi burda, üç-dörd gün Bakının basabasından səs-küyündən uzaq olaydı. Borcalının "qaymaq" havasından udaydı, "bal" suyundan içəydi. Ağarəhim könülsüz-könülsüz "Jiquli"yə oturanda qayınanası yalvardı ki, "qal, getmə". Ağarəhimin əvəzinə arvadı Pərvanə cavab verdi: "Getməlidi, – dedi, gərək ponidelnik işdə olsun". Ağarəhim ürəyində: "Tüpürüm ponidelnikə", – deyib maşını tərpətdi, amma başa düşdü ki, "ponidelnikə" tüpürə bilməz, çünki "ponidelnik" institutda olmalıdı, axşam şöbəsinin tələbələrindən imtahan götürməlidi...

Sağ-solunda yastı, bomboz təpələr görəndə Ağarəhim anladı ki, maşında tək-tənha uzaq yol getmək müsibətdir. Gələndə arvad-uşağı yanında idi və onda elə bil buralar belə bozumtul, belə qərib deyildi, yol belə əyri-üyrü, dolanbac deyildi, asfalt adamın gözünün toyşunu aparmırdı. Gələndə təkərlərin səsi eşidilmirdi, amma indi şırıltıya qulaq as; elə bil şəlalə şırıltısıdı, adama layla çalır, mürgü gətirir. Ağarəhim fikirləşəndə ki, hələ qabaqda dörd yüz kilometrdən çox yol var, başladı darıxmağa, təntiməyə və o dəqiqə də başa düşdü ki, bu qədər yolu darıxa-darıxa getmək olmaz – adamın bağrı partlayar, vallah. Özünə ürək-dirək verdi, toxtaq olmağa çalışdı. Cəhənnəm olsun yolun ağlığı da, uzaqlığı da. Təptəzə "Jiquli"nin əlində dörd yüz kilometr yol nədir ki? Qaldı təklik məsələsi – onun da çarəsi var. Radioqəbuledicini aç, səsi gəlsin, ya da maqnitofonu işə sal, kefin nə qədər istəyir, oxusun səninçün. Bəs maqnitofonu nədən ötrü almısan, atam-qardaşım, Yapon maqnitofonu üçün alverçiyə min manatı niyə vermisən?

Ağarəhim maqnitofonun ağzındakı kaseti barmağı ilə qabağa basdı və türk qızının sərxoş kişi səsinə bənzəyən boğuq, yorğun səsi maşının salonuna dolub, təkərlərdən qopan şəlalə şırıltısını batırdı.

Benim könlüm sərxoşdu –
yıldızların altında.
Sevişmək, ah, nə xoşdu –
yıldızların altında.



Yanmam, könlüm yansa da.
Əcəl beni alsa da,
Gözlərim kapansa da –
yıldızların altında.

Mahnıya qulaq asa-asa Ağarəhimin fikri çözələndi. Hə-ə.. Bakıdakı üçotaqlı mənzilində düz bir ay təm-tək yaşayacaq. Bir ay nə arvadının üzünü görəcək, nə qızının. Özü-özünə qulluq edəcək: çay qoyacaq, xörək bişirəcək, mitil-şitil salıb yığışdıracaq. Düzdü, hərdən böyük qardaşıgilə gedəcək, amma bu da onu tənhalıq əziyyətindən qurtarmayacaq.

Ağarəhim evlənəndən bəri hər yay bu kökə düşürdü. Pərvanə orta məktəbdə müəllim idi, dərslər qurtaran kimi uşağı götürüb atasıgilə gedirdi. Ağarəhim də məzuniyyət gününü gözləyə-gözləyə qalırdı Bakıda. Ağarəhimin arvad-uşağı bu dəfə qatara minəsi olmadı – Ağarəhim onları təzəcə aldığı "Jiquli" də apardı. Maşın yaxşı şeydi, vallah; harda istəyirsən saxla, dincəl. Günün hansı vədəsində istəyirsən otur maşına, sür ürəyinə yatan yerə: dağa, bağa, meşəyə... Amma qəribə xasiyyəti var Pərvanənin: cavanca gəlin olasan, kurorta-zada meyl eləməyəsən? Pərvanə hara desəydi, Ağarəhim aparırdı onu. Lap xaricə apardı; qardaşı Ağakərimin canı sağ olsun – putyovka təşkil eləmək onun əlində nə çətin işdi – bircə zəngi kifayətdi ki, qıfıllı qapılar taybatay açılsın. Di gəl ki, Pərvanə Borçalıdan başqa heç yeri bəyənmir. "Həm də qocalarımın gözləri yoldadı, – deyir. – İldə ikicə ay onların yanında qalmağım da qənimətdi. Axı, bizdən savayı onların kimi var?".

Pərvanənin sözləri Ağarəhimin ağlına batırdı. Doğrudan da, ildə ikicə ay Borçalıdakı qocaların könlünü ovundurmaq allaha da xoş gedərdi, bəndəyə də. Amma indi Ağarəhim bu qərara gəldi ki, həvəsdi-bəsdi, daha arvadının barmaq tuşladığı boyunduruğun altına girməyəcək, daha avqustun axırınacan Borçalıda ilişib qalmayacaq. Əvvəllər maşını yox idi – əl-qolu bağlı kimi idi – indi, şükür allaha, maşını da var, pulu da. Borçalıda bir-iki həftə qaldı, kifayətdi, sonra arvad-uşağını mindirəcək "Jiquli"yə aparacaq gəzməli, görməli yerlərə. "Bəs maşını niyə almışam, atam-qardaşım, bəs maşına bir ətək pulu nədən ötrü vermişəm? Bağışlasınlar məni Pərvanənin qocaları, mən də ürəyimcə yaşamaq istəyirəm".

Ağarəhim müşkül bir məsələni öz xeyrinə həll eləmiş adam təkin dərindən, rahat nəfəs aldı və ağlı-huşu bu maşına, bu yola qayıdanda

gördü ki, Qazağa çataçatdadı. İrəlidə, postamentin üstündəki təyyarə abidəsi gün işığında elə parıldayırdı, elə işıldayırdı, deyirdin bəs təyyarə deyil bu, qanadlı bir günəşdi doğub burda. Ağarəhim bilirdi ki, bu abidəni ilk azərbaycanlı təyyarəçinin şərəfinə qoyublar bura. "Sağ olsunlar qazaxlılar, başları iş-gücə nə qədər qarışıq olsa da, ölüb-itən igidlərini yaddan çıxartmırlar".

Abidənin qənşərində yol haçalanırdı. Sola dönən yol enli idi, asfalt idi, düz Qazağın içinə girirdi və bu yol Ağarəhimi Bakıya aparan yol idi. Sağa dönən yol kənd yolu idi, bu yolda uzaqdan ot tayasına oxşar bir şey saralırdı, amma yaxınlaşandan sonra aydın oldu ki, ot tayası deyil bu, üzü o yana dayanmış yük maşınıdı, kuzovuna o qədər ot qalayıblar ki, kabinəsi, zadı görünmür.

Yolun haçasına çatanda Ağarəhim maqnitofonu söndürdü, sürəti azaltdı, lap haçanın başlanğıcında dayanmış maşının yanından ötəndə qəfil bir taqqıltı eşitdi: "Jiquli" yırğalandı, sağ yandan qabaq qapının şüşəsi çiliklənib oturacağa töküldü. Ağarəhim bu taqqıltıdan, bu yırğalanmadan əvvəl-əvvəl heç nə başa düşmədi, başa düşəndə belindən ağrı qopdu, elə bil böyrəklərinə bıçaq yeritdilər. Əlləri, ayaqları əsdi. Əyləci güclə basıb maşından birtəhər çıxdı.

"Jiquli"nin sağ tərəfdən qabaq qanadı əzik-əzik olmuşdu, qabaq qapı əyilib içəri girmişdi, sağ fənər sınıq-sınıq idi. Ağarəhim qorxudan boğula-boğula, ürəyi titrəyə-titrəyə yük maşınına tərəf baxdı. Ayaqlığın yanında cavan, çəlimsiz bir oğlan donuxub qalmışdı. O qədər arıq idi ki, ovurdu-ovurdundan keçirdi. Nazik, qara bığı olmasaydı, deyərdin bəs uşaqdı.

Ağarəhimin belindəki ağrı hələ çəkilməmişdi, üşütməli adam kimi qolları, qıçları hələ əsirdi: Boğazı qovuşa-qovuşa:

– Neynədin, əşi? – dedi və ona elə gəldi ki, səsi dilçəyindən bu yana keçmədi, səsi içində qaldı.

Amma oğlan onun sualını eşitmişdi. O da səsi titrəyə-titrəyə:

– Bilmədim, ay dayı, – dedi: – görmədim, vallah.

Oğlanın gözləri ya anadangəlmə belə iri idi, ya da qorxudan irilənmişdi. Ağarəhim güman elədi ki, yəqin öz gözləri də bax beləcə böyüyüb. Ağarəhimin bərkə-boşa düşdüyü vədələr olmuşdu, lap qorxduğu vədələr də olmuşdu, ancaq heç vaxt belindən belə ağrı qopmamışdı. Birinci dəfəydi ki, böyrəkləri bu cür sancırdı, birinci dəfəydi ki, kürəyinin zoqqultusu nəfəsini kəsirdi. Ağarəhim "Jiquli"nin



böyründəcə tozlu yola uzanmaq istəyirdi, heydən düşmüş canını hara olur-olsun, yıxmaq istəyirdi, amma uşağa oxşayan çəlimsiz oğlanın yanında şəninə, bazburuduna sığışdırmırdı bunu. Bilmirdi neynəsin, nə danışsın. Bəlkə dişinin dibindən çıxanı desin oğlana, bəlkə basıb döysün onu? Bu nə iş idi, fələk, bu nə qəza idi? Bu ot maşını hardan çıxdı, şeytana oxşayan bu köpəyoğlu hardan çıxdı?

Bu titrətməli, əsməcəli vaxtında Ağarəhimin yadına Pərvanənin sözləri düşdü. Pərvanə dönə-dönə demişdi ki, "maşında talisman gəzdir; göz dəyməz, xata-baladan uzaq olarsan". Ağarəhim talismana, gözmuncuğuna, cadu-filana inanmırdı, amma Pərvanənin sözünə baxmamağına indi peşman oldu.

Ağarəhim içindəki əsməcəni büruzə verməmək üçün nəfəsini birtəhər nizamladı.

– Kor idin? – dedi. – Görmürdün ki, mən arxadan gəlirəm?

Oğlan udquna-udquna:

– Görmədim, vallah, – dedi. – Bu andır maşında dalı göstərən güzgü yoxdu. Ot da gözümün qabağını tutmuşdu. Elə dönmək istəyəndə... – Oğlan ürəkləndi, Ağarəhimə yaxınlaşa-yaxınlaş: – Şükür Allaha, salamatlıqdı, – dedi. Maşının xürd-xəşil olmuş qanadına, içəri batmış qapısına baxdı. – Bunlar düzələr, – dedi, – təki ölüm, xəsarət olmasın.

Ağarəhim yan-yörəyə göz gəzdirdi. Belə işlək yolda tərslikdən bir ins-cins də görünmürdü – bərk ayaqda Ağarəhimin şahidi olardı, tərəfini saxlayardı onun, deyərdi, bu kişinin oğlunda zərrəcə günah yoxdu.

Oğlan da Ağarəhim sayağı yan-yörəyə baxdı, sonra iri gözlərini dikdi Ağarəhimin üzünə.

– Ay dayı, – dedi, – it-qurd yığışmamış gəl çıxaq aradan.

Ağarəhim başını buladı.

– Qoy avtoinspektor gəlsin.

Oğlan başladı dil tökməyə:

– Vallah, düzəltdirəcəm maşınını. Vurulmağı qətiyyən bilinməyəcək. Bütün xərci mənim boynuma.

Bu "Jiquli"nin daha əvvəlki "Jiquli" olmayacağını fikrinə gətirəndə Ağarəhimin damarlarında qanı tərsinə fırlandı. Ağarəhim içini bürüyən və çıxmağa fürsət, məqam axtaran acığını irigözlü oğlanın başına tökmək istədi. İstədi qışqırsın, ancaq özü də bilmədi ki, səsi niyə yumşaq çıxdı. Ağarəhim öz gücsüzlüyündən, acizliyindən hövlə gələn naçar adam kimi ağlamsındı.

– Nəyi düzəltdirəcəksən? – dedi. – Şikəst eləmisən maşını. Mən sabah Bakıda olmalıydım. Neyneyim indi?

Oğlanın arıq üzündə məlul-məhzun bir ifadə yarandı, iri gözlərindən mütilik töküldü və bu gözlər dilə gəlib dedi ki, "döy məni, söy məni, vur öldür – haqlısan".

Oğlan çəkinə-çəkinə:

– Gedək, – dedi. – Günü bu gün düzəltdirəcəm. Səni gecəynən özüm aparıb qoyaram Bakıya.

Ağarəhimin susmağı oğlanın dilini bir az da açdı.

– Qurban olum, ay dayı, onsuz da mənim əskim tüstülüdü. Bir xatadan təzəcə qurtarmışam, ikinci xataya düşməyimin sənə nə xeyri? Bir parça çörəyimi əlimdən niyə alasan, axı? Allah səni saxlasın, gedəkmi? İt-qurd gəlməmiş... – Oğlan yük maşınının ayaqlığına qalxdı. – Dalımca sür, – dedi. – Fikir eləmə, vallah düzələcək.

Ağarəhim yuxudan təzəcə oyanıb harda olduğunu kəsdirə bilməyən adam kimi idi. Bilmirdi ot maşınının ardınca getsin, yoxsa gözləsin. Kimi gözləsin, nəyi gözləsin? Bəlkə avtomobil müfəttişi axşama qədər gəlməyəcək bura? Bəlkə bu şeytana oxşayan oğlan "Jiquli"ni, doğrudan da, düzəltdirəcək? Müfəttişi gözləmək havayı işdir. Müfəttiş gəlib neynəyəcək? Ağarəhimə təzə maşın verməyəcək ha.

Ağarəhim "Jiquli"yə oturdu – niyə oturdu özü də bilmədi – irigöz oğlanın ardınca getmək istəmirdi, əzilmiş maşınla yolda da qalmaq istəmirdi. Ağarəhim odla su arasında vurnuxan adama bənzəyirdi, amma bilmirdi ki, od hansı yandadı, su hansı yanda.

Ot maşını yavaş-yavaş uzaqlaşırdı. Ağarəhim maşının ardınca baxdı, baxdı və bayaqkından da betər qorxdu: "Deyəsən, aradan çıxır köpəyoğlu". Amma ot maşını dayandı, oğlan başını kabinədən çıxarıb Ağarəhimə əl elədi və Ağarəhim "Jiquli"ni kənd yoluna döndərdi...

Az qala bir-birinə bitişik iki-üç kəndin içindən keçdilər. Sonra əsas yoldan çıxıb, ensiz torpaq yola buruldular. Kəndin adı yazılmış dəmir lövhə döngənin tinindəki dirəyə bənd edilmişdi. Ağarəhim gözünün ucuyla baxıb, dəmir lövhədəki yazını oxudu: "Alpoud". Ağarəhim köks ötürüb, başını buladı. "Bir kəndin ki adı "Alpoud" ola, onun adamları nə təhər olar? "Alpoud" nə deməkdi, ay fələk?"

Doqqazı enli, hasarı kol-kosdan olan bir həyətə girdilər. Oğlan kabinədən düşən kimi hələ də sükan arxasında donuxub qalmış Ağarəhimə yaxınlaşdı.



– Xoş gəlmisən, qardaş, – dedi, sonra üzünü kürsülü evə tərəf tutub çağırdı: – Ay ana! Qonağımız var!

Ağarəhim oğlanın üz tutduğu səmtə baxa-baxa maşından çıxdı və gördü ki, kürsülü evin artırmasında taxta çarpayının üstündə kök, yaşlı bir qadın oturub. Qadın yanındakı qıyqacı götürüb başına saldı.

– Qonağın qədəmlərinə qurban olum, – deyib hıqqana-hıqqana çarpayıdan düşdü.

Arvad ayaqları uyumuş adam təki yeriyirdi, elə bil ağır bədəninin gəzdirməyə qıçlarının gücü çatmırdı. Uzun, gen tumanı onu bir az da kök göstərirdi. Çatıb, Ağarəhimə əl verdi, nəfəsi təngiyə-təngiyə.

– Xoş gəlmisən, atam-anam, – dedi.

Ağarəhim başını tərpətdi. Borcu deyil ki, tanımadığı adamlara dil-ağız eləsin. Bu qəza olmasaydı dünyada "Alpoud" adlı bir kəndin varlığından, bəlkə də, ömrü boyu xəbər tutmayacaqdı, şeytanabənzər bu oğlanla rastlaşmayacaqdı, ağ köynəyin altından qarnının qatları bilinən, sallaq döşlü bu arvadı heç vədə görməyəcəkdi və bunlarsız da rahat yaşayacaqdı. Bu adamlar onunla bir diyarda, bir torpaqda ömür sürdülər, yaxud başqa qitədə – tutalım Afrikada – bunun Ağarəhimə nə istisi, nə soyuğu?

Arvadın üzü qaramtıl idi, dəpdəyirmi idi – kişi üzünə oxşayırdı üzü, – bir gözü yarıyacan ağ pərdə ilə örtülmüşdü. Ağarəhimin key-key dayandığını görüb, əvvəlkindən də mülayim səslə:

– Öyə keçsənə, dərdin alım, – dedi.

Ağarəhim dodaqlarının altında mızıldandı. Arvad dönüb evə tərəf gedə-gedə:

– Ay gəlin hey! – çağırdı. – Ustul gəti qonağa!

Gəlin əlində stul otaqdan çıxdı, elə bil bayaqdan stulu götürüb içəridə hazır dayanmışdı. Stulu, az qala yüyürə-yüyürə gətirib armud ağacının kölgəsinə qoydu və tez də artırmaya qayıtdı.

Tanınmaza-bilinməzə belə qəbul Ağarəhimin xoşuna gəlmədi. Ağarəhim nəzərlərilə şeytanabənzər oğlanı axtardı. Oğlan ot maşınının qabağında dayanıb yanıqlı-yanıqlı siqaret çəkirdi. Yanında üç-dörd yaşlı qız uşağı durmuşdu. Qız çitdən düzəldilmiş gəlinciyi sinəsinə sıxıb altdan-yuxarı oğlana baxırdı, amma oğlan, deyəsən, onu görmürdü. Qızın hardan çıxdığını, hardan gəldiyini Ağarəhim də görməmişdi, ancaq indi qız haqqında fikirləşməyin yeri deyildi, indi tələsmək lazım idi, maşını abıra salmaq lazım idi.

Oğlan siqareti atıb ayaqqabısının burnu ilə əzdi. Yaxınlıqda dənlənən toyuqların üstünə cumdu. Toyuqlar pərən-pərən düşüb qaqqıldaşdılar, tövlənin dalına qaçdılar, oğlan da onların dalınca yüyürdü... Bir azdan hər əlində bir çolpa tövlənin dalından çıxdı.

Ağarəhimin dil-dodağı qurumuşdu, içində elə bil ocaq qalanmışdı, özü də bu ocaq çoxdan – maşın maşına dəyən dəqiqədən qalanmışdı və Ağarəhimin sinəsinin altını pörşələyirdi.

Oğlan çolpaları kəsib qurtarandan sonra Ağarəhim:

– Bir az su tapılarmı? – dedi. – İçməyə...

Oğlanın iri gözləri işıqlandı.

– İçməyə də tapılar, lap çimməyə də, – dedi və tələsə-tələsə gedib artırmadakı güyümdən bir stəkan su gətirdi.

Ağarəhim üzünü yana tutub suyu sümürə-sümürə içdi. Su elə bil içindəki közü cızıldada-cızıldada, odu söndürə-söndürə süzülüb getdi... Yenə içə bilərdi, istəmədi. Stəkanı oğlana qaytaranda ürəyindən keçdi ki, "sağ ol" desin, demədi.

Oğlan utana-utana soruşdu:

– Adın nədir, a dayı?

Oğlanın "dayı" deməyi Ağarəhimi açmırdı heç. Ağarəhim könülsüz-könülsüz adını dedi. Oğlan bu tanışlığa sevinirmiş kimi gülümsədi:

– Mənim də adım Binnətdi, – dedi. – Sən burda dincəl, mən usta dalıycan gedim... Allah eləsin, kənddə tapa bilim onu. Ora-bura dartırlar. Əzik-üzük maşınların anasıdı. Özü düzəldir, özü də kraskalayır. Çox qabiliyyətli ustadı.

Ağarəhim inanmadı. İnanmadı ki, "Alpoud" adlı kənddə qabiliyyətli usta olsun.

Oğlan artırmaya qalxdı. Taxta çarpayının üstündə mürgüləyən arvada nəsə dedi. Arvad vaysına-vaysına əlini dizinə çırpdı. Oğlan artırmadan düşə-düşə hövsələsiz halda:

– Ağzından od tökmə, ay ana. – dedi, – qəsdən eləməmişəm ha.

Binnət doqqazdan çıxandan sonra Ağarəhim armud ağacının kölgəsindəki stulda oturdu. İndicə həyətə göz gəzdirdi və gördü ki, həyət çox böyükdür. Həyətin açıq tərəfində kürsülü evdən və köhnə tövlədən savayı tikili yox idi. Evin qənşərində ucu-bucağı görünməyən bağ vardı, bağın da içində cürbəcür ağaclar vardı, deyirdin bəs kolxoz bağıdı bu. "Belə bağ sahibinin yəqin ki, pulu çox olar. Budu ey, toyuqcücələrə bax, saymaqnan qurtarmaz. Tövlə var, demək, inək-camış da var, qoyun-quzu da var. Kasıb deyillər bunlar".



Gəlin üstünə balaca, təmiz süfrə salınmış kətili Ağarəhimin qabağına qoydu. Armudu stəkanda çay gətirdi. Bircə dəfə də başını qaldırmadı, gözünün quyruğuyla da olsa, Ağarəhimin üzünə baxmadı. Amma Ağarəhim altdan-altdan baxdı ona və inanmadı ki, "Alpoud" adlı bir kənddə belə yaraşıqlı gəlin olsun. Qaraşirin idi gəlin. Dodaqlarının rəngi yetişmiş gilənar rənginə çalırdı. İşıqlı, oynaq gözləri vardı. Tərpənişi cəld idi, yeriyəndə sinəsi irəli çıxırdı.

Gəlin artırmanın qabağında çöməlib çolpaları yolurdu. Ağarəhim yandan ona baxa-baxa köks ötürdü. "Əgər bu qəşəng gəlin Binnətin arvadıdırsa, yazıq buna, heyif buna. O şeytana oxşayan gədənin nəyinə bənd olub görəsən?" Ağarəhimin yadına öz arvadı düşdü və onsuz da qara olan bir az qaraldı. "Gərək baxaydım onun sözünə, gərək talisman qoyaydım maşına. Heç olmasa yağlıtikandan-zaddan..."

Balaca qız "Jiquli"nin yanında dayanıb zarıldayırdı, gəlinciyi də bir əli ilə sinəsinə sıxmışdı. Gəlin işini yarımçıq qoyub uşağın yanına getdi. "Jiquli"nin qabaq qapısını ehmalca açdı. Qız o dəqiqə kiridi, maşına dırmaşıb sükanın arxasında oturdu. Ağarəhimin dişi bağırsağını kəsdi. "Elə bil atalarının malıdı".

Ağarəhim çaya əlini də vurmadı. Darıxdı. Qalxıb "Jiquli"yə yaxınlaşdı. Maşın gözündən elə düşmüşdü ki, baxmaq istəmirdi ona. Uşağa baxdı. Qız gəlinciyi dizinin üstünə qoymuşdu. İçəri isti olsa da dinməz-söyləməz oturub dözürdü. Qızın bir suyu Binnətə oxşayırdı, illah da gözləri; iri-iri, peyvənd gilas boyda. Şabalıdı, qısa saçları körpə quzu tükü kimi qıvrım-qıvrım idi. Dizinin üstündəki gəlincik qəribə gəlincik idi. Ağarəhim ömründə belə gəlincik görməmişdi. Ağ çitdən baş düzəldib balaca çöpün bir ucuna bənd eləmişdilər. İri düyməyə oxşayan dəpdəyirmi bu başın ortasında qara karandaşla ağız-burun, qaş-göz çəkmişdilər. Gəlinciyin çiyinləri yox idi – hər çiynin yerindən bir çit qol sallanırdı – əyninə əl boyda, beli büzməli tuman geyindirmişdilər. Nədənsə Ağarəhim inanırdı ki, bu gülməli gəlinciyi dodaqlarının rəngi yetişmiş gilənar rənginə çalan o qəşəng gəlin düzəldib.

– Haralısan, atam-anam?

Ağarəhim qəfil səsdən diksinən kimi oldu. Geri qanrıldı; kök arvad onun arxasında tövşüyə-tövşüyə dayanmışdı. Ağarəhim:

– Bakılıyam, – dedi.

– Qulluqdasanmı?

– İnşaat institutunda müəllimə m... Fizika müəllimi...

– Allah saxlasın səni. – Arvad, deyəsən, ayaqüstə dayanmağa çətinlik çəkirdi. Əllərini yerə dirəyə-dirəyə çayırlıqda oturdu. – Dədən, nənən varmı? – dedi.

– Böyük qardaşım var.

– O da qulluqdadımı?

Ağarəhim:

– Hə, – dedi və hiss elədi ki, bu, azdır. Qoy bu kök arvad elə bilməsin ki, Ağarəhimin qardaşı hər yetənin tayıdır. – Böyük vəzifədə işləyir, – dedi.

– Allah onnan da yuxarı eləsin!

Ağarəhim anlayırdı ki, kök arvad ona nəsə demək istəyir, nəsə bir niyyəti var bu arvadın, yoxsa ayaqlarını sürüyə-sürüyə, ağır bədənini zorla darta-darta həyətin o başından bu başına gəlməzdi.

– Evlisənmi, dərdin alım?

– Bir uşağım da var... Beş yaşında...

Arvad "Jiquli"yə ötəri nəzər salıb köks ötürdü.

– Sühsünü qırılsın. Binnətin, – dedi. – Qarabəxtdi bu gədə. Anadan olannan xata-bala başından əskik döyül. On yaşınacan azar-bezar qoymadı gözünü açsın. Deyirdik, sağ qalmaz bu, ölər, amma ölmədi. Di gəl ki, fərri də böyümədi – yanıq oldu. Qurban olum allaha, özü bilən məsləhətdi... Xalqın uşaqları oxuyub qulluq yiyəsi oldular. Dərs bu qansızın qafasına batmadı. Qabağında ata vardımı ki, təpəsinə döyə-döyə oxudaydı? Binnətin beş yaşı olanda kişi köçünü sürüb getdi bu dünyadan. Mənim də başım öz əlimdə döyüldü ha. Sovxozda işləyirdim – onda hələ sovxoz olmamışdı, kolxozuydu – hava işıqlanmamış gedirdim, qaş qaralanda qayıdırdım.

Ağarəhim – ağlına hardan gəldisə – Binnətin yaşını soruşdu.

Arvad ürəyində nəyisə hesablayırmış kimi duruxa-duruxa:

– Böyük oğlum Əfəndinin qırx yaşı var, – dedi. – Onnan kiçiyi qızdı – indi kənddə ərdədi, dörd uşaq anasıdı. Qız, Əfəndidən üç yaş balacadı. Qıznan da Binnətin arasında iki yaş tafovut var.

Ağarəhimin hesabına görə Binnətin yaşı gəlib durdu otuz beşdə. "Cırtdan məndən üç yaş böyükdü, amma "dayı" deyir mənə. Cansızcəsədsiz, onunçün cavan görünür".

Arvad üzünü göyə tutub ah çəkdi. Ağarəhimə elə gəldi ki, arvadın yarısınacan ağ pərdə enmiş gözü tamam görmür və yəqin ki, nə vaxtsa o biri gözü də tutulacaq.



– Bunnarı müsibətnən böyütmüşəm, dərdin alım. İndi pensiyədəyəm, ayda iyirmi üç manat alıram hökumətdən. Heç onu verməsələr də dolanaram. Mənim nə xərcim, nə çıxarım var ki? Əfəndi sovxozda traktor işlədir, ayrıca ev-eşiyi var, məni də yadından çıxartmır, allah mənim ömrümdən kəsib onun ömrünə calasın. Qızzan da razıyam. Təkcə bu gədə... – arvad başındakı qıyqacın ucuyla salamat gözünün yaşını sildi. – Ayaqlarıma yel gəlib, – dedi. – Canımın hayındayam, bu baxtıqara da ömrümü bir yannan baltalayır.

Arvadın dərd-gileyinə qulaq asmağa həvəsi yox idi Ağarəhimin. Qorxurdu ki, birdən ürəyi yumşalar, Binnətə rəhmi gələr. Darıxa-darıxa saatına baxdı. İstədi uzaqlaşsın arvaddan, amma arvad onun niyyətini hiss edibmiş kimi burnunu çəkib danışmağa başladı.

– Bir yerdə tikiş tutub dayana bilmir gədə. Gah sovxozda fəhlə oldu, gah dəmir yolunda işlədi. Sonra Əfəndi yaxalayıb apardı yanına, traktor sürmək öyrətdi ona. Ordan da qaçdı. Nə qədər avara-avara gəzdi. Getdi əsgərliyə, orda şoferlik oxudu... Qayıdanda sovxozda köhnə bir maşın verdilər ona. Ağıllanmışdı, başını aşağı salıb işləyirdi. Dedik, day kişi olub, evləndirdik. – Arvad başıyla artırmadakı gəlinə işarə elədi. – O halal süd əmmişi aldıq ona... Bir qızzarı oldu, – odu, o sənin maşınında oturan. Gəlin ikinci uşağa boylu olanda allah Binnətin başına gürşadını tökdü: maşını aşırtdı gədə. Alverçilər tələyib ağlını əlinnən alıblar, o da cavandı dana, pula tamah salıb, gecəynən maşını kələmnən nıxlayıb, sürüb Ermənistana tərəf. Qurban olduğum tanrı da nəzərini çəkib bunnan: maşın budu ha, uçub dərənin dibinə. Alverçilərdən birinin qolu sınmışdı, birinin qılçı şikəst olmuşdu, özünün heç burnu da qanamamışdı. Binnəti tutub damladılar, bir il türmə kəsdilər ona. Gədə türməyə girən günnən gəlinin gözünün yaşı əlində oldu. Səhər-axşam yumdu-tökdü. Nə illah elədim, kirimədi. O qədər xiffət çəkdi, axırda uşaq xarc elədi: ölü uşaq doğdu, vədəsinnən tez... Özü də oğlan uşağı...

Ağarəhim artırmada arxası bəri dümələnən gəlinə baxdı və inandı ki, gəlinin ondan zəhləsi gedir, yoxsa "xoş gəldin" deyərdi, heç olmasa bircə dəfə qonağa nəzər yetirərdi. Yəqin bu kök arvadın da ondan zəhləsi gedir, onu allahın göndərdiyi bəla hesab eləyir. Ağarəhim az qaldı üzünü arvada tutub desin ki, "ay ana, ay xala, məndə günah yoxdu, mən pis adam deyiləm. Əgər mərdimazar olsaydım, sənin oğlunu verərdim inspektorun əlinə, oğlunun da yaxası qurtaranacan dərisi boğazından çıxardı".

– Türmədən təzəcə gəlib tifağı dağılmışın balası. Yalvar-yaxardan, minnət-sünnətdən sonra sovxoz Nuh əyyamınnan qalma bir maşın verdi ona. Maşınnıq qalmayıb ha onda: təpədən dırnağa calaqdı, yamaq-yumaqdı. Bir gün işləyəndə beş gün özünə gəlmir... Səhər tezzən Binnət dedi, ay ana büyün bazardı, gedim heyvanlara ot-ələf gətirim. Dedim, getmə, bala. Ürəyimə nəsə dammışdı, gecə pis yuxu görmüşdüm. Həm də bilirəm axı, xata bunun boynunun ardınca gəzir... Getdi. Axırda da belə oldu... İndi neynəyəcək, başına haranın daşını salacaq? Pulu-pənəsi hardadı onun?

Ağarəhimin səbri lap bir tikə oldu. Vaxt keçirdi. Günəş bu həyətin, bu evin üstündən uzaqlaşıb aralıdakı dağın şiş təpəsinə dirənmişdi. Günəş bir azdan burnunu göy ədikləmiş dağın arxasına keçəcəkdi və axşam düşəcəkdi.

Arvad kötük qıçlarını çəkə-çəkə evə tərəf gedirdi. Deyəsən, ürəyini boşaltmışdı, nə demək lazımdırsa, demişdi qonağa. İndi qonaq bilər, qonağın allahı bilər...

Tüstülənə-tüstülənə, nərildəyə-nərildəyə həyətə bir "Moskviç" girdi və düz Ağarəhimin yanında dayandı. Binnət maşından düşüb:

– Şükür allaha, – dedi. – Əjdəri tapa bildim.

Əjdər "Moskviç"in qapısını açıb, ayaqlarını salladı. Elə oturduğu yerdəcə Ağarəhimə baxıb, yüz ilin tanışı kimi gülümsədi və Ağarəhim gördü ki, Əjdərin qabaq tərəfdə cəmi üç dişi var: ikisi altda, biri üstdə. Alnı qırış-qırış, ovurdları batıq idi. Göyümtül, süzgün gözlərində bic bir təbəssüm dolanırdı. Bu da eynən Binnət kimi arıq, çəlimsiz idi, bunun da yaşını dürüst demək mümkün deyildi.

Binnət tələsdirdi onu.

– Əyə, düşsənə, a tanrısız!

Əjdər qapıdan yapışıb qalxdı. Ağzına buz qoymuş adam təkin dilini güclə tərpətdi.

– Qonaq... xoş gəlib... – İrəli yeriyib Ağarəhimə əl verdi. – Ürəyini sıxma, bajoğlu, – dedi. – Mən... bu saat...

Burnuna araq iyi dəyəndə Ağarəhim başa düşdü ki, Əjdərin dili niyə topuq çalır.

Əjdər:

– Budumu, ayə, maşın? – deyib ləngərlənə-ləngərlənə "Jiquli"yə tərəf getdi.

Binnət uşağı maşından düşürtdü, oturacağa tökülmüş şüşə qırıntılarını təmizlədi.



Əjdər bir əlini belinə qoyub zəndlə "Jiquli"yə baxdı. Ağarəhim də onun "Moskviç"inə. "Moskviç" çürümüşdü. Üstündəki pasla yamaqların ağırlığı öz ağırlığından güman ki, çox olardı. Nə arxa oturacaq vardı, nə də qapıların şüşəsi; yəqin ki, yol gedəndə içəridə "yel vurub yengələr oynayırdı". Ağarəhimin ağlı Əjdərdən bir şey kəsmədi, Əjdərin yaxşı usta olmağına Ağarəhim inanmadı. İnanmadı ki, "Alpoud" adlı kənddə qabiliyyətli usta olsun.

Əjdər "Jiquli"nin vurulmuş yerini diqqətlə nəzərdən keçirəndən sonra üzünü Binnətə tutdu.

– Ayə, bekara şeydi... Başın haqqı... canını alacam bunun, cərcənəyini ayıracam, – dedi və çayırlıqda oturub qıçlarını uzatdı. – Qoy bir pap... papiros çək...im. – Damağına "Avrora" qoyub yandırdı.

Ağarəhim arxasını Əjdərə çevirib. Binnətə pıçıldadı:

– Deyəsən, keflidi bu.

– Bu batmışın ayıq vaxtı olurmu heç? Çaxır zavodunda fəhlə işləyir, gündə vurmasa bağrı çatlayar. Amma nə qədər içsə də, huşunu itirmir. Özü də çox zirək adamdı; beş kişinin işini təkbaşına görər, "yoruldum" deməz. Əlləri qızıldı bunun... Sən narahat olma, bircə saat düzəldəcək maşını.

Əjdər siqaretdən dərin qullab alıb çayırlığa dirsəkləndi.

– Ayə!.. A Binnət! Qonaq yoxsa mənnən danışır? Elə bilir... kefliyəm... heləmə?.. Ayə, mən Əjdərəm haa... Bir vedrə içərəm... amma... gülləni iynənin gözünnən keçirdərəm. Qonağa denən, – yumruğunu sinəsinə vurdu, – mən Əjdərəm haa.

Binnət gülümsədi:

– Demişəm, əşi.

– Di get, bir dolça su gətir, ciyərim yanır.

Binnət getdi su gətirməyə: Əjdər barmağını diliylə yaşlayıb siqaretin gözünə basdı. Siqareti çiyninin üstündən dala atıb, dirsəyini yerdən qaldırdı.

– Bajoğlu, – dedi, – sən heç... qəm zad eləmə. Əjdər olan yerdə nə qəm?.. Təptəzə eləyəcəm maşınını... Anadangəlmə... Binnət mənim qohumumdu, bilirsənmi? Min iş görərəm... bir qəpik də almaram... Qohum qohumnan əlmuzdu almaz... Pul nə olan şeydi, ayə? – Tüklü çənəsini qaşıya-qaşıya "Jiquli"yə baxdı, sonra başını döndərib kəndin ayağındakı dağa baxdı. – Ayə, o dağı görürsənmi? – dedi. – "Göyəzən"di onun adı... Eşitmisənmi?.. Görürsənmi nə şişdi ucu? Nizə kimidi... ha deyirəm... dırmaşım ora... vaxt tapa bilmirəm.

Binnətin gətirdiyi suyu Əjdər çənəsinə, sinəsinə axıda-axıda ləzzətlə içdi. Ağarəhim dodaqlarını yaladı, amma su istəməyə utandı.

Əjdər:

– Ya allah! – deyib qalxdı. "Moskviç"in yük yerindən paslı bir ling çıxartdı. Elə bil illərlə əl dəyməmişdi bu lingə, illərlə yağışın altında, palçığın içində qalmışdı. Taxta çəkic çıxartdı. Dizlərini yerə qoyub, lingi "Jiquli"nin əzilmiş qanadının altına saldı. Bir dartdı, iki dartdı, çöl tərəfdən taxta çəkiclə bir vurdu, iki vurdu və əzik qanad çartıldayıb bir qarış uzunluğunda cırıldı. Əjdər əl saxladı.

– Baho! Buna nooldu, ayə? – dedi. – Bu andır lap kağızdanmış... Mənnən çıxmaz iş... Niyə cırıldı, ayə, bu?

Ağarəhim acıqlı-acıqlı Binnətə baxdı. Maşın vurulanda heç bu qədər dilxor olmamışdı, bu qədər heyfsilənməmişdi. Az qaldı Əjdərin qolundan tutub fırıldatsın qırağa.

Əjdər özü çəkildi kənara. Lingi, çəkici tulladı yerə.

– Əllərim niyə əsdi, ayə, mənim? – dedi. – A Binnət, o zəhrimardan bir az gətir görüm.

Binnət təzədən evə qaçdı, Əjdər də təzədən çayırlıqda oturdu.

– Düzələcək, dedi. – Səbrini bas... O cırılan yerə fikir vermə. Lehimləyəcəm, olacaq anadangəlmə. Düzü mən həmişə yekə maşınları abıra salmışam... Leqkovoy da düzəltmişəm ha... "Moskviç" filan... "Jiquli" birinci kərədi... Qəm eləmə... Əjdər olan yerdə nə qəm? – dedi, ancaq hiss olunurdu ki, Ağarəhimdən çox, özünə ürək-dirək verir.

Binnət bir əlində ağzınacan araq dolu qalın stəkan, bir əlində pomidor gətirib verdi Əjdərə. Əjdər stəkanı bir əlinə aldı, pomidoru o biri əlinə. Dodaqları səyriyə-səyriyə stəkana baxdı.

– Əlli iki yaşı var, – dedi, – otuz iki ildi bunnan dostluq eləyirəm. Ayə, yəni mən o "Göyəzən"in təpəsinə qalxa bilməyəcəm? Yəni bu abi-zəmzəm məni qoymayacaq ora dırmaşam? Axı, əhd eləmişəm... orda vurmalıyam, axı. – Sonra üzünü göyə tutdu. – Ay tanrı, – dedi, – atam, anam sənə qurban, keç Əjdərin günahından. Onsuz da Əjdərin günahı yoxdu, bilirsən. Olsa da, xırım-xırda günahlardı, onları da qoyarsan içməyənlərin boynuna.

Əjdər stəkandakı arağı yarıyacan içdi, ağız-burnunu büriişdürə-büriişdürə pomidordan bir dişdəm aldı, amma deyəsən, çeynəməmiş uddu.

Binnət xəcalətindən Ağarəhimin üzünə baxa bilmirdi. Əjdəri tərifləmişdi, Əjdərə güvənmişdi, sən demə, Əjdərin də bacarmadığı işlər



varmış. Binnət ürəyində allaha yalvarırdı ki, Əjdərə kəramət versin, fərasət versin, Əjdər də onu bu bəladan qurtarsın.

Ağarəhimin Əjdərlə işi yox idi, Ağarəhim qanlı-qanlı Binnətə baxırdı. Bir adam ki istidə başına bu boyda kepka qoya, ondan nə umasan? "Bu nə yör-yöndəmdi, fələk, məni kimə ürcah elədin?".

Əjdər sətin pencəyinin yaxasını açıb, danqa sinəsini qaşıdı. Maykası da yox idi zalımın. Qabırğaları görünürdü, qarnı az qala belinə yapışmışdı.

– Ya allah! – deyib Əjdər ayağa qalxdı.

Ağarəhim görürdü ki, Əjdər "Jiquli"yə yaxın getməyə ürək eləmir, qalıb dirənə-dirənə.

Əjdər lingi, çəkici götürüb:

– Başladıq, – dedi, amma hiss olunurdu ki, başlamaq istəmir.

Ağarəhim canını qurtardı onun. Dedi:

– Lazım deyil.

Elə bil Əjdərin çiynindən neçə ildən bəri dırmaşmaq arzusunda olduğu "Göyəzən" ağırlığında yük götürüldü, amma özünü o yerə qoymadı, özünü təəccüblənən kimi göstərdi.

– Niyə, bajoğlu? Qoy düzəldim də.

Ağarəhim hirsini boğa bilmədi.

– Bacarmadığın işə niyə girişirsən? – dedi. – Maşını day da şikəst elədin! – Üzünü Binnətə tutdu. – Yekə oğlansan! – dedi. – Qanacağın, mərifətin olsun! Məni avara qoymusan burda! İstəyirsən sənə pislik eləyim?! Pislik eləməyə gücüm çatar!

Binnət yazıqlıq yağan iri gözlərini döyə-döyə qaldı.

– Pislik niyə, dərdin alım? Bir xatadı olub. Qardaşıma ismarış göndərmişəm, qoy gəlsin, görək neynirik.

– Sabah mən Bakıda olmalıyam, başa düşürsən?!

– İndi ki, kənd ustasına ürək qızdırmırsan, deyirəm, bəlkə aparıb Bakıda düzəltdirəsən. Xərci nə qədər eləyir, de, ordan-burdan tapıb verərəm.

Ağarəhim bilmirdi ki, maşın nə qədər xərc aparacaq. Qiymət deməyə qorxurdu. Qorxurdu ki, birdən az deyər. Amma dedi:

– Min manat! – Ağarəhim Binnətin üzünə baxmadı, bilmədi ki, oğlanın sir-sifəti nə kökə düşdü.

Əjdər lingi, çəkici tulladı.

– İnsaf elə, ayə! – dedi. – Min manat nədi?

– Bəs nə bilmişdin, əşi? Təptəzə maşındı, dörd ay deyil aldığım.

Əjdər başını buladı.

– Allahın olsun, ayə, min manat çölə tökülməyib.

Söz Ağarəhimin ağzından çıxmışdı, vəssalam. Durub alver eləməyəcəkdi ki, burda? Qəti dedi:

– Min manat!

Əjdər sətin pencəyini düymələyə-düymələyə gedib çıxdı artırmaya. Çarpayıda, kök arvadın yanında oturub əllərini ölçə-ölçə başladı danışmağa.

Binnət başını aşağı salıb Ağarəhimin qabağında şaxta vurmuş toyuq təkin dayanmışdı, yanıqlı-yanıqlı siqaret çəkirdi. Handan-hana başını qaldırıb qorxa-qorxa soruşdu:

– Bəlkə yönnəşək, a dayı?

Ağarəhim sövdələşməyə son qoymaq üçün səsini qaldırdı:

– Söz bir dəfə olar!

Həyətə alçaqboy, tökməbədən, qırmızıyanaq bir kişi girdi. Saçı dibdən qırxılmışdı. Qollarını ata-ata, yanlarını basa-basa yeriyirdi. Binnətə zərrəcə oxşarı olmasa da, Ağarəhimin ürəyinə damdı ki, Binnətin qardaşıdı bu, "Əfəndi" deyilən adam budu.

– Xoş gəlibsən, dərdin alım, – deyib kişi Ağarəhimin yumşaq əlini daş kimi bərk, cod əlinin içində sıxdı. – Bə niyə burda ayaqüstə dayanmısan? – Üzünü artırmaya tutub: – Ana, hey! – dedi. – Qonağa beləmi qulluq eləyirlər?! Bəs hanı sizin süfrəniz, hanı yemək-içməyiniz?!

Kişi, Ağarəhimin əlini buraxıb artırmaya getdi. Əjdər başını yırğalaya-yırğalaya Əfəndiyə nəsə dedi. Arvad əlini dizinə çırpıb vaysınanda Əfəndinin, deyəsən, acığı tutdu.

– Qaraçılıq eləməyin siz Allah! – dedi. – Əziziniz ölməyib ha! – Artırmadakı ortalıq stolunu sinəsinə qaldırıb aşağı düşürtdü. – Tez olun görək, acından qırıldıq!.. Əyə, bu gəlin harda itib?!

Gəlin içəridən tələsik çıxdı. Əfəndi ona baxa-baxa yumruğu ilə stolun tinini döyəclədi. Gəlin otaqdan tələsik çıxmışdısa, eləcə də qayıdıb girdi otağa və Ağarəhim başa düşdü ki, bu evdə Əfəndinin hörməti hörmətdi, burda Əfəndinin bir sözünü iki eləməyə heç kimin haqqı, cürəti çatmaz.

Gəlin ağappaq süfrə gətirib stolun üstünə saldı.

Əfəndi Ağarəhimi çağırdı:



– Bəri gəl, dərdin alım. Görürəm büyün bunnar sənə sitəm eləyiblər. – Bayaqdan farağat vəziyyətində dayanmış Binnətə dedi. – Get, Əjdərin sazını gətir, qoy bir az dınqıldatsın, qulaq asaq.

Artırmanın qabağı sərin idi. Gün əyilmişdi, bürkü səngimişdi...

Ağarəhim çay içə-içə fikirləşirdi ki, nə yaxşı Əfəndi gəlib çıxdı. Əfəndinin gəlişi ilə Ağarəhimin nigarançılığı, narahatlığı sovuşmuşdu, ürəyində səbəbini özünün də anlamadığı bir arxayınçılıq, ümid yaranmışdı. Hərdən Əfəndinin qan daman yanaqlarına, qalın pırpız qaşlarına, çat-çat yoğun barmaqlarına göz yetirirdi və inanırdı ki, belə adam dağı dağ üstünə qoyar, belə adam etibarlı olar, insaflı olar, haqqı nahaqqın ayağına verməz, dostu-yoldaşı darda qoymaz. Əfəndinin gözlərindən nur tökülürdü və Ağarəhimin ürəyini işıqla, ümidlə dolduran da, deyəsən, elə bu nur idi. "Neçə ildi sovxozda traktorçu işləyir, yəni bunun evində min manat pulu yoxdu?"

Binnət sazı gətirib stolun küncünə söykənmişdi, bayaqdan bəri ağzından bircə kəlmə də söz çıxmamışdı. Danışan Əjdərlə Əfəndi idi. Hər şeydən danışırdılar – ala dağdan, qara dağdan, öləndən, qalandan – təkcə "Jinuli"nin vurulmağından danışmırdılar, "min manat" məsələsini dillərinə gətirmirdilər.

Gəlin stolun üstünə dərin buludda çolpa çığırtması qoydu, bir qrafin dolusu qırmızı çaxır qoydu, bir butulka da araq. Süfrəni sahmana salıb kölgə kimi yox oldu.

Əfəndi stəkanlara çaxır süzməyə başladı.

– A qohum hey, – dedi, büyün siftə eləmisənmi?

– Bu nədi? – Əjdərin dodaqları dartıldı, qabaqdakı üç dişi göründü. – Siftə eləməsəydim, gedib Göyəzənin təpəsinə çıxardım, dana.

– Batmıyasan səni. İçməkdən başın ayılmayacaq, öləcəksən, muradın gözündə qalacaq. Əziyyətin bizim çiynimizə düşəcək: gərək meyidini qaldıraq Göyəzənin kəlləsinə, səni orda basdıraq, qəbrinin də üstünə bir vedrə çaxır tökək.

Əjdər əllərini bir-birinə sürtdü.

– Dərdin alaram, Əfəndi, sənnən qabaq ölsəm, dediyin kimi eləyərsən.

Əfəndi stəkanını qaldırdı.

– Qonaq qardaşın sağlığına! Həmişə işığı gəlsin, iti hürsün, ocağı yansın. – Stəkandakı çaxırı üç-dörd qurtuma içdi.

Əfəndi başının işarəsi ilə icazə verəndən sonra Binnət stəkanı götürdü. İçdi, amma üstündən ağzına heç nə qoymadı.

Ağarəhim ac idi, di gəl ki, boğazı tikilmişdi, loğmasını güclə udurdu. Gözləyirdi ki, Əfəndi nə vaxt dillənəcək, nə vaxt deyəcək ki, "çörəyini rahat ye, pulun dərdini çəkmə, min manat budu ha, cibimdədi". Amma Əfəndi olan kəs bircə dəfə də soruşmurdu ki, "qonaq qardaş, kimsən, neçisən, hardan gəlib, hara gedirsən?"

Gecə düşmüşdü. Artırmada yanan elektrik lampasına ehtiyac yox idi; ayın işığında hər şey apaydın görünürdü.

Binnət tez-tez qalxıb evin kəlləsinə keçirdi. Ağarəhim əvvəlcə elə bilirdi ki, Binnətin beli boşalıb, amma sonra gördü ki, yox. Gördü ki, evin küncündən seyrək tüstü çıxır və başa düşdü ki, Binnət qardaşının yanında siqaret çəkməyə ürək eləmir, gedib gizlində yanğısını söndürür.

Əjdər sazı köynəkdən çıxardıb basdı sinəsinə. Başını sazın sağanağına qoyub, gözlərini yumdu...

Ağarəhimin saz havalarından o qədər də xoşu gəlmirdi, illərlə eşitməsəydi, yadına düşməzdi. Amma indi Əjdərin şövqlə çalmağı heyrətə gətirmişdi onu. İnana bilmirdi ki, saz belə dillənə bilər, sızıldaya bilər. İnana bilmirdi ki, ovurdu ovurdundan keçən, bəlkə də içməkdən əriyib bir dəri, bir sümük qalan Əjdərin kirli, çatlı barmaqları simlərdən belə ecazkar səs qopara bilər. Nədənsə, Ağarəhimin yadına qızı düşdü, Pərvanə düşdü və Ağarəhim kövrələn kimi oldu.

Ağarəhimin gözləri Əjdərin barmaqlarında idi, Binnətin də gözləri Ağarəhimin üzündə. İndiyəcən yaxşı-yaxşı baxmamışdı Ağarəhimə, indi baxırdı. Baxırdı və görürdü ki, Ağarəhimin tərtəmiz qırxılmış üzünün dərisi elə şəffafdı, elə şəffafdı, elə bil ömründə gün dəyməmişdi onun üzünə. Görürdü ki, Ağarəhimin saçı qapqaradı, sıxdı, dalğa-dalğadı. Gözləri aladı, yeniyetmə qız gözləri kimi cazibədardı. Görürdü ki, Ağarəhimin kürəyi enlidi, boyu ucadı; doğrasalar ondan üç Binnət çıxar. Görürdü ki, Ağarəhimin qolsuz köynəyi boyunluğu şax dayanıb və fikirləşirdi ki, bu ağlıqda, bu şaxlıqda köynək geyinməmişəm mən. Görürdü ki, Ağarəhim qəşəngdi, yaraşıqlıdı. Binnət üzünü tanrısına tutub ürəyində soruşurdu ki, "fələk, görəydim bu qəşəng oğlanın ürəyi necədi? Ürəyi də gözəldimi? Görəydim bu, mənim puluma möhtacdır yəni? Yəni bu, mənə görə yolundan qalıb? Ya rəb, bunun bazburtunun onda birin verəydin mənə, yüz maşınım olaydı, yüzünü də vurub xıncım-xıncım eləsəydilər, uf da deməzdim. Bu şəhərli balasının ürəyində insaf adlı şey yoxdu yəni? Mən onu min manatlıq ziyana salmamışam, axı. Niyə "min manat" deyib, durub".

Əjdər başını qaldırdı, amma gözlərini açmadı.



– Əfəndi, dərdin alım, qulaq as, bu havanın adı "Göyəzən gözəlləməsidi", özüm düzəltmişəm, – dedi və başladı yeni hava çalmağa. Bir neçə mizrab vurub dayandı. Sazı köynəyə sala-sala: – Eh, ay fələk, – dedi, – mən Göyəzənin təpəsinə nə vaxt çıxacam?

Heç kim dillənmədi. Hamı hiss eləyirdi ki, süfrə arxasında söhbət tutmur; sözlərdən elə bil daş asılmışdı.

Əjdər stəkanının dibində qalmış çaxırı bir atıma içib ağzını marçıldatdı.

– Ayə, ay Əfəndi, hardan alacaqsan, ə, min manatı?

Əfəndi ona təpindi:

– Ə, kiri, ə! Ölkə viran qalmayıb ha! Dünyada təkcə ölümə çarə yoxdu. Təki can sağ olsun, hər şey düzələr. – Əlini dibdən qırxılmış başının ortasına çəkib gülümsədi. – Ayə, ay Əjdər, maşının neçəyə gedər sənin?

Əjdərin çiyinləri atıldı.

– Ağzın ağrımırmı, buna maşın deyirsən? İti bağlasan bunun içində oturmaz, amma mən otururam. – Süzülən gözlərini Əfəndinin bir az da qızarmış üzünə zillədi. – Sən de, görüm min manatı hardan tapacaqsan?

Ağarəhimin canından üşütmə keçdi, elə bildi onu lüt soyundurub bədəninə baxırlar. Kaş susaydılar, kaş bu məsələni onun yanında götür-qoy eləməyəydilər. Yəni danışmağa ayrı məqam yoxdu?

Əjdər qızışmışdı.

– Ayə, Binnətin evini bazara töküb satsan, heç min manat düzəlməz. Min manat az puldumu, allahsız?

Əfəndi də qızışdı.

– Ağzımı açma mənim! Binnətin bir inəyi var, iki danası var! Mənim də evimdə xəli-xəlçə var! Binnətin kişi təkin bacısı var – onun da saxlancı olar yəqin. Çıxardarıq bazara, satarıq. İntəhası qonaq qardaş gərək bir az ləngisin.

Ağarəhimin ürəyində: "Gözləyərəm, – dedi. – Sabah tezdən instituta təcili teleqram vuraram, bilərlər ki, gecikəcəm."

Əjdər Binnəti dümsüklədi:

– Onda anana denən, qurutlu xəngəl hazırlasın, obaşdannan durub yeyərik. – Baxışlarını Ağarəhimin üzündə güclə cəmləşdirdi. – Qurutlu xəngəl yemisənmi. Dərdin alım?

Ağarəhim yavaşca:

– Borçalıda yemişəm, – dedi.

Əjdər başını buladı.

– Yer üzündə... Qazax xəngəlinə çatan xəngəl yoxdu... Bir şərtnən ki... yanında zoğal arağı ola... Mən getdim, ayə, qoy uşaqlar görsünlər ki, dədələri var, dədələri ölməyib. – Yumruğunu sinəsinə vurdu. – Mən Əjdərəm haa! Mənə Əjdər deyərlər! O Göyəzənin təpəsinə dırmaşmasam... Əfəndi! Bavayın, bavamın goru haqqı iməkləyə-iməkləyə də olsa, qalxacam ora!

Əjdər həyətdən çıxandan sonra səsi yoldan gəldi:

– Mən Əjdərəm haa! Əjdərəm!.. Əjdər!

Əfəndi, Ağarəhimin qolundan tutub kənara çəkdi.

– Qardaş, uzan, rahat yat. Necə demisən, heylə də olacaq.

Ağarəhim dirənə-dirənə dedi:

– Məndən inciməyin... Özünüz bilirsiniz də... təzə maşındı... İnciməyin...

– Niyə inciyirik, a sağolmuş? Sən bizdən incimə ki, bizim ucbatımızdan... Ürəyini buz kimi elə... Səhər sənə xəngəl də yedizdirəcəyik, pulunu da düzəldib verəcəyik... Di, salamat qal, dərdin alım. Gecən xeyrə qalsın. Mən getdim.

Ağarəhimin xahişi ilə onun yerini çöldən saldılar. Otaqdan yaylı, dəmir çarpayı çıxardıb, armud ağacının dibinə qoydular. Gəlin, qulluq göstərmək üçün əldən gedən adam kimi, yorğan-döşəyi sahmana salıb uzaqlaşdı.

Ağarəhim yatağa paltarlı uzandı, heç ayaqqabılarını da çıxartmadı. Əzgin, yorğun olduğunu, bütün canının sızıldadığını indicə hiss elədi. Beyni də ağırlaşmışdı, amma yuxusu gəlmirdi. Başqa vaxt olsaydı Ağarəhim bəlkə də çöldə, ağac altında yatmağın ləzzətini duyardı, indi gözlərini tərtəmiz göydə sayrışan ulduzlara zilləyib qulaqlarındakı uğultunu dinləyirdi.

Bu boyda kəndin səs-səmiri çıxmırdı, elə bil kənd dərin quyunun dibinə düşmüşdü. Tövlənin qabağında kövşək çalan heyvanlar hərdən quyruqlarıyla bellərini şappıldatmasaydılar, Ağarəhim elə bilərdi ki, ətrafında ins-cins yoxdu. Elə bilərdi kənddə deyil, kimsəsiz düzü-biyabandadı və bu düzü-biyabanda səhər açılmayacaq, günəş görünməyəcək, Ağarəhim də burda bax beləcə – uzanalı qalacaq, qızıl pul kimi parıldayan bu ulduzların altından çıxa bilməyəcək. Ağarəhim köks ötürüb böyrü üstə çevrildi.

Bağçada şanapipik ququldadı, biri də uzaqdan ona səs verdi. Ağarəhim yerinin içində oturub şanapipiklərin deyişməsinə qulaq asdı. Sonra qanrılıb artırmaya tərəf baxdı. Kök arvad orda – taxta çarpayıda yatmışdı, özü də bu bürküdə, deyəsən, yorğanı başına çəkmişdi... Ağarəhim gecənin qərib sakitliyində zümzüməyə bənzər bir səs eşitdi. Quş səsi deyildi bu. Bağçadan gəlmirdi, artırmadan gəlirdi. Ağarəhimin qulaqları sükutu da eşidə biləcək dərəcədə gərildi. Kimsə ağlayırdı. Boğula-boğula, hıçqırığını uda-uda, içində, ürəyində ağlayırdı. Arvad tərpənmirdi – yatağında daş kimi qalmışdı, amma Ağarəhim inandı ki, ağlayan odur. Niyə ağlayır görəsən?.. Sabah Binnət inəyini, ya da danalarını bazara çıxaracaq, sabah Əfəndi evindəki xəlçənin bir-ikisini dəyər-dəyməzinə satmalı olacaq. Yəni kök arvad buna görə ağlayır? Bəlkə heç ağlamır, bəlkə Ağarəhimin qulağı səsə düşüb? Yox, ağlayır vallah, ağlayır... Odey tərpəndi... ağlamağını kəsdi... yönünü divara çevirdi... təzədən başladı içində ağlamağa...

Ağarəhim fikirləşdi ki, indi bu həyətdə, bu evdə qıvrımsaç qızdan başqa heç kim yatmayıb. Bax, qapısı örtülü o otaqda Binnətlə qəşəng gəlin arxası üstə uzanıb qaranlıq tavana baxırlar. Baxırlar və susurlar. Binnət siqareti siqaretin oduna calayır. Yəqin qəşəng gəlin ağlayır. Yetişmiş gilənar rənginə çalan dodaqlarını gəmirə-gəmirə ağlayır və ürəyində Ağarəhimə qarğış-nifrin yağdırır: "Görüm sənin də arvadın ölü uşaq doğsun".

Ağarəhim gerçəkli qorxdu. Elə bil göydəki ulduzlar qırmızı-qırmızı daşlara dönüb Ağarəhimin təpəsinə töküldü. Ağarəhim canında, içində dözülməz bir ağrı duydu. Ömründə birinci dəfə qardaşına gənəşməmiş bir iş görmək istədi.

Ağarəhim ürəyinin guppultusuna qulaq asa-asa çarpayıdan düşüb "Jiquli"yə tərəf getdi...

"Jiquli" evin qabağından asta-asta keçəndə arvad hövlnak dikəlib çarpayıda oturdu. Ağarəhim onun gözlərini yaxşı-yaxşı görməsə də inandı ki, arvadın gözləri heyrətdən böyüyüb...

Ayın bəyaz işığında yolun çala-çuxuru da görünürdü. Göyün üzünə yavaş-yavaş ağımtıl şəfəq gəlirdi, alatoran dağılhadağıl idi. Obaşdanın nəmli, şehli havasında "Jiquli"nin şüşələri tərləmişdi. Sınıq pəncərədən şaphaşapla içəri dolan ayaz nəfəsli külək Ağarəhimin üz-gözünü qarsır, canına həzli-ləzzətli bir üşütmə gətirirdi.

Uzaqdan qanadlı aya oxşayan gümüşü təyyarə abidəsinin yanına – maşının vurulduğu yerə çatanda Ağarəhim saatına baxdı: dörd tamam idi. Sonra oturacaqda Ağarəhimin gözlərinə bir şey sataşdı. Götürüb baxdı: qıvrımsaç qızın gülməli gəlinciyi idi. Ağarəhim gülümsədi. "Bu da mənim talismanım", – dedi və hiss elədi ki, bayaq canını yandırıb-yaxan ağrıdan, göynərtidən əsər-əlamət qalmayıb.

Ağarəhim maqnitofonun ağzındakı kaseti barmağıyla irəli itələdi.

*1980*

## QATARDA

*Dostum Həsənağa Turabova ithaf*

Gecə qatarla yol getməkdən Sabitin zəndələn-zəhləsi gedirdi, çünki qaranlıq, dar kupedə uzananda iri bir qəbir gəlib dururdu gözlərinin qabağında və Sabit səhərəcən çimir eləyə bilmirdi.

Stansiyada adam az idi. Vaqona oxşayan bircə uzun bina vardı burda. Sabit çölü içindən işıqlı olan bu binada xeyli aralıda, skamyada təktənha oturub siqaret çəkirdi və burda adda-budda gəzişən cavanların gözlərinə görünməməyə çalışırdı. Bu rayon cavanlarının pis bir xasiyyətləri vardı: tanımadıqları adamın üzünə elə zəndlə baxırdılar ki, adam başını soxmağa yer axtarırdı. Sabit çəkinirdi onlardan. Bircəciyi gördümü – bəsdi – o birilərini də duyuq salacaqdı: "Əyə, sən öləsən, Sabit Mirzədi bu. Artist... Kinoda oynayır haa..." Vəssalam! Yığışacaqlar Sabit Mirzənin başına, qoymayacaqlar fikirləriylə təkbətək qalsın, siqaretin arın-arxayın çəksin, yan-yörəyə gözləri dolusu baxsın...

Qatar vaxtında gəldi. Sabit vaqona qalxa-qalxa arxaya baxdı; ondan savayı bu vaqona minən yox idi. Qapının ağzında dayanan vaqon bələdçisi Sabitə çox zəndlə diqqət yetirirdi, deyəsən, tanımışdı onu. Sabitin kişi bələdçilərdən xoşu gəlmirdi – kişi parovoz sürər, təyyarə sürər, deyirdi, day kupelərdə döşəkağı paylamaz. Başını aşağı salıb bələdçinin yanından ötmək istədi, ancaq bələdçi onun sağ əlini qamarlayıb köhnə tanışlar kimi.

– Sabit müəllim, xoş gördük, – dedi. – Siz hara, bura hara?

Sabit dodaqlarının altında nəsə mızıldadı, ancaq bu mızıltıdan nə özü bir şey anladı, nə də bələdçi.

Bələdçi ortayaşlı, dolubədənli, qarabığ, qarabəniz bir kişi idi. Bu qəfil görüşün sevincindən dəyirmi, qırmızımtıl gözləri tamburun zəif işığında par-par parıldayırdı. Sabitin əlini bir az da bərk sıxdı.

– Heç ağlıma da gəlməzdi ki, burda rastlaşarıq, – dedi. – Gör haa... gör ha... işə bir bax...

Sabit dayanıb gözləyirdi ki, bələdçi onun əlini buraxsın, amma bələdçi, deyəsən, ondan qopmaq fikrində deyildi, Sabitin üzünə elə məhəbbətlə baxırdı ki, deyirdin bəs uzun illər həsrətini çəkdiyi əziz dostunu indicə bu balaca stansiyada tapıb.

Sabit razılıqla başını yellədi, bu görüşdən özünün də məmnun olduğunu bildirməkçün gülümsədi və əlini bələdçinin iri ovcundan yarıxoş, yarızor çıxarıb içəri keçdi. Deyəsən, vaqonda seyrəklik idi; səs-küy zad eşidilmirdi. Sabitin kupesində arıq bir kişi vardı. Əynindəki tor maykanın yaxası sallanıb sinəsindən aşağı düşmüşdü, elə bil balaca uşağa canlı-cəsədli adamın maykasını geyindirmişdilər.

Sabit bir ayağı çöldə, bir ayağı kupedə:

– Axşamınız xeyir, – dedi və kişinin hülqumlu, nazik boğazına baxa-baxa fikirləşdi: "Görəsən xoruldamır ki, bu?"

Kişi tor maykasının az qala dirsəyinəcən sürüşmüş bir çiynini yuxarı dartıb:

– Aqibətiniz xeyir, – dedi.

İçəridə təndir havası vardı, tərs kimi kupenin pəncərəsi də bağlı idi. Sabit yaxınlaşıb əlini qoşa laylı pəncərənin dəstəyinə atanda kişi sakitcə dedi:

– Zəhmət çəkməyin, fələyin bağladığı qapı kimi bir şeydi bu; iki saatdı əlləşirəm, aça bilmirəm. Bizim poyezdləri həmişə belə görmüşəm: pəncərələri yayda mıxlı olar, qışda sınıq-salxaq. – Kişi başını buladı və maykasının çiyni yenə dirsəyinəcən sürüşdü. – Lüt soyunmaqdan başqa çarə yoxdu, – dedi.

Sabit kupedən çıxdı. Siqaret yandırdı, ancaq birinci qullabdan sonra hiss elədi ki, ürəyi siqaret istəmir; qatarı gözləyəndə bu zəqqutun tüstüdən çox udmuşdu.

Qatar taqqaturuqla, yüyəni buraxılmış at kimi yorğa-yorğa gedirdi. Sabit də kip bağlanmış qoşa laylı pəncərədən qaranlıq çölə baxırdı: Pəncərədən düşən ağ işıq zolağı qatarın böyrüncə yeri yalaya– yalaya qaçırdı. İşıq zolağından o yana heç nə görünmürdü, deyəsən. düzü-biyabanlıq idi buralar. Sabit düzənlik zənn elədiyi o qaranlığa çox baxa bilmədi – bələdçi yanladı onu. Bələdçinin bir əlində qalın stəkan vardı, bir əlində butulka.

– Mineralnı sudu, – dedi, – ürəyiniz yananda içərsiniz.

Bələdçi butulka-stəkanı kupeyə qoyub, maykalı kişiyə dedi:

– Bilirsən yoldaşın kimdi?.. Sabit Mirzə!.. Artist!

Maykalı kişi oturduğu yerdəcə boynunu uzadıb kupenin qapısından dəhlizə tərəf baxdı və sözlərini pəncərənin qabağında dayanmış Sabit Mirzəyə çatdırmaq üçün səsini qaldırdı:

– Deyirəm, axı, mən bunu kimə oxşadıram! Bayaqdan oturub fikirləşirəm ki, əşi bu adamı harda görmüşəm?! – Kişi qalxdı, kupenin üst taxtına tulladığı köynəyini tələm-tələsik əyninə keçirtdi. – Bunu televizorda çox görmüşəm, – dedi.

Bələdçi də sözlərini Sabit Mirzəyə çatdırmaq üçün səsini qaldırdı:

– Mən ölüm, bir nömrəli artesimizdi! Allah canını sağ eləsin! – Sonra kupedən çıxıb, Sabit Mirzənin böyründə dayandı. – Nə lazım olsa, mən hazır – dedi.

– Çox sağ olun, heç nə lazım deyil. Təkcə... bu pəncərəni açmaq mümkün olsaydı... içəridə nəfəs almaq olmur...

Bələdçi bir əlini sinəsinə qoyub:

– Acizəm, – dedi. – Mənlik iş döyül bu. Onu elə bağlamayıblar ki, bir də açılsın. Beş-altı yerdən mıxlayıblar.

Bələdçi getdi. Sabit Mirzə təzədən üzünü pəncərəyə çevirmək istədi, ancaq çevirə bilmədi: ucaboylu bir kişi qonşu kupenin qapısı ağzında dayanıb adamı deşib keçən bir nəzərlə ona baxırdı. Elə baxırdı, elə bil Sabit Mirzənin iç-içalatını görmək istəyirdi. Sabit bu baxışdan özünü itirdi, az qaldı kişiyə salam versin. Fikirləşdi ki, ucaboylu bu adam beləcə zəndlə baxacaq və birdən gülümsəyəcək. Amma ucaboylu adam, gülümsədi, gözlərini Sabit Mirzənin gözlərinə zilləyib, iki barmağının arasında tutduğu siqareti dodaqlarına apardı.

– Yandırmaq olar? – dedi və razılıq gözləmədən yaxınlaşıb siqaretini Sabit Mirzənin siqaretinin oduna yandırdı, təzədən gözlərini Sabit Mirzənin gözlərinə zillədi. – Prokuror rolunu oynamağın xoşuma gəlmir, – dedi. – Pis oynayırsan...

Tanımadığı adamdan belə qəfil tənbeh gözləmədiyi üçün Sabit Mirzə nə cavab versin. İki il idi ki, o əsəri repertuardan çıxartmışdılar. Sabit Mirzə yanıb qurtarmaqda olan siqaretini pəncərənin altına vurulmuş dəmir külqabıya basıb əzdi.

– Day prokuror rolu oynamıram, – dedi.

Ucaboylu adam dodaqlarını dəyirmilədib tüstünü tavana üfürdü.

– Lap yaxşı eləyirsən, – dedi. – Yalan oynamaqdansa, oynamamaq məsləhətdi.

Bu adamın yekəxana danışığı xoşuna gəlməsə də, Sabit Mirzə acığını boğdu; tamaşaçı fikrinə qulaq asmağın nə ziyanı var? Bəlkə ağıllı bir söz deyəcək, ağıllı bir məsləhət verəcək?

– Mənim prokurorum niyə sizin xoşunuza gəlmir? – dedi.

Ucaboy adam dəhlizin o biri başına nəzər saldı. O tərəfdə saçları az qala çiyninə tökülmüş bir oğlan dayanmışdı. Ucaboy adam həmin uzunsaç oğlana baxa-baxa dedi:

– Sən səhnədə prokurordan çox xeyirxah bir müəllimə oxşayırsan. Prokurorlar sənin oynadığın kimi olmurlar. Prokurorlar elə danışmırlar. – Gözlərini uzunsaç oğlandan çəkdi. – Nəyi də bilməsəm, o sahəyə bələdəm, – dedi və bayaqdan bəri ilk dəfə üzündə təbəssümə oxşar bir ifadə dolandı.



Sabit Mirzə onun yuxarıdan iki düyməsi açıq olan ağappaq köynəyinə baxdı: "yəqin hansı rayonunsa prokurorudu bu."

Ucaboy adam səsinin ahəngini yumşaldıb, mərhəmətcəsinə soruşdu:

– Nə əcəb güzarın bu yerlərə düşüb?

Sabit Mirzə onun səsinin ahəngini dəyişməyindən çox, mövzunu dəyişməyindən xoşhallanıb cavab verdi:

– Qastroldaydım, Truppamız qaldı. Mən sabah Bakıda olmalıyam, təzə filmə çəkilirəm... Deyəsən, yorğun-ağrın çatacam Bakıya; bu kupedə uzanmaq, dincəlmək mümkün deyil, pəncərəsi açılmır, içəri yaman istidi.

Ucaboy adam üzünü dəhlizin o başındakı uzunsaç oğlana tutub çağırdı:

– Ay oğlan! Ay bala!

Oğlan dönüb baxdı; çox da cavan deyildi. Ucaboy adam bərkdən dedi:

Uzunsaç oğlan tərəddüd içində baxa-baxa qaldı; getsin, getməsin? Görəsən belə hökmlə danışan, onu uşaq kimi buyuran bu adam kimdi?

Ucaboy adam səsinə bir az acıq da qatdı.

– Denən, yoldaş Dadaşov çağırır!

"Yoldaş Dadaşov" sözü, deyəsən, oğlanın tərəddüdünə son qoydu: oğlan getdi bələdçini axtarmağa.

Ucaboy adam siqaretini qapaqlı dəmir külqabıya atdı.

– Düzələr, – dedi.

Bələdçi tələsik addımlarla gəlib ucaboy adamın qabağında dayandı.

– Eşidirəm, yoldaş Dadaşov!

Dadaşov sakit, ancaq hökmlə dedi:

– Bu kişinin kupesindəki pəncərə açılmadı... Beş dəqiqə vaxt verirəm sənə...

Bələdçi, Sabit Mirzəyə baxıb, üzrxahlıq eləyirmiş kimi dedi:

– Beş dəqiqəyə aça bilmərəm, vallah.

Dadaşov:

– Olsun on dəqiqə! – dedi və öz kupesinə girdi.

Sabit Mirzənin daha şübhə yeri qalmadı: "Bu, kimdirsə, hər yerdə sözü keçən adamdı". Donuxub qalmış bələdçidən soruşdu:

– Bu yoldaş kimdi?

Bələdçi çiynini çəkib yavaşca cavab verdi:

– Nəçi olduğunu bilmirəm, amma... balaca adama oxşamır.

Bələdçi necə tələsik gəlmişdisə, eləcə də getdi.

Dadaşov kupedən çıxıb, Sabit Mirzəyə "Kent" qutusu uzatdı.

– Bayaq gördüm "Avrora" çəkirsən. Sənə yaraşan siqaret deyil. Bunnan çək.

Dadaşovun əlindəki "Kent" qutusuna baxa-baxa Sabit Mirzə başını buladı.

– "Avrora"ya öyrəşmişəm, – dedi. – Sağ olun.

– Mən çəkən deyiləm, hərdən, kefim duranda fısqırdıram. Cana da ziyandı, cibə də... – Üzünü öz kupesinə tərəf tutub çağırdı: – Fətulla!

Kupenin qapısında qırmızısifət, gödək bir kişi göründü. Dadaşov "Kent" qutusunu ona uzatdı.

– Bunu qoy yerinə.

Kişi siqaret qutusunu alıb; kupeyə girdi. Sabit Mirzə utandığından gözlərini döşəməyə zillədi. Kimdən utandığını özü də bilmirdi: qırmızısifət kişidənmi. Dadaşovdanmı, özündənmi? "Bu Dadaşov, deyəsən, çox ədəbsiz adamdı".

Sabit Mirzə başını qaldırıb Dadaşovun üzünə məzəmmətlə baxdı. Dadaşov gülümsəyirdi.

Bələdçi çəkic, kəlbətin gətirib. Sabit Mirzənin kupesində taqqaturuq salmışdı və Sabit Mirzəyə elə gəlirdi ki, Dadaşov o taqqaturuqdan zövq aldığı üçün, özünün gücünə, hökmünə bir daha inandığı üçün gülümsəyir. Ancaq Sabit Mirzə onun iri gözlərində adamın ürəyini hərarətlə, sevinclə dolduran bir işıq gördü, ağımtıl üzündə nurlu, mülayim bir təbəssüm gördü və indicə Dadaşov barədə pis fikrə düşməyinə peşman oldu.

Dadaşov təbəssümü qədər ılıq, mülayim olan səslə dedi:

– Saçın tez tökülüb. Heyf... Yaşda mənnən kiçik olarsan.

Dadaşovun səsində elə canıyananlıq, elə mərhəmətlilik vardı ki, Sabit Mirzə onu cavabsız qoya bilmədi.

– Qırx yaşın içindəyəm, – dedi.

– Mənnən yeddi yaş balacasan. Özü də səhnədə çox boylu-buxunlu görünürsən, amma, sən demə, o qədər də ucaboy deyilsənmiş.

Sabit Mirzə özünü alçaqboy hesab eləmirdi, ancaq indi baxıb gördü ki, başı Dadaşovun çənəsi bərabərindədir. Birdən ağlına gəldi ki, Dadaşov boynunun ucalığı ilə öyünür, qürrələnir. Elə bil zənnində yanılıb-yanılmadığını dürüstləşdirmək üçün diqqətlə Dadaşovun üzünə baxdı. Dadaşovun sıx, dalğalı saçı səliqəylə arxaya daranmışdı. Gicgahlarına dən düşmüşdü. Gözləri də iri idi, burnu da. Qapqara qaşlarının tükü uzun idi, buruq-buruq idi. Qalın, dördbucaq bığı vardı.

Bələdçi qan-tər içində kupedən çıxıb çəkic-kəlbətini Dadaşova göstərə-göstərə dedi:

– Düzəldi... Başqa nə qulluğunuz var?

Dadaşovun üz-gözündən bayaqkı ılıq təbəssümdən əsər-əlamət qalmadı. Bircə saniyənin içində sifətinin ifadəsi dəyişdi, ciddiləşdi.



– Qulluğum olanda çağıtdıraram səni, – dedi.

Bələdçi boyun-boğazının tərini silə-silə getdi.

Qırmızısifət kişi başını kupedən çıxardıb:

– Yoldaş Dadaşov, – dedi, – yatmaq – Yoldaş Dadaşov, – dedi, – yatmaq istəyirsinizsə, yorğan-döşəyinizi salım.

– Salmağına sal, ancaq hələ yatmıram. – Dadaşov başının işarəsiylə uzunsaç oğlanı göstərib: – Qoy uşaq-muşaq indidən yatsın, – dedi.

Uzunsaç oğlan əvvəlki yerində – pəncərənin qabağında dayanıb siqaret çəkirdi. Üzünü çölə tutsa da, bir gözünün ucu ilə Dadaşova baxırdı. Elə bil qulaqları səsdə idi, bu dəqiqə Dadaşovun çağıracağını, təzə buyruq verəcəyini gözləyirdi.

Sabit Mirzə:

– Bir az dincəlim. Yorğunam... – dedi və kupeyə girib arıq kişiylə üzbəüz oturdu.

Kişi dedi:

– Çox sağ olun. Siz olmasaydınız pəncərə qışacan bağlı qalacaqdı.

İçəriyə gurhagurla ılıq meh dolurdu, meh pəncərənin sarımtıl pərdələrini şaphaşapla yellədirdi. Kupe daha əvvəlki kimi bürkü-boğanaq deyildi.

Sabit Mirzə kürəyini arakəsməyə söykəyib.

– Dadaşov təşəkkür eləyin, pəncərəni o açdırıb, – dedi və kişinin key-key baxmağından anladı ki, kişi Dadaşovun varlığından, kimliyindən bixəbərdir. Sabit Mirzə üzbəüz arakəsməyə işarə eləyəndən sonra arıq kişiyə agah oldu ki, "Dadaşov" deyilən şəxs qonşu kupedədir və şübhəsiz, bu Dadaşov bir sözü iki olan adamlardan deyil.

Arıq kişi gözlərini Sabit Mirzənin üzünə zillədi.

– Yaxşı ki, səni üzbəsurət gördüm, – dedi. – Sən televizora çıxanda bütün külfət yığışır televizorun başına. Səni hamımız çox istəyirik.

Bu sözlərin müqabilində Sabit Mirzə nəsə deməli idi.

– Təşəkkür eləyirəm, – dedi.

Elə bu dəm Dadaşov içəri girdi. Arıq kişi əvvəlcə yerindən tərpənmək istəmədi, sonra ürəyinə damdı ki, ucaboy bu adam elə Dadaşov özüdür ki var. Kişi qapıya tərəf sürüşüb, yerini Dadaşova verdi.

Dadaşov, Sabit Mirzəylə qabaq-qənşər oturub, dalğalı saçını barmaqlarıyla daraqlaya-daraqlaya arıq kişidən soruşdu:

– Adın nədi, əşi?

Kişi:

– Adım Qasımdı, – dedi.

– Yatanda səsin çıxmır ki?

Kişi başa düşmədi.

– Nə buyurdunuz? – dedi.
– Deyirəm, yatanda xoruldamırsan ki?
Kişi Sabit Mirzənin üzünə baxıb, günahını boynuna alan adam kimi dedi:
– Deyilənə görə, hərdən xoruldayıram... yorğun olanda...
Dadaşov nəzərlərini kişinin hülqumlu, nazik boğazına dikdi.
– Yorğun niyə olursan? Daş-zad daşımırsan ha.
Kişi utancaq uşaq təkin gülümsədi.
– Elə daş daşıyıram, – dedi, – sement daşıyıram, qum daşıyıram... tikintidə işləyirəm... Samosval sürürəm... Gedirəm Bakıdan təzə samosval gətirməyə.
Dadaşov başını buladı.
– Bu can-cəsədnən samosvala necə gücün çatır? Səni samosval bu kökə salıb, ay yazıq. Səhər-səhər bal ye, qaymaq ye, nehrə yağı ye. Skeletə oxşayırsan lap.
Kişi qaşqabağını salladıb susdu, amma Dadaşov əl çəkmədi ondan.
– Əşi, xoruldayacaqsansa, səni keçirdək ayrı kupeyə, – dedi. – Sabit müəllimi narahat eləyərsən burda.
Kişi pərt-pərt, güclə eşidiləcək bir səslə:
– Narahat eləmərəm, – dedi. – Nəyimiz olmasa da, qanacağımız var.
Sabit Mirzə başa düşürdü ki, Dadaşov bu arıq kişini ələ salır. Başa düşürdü, ancaq dilini tərpədib onu yerində otuzdura bilmirdi. Elə bil Dadaşovun qəlbinə dəyməkdən ehtiyat eləyirdi. Bu acizliyinə görə Sabit Mirzə özü özündən utandı və mənasız sorğu-suala son qoymaq üçün söhbəti dəyişdi.
– Bakıya saat neçədə çatacağıq? – dedi.
Onun sualına cavab verən olmadı.
Qasım kişi fikrə getmişdi, Dadaşov isə buruq-buruq qaşlarını çatıb dəhlizdən gələn səsə qulaq asırdı.
– Nar! Nar! Gülöyşə nar! Mələs nar!
Cavan bir oğlan həsir zənbili qabağında ikiəlli tutub kupedəkilərə baxdı.
– Nar istəyirsiniz?
Dadaşov barmağının işarəsiylə oğlanın içəri çağırdı. Zənbildən beş iri nar seçdi.
– Üstümdə pul yoxdu, – dedi, pencəyin cibindədi. Bu narları ver qonşu kupedəki kişiyə, denən, Dadaşov seçib... denən, pulunu versin.
Dadaşov sözlərinin təsirini yoxlayırmış kimi Sabit Mirzəyə baxdı, ancaq Sabit Mirzə onun təkəbbür yağan baxışlarından acıqlanmadı. Bəyənmədiyi tamaşaya maraq ucbatından axıracan baxan tamaşaçı



kimi səbrini basdı və zənn elədi ki, bu darısqal kupe balaca bir səhnədir, Dadaşov da bu səhnədə bədahətən oynanılan pyesin baş qəhrəmanıdır. Belə zənn eləməsən, Dadaşovun hoqqalarına dözmək müşkül məsələdir. Sabit Mirzənin yadına mərhum müəllimi Məmməd Qaya düşdü. Məmməd Qaya vaxtilə ortabab aktyor olmuşdu, ortabab olduğuna inanandan sonra səhnənin daşını atıb, lövbərini salmışdı instituta. Sevdiyi kəlamları vardı ki, dönə-dönə deməkdən yorulmurdu. "Aktyor üçün ən yaxşı məktəb – həyatdır. Gördüyünüz, rastlaşdığınız adamların yanından laqeyd ötməyin ö adamların danışığına, davranışına fikir verin. Hərəsindən bir jeyst, ştrix götürün! Tip axtarın! Tip doludu, tip hər yanda var, onları görmək hünərdi". Dadaşovun özündən razı, tox sifətinə baxa-baxa Sabit Mirzə ürəyində dedi: "Qəbrin nurla dolsun, Məmməd Qaya".
Qırmızısifət kişi qapının ağzında göründü. Əlində bürmələdiyi yaylıqla boynunun tərini silə-silə dedi:
– Narların hamısını götürdüm, yoldaş Dadaşov... zənbili zadlı...
Dadaşov əllərini yana açıb, süni təəccüblə:
– Bir zənbil nar nəyimə lazımdı? – dedi. – Mən beşini seçmişdim...
Qırmızısifət kişi yaylığı alnında gəzdirdi.
– Lazımınız olar... uşaqlara, filana... nardı də...
Dadaşov ona yer göstərdi.
– Gəl otur, Fətulla.
Arıq kişi qapıya tərəf bir az da çəkildi. Fətulla yaylığı ovcunda xışmalaya-xışmalaya keçib Dadaşov elə bildi ki, Fətulla cibindən papiros çıxardır. Başını bulaya-bulaya:
– Burda papiros çəkməyi qadağan eləyirəm, – dedi.
– Mən tüstüdə otura bilmirəm.
Fətullanın qırmızı sifəti bir az da allandı. Əlindəki yaylığı Dadaşova göstərib gülümsədi.
– Anadangəlmə çəkən deyiləm, – dedi.
Bu dəm uzunsaç oğlan kupenin qabağında göründü və öthaötdə başını döndərib içəridəkilərə ani, ürkək bir nəzər saldı.
Dadaşov:
– Ay oğlan! – dedi.
Uzunsaç oğlan qayıdıb qapının ağzında dayandı.
Dadaşov onu təpədən dırnağa süzdü. Sözünü deməyə tələsmirdi və Sabit Mirzə ovcunun içi kimi bilirdi ki, Dadaşov qəsdən susur, bu uzunsaç oğlanı nigaran saxlamaqdan zövq alır. Axırı ki, Dadaşov dilləndi:
– Bayaqdan səni "oğlan" deyib çağırıram. Adın nədi sənin?

Oğlan çiynini qapıya söykədi.
– Adım Vəzirdi, – dedi.
Dadaşovun qalın dodaqları dartıldı, ağappaq, sapsağlam dişləri göründü.
– Hansı padşahın vəzirisən, ə? – dedi. – Dədən bir fərli ad tapmırdı sənə qoymağa?
Uzunsaç oğlan göyümtül gözlərini dirəmişdi Dadaşovun ağappaq dişlərinə, amma deyəsən, heç nə görmürdü. Gözlərində çaşqın bir ifadə dolanırdı. Bilmirdi gülümsəsin, yoxsa acıqlansın. Oğlanın elə bil sacda qovurmuşdular: üzünün dərisi qapqara idi. Yarımqol köynək geyinmişdi, köynəyin rənginə düşməyən qalstuk bağlamışdı.
Dadaşov hiss elədi ki, zarafatı oğlanın xoşuna gəlmədi.
– Nə acıqlı baxırsan? – dedi. – Minnətin olsun ki, sənnən zarafat eləyirəm... Tanıyıram səni... Beş barmağım kimi... Prorabsan... Kantorunuz Bakıdadı, amma sənin briqadan rayonda işləyir. Peşə-texniki məktəbini təmir eləyirsiniz. Bilirəm necə təmir eləyirsiniz. Düz demirəm?
Uzunsaç oğlan çiynini qapıdan araladı.
– Məni hardan tanıyırsınız? – dedi.
Dadaşov gileyli səslə cavab verdi:
– Əvvəlcə sən məni tanımalıydın.
Fətulla yaylığını cibindən çıxara-çıxara;
– Cavandı, – dedi, səhvini düzəldər.
Oğlan ovsunlanmış kimi nəzərlərini Dadaşovdan çəkmirdi. Göyümtül gözlərində daha çaşqınlıq ifadəsi yox idi: nigaran baxırdı və bu nigaran baxışlardan hiss olunurdu ki, oğlanın ürəyində yumşalmağa, mülayimləşməyə meyl, həvəs var. Bunu, deyəsən, Dadaşov da duymuşdu, ona görə də uşaqların qəbahətindən keçməyi bacaran yaşlı adam ədasıyla:
– Vaqon-restoran burdan çox uzaqdı? – dedi.
Oğlan duruxa-duruxa:
– Burdan... ora... üç vaqonluq yoldu, – dedi.
Dadaşov da eynən oğlan təkin duruxa-duruxa.
– Sənə zəhmət... mənə xəcalət. – dedi. – Gedərsən ora... Üç-dörd butulka limonad götürürsən... Denən, Dadaşova lazımdı, sərinindən versinlər.
Oğlan gülümsədi, amma gülümsəməyində güclə seziləcək soyuqluq, qorxaqlıq vardı. Naəlac qalmış adam kimi çiynini çəkdi.
– Baş üstə! – deyib getdi.
Qırx illik ömründə Sabit Mirzə yolları çox ölçmüşdü, təyyarədə, avtobusda çox adamla rastlaşmışdı, ancaq indi yadında qalanların barmaqla saya bilərdi. Elə adam var ki; onunla iki gün yol yoldaşı olursan,



yaxud mehmanxanada bir otaqda qalırsan, di gəl ki, xudahafizləşib ayrılandan sonra elə oradaca unudursan onu. Bu görüşdən, olsa-olsa, qəlbində ala-tala yuxu kimi tez dağılan, seyrək bir xatirə qalır. Elə adam da var ki, yarımca saatlıq ünsiyyətdən sonra həmişəlik həkk olur beyninə. Yaxşımı, pismi cəhətiylə – fərqi yoxdu – istədiyin an, istədiyin dəqiqə apaydınca xatırlaya bilirsən onu; bütün cizgilərlə gəlib durur gözlərinin qabağında: Sabit Mirzə inanırdı ki, vəzifəsiylə qürrələnən, yekəxana adam görən kimi yadına Dadaşov düşəcək.
Kupedə, deyəsən, Dadaşovdan savayı heç kim danışmaq istəmirdi. Sabit Mirzənin danışmaq həvəsini Dadaşov ilk dəqiqədən öldürmüşdü, həm də Sabit Mirzə əmin idi ki, burdakıların danışığı, söhbəti Dadaşov üçün milçək vızıltısı kimi bir şeydi. Burda əsas söz Dadaşovundu.
Dadaşov küncdə büzüşüb oturmuşdu. Qasım kişini dindirdi.
– Uşaqdan-zaddan nəyin var, əşi? Evin, eşiyin...
Dadaşovun sualında saymazyanalıq vardı, sanki müttəhimi sorğuya çəkirdi. Qasım kişi özünü müttəhim yerinə qoymaq istəmədi, o da saymazyana, bir az da istehzayla cavab verdi:
– Yuvada-zadda yaşamırıq ha. Ev-eşiyimiz də var, arvad-uşağım da. Kubik daşdan ikimərtəbəli ev tikdirmişəm. Həyətim, bağ-bağçam... Dəmirdən elə darvaza saldırmışam ki, rayonda tayı-bərabəri yoxdu.
Dadaşov soruşdu:
– Uşaqların işləyəni var?
– Xeyr
– O ev-eşiyi, dəm-dəstgahı samosvalda işləməknən düzəltdirmisən?
Qasım kişi tərs-tərs Dadaşova baxdı:
– Mən elə cavanlığımdan şofer işləmişəm, – dedi və gördü ki, bu sorğu-sual doğrudan da, müstəntiqlə müttəhimin sorğu-sualına oxşayır.
Qasım kişi incik görkəm alıb susdu. Qaş-qabağını sallatmağından hiss olunurdu ki, daha danışmağa həvəsi yoxdu və Dadaşovun bircə sualına da cavab vermək niyyətində deyil.
Uzunsaç oğlan üç butulka limonad gətirdi. Oğlan butulkaları qoyub çıxmaq istəyəndə Dadaşov dedi:
– Buralarda ol, bəlkə buyruğumuz oldu sənə.
Oğlan dinmədi. Heç ikicə addım atmamışdı ki, Dadaşov təzədən səslədi onu.
– Vəzir! Ay padşahın sağ əli!
Vəzir qayıdıb qapının ağzında dayandı. Taqətdən düşmüş adam təkin çiyinlərini silkələyib Dadaşova baxdı.
Dadaşov dedi:
– O konduktoru çağır bura.

Bələdçini çağırmaq lazım olmadı. Bələdçi özü gəlib çıxdı, həm də qatar rəisi ilə birlikdə. Rəis kupeyə ötəri baxıb keçmək istəyirdi, Dadaşov saxladı onu.

– Qatarın rəisi sənsən? – dedi

Rəis gözlərini qıyıb Dadaşova baxdı, sanki bu adamı harda gördüyünü, hardan tanıdığını yadına salmaq istəyirdi. Dadaşov ona çox fikirləşməyə macal vermədi, bir az incik, bir az məzəmmətlə dedi:

– Bu qatara minməyimə peşman olmuşam. Bu nədi, əşi? Vaqon-restoranda ağıza qoymağa bir şey yoxdu.

Rəis də eynən bələdçi kimi ortayaşlı, dolubədənli kişi idi. Qaraqabaq adama oxşayırdı, elə bayaqdan zəndlə Dadaşova baxırdı, amma deyəsən, onu tanıyıb-tanımadığını anışdıra bilmirdi. Rəis təəssüf andıran səslə:

– Restoranı mən təchiz eləmirəm, – dedi. Yenə nəsə demək istəyirdi ki, bələdçi onu qabaqladı.

– Nə lazımdı, təşkil eləyərik, yoldaş Dadaşov.

Dadaşov başını buladı.

– Mən özümçün demirəm... Sərnişinlərin qayğısına qalmaq lazımdı. Yemək-içməyə ehtiyacım olsaydı, xəbər eləyərdim, hər stansiyada dəm-dəstgahla gözləyərdilər məni. Xəlbət gedirəm ki, dost-tanışlar məni narahat eləməsinlər... Belə olmaz, sizin işinizdən razı qalmadım. – Öz-özünə danışırmış kimi əlavə elədi. – Sonra da deyəcəklər ki, Dadaşov pislik elədi bizə.

Dadaşov acıqlanmış təkin üzünü pəncərəyə tutdu. Qapının ağzında quruyub qalmış rəis indi onun bir qulağını görürdü. Elə baxırdı, elə baxırdı elə bil onu təəccübləndirən, çaşdıran Dadaşovun sözləri deyildi, tay qulağı idi. Bələdçi də Dadaşovun qulağına baxırdı: Rəislə bələdçinin baxışları Dadaşovun qulağında birləşdi, toqquşdu, sonra bir-birinə zilləndi... Bələdçi ürəkli-ürəkli dedi:

– Hər nə lazımdı...

Onun sözünü rəis tamamladı:

–... təşkil eləyərik.

Rəislə bələdçi gedəndən sonra Dadaşov Sabit Mirzədən soruşdu:

– Acmamısan ki?

Sabit Mirzə ac idi, amma:

– Yox, – dedi, – acmamışam.

Dadaşov əlini Fətullanın kürəyinə vurdu.

– Qalx... Dörd-beş nar seç, gətir.

Fətulla getdi o biri kupedən nar gətirməyə.

Sabit Mirzə başını pəncərənin qırağına söykəyib gözlərini yumdu. "Qəbrin nurla dolsun, Məmməd Qaya. Tip öz ayaqları ilə gəlib yanıma.



Belə tipi sən heç yuxunda da görməmişdin." Sabit Mirzə dilxor idi, Məmməd Qayanın tövsiyəsinə əməl eləyə bilmirdi, Dadaşovun arın-arxayın müşahidə eləməyə səbri çatmırdı. Ürəyinə dammışdı ki, bu kupedə axırı bir qalmaqal düşəcək, kimsə Dadaşovun payını verəcək və bu "kimsə", bəlkə də Sabit Mirzə özü olacaq.

Fətulla dörd dənə nar gətirdi: adama biri...

Bələdçi, əlində dolu tor zənbil içəri girdi.

– Naçalnik göndərib, – dedi və zənbildəkiləri bir-bir yığdı Dadaşovun qabağına.

Soyutma toyuq, soyutma yumurta, pomidor, xiyar, holland pendiri, bir şüşə konyak balaca stolun üstünə güclə yerləşdi. Bələdçi qaça-qaça gedib dörd dənə də qalın stəkan gətirdi.

Dadaşov, Fətullanı dümsüklədi:

– Süz görək.

Fətulla stəkanın üçünə konyak süzdü, boş stəkanı qırağa qoydu. Dadaşov öz stəkanını götürüb, üzünü Sabit Mirzəyə tutdu. Sabit Mirzə arxasını arakəsməyə söykədi.

– Mən gecələr içmirəm, – dedi.

Dadaşov üzünü Qasım kişiyə tutdu. Qasım kişinin incikliyi hələ sovuşmamışdı, elə incik-incik:

– Mən onun daşını çoxdan atmışam, – dedi.

Dadaşov üzünü Fətullaya tutdu. Fətulla əlini boş stəkanın ağzına qoydu.

– Mənim mədəm xəstədir, – dedi. – Hər il Yesentukiyə gedirəm... müalicəyə...

Dadaşov qalın qaşlarını çatdı:

– Mənim sözümü yerə salırsan?

Fətulla əlini boş stəkanın ağzından götürüb sinəsinə qoydu.

– Üzr istəyirəm, – dedi. – Onca qram içsəm, ölərəm.

Dadaşov başının işarəsiylə qapını göstərdi:

– Onda çıx burdan, mənim məclisimdə oturma!

Fətulla əvvəlcə elə bildi Dadaşov zarafat eləyir, sonra gördü ki, yox, Dadaşovun gözləri alacalanıb, Dadaşov ciddi danışır. Fətulla pərtliyini büruzə verməmək üçün gülümsədi.

Dadaşov üzünü qapının yanında dayanmış bələdçiyə tutdu. Bələdçi, deyəsən, içmək istəyirdi, amma ürək eləmirdi; birdən Dadaşov onu sınayar? Bələdçi dirənə-dirənə:

– Olmaz, – dedi, – iş başında...

Dadaşov ona da qapını göstərdi:

– Xoş getdin!

Bələdçi, ilan ağzından qurtarmış qurbağa təkin aradan çıxdı.
Dadaşov stəkanını butulkanın yanına qoyub köks ötürdü.
– Yəni bu boyda vaqonda bir kişi tapılmayacaq?! – dedi.
Qasım kişi yerində qurcuxdu. Sabit Mirzə ürəyində: "Lənət sənə, kor şeytan" – dedi.
Dadaşov süfrəyə baxıb başını buladı.
– Bircə şey çatmır: şampanski! Konyakın üstündən şampanski ləzzət verir... adamın yanğısını söndürür. – Qapıya tərəf boylandı. – O oğlan hara getdi? Göndərim, bir-iki butulka şampanski alsın. – Çağırdı. – Vəzir! Vəzir!
Bələdçi gəldi.
– O uzunsaç oğlanı çağırırsınız? – dedi. – Getdi. Çamadanını götürüb keçdi ayrı vaqona. Dedi, day gəlməyəcəm.
Dadaşov gözlərini qıydı.
– Deməli, mənnən qaçdı? Neynək!
Bələdçi pəncələri üstə uzaqlaşdı.
Bir müddət heç kim danışmadı. Təkcə təkərlərin yeknəsəq taqqıltısı eşidildi. Dadaşov handan-hana başını döndərib, sınayıcı nəzərlərlə Qasım kişiyə baxdı.
– Bəlkə şampanski almağa sən gedəsən? – dedi.
Bayaqdan Qasım kişinin sinəsində yığılıb düyün bağlamış acıq partlayıb çıxdı ortalığa. Kişi boğazının damarları şişə-şişə:
– Bura bax, – dedi, – özüm özünə borcluyam, yoxsa dədəm dədənə borcludu?! Səninçün hambalam, nəyəm mən?! Böyük adamsan deyə ayaqlarının altında torpaq olmalıyıq biz?! Birini ora buyurursan, birin bura buyurursan, birinə ağzından çıxanı deyirsən! Nə ağsaqqal saya salırsan, nə qarasaqqal! Dur, çıx burdan! Tez!
Elə bil bayaqdan Sabit Mirzənin ürəyinə bir tikan sancılmışdı və Qasım kişi indicə o tikanı ehmalca çıxartdı ordan. Qasım kişinin gözləri böyümüşdü, amma Dadaşovun bir tükü də tərpənmirdi.
Dadaşov, heç nə olmayıbmış kimi, gülümsəyə-gülümsəyə, sakit-sakit dedi:
– Özündən çıxma, əşi, peşman olarsan.
Qasım kişi səsini bir az da qaldırdı:
– Neynəyəcəksən mənə?!
Dadaşov mənalı bir ahənglə:
– İstəsəm, pislik eləyərəm, – dedi. – Şoferin də işində əngəl tapmaq olar. Barmağımın bircə işarəsi kifayətdi ki, səni çəksinlər ortalığa.
Qasım kişi səsini bir az saldı aşağı:
– Neynəmişəm axı mən?



Dadaşov bayaqkı təmkinlə:
– Lazım gəlsə, sübut eləyərəm, – dedi. – Dilləşmə mənnən...
Qasım kişi birdən-birə sustaldı. Sanki özünü yox, Dadaşovu sakitləşdirmək üçün səsinin səbbini alıb dedi:
– Böyük adam olanda nə olar ey? Biz də özümüzə görə bir kişiyik də. – Asta-asta qalxdı. Bu söz-söhbətdən peşman olubmuş kimi başını buladı. – Gedirəm şampanski gətirməyə, – dedi, – amma elə bilməyin ki, qorxumdan gedirəm.
Qasım kişi çıxandan sonra Sabit Mirzənin əlinə fürsət düşdü. Kinli-kinli Dadaşova baxdı.
– Bəlkə məni də bir işə buyurasan... – İstədi "ay zırrama" desin, amma sözü dilinin ucunda saxladı, çünki Dadaşovun iri gözlərində bircə dəfə gördüyü ılıq, mülayim, tanış təbəssümü yenə gördü.
Dadaşovun üzündən nur yağırdı, elə bil bircə anın içində dəyişib tamam başqa adam olmuşdu.
– Bilirəm, mənnən zəhlən gedir, – dedi. – Hamınızı dilxor eləmişəm. Özümü yekəxana aparıram, heç kim ürək eləyib soruşmur ki, "axı sən kimsən, ay Dadaşov?"
Sabit Mirzə acığını güclə boğub soruşdu:
– Axı sən kimsən?
Dadaşov gülümsəyə-gülümsəyə:
– Mən çəkməçiyəm, – dedi. – Yırtıq ayaqqabılara yamaq vururam. Vaqona minəndən sonra ürəyimdən keçdi ki, özümü böyük adam kimi aparım. O kişi var ha, – Fətulla – o elədi. Boy-buxunuma, bazburtuma baxıb, familiyamı soruşdu. Adımı yox ha, familiyamı... Başa düşdüm ki, məni vəzifəli, ixtiyarlı adam hesab eləyir. Soruşub öyrəndim ki, Bakıda ticarət işində qulluqdadı. Yerevandan gəlir, mal dalınca gedibmiş. Başa düşdüm ki, bu kişi böyük adamlara qulluq göstərmək üçün əldən-ayaqdan gedir. Başladım onu buyurmağa... Gələk o birisinə... uzunsaç oğlana... Bizim rayona gəlib gedir, o məni tanımır, mən onu tanıyıram. Bilirəm ki, rayonda neçə adama kafel, parket filan satıb... Bir balaca işarə vurdum, səsi batdı, çünki gözükölgəlidi. Qorxdu ki, mən doğrudan da böyük adam olaram, işin içindən iş çıxardaram... Qaldı bu şofer – Qasım kişi... Xoşuma gəlir, amma onun da dilini gödək eləyən şeylər var. Tikintidə şoferdi, ikimərtəbəli ev tikdirib, dəmir darvaza-filan. Elə bilirsən maşınında ona-buna daş, sement, nə bilim nə, daşımayıb? Elə bilirsən satmayıb? Vallah daşıyıb, vallah satıb! Sabit qardaş, satışda darvaza dəmiri olmur. Bəs hardan alıb dəmiri o?.. Qatar rəisi, konduktor... elə bilirsən haram tikə yeməyiblər? Gördün ki, günah özlərindədi? Kimin ki özünə inamı yoxdu, kim ki özündən

şübhəlidi, ona xox gəl, dili topuq çalacaq. *Xain xoflu olar, deyiblər.* Canları çıxsın, təmiz yaşasınlar. Bax belə... Amma familiyam, doğrudan da Dadaşovdu.

Sabit Mirzə çaş-baş qalmışdı.

– Axı, özünüzü belə aparmağın nə mənası var? – dedi.

Dadaşovun dodaqları qaçdı, ağappaq, sapsağlam dişləri göründü.

– Eh, Sabit müəllim, – dedi. – Ömründə bircə dəfə rola girmişəm, onu da mənə çox görürsən. Amma sən hər gecə səhnədə rola girirsən... Özü də min adamın cildinə girirsən.

Qasım kişi hər əlində bir şampan butulkası içəri girdi. Stolun üstündə yer yox idi, butulkaları oturacağa qoydu.

Dadaşov qalxdı. Cibindən bir onluq çıxardıb Qasım kişiyə verdi.

– Al, əşi, – dedi, – şampanskilərin puludu. İçmirəm. Sağ olun. Gecəniz xeyrə qalsın!

Dadaşov getdi. Qasım kişi mat-mat Sabit Mirzənin üzünə baxdı.

– Qəribə adamdı bu, – dedi. – Kimdi bu, nəçidi?

Sabit Mirzə bərkdən dedi:

– Çəkməçi! Pinəçi!

Qasım kişi kupenin qapısını tələsik çəkib örtdü.

– Yavaş, sən allah, birdən eşidər, – dedi. Sonra Sabit Mirzəylə üzbəüz oturdu, özü gətirdiyi şampan butulkalarına baxdı. Dadaşovun eşidə biləcəyindən ehtiyat edirmiş kimi astadan dedi: – Yəqin mənim bozarmağımdan inciyib getdi, hə?

Sabit Mirzə cavab vermədi. Başını pəncərənin qırağına söykəyib, təkərlərin taqqıltısına qulaq asa-asa ürəyində: "allah sənə rəhmət eləsin, Məmməd Qaya" – dedi.

*1980*



## ŞEHLİ ÇƏMƏNLƏRİN İŞIĞI

Altmış yaşı tamam olan günü Mirzə evdən çölə çıxmadı; həm qardan-borandan qorxurdu, həm də bazarlıq eləməyə ehtiyac yox idi, onsuz da Mirzənin ad gününə heç kəs gəlməyəcəkdi: arvadı öləndən bəri – beş il idi ki, Mirzə ad gününü keçirmirdi. Əlbəttə, Mirzənin oğlu, gəlini, nəvələri gələcəkdilər – onlarçün yeməyə bir şey tapılar: kolbasa var, pendir var, quru balıq var... peçenye də var – çay içərlər.

Mirzə mətbəxdə bir loğma çörəyi güclə yedi, elə bil boğazı tikilmişdi. Yatağından durandan ovqatı korlanmışdı, fikirləşirdi ki, ömür kitabından altmışıncı vərəq də düşdü – səssiz-səmirsiz düşən bu vərəqə heyfsilənirdi – görəsən axırıncı vərəq deyil ki, bu?

Mirzə pəncərənin qabağına gəldi. Küləyin hirsi-hikkəsi səngimişdi. Ağacların, dirəklərin dibində qar təpələnmişdi, evlərin damı ağappaq idi. Bu ağlığın sonu, nəhayəti görünmürdü. Təkcə səma tutqun idi. Göyün bozluğu qəsəbənin başı üstündə pərdə kimi asılmışdı; hələ axşama çox vardı; ancaq hava alatoran idi. Qırx il idi ki, Mirzə bu diyarın boranına-çovğununa tab gətirirdi, amma Mirzənin ab-havadan belə darıxdığı olmamışdı. Görəsən, bu göyün sinəsi boşalacaqmı? Hələ çox yağacaq: bu ay da, gələn ay da, o biri ay da. Dünyanın hər yerindən qış ayağını çəkəcək, ancaq burda yenə taxtapuşların qırağından sırsıra sallanacaq.

Mirzə bu torpağa ilk dəfə qədəm qoyanda müharibə təzəcə qurtarmışdı, onda Mirzə davanın od-alovunu, cəhənnəmini görmüş cavanca oğlan idi. Ordudan buraxılandan sonra evlərində cəmi bir ay qaldı. Anasına bir şəkil göstərib dedi, yanımda dayanan bu qız Ninadır, gedib bunu gətirməliyəm, ana, izin verin. Arvad şəklə baxdı: əsgər geyimli, göyçək qız başını Mirzənin çiyninə söykəyib elə gülümsəyirdi, elə bil dünyanın ən bəxtəvər adamı idi, elə bil bu şəkli davada yox, toy günündə çəkdirmişdi. Arvad sevindiyindən ağladı, dedi, buna qurban olum, sənə də, izni allah verib, oğul, get gəlinimizi gətir. Mirzənin deyiklisi-filanı yox idi, bu qız onun ilk məhəbbəti, gözünün ilk ovu idi, həm də Mirzə onu bombaların, güllələrin altında, qan-qadanın, ölümün içində tapmışdı – niyə gedib gətirməsin? "Get, bala, get gətir, allah sizi xoşbəxt eləsin. Qoşa qarıyasınız, oğullu-qızlı olasınız. Get gətir, başına dönüm".

Amma Nina gəlmədi. Dedi, faşist köpəyoğlu təhsilimi yarımçıq qoyub, gərək həkim olam mən. Haqq sözə Mirzə nə qulp qoya bilərdi? Gedib daş kömür mədənində işə düzəldi, gözlədi ki, Nina diplomunu alsın.

Sonra Ninanın oğlu oldu, Mirzənin başı qarışdı onu böyütməyə. Oğlan üç yaşına çatanda Nina bir qız doğdu. Rayona qayıtmaq sözünü Mirzə day dilinə gətirmədi... Mirzənin anası oğlunun yolunu gözləyə-gözləyə canını tapşırdı allaha... Gün gəldi, ata da bu dünyadan köçdü. Daha doğma yurdda Mirzənin kimi var, nəyi var? Bir bacı qalıb, o da ərdədi. Həm də məvacibli işi, üz-gözün öyrəşdiyi dost-tanışı, doğmalaşdığın yerləri qoyub hara gedəsən? Həyatını təzədən necə qurasan, necə sahmana salasan? Burda yaxşı motorçu kimi ad qazanıb, sayılan mütəxəssislərdəndir. Zərrə-zərrə qazanılan hörməti birdən-birə heç-puç eləməyə kimin ürəyi gələr? Axı, o yerlərdə Mirzə kimin yadına düşür, kimə lazımdır?

Axşam Mirzə yun şala bürünüb oturdu televizorun qabağında, amma bir gözü qapıda, qulağı səsdə idi. Kaş bir adam girəydi içəri – kim olur-olsun – gəlib sözü, nəfəsi ilə Mirzənin ürəyindəki buzu əridəydi. Nina öləndən bəri bu mənzilin işığı, hərarəti azalmışdı. Nina tez getdi dünyadan. İnsan üçün əlli beş yaş nədir ki? Belə də iş olar: cavanlığında gündə yüz yol ölümün gözlərinə baxasan, onunla gizlənqaç oynayasan, sonra da əlli beş yaşında, dünyanın qulağıdinc vaxtında qəflətən öləsən? Ədalətsizliyə bir bax. Kimə giley eləyəsən, kimdən kimə şikayətlənəsən?..

Mirzənin oğlu gəldi. Gətirdiyi qocafəndi köynəyi dolabçanın üstünə qoyub dedi:

– Təbrik eləyirəm, papa. – Sonra soyuq dodaqları ilə atasının üzündən öpdü, dirənə-dirənə: – Uşaqları evdə tək qoymuşam, – dedi.

Mirzə anladı ki, oğlu elə-belə, atasına ayaqüstə dəyməyə gəlib. Soruşdu ki:

– Bəs arvadın hanı?

Oğlan gözlərini qıyıb stolun üstündəki teleqramı oxudu: "Əziz ata, sənə bu qədər də ömür arzulayıram. Hədiyyəni göndərəcəm. Səni hədsiz sevən qızın Maya". Oğlan teleqramı oxuyandan sonra atasının sualına cavab verdi:

– Lida növbədədir, papa, xəstəxananı qoyub gələ bilməz. İndi nizam-intizam məsələsinə ciddi verirlər, həkimin həddi nədir ki, növbəni buraxıb beşcə dəqiqəliyə harasa getsin.



Mirzə gözlərini televizorun ekranına zilləsə də, orda heç nə görmürdü, elə hey başını yelləyirdi. Qəbri nurla dolsun Ninanın, özü həkim idi, istəyirdi ailədə hamı həkim olsun. Arzusuna çatdı: oğlunu da həkim elədi, qızını da. Xoşbəxtlikdən gəlin də həkimdir. Həkim çox, amma dərd-sər yenə azalmır, Mirzənin canı yenə ağrıyır, Mirzə günü-gündən qocalır.

Kişi köks ötürüb pıçıltı ilə dedi:

– Belə-belə işlər, Anatoli Mirzəyeviç.

Anatoli atasının sözlərini başqa yerə yozdu.

– Sən Lidadan incimə, – dedi. – Lida sənin xətrini çox istəyir. Sabah növbədən çıxan kimi gələcək səni təbrik eləməyə. – Deyəsən, atasının bugünkü ovqatı, xəstə görkəmi, tənhalığı Anatolinin qəlbini ağrıtdı. Oğlan kişinin ağarmış qaşlarına baxıb, yüngülcə ah çəkdi, onun çiynini sığallaya-sığallaya, uşaq ovundururmuş kimi, mülayim səslə danışdı: – Elə bilmə ki, övladların qədirbilməzdilər. Yox, papa, biz sənin yolunda ölümə də gedərik. Neynəyək ki, hamının başı qarışıqdı, hərənin öz qayğısı, vacib işləri var. Sən heç Mayadan da küsmə; bu qarda-boranda üç yüz kilometr yolu necə gəlsin? Körpə uşaqları var, əri hərbiçidir, buraxmırlar, axı.

Oğlunun mütəəssir eləməmək üçün Mirzə gülümsəmək istədi, ancaq təbəssümü dodaqlarının cəvcəsində donub qaldı və Anatoliyə elə gəldi ki, atası ağlamsınır. Oğlu atasının çiynini qucaqladı. İstədi desin ki, "ayıb deyil?", ancaq bircə kəlmə:

– Papa. – dedi.

Mirzə toxtaq səslə:

– Get. Doktor, – dedi, – uşaqlar evdə təkdirlər.

Anatoli atasının o üzündən-bu üzündən üç dəfə öpüb getdi.

Otaq soyuq olmasa da, Mirzə hiss elədi ki, üşüyür, çiynindəki yun şala bərk-bərk büründü. Təzədən baş qaldırıb uğultu-çığırtı ilə özünü daş binalara çırpan hikkəli-qəzəbli küləyin səsinə qulaq asa-asa fikirləşdi ki, bu dünyada insanın yaşamaq, yaratmaq, əlləşib çarpışmaq borcundan savayı bir məcburi, mütləq borcu da var: ölmək! Deyəsən, vaxtdır, axı...

Mirzə qalxıb televizoru söndürdü, ayaqlarını parket döşəmədə sürüyə-sürüyə pəncərənin önünə gəldi. Alaqaranlıq çöldə ağ toz kimi sovrulan qarı görəndə yun şala daha da bərk bürünüb fikirləşdi ki, belə havada ölüb camaata əziyyət vermək heç insafdan, kişilikdən deyil. Bu

an elə bil ürəyinin hansı guşəsindəsə bir şam yandı və bu şam onun yaddaşının zülmətində qalmış uzaq illərin üstünə şəfəq saldı. Mirzə "inqə" çağırıb dünyaya göz açdığı, nə vaxtsa torpağında ayaqyalın gəzdiyi, çəməninin şehində, göyünün yağışında islandığı, bağ-biyabanlarında gəranayladığı diyarı yüngül, işıqlı bir yuxu kimi xatırladı. İndi martın axırıdır, yəqin orada ağaclar çiçək açıb, havadan ətir qoxusu gəlir, quşlar budaqdan-budağa qonub cəh-cəh vururlar, gecələr çaylarda, gölməçələrdə qurbağalar tənbəl-tənbəl quruldayıb adama mürgü gətirirlər.

O gecə Mirzənin yuxusu ərşə çəkildi. Mirzə gözlərini yuman kimi çiçək açmış ağacları, yamyaşıl çölləri gördü, quşların mahnısını, qurbağaların qurultusunu eşitdi. Ömrünün əlçatmaz, ünyetməz çağlarında qoyub gəldiyi bir torpağın ətri dəydi burnuna. Heç olmasa, bircə dəfə üzünü o torpağa sürtmək, canında o torpağın hərarətini duymaq arzusu ilə ürəyinin başı göynədi. Yadına bir bayatı düşdü:

(*Əzizim vətən yaxşı*)
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Bu nədi, görəsən? Mirzənin ürəyinin hansı guşəsində yatıb qalmışdı bu bayatı? Qırx ildə bircə dəfə də dilinə gəlməmişdi. Bu sözləri kim qoşub, kim deyib belə? Yəqin ki, qürbətdə ölüm ayağında olanlar! Qürbətdə olmayan adam hardan bilər ki, "ölməyə vətən yaxşı!"

Bu fikirlər də, bu fikirlərin gətirdiyi ağrılar da Mirzə üçün xoş idi. Mirzə xəyalən körpəliyinə, gəncliyinə, işıqla, günəşlə dolu çağlarına qayıdırdı və bu qaranlıq otaqda Mirzənin ovqatı yavaş-yavaş yaxşılaşırdı. O işıqlı, günəşli çağlarına dönəndə Mirzə tanış, doğma sifətlər içində cizgiləri güclə sezilən ala-tutqun bir sifət də gördü. Mirzənin gözlərinin qabağında sanki duman pərdəsi vardı. Bu ağımtıl pərdə getgedə aydınlaşdı, durulaşdı və Mirzə kinə rəngində, dəmrovlu bir sifət gördü, iri, yorğun gözlər gördü: dipdiri Həsən idi, durmuşdu Mirzənin qarşısında. Bu Həsən kimdir belə, bu Həsən hardan çıxdı? Mirzənin yaddaşının hansı ilməsində qalıb bu Həsən?

Həsən rayona bitişik kənddən idi, orda altı il oxuyandan sonra, nədənsə, çıxıb gəlmişdi rayon mərkəzindəki məktəbə, yeddincini burda, Mirzəgillə bir sinifdə oxuyurdu. Bəlkə ordan bezdirib qaçırtmışdılar,



bəlkə də başqa səbəb vardı – bunu heç kim bilmirdi, heç kim də Həsəndən soruşmurdu. Həsən o qədər yolu hər gün piyada ölçərdi, dərsə bircə dəfə də gecikməzdi. Sakit, arıq oğlan idi. Əyin-başı nimdaş olsa da, təmiz idi. Qədək şalvarı, deyəsən, tez-tez yuyulduğundan həm soluxmuşdu, həm də daralıb gödəlmişdi. Çox vaxt tənəffüslərdə partanın arxasından çıxmırdı, elə bil şalvarının bozluğundan, yöndəmsizliyindən utanırdı. Həmişə yorğun, yuxulu görünürdü. Baxışlarında, nədənsə, bir ürəklik vardı. Həsən pis oxuyurdu. Onun bircə dəfə də dərs danışdığını bu sinifdə görən olmamışdı. Heç kim Həsənlə yaxınlıq eləmirdi, o da heç kimin işinə, söhbətinə qarışmırdı. Sanki sinifdə Həsən adlı oğlan yox idi. Mirzənin arxasındakı partada oturardı Həsən. Mirzənin sağ yanındakı partada isə alagöz, sarışın bir qız oturardı; adı ya Çiçək idi, ya Göyçək... Bu alagöz, sarışın qız Mirzəyə yaman baxardı. Hərdən gülümsəyə-gülümsəyə elə baxardı ki, Mirzə lap utanardı.

Bir gün coğrafiya dərsində Qeysər müəllim əlini xəritənin üstündə gəzdirə-gəzdirə uşaqlara nəyisə başa salmağa çalışırdı. Alagöz, sarışın qız ona qulaq asmırdı, qızın diqqəti Mirzənin yanında idi. Qeysər müəllim bunu görəndə danışığını kəsib qıza tərs-tərs baxdı. Həsən qızı xəbərdar eləmək istədi, "üzünü o yana döndər" dedi. Sarışın qızın qaşlarının ortası düyünləndi və Mirzə dilxor oldu. Həsən belə deməməliydi. Həsən heç cınqırını da çıxartmamalıydı, Həsən kimdir, nə karadır ki, bu göyçək qızı pərt eləyir? Mirzənin ürəyində qəribə bir hiss baş qaldırdı: təəssübkeşlik hissi deyildi bu, üstünlüyünü sarışın qıza və bütün sinfə bildirmək istəyi idi, Mirzənin ağlını yerindən oynadan yalançı qürur idi. Mirzə qalxıb geri çevrildi və sağ əli ilə Həsənə elə bir sillə çəkdi ki, əlinin içi gör-gör göynədi. Şapıltıya hamı başını Həsənə tərəf döndərdi və elə bil hamı indi gördü ki, bu sinifdə Həsən adlı bir oğlan varmış.

Həsənin rəngi elə ağardı ki, üzünün dəmrovu itdi, nazik dodaqları titrədi, nəmli iri gözləri bir az da iriləndi. Həsən pərtlikdən keyidi, nə günahın sahibi olduğunu dərk eləyə bilmədi, qaldı udquna-udquna.

Qeysər müəllim səbirli, təmkinli adam idi, amma – o da eynən Həsən kimi ağarmışdı – qışqırıb Mirzəni sinifdən qovdu.

Bu əhvalatdan sonra Həsən dərsə gəlmədi, day Həsəni görən olmadı, Həsən hamının yadından çıxdı...

Bəs Mirzənin heydən düşən vədəsində Həsən hardan peyda oldu? Onun iri, nəmli gözləri qaranlıq otağın hər künc-bucağından niyə belə biganə baxır görəsən? Birdən Mirzənin sağ əlinin içi gör-gör göynədi,

sanki Həsəni indicə vurmuşdu. Niyə Həsən onda cavabını vermədi Mirzənin? Kaş onda Həsən də Mirzəni vuraydı, lap onun ağız-burnunu qanadaydı, yoxsa indi belə göynəməzdi Mirzə. Görəsən, indi Həsən hardadır? Görəsən, o da davaya getdimi? Ölübmü, qalıbmı?.. Gözləri elə nəmlidirmi?.. Yenə elə ürkəkdirmi?

Səhərə yaxın Mirzənin kirpikləri ağırlaşdı, Mirzə özünü ucsuz-bucaqsız bir bağda gördü, alça, ərik çiçəklərinin ətrini çəkdi sinəsinə, qaranquşların, sığırçınların cəh-cəhini eşitdi: Yuxuya gethagetdə, sayaqlayırmış kimi, pıçıldadı: "Ölməyə vətən yaxşı... vallah, vətən yaxşı..."

* * *

Çamadanın ağırlığından bir çiyni əyilmiş, qaşları ağ kişinin həyətə girdiyini görəndə Güldəstənin qıçları sözünə baxmadı – başladı titrəməyə – havası çatmayan adam təki gözləri dirəndi.

Ağqaş kişi, dodaqları səyriyə-səyriyə gülümsədi:

– Niyə belə baxırsan? – dedi. – Qardaşınam də... Mirzə...

Dizləri bükülhabüküldə Güldəstə: "Ay qardaş!" – deyib bir cikkə çəkdi ki, Mirzənin başının tükləri biz-biz oldu.

Beşcə dəqiqədən sonra qonum-qonşuya duy vuruldu ki, rəhmətlik Salmanın oğlu Mirzə gəlib. Yeniyetmələr, cavanlar key qaldılar: görəsən Mirzə kimdir və hardan gəlib? Amma yaşlılar, ağsaqqallar bilirdilər ki, Mirzə Güldəstənin gözünün ağı-qarası bircə qardaşıdır, özü də qırx ildən çoxdur ki, "dünyanın o başında" – "Dalni Vostok" deyilən yerdə yaşayır, bu eldə bir ocaq yandırmayıb, bir koma qaraltmayıb, bir ağac əkməyib, bu eldə bir namı-nişanəsi yoxdur onun. Görəsən nə olub, nə əhvalat baş verib ki, qırx ildən sonra, yazın çal-çağır vədəsində Mirzənin güzarı bu yerlərə düşüb?

Camaat "Dalni Vostok" sözündə bir sirr-müəmma, soyuqluq, əlçatmazlıq görürdü. Hamı bilirdi ki, "Dalni Vostok" deyilən yer burdan çox-çox-çox uzaqdadır və orda həmişə qar olur, buz olur, gün tez çıxıb, tez batır, həm də oranın günü adamın canını qızdırmır. Buzların içindən gəlmiş Mirzəyə baxmaqçün qonşular axışdılar Güldəstəgilə və gördülər ki, Mirzə solğun bənizli, ortaboylu, arıq bir kişidir. Gördülər ki, Mirzənin saçı da, qaşları da "Dalni Vostok" un qarı kimi ağappaqdır, özü də elə bir suyu bacısına oxşayır; burnu onun burnu kimi nazikdir, gözləri də eynən Güldəstənin gözləri: badamı, qonur...



Yeznə Qədirə xəbər getdi, Qədir "Jiquli"də özünü çatdırdı həyətə. Mirzəni öpüb basdı bağrına, başladı hönkürtü vurmağa, amma görəndə ki, Mirzə ağlamır, o dəqiqə səsini kəsdi...

Hələ Güldəstə qardaşı ilə nəfəs-nəfəsə doyunca oturmamışdı, hələ Güldəstənin uşaqları söz axtara-axtara, dirənə-dirənə danışan dayılarına qıraqdan gözüdolusu baxmamışdılar, hələ qonum-qonşu "Dalni Vostok" dan hal-əhval tutmamışdı – Mirzə dedi ki, qəbiristanlığa getmək istəyirəm.

Yeznə Qədir Mirzənin "Jiquli"yə qoyub, apardı qəbiristanlığa...

Ata-anasının qəbri yan-yana idi. Qəbirlərin torpağı çökmüşdü, yan-yörəsini ot-alaq basmışdı, baş ağacların çürüyüb qaralmışdı. Baxımsızlıqdan pis hala düşmüş bu qəbirləri görəndə Mirzədən çox Qədir utandı. Qədir hazırlaşdı ki, Mirzə ağlasa, o da ağlasın, amma Mirzə ağlamadı və Qədirin xirtdəyinə dirənmiş qəhər o dəqiqə sovuşub getdi.

Mirzə qəbiristanlığa nəzər saldı. Dirilər var-yoxlarından çıxıb, burda ölülərə büsat düzəltmişdilər. Hara baxırdın qara, qırmızı, ağ mərmər idi. Adamboyu başdaşılar, qranitdən yonulmuş büstlər, dəmirdən şəbəkə hasarlar...

Mirzə ata-anasının az qala yerlə yeksan olmuş qəbirlərinə baxdı, sonra qonur gözlərini, nədənsə, Qədirin üzünə zillədi. Qədir tez çöməlib qəbirlərin yan-yörəsindəki alağı yoluşdurmağa başladı. Bir azdan Mirzə də ona qoşuldu və qət elədi ki, günü sabahdan bu qəbirləri sahmana salacaq. Bu qəbirlər sahibsiz deyil, burda yatan kişinin, arvadın oğlu hələ ölməyib. "Gəlmişəm, əzizlərim, gəlmişəm... Bağışlayın ki, gec gəlmişəm".

Anası öləndə də gec gəlmişdi. Tez necə gələydi? Buracıq deyil, oracıq deyil. Mirzə teleqramı alandan sonra hazırlaşıb yola düşənəcən iş-işdən keçmişdi. Mirzə rayona çatanda anasının yeddisini vermişdilər, day başsağlığına gəlib-gedən də yox idi. Evdə təzədən ağlaşma başlandı. Güldəstə qardaşını qucaqlayıb ağı dedi. Onda Güldəstə cavan idi, Qədirlə təzəcə evlənmişdilər. Sən demə, Güldəstənin yanıqlı səsi varmış, elə dil ağladı ki, Qədir özünü saxlaya bilmədi – hönkürdü, nə hönkürdü. Amma Mirzə sanki daş idi, odun idi – dayanıb durmuşdu, elə bil ağlamaq yadına düşmürdü. Bunu görəndə Qədir hönkürtüsünü kəsdi. Gözlərindən hələm-hələm yaş çıxmayan Salman kişi də arxasını həyətdəki tut ağacına söykəyib ağladı. Kişi, deyəsən, arvadının ölümündən çox neçə illik ayrılıqdan sonra oğlunu dədə yurdunda gördüyünə kövrəlib ağlayırdı. Yavaş-yavaş hamı kiridi.

Mirzə gözlərini qollu-budaqlı tut ağacının yoğun gövdəsinə zilləyib, uşaqlığını yadına saldı. Bu ağacın lap təpəsinə dırmanardı, mət kimi ağ tutu dənə-dənə qırıb ağzına atardı. İndi payızdır, ağacın yarpaqları tökülüb, ağac lütlənib, adam buna baxanda kövrəlir. Həm də bu ağac Mirzəyə yəqin ona görə belə qəmli görünür ki, Mirzənin anası ölüb. İndi bu həyətdə gözlərinə dəyən hər şey Mirzəni kədərləndirir, hətta atasının çal saqqalı da, alnındakı dərin qırışlar da... Mirzə boğazını arıtlayıb, deyəsən danışmaq xatirinə atasından soruşdu ki, anam son nəfəsində nə dedi, nə vəsiyyət elədi. Kişi çiyinlərini çəkib, təzədən ağlamaqçün bir himə bənd adamsayağı hüznlü səslə cavab verdi ki, Səmaya rəhmətlik heç nə demədi, vəsiyyət-zad eləmədi, gecə qəflətən keçinib, heç xəbər də tutmamışıq.

İki gündən sonra Mirzə qayıdıb getdi – iş adamı idi, icazə alıb gəlmişdi, burda çox qala bilməzdi.

İndi qəbirlərin alağını təmizləyə-təmizləyə Qədir istədi soruşsun ki, qağa, genə tez qayıdacaqsan? Amma bunun əvəzində başqa söz dedi. Dedi:

– Qağa, başına dönüm, bəs adam el-obasını, qohum-əqrəbasını belə yaddan çıxardar? Ağlamaqdan bacın az qalıb kor olsun. Adın gələndə, inandığım haqqı, Güldəstənin dodaqlarında bir damcı qan qalmır. Mənim sözlərimi danlaq, məzəmmət kimi qəbul eləmə, qurbanım olum. Hər şey bir yana, axı burda sənin atanın, ananın qəbri var. Bu torpaqda sənin doğmaların, əzizlərin yaşayır.

Mirzə bir əlcə yerin alağını təmizləyib heydən düşmüşdü, güclə nəfəs alırdı. Onun badamı, qonur gözlərində dəfolunmaz bir ağrının əzabı görünürdü.

Qədir indicə dediyi sözlərdən peşman oldu.

– Qağa, başına dönüm, yoxsa xətrinə dəydim?

Mirzə dikəldi, yolduğu bir çəngə alağa tövşüyə-tövşüyə baxdı və tövşüyə-tövşüyə Qədirin gözləmədiyi bir söz dedi:

– Ölməyə gəlmişəm, Qədir.

Qədir əlindəki alağı tulladı yerə, ağzını açıb mat-mat Mirzəyə baxdı. Handan-hana:

– Bıy, əşi, səni istəməyənlər ölsün, – dedi və qəhərlənə-qəhərlənə gözlədi ki, yəqin indi Mirzə ağlayıb ürəyini boşaldacaq, amma gördü ki, Mirzə ağlayana oxşamır, çox toxtaqdı, onda Qədir də toxtadı. Dedi: – Qağa, bu nə sözdü danışırsan?

Mirzə yenə tövşüyə-tövşüyə:



– Əcəlim çatıb, – dedi, – amma Güldəstə bilməsin ha. Eşitdin, Qədir? Ölməyə gəlmişəm vətənə. – Yenə ata-anasının qəbrinə baxdı, fikirləşdi ki, günü sabah usta tapıb bu qəbirləri düzəltdirmək lazımdır, yoxsa sonra gec olar.

Mirzə təzədən üzünü matı-qutu qurumuş Qədirə tutub, yorğun-yorğun gülümsədi, solğun bənizinə təbəssüm işığı yayılanda Mirzə o qədər gözəl, yaraşıqlı göründü ki, Qədir onun ölümünə heyfsiləndi, istədi ağlasın. Qəhərdən boğula-boğula:

– Qağa... – dedi.

Mirzə başını qaldırıb tərtəmiz səmaya baxdı. Havanı ciyərlərinə elə çəkdi ki, qansız dodaqları səyridi, elə dodaqları səyriyə-səyriyə də dedi:

– Ölməyə vətən yaxşı, Qədir... vətən yaxşı.

Qəbiristanlıqdan çıxandan sonra Mirzə rayonu, maşınla da olsa, gəzmək, qırx il bundan qabaq qoyub getdiyi yerlərə axırıncı dəfə baxmaq qərarına gəldi. Qədir tələsdi, qorxdu ki, birdən Mirzənin sözü gerçək olar, Mirzə doğma yurdu görməmiş ölər – "Jiquli"ni o küçəyə sürdü, bu küçəyə sürdü, göstərməli nə vardısa, hamısını Mirzəyə göstərdi. Mirzə gördü ki, bura tamam başqa aləmdi, bura onun qoyub getdiyi tozlu-palçıqlı rayon deyil, burda yastı damlardan, qarğı çəpərlərdən əsər-əlamət qalmayıb. Nə araba var, nə arabaçı. Maşınlar belədən eləyə şütüyür, elədən beləyə... Bütün küçələrə asfalt döşənib. Burda daşdan evlər tikilib ki, tamaşasına adam iki göz də borc almaq istəyir. Təzə bazar, təzə xəstəxana, iki mərtəbəli univermaq, mədəniyyət sarayı, musiqi məktəbi... Bunları görəndən sonra arxayın ölmək olar. Amma ölməmişdən əvvəl o iki qəbri abıra salmaq lazımdır. Bir də Həsəni axtarmaq, sağdırsa, tapıb onun könlünü almaq lazımdır, yoxsa Mirzənin sağ əlinin içi o dünyada da gör-gör göynəyəcək. Ondan sonra rayonun ortasındakı bağda, bir palıd ağacının kölgəsində rayonun ortasındakı bağda, bir palıd ağacının kölgəsində oturub doğma yurdun havasından doyunca udmaq və bu torpaqla halallaşmaq olar. Vəssalam! Yox, nə vəssalam? Səhərdən bəri Mirzənin ürəyini didim-didim didən qaranlıq bir məsələ qalır, indi, bu dəqiqə onu aydınlaşdırmasa, Mirzə bu dünyadan nisgilli köçəcək.

Mirzə dedi:

– Qədir, mən bura gələndə dədə-baba evimizə getmək istədim, amma çaşıb qaldım, evi tapa bilmədim, adamlardan soruşmağa da

utandım. Yəni təzə evlərin içində itib-batıb evimiz? İndi kimlər olur orda?

Qədir dodaqlarının qıraqları ilə gülümsəyib, maşını bağın ayağından geri döndərdi.

Rayonu tən yarıya bölən ensiz Qarqar çayının üstündəki dəmir körpüdən keçdilər... Bax, bu çaydan bir az aralıda od dəyirmanı vardı – indi yoxdu. Yerində ikimərtəbəli bina tikilib, deyəsən, idarədi... Sağ yanda gümbəzli hamam olmalı idi. Hanı bəs? "Bizim ev gümbəzli hamamın qabağındaydı".

Qədir maşını saxladı.

– Bu da sizin ev, – deyib gülümsədi. Gördü ki, Mirzə bulud kimi tutulub, o da ciddiləşdi. Dedi: – Ev də adam kimidi: yiyəsiz, baxımsız qalanda tez qocalır... Hökumət dəyərini verib sökdü, yerində də görürsən də...

Evin yerində balaca daş meydança salınmışdı, meydançanın içində söykənəcəkli taxta skamyalar qoyulmuşdu. Lap ortada hovuz vardı. Mirzə gözlərini dibi görünən dayaz hovuza zilləyib soruşdu:

– Bəs tut ağacı hanı? Burda tut ağacı vardı.

Qədir cavab vermədi, fikirləşdi ki, Mirzə qəribə adamdı, atasından o boyda evi yerlə-yeksan olub, yurdu dağılıb, onun dərdini çəkmir, bir qartımış ağac hayındadı...

Qonum-qonşu gecə yarıdan keçəndə dağılışdı. Mirzəni sorğu-suala tutub əldən salmışdılar. Uşaqlar yatışandan sonra otaqda Mirzə, Qədir, bir də Güldəstə qaldı. Güldəstə deyəsən, səhərə qədər Mirzəylə diz-dizə oturmaq fikrində idi. Sandıqdan saralmış bir şəkil çıxardıb:

– Sən yadıma düşəndə buna baxıram, – dedi. – Heç yadımdan çıxırsanmı? Ay tövbə!

Bu şəkil nə vaxtın şəkli idi, görəsən? Burda Mirzə də cavan idi, Nina da, uşaqlar da körpə idilər. Bu şəkli Güldəstəyə kim göndərib? Bu şəkildən Mirzəgildə, deyəsən, yoxdu heç. Mirzə şəkli alıb, arxasına baxdı və öz xəttini tanıdı: "Sevimli ata-anama!" nədənsə, bu sözlərdən zəhləsi getdi. Şəkli bacısına qaytarda və hiss elədi ki, bacısı bu şəkillə bağlı onun nəsə deyəcəyini gözləyir.

Mirzə dedi:

– Heyif Ninadan, yaxşı adam idi.

Güldəstə şəklə zənlə baxa-baxa:

– Gəlinimizi görmək bizə qismət olmadı, – dedi, sonra da əlavə elədi ki: – Maşallah, yaxşı uşaqların var, kuklaya oxşayırlar.



Mirzə gülümsədi:

– İndi day kuklaya oxşamırlar, – dedi, – yekəliblər... Orda Tolikin beş-altı yaşı olar, Maya da ondan üç yaş kiçikdi.

Güldəstə qardaşının qəlbinə dəyməkdən qorxurmuş kimi ehtiyatla danışdı:

– Qurbanım olum, bir nisgil ürəyimi parçalayır, axı. Ayaqlarının altında ölüm, a Mirzə, bəs belə də dərd olarmı ki, sənin balalarının ayağı bu torpağa dəymədi. Balaların bizi tanımırlar, biz də onlara həsrətik.

Mirzə yumruğunu ağzına dirəyib, iki dəfə öskürdü və Güldəstə başa düşdü ki, qardaşı cavab tapmaqda çətinlik çəkir, başa düşdü ki, indi bu söhbətin, bu şikayətin məqamı deyildi.

Güldəstə təzədən şəklə baxıb, kövrələ-kövrələ soruşdu:

– Dərdin mənə gəlsin, qardaş, balların sənə görüm-baxım eləyirlərmi?

Qədir arvadına gözlərini ağartdı, amma Güldəstə ərinin hədəsini vecinə almadı. Qədir gözlərini təzədən zillədi Mirzənin ağzına.

Mirzə gülümsəyə-gülümsəyə dedi:

– Mənim pensiyam onların maaşından çoxdu; bilmirəm nəyə xərcləyim, hara xərcləyim. Hərdən mən onlara görüm-baxım eləyirəm.

Mirzənin gözləri süzülürdü, bənizi bir az da ağarmışdı. Qədir arvadına təpindi.

– Dur, kişinin yerini sal, aaz!

Yatağına uzananda Mirzə bu qərara gəldi ki, sabah Həsəni soraqlasın. Bəlkə Həsənin sümüyü də sürmə olub? Sağdırsa, qoy Mirzəni bağışlasın, ölübsə, qəbri nurla dolsun... Sonra Mirzə nazik adyalı sinəsinə çəkib qulaq verdi ki, qurbağalar indi quruldayar, bir azdan quruldayar. Ha gözlədi, qurbağa qurultusu eşitmədi. Bunlara nə oldu, bunlar hara yoxa çıxdı görəsən? Qurbağa od dəyirmanı deyil, gümbəzli hamam deyil. Salman kişinin evi deyil – sökələr, izi-tozu da qalmaya. Yəni bu həndəvərdə ikicə qurbağa yoxdu ki, ağız-ağıza verib quruldaya?

Huşa gethagetdə Mirzə o biri otaqda nazik bir inilti eşitdi: Güldəstə inildəyirdi. Demək, Qədir dilini dinc saxlaya bilməyib, Mirzənin vətəndə ölmək niyyətini danışıb Güldəstəyə. Eh, ay Qədir, ay Qədir... Dörd övlad atasısan, nəvən də var, saçın-saqqalın ağarıb, amma ağzında su ilinmir.

* * *

Xərcin çoxluğu Mirzəni qorxutmadı, Mirzə Şuşadan boz mərmər gətirdi, qəbirlərin ikisini də eyni biçimdə düzəltdirdi. Ustaya Mirzə özü kömək eləyirdi: qəbiristanlığın ortasındakı hovuzdan su gətirirdi, palçıq qarışdırırdı, amma qəribə idi ki, əvvəlki təki yorulmurdu, təngnəfəs olmurdu, hiss edirdi ki, bədəninə təpər gəlir. Bu gün dəmir şəbəkəni – qəbirlərin hasarını da gətirib qoyacaqdılar və buradakı iş tamam olacaqdı. İşini belə tez qurtarmağı Mirzənin ürəyincə deyildi, ona elə gəlirdi ki. Görəcəyi işlər azaldıqca ölümü yaxınlaşır. Mirzə tez ölmək *istəmirdi, düzünə qalsa, heç ölmək istəmirdi;* bura gəldiyi iyirmi gündə əməlli-başlı dirçəlmişdi. Güldəstə də, Qədir də səhər-səhər yerlərindən duran kimi Mirzəyə baş çəkirdilər, altdan-altdan onun rəng-rufuna fikir verirdilər. Mirzə hər dəfə süfrədəki nemətləri xımır-xımır yeyəndə Güldəstənin qonur gözləri nəmlənirdi. Güldəstə o biri otağa keçib, üzünü tavana tuturdu: "İlahi, kərəminə min şükür, – deyirdi, – bircəcə qardaşımın yanaqlarına qan gəlib. Sənə atam-anam qurban, ya rəbb, mənə qardaş vayı, qardaş dağı göstərmə, mirzədən qabaq mənim canımı al." Güldəstə qardaşının əvəzində ölməyə, doğrudan da, hazır idi, çünki Qədir demişkən, Mirzə axırda oğulluq, övladlıq borcunu başa düşüb, valideynlərinin ruhunu şad eləyib. Hərçənd vaxtı çox ötürüb, amma nə eybi, kişi fərli iş görüb. Ləng tərpənmək, gecikmək, onsuz da Mirzənin keçmiş peşəsidir.

Atası öləndə də Mirzə dəfnə gecikdi. Kişi də payızda köçdü dünyadan. Onda da hava bir az sərintəhər idi, yer-yurd xəzəllə dolu idi, qollu-budaqlı tut ağacı da lümlüt idi. Hər şey anası öləndə olduğu kimi idi, intəhası Salman yox idi bu həyətdə, indi onun əvəzində Qədir kürəyini tut ağacına söykəyib gözləyirdi ki, Mirzə ağlasa, o da ağlasın. Mirzə dodaqlarını çeynəyə-çeynəyə Güldəstənin ağısına qulaq asdı, bulud kimi tutuldu, bıçaq vursaydın Mirzənin bir damcı qanı çıxmazdı, di gəl ki, gözləri nəmlənmədi. Bu Mirzə daşdı, qayadı, ağacdı nədi görəsən? Anası öldü – ağlamadı, atası öldü – ağlamadı. Bəs nə vaxt ağlayacaq bu? Mirzə tut ağacının cadar-cadar gövdəsinə baxdı, ağac qocalmışdı, qurumaqçün bir himə bənd idi. Mirzə fikirləşdi ki, bir də yolu doğma yurda düşsə, şahtutu yerində görməyəcək, yəqin şahtut axırıncı payızını yaşayır. Həyətdəki xəzəl də, indi sahibsiz qalmış ev də ağaclar da adama kədər gətirirdi. Mirzə dərindən ah çəkdi, üzünü Qədirə



tutub, hüznlü səslə soruşdu: "Atam öləndə nə vəsiyyət elədi, nə soruşdu?" Qədir kürəyini ağacın qartımış gövdəsindən araladı, hələ də zümzüməyə ağlayan arvadına baxa-baxa dedi: "Kişi neçə gün səni arzuladı... Rəhmətliyin dilində elə sənin adın idi".

Mirzə iki gündən sonra qayıtdı: icazə almışdı, iş adamı idi, burda çox qala bilməzdi, həm də vaxtının çoxunu yol aparırdı – oracıq deyil, buracıq deyil, get ki, çatacaqsan...

"Jiquli"nin siqnalını eşidəndə Mirzə fikirdən ayrıldı. Gördü ki, qədir maşından düşüb, gülümsəyə-gülümsəyə ona tərəf gəlir.

Qədir dedi:

– Qağa, on iki Həsən tapmışam, amma heç hansı sən axtaran döyül. Çopur Həsən var... Qayqanaq Həsən... Moyka Həsən... Köndələn Həsən... Kukla Həsən... Çoxu da səndən cavandı.

– Mən axtardığım Həsənin üzündə dəmrov vardı.

Təəccübdən Qədirin qaşları dartıldı.

– Başına dönüm, qağa, indiyə dəmrov qalar?

– Rayona bitişik binədən gəlmişdi.

– İndi binə nə gəzir? Rayon addayıb keçib binənin üstündən. Amma tapacam, fikir eləmə, sağdırsa, əlimdən qurtara bilməz.

Mirzə minnətdarlıq yağan baxışlarını Qədirin qaramtıl üzündə gəzdirdi. Qədir necə qayğıkeş, necə istiqanlı adam imiş. Bu ucaboy, arıq kişinin gücünə, təpərinə, fərasətinə bax. Çörək zavodunda işini də görür, bazarlıq da eləyir, həyət bacada da əlləşir, hələ desən, Mirzənin qulluğunda da durur.

Qədir qəbirlərin mərmər sinədaşılarına baxa-baxa dedi:

– Qağa, bunları mən də düzəltdirə bilərdim, amma kürəkən bir ayrı, oğul bir ayrı.

Mirzə yeznəsinə dil-ağız eləmək istəyirdi ki, yük maşınında qəbirlərin hasarını gətirdilər. Dəmir şəbəkə çox böyük idi, içinə dörd beş qəbir sığardı.

Qədir soruşdu:

– Qağa, bu boyda hasar nəyə lazımdı?

Mirzə başını mənalı-mənalı tərpətdi.

– Bəs özüm? – dedi, amma bu fikirdən indi bir az qorxan kimi oldu. Söz ağzından çıxmışdı, dalını gətirməliydi. – Aralarında yer yoxdu, yanlarında yer seçmişəm... Anam tərəfdən... Sağda atam, solda mən, ortada anam...

Adamın öz ölümündən belə arxayın danışa biləcəyi Qədirin ağlına heç cür batmırdı; mirzə elə danışırdı, guya sabah həyət-bacada görəcəyi işi götür-qoy edirdi.

Mirzə gözləri yol çəkə-çəkə:

– Belə-belə işlər, – dedi, sonra özünə gəlib,yan-yörəyə baxdı.

Bahar günəşinin qırmızımtıl-sarı şəfəqi yerə çökmüşdü və bu şəfəqdən yaşıl tər otlar, çiçəklər, ağaclar – hər şey alov rənginə çalırdı. İlıq havadan qızılgül ətri gəlirdi, uzaqda-yaxında quşlar cikkildəşirdi. Mirzə fikirləşdi ki, ilin bu əyyamında ölümdən danışmaq, vallah, axmaqlıqdır

Mirzə rahat köks ötürüb, gözlərindən təbəssüm tökülə-tökülə güzgü təki tərtəmiz göyə baxdı.

Elə bu vaxt yük maşınının sürücüsü – cavan oğlan – Qədiri səslədi.

– Qədir dayı, mənə Həsən məsələsi demişdin ha!

Qədir hələ heyrətdən özünə gəlməmişdi – key-key soruşdu:

– Nə Həsən, ə?!

Oğlan dedi:

– Tapşırmışdın ki, harda Həsən görsəm, sənə xəbər eləyim. Birini tapmışam... Rayona lap yaxındakı kolxozda – "Şəfəq"də işləyir. Mexanikdi... Yaşı altmış olar, familyası da Novruzovdur.

Qədir Mirzənin üzünə baxdı.

– Sənin Həsəninin familiyası Novruzovdu?

Mirzə başını buladı:

– Yadımda deyil.

* * *

Səhərisi gün rayonun yaxınlığındakı kolxoza Mirzə tək getdi.

Uzun talvarın altında çoxlu pambıqyığan maşın vardı, burda adamlar vur-həşirlə işləyirdilər. Mirzə kənardan hamıya göz qoydu, amma axtardığı Həsənə bənzəyən adam görmədi. Həsəni soruşdu. Maşınlardan birinin yanında ortaboy, dolubədən bir kişi qabağa gəlib, əllərini çirkli əskiyə silə-silə:

– Həsən mənəm, – dedi.

Mirzə zəndlə kişiyə baxdı. Yox, əşi, o Həsən hara, bu Həsən hara? O, arıq idi, onun boğazı armud saplağı kimi idi, gözləri də alma boyda. Bu, cantaraqdır, sağlamdır, bunun bilikləri pəhləvan biləklərinə oxşayır, gözləri o qədər də iri deyil.



Mirzə başını bulayıb mızıldandı:

– Bağışlayın, mənə başqa Həsən lazımdı.

Kişi gülümsədi.

– Nə fərqi var? – dedi. – Mən də dünyadakı Həsənlərdən biri. Əgər Həsənə işiniz düşübsə, mən hazır.

Mirzə sağ əlini sinəsinə qoyub:

– Var olun, – dedi. – O Həsən arıq oğlan idi... Üzündə dəmrov vardı... Xəstəhal... Gözləri də...

Kişi, Mirzənin sözünü yarımçıq kəsdi:

– Həsənin oğlanlığından gör nə qədər vaxt keçir. Hər il bircə kilo ətlənsə, bircə qırış dəyişsə...

Mirzə də onun sözünü yarımçıq kəsdi:

– Otuz doqquzuncu ildə biznən yeddinci sinifdə oxuyurdu. İmtahanlara bir ay qalmış çıxıb getdi.

Kişi səsini alçaldıb, gözlərini qıya-qıya dedi:

– Çünki Qeysər müəllimin dərsində sən ona bir sillə vurmuşdun.

Mirzənin içindən bir sızıltı keçdi, sağ əli gör-gör göynədi, dili topuq çaldı.

– Mən... Mənim yanımda... mənnən qonşu bir qız otururdu. Yanımdakı partada... Alagöz, sarıbəniz... Adı da ya Çiçək idi, ya Göyçək.

Həsən:

– Yox, – dedi, – nə Çiçəkdi, nə Göyçək... Adı Qəşəngdi... Gözləri ala.

– Hə.

– Saçları sarı.

– Hə.

– Sən tərəfə çox baxardı.

– Doğrudu.

– İndi mənim arvadımdı o... Matın-qutun qurumasın, həmin Həsən mənəm. Mən səni görən dəqiqə tanıdım.

Mirzənin qıçlarına zəif bir əsməcə gəldi. Mirzə bilmədi Həsənə əl versin, yoxsa qucaqlasın onu.

Həsən özü qucaqladı Mirzəni.

– Xoş gördük! – dedi. – Hərdən yadıma düşürdün. Ürəyimdən keçirdi ki, səni bir görəydim, sənə "sağ ol" deyəydim. Sən onda məni vurmasaydın, mən Qəşənglə evlənməyəcəkdim... Onda gözlərimdən alov püskürdü. Həmin dəqiqə özümə söz verdim ki, Mirzənin acığına bu qızı alacam.

Mirzə, Həsənin qolları arasından çıxıb, onun qabarıq sinəsinə, enli çiyinlərinə nəzər saldı.

– Bir buna bax, – dedi. – onda skeletə oxşayırdı, adam bundan ürpənirdi.

– Onda otuz doqquzuncu il idi, qardaş, indi səksən beşdi. Gör neçə il keçib. – Həsən yaxınlıqdakı maşının yanında işləyən oğlanı göstərib: – Kiçiyimdi, – dedi, – mənə oxşayır?

Mirzə gözlərini qıyıb oğlana baxdı.

– Yox, sarışındı, anasına oxşayır, – dedi və birdən oğlanı səslədi: – Ay bala, onu düz qoymursan! – Mirzə oğlana yanaşdı, açarı ondan alıb özü başladı işləməyə.

Həsən dedi:

– Sən olan tərəflərdə pambıq əkmirlər, bu maşna hardan bələdsən?

Mirzə əllərini Həsənin əlindəki əsgiyə sildi.

– Mən matorçuyam, – dedi. – Daş kömür mədənində cürbəcür maşın var. Davada da tankçı olmuşam. Matorlardan başım çıxır. Davada olmusan?

– Məni qırx dörddə apardılar. Topçu idim, yüngül bir yara da almışam. – Həsən birdən-birə söhbətin səmtini dəyişdi.

– Nə əcəbgüzarın bu yerlərə düşüb?

Mirzə cavabı ləngitdi, istədi desin ki, ölməyə gəlmişəm, ancaq demədi; bilirdi ki, köçünü o dünyaya hazırlayan adama oxşamır. Gördü ki, Həsən gözlərini zilləyib onun ağarmış qaşlarına, – dedi:

– Torpaq çəkib gətirir.

Gecə yatağına uzananda Mirzə canında xoş bir yorğunluq duydu... Yuxuya nə vaxt getdiyindən özünün də xəbəri olmadı...

Obaşdandan siqnal səsinə oyandı. Sonra Qədir artırmadan çağırdı onu:

– Qağa, çöldə səni bir kişi gözləyir!

Mirzə pijamada tez küçəyə çıxdı. Tez də qayıtdı. Şüşəbənddə dayanıb nigaran-nigaran ona baxıb bacısına dedi:

– Həsən "Jiquli"ynən gəlib dalımca. Bir az yemək qoy, aparım, bəlkə gec qayıtdı. Maşınları yığıma hazırlamaq lazımdı... İş çoxdu.

Mirzə otağa keçib paltarını tələm-tələsik dəyişdi. Güldəstənin mətbəxdə bağlama düzəldə-düzəldə ağlamağından xəbəri olmadı.

*Oktyabr, 1985.*



## KİTABIN İÇİNDƏKİLƏR

Sözün ömrü qədər . . . . 4

POVESTLƏR

Evin kişisi . . . . 13
Küçələrə su səpmişəm . . . . 56
Quyu . . . . 91
Dədə palıd . . . . 146
Gümüşgöl əfsanəsi . . . . 205

HEKAYƏLƏR

Oğul . . . . 277
Duz . . . . 280
Talisman . . . . 284
Qatarda . . . . 304
Şehli çəmənlərin işığı . . . . 319

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektor: *Pərinaz Səmədova*

Yığılmağa verilmişdir 05.08.2004. Çapa imzalanmışdır 08.01.2005.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 21. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 4.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.